# Muğam ensiklopediyası

5081

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

HEYDƏR ƏLİYEV FONDU

85.3772
M 80

HEYDƏR ƏLİYEV FONDU

Redaksiya heyətinin sədri,
baş redaktor
*Mehriban xanım Əliyeva*

Redaksiya heyəti:

Arif Babayev
Fərhad Bədəlbəyli
Tofiq Bakıxanov
Firəngiz Əlizadə
Habil Əliyev
Siyavuş Kərimi
Arif Məlikov
Tariyel Məmmədov - məsul redaktor
Vasim Məmmədəliyev
Zemfira Səfərova
Ramiz Zöhrabov

Ensiklopediyanın hazırlanmasında
iştirak etmişlər:

Gülnaz Abdullazadə
Alina Cahangirova
Xalıq Dadaşov
Vaqif Əbdülqasımov
Rizvan Ələsgər
Fərəh Əliyeva
İlqar Əliyev
Mustafa Əliyev
Arif Əsədullayev
Cəmilə Həsənova
Ellada Hüseynova
Hikmət Hüseynov
Şəlalə Hümmətli
Diana Karpova
Nazim Kazımov
Tərlan Qorçu
Cavanşir Quliyev
Oqtay Quliyev
Eldar Mansurov
Leyla Məmmədova
Vamiq Məmmədəliyev
Vəli Məmmədov
Zülfiyə Mövsumova
Möhlət Müslümov
Abasqulu Nəcəfzadə
Ağaverdi Paşayev
Rəna Paşazadə
Dmitri Podzvezdov
Valeh Rəhimov
İrina Tişakova

"Musiqi dünyası"® e-mail: info@musigi-dunya.az
TUTU Design ® e-mail: main@tutubooks.az



*Hörmətli muğamsevərlər!*

*Azərbaycan muğamına həsr olunmuş xüsusi ensiklopediyanın işıq üzü görməsi muğam pərəstişkarlarının həyatında olduqca əlamətdar hadisədir. Əminəm ki, belə bir ensiklopediyanın ilk nəşri ölkəmizin musiqi və elmi ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanacaq, Azərbaycan muğamının qorunub saxlanması, inkişafı və daha geniş şöhrət tapması üçün əlverişli zəmin yaradacaqdır. Ümidvaram ki, bu ensiklopediya ildən-ilə təkmilləşəcək, təkrarən çap olunacaq və muğam aləminin həqiqi bələdçisinə çevriləcəkdir.*

*İki cilddən ibarət olan bu ensiklopediya həm muğamla bağlı ətraflı məlumatları özündə cəmləşdirir, həm də Azərbaycan muğamlarını müxtəlif musiqiçilərin ifasında təqdim edir. Keçən əsrin əvvəllərində ilk dəfə lentə alınmış muğamlardan tutmuş 2007-ci il muğam müsabiqəsinin qaliblərinin çıxışlarına qədər olan yazılar MP3 formatında 20 diskdən ibarət bir külliyyat təşkil edərək həqiqətən də ensiklopedik xarakter daşıyır. Burada təmsil olunan ustad və gənc xanəndələrin yaradıcılığı, muğam dəstgahları və digər əsərlər ilk dəfədir ki, bir yerdə toplanaraq qədim muğam irsimizin dolğun mənzərəsini yaradır.*

*Muğam ensiklopediyasının hər bir cildi, əslində, müstəqil ensiklopediyadır. Qeyd etmək lazımdır ki, muğam özü-özlüyündə elmi və nəzəri təhlil üçün olduqca mürəkkəb bir obyektdir. Onun nota alınması cəhdlərindən tutmuş, muğam ifaçılığı üzrə kanonik dərslik yaratmaq arzularının gerçəkləşməsinədək musiqiçilərin hansı obyektiv çətinliklərlə qarşılaşdığı hamıya bəllidir. Muğamın ovsununa düşmüş əcnəbi musiqişünasların onun rasional təhlil üsulları ilə tədqiqinin mümkün olmaması barədə dönə-dönə söylədikləri fikirlər də mütəxəssislərə yaxşı məlumdur. Məhz bu səbəbdəndir ki, biz oxucunun diqqətinə sanki iki ensiklopediya təqdim edirik. Onlardan biri elmi tədqiqatların bəhrəsi, digəri isə Azərbaycan muğam ustalarının yaratdığı dəyərli musiqi xəzinəsidir.*

*Ensiklopediya artıq çapdan çıxmışdır. Amma hələ də XX əsr ərzində səslənən və ensiklopediyaya daxil ediləcək bir çox muğamın lent yazıları bərpa edilməkdədir. Muğam haqqında elm də mütəmadi olaraq maraqlı tədqiqatlar nəticəsində zənginləşir. Hər axşam ölkəmizin konsert salonlarında, toy məclislərində, el şənliklərində səslənən muğamlar yeni çalarlarla öz sirlərini bizə açır. Bütün bunlar, sözsüz ki, ensiklopediyanın növbəti nəşrlərində öz əksini tapacaqdır.*

*Arzu edərdim ki, ensiklopediyaya daxil olan ifaların sayı gündən-günə artsın, Azərbaycan muğamı öz qədim ənənələrini saxlayaraq yeni səslər, yeni ifalar, yeni yanaşmalarla yeni bir mərhələyə qədəm qoysun. İnanıram ki, növbəti nəşrlər bizim ensiklopediyanı daha da təkmilləşdirib qısa bir zamanda mötəbər çoxcildliyə çevirəcəkdir.*

**Mehriban Əliyeva**
YUNESKO-nun xoşməramlı səfiri

## "Muğam ensikopediyası"ndan necə istifadə etməli.

"Muğam ensiklopediyası" çap nəşrində böyük həcmdə informasiya, 1300-ə yaxın məqalə – muğam sənətilə bağlı terminlərin şərhi, muğam ifaçılarının, bəstəkarların yaradıcılığı haqqında məlumatlar, antik dövrdən müasir dövrə kimi dünyanın böyük alimləri və onların musiqiyə, muğama həsr olunmuş elmi əsərlərinə dair bilgilər, Azərbaycanın və xarici ölkələrin mədəniyyət xadimlərinin muğam haqqında fikirləri, bir sıra təşkilatlarla – musiqi təhsili ocaqları, arxivlər, muzeylər, fondlar, musiqi kollektivləri ilə bağlı məlumat öz əksini tapmışdır.

Ensiklopediyadakı məqalələr – xarici dildə söz və terminlər daxil olmaqla, əlifba sırası ilə düzülmüşdür. Adlar qara hərflərlə göstərilir. Əgər hansısa söz bir neçə mənada açıqlanırsa, o zaman şərhlər ayrıca olaraq, 1., 2. və s. rəqəmlərlə işarələnir.

Başqa dillərdən alınmış terminlərin qısa etimoloji mənası mötərizədə qeyd olunur. Ensiklopediyanın mətnində sözlərin ixtisar edilmiş şəkillərindən istifadə olunmuşdur *(bax: Qəbul edilmiş ixtisarların siyahısı).*

Ensiklopediyada bir məqalədən digər söz və terminlərə istinadlar verilir (həmin sözlər mətndə kursivlə göstərilir). Bu istinadlardan istifadə olunması məqalənin informasiya tutumunu artırmaqla yanaşı, onun daha geniş və əhatəli izahına yardım edir. Bioqrafik məqalələrdə təvəllüd tarixləri bəzi hallarda məlum olmadığı üçün qeyd edilməmişdir.

Ensiklopediyanın tərtibində Azərbaycan Milli Ensiklopediyasından, Əfrasiyab Bədəlbəylinin "İzahlı-monoqrafik Musiqi lüğəti"ndən, "Üzeyir Hacıbəyov Ensiklopediyası"ndan, "Böyük Musiqi Ensiklopediyası"ndan, A.Doljanskinin "Musiqi lüğəti"ndən və s. ensiklopedik nəşrlərdən, elmi tədqiqatlardan, şəxsi arxivlərdən istifadə olunmuşdur.

Ensiklopediyanın sonunda ədəbiyyat siyahısı (biblioqrafiya və notoqrafiya) verilir, bu siyahıya Azərbaycan və xarici müəlliflərin tədqiqatları, şifahi ənənəli musiqi nümunələrinin not nəşrləri daxildir.

## Qəbul edilmiş ixtisarların siyahısı:

**ad.** – adına
**Azərb.** – Azərbaycan
**azərb.** – azərbaycanlı
**ABİ** – Azərbaycan Bəstəkarlar İttifaqı
**ADF** – Azərbaycan Dövlət Filarmoniyası
**ADK** – Azərbaycan Dövlət Konservatoriyası
**ADMİU** – Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
**ADMM** – Azərbaycan Dövlət Musiqi Məktəbi
**ADMT** – Azərbaycan Dövlət Musiqi Texnikumu
**ADOBT** – Azərbaycan Dövlət Opera və Balet teatrı
**AMEA Mİİ** – Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu
**AMEA Əİ** – Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutu
**AMK** – Azərbaycan Milli Konservatoriyası
**AzTRV QSC** – Azərbaycan Dövlət Radio və Televiziya Verilişləri Qapalı Səhmdar Cəmiyyəti
**AzTR** – Azərbaycan Radio və Televiziyası
**BMA** – Bakı Musiqi Akademiyası
**BMK** – Bakı Musiqi Kolleci
**b.** – başqa
**ş.** – şəhər
**ork.** – orkestr
**x.ç.a.** – xalq çalğı alətləri
**r-n** – rayon
**k.** – kəndi
**məs.** – məsələn

# A

**ABASOVA Elmira Əbdülhəmid qızı** (10.01.1932, Bakı) – musiqişünas, əməkdar incəsənət xadimi (1967), sənətşünaslıq namizədi (1962), professor (1980). ABİ üzvüdür (1973 - 1985 illərdə İdarə Heyətinin katibi). ADK-da təhsil almış, 1955 ildən burada "Musiqi tarixi" kafedrasında çalışır (1977-1992 illərdə rektor). E.Abasovanın elmi irsi zəngindir. O, əsasən, *Üzeyir Hacıbəyov* yaradıcılığının tədqiqatçısı kimi tanınmışdır; monoqrafiyaların və elmi məqalələrin müəllifidir: "Üzeyir Hacıbəyovun opera və musiqili komediyaları" (1961), "Üzeyir Hacıbəyov" (1975), "Üzeyir Hacıbəyov. Həyat və yaradıcılıq yolu" (1985) və s. Onun elmi maraq dairəsinə muğam sənəti ilə bağlı tədqiqatlar da daxildir: "Qurban Primov" (1963), "Tarzən Bəhram Mansurov" (1977), "Muğam və Azərbaycan simfonizmi" (həmmüəllif N.Məmmədov, 1974) kimi əsərlərində muğam sənətinin səciyyəvi cəhətlərini və onun bəstəkar yaradıcılığı ilə qarşılıqlı əlaqələrini araşdırmışdır. E.Abasova muğam sənəti ilə bağlı bir sıra beynəlxalq simpoziumların və konfransların iştirakçısı olmuş, məruzələrlə çıxış etmişdir.

**ABBREVİATURA** (italyan: *abbreviatura*; latın: *brevis* – qısa, müxtəsər) – yazının və ya nitqin ixtisar olunması; not yazısındakı ixtisarlar və ya sadələşdirmələr. Abbreviaturanın xüsusi növü *melizm*lərdir. Muğamların və xalq musiqi nümunələrinin not yazılarında geniş tətbiq olunur.

**ABDULLAYEV Ağabala Məmmədbağır oğlu** (1910, Qubadlı r-nu, Çərəli k. - 10.10.1976, Füzuli r-nu) – xanəndə. Qarabağ muğam ifaçılığı ənənələrinin davamçısı olmuş, muğamları ustad sənətkar Seyid Şuşinskidən öyrənmişdir. 1920 illərdən ömrünün sonuna kimi Füzuli r-nunda yaşamışdır. Özünəməxsus istedadı ilə, muğam sənəti sahəsində dərin biliyi ilə fərqlənən xanəndə el şənliklərində, konsertlərdə və teatr səhnəsində fəaliyyət göstərərək püxtələşmişdir. H.Sarabskinin və M.Həşimovun dəvətilə Füzulidə Dövlət Dram Teatrının səhnəsində tamaşaya qoyulan muğam operalarında çıxış etmiş, Məcnun, Kərəm, Əsgər, Sərvər (Ü.Hacıbəyov - "Leyli və Məcnun", "Əsli və Kərəm", "Arşın mal alan", "O olmasın, bu olsun"), Qərib (Z.Hacıbəyov - "Aşıq Qərib") obrazlarını yaratmışdır. A.Abdullayev geniş diapazonlu və zəngin tembrli səsə malik olmuşdur. O, "Zabul Segah" muğamının təkrarolunmaz ifaçısı kimi yadda qalmışdır. Onun xüsusi şövqlə oxuduğu "Zabul Segah", "Rast" muğamlarının, "Qarabağ şikəstəsi" zərbi muğamının səsyazısı AzTR Fondunda saxlanılır. A.Abdullayev həm də təcrübəli müəllim olmuş, böyük bir xanəndə nəsli yetişdirmişdir: İslam Rzayev, Süleyman Abdullayev, Mais Məmmədov, Teymur Mustafayev və başqa xanəndələr muğamın sirlərini A.Abdullayevdən öyrənmişlər.

**ABDULLAYEV Ağaxan Minaxan oğlu** (06.02.1950, Bakı ş., Əmircan k.) – xanəndə, xalq artisti (1998). A.Abdullayevin xanəndə kimi yetişməsində Bakı kəndlərinin özünəməxsus muğam mühiti mühüm rol oynamışdır. A.Abdullayev musiqi təhsilini ADMM-də xanəndə Nəriman Əliyevin sinfində almışdır. Eyni zamanda, o, Azərbaycanın görkəmli xanəndələrinin ənənələrindən bəhrələnmiş və muğam sənətində öz yolunu açan ustad xanəndə kimi tanınmışdır. Xanəndənin ifaçılığı yüksək mədəniyyəti, klassik üslubu və bədii-texniki kamilliyi ilə fərqlənir. Muğam sahəsində geniş biliyi və daimi yaradıcılıq axtarışları onun ifaçılıq sənətində özünü büruzə verir. A.Abdullayevin böyük məharətlə və ilhamla ifa etdiyi muğam-dəstgahlarının səsyazıları AzTR Fondunda saxlanılır. O, həm də ADF-nın solistidir. Bununla yanaşı, o, bir xanəndə kimi pedaqoji və maarifçilik fəaliyyətinə böyük önəm verir. O, 1977 ildən BMK-də muğamdan dərs deyir, gənc xanəndələr nəslinin yetişməsində böyük



*Ağaxan Abdullayev, xanəndə*





əmək sərf edir. Bir çox tanınmış xanəndələrin (Alim Qasımov, Məhəbbət Kazımov və b.) ustadıdır. Eyni zamanda, A.Abdullayev muğam ifaçılığı sənətinə yeni qədəm qoyan gənclərin yaxın məsləhətçisi və sənət müəllimidir. O, dəfələrlə muğam müsabiqələrinin münsiflər heyətinin üzvü olmuşdur.

**ABDULLAYEV Ağasəlim Sahib oğlu** (15.10.1950, Bakı) – tarzən, xalq artisti (2007). Musiqi təhsilini tar ixtisası üzrə 1967-1970 illərdə ADMM-də, 1971-1976 illərdə ADK-da almışdır. Müəllimləri Kamil Əhmədov, Hacı Məmmədov, Səid Rüstəmov olmuşdur. 1970 ildən AzTRV QSC Səid Rüstəmov ad. x.ç.a. ork. solisti olmuşdur. Bu ork. müşayiəti ilə Azərb. bəstəkarlarının tar üçün əsərlərini, o cümlədən tar konsertlərini ifa etmişdir. Həmin lent yazıları AzTR Fondunda saxlanılır. A.Abdullayev 1970 illərdən Baba Salahovun rəhbərlik etdiyi ansamblının konsertmeysteri, 1982 ildən başlayaraq Baba Salahov ad. "Araz" x.ç.a. ansamblının rəhbəridir. Bu ansambl bir çox görkəmli xanəndələri - xalq artistləri Hacıbaba Hüseynov, Şövkət Ələkbərova, Rübabə Muradova, Zeynəb Xanlarova, Sara Qədimova, Əbülfət Əliyev, Yaqub Məmmədov, Ağaxan Abdullayev, Səkinə İsmayılova, Alim Qasımov və b. xanəndələri müşayiət etmişdir. A.Abdullayev, eyni zamanda, solist tarzən kimi tanınmışdır. O, bir çox beynəlxalq müsabiqə və festivalların laureatıdır. 1987 ildə Səmərqənddə keçirilən Muğam simpoziumunun iştirakçısı olmuşdur. Dünyanın bir çox ölkələrində - ABŞ, Kanada, Yaponiya, Fransa, İngiltərə, İspaniya və b., qastrol səfərlərində olmuşdur. A.Abdullayev 40 ildən artıqdır, müəllimlik fəaliyyəti ilə məşğul olur, milli musiqiçi kadrların yetişdirilməsinə böyük əmək sərf edir. AMK-da dərs deyir.

**ABDULLAYEV Ələsgər Baba oğlu** (1866, Şəki - 01.04.1929, Bakı) – xanəndə. Xalq arasında "Şəkili Ələsgər" kimi tanınmışdır. Muğam sənətinin sirlərini xanəndə Keştazlı Həşimdən və Ağabala Ağasəid oğlundan öyrənmişdir. Bakıda fəaliyyət göstərmiş, musiqi məclislərində və "Şərq konsertləri"ndə fəal iştirak etmişdir. Böyük istedada, güclü və zəngin tembrli səsə, özünəməxsus orijinal ifa üslubuna malik xanəndə "Şur", "Çahargah", "Bayatı-Şiraz", "Şüştər" muğamlarını, təsnif və xalq mahnılarını böyük məharətlə ifa etmiş, xüsusilə, "Rahab" muğamının ən gözəl ifaçısı kimi ad qazanmışdı. Onun şöhrəti Azərb. hüdudlarından kənarda da yayılmışdı. O, İranın, Türkiyənin və Orta Asiyanın bir çox şəhərlərində konsertlər vermişdir. Uzun illər tarzən Şirin Axundovun müşayiəti ilə çıxış etmişdir. 1913-1914 illərdə "Sport-Rekord" və "Ekstrafon" səsyazma şirkətləri tərəfindən Tiflis və Kiyev şəhərlərinə dəvət olunmuş və səsi qrammofon vallarına yazılmışdır. Ələsgər Abdullayevin Qurban Primov və Saşa Oqanezaşvilinin müşayiətilə oxuduğu "Çahargah", "Rast", "Mahur-Hindi", "Zabul-Segah", "Rahab", "Şüştər", "Hasar" muğamları və təsnifləri qrammofon vallarında qorunub saxlanılmışdır.

**ABDULLAYEV İslam Əbdül oğlu** (1876, Şuşa - 22.09.1964, Bakı) – xanəndə. Qarabağ muğam ifaçılığı məktəbinin görkəmli nümayəndəsi. Azərb. musiqi tarixində İ. Abdullayev "Segah" muğamının təkrarsız ifaçısı kimi tanınmışdır. "Segah" muğamını və onun bütün variantlarını - "Zabul-Segah", "Mirzə Hüseyn Segahı", "Orta Segah", "Xaric Segah" muğamlarını xüsusi bir şövq və məharətlə oxuduğuna görə xalq tərəfindən "Segah İslam" adlandırılmışdır. İ. Abdullayev Şuşa şəhər məktəbində təhsil almışdır. Musiqişünas alim Mir Möhsün Nəvvabdan, xanəndə Hacı Hüsüdən və Qarabağın bir çox məşhur xanəndələrindən muğamları öyrənmiş, xanəndəlik sənətinə yiyələnmiş və tarzən Mirzə Sadıq Əsəd oğlunun müşayiətilə çıxış etməyə başlamışdır. İ.Abdullayev gözəl və təsirli

*İslam Abdullayev, xanəndə*



səsi, bənzərsiz ifaçılıq qabiliyyəti sayəsində Azərb. və onun hüdudlarından kənarda da məşhurlaşmışdır. 1910-1915 illərdə "Sport-Rekord" və "Ekstrafon" səsyazma şirkətləri tərəfindən İ.Abdullayevin ifasında "Segah", "Bayatı-Qacar", "Şahnaz", "Şüştər" muğamları və bir sıra təsniflər qrammofon vallarına yazılmışdır. İslam Abdullayev gözəl pedaqoq olmuşdur. Xan Şuşinski, Yaqub Məmmədov, Sahib Şükürov kimi xanəndələrin yetişməsində böyük rol oynamışdır. Ömrünün sonuna yaxın Ağdama köçmüş, burada musiqi məktəbində muğamdan dərs demiş, bir çox xanəndələrin ustadı olmuşdur.

**ABDULLAYEV Qasım İbrahim oğlu** (1873, Şuşa - 1927, Şuşa) - xanəndə. Qarabağ muğam ifaçılığı məktəbinin tanınmış nümayəndəsi. "Zabul-Segah" muğamının bənzərsiz ifaçısı olmuş və xalq arasında "Zabul Qasım" adı ilə məşhurlaşmışdır. Şuşada və Bakıda muğam məclislərində, "Şərq konsertləri"ndə çıxış etmişdir. Üzeyir Hacıbəyovun Şuşada tamaşaya qoyulmuş "Leyli və Məcnun" operasında Məcnunun atası rolunu məharətlə ifa etmişdir. 1914 ildə "Sport-Rekord" səsyazma şirkətinin dəvətilə Tiflis şəhərində Qasım Abdullayevin ifasında "Zabul-Segah", "Bayatı-Şiraz", "Hümayun", "Şur", "Mahur-Hindi" muğamları və təsniflər qrammofon vallarına yazılmışdır. Qasım Abdullayev ifaçılıqla yanaşı, müəllimliklə də məşğul olmuş, Şuşada musiqi məktəbində muğamatdan dərs demiş və xanəndələr nəsli yetişdirmişdir.

**ABDULLAYEV Rauf Canbaxış oğlu** (29.10.1937, Bakı) - dirijor, xalq artisti (1992), Azərb. Dövlət mükafatı laureatı (1988), professor (1982). ADK-nı (1959) və Leninqrad Dövlət Konservatoriyasını (1965) bitirmişdir. Ü.Hacıbəyov ad. Azərb. Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijorudur (1988-1990, 1998 - bu günə qədər), ADOBT-nın dirijoru (1968-1988), Ankara Opera və Balet Teatrının baş dirijoru (1990-1995) olmuşdur. Repertuarında Azərb. bəstəkarlarının simfonik əsərləri, o cümlədən, simfonik muğamlar mühüm yer tutur.

**ABDULLAYEV Sabir Əli oğlu** (15.04.1957, Ağdam r-nu, Zəngişalı-Mahrızlı k.) - xanəndə. Qarabağ muğam ənənələrinin davamçısı. Kiçik yaşlarından qardaşı xanəndə Vahid Abdullayevdən və görkəmli Qarabağ xanəndələrinin ifasında qrammofon vallarından muğamları öyrənmiş, professional təhsilini Bakıda ADMM-də muğam ustadı Nəriman Əliyevin sinfində almışdır. Xanəndənin yaradıcılıq yolu 1980 illərdən başlayır. Öz repertuarında bütün klassik muğamlara müraciət edən xanəndə "Segah" muğamını xüsusi şövqlə ifa edir. S. Abdullayev həm də yaxşı pedaqoq kimi tanınır. 1986 ildə ilk dəfə olaraq Bakıda 9 saylı Cabbar Qaryağdıoğlu ad. musiqi məktəbində xanəndəlik sinfi açmışdır. Onun yetirmələrinin sorağı beynəlxalq müsabiqələrdən gəlir. Dünyanın bir çox ölkələrində Sabir Abdullayevin rəhbərlik etdiyi gənc muğamatçılar ansamblı Azərb. musiqisini təmsil etmişdir. Amerikada gənc ifaçıların səsi diskə yazılmışdır. S. Abdullayev bu gün də xanəndələr nəslinin davamçılarına muğamları tədris edir, həm musiqi məktəbində, həm də BMK-də Azərb. muğam sənətinin inkişafı yolunda biliyini və sənətkarlığını əsirgəmir. Tələbəsi Güllü Muradova "Muğam-2007" televiziya müsabiqəsinin qalibi olmuşdur.

**ABDULLAYEV Süleyman Cümşüd oğlu** (14.02.1939, Füzuli r-nu, Qoçəhmədli k.) - xanəndə. Qarabağ muğam ənənələrinin davamçısı. Həsən bəy Zərdabi ad. Dünya Azərbaycanlıları Xeyriyyə Cəmiyyətinin "Qızıl səs" medalına layiq görülmüşdür. S. Abdullayev uşaqlıqdan öz musiqi istedadı və gözəl, ürəyəyatımlı səsi ilə məşhurlaşmış, xalqın sevimlisinə çevrilmişdir. 1959 ildə istedadlı musiqiçilər sorağıyla Füzuliyə gələn böyük xanəndə Seyid Şuşinski Süleyman Abdullayevin səsini yüksək qiymətləndirir və onu professional təhsil almaq üçün Bakıya dəvət edir. 1960-1964 illər ərzində S. Abdullayev ADMM-də Seyid Şuşinskinin sinfində bütün muğam dəstgahlarını tam şəkildə öyrənərək, muğam ifaçılığının sirlərinə yiyələnir. 1964 ildən ADF solisti kimi geniş konsert fəaliyyətinə başlayır, x.ç.a. ansamblları ilə çalışır. S. Abdullayev 1969 ildə Türkiyənin İstanbul şəhərində keçirilən ümumdünya festivalının qalibi olmuşdur. Dünyanın bir neçə ölkəsində konsert proqramları ilə çıxışlar etmişdir. Seyid Şuşinskinin ənənələrini yaşadan S. Abdullayev, eyni zamanda, özünəməxsus ifaçılıq üslubu, oxuma tərzi, bir çox muğamların yadda qalan təfsiri ilə tanınır. S. Abdullayev zəngin tembrli, yüksək registrli səsə malik xanəndədir. O, ifa etdiyi muğamda sözün düzgün tələffüzünə, qəzəlin mənasının dinləyiciyə çatdırılmasına çalışır. Buna görə də onun ifa etdiyi muğam dəstgahları yeni cizgilər kəsb edir. S.Abdullayevin ifasında "Segah", "Dəşti", "Çahargah", "Şur" muğam dəstgahlarının lent yazıları AzTR Fonduna daxil olmuşdur. Xanəndə oxuduğu muğamlarda klassik şairlərin - Füzulinin, S.Ə.Şirvaninin, Vahidin qəzəllərinə müraciət edərək, xüsusilə, vətən haqqında şerlərə üstünlük verir.







*Orta əsrlərin miniatüründə dəf, çəng, tənbur və s. musiqi alətlərinin təsviri*

Öz sənəti ilə böyük bir elin müdrik ağsaqqalı kimi sevilən S. Abdullayev xalq tərəfindən "Dədə Süleyman" deyə çağırılır.

**ABDULLAYEV Vahid Əli oğlu** (01.06.1948, Ağdam r-nu, Zəngişalı-Mahrızlı k. - 08.01.2001, Bakı) - xanəndə. Qarabağ xanəndəlik məktəbinin klassik ənənələri üzərində XX əsrin ikinci yarısında yetişmiş nəslinə mənsubdur. Qarabağın zəngin musiqi həyatı onun sənət yolunun müəyyənləşməsində mühüm rol oynamışdır. Rəngarəng çalarlı gözəl səsə malik Vahid istedadı və zəhmətsevərliyi sayəsində bir çox muğam və təsnifləri öyrənmişdi. Professional musiqi təhsilini ADMM-də almışdır. Müəllimi Nəriman Əliyevdən xanəndəlik sənətinin sirlərini, bütün klassik muğamları öyrənmiş, təhsilini başa vurduqdan sonra isə özü də böyük bir xanəndə nəsli yetirmişdir. Onun tələbələrindən xalq artistləri Qəndab Quliyeva, Mənsum İbrahimov bu gün Qarabağ xanəndəlik məktəbinin ənənələrini layiqətlə davam etdirirlər. Vahid Abdullayevin ifasında bir çox muğamlar Azərb. musiqi xəzinəsinə daxil olmuş, xüsusilə, "Bayatı-Şiraz", "Zabul-Segah" muğam-dəstgahları və "Qarabağ şikəstəsi" zərbi muğamı bənzərsiz ifaçılıq xüsusiyyətləri ilə diqqəti cəlb etmişdir. V. Abdullayev ADF-nın solisti kimi Baba Salahovun rəhbərliyi altında x.ç.a. ansamblı ilə çox çıxış etmişdir. V. Abdullayevin qardaşları və övladları da xanəndəlik sənətini davam etdirərək, ailə ənənəsi yaratmışlar.

**ABDULLAYEVA Səadət Abutalıb qızı** (18.01.1940, Bakı) - musiqişünas, sənətşünaslıq doktoru (2006), professor (2004). ABİ üzvüdür. ADK-nın Azərb. xalq musiqisi ixtisası üzrə ilk məzunlarındandır (1962). 1971 ildən ADK-da (BMA), "Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi" kafedrasında çalışır. Azərb. xalq musiqi yaradıcılığı və çalğı alətləri sahəsində aparıcı mütəxəssislərdəndir. İlk dəfə olaraq o, Azərb. yayılmış x.ç.a.- nin inkişaf tarixini, musiqi-akustika xüsusiyyətlərini, quruluşunu və s. öyrənmiş, Azərb. x.ç.a. üçün orkestrləşdirmənin metodik əsaslarını işləmişdir. "Azərbaycan xalq çalğı alətləri" (1972), "Müasir Azərbaycan xalq çalğı alətləri" (1984), "Azərbaycan xalq çalğı alətlərinin tarixşünaslığı" (1991), "Azərbaycan xalq çalğı alətləri və orkestrləşdirmə" (həmmüəllif S.Ələsgərov, 1996), "Azərbaycan xalq çalğı alətləri. Musiqişünaslıq və orqanoloji tədqiqat" (2002), "Azərbaycan folklorunda çalğı alətləri" (2007) kitablarının müəllifidir.

**ABDULLAZADƏ Gülnaz Abutalıb qızı** (07.09.1946, Bakı) - bəstəkar, əməkdar incəsənət xadimi (2007), fəlsəfə elmləri doktoru (1990), professor (1992). ABİ üzvüdür. ADK-nı bəstəkarlıq ixtisası üzrə bitirmişdir (C.Hacıyevin sinfi, 1971). 1990 ildən BMA-nın elm və yaradıcılıq işləri üzrə prorektorudur. G. Abdullazadənin elmi yaradıcılığı genişdir. Musiqi estetikası ilə bağlı problemlərin tədqiqi alimin elmi əsərlərinin əsas məğzini təşkil edir. G. Abdullazadə

ilk dəfə olaraq qədim və orta əsrlərin musiqi mədəniyyətinin tarixi-fəlsəfi, estetik mahiyyəti, həmçinin Qərb-Şərq problemi kontekstində fundamental tədqiqatlar apararaq muğamın fəlsəfi anlamını üzə çıxarmışdır. G. Abdullazadə "Azərbaycan muğamlarının fəlsəfi mahiyyəti" (1983), "Musiqi sənətinin fəlsəfi mahiyyəti" (1985), "Musiqi, insan, cəmiyyət" (1991), "Qədim və Orta əsrlərin musiqi mədəniyyəti" (1996) və s. monoqrafiyaların müəllifidir. O, Səmərqənddə, Moskvada, Ankarada, Ərzurumda, İzmirdə keçirilən bir sıra beynəlxalq konfransların və simpoziumların iştirakçısı olmuşdur.

**AÇAR** - Not yazısında hər bir not sətrinin əvvəlində qoyulan şərti işarədir. Açar not sətrində yazılan müəyyən bir notun yüksəkliyini və adını təyin edir. Bununla da həmin not sətrində yerləşən digər notların yazılması və oxunması üçün yol açılır.

Not yazısında açar üçün oriyentir olaraq üç səsdən istifadə olunur: a) kiçik oktavanın fa səsi - Bas açarı; o cümlədən, Fa sisteminə aid olan açarlar bunlardır: basprofund açarı, bariton açarı. b) birinci oktavanın sol səsi - Skripka açarı (və yaxud kaman açarı); o cümlədən, Sol sisteminə aid olan açar - qədim fransız açarı. c) birinci oktavanın do səsi - Alt açarı; o cümlədən, Do sisteminə aid olan açarlar - Soprano açarı, Messo-soprano açarı, Tenor açarı, Bariton açarı.

Azərb. x.ç.a.-ya not sistemi 1930 illərdə Üzeyir Hacıbəyov tərəfindən tətbiq olunmuşdur. Tar üçün əsərlər do sistemində messo-soprano açarında notlaşdırılır. Kamança üçün isə sol sistemində kaman açarından istifadə olunur. Not sisteminin tətbiqi sayəsində notla çalan orkestr yaradılmış, xalq musiqi alətlərinin simfonik orkestrə daxil edilməsi mümkün olmuşdur ki, bu da həm musiqi təhsilini, həm bəstəkar yaradıcılığını, həm də x.ç.a.-nin ifaçılıq imkanlarını genişləndirmişdir.



Skripka açarı Bas açarı Messo-soprano açarı

**ADIGÖZƏLOV Vasif Zülfüqar oğlu** (28.07.1935, Bakı - 15.09.2006, Bakı) - bəstəkar, ictimai xadim, əməkdar incəsənət xadimi (1973), xalq artisti (1989), professor (1990). Azərb. Dövlət mükafatı laureatı (1991). "Şöhrət" (1995) və "İstiqlal" (2005) ordenləri ilə təltif olunmuşdur. ADK-da iki ixtisas - bəstəkarlıq (Qara



*Vasif Adıgözəlov, bəstəkar*

Qarayevin sinfində) və fortepiano ixtisası üzrə (Simuzər Quliyevanın sinfində) təhsil almışdır (1953-1959). 1972 ildən ADK-da çalışmış, "Xalq çalğı alətləri üzrə orkestrləşdirmə və dirijorluq", daha sonra "Xor dirijorluğu" kafedrasının müdiri olmuşdur. 1990-2006 illərdə ABİ-nın birinci katibi olmuşdur. V.Adıgözəlovun dəstxəttində muğam sənətilə dərin bağlılıq özünü büruzə verir. Bəstəkar musiqinin müxtəlif janrlarında əsərlər bəstələmişdir. V. Adıgözəlov 4 simfoniyanın, 2 operanın, 5 musiqili komediyanın, 6 instrumental konsertin, 4 oratoriyanın, 3 kantatanın, kamera-instrumental musiqinin, kino və teatr musiqisinin, romans və mahnıların müəllifidir. Onun yaradıcılıq irsində muğamdan bəhrələnərək yazdığı "Ölülər" və "Natəvan" operaları, "Qarabağ şikəstəsi" oratoriyası, "Segah muğam simfoniyası", orqan üçün "Muğam-fantaziya" xüsusi yer tutur.

**ADIGÖZƏLOV Yalçın Vasif oğlu** (04.11.1959, Bakı) - dirijor, əməkdar incəsənət xadimi (2007), professor (2008). ADK-da fortepiano fakültəsində (1978-1982), Leninqrad Dövlət Konservatoriyasında opera-simfonik dirijorluğu ixtisası üzrə (İ.A. Musinin sinfi, 1984-1989) təhsil almış, Vyana Musiqi Akademiyasında professor Karl Esterrayxerin yanında təcrübə keçmişdir (1991-1992). Y.Adıgözəlov 1991-1998 illərdə Ü.Hacıbəyov adına Azərb. Dövlət simfonik orkestrinin bədii rəhbəri və baş dirijoru vəzifəsində çalışmışdır. Y. Adıgözəlovun repertuarı klassik və müasir bəstəkarların simfonik və opera əsərlərindən ibarətdir. O, V.Adıgözəlovun əsərlərinin - "Qarabağ şikəstəsi" və





"Çanaqqala" oratoriyalarının, "Segah simfoniyası"nın, "Natəvan" operasının ilk ifaçısı olmuşdur. Onun repertuarında Niyazinin "Rast" simfonik muğamı xüsusi yer tutur. 2007 ildə bu əsər əsasında "*Avazı xoş ulu muğam*" konsert layihəsini musiqi ictimaiyyətinə təqdim etmişdir.Y.Adıgözəlov bir dirijor kimi mütəmadi olaraq qastrol səfərlərində çıxış edir.

**ADIGÖZƏLOV Zülfi (Zülfüqar) Səməd bəy oğlu** (1898, Şuşa ş. Qaradolaq k. - 31.05.1963, Bakı) - xanəndə, əməkdar artist (1943). Qarabağ muğam ifaçılığı məktəbinin görkəmli nümayəndəsi. İlk təhsilini Ağcabədidə almışdır. Uşaqlıqdan gözəl səsi ilə xalqın qəlbinə yol tapdığına görə hamı onu məhəbbətlə "Zülfi" deyə çağırırdı.Onun bir xanəndə kimi yetişməsində Məşədi Cəmil Əmirovun, Musa Şuşinskinin, Cabbar Qaryağdıoğlunun və Qurban Primovun böyük rolu olmuşdur. Qarabağ və Gəncə muğam məclislərində tanınan Zülfi Adıgözəlov 1927 ildə Cabbar Qaryağdıoğlunun təklifi ilə Bakıya gəlmiş, ADF-nın solisti kimi fəaliyyət göstərmişdir. Filarmoniya gənc xanəndənin inkişafında əsl sənət məktəbi olur. O, burada görkəmli xanəndələrdən muğamatın sirlərinə yiyələnir və tezliklə püxtələşmiş bir xanəndəyə çevrilir. Eyni zamanda, Azərb. Radiosunda konsert proqramlarında, opera səhnəsində tamaşalarda (1929-1932) iştirak etmişdir. Z.Adıgözəlovun repertuarı, əsasən, muğam və

*Zülfi Adıgözəlov, xanəndə*



təsniflərdən ibarət idi. O, bütün muğamları böyük ustalıq və həvəslə oxumuşdur. Onun "Zabul Segah", "Orta segah", "Mahur-Hindi" muğamları dinləyiciləri riqqətə gətirirdi. Zülfi Adıgözəlov muğamları pəstdən (aşağı registrdə) xüsusi məlahətlə və məharətlə oxumuşdur. Xüsusilə, "Rast" muğamını o, bənzərsiz bir üslubda yaratmış, bununla da musiqi tarixinə "Rast" muğamının ən mükəmməl ifaçısı kimi daxil olmuşdu. Zülfi öz təkrarolunmaz ifaçılıq məharəti ilə "Rast" muğamına romantik vüsət vermişdi. Onun ifasında "Rast" muğamı bənzərsiz sənət əsəri kimi lent yazılarında qorunur. Təsnif və xalq mahnılarını da o, çox təsirli oxuyurdu. Onun ifasında "Bir cüt sona", "Nəbi", "Dedim, bir busə ver", "Kəklik" mahnıları, "Gedirəm, axı" təsnifi böyük ustalıqla yaradılmış sənət əsərinə çevrilirdi. Z.Adıgözəlov klassik xanəndələrin zəngin təcrübəsini öyrənərək, onların ənənələrindən yaradıcı şəkildə bəhrələnmiş və sənətdə öz üslubunu yaratmışdır. Bütün bu yaradıcılıq məziyyətləri Z.Adıgözəlovu dinləyicilərə sevdirmiş, təkcə Azərbaycanda deyil, Rusiya və İranın bir çox şəhərlərində öz sənəti ilə pərəstişkarlarını sevindirmişdir. Zülfi Adıgözəlov həm də müəllim kimi bir çox istedadlı xanəndələr yetişdirmişdir. Zülfi Adıgözəlovun övladları da onun muğam aləmindən qidalanaraq, özlərini musiqiyə həsr etmişlər. Böyük oğlu xalq artisti, professor Vasif Adıgözəlov görkəmli bəstəkar kimi respublikamızın musiqi mədəniyyətində önəmli yer tutmuşdur. Kiçik oğlu əməkdar incəsənət xadimi Rauf Adıgözəlov isə mahir skripkaçı və müğənni idi. Nəvəsi əməkdar incəsənət xadimi, professor Yalçın Adıgözəlov dirijordur.

**ADİL GƏRAY Heybətqulu oğlu Məmmədbəyli** (13.05.1919, Bakı - 13.12.1973, Bakı) - tarzən, dirijor, bəstəkar, pedaqoq, əməkdar artist (1959). ADMM-ni bitirmiş (1940), ADK-nın xalq musiqisi şöbəsində oxumuşdur (1940-1948). Tar ixtisası üzrə Üzeyir Hacıbəyovun tələbəsi olmuşdur. Muğam dərslərini tarzən Əhməd Bakıxanovdan almışdır. 1937 ildən Hüseynqulu Sarabskinin sinfində müşayiətçi, 1938 ildən AzTR-nın orkestrində konsertmeyster kimi çalışmışdır. 1940 ildən, eyni zamanda, ADMM-də tar ixtisası üzrə müəllim kimi fəaliyyət göstərmişdir. O, bir çox məşhur tarzənlərin müəllimi olmuşdur. Tar üçün bir sıra əsərlərin, o cümlədən, "Tar üçün etüdlər"in, "Bağçakürd", "Qaytağı", "Cəngi", "Səfi-kürd", "Şahnazsayağı", "Gülüstan" pyeslərinin, mahnıların, "İbtidai məktəb üçün nəğmələr məcmuəsi"nin və s. əsərlərin müəllifidir. Onlar tədris və konsert repertuarında layiqli yer tutur. "Tar üçün etüd-

lər" məcmuəsində yeddi muğam - "Rast", "Şur", "Segah", "Çahargah", "Bayatı-Şiraz", "Mahur-Hindi", "Şüştər" muğamları əsasında etüdlər bəstələmişdir. Bu etüdlər muğam ifaçılığında mühüm əhəmiyyətə malik olan və tarda muğamın tədrisinin əsası sayılan rəngarəng ritmik fiqurasiyalar üzərində qurulmuşdur. Məcmuənin redaktoru və ön sözün müəllifi Ü.Hacıbəyovdur. Bu məcmuə bu gün də tar tədrisində geniş istifadə olunur.

**AĞABALA Ağasəid oğlu** (1860, Bakı - 1928, Bakı) - xanəndə. XIX əsrin sonu - XX əsrin əvvəllərində Bakıda yaşayıb-yaratmış məşhur xanəndə, muğam bilicisi. Gənc yaşlarından şeirə, musiqiyə böyük həvəs göstərmiş, fars dilini mənimsəyərək, Yaxın Şərqin poeziya inciləri ilə tanış olmuşdur. XIX əsrin 80 illərində Bakıda yaradılan və şair Ağakərim Salikin evində toplanan "*Məcməüş-şüəra*" ədəbi məclisinin şeir və musiqi ilə müşayiət olunan, poeziya və muğam barədə maraqlı müzakirələr keçirilən yığıncaqlarında böyük həvəs və maraqla iştirak etmiş və bütün bunlar onun sənətkarlığının inkişafına böyük təsir göstərmişdir. Muğamları xüsusi bir yaradıcı şövqlə oxuyan Ağabala Ağasəid oğlu, əsasən, muğam məclislərində çıxış edirdi. Ağabala Ağasəid oğlu savadlı, şeiri, musiqini bütün varlığı ilə sevən, onu qiymətləndirən, məlahətli səsə malik bir xanəndə olmuşdur. Onun yaradıcılıq dəst-xəttinin başlıca xüsusiyyəti söz seçmək, onu dinləyiciyə aydın çatdırmaq bacarığı idi. O, sözə adamları düşündürmək, ruhlandırmaq məqsədi ilə müraciət edir, ifa zamanı kəlmə və ifadələri aramla, musiqi cümləsinin tempinə və xarakterinə uyğun oxuyurdu. "Bayatı-Şiraz", "Rast", "Şur", "Segah-zabul" muğamlarını olduqca təsirli oxumuşdur. Xanəndə Şirin Axundov, Mansur Mansurov, Əhməd Bakıxanov, Mirzə Fərəc Rzayev kimi tarzənlərin müşayiətilə çıxış etmişdir.

**AĞAC DİRƏK** - bəzi simli alətlərdə rezonans qutusunun içində yerləşdirilən kiçik taxta parçası.

**AĞAYEVA Xurşid Həsən qızı** (20.04.1906, Bakı - 03.12.1953, Bakı) - İlk azərb. qadın musiqişünas, əməkdar incəsənət xadimi (1943). ADK-nı bitirmişdir. 1923 ildən Azərb. Dövlət Türk Musiqi məktəbində, 1926-33 və 1940-1953 illər ərzində ADK-da dərs demişdir (1944-1945 illərdə prorektor). Ü.Hacıbəyov haqqında ilk monoqrafiyanın ("Üzeyir Hacıbəyov" (Bakı, 1955), müasir Azərb. musiqisi haqqında məqalələrin müəllifidir.

**AĞDAMSKİ (Bədəlbəyli) Əhməd Bəşir oğlu** (05.01.1884, Şuşa - 01.04.1954, Ağdaş) - opera artisti (*lirik tenor*), əməkdar incəsənət xadimi (1943). Azərb. musiqi tarixinə qadın rollarının ən məşhur ifaçısı kimi daxil olmuşdur. Ə.Ağdamski kiçik yaşlarından teatr həvəskarları dərnəklərində və xalq mərasim tamaşalarında iştirak etmiş, aktyor kimi püxtələşmişdir. Ə.Ağdamski həm də gözəl musiqi duyumuna və məlahətli səsə malik olmuş, muğamları da dərindən mənimsəmişdir. Səhnə fəaliyyətinə 1910 ildən "Nicat" xeyriyyə cəmiyyətinin teatr truppasında başlamışdır. XX əsrin əvvəllərində Azərbaycanda qadın artistləri olmadığına və azər. qadınların səhnəyə çıxması yasaq hesab edildiyinə görə qadın rollarını kişilər ifa edirdilər. Ə.Ağdamski, əsasən, Azərb. muğam operalarında və musiqili komediyalarında qadın rollarında çıxış etmişdir. Ü.Hacıbəyovun əsərlərində Leyli ("Leyli və Məcnun"), Əsli ("Əsli və Kərəm"), Gülnaz ("O olmasın, bu olsun"), Gülçöhrə ("Arşın mal alan"), Minnət xanım ("Ər və arvad"), Təhminə ("Rüstəm və Söhrab") rollarının ifaçısı olmuşdur. Sonralar kişi rollarında həm operada, həm də dram tamaşalarında çıxış etmişdir. 1921 ildən ömrünün sonuna kimi pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

**AHƏNGDARLIQ** - *bax: Harmoniya*

**AXUNDOV Nadir Əbdüləhəd oğlu** (26.02.1917, Bakı - 16.11.1960, Bakı) - klarnet ifaçısı, milli musiqi bilicisi. Ə. Bakıxanovun rəhbərliyi altında x.ç.a. ansamblında çalışmış, solist kimi də fəaliyyət göstərmişdir. "Sarənc" muğamının ən mahir ifaçısı sayılır. N. Axundov bu muğamın ifasına yeni cəhətlər gətirmiş, onu bəm registrdə (xanəndələr bu muğamı zildə oxuyurlar) ifa edərək, səs və çalğı aləti arasında özünəməxsus dialoq yaratmışdır. Ondan sonra milli nəfəs alətləri ifaçılığında bu bir ənənəyə çevrilmişdir. N. Axundovun ifasında "Şur", "Bayatı-Qacar", "Bayatı-kürd" instrumental muğamları AzTR Fondunda saxlanılır.

**AXUNDOV Şirin Məşədi Hüseyn oğlu** (1878, Salyan - 28.10.1927, Bakı) - tarzən. Sadıq Əsəd oğlunun tar ifaçılığı məktəbinin davamçısı olmuşdur. Xalq arasında "Səlyanlı Şirin" kimi çağırılırdı. Öz dövrünün məşhur muğam ustadlarından tar ifaçılığının və muğam sənətinin sirlərinə dərindən yiyələnmişdi. O, əsasən müşayiətçi tarzən kimi tanınmışdı. Bir çox xanəndələrlə sənət yoldaşı olmuş, Cabbar Qaryağdıoğlunu, Məşədi Məmməd Fərzəliyevi, İslam Abdullayevi, Seyid Şuşinskini və başqalarını müşayiət etmişdir. Ş. Axundov 1903 ildən





başlayaraq, uzun illər boyu görkəmli xanəndə Ələsgər Abdullayevlə birgə çalışmışdır. Bu ansamblın məclislərdə və konsertlərdə çıxışları böyük rəğbətlə qarşılanır və muğam biliciləri tərəfindən yüksək qiymətləndirilirdi. Onların ifasında qrammofon vallarında bir neçə səsyazısı yadigar qalmışdır: 1914 ildə Macarıstanın "Premyer-Rekord" səsyazma şirkəti tərəfindən "Çahargah", "Mirzə Hüseyn Segahı", "Hasar", "Müxalif" muğamları vala yazılmışdır. Bundan əlavə, Ş. Axundov İslam Abdullayevin oxuduğu muğam və təsnifləri də müşayiət etmişdir. Ömrünün son illərində Ş. Axundov müəllimliklə məşğul olmuş, musiqi məktəblərində çalışmış, fəhlə klubunda tar dərnəyinə rəhbərlik etmişdir.

**AXUNDOVA Şəfiqə Qulam qızı** (21.01.1924, Şəki) - bəstəkar, əməkdar incəsənət xadimi (1973), xalq artisti (1998). ADK-nı bitirmişdir (A.Zeydmanın sinfi). Üzeyir Hacıbəyovun tələbəsi olmuşdur. Ş.Axundova "Ev bizim, sirr bizim" (1965) operettasının, çoxsaylı mahnı və romansların müəllifi olmaqla yanaşı, "Gəlin qayası" operasını (1972, ilk tamaşası 1974) bəstələmişdir. Bu operada Ü.Hacıbəyovun muğam operaları ənənələri davam etdirilmişdir.

**A KAPELLA** - xorun müşayiətsiz oxuması mənasında istifadə olunur. İtalyanca "cappella" - kiçik kilsə deməkdir, orta əsrlərdə katolik kilsəsində musiqiçilər üçün ayrılan yeri bildirirdi. Əvvəllər ancaq kilsə xoru, sonralar isə həm də sarayda xidmət edən musiqiçilər qrupu Kapella adlandırılırdı. Müasir dövrdə bu termin daha geniş məna kəsb edərək, xor musiqisində istifadə olunur; həm musiqi kollektivinə, həm də ifa tərzinə aid edilir. Xor kapellası (*bax: Azərbaycan Dövlət Xor Kapellası*) musiqi mədəniyyətində mühüm yer tutur. Azərb. bəstəkarları tərəfindən a kapella xoru üçün çox sayda əsərlər, o cümlədən, muğam və xalq mahnıları əsasında əsərlər bəstələnir. *N.Əliverdibəyovun "Bayatı-Şiraz"* xor kompozisiyası a kapella xoru üçün yazılmış ilk muğam əsərlərindən biridir.

**AKADEMİYA** - **1.** Elmi müəssisələrin adı. "Akademiya" sözü əfsanəvi qəhrəman Akademanın adından götürülüb. Bu qəhrəmanın şərəfinə adı verilmiş Afina yaxınlığındakı məkanda b.e.ə. IV əsrdə Platon öz şagirdlərinə mühazirələr oxuyurmuş. İtaliyada akademiyalar ilk dəfə XV əsrin II yarısında meydana gəlir. Bunlar incəsənət və elm sahəsində ciddi irəliləyişlər əldə etmək məqsədi daşıyan filosof, şair, musiqiçi, bilikli və uzaqgörən həvəskar insanları özündə cəmləşdirən, kilsə və şəhər hakimiyyətindən asılı olmayan cəmiyyətlər idi. İki cür akademiya növləri mövcud olmuşdur: alim cəmiyyətləri və özlərində professional və həvəskar musiqiçiləri birləşdirən müəssisələr (Bolonya filarmonik akademiyası, Florensiya kamerataSI). **2.** XVIII-XIX əsrlər İtaliyada və digər qərbi Avropa ölkələrində bəstəkarların müəllif konsertləri, həmçinin musiqi ifaçılarının kütləvi yığıncaqları (akademiyalar) həvəskar musiqiçilər tərəfindən təşkil olunurdu. **3.** Bəzi ali təhsil musiqi ocaqlarının adı (Londonda Kral Musiqi Akademiyası, Romada Milli Akademiya), həmçinin bəzi opera teatrlarının adları (Musiqi və Rəqs Milli Akademiyası, rəsmi adı Paris Operası), o cümlədən, bəzi konsert və digər təşkilatların adları. Azərbaycanda Azərb. Milli Elmlər Akademiyası, Bakı Musiqi Akademiyası, Rəssamlıq Akademiyası və s. fəaliyyət göstərir.

**AKKOMPANİMENT** (fransız: *accompenement* - müşayiət) - musiqi əsərində daha təsirli səsi və ya aləti müşayiət etmək, davam etdirmək, tamamlamaq üçün istifadə olunur; akkompaniment vokal musiqidə və çoxsəsli orkestrin ifa etdiyi musiqidə rast gəlinir. Akkompaniator - müşayiətçi.

**AKKORD** (latın: *accordo*; fransız: *accord* - uyğunluq, ahəng, uzlaşma;) - üç və daha artıq səsin müəyyən interval münasibətində düzülüşündən əmələ gələn həmahəng birləşməsi. Akkordların müxtəlif növləri var: üçsəslik, sekstakkord, kvartsekstakkord, septakkord, kvintsekstakkord, terskvartakkord, sekundakkord, nonakkord.

Azərb. musiqisində saz alətinin köklənməsindən özünəməxsus səsbirləşmələri - akkordlar əmələ gəlir ki, buna bəzən "aşıq akkordları" deyilir.

Muğamların əsasını təşkil edən məqamların dayaq əhəmiyyətli pillələrinin birləşməsindən də müəyyən akkordlar yaranır. Muğam ifaçılığında zərbi muğamların və təsniflərin instrumental müşayiəti bu akkordların ostinat ritmik fiqurlarla təkrarlanmasına əsaslanır.

**AKKORD SƏSLƏRİ** - akkordun tərkibinə daxil olan səslər (qeyri-akkord səslərindən başqa) hətta eyni vaxtda səslənmədikdə belə (arpecio) bir tam təəssüratı yaradır.

**AKSENT** (latın: *accentus* - vurğu) - hər hansı bir səsin zərblə səsləndirilməsi. Aksentli notlar, bir qayda olaraq, xanənin güclü hissəsində yerləşir. Not yazısında aksent xüsusi işarələrlə **>, sf , L** və s. qeyd olunur.

**AKT** (latın: *actus* – əməl, hərəkət, hadisə) – teatr tamaşasının (drama, opera, balet və s.) tamamlanmış hissəsidir. Bəzən pərdə adlandırılar. Bu kimi hissələr bir-birindən *antrakt* adlanan fasilə ilə ayrılır. Bəzən aktlar *şəkillərə* bölünür.

**AKUSTİKA** (yunan: *akustikos* – eşitmə) – səsin əmələgəlmə, yayılma, udulma proseslərini həm nəzəri, həm də praktiki yolla öyrənən elm sahəsi; fizikanın bir sahəsi olub, səsin təbiətini və xüsusiyyətlərini öyrənir; *musiqi akustikası, memarlıq akustikası* kimi istiqamətləri var.

**AQOGİKA** (yunan: *agogika* – aparma, yürütmə) – musiqi əsərinin ifası prosesində tempdən kiçik yayınmalara dair təlim.

**ALƏT** – *bax: musiqi aləti.*

**ALƏTŞÜNASLIQ** – musiqi alətlərinin quruluşunu, texniki xüsusiyyətlərini və ifaçılıq imkanlarını öyrənən elm.

**ALİKVOT SİMLƏR** (latın: tərcümədə – bir az, az) – rezonans simlər; ifaçının ifa zamanı heç toxunmadığı əlavə simlərdir. Alikvot - rezonans simlər ifa zamanı digər istifadə olunan simlərin təsirindən ehtizaza gəlir, səsin gücünə və alətin tembr imkanlarına yardım edir. Alikvot simlər qrifin altında, kənar hissədə və ya çalınan simlərin altında yerləşdirilir. Tar alətində rast gəlinir.

**ALT MİZRAB** – *mizrabla* çalınan simli musiqi alətlərində (*tar, ud, saz*) çalğı üsulu; bəzən buna "tərs mizrab" da deyilir. Mizrabın sim üzərinə aşağıdan yuxarı vurulmasından ibarətdir. Çox vaxt notlar üzərində **V** işarəsi ilə qeyd edilir.

**ALT TETRAXORD** – hər hansı bir məqamın I, II, III, IV pillələrindən ibarət *tetraxord*; məqamın səssırasında tonikadan aşağıda yerləşən dörd səsin ardıcıllığı.

**ALTERASİYA** – səsin yüksəkliyinin yarımton həcmində yüksəldilməsi və ya alçaldılması. Məqamın müəyyən pillələri alterasiya olunur ki, bu da melodiyanın zənginləşməsi, eləcə də bir məqamdan digərinə keçid üçün imkan yaradır.

Not yazısında səsin dəyişilməsini göstərən xüsusi alterasiya işarələri tətbiq olunur: diyez (♯) – səsi yarımton artırır; bemol (♭) – səsi yarımton əksildir; dubl-diyez (𝄪) – ikiqat diyez; dubl-bemol (♭♭) – ikiqat bemol; bekar (♮) – digər alterasiya işarələrini ləğv etmək üçün istifadə edilir. Şərq musiqisində səsin daha kiçik məsafələrdə dəyişməsini göstərmək üçün bu alterasiya işarələrinin müxtəlif şəkilləri tətbiq olunur.

Alterasiya işarələri: a) aid olduqları notdan əvvəl qoyulur; bunlara təsadüfi işarələr deyilir, yalnız notun yazıldığı xanənin sonuna qədər, bir oktava çərçivəsində qüvvədə qalır; b) açardan sonra, not sətrinin əvvəlində qoyulur; açar işarələri adlandırılır, pyesin sonuna qədər və ya işarələrin dəyişməsinə qədər bütün oktavalarda tətbiq olunur (əsərin tonallığını göstərir).

**AMBUŞUR** (fransız: *embouchure (bouche)* – ağız) – ***1.*** nəfəs alətinin bir hissəsi; musiqiçinin nəfəs alətində havanı içəri üfürdüyü yer; ***2.*** müştük (alman: *Mundstük*: *Mund* – ağız + *Stük* – hissə) – nəfəs alətlərinin ifasında ağız əzələlərinin və dodaqların vəziyyəti;

**AMPLİTUDA** (latın: *amplitudo* – kəmiyyət, həcm) – titrəyişin gücü, cismin qoyulmuş tarazlıqdan çıxması, hərəkət həcmi. Səsin gücü (gurluğu) səslənən cismin amplitudasından asılıdır; Amplituda nə qədər geniş olarsa, səs də bir o qədər güclü olar. Amplituda səsin yüksəkliyinə təsir etmir.

**AMPLUA** (fransız: *employer* – "istifadə etmək" sözündən; *emploi* – iş vermək, məşğul etmək) – aktyorun xüsusiyyətinə görə ifa etdiyi rollar, ümumiyyətlə, rol, vəziyyət, məşğuliyyət dairəsi.

**ANAR** (Anar Rəsul oğlu Rzayev; 14.03.1938, Bakı) – yazıçı, dramaturq, ssenarist, rejissor, ictimai xadim, əməkdar incəsənət xadimi (1976), xalq yazıçısı (1998), Azərb. Dövlət mükafatı laureatı (1980), Azərb. Yazıçılar Birliyinin sədri (1991 ildən indiyədək). Anarın yaradıcılıq irsi geniş və çoxşaxəlidir. Bir çox ədəbi əsərlərin – roman, dram, kinossenari, hekayə və s. müəllifi, "Üzeyir ömrü" ikiseriyalı bədii televiziya filminin (1981-1982) ssenari müəllifi və rejissorudur. Anarın bir sıra məqalələri musiqi sənəti ilə əlaqədardır; onun "Xalçanın hikməti" essesində Azərb. xalçaçılıq sənəti ilə muğam sənəti arasında maraqlı qovuşma nöqtələri üzə çıxarılmışdır. *http://www.anar.az*

**ANSAMBL** (fransız: *ensemble* – birgə, birlikdə) – ***1.*** İki və daha artıq musiqiçidən ibarət olan, birgə musiqi əsərini ifa edən qrup. Musiqiçilərin sayına görə ansambl duet, trio (terset), kvartet, kvintet, sekstet, septet, oktet, nonet, desimet ola bilər; ansambl termini, həmçinin, xor və orkestrlərə də aid edilir. ***2.*** Azərb. milli musiqi ifaçılığında muğam ansamblları, x.ç.a. ansamblları əsas yer tutur. Muğam ansamblına – "xanəndə və sazəndə dəstəsi" və yaxud "muğam üçlüyü" deyilir; bu ansambl xanəndə (o, eyni zamanda, qaval çalır), tarzən və kamançaçalandan ibarətdir. Bəzən muğam ansamblına nağara və balaban ifaçıları da əlavə edilir. X.ç.a. ansamblı – xalq ifaçılığında istifadə olunan simli (tar, kamança, qanun, saz, ud), nəfəsli (zurna, balaban, ney) və zərb (nağara, qoşa nağara) alətlərindən ibarətdir. Bu cür ansamblların tərkibinə müxtəlif sayda alətlər və onların səslənməsinə görə fərqlənən müxtəlif növləri daxildir. ***3.*** Bir neçə iştirakçının birgə ifa etdiyi əsər. Muğamların vokal-instrumental ifası ansambl sayılır. ***4.*** "Ansambl" terminindən musiqinin ifa tərzini səciyyələndirmək üçün də istifadə olunur. "Yaxşı ansambl" ifadəsi bütöv bir ansamblda iştirak edən səslərin və ya alətlərin mükəmməl, həmahəng səslənməsini bildirir. Azərb. muğam ifaçılığında XX əsrin I yarısında fəaliyyət göstərən xanəndə Cabbar Qaryağdıoğlundan, tarzən Qurban Primovdan, kamançaçı Saşa Oqanezaşvilidən ibarət ansambl ən uzunömürlü (20 ildən artıq) və mükəmməl ansambl kimi tarixə düşmüşdür. Bu ansamblın ifasında çoxsaylı musiqi nümunələri qrammofon vallarında həkk olunmuşdur.





*Xalq çalğı alətləri ansamblı, 1930 ilin fotosu*

5081

**ANTOLOGİYA** – qədim zamanlarda antik ədəbiyyatın seçilmiş əsərlərindən, xüsusilə, epiqramlardan ibarət məcmuələr. Hal-hazırda xalq yaradıcılığından seçilmiş nümunələri, yaxud da ayrı-ayrı şairlərin və ya bəstəkarların seçilmiş əsərlərini əhatə edən məcmuə. *"Azərbaycan xalq musiqisi antologiyası"*.

**ANTRAKT** (fransız: *entre* – arasında + *acte* – hadisə) – ***1.*** Teatr (opera, balet və s.) musiqisində pərdələrin əvvəlində səslənən (birincidən başqa) instrumental girişin adı. ***2.*** Səhnə tamaşasının aktları və ya konsertin hissələri arasında musiqi ilə müşayiət olunan fasilə. XIX əsrdə və XX əsrin əvvəllərində Azərb. şəhərlərində göstərilən dram tamaşalarının pərdələri arasındakı fasilə zamanı xanəndə və sazəndə dəstələrinin çıxışları geniş yayılmışdı.

**APPLİKATURA** (latın və italyan: *applicare*; alman: *applikatur* – sıxmaq, yapışdırmaq) – musiqi alətində çalğı zamanı barmaqların düzgün istifadəsi məqsədilə tərtib olunan cədvəl. Müvafiq notların üstündə və ya altında ərəb rəqəmləri ilə göstərilir. Musiqi alətlərində çalğı zamanı 1, 2, 3, 4, 5 rəqəmləri ardıcıl olaraq hər əlin barmaqlarını (baş, şəhadət, orta, adsız və çeçələ) işarə edir.

**ARAÇALĞI** – xalq musiqisində istifadə olunan termin; vokal-instrumental musiqi janrlarında – zərbi muğamlarda, təsnif və mahnılarda bəndlər (hissələr) arasında ifa olunan instrumental epizod.

**ARANJE ETMƏ** (fransız: *arranger* – düzəltmək, yoluna qoymaq, qaydaya salmaq) – çevirmə, yenidən işlənmə, köçürülmə, uyğunlaşdırma.



Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Hər hansı bir melodiyanın müxtəlif tərkibli ansambl üçün işlənməsi. Müasir dövrdə musiqi təcrübəsində Azərb. xalq mahnılarının və təsniflərin aranje edilməsi geniş yayılmışdır.

**ARAYEŞ-XURŞİD** (fars: *arayeş* - zinət, bəzək, *xurşid* - günəş) - klassik ədəbiyyatda göstərilən muğam guşələrindən biri.

**ARAZBARI** - ***1.*** Azərb. şifahi ənənəli professional musiqisində zərbi muğamlardan biri. Şur məqamına əsaslanır. Ölçüsü 3/4 - dür. Poetik mətni xalq bayatılarından ibarətdir; hər bəndin sonunda "ay zalım" sözləri təkrarlanır. ***2.*** Aşıq havası kimi ustad aşıqların yaradıcılıq irsinə daxildir. ***3.*** Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasının V şəklinin əvvəlində "Arazbarı" zərbi muğamının instrumental melodiyasından ork. epizodunda istifadə olunmuşdur. Sonralar bəstəkar tərəfindən müstəqil ork. pyesi kimi işlənilmişdir. ***4.*** Bir neçə variantda not yazısı çap olunmuşdur. S.Rüstəmovun "Azərbaycan xalq rəngləri" (Bakı, 1956), Ə.Bakıxanovun "Azərbaycan ritmik muğamları" (Bakı, 1968) məcmuələrində zərbi muğamın instrumental epizodları nota alınmışdır. R.Zöhrabovun "Zərbi muğamlar" (Bakı, 2004) kitabında xanəndə Seyid Şuşinskinin və sazəndə ansamblının ifasından bu zərbi muğamın vokal-instrumental (partitura) şəklində not yazısı verilmişdir.

**ARXİTEKTONİKA** - bədii əsərin vahid bir tam halında qurulması, onu təşkil edən əsas hissə və ünsürlərin qarşılıqlı əlaqəsi; əsərin hissələri arasındakı nisbəti müəyyən edən bədii quruluş. Muğam dəstgahın arxitektonikası məntiqi quruluşa malik olub, müəyyən qanunauyğunluqlara tabedir.

**ARXİV** (latın: *archivum*, yunan: *archeion* - hökumət idarəsi) - sənəd və materialları saxlandığı müstəqil idarə (yaxud təşkilat, müəssisə və idarələrin şöbələri). Azərb. fəaliyyət göstərən arxivlərdə görkəmli mədəniyyət və incəsənət xadimlərinin, musiqiçilərin həyat və yaradıcılığı ilə bağlı sənədlər, onların səsyazıları saxlanılır: *Azərb. Milli Arxiv İdarəsi; Salman Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivi; Azərb. Səs yazıları Dövlət Arxivi; Azərb. Dövlət Kino-Foto Sənədlər Arxivindəki* materiallar muğam ustadlarının yaradıcılığını öyrənmək üçün qiymətli mənbədir.

**ARİSTOKSEN** (təxm. b.e.ə. 354 - 300) - qədim yunan filosofu və alimi, musiqi nəzəriyyəçisi. Platonun şagirdi olmuşdur. Əsərlərinin az hissəsi saxlanılmışdır. "Harmoniyanın elementləri", "Ritmikanın elementləri" və s. əsərlərində musiqi intervallarının təbiətini, məqamların növlərini öyrənmiş, pifaqorçuların əksinə olaraq, interval və səssıralarının empirik qavrayış xüsusiyyətləri konsepsiyasını irəli sürmüşdür. Sonrakı dövrlərin musiqi nəzəriyyəçiləri Aris-toksenin elmi müddəalarından bəhrələnmişlər.

**ARİSTOTEL** (Ərəstu; b.e.ə. 384, Stagir - b.e.ə. 322, Xalkid) - qədim yunan filosofu və alimi. B.e.ə. 367 ildə Afinaya gəlib Platonun şagirdi olmuş və 20 il Platon akademiyasında iştirak etmişdir. B.e.ə. 343-335 illərdə Makedoniyalı İsgəndərin tərbiyəçisi olmuşdur. B.e.ə. 335 ildə Afinaya qayıtmış və öz məktəbini yaratmışdır. Geniş və çoxcəhətli yaradıcılığa malik olan Aristotel məntiq, psixologiya, təbiətşünaslıq, etika, siyasət, tarix, poeziya və ritorikaya aid əsərlər yazmışdır ("Orqanon", "Fizika", "Metafizika", "Siyasət", "Ritorika", "Poetika" və s.). VIII-IX əsrlərdən başlayaraq, Aristotelin əsərləri ərəb dilinə tərcümə edilmişdir. Əl-Kindi, Fərabi, İbn Sina Şərqin görkəmli aristotelçi alimləri olmuş, fəlsəfənin öyrənilməsini onun adı ilə bağlamışlar. XI-XIV əsrlərdə Azərbaycanda Bəhmənyar, Nizami, Nəcməddin Naxçıvani, Nəsirəddin Tusi və b. görkəmli filosoflar Aristotelin təlimini inkişaf etdirmişlər. Aristotelin "Poetika" əsəri Azərb. dilinə tərcümə olunmuşdur (1974).

**ARİYA** (italyan: *aria* - hava, tərənə) - **1.** Operanın və ya iri həcmli vokal-instrumental əsərin tərkibində müğənni tərəfindən orkestrin müşayiəti ilə ifa olunan, quruluşuna görə bitkin, geniş oxuma tərzli vokal əsər növü. Adətən ariyadan əvvəl ork. girişi və *reçitativ* səslənir. Ariyanın müxtəlif növləri var: arietta, ariozo və s. **2.** Azərbaycanda yaranmış muğam operalarında ariyaları muğam şöbələri əvəz edir. Xanəndələr operanın librettosunda verilmiş qəzəllər əsasında müəyyən muğam şöbələrini özünəməxsus tərzdə ifa edirlər. Bununla yanaşı, bir sıra muğam operalarında xüsusi olaraq bəstələnmiş ariyalara da rast gəlinir: məs., M.Maqomayevin "Şah İsmayıl" operasında Aslan Şahın ariyası bu qəbildəndir; Ü.Hacıbəyovun "Leyli və Məcnun" operasına sonralar əlavə etdiyi Məcnunun atasının ariyası əsərə daxil olunmayaraq, ayrıca konsert pyesi kimi ifa olunur. Klassik tipli Azərb. operalarında bəstəkarlar muğam melodiyalarına əsaslanaraq, ariyalar bəstələmişlər: məs., F.Əmirovun "Sevil" operasında Sevilin ariyası "Şüştər" muğamının melodiyasına əsaslanır.





**ARPECİO** (italyan: *arpeggio* - arfada çalındığı sayaq) - akkordların çalınma tərzi olub, səslərin aşağıdan yuxarıya doğru bir yerdə deyil, növbə ilə ardıcıl səslənməsini əks etdirir. Azərb. x.ç.a.-da bu kimi səslənmə tərzi özünü göstərir.

**ARTİKULYASİYA** (latın: *articulare* - səhih, aydın) - alətdə və ya səslə oxumada səslərin ardıcıl ifaçılıq üsulu. Artikulyasiyanın əsas növləri bunlardır: *leqato, stakkato, qlissando* və s.

**ASAFYEV Boris Vladimiroviç** (təxəllüsü İqor Qlebov; 1884-1949) - rus musiqişünası, bəstəkar, pedaqoq, akademik, ictimai xadimi. 1914 ildən "Muzıka" və "Muzıkalnıy sovremennik" və s. jurnallarda çap olunurdu. 1919-1930 illərdə Petroqrad (Leninqrad) İncəsənət Tarixi İnstitutunun (1920 ildən Musiqinin tarixi bölməsinin rəhbəri), 1943 ildən Moskvadakı İncəsənət İnstitutunun elmi əməkdaşı olmuşdur. Sovet musiqişünaslığının təməlini qoyanlardan biridir. A.N.Serovun, V.V.Stasovun rus tənqidi fikrinin davamçısıdır. Yaradıcılığı rus milli musiqisinin inkişafında yeni mərhələ olmuşdur. İntonasiya termininin öyrənilməsi ilə bağlı tədqiqatları yaradıcılıq irsinin əsasını təşkil edir. B.Asafyev musiqiyə həyatın ayrılmaz hissəsi kimi baxır, onu ümummədəni hadisə kimi təhlil edirdi. "Muzıkalnaya forma kak proses" ("Musiqi forması proses kimi") əsəri musiqi elmində ən qiymətli tədqiqatlardan biridir. B.Asafyevin Şərq musiqisi haqqında dəyərli elmi işləri vardır. O, musiqişünaslıqda ilk dəfə olaraq, Şərq musiqisi ilə bağlı olaraq, "Şifahi ənənəli professional musiqi" terminini tətbiq etmişdir.

**ASƏF ZEYNALLI** - *bax: Zeynallı Asəf Zeynalabdin oğlu*

**ASƏF ZEYNALLI ADINA AZƏRBAYCAN DÖVLƏT MUSİQİ MƏKTƏBİ (ADMM)** - *bax: Bakı Musiqi Kolleci*

**AŞİQ-GUŞ** (və ya aşiqi-qoş; mənası: "aşiqlərin söhbəti" deməkdir) - muğam guşəsi. "Zabul Segahı" muğam-dəstgahının sonunda ifa olunur.

**AŞIX** - simli musiqi alətinin qolunda simlərin sarıldığı balaca paya.

**AŞIQ** - peşəkar xalq sənətkarı. Yaradıcılığında şairlik, nəğməkarlıq, çalğıçılıq (instrumental ifaçılıq), bədii qiraət və rəqs sənətlərini üzvi surətdə, sintetik tərzdə birləşdirir. Qədim dövrlərdə aşıqları "Ozan", "Dədə", "Ata", "Pir baba", "Ustad" və s. adlandırırdılar. Bu da onların saz-söz ustadı olmaqla yanaşı, həm də xalqın müdrik ağsaqqalı, məsləhətçisi olduğunu təsdiq edir. Bunun ən bariz nümunəsi Dədə Qorquddur. "Aşıq" sözünə xalq sənətkarının titulu kimi XI əsrdən türk sufi şairlərinin poetik irsində rast gəlinir. Aşıq Paşa, Aşıq Çələbi (XIII əsr), Aşıq Əhməd (XV-XVI əsrlər), Aşıq Abbas Tufarqanlı (XVI-XVII əsrlər), Aşıq Ələsgər (XIX-XX), Aşıq Pəri (XIX əsr) və b. məşhur aşıqlardır. "Aşıq" sözünün etimologiyası bir neçə mənada yozulur. Bəzi alimlər aşıq sözünün ərəbcə "eşq", "aşiq" - "məftun", "vurğun" mənasını daşıdığını qeyd edir; bəziləri qədim türk sözü olan "aş" - oxumaq sözü ilə bağlayıb, "aşulə" - mahnı, "aşuləçi" - mahnı oxuyan sözlərinin buradan törədiyini göstərirlər. Qədim türk mənbələrində "aşıq" sözü "işıq" sözünün sinonimi kimi işlədilir ki, bu da aşıq sənətində öz əksini tapır. Sözün bu cür çoxcəhətli yozumu yüksək bədii keyfiyyətlərə malik olan aşıq sənətinin ilkin sinkretik təbiəti haqqında tam təsəvvür yaradır. Məhz bu saz-söz sənətinin sinkretikliyi onun qədim yaranma tarixinə işıq salır, əmək və incəsənətin, insan və təbiətin vəhdətini üzə çıxarır. Qədim dövrlərdən əmək, oyun və mərasimlərlə bağlı mətn və musiqi məhz aşıq sənətində qovuşmuşdur. Aşığın eyni zamanda çalması, oxuması və rəqs etməsi də bununla əlaqədardır. Xalq yaradıcılığının digər

*Aşıq dəstəsi (saz və balaban)*
*Gəncə aşıqlarının ansamblı, 1938 ilin fotosu*





növlərində ayrı-ayrılıqda təzahür edən cəhətlər aşıq sənətinin sinkretikliyini təmin edir. Aşıqların bədii təfəkkürünün sinkretik tamlığı özündə təbiət - insan, real - ideal, rasional - emosional cəhətləri birləşdirir ki, bütün bunlar da vahid bir sistem halında aşıqların hərəkətlərinin, çalğısının, mimikasının, poetik dillə musiqinin vəhdətində öz inikasını tapır.

**AŞIQ HAVALARI** - aşıq yaradıcılığının məhsulu olan vokal-instrumental musiqi janrı. Müasir aşıqların repertuarında daim işlənib təkmilləşən 80-ə yaxın ənənəvi aşıq havası və onların çoxsaylı variantları vardır. Aşıq havaları məzmun və xarakterinə görə qəhrəmanlıq ruhlu, lirik, satirik, nəsihətamiz səciyyəli olur: məs. "Koroğlu", "Misri", "Orta divani" havalarında mərdlik, cəsurluq; "Qəmərcan", "Gözəlləmə", "Göyçəgülü" havalarında oynaqlıq, şən əhvaliruhiyyə; "Dilqəmi", "Yanıq Kərəmi"də lirik məhəbbət duyğuları, qüssə və həsrət motivləri ifadə edilir. Aşıq havalarının quruluşu instrumental və vokal-instrumental epizodların növbələşməsinə əsaslanır, bir qayda olaraq, instrumental müqəddimə ilə başlanır.

Aşıq havaları melodik və ritm xüsusiyyətlərinə görə çox zəngin və rəngarəngdir. Burada reçitativ-deklamasiya və mahnı xarakterli melodiyalardan geniş istifadə olunur. Səsin eyni ucalıqda təkrarı, musiqi motivinin və musiqi ibarələrinin variantlı şəkildə təkrarlanması, melodiyanın məqam pillələri üzrə enən sekvensiyalı hərəkəti aşıq havalarının səciyyəvi xüsusiyyətidir.

Aşıq havalarının ritmik xüsusiyyətləri şeirin forma və vəzni ilə əlaqədardır. Müasir aşıqlar gəraylı, qoşma, təcnis, divani, müxəmməs və s. şeir formalarından çox istifadə edirlər. Ədəbi mətnin və melodiyanın xüsusiyyətlərindən asılı olaraq, bir hava üstündə bir neçə şeir oxuna bilər. Aşıq havalarının adları şeir formaları ("Gəraylı", "Təcnis", "Müxəmməs" və s.), dastan surətləri ("Koroğlu", "Kərəmi" və s.), yarandığı yer adları ("Naxçıvanı", "Şərili" və s.), aşıqların adı ilə ("Cəlili", "Bəhməni", "Dilqəmi", "Ürfanı" və s.) bağlı olur.

Aşıq havaları saz və balabanın müşayiəti ilə ifa olunur. Aşıq havalarının məqam əsası sazın quruluşundan irəli gəlmişdir. Onların əsasını Şur məqamı təşkil edir, Segah, Bayatı-şiraz məqamlarında bəstələnmiş havalar da vardır. Aşıq havalarının harmonik əsasını sazın köklərindən irəli gələn akkordlar kompleksi təşkil edir. Bunlardan "Qaraçı kökü", "Dilqəmi kökü", "Ayaq divani kökü" və s. əsas akkordlardır.

Aşıq havaları xalq arasında çox sevilərək geniş yayılmış və dinləyici tələbatından irəli gələrək, xanəndələrin repertuarına da daxil olmuşdur. Xanəndələr, əsasən, lirik və oynaq xarakterli aşıq havalarının oxunmasına üstünlük verir və bu havaları özünəməxsus tərzdə ifa edirlər: məs. "Gülə-gülə", "Nazlana-nazlana", "Qaçaq Nəbi" və s. aşıq havaları xanəndə yaradıcılığında fərqli xüsusiyyətlər kəsb etmişdir. Muğam sənətinin ən geniş yayılmış janrlarından olan zərbi muğamların da əsasını aşıq havaları təşkil edir: məs. "Arazbarı", "Ovşarı", şikəstələr - "Qarabağ şikəstəsi", "Kəsmə şikəstə", "Şirvan şikəstəsi" və s. aşıq yaradıcılığının məhsulu olub, sonradan xanəndə yaradıcılığında təkamülə uğrayaraq, kök salmışdır.

**AŞIQ SƏNƏTİ** - şifahi ənənəli musiqi mədəniyyətinin ən qədim sahələrindən biri. Aşıq sənətində musiqi, poeziya, təhkiyə, rəqs, pantomima, teatr sənəti elementləri üzvi şəkildə birləşmişdir. Sənətkarlıq xüsusiyyətlərinə görə aşıqlar üç istiqamətə bölünür: 1. ustad aşıqlar - sinkretik aşıq saz-söz sənətinin ən parlaq şəxsiyyətləri kimi özündə şairlik və bəstəkarlıq istedadı, kamil müğənni, çalğıçı, aktyor və hət-



*Aşıq Pənah Pənahov və dəstəsi*

ta rəqs (plastika) sənətkarlıqlarını və ən başlıcası, təcrübəli və müdrik ustadlığı (müəllimliyi) üzvi birləşdirir; 2. ifaçı aşıqlar - qədim saz-söz ənənələrini yaşadan və onu xalq arasında yayan sənət ustalarıdırlar. Azərb. xalqının folklorunun qorunması və inkişafında onların böyük xidmətləri var. 3. şair aşıqlar - el şairləri, aşıq sənətinin şeir nümunələrini yaradan, xalq şeirinin inkişafında xidməti olan söz ustadlarıdırlar. Şair aşıqlar şeir yaradıcılığında həmişə ənənəvi havacata əsaslanırlar. Bu da həmin şeirlərin ifaçı-aşıqlar tərəfindən çalıb - oxuma yolu ilə yayılmasına imkan yaradır. Aşıq sənətində şifahi şəkildə ənənələrin ötürülməsi əsas cəhətlərdəndir. Aşıqlar məlum əsərləri ifa etməklə kifayətlənməyərək, eyni zamanda, ona dəyişiklik, yeni cəhətlər gətirir, onu işləyir, təkmilləşdirir, beləliklə də onun yaradıcılarından birinə çevrilir.

Aşıq yaradıcılığının əsas janrları - dastanlar və aşıq havalarıdır. Aşıq sənəti peşəkar sənət növü olub, ustad aşıqlardan şagirdlərinə şifahi mənimsəmə yolu ilə nəsildən-nəslə ötürülür. Bu yolla müxtəlif ərazilərdə aşıq məktəbləri formalaşmış, aşıq mühitləri yaranmışdır. Göyçə, Borçalı, Təbriz, Tovuz-Qazax, Gədəbəy, Şirvan aşıq məktəbləri öz qədim ənənələrini nəsildənnəslə ötürərək, bu günümüzə çatdırmışlar.

Aşıq və muğam sənətləri arasında üzvi bağlılıq özünü büruzə verir. Tarixi inkişaf prosesində bu iki sənət qarşılıqlı əlaqədə olmuş, biri-digərinə təsir göstərmişdir. Aşıqların oxuduqları havalarda muğamlardan istifadə olunması, eyni zamanda, xanəndələrin repertuarına aşıq havalarının daxil edilməsi, aşıq havaları əsasında zərbi - muğam janrının meydana gəlməsi bu iki sənət arasındakı qarşılıqlı əlaqələrin dərinliyini sübut edir.

**AŞUR-AVƏND** - orta əsrlərin musiqi təcrübəsində "Mahur" dəstgahında "Rak-Abdulla" ilə "Həzin" guşələri arasında ifa olunan kiçik instrumental epizod.

**ATTAKA** (italyan: *attacare* - "hücum" sözündən olub, "yönəlmə" mənasını verir). Vokalda səs apparatının nəfəs vəziyyətindən danışıq və ya oxumaq vəziyyətinə keçirilməsi. Qapalı səs tellərində hava axını güc təsirilə verilir (qətiyyətli attaka), bu zəif olduqda səsin gücü də zəif olur (mülayim attaka). Not yazısında digər bölməyə tez keçid mənasını verir (adətən temp dəyişkənliyi ilə əlaqədardır). Muğam ifaçılığında bir şöbədən digərinə keçid zamanı geniş istifadə olunur.

**AVAZ** - **1.** Səs, sədа. **2.** Musiqinin səslə ifa edilməsi. **3.** Orta əsrlərdə Şərqdə klassik musiqi növü. Səfiəddin Urməvinin (XIII əsr) musiqi risalələrində 6 avaz adı çəkilir: Qəveşt, Gərdaniyə, Səlmək, Novruzi, Mayə, Şahnaz. **4.** Müasir muğam sənətində muğam şöbəsi və guşəsi daxilində kiçik musiqi quruluşu.

**AVAZAT** - cəm halda avazların məcmusu deməkdir.

**AVAZİ-NAQİS** - muğam şöbəsinin sonunda ifa olunan cümlə, tamamlayıcı kiçik instrumental epizod.

**"AVAZI XOŞ ULU MUĞAM"** - konsert layihəsi. Niyazinin "Rast" simfonik muğamının və eyniadlı muğam dəstgahının qovuşdurulmasına əsaslanır. 2007 ildə ADF-nın səhnəsində Azərb. Dövlət Simfonik Orkestrinin ifasında səsləndirilmişdir. Layihə xalq artisti S.Kərimi və əməkdar incəsənət xadimi Y.Adıgözəlovun rəhbərliyi ilə reallaşdırılmışdır. Layihədə Zülfi Adıgözəlovun, Yaqub Məmmədovun, Şahmalı Hacıyevin arxiv səsyazılarından istifadə olunmuşdur. Eyni zamanda, solistlər - xanəndələr Mənsum İbrahimov, Təyyar Bayramov, Bəyimxanım Mirzəyeva, tarzən Elçin Həşimov, kamançaçı Elnur Əhmədovun canlı ifaları "Rast" simfonik muğamının səslənməsi ilə uzlaşdırılmışdır. Muğamın ilkin mənbədə və bəstəkar yaradıcılığındakı versiyaları canlandırılmış, muğam xanəndə və bəstəkar təfsirində eyni vaxtda səsləndirilmişdir.

**AYAQ ETMƏ** - xalq ifaçılığında istifadə olunan termin; muğam şöbəsinin və yaxud hər hansı bir əsərin sonunda musiqi fikrinin yekunlaşdırılaraq, başlanğıc məqam kökünə (mayəyə) qayıdılmasını bildirir; başqa sözlə, kadensiya və ya musiqi fikrinin kadansla tamamlanması. Muğam dəstgahın sonunda "mayəyə ayaq etmə" bir qədər geniş olur və koda tipli musiqi qurumunu əmələ gətirir.

**AZAD-VAR** - klassik şairlərin əsərlərində muğam guşələrindən biri.

**"AZERBAIJAN INTERNATIONAL"** - 1993 ildən Los-Anjelesdə (ABŞ, Kaliforniya ştatı) ingilis dilində nəşr olunan rüblük jurnal. Jurnalın baş redaktoru Betti Bleyerdir. Jurnalin hər nömrəsi Azərb. həyatının, mədəniyyətinin və incəsənətinin müəyyən bir sahəsinə həsr olunaraq, respublika haqqında oxuculara ətraflı məlumat vermək məqsədini daşıyır. Jurnal 47 ölkədə yayılır. Veb-saytın ünvanı: *www.AZER.com*

**AZƏRBAYCAN** - Ölkəmizin adı ənənəvi musiqi mədəniyyəti sahəsində geniş yayılmışdır. **1.** Muğam şöbəsi. "Rast", "Şur", "Çahargah" dəstgahının tərkibinə daxil olan şöbələrdən biri; **2.** "Bayatı-kürd" və "Şahnaz" muğamlarının tərkibində ifa olunan son şöbələrdən biri; **3.** İnstrumental musiqi ifaçılığında geniş yayılmış xalq rəqs melodiyası; muğam dəstgahda diringi kimi ifa olunur. *http://www.azerbaijan.az*

**AZƏRBAYCAN BƏSTƏKARLAR İTTİFAQI** - Azərb. bəstəkarları və musiqişünaslarının ictimai yaradıcılıq təşkilatı. 1934 ildə yaradılmışdır. İdarə heyəti və katibliyi var. İttifaqın məqsədi

xalqın mənəvi zənginləşməsinə xidmət göstərmək, musiqi mədəniyyətini inkişaf etdirmək, musiqi irsini toplayıb tədqiq etmək, Azərb. bəstəkarlarının əsərlərini respublikada və onun hüdudlarından kənarda təbliğ etmək, musiqişünaslığın inkişafına yardım göstərməkdir. ABİ-nin yaradılmasında Ü.Hacıbəyovun, Ə.Bədəlbəylinin və b. bəstəkarların böyük rolu olmuşdur. Müxtəlif illərdə S.Rüstəmov, Q.Qarayev, A.Əlizadə, T.Quliyev, V.Adıgözəlov ABİ-nin sədri olmuşlar. 2007 ildə ABİ-nın VIII qurultayında xalq artisti, professor Firəngiz Əlizadə ABİ İdarə Heyətinin sədri seçilmişdir. ABİ İdarə Heyətinin katibləri: xalq artisti, professor Ramiz Zöhrabov, xalq artisti, professor Aqşın Əlizadə, əməkdar incəsənət xadimi Eldar Mansurovdur. Hal-hazırda İttifaqın 180-ə yaxın üzvü vardır. İttifaqın tərkibində musiqi mədəniyyətinin müxtəlif sahələri – simfonik, kamera musiqisi, musiqişünaslıq, etnomusiqişünaslıq və başqa sahələrlə bağlı olan bir sıra bölmələr fəaliyyət göstərir. İnternetdə "Azərbaycan bəstəkarları və musiqişünasları" adlı on-line kataloqu fəaliyyət göstərir: *http://composers.musigi-dunya.az*

**"AZƏRBAYCAN DİSKOQRAFİYASI"** – veb saytı. Burada 1900 – 1940 illər ərzində Avropanın və Rusiyanın müxtəlif səsyazma şirkətləri – "Pate", "Sport-Rekord", "Ekstrafon", "Qrammofon", "Noqin zavodu", "1905 il" – tərəfindən buraxılmış qrammofon vallarından yazılar toplanmışdır. XIX əsrin sonu – XX əsrin I yarısında yaşayıb-yaratmış görkəmli xanəndələrin – Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd, Məşədi Məhəmməd Fərzəliyev, Ələsgər Abdullayev, Seyid Şuşinski, İslam Abdullayev, Məcid Behbudov, Xan Şuşinski, Bülbül və başqalarının səslərini, onların ifasında muğamları və təsnifləri qoruyub saxlayan qrammofon valları Azərb. Dövlət Səsyazıları Arxivi, Azərb. Dövlət Musiqi Mədəniyyəti Muzeyi, Üzeyir Hacıbəyovun Memorial ev-muzeyi və Bülbülün ev-muzeyinin fondlarında saxlanılır. "Musiqi Dünyası" jurnalının yaradıcı qrupu tərəfindən beş yüzdən artıq səsyazıları rəqəmsal bərpa olunmuşdur. Veb saytın ünvanı: *http://diskografiya.musigi-dünya.az*

**AZƏRBAYCAN DÖVLƏT XALQ ÇALĞI ALƏTLƏRİ ORKESTRİ** – respublikada fəaliyyət göstərən ən böyük misiqi kollektivlərindən biri. 2000 il 1 yanvar ayının 2-də ADF-nin nəzdində yaradılmışdır. Orkestrin bədii rəhbəri və baş dirijoru, əməkdar incəsənət xadimi, Beynəlxalq "Qızıl çəng" mükafatı laureatı, professor Ağaverdi Paşayevdir. Orkestrin repertuarı muğamlardan, eləcə də orijinal və x.ç.a. üçün köçürülmüş bəstəkar əsərlərindən ibarətdir. Orkestrin üzvləri əsasən gənc istedadlı musiqiçilərdir, o cümlədən beynəlxalq və respublika müsabiqələr laureatları Sahib Paşazadə (tar), Çinarə Mütəllibova (qanun), Amanulla İbadullayev (balaban), Xəyyam Məmmədov (kamança) orkestrdə fəaliyyət göstərirlər. Yarandığı vaxtdan ork. respublikanın mədəni həyatında fəal iştirak edir, dövlət əhəmiyyətli tədbirlərdə, konsertlərdə, yubiley mərasimlərində öz ifaçılıq məharəti ilə diqqəti cəlb edir. Ork. bir çox görkəmli ifaçıları: xalq artistləri F. və X.Qasımovalar, L.İmanov, A.Babayev, İ.Quliyeva, C.Əkbərov, R.Quliyev, H.Əliyev, Ş.Eyvazova, N.Teymurova, M.İbrahimov və başqalarını müşayiət etmişdir. Həmçinin, Bülbül adına Beynəlxalq müsabiqənin "Qran-Pri" mükafatı layreatı, Türk vokalçısı Burçin Çilingirin solo konsertində ork. müğənnini böyük zövq və məharətlə müşayiət etmişdir. Ork. beynəlxalq festivallarda da çıxış edərək uğurlar qazanmışdır. 2004 və 2005 illərdə İranın Tehran şəhərində keçirilən XIX və XX "Fəcr" beynəlxalq musiqi festivallarında 2 dəfə ən yüksək mükafata – "Qızıl Çəng" mükafatına layiq görülmüşdür. 2005 ildə ABŞ-ın səsyazma şirkəti tərəfindən orkestrin ifası kompakt diskə yazılmışdır.

**AZƏRBAYCAN DÖVLƏT XOR KAPELLASI** – respublikanın aparıcı musiqi kollektivlərindən biri. ADF-nin nəzdində 1966 ildə yaradılmışdır. Kapellanın yaranma tarixi uzun illər boyu kollektivə rəhbərlik etmiş əməkdar incəsənət xadimi, xormeyster Eduard Novruzovun adı ilə bağlıdır. 1996 ildən bu günə qədər Azərb. Dövlət Xor Kapellasının bədii rəhbəri və baş dirijoru xalq artisti Gülbacı İmanovadır. Xorun repertuarı Azərb. və xarici ölkə bəstəkarlarının əsərlərindən ibarətdir, o cümlədən, muğamlar əsasında bəstələnmiş C.Cahangirovun "Füzuli" kantatası, "Azad" operasından "Çahargah" xoru, N.Əliverdibəyovun "Bayatı-Şiraz" və s. xor kompozisiyaları Azərb. Dövlət Xor Kapellasının repertuarında görkəmli yer tutur.

**AZƏRBAYCAN DÖVLƏT KİNO-FOTO SƏNƏDLƏRİ ARXİVİ** – 1930 ildə yaradılmış Oktyabr İnqilabı Arxivinin kino-foto sənədləri şöbəsi 1943 ildən Azərb. SSR Mərkəzi Dövlət Kino Foto-Fono Sənədləri Arxivi kimi müstəqil fəaliyyətə başlamışdır. 1994 ildən Azərb. Respublikası Dövlət Kino-Foto Sənədləri Arxivi adlanır. Bakıda yerləşir. Arxivdə 400 minə yaxın saxlama vahidi kino və fotosənəd qorunur. Bu sənədlərdə XIX əsrin II yarısından XXI əsrin əvvəllərinə kimi Azərb. ictimai-siyasi, iqtisadi, sosial və mədəni həyatında baş vermiş hadisələri əks olunmuşdur. Arxivdəki kinooçerklər, sənədli filmlər, kinoxronikalar, fotoşəkillər respublikada elm və mədəniyyətin inkişafını əyani surətdə əks etdirir. Arxivdə Azərb. görkəmli elm, mədəniyyət və incəsənət xadimlərinin şəxsi arxivlərindən alınmış 20 minə yaxın fotoşəkil də mühafizə olunur.





**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ (ADMİU)** – respublikada incəsənət və mədəniyyət sahəsində kadrlar hazırlayan ali məktəb. Azərb. hökumətinin 21 mart 1923 il tarixli qərarı ilə Türk Teatr Texnikumu olaraq Bakıda təsis olunmuşdur. Rejissorluq, dram və opera şöbələrindən ibarət bu məktəbin ilk direktoru görkəmli Azərb. opera müğənnisi, pedaqoq və musiqi xadimi, SSRİ xalq artisti Şövkət Məmmədova (1897-1981) olmuşdur. 1945 ilin avqust ayında bu məktəbin bazasında Azərb. Dövlət Teatr İnstitutu yaradıldı. 1954 ildə instituta Mirzağa Əliyevin adı verilmişdir. 1968 ildən isə Azərbaycan Dövlət İncəsənət İnstitutu adlandırılmışdır. 1991 ildən incəsənətin çoxprofilli ixtisasları nəzərə alınaraq, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə çevrildi. 1987 ildən bu günə kimi universitetə əməkdar incəsənət xadimi, filologiya elmləri doktoru, professor *Timuçin İlyas oğlu Əfəndiyev* rəhbərlik edir. ADMİU-də "Sənətşünaslıq", "Aktyorluq sənəti", "Rejissor sənəti", "Musiqi sənəti", "Rəssamlıq", "Kulturologiya" fakültələrində 2000-dən artıq tələbə təhsil alır. Universitetin 27 kafedrasında 240 nəfərdən artıq mütəxəssis – professor-müəllim heyəti çalışır. Universitetdə tədris teatrı, muzey, kitabxana, səsyazma studiyası, sərgi salonu, kino zalı, kompüter mərkəzi, nəşriyyat-poliqrafiya mərkəzi fəaliyyət göstərir. ADMİU Avropa şurası və YUNESKO-nun himayəsində ELİA (Avropa İncəsənət Universitetləri Liqası) təşkilatının Azərb. universitetləri arasında ilk üzvüdür. ADMİU Beynləxalq Universitetlər Assosiasiyasının üzvüdür. ADMİU-nun rektoru T.Əfəndiyev İSESKO təşkilatının ekspertidir. ADMİU Almaniyanın DAAD, YUNESKO-nun Aysberq proqramlarında iştirak edib. "Tempus Tasis" proqramının üzvüdür. Yaponiyanın Mədəniyyət Qrantı layihəsinin iştirakçısıdır.

ADMİU muğam sənəti sahəsində milli musiqiçi kadrlar yetişdirən ali məktəblərdən biridir. Universitetin aparıcı fakültələrindən biri olan "Musiqi sənəti" fakültəsində (fakültənin dekanı – məşhur tarzən, əməkdar artist Vamiq Məmmədəliyevdir) respublikanın adlı-sanlı muğam ustadları dərs verir, xanəndə və x.ç.a. ifaçıları, x.ç.a. ansambllarının bədii rəhbərləri hazırlanır. Azərb. bir çox tanınmış musiqiçiləri bu universitetin yetişdirmələridir. Görkəmli xanəndələr – xalq artistləri İslam Rzayev, Arif Babayev, Canəli Əkbərov, Alim Qasımov, Səkinə İsmayılova, Mələkxanım Əyyubova, Zümrüd Məmmədova və b. bu tədris ocağında ali təhsil almışlar. Hal-hazırda da onların əksəriyyəti bu universitetdə müəllim kimi fəaliyyət göstərir və gənc musiqiçilər nəslinin yetişməsinə böyük əmək sərf edirlər. Veb saytın ünvanı: *www. ADMİU.edu.az*

**AZƏRBAYCAN DÖVLƏT MUĞAM TEATRI** – 1988 ildə yaradılmışdır. Teatrın bədii rəhbəri xalq artisti İslam Rzayev olmuşdur. Direktoru əməkdar incəsənət xadimi, "Şöhrət" ordenli Arif Qaziyevdir. Bu teatr Şərqdə yeganə professional Muğam Teatrıdır. Amerika, Kanada, Norveç, Suriya, Türkiyə, Almaniya və digər xarici ölkələrdə qastrol səfərlərində olmuşdur. Teatrın tərkibində Muğam studiyası və Muğam klubu fəaliyyət göstərir.

**AZƏRBAYCAN DÖVLƏT SƏSYAZILARI ARXİVİ** – Azərb. SSR Nazirlər Sovetinin 1968 il 5 aprel tarixli qərarı ilə yaradılmışdır. Bakıda yerləşir. Arxivdə 30 mindən artıq fonosənəd saxlanılır. Bunlar XX əsrdə yaşayıb-yaratmış, respublikanın dövlət, siyasi, ictimai, elm və mədəniyyət xadimlərinin, müharibə və əmək veteranlarının həyat, fəaliyyət və yaradıcılığını əks etdirən səsyazılarıdır. 1902-1915 illərdə Azərb. xanəndələri Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Keçəçioğlu Məhəmməd, Ələsgər Abdullayev, Həmid Malıbəyli, Məcid Behbudov, Məşədi Məmməd Fərzəliyev, Bülbül və Əbdülqədir Cabbarovun, qadın xanəndə Mirzə Güllər xanımın, tarzənlərdən Məşədi Cəmil Əmirov, Qurban Primov, Mirzə Fərəc, Şirin Axundov və başqalarının ifasında İngiltərənin "Qrammofon", Fransanın "Pate", Varşavanın "Sport-Rekord", Kiyevin "Ekstrafon", Tiflisdə "Konsert-Rekord", Bakının "Qrammofon-Rekord" şirkətləri tərəfindən 500-dən artıq muğam, təsnif, xalq mahnısı və el havaları yazılmış qrammofon valları arxivin ilk fonosənədləridir. Arxivin fondlarında xalq yaradıcılığı nümunələri, teatr tamaşalarının lent yazıları və digər fonosənədləri də qorunur. Ədəbiyyat və incəsənət xadimlərindən Üzeyir Hacıbəyovun, Bülbülün, Qara Qarayevin, Əliağa Vahidin, Bəxtiyar Vahabzadənin, Hüseynqulu Sarabskinin, Şərqin görkəmli sənətkarları şair Məhəmmədhüseyn Şəhriyarın, xanəndə Əbülhəsən xan Azər İqbalın və b. səs yazıları saxlanılır. Azərb. Dövlət Səsyazıları Arxivinin direktoru Əməkdar mədəniyyət işçisi Yaqub Mədətovdur.

**AZƏRBAYCAN DÖVLƏT TELEVİZİYA VƏ RADİO VERİLİŞLƏRİ QAPALI SƏHMDAR CƏMİYYƏTİ** – dövlət müəssisəsi. Azərb. radiosu 1926 il noyabrın 6-da, Azərbaycan televiziyası 1956 il fevralın 14-də yaradılıb. Azərbaycan televiziyası (AzTV) ölkə teleməkanının formalaşmasında böyük rol oynayıb. Azərbaycan Dövlət Televiziya və Radio Komitəsi, Azərbaycan Dövlət Televiziya və Radio verilişləri Şirkəti kimi fəaliyyət göstərib. 2005 il martın 23-də Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 213 saylı fərmanı ilə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin bazasında ATRV QSC yaradılıb. Cəmiyyətin sədri Arif Alışanovdur.

Azərb. televiziyasının auditoriyası çox genişdir. Hazırda Azərb. televiziyasının yaydığı verilişlərə tamaşaçılar nəinki respublikanın hər bir şəhər və kəndində, ən ucqar yerlərində, həmçinin dünyanın bir çox ölkələrində də baxa bilirlər. Azərb. televiziyasının Türkiyə, Rusiya, Ukrayna, İran, Kanada, Özbəkistan və Qazaxıstanda müxbir məntəqələri fəaliyyət göstərir. Azərb. televiziyasının verilişləri Avropaya, Şimali Amerikaya, Asiyaya peyk vasitəsilə yayılır. 2007 ildə Avropaya yayımın texniki müvafiqliyinə görə Azərb. Televiziyası "Avropa keyfiyyəti" medalına layiq görülmüşdür. Azərb. teleradiosunda peşəkar televiziyaçılardan və menecerlərdən ibarət komanda fəaliyyət göstərir. AzTV-nin nəzdində bir sıra musiqi kollektivləri, o cümlədən, Səid Rüstəmov ad. Azərb. x.ç.a. orkestri, Əhməd Bakıxanov ad. x.ç.a. ansamblı, Baba Salahov ad. "Araz" x.ç.a. ansamblı, Əhsən Dadaşov adına "Xatirə" x.ç.a ansamblı fəaliyyət göstərir.

Bütün fəaliyyəti dövründə AzTR-də Azərb. musiqisinə, şifahi ənənəli xalq və professional musiqisinə, bəstəkar yaradıcılığına xüsusi diqqət yetirilir, rəngarəng konsertlər, o cümlədən, muğam konsertləri, musiqi proqramları, portret verilişləri, sənədli və bədii filmlər nümayiş etdirilir. AzTV-də muğam ifaçılarının audio-video yazılarının saxlanıldığı fondun əhəmiyyəti və dəyəri çox böyükdür. Qızıl Fond adlandırılan bu arxiv fondu çox böyük həcmə malik qiymətli mənbədir. Burada saxlanılan səsyazılarının mütəmadi səsləndirilməsi gənc nəsil üçün əsil sənətkarlıq məktəbidir.

2007 ildə Heydər Əliyev Fondunun dəstəyi ilə Azərb. Mədəniyyətinin Dostları Fondunun layihəsi əsasında Mədəniyyət və Turizm Nazirliyinin yaxından köməyi ilə AzTRV QSC tərəfindən keçirilən "Muğam - 2007" müsabiqəsi musiqi ictimaiyyəti və muğamsevərlər tərəfindən rəğbətlə qarşılandı və demək olar ki, bütün dünyada böyük rezonansa səbəb oldu. "Muğam - 2007" müsabiqəsi üç aydan artıq (14 həftə) davam etdi: oktyabr, noyabr, dekabr ayları ərzində, hər həftənin ikinci (çərşənbə axşamı) və dördüncü (cümə axşamı) günləri Rəşid Behbudov adına Mahnı Teatrında hər dəfə 3 saat ərzində canlı yayımlandı; üç ay davam edən bu müsabiqə 300 saatdan artıq yayımla efirdə oldu. Bu muğam müsabiqəsinin təşkilində, keçirilməsində, yayımlanmasında AzTV-nin mühüm xidmətləri vardır. *www.aztv.az*

**AZƏRBAYCAN DÖVLƏT TÜRK MUSİQİ MƏKTƏBİ** – 1922 ildə Bakıda Ü.Hacıbəyovun təşəbbüsü ilə təşkil edilmişdir. Ümumiyyətlə, musiqi sənəti sahələrində, xüsusilə, Şərq musiqi sahəsində milli kadrlar hazırlamaq məqsədilə yaradılmışdır. 5 şöbəsi (fortepiano, vokal – Avropa və Şərq üslubunda, musiqi nəzəriyyəsi, orkestr) var idi. 1924 ildən orta ixtisas musiqi təhsili müəssisəsi hüququ qazanaraq Azərb. Dövlət Türk Musiqi Texnikumu adlandırıldı. Texnikumda dərs deməyə yüksək ixtisaslı musiqiçilər dəvət olunmuşdu. Ü.Hacıbəyov pedaqoji şuranın sədri idi və not sistemi üzrə tar dərsi deyirdi. Texnikumun tələbələri respublikanın musiqi həyatında fəal iştirak edir, klub və müəssisələrdə konsertlər verirdilər. Bəstəkarlar A.Zeynallı, M.Nəsirbəyov, S.Rüstəmov, musiqişünaslar X.Ağayeva, F.Zeynalova, F.Səmədova, dirijorlar Ə.Bədəlbəyli, Ə.Həsənov, pianoçu N.Usubova, kamançaçılardan Q.Salahov və b. burada təhsil almışlar. 1926 ildə texnikum ADK ilə birləşdirildi.

**"AZƏRBAYCANIN EPİSTOLYAR İRSİ"** – Veb saytı; Burada XX əsrdə yaşayıb-yaratmış görkəmli ziyalıların – dövlət, elm, mədəniyyət və incəsənət xadimlərinin, o cümlədən, Heydər Əliyevin, Üzeyir Hacıbəyovun, Hüseyn Cavidin, Xan Şuşinskinin, Bülbülün və başqalarının məktubları, muzey və arxiv fondlarında saxlanılan sənədlər toplanmışdır. Veb-sayt "Musiqi Dünyası" jurnalının elektron nəşrlər mərkəzi tərəfindən hazırlanmışdır. Saytın ünvanı: *http://epistolyar.musigi-dünya.az*

**AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTLƏRİ** – xalqın məişətində geniş istifadə olunan musiqi alətləri; xalqın mədəniyyətinin mühüm göstəricilərindən biri sayılır. Azərb. x.ç.a uzun əsrlər boyu təkmilləşmə prosesi keçmiş, bəziləri unudularaq istifadədən çıxmış, yeni alətlər meydana gəlmiş, bəziləri qarşılıqlı əlaqələr zəminində bir xalqdan digərinə keçərək, yeni forma və ifaçılıq xüsusiyyətləri kəsb etmişdir.

*Azərb. x.ç.a.* quruluşuna, səslənmə üsullarına, hazırlanma materialına görə qruplara bölünür.





*Simli alətlər: tar, saz, ud, tənbur (mizrablı alətlər); kamanlı alət: kamança; dartımlı alətlər: qanun, çəng; simli-zərbli alət: santur və s.; nəfəs alətləri: zurna, tütək, ney, balaban və s.; zərb alətləri: nağara, qoşa nağara, qaval, dəf; özüsəslənən alətlər: şaxşax, zınqırov, zəng və s.*

Azərb. x.ç.a. musiqi yaradıcılığında və xalq məişətində tətbiqi sahələrinə görə ayrılır. Muğam ifaçılığında tar, kamança, qaval; rəqslərin müşayiətində tulum, balaban, zurna, tütək, ney, nağara, qoşanağara, qaval, şaxşax və laqquti; aşıq sənətində saz, o cümlədən, aşıq ansambllarında balaban, qoşanağara və nağara alətlərindən istifadə olunur. Eyni zamanda, xalq musiqi ifaçılığında geniş tətbiq olunan qarmon (yarımton düzülüşlü) və klarnet kimi alətlər də Azərbaycanda əsl xalq çalğı alətinə çevrilmişdir.

X.ç.a.-nın tədrisi uşaq musiqi məktəblərində, orta ixtisas musiqi məktəblərində, musiqi kollecində və musiqi texnikumlarında, ali musiqi təhsili ocaqlarında həyata keçirilir. Bu alətlər xalqın məişətində kök salmaqla yanaşı, peşəkar musiqi sənətinin inkişafında da böyük rol oynayır, onlardan həm solo, həm də müxtəlif ansamblların və orkestrlərin tərkibində geniş istifadə olunur. Həmçinin, Azərb. bəstəkarları x.ç.a.-nı simfonik orkestrin tərkibinə daxil edərək, yeni səs tembrləri əldə etməyə nail olub orijinal əsərlər yaradırlar.

**AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTLƏRİ ANSAMBLI** – müxtəlif xalq çalğı alətlərindən təşkil olunmuş ansambl; tərkibinə simli (*tar, ud, kamança, qanun, saz*), nəfəsli (zurna, balaban, tütək) və zərbli (*nağara, qoşanağara, şaxşax* və s.) musiqi alətləri qrupları daxildir. Müxtəlif ansambllarda bu qruplardakı alətlərin sayı dəyişilə bilir. Adətən, x.ç.a. ansambllarının tərkibinə qarmon, klarnet, gitara və skripka alətləri də daxil edilir. X.ç.a. ansambllarının repertuarı muğam, təsnif, rəng, xalq mahnı və rəqslərindən ibarət olur. X.ç.a ansambllarının əsas xüsusiyyəti şifahi ənənə əsasında (notsuz) ifa tərzindən ibarətdir. Belə ansambllar tərəfindən xanəndələri müşayiət edərək muğam dəstgahlarının ifa olunması geniş yayılmışdır. Respublikada bu cür kollektivlərin sayı çoxdur. Onlardan *Əhməd Bakıxanov adına xalq çalğı alətləri ansamblı, Baba Salahov adına "Xatirə" xalq çalğı alətləri ansamblı, Əhsən Dadaşov adına "Araz" xalq çalğı alətləri ansamblı* və respublikanın müxtəlif şəhərlərində, rayon mərkəzlərin-

*Azərbaycan xalq çalğı alətləri ifaçıları, 1928 ilin fotosu*



də, ali və orta ixtisas məktəblərinin, mədəniyyət saraylarının nəzdində fəaliyyət göstərən ansambllar qeyd oluna bilər.

**AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTLƏRİ ORKESTRİ** - tərkibi əsasən xalq çalğı alətlərindən ibarət olan, notla çalan musiqi kollektivi. Orkestrin partitura sxeminə aşağıdakı musiqi alətləri daxildir: nəfəsli alətlər - balabanlar (I, II, III, IV), tütək, zurna, klarnet, qoboy, fleyta; zərb alətləri - qaval, nağara, qoşanağara; simli - kamanlı alətlər - kamança, kontrabas; simli - mizrablı alətlər - tar (I, II, III), saz (I, II), qanun, bas tarı (dütar-bas), ud; fortepiano.



*Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri*

**"AZƏRBAYCAN XALQ MUSİQİSİNİN ANTOLOGİYASI"** - Azərb. şifahi ənənəli musiqisinin bütün janrlarına aid not yazılarını özündə cəmləşdirən 10 cildlik nəşr. Burada xalq mahnıları, rəqslər, aşıq havaları, rənglər, təsniflər, zərbi muğamlar, muğam dəstgahların müxtəlif illərdə nota yazılmış nümunələri əhatə olunmuşdur: I cild. Azərbaycan xalq mahnıları. Bakı, 2003; II cild. Azərbaycan xalq rəqsləri. Bakı, 2003; III cild. Azərbaycan muğamları və rəngləri. Bakı, 2004. IV cild. Azərbaycan muğamları və rəngləri. Bakı, 2005. V cild. Azərbaycan muğamları və zərbi muğamları. Bakı, 2005; VI cild. Azərbaycan təsnifləri, dəraməd, diringi və rəngləri, qədim el havaları, muğamlar və zərbi muğamlar. Bakı, 2006; VII cild. Azərbaycan aşıq musiqisi. Bakı, 2007. "Azərbaycan xalq musiqisinin antologiyası" AMEA MİI-nin "Xalq musiqisinin tarixi və nəzəriyyəsi" şöbəsinin müdiri, əməkdar elm xadimi, sənətşünaslıq doktoru, professor Əhməd İsazadənin təşəbbüsü və rəhbərliyi altında şöbənin əməkdaşları tərəfindən tərtib olunmuş və çapa hazırlanmışdır. Bu nəşr Azərb. Mədəniyyətinin Dostları Fondunun dəstəyi ilə həyata keçirilmişdir.

**"AZƏRBAYCAN XALQ MUSİQİSİNİN ƏSASLARI"** - Üzeyir Hacıbəyovun fundamental elmi əsəri; 1945 ildə çap olunmuşdur. Azərb., rus və ingilis dillərində bir neçə dəfə təkrar nəşr olunmuşdur (1950, 1952, 1957, 1965, 1985). Ü.Hacıbəyov bu əsəri ilə Azərb. milli musiqisinin *məqam* (lad) nəzəriyyəsini yaratmış, bununla da Azərb. musiqi elmində yeni bir səhifə açmışdır. Ü.Hacıbəyov Azərb. musiqisinin əsasını təşkil edən 7 əsas - *rast, şur, segah, çahargah, bayatı-şiraz, şüştər, hümayun*, 3 əlavə - şahnaz, sarənc və II növ çahargah məqamlarının nəzəri əsaslarını və bu məqamlarda melodiya bəstələmək qaydalarını üzə çıxarmışdır. Ü.Hacıbəyovun "Azərbaycan xalq musiqisinin əsasları" kitabının internet saytı "Musiqi Dünyası" jurnalının yaradıcı qrupu tərəfindən hazırlanmışdır: *http://musbook.musigi-dunya.az*

**«AZƏRBAYCAN XANƏNDƏLƏRİ»** - divar təqvimi. Azərb. Mədəniyyətinin Dostları Fondu tərəfindən 2005 ildə üç dildə (Azərbaycan, rus, ingilis) buraxılmışdır. Təqvimdə Azərb. musiqi mədəniyyətinin inkişafında böyük rol oynamış 12 görkəmli xanəndənin portreti təqdim olunmuşdur: Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd, Məşədi Məmməd Fərzəliyev, Əbdülbaqi Zülalov (Bülbülcan), Məşədi Cəmil Əmirov, İslam Abdullayev, Məcid Behbudov, Hüseynqulu Sarabski, Seyid Şuşinski, Bülbül, Zülfi Adıgözəlov, Xan Şuşinski kimi sənətdə öz məktəbini yaratmış xanəndələr haqqında qısa bioqrafik məlumat verilmişdir.

**«AZƏRBAYCAN – İRS»** - Azərb. çap olunan mədəni-maarifçilik yönümlü jurnal. 1996 ildə "Azərbaycan Mədəniyyətinin Dostları" fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən təsis edilmişdir. Jurnal Azərb., ingilis və rus dillərində nəşr olunur. Jurnalın redaksiya heyətinə Azərb. görkəmli elm, mədəniyyət və incəsənət xadimləri daxildir: baş redaktor - akademik Arif Paşayev; nəşr redaktoru - filologiya elmləri doktoru, professor Nərgiz xanım Paşayeva; redaktor - akademik Çingiz Qacar; bədii redaktor - xalq artisti, professor Fərhad Bədəlbəyli; jurnalın direktoru - sənətşünaslıq namizədi İbrahim Quliyevdir. Jurnalın səhifələrində Azərb. tarixi, mədəniyyəti, incəsənəti barədə məqalələr çap edilir, bu günə kimi heç bir yerdə nəşr olunmamış maraqlı məlumatlar, xarici ölkələrin muzeylərində saxlanılan Azərb. tarixi ilə bağlı eksponatlar və s. çap olunur. Azərb. mədəniyyətini xarici ölkələrdə daha da geniş təbliğ etmək məqsədi ilə jurnalın artıq 16 nömrəsi bir çox ölkələrdə yayılmışdır. *http://www.azerbaijan-irs.com*





**AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN DOSTLARI FONDU (AMDF)** - qeyri-hökumət xeyriyyə fondu. 1995 ildə yaradılmışdır. Təşkilatın rəhbəri YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevadır. Fondun əsas məqsədi: milli incəsənətimizin inkişafı, təbliği, xarici ölkələrdə daha geniş tanınması, Azərb. xalqının dünya mədəniyyətinə inteqrasiyası, yeni beynəlxalq əlaqələrin formalaşması məsələlərinin həyata keçirilməsindən ibarətdir. Mehriban xanım Əliyeva fondun işini 3 istiqamətə - mədəni tədbirlər, xeyriyyə aksiyaları, naşirlik - yönəltmişdir.

Fond Azərb. görkəmli incəsənət xadimlərinin - dahi Rəşid Behbudovun xatirəsinə, Müslüm Maqomayevin, Arif Məlikovun, Fidan və Xuraman Qasımova bacılarının şərəfinə yubiley gecələri təşkil etmiş, tədbirlərlə əlaqədar Rəşid Behbudov, Fidan və Xuraman Qasımova bacılarının həyat və yaradıcılığına həsr olunmuş "Azərbaycan-İrs" jurnalının xüsusi nömrələri çap olunmuş, Rəşid Behbudovun ifa etdiyi mahnılardan ibarət CD disk buraxılmış, Arif Məlikovun yaradıcılıq gecəsi və rəsmlərindən ibarət sərgi təşkil edilmişdir.

Fondun maaliyyə köməyi ilə 1900 illərin əvvəllərində nəşr olunan "Molla Nəsrəddin" məcmuəsinin 1 və 2-ci cildləri yeni, nəfis şəkildə çapdan çıxmış, İncəsənət muzeyinin kataloqu, görkəmli şair Səməd Vurğunun xatirəsinə həsr olunmuş "Ellər Vurğunu", professor Səadət Abdullayevanın "Azərbaycan xalq musiqi alətləri" kitabları (azərbaycan və rus dillərində), professor Əhməd İsazadənin "Azərbaycan xalq musiqisinin antologiyası" kitabının I-VII cildləri, Azərbaycanın dahi şair və mütəfəkkirləri - Nizami Gəncəvi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, İmadəddin Nəsimi, Mirzə Ələkbər Sabir və başqalarının əsərlərindən ibarət toplular, akademik Çingiz Qacarın "Qədim Şuşa" kitabı nəşr edilmişdir.

Fəaliyyət dövrü ərzində Fondun Azərb. keçirdiyi xarici ölkə incəsənət xadimlərinin konsertləri, teatr tamaşaları, təqdimat mərasimləri, sərgilər, festivallar, mədəniyyət günləri və s. tədbirlər beynəlxalq miqyaslı hadisələr olmuşdur. Dünya şöhrətli incəsənət xadimlərinin - həmyerlilərimiz maestro Mstislav Rostropoviç, ABŞ-ın Culyard Musiqi Akademiyasının professoru pianoçu Bella Davidoviç, Belfast simfonik orkestrinin Baş dirijoru, violinoçu Dmitri Sitkovetskinin, "Most-Vivaldi" kamera orkestrinin, Nadejda Pavlova və Vyaçeslav Qordeyev kimi balet ulduzlarının, İqor Moiseyevin rəhbərlik etdiyi Rus Dövlət rəqs ansamblının Bakıdakı çıxışları bu qəbildəndir. Bu istiqamətdə təşkil olunan tədbirlər arasında "Musiqinin Böyük İpək Yolu" Beynəlxalq Klassik Musiqi festivalı və SEBA (Seul-Bakı) Azərb.-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası ilə birgə keçirilən Koreya Mədəniyyəti Günləri xüsusi qeyd olunmalıdır.

Azərb. muğamını dünya miqyasında təbliğ etmək və eyni zamanda, yaymaq, həmçinin bu ulu sənəti yaşadan musiqiçi və müğənnilərə qayğı göstərmək Fondun qarşısında duran mühüm işlərdəndir. Bu istiqamətdə atılan addımlar arasında "Bakı Muğam Mərkəzi"nin yaradılması, nəfis, əhatəli, rəngarəng şəkildə tərtib edilmiş "Qarabağ xanəndələri" musiqili albomun buraxılması və onun dünyanın bir çox mötəbər incəsənət mərkəzlərində yayılması, 2005 və 2007 il Respublika muğam müsabiqələrinin keçirilməsi diqqətəlayiqdir.

Azərbaycan Mədəniyyətinin Dostları xeyriyyə fondunun təşəbbüsü ilə xüsusi aylıq təqaüd təsis olunmuşdur ki, müğənnilər, teatr xadimləri, rəssamlar, muğam ifaçıları bu təqaüdlə təmin edilir. Azərb. muğamını beynəlxalq miqyasda daha geniş təbliğ etmək məqsədi ilə Fond görkəmli muğam ifaçılarının, alimlərin, muğam ilə caz sənətinin sintezini yaradan musiqiçilərin xarici səfərlərini də təşkil etmişdir. Dünya şöhrətli muğam ifaçısı Alim Qasımovun Yaponiyanın Naqoya şəhərində EXPO-2005 sərgisindəki çıxışı, musiqişünas Sənubər Bağırovanın ABŞ-ın Massaçuset Universitetində elmi məruzələri, caz sənətinin mahir ifaçıları Salman Qəmbərov və Cəmil Əmirovun ABŞ-ın Çikaqo şəhərindəki konsertləri bu qəbildəndir.

AMDF daha bir neçə böyük layihənin təşkilatçısıdır. Bunlar arasında "Bakı payızı" Beynəlxalq festivalı, IX Şərq-Qərb Bakı beynəlxalq kino festivalı, "Reklam acgözləri gecəsi" - beynəlxalq reklam filmlərinin nümayişi, 2007 ildə artıq üçüncü dəfə keçirilən Beynəlxalq Bakı Caz Festivalı ənənəyə çevrilmişdir.

AMDF keçirdiyi mədəni tədbirlərin, təşkil etdiyi xeyriyyə aksiyalarının miqyasına, yüksək səviyyəsinə görə təkcə vətənimizdə deyil, dünyanın bir çox ölkəsində böyük diqqətə və qiymətə layiq görülmüş, beynəlxalq aləmdə nüfuz qazanmışdır.

**AZƏRBAYCAN MİLLİ ARXİV İDARƏSİ** - 1930 ildə Mərkəzi Dövlət Arxivinin İnqilab tarixi şöbəsi əsasında yaradılmışdır. Arxivdə saxlanan Azərb. Xalq Maarif Komissarlığı və digər görkəmli mədəniyyət və incəsənət xadimlərinin

həyat və fəaliyyəti ilə bağlı çoxlu sənədlər qorunur. Sənədlərdən 1920 ildə Azərb. Xalq Maarif Komissarlığının musiqi bölməsinə rəhbərliyə dəvət olunan Ü.Hacıbəyovun Azərb. musiqi təhsilinin təşkilində, xüsusilə, ADK-nın yaradılmasında müstəsna xidmətləri olduğu görünür. Bundan başqa arxivdə saxlanılan yüzlərlə qərar, əmr, yazışma, məruzə, arayış və digər sənədlərdə Ü.Hacıbəyovun Azərb. professional musiqisinin inkişafı, respublikada musiqi təhsilinin təşkili və musiqi kadrlarının tərbiyəsindəki rolunu, musiqi və teatr sənəti sahəsində yaradılmışı çoxsaylı komissiyalardakı fəaliyyətini əks etdirən geniş məlumatlar vardır. İdarənin sədri, tarix elmləri doktoru Ataxan Paşayevdir.

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ FÜZULİ ADINA ƏLYAZMALAR İNSTİTUTU** - 1950 ildə Akademiya nəzdində Respublika Əlyazmalar Fondu yaradılmış, 1986 ildə fondun bazasında Əlyazmalar İnstitutu təsis edilmişdir. 1996 ildə instituta Məhəmməd Füzulinin adı verilmişdir. Hal-hazırda instituta filologiya elmləri doktoru Məmməd Musa oğlu Adilov rəhbərlik edir. İnstitutun fəaliyyətinin əsas istiqamətləri Azərb. əlyazmalarının toplanması, sistemləşdirilməsi, kataloqlaşdırılması, tədqiqi, tərcüməsi və nəşri; əlyazmaların mühafizəsi, gigiyenası və bərpası ilə bağlıdır. İnstitutda "Türkdilli əlyazmalar", "Ərəbdilli əlyazmalar", "Farsdilli əlyazmalar", "Şəxsi fondlar", "Biblioqrafiya və xidmət", "Tərcümə və informasiya" şöbələri, "Gigiyena və bərpa" laboratoriyası fəaliyyət göstərir.

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ MEMARLIQ VƏ İNCƏSƏNƏT İNSTİTUTU (AMEA MİI)** - 1945 ildə böyük Azərb. bəstəkarı, akademik Üzeyir Hacıbəyov tərəfindən yaradılıb və ilk dövrlər Azərb. İncəsənət Tarixi İnstitutu adlanırdı. 1948 ildən 40 il ərzində İnstituta məşhur memar, akademik Mikayıl Hüseynov rəhbərlik edib. Hal-hazırda institutun direktoru sənətşünaslıq doktoru, professor, akademik Rasim Səməd oğlu Əfəndiyevdir. İnstitutda "Memarlıq", "Şəhərsalma və abidələrin bərpası", "Müasir memarlıq və dizayn", "Təsviri dekorativ-tətbiqi sənət", "İncəsənətin qarşılıqlı əlaqələri", "Musiqi tarixi və nəzəriyyəsi", "Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi", "Teatr, kino və televiziya" şöbələri fəaliyyət göstərirlər. İnstitutun əsas fəaliyyət istiqaməti qədim dövrdən müasir dövrə kimi Azərb. memarlığı, incəsənəti, tarixi və nəzəriyyəsinin tədqiqi ilə bağlıdır. Veb saytın ünvanı: *www.science.az*

**AZƏRBAYCAN MİLLİ KONSERVATORİYASI (AMK)** - milli musiqi sahəsində kadrlar hazırlayan ali məktəb. AMK-nın yaranması haqqında Azərb. Respublikası Prezidentinin iki fərmanı olmuşdur: 13 iyul 2000 il tarixli "Azərbaycan Milli Konservatoriyasının təsis edilməsi haqqında"; 10 avqust 2001 il tarixli "Azərbaycan Milli Konservatoriyasının maddi-texniki bazasının yaradılması haqqında". Bu fərmanlara əsasən *Bakı Musiqi Kolleci* və *Respublika İncəsənət Gimnaziyası* AMK-nın tərkibinə daxil edilmişdir. AMK-da təhsil iki pilləlidir. Bakalavr və magistr pillələri üzrə "İfaçılıq" və "Tatix-nəzəriyyə" fakültələrində 200-dən artıq tələbə təhsil alır. "Xalq çalğı alətləri", "Solo oxuma (xanəndə)", "Xalq çalğı alətlərinin orkestrləşdirilməsi və dirijorluğu", "Milli musiqinin tarixi və nəzəriyyəsi", "İnstrumental muğam" və digər kafedralarda tar, kamança, qanun, balaban, zərb alətləri, xanəndəlik, dirijorluq, musiqişünaslıq ixtisasları üzrə ifaçı, tədqiqatçı və müəllim kadrlar hazırlanır. Burada həmçinin, "Milli musiqinin tədqiqi" və "Milli musiqi alətlərinin araşdırılması" adlı elmi laboratoriyalar fəaliyyət göstərir.

AMK-nın professor və müəllim heyəti görkəmli sənətkarlardan x.ç.a üzrə ifaçılardan, xanəndələrdən, dirijorlardan, musiqişünaslardan ibarətdir. AMK-nın rektoru xalq artisti, professor *Səyavuş Kərimidir*. Onun rəhbərliyi altında AMK çoxşaxəli fəaliyyət göstərən və respublikanın musiqi həyatında mühüm rol oynayan tədris ocağı kimi formalaşmışdır. AMK-nın müəllimləri və məzunları Azərb. muğam sənətini beynəlxalq aləmdə layiqincə təmsil edirlər, onların əksəriyyəti beynəlxalq və respublika müsabiqələrinin laureatlarıdır. AMK Avropa Şurası və YUNESKO-nun himayəsində ELİA (Avropa İncəsənət Universitetlə-ri Liqası) təşkilatının və Türkiyə Yüksək Öyrətim Kurumunun (YÖK) üzvüdür.

*Qədim əlyazmalarında çəng alətinin təsviri*



*Qədim əlyazmalarında simli musiqi alətinin təsviri*







*Sinə-ud*



*Tənbur*



*Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin eksponatları*

**AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİ DÖVLƏT MUZEYİ** - 1964 ildə yaradılmışdır. Bakıda yerləşir. Muzeyin fondunda 35 mindən çox eksponat toplanmışdır. Eksponatlar içərisində milli musiqi alətlərindən tar, kamança, saz, dəf, qoşanağara, həmçinin qədim qrammofon və patefonlar, Azərb. peşəkar musiqi sənətinin yaradıcısı Üzeyir Hacıbəyovun, milli professional vokal sənətinin banisi Bülbülün, görkəmli bəstəkarlardan Qara Qarayevin, Fikrət Əmirovun, Arif Məlikovun, Süleyman Ələsgərovun, Cövdət Hacıyevin müəllif not əlyazmaları, əsərlərindən seçmələr, musiqi xadimlərinin şəxsi əşyaları, afişalar, konsert proqramları, musiqi sənətinə həsr olunmuş kitablar və b. materiallar mühüm yer tutur. Muzeyin üç filialı - Niyazi və Vaqif Mustafazadənin ev-muzeyləri, daimi fəaliyyət göstərən x.ç.a. sərgisi vardır. Hal-hazırda muzeyin direktoru sənətşünaslıq namizədi Alla Bayramovadır. Veb saytın ünvanı: *http://www.musicmuseum.az*

**AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ** - Mədəniyyət və Turizm nazirliyi - 1953-2005 illərdə Mədəniyyət Nazirliyi, 2006 ildən Mədəniyyət və Turizm Nazirliyi. Mədəniyyət və Turizm nazirliyi ölkədə mədəniyyət və turizm sahəsində dövlət siyasətini həyata keçirir. Nazirlik mədəniyyət və incəsənətin müxtəlif sahələri (musiqi, teatr, təsviri sənət, kino ) üzrə ümumi koordinasiyanı həyata keçirir, bilavasitə dövlət teatr-tamaşa, konsert, qalereya, muzey və kitabxanaların, tarix və mədəniyyət qoruqlarının fəaliyyətini tənzimləyir, bu sahələrdə, habelə ölkədə turizmin inkişafı ilə bağlı dövlət qanun və sərəncamlarının, proqramlarının hazırlanması və icrasını təmin edir. Mədəniyyət və turizm nazirliyi Azərb. irimiqyaslı mədəniyyət tədbirlərinin, festival və müsabiqələrin, beynəlxalq mədəni əlaqələrin inkişafına təkan verən beynəlxalq toplantı və tədbirləri təşkil edir. Azərb. mədəniyyətinin xaricdə təbligi, tanıdılması, habelə milli mədəni-bədii irsin qorunması istiqamətində ardıcıl işlər aparır. Azərb. musiqi irsinin müxtəlif sahələrinin, xüsusən də muğam ifaçılığı ənənələrinin inkişafını, təbligini təmin etmək məqsədi ilə YUNESKO ilə birgə "Əbədi muğam" layihəsini, iki ildən bir Azərb. uşaq musiqi məktəbləri şagirdləri arasında gənc muğam ifaçılarının ümumrespublika müsabiqəsini keçirir. Mədəniyyət və turizm nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə 2007-2008 illərdə ilk Azərb. operası, dünya musiqi tarixində muğam operası janrının əsasını qoymuş Üzeyir Hacıbəyovun " Leyli və Məcnun" operasının 100 illiyinə həsr olunmuş "Azərbaycan musiqisi festivalı" layihəsi baş tutmuşdur. Mədəniyyət və Turizm Nazirliyi Azərb. "TÜRKSOY" və İCCROM (mədəni irsin qorunması və bərpasının tədqiqatı üzrə Beynəlxaq Mərkəz), Beynəlxalq Muzeylər Təşkilatında, Beynəlxalq Film Arxivləri Federasiyasında, Avropa Kinematoqrafçılar Assosiasiyasında, YUNESKO-nun "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyasında və s. beynəlxalq təşkilatlarda təmsil edir. Veb saytın ünvanı: *http://mct.gov.az*

**"AZƏRBAYCAN TÜRK EL NƏĞMƏLƏRİ"** - Azərb. 1927 ildə çap olunmuş xalq mahnılarından ibarət ilk məcmuə. Not yazıları Ü.Hacıbəyova və M.Maqomayevə məxsusdur. Mahnıların əksəriyyəti xanəndə Cabbar Qaryağdıoğlunun ifasından yazılmış və onlardan bir hissəsi səs və fortepiano və yaxud da xor üçün işlənilmişdir. ■

B

**BABAYEV Rafiq Fərzi oğlu** (31.03.1936, Bakı - 19.03.1994, Bakı) - pianoçu, 1950 illərdə ADMM-də və ADK-da təhsil almışdır. Gənc yaşlarından caz musiqisi ilə maraqlanmış, özünün caz kompozisiyalarını yaratmışdır. 1955 ildə caz kvarteti təşkil etmişdir. Eyni zamanda, Anatollu Qəniyevin x.ç.a. ansamblında, Tofiq Əhmədovun estrada ansamblında çalışaraq, böyük təcrübə qazanmışdır. 1960 illərdə R.Babayev SSRİ xalq artisti Rəşid Behbudovun dəvəti ilə ADF nəzdində fəaliyyət göstərən ansamblda işləməyə başlayır. R.Behbudovla yaradıcılıq ünsiyyəti, konsert fəaliyyəti, qastrol səfərləri onun üçün əsl məktəb olur. 20 il müddətində davam edən bu yaradıcılıq əməkdaşlığı yüksək sənət nümunələrini meydana gətirdi. R.Behbudovun bədii rəhbər, R.Babayevin musiqi rəhbəri olduğu ansambl dünyanın bir çox ölkələrində Azərb. musiqisini təmsil etmişdir. Bu ansamblın mühüm yaradıcılıq axtarışları sayəsində həmin dövrün musiqi estradası üçün fenomen sayılan Mahnı Teatrı yaranmışdır. Onun yaradıcılığında iki istiqamət özünü göstərir: bir tərəfdən, Mahnı Teatrında xalq və estrada musiqisi janrında çalışması, digər tərəfdən "Qaya" ansamblı, Müslüm Maqomayev və Polad Bülbüloğlu ilə yaradıcılıq əlaqəsi, caz musiqisindən ibarət albomların yazılması, Bakıda ilk caz festivallarının təşkili və dünyanın bir sıra önəmli caz festivallarında iştirakı. 1967 ildə yaratdığı "Bayatı-Kürd" muğamı əsasında caz kompozisiyası çox məşhurlaşmışdır. R.Babayev bir sıra kinofilmlərə musiqi bəstələmişdir: "Azərbaycan haqqında etüd", "Gecə söhbəti" və s. Eyni zamanda, bir çox Azərb. bəstəkarlarının kino musiqisini səsləndirmişdir. 1983 ildən AzTRV QSC Estrada-simfonik orkestrinə rəhbərlik etmişdir.



*Rafiq Babayev, pianoçu-bəstəkar*

**BABA SALAHOV ADINA "ARAZ" XALQ ÇALĞI ALƏTLƏRİ ANSAMBLI** - Azərb. fəaliyyət göstərən musiqi kollektivi. 1962 ildə AzTRV QSC nəzdində görkəmli tarzən Baba Salahovun rəhbərliyi ilə yaradılmışdır. 1981 ildə "Araz" x.ç.a. ansamblı adlandırılmışdır. 1992 ildə Baba Salahovun vəfatından sonra ansambla onun adı verilmişdir. Həmin vaxtdan bu günə kimi Baba Salahov ad. "Araz" x.ç.a. ansamblına xalq artisti, tarzən Ağasəlim Abdullayev rəhbərlik edir. Ansamblın ənənəvi tərkibi - tar, ud, qanun, bas tar, kamança, balaban, qarmon, nağara, qoşanağara kimi x.ç.a.-dan ibarətdir; repertuarı - muğam dəstgahlardan, təsnif və rənglərdən, xalq mahnı və rəqslərindən təşkil olunmuşdur. Ansambl fəaliyyət göstərdiyi müddətdə bir çox tanınmış xanəndələri müşayiət etmişdir ki, onların audio və video yazıları AzTR Fondunda qorunur.

**BABA TAHİR** - muğam guşəsi. "Şur" dəstgahının tərkibində, "Mayəyi-Şur" şöbəsindən sonra ifa olunur.

**BABAYEV Arif İmran oğlu** (20.02.1938, Ağdam ş. yaxınlığında Sarıhacılı k.) - xanəndə, xalq artisti (1988), professor (1996). "Şöhrət" (1998) və "İstiqlal" (2008) ordenlərinə layiq görülmüşdür. A.Babayev XX əsrin ikinci yarısında Qarabağ xanəndəlik məktəbinin görkəmli nümayəndələrindən biridir. O, Seyid Şuşinski, Xan Şuşinski, Zülfi Adıgözəlov kimi sənətkarların ənənələrinə əsaslanaraq, özünəməxsus ifaçılıq üslubu yaratmışdır. 1960 ildən başlayaraq Arif Babayevin yaradıcılıq yolu Bakı ş. ilə bağlı olmuşdur. O, ADMİU-də təhsil almışdır. Əvvəl ADF-na, sonra isə ADOBT-na solist kimi dəvət olunan A. Babayev bu teatrın səhnəsində muğam operalarında Məcnun, Kərəm (Ü.Hacıbəyov - "Leyli və Məcnun", "Əsli və Kərəm"), Aşıq Qərib (Z.Hacıbəyov - "Aşıq Qərib"), Camal (Ş.Axundova - "Gəlin qayası") kimi yaddaqalan obrazlar yaratmışdır. A.Babayevin ifasında bütün muğam dəstgahlar səslənmiş və lentə alınaraq AzTR Fonduna daxil olunmuşdur.







*Arif Babayev, xanəndə*

Onun yaradıcılığında "Şur", "Segah" muğam-dəstgahları, "Arazbarı", "Qarabağ şikəstəsi" zərbi muğamları xüsusi yer tutur. Xüsusilə, "Segah" muğamını A.Babayev təkrarolunmaz bir üslubda oxumuşdur. Xanəndə həm də təsnif və xalq mahnılarının ifaçısı kimi çox sevilir, onları böyük zövqlə ifa edir. A.Babayev çox saylı qastrol səfərlərində olmuşdur. Amerika, Avropa, Asiyanın bir çox ölkələrində Azərb. muğam sənətini musiqisevərlərə tanıtmışdır. Onun səsi respublikada və xaricdə qrammofon vallarına və kompakt disklərə yazılmışdır. A.Babayev AMK-nın professoru, "Solo oxuma (xanəndəlik)" kafedrasının müdiridir. Onun yetirmələri - Nəzakət Teymurova, Aygün Bayramova, Fehruz Məmmədov, Sevinc Sarıyeva, Gülüstan Əliyeva, Könül Xasıyeva, Səbuhi İbayev və b. bu gün muğam sənətinin tanınmış simalarıdır. A.Babayev muğam müsabiqələrində münsiflər heyətinin üzvü kimi iştirak edir. O, öz bilik və bacarığını istedadlı xanəndələr nəslinin yetişməsinə sərf edərək, Qarabağ muğam ifaçılığı ənənələrini yaşatmağa çalışır. A.Babayevin 70 illik yubileyi münasibətilə Heydər Əliyev Fondu tərəfindən xanəndənin səsyazılarından, həyat və yaradıcılıq yolunu əks etdirən şəkillərdən ibarət CD-albom nəşr olunmuşdur.

**BABAYEV Elxan Əlisəttar oğlu** (28.08.1948, Bakı - 02.02.2003, Bakı) - musiqişünas, sənətşünaslıq doktoru (1999), professor (1994). ABİ və Musiqi Xadimləri İttifaqının üzvü olmuşdur. Ü.Hacıbəyov ad. ADK-nın ifaçılıq (nəfəs alətləri) və musiqişünaslıq fakültələrini (1971, 1973) bitirmişdir. 1978 ildən ADK-da çalışmışdır (1993-2003 illərdə BMA-nın tədris işləri üzrə prorektoru). Elmi yaradıcılığı genişdir: bir neçə elmi monoqrafiyanın, 80-dan artıq elmi, elmi-metodik, elmi-publisistik məqalələrin, teleradio verilişlərinin müəllifidir. Tbilisi, Düşənbə, Almatı, Moskva, Bağdad, Ankara, Köln, Çikaqo, Tehran şəhərlərində keçirilən beynəlxalq elmi simpozium və konqreslərdə məruzələr etmiş, mühazirələr oxumuşdur. Elmi əsərlərinə görə musiqişünasların B.Asafyev adına beynəlxalq müsabiqəsinin laureatı olmuşdur. Əsas elmi maraq dairəsi Azərb. muğamlarının intonasiya və ritm xüsusiyyətlərinin tədqiqi ilə bağlıdır. Bu mövzuda "Azərbaycan muğam dəstgahlarının ritmikası" (1990), "Azərbaycan muğam dəstgahlarında ritm-intonasiya problemləri" (1996), "Şifahi ənənəli Azərbaycan musiqisində intonasiya problemləri" (1998) kitabları və çoxsaylı elmi məqalələri çap olunmuşdur.

**BAĞDADİ** - "Rahab" dəstgahında "Hicaz" şöbəsindən sonra "Şahnaz"a keçmək üçün istifadə olunan guşə.

**BAĞ-SİYAVUŞ** - Orta əsrlər musiqisində muğam guşələrindən biri.

**BAĞ-ŞƏHRİYAR** - Orta əsrlər musiqisində muğam guşələrindən biri.

**BAĞIROV Zakir Cavad oğlu** (16.03.1916, Şuşa - 08.01.1996, Bakı) - bəstəkar, pedaqoq, əməkdar incəsənət xadimi (1961). Moskva Dövlət Konservatoriyasını bitirmişdir (1949). Həmin ildən ömrünün sonuna kimi ADK-da dərs demişdir, "Musiqi nəzəriyyəsi" kafedrasının müdiri və professoru olmuşdur. Z.Bağırov "Aygün" operasını (Səməd Vurğunun poeması əsasında, 1972), "Kəndimizin mahnısı" (1958) və "Qayınana" (1964) operettalarını, Fortepiano və ork. üçün, Tar və ork. üçün Konsertlərini, çoxsaylı instrumental və vokal əsərlər bəstələmişdir. Z.Bağırov Azərb. muğamın ilk not nəşrlərindən birinin müəllifidir. O, tarzən Mansur Mansurovun ifasından "Dügah" muğamını nota yazmışdır. Həmin not yazısı 1936 ildə çap olunmuşdur. Bu not yazılarının təkrar nəşri "Azərbaycan xalq musiqisi antologiyası"nda (III cild, 2004) öz əksini tapmışdır.

**BAĞIROV Adil Kamil oğlu** (13.05.1937, Bakı) - tarzən, xalq artisti (2006). ADMM-də tar ixtisası üzrə təhsil almış, müəllimləri Mirzə Mansur Mansurov, Səid Rüstəmov olmuşdur. ADMİU-də təhsilini davam etdirmişdir. 1964 ildən S.Rüstəmov ad. x.ç.a. orkestrinin solistidir. Həmin ildən Ə.Dadaşovun x.ç.a. ansamblının üzvü, 1976 ildən Əhsən Dadaşov ad. "Xatirə" x.ç.a. ansamblının rəhbəridir. Ansamblla birgə respublikanın mədəni həyatında yaxından iştirak edir, əsgərlər qarşısında konsertlər

verir. Bir çox xarici ölkələrdə (Əlcəzair, Türkiyə, İran, Yaponiya, ABŞ və b.) qastrol səfərlərində olmuşdur. Solist tarzən kimi və muğam üçlüyündə də fəaliyyət göstərir. AzTR Fondunda "Bayatı-Şiraz", "Rast", "Segah" muğamlarının səsyazıları saxlanılır.

**BAĞIRZADƏ Məmmədbağir Məmmədəli oğlu** (21.07.1950, Bakı, Nardaran k. - 30.10.2005, Bakı) - xanəndə, xalq artisti (2000). Musiqi təhsilini ADMM-də Nəriman Əliyevin sinfində almış (1971-1975), ADMİU-da təhsilini davam etdirmişdir (1976-1980). Xanəndə kimi yetişməsində Bakının muğam mühiti, xüsusilə, Bakı kəndlərindəki seir-muğam məclislərinin böyük əhəmiyyəti olmuş, Əlibaba Məmmədov, Yaqub Məmmədov kimi xanəndələrin yaradıcılığından bəhrələnmişdir. Onun repertuarı muğamlardan, təsniflərdən və bəstəkar mahnılarından ibarət idi. M.Bağırzadə yaradıcı sənətkar olmuşdur. O, qəzəllər, şeirlər və onların əsasında bir çox mahnılar ("Azərbaycanım", "Ana dünyası", "Qarabağ", "Doymadım bu dünyadan" və s.) yaratmışdır. Həmin mahnılar xanəndələrin repertuarında yer tutmuşdur. M.Bağırzadənin ifası üçün ciddilik, sözün mənasını dərindən açmaq və dinləyiciyə çatdırmaq bacarığı xas idi. O, bütün muğam dəstgahlarını böyük məharətlə oxumuşdur. Səsyazıları AzTR Fondunda saxlanılır. 10-dan artıq diski buraxılmışdır. "Dilkəş" ansamblı yaratmış, bu ansamblla dünyanın bir çox şəhərlərində qastrol səfərlərində olmuşdur. M.Bağırzadə 2001 ildən BMK-də fəaliyyət göstərmiş, muğam dərsləri demişdir.

**BAĞLAYICI HİSSƏ** - əsərin əsas hissələri arasında keçid məqsədi daşıyan kiçik epizod. Muğam dəstdahlarda rənglər, diringilər, bəzən də guşələr bağlayıcı hissə əhəmiyyətini daşıyır.

**BAHADIR Mehralıoğlu** (1883, Şuşa - 05.12.1962, Ağdam) - xanəndə. Qarabağ muğam ifaçılığı məktəbinin tanınmış nümayəndələrindən biri. Muğam sənətinə Şuşada Xarrat Qulunun məktəbində yiyələnmiş, musiqi məclislərində, dini mərasimlərdə iştirak etmişdir. Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd, İslam Abdullayev, Musa Şuşinski, Seyid Şuşinski kimi xanəndələrlə sənət yoldaşı olmuşdur. Bahadır Mehralıoğlu geniş diapazonlu (iki oktava yarımdan artıq), güclü səsə malik xanəndə, muğamın, əruzun dərin bilicisi olmuş, həmçinin bir sıra təsnif lərin yaradıcısı və ilk ifaçısı ("Ay qara qız", "Uca dağlar" və s.) kimi tanınmışdır. Bir çox xanəndələr onun ifaçılıq üslubundan bəhrələnmişlər. 1920 ildən Ağdamda fəaliyyət göstərmişdir. Ağdam teatrının səhnəsində tamaşaya qoyulan muğam operalarında, el şənliklərində və konsertlərdə iştirak etmişdir. 1934 ildə Tiflis ş. keçirilən Zaqafqaziya incəsənət olimpiadasının laureatı (II yer) olmuşdur. 1934-1946 illərdə ADF-nın solisti kimi konsertlər vermişdir. B.Mehralıoğlu gözəl müəllim olmuş, böyük xanəndələr nəsli yetişdirmişdir. 1958-1962 illərdə Ağdam Orta İxtisas Musiqi Məktəbində muğam dərsləri aparmışdır. Qarabağ xanəndələrinin bir çoxu - Əbülfət Əliyev, Arif Babayev, Qədir Rüstəmov, İldırım Həsənov, Şahmalı Hacıyev onun tələbələri olmuşlar.

**BAHAR** - ən qədim zərbi muğamlardan biri.

**BAKI** - Azərb. Respublikasının paytaxtı, ən böyük mədəniyyət mərkəzi. Qədim tarixə malik Bakıda elm, mədəniyyət və incəsənətin bütün sahələri üzrə inkişaf onun mədəni mühitinin zənginləşməsinə və yüksəlişinə təkan vermişdir. Xüsusilə, XX əsrin əvvəllərindən başlayaraq, Bakının musiqi həyatının bir neçə istiqamətdə inkişaf etməsi özünü aydın büruzə verir ki, bu da sonrakı illərdə musiqi mədəniyyətinin yüksəlişi üçün bünövrəyə çevrilir. Əsas istiqamətlərdən biri Avropa və rus musiqisi ilə təmasın yaranması və musiqi ictimaiyyəti tərəfindən yeni formaların mənimsənilməsi ilə bağlı

*Bakı Filarmoniyasının binası XX və XXI əsrlərin əvvəlində*









idi. Həmin dövrdən başlayaraq, Bakıda xarici musiqiçilərin, opera truppalarının qastrolları artır. Bunun nəticəsi olaraq, simfonik və kamera musiqisi konsertlərinin, opera tamaşalarının təşkili işi genişlənir ki, bu da Bakının musiqi həyatını canlandırır.

Digər bir istiqamət milli musiqi yaradıcılığının və ifaçılığının yeni növlərinin meydana gəlməsi ilə əlaqədar idi ki, bu da Azərb. bəstəkarlıq məktəbinin formalaşmasında mühüm əhəmiyyətə malik idi. Bu baxımdan, məşhur xanəndə və sazəndə dəstələrinin, aşıqların iştirakı ilə Şərq konsertlərinin verilməsi, muğamlar əsasında musiqili səhnəciklərin göstərilməsi, dram tamaşalarının fasilələrində muğam ifaçılarının çıxışı və nəhayət, Azərb. musiqili səhnə əsərlərinin yaranması, muğam operalarının və musiqili komediyaların meydana gəlməsi əlamətdardır.

Bu dövrdə musiqi həyatında özünü göstərən daha bir istiqamət musiqi maarifçiliyinin yaranması idi. Xüsusilə, Bakıda fəaliyyət göstərən qabaqcıl mədəniyyət xadimləri xalqın maariflənməsi uğrunda, milli ədəbiyyat və incəsənət uğrunda mübarizə aparırdılar. Azərb. ədəbiyyatının və mədəniyyətinin mütərəqqi fikirli xadimlərinin xalq kütlələrini oyandırmaq, maarifləndirmək, irəli aparmaq naminə gördüyü işlər - məktəblərin açılması, müxtəlif maarifçilik cəmiyyətlərin yaradılması, xalqın tədriclə Avropa tipli musiqi mədəniyyətinə alışdırılması milli mədəniyyətin inkişafında mühüm əhəmiyyət kəsb etmişdir.

1920 illərdə Azərb. ictimai-siyasi həyatında baş verən dəyişikliklər nəticəsində milli mədəniyyətin inkişafında yeni yolların açılması, musiqi təhsilinin genişlənməsi, ifaçılıq sənətinin yüksəlişi prosesi muğam ifaçılarının da fəaliyyətinin yeni məcrada inkişafını şərtləndirdi. Bu baxımdan, musiqi məktəbləri şəbəkəsinin yaradılmasını qeyd etməliyik ki, muğam ifaçıları dövlət tərəfindən açılan bu musiqi məktəblərində sənət müəllimi kimi geniş fəaliyyət göstərmişlər. 1920 illərdə Şərq konservatoriyasında, daha sonralar ADMM-də, ADK-da (Bakı Musiqi Akademiyasında), hal-hazırda isə AMK-da, ADMİU-da muğam sənəti tədris olunur.

Lakin XX əsrin əvvəllərindən yaranmış ənənələr də müasir dövrdə davam və inkişaf etdirilir. Hal-hazırda da muğam ifaçılarının fəaliyyət sahəsi teatr və konsert səhnəsi ilə bağlıdır. Xanəndələrin bir çoxu ADOBT-nın solisti kimi Azərb. bəstəkarlarının muğam operalarında çıxış edirlər. ADF-nin solisti kimi geniş dinləyici auditoriyası qarşısında, həmçinin radio və televiziyada konsertlər verirlər.

*Məşədi Süleyman Mansurov (sağda) və musiqiçilər dəstəsi muğam məclisində*



**BAKI MUĞAM MƏCLİSLƏRİ** - XIX əsrdə Bakı ş.-də və Bakıətrafı kəndlərdə (Nardaran, Mərdəkan, Maştağa, Əmircan və b.) şair və muğamatçıları öz ətrafına toplayan yığıncaqlar. Azərb. muğam sənətinin inkişafında Bakı məclislərinin böyük rolu olmuşdur. Bakıdakı ən böyük musiqi məclisinin rəhbəri Məşədi Məlik Mansurov (1838-1909) öz dövrünün açıq fikirli, istedadlı, mədəni şəxslərindən biri, "musiqiçilər ailəsinin" görkəmli nümayəndəsi olmuşdur. Məşədi Məliyin Bakıda İçəri şəhərdəki evinin böyük salonunda tez-tez dövrünün məşhur ziyalıları və sənətkarları yığışır, Qarabağdan, Şirvandan, İrandan gələn musiqiçilər bu evin qonağı olurdu. Hacı Hüsü, Əbdülbaqi (Bülbülcan), tarzən Mirzə Sadıq Əsəd oğlu (Sadıqcan), Məşədi Zeynal kimi tanınmış Qarabağ musiqiçiləri Məşədi Məliklə dostluq edirdi. Məclislərdə yerli musiqiçilər iştirak edirdilər. Burada görkəmli xanəndə və musiqiçilərlə yanaşı, gənclər də ifaçılıq məharətini nümayiş etdirir, ustadlardan bəhrələnməyə çalışırdılar. Bu musiqi məclislərində ifaçılıq sənəti barəsində ciddi söhbətlər aparılır, musiqi tarixinə fikir verilirdi. Burada muğamatın nə zaman, kim tərəfindən, hansı şəraitdə yaradılması mövzusu məclis üzvlərini daha çox maraqlandırırdı. Eyni zamanda, hər bir muğam məclisdə ayrıca müzakirə olunurdu. Muğamların tamam-dəstgah və düzgün oxunmasına xüsusi diqqət yetirilərdi. Burada Ağasəid oğlu Ağabala, Seyid Mirbabayev, Ağa Kərim Salik, Bəylər, Əli Zühab, Mirzə Fərəc və b. musiqiçilər toplaşaraq öz musiqi sənətlərini nümayiş etdirirdilər. Məşədi Məliyin təşkil etdiyi musiqi məclisi Bakı musiqiçilərinin bütöv bir nəslini yetişdirib tərbiyə etmişdi. Məşədi Məliyin oğlanları - Məşədi Süleyman və Mirzə Mansur bu ənənəni davam etdirmişlər.

**BAKI MUSİQİ AKADEMİYASI (BMA)** - əvvəlki Üzeyir Hacıbəyov ad. Azərbaycan Dövlət Konservatoriyası (ADK) - respublikanın ali musiqi təhsili məktəbi. Azərb. hökumətinin 1921 il 26 avqust tarixli qərarı ilə təsis edilmişdir. ADK-nın yaradılması və inkişafında, tədris prosesinin təşkilində, ümumiyyətlə, konservatoriyanın musiqi həyatında Ü.Hacıbəyovun (1939-1948 illərdə rektor) müstəsna rolu olmuşdur. ADK-da hələ ilk illərdən milli kadrların hazırlanmasına xüsusi diqqət verilmişdir. Ü.Hacıbəyovun 1922 ildə azərb. tələbələr üçün təşkil etdiyi Azərb. Dövlət Türk Musiqi Məktəbinin fəaliyyəti və 1926 ilə onun ADK ilə birləşdirilməsi də musiqi təhsilinin tərəqqisində mühüm əhəmiyyətli hadisə olmuşdur. ADK-da Azərb. musiqisinin inkişafı məsələləri ilə əlaqədar müxtəlif tədbirlər həyata keçirilmiş, tələbələrdən ibarət



*Bakı Musiqi Akademiyası (BMA)*

ilk çoxsəsli xor (1926), Azərb. xalq musiqisini toplamaq və tədqiq etmək üçün Elmi-Tədqiqat Musiqi Kabineti (1931) təşkil edilmişdi. Bəstəkarlardan A.Zeynallı, S.Rüstəmov, pianoçulardan K.Səfərəliyeva, V.Kozlov, dirijor Ə.Həsənov, musiqişünaslardan X.Ağayeva və b. ADK-nın ilk məzunlarındandır. Yarandığı vaxtdan etibarən ADK-nın tədris prosesində ənənəvi Avropa musiqi təhsili sistemi ilə yanaşı, klassik milli musiqi irsinin öyrənilməsinə böyük diqqət verilmişdir. ADK-da bəstəkarlıq-nəzəriyyə, fortepiano, orkestr, vokal şöbələri ilə yanaşı, Şərq şöbəsi - x.ç.a. ifaçılığı şöbəsi açılmışdı. Sonralar tədris planına Ü.Hacıbəyovun işləyib hazırladığı Azərb. xalq musiqisinin əsasları kursu daxil edilmişdir. ADK-nın inkişafında müasir Azərb. vokal məktəbinin baniləri Bülbül və Ş.Məmmədova, Moskva və Peterburq konservatoriyalarının yetirmələri olan musiqiçi pedaqoqlar - M.Pressman, İ.Aysberq, B.Karagiçev, L.Ab, S.Bretanitski, G.Şaroyev, M.Brenner və b. böyük rol oynamışlar. ADK-nın inkişaf mərhələlərində, müxtəlif ixtisaslar üzrə musiqiçi kadrların hazırlanmasında, xüsusilə Azərb. bəstəkarlarının yeni nəslinin yetişməsində, musiqi tədrisinin inkişafı prosesində Q.Qarayevin (1949-1952 illərdə rektor), C.Hacıyevin (1957-1969 illərdə rektor), K.Səfərəliyevanın, Ə.Abbasovun (1953-1957 illərdə rektor), E.Nəzirovanın, R.Atakişiyevin, Z.Bağırovun, M.İsmayılovun, B.Hüseynlinin, S.Ələsgərovun, C.Cahangirovun, S.Hacıbəyovun (1969-1974 illərdə rektor), A.Məlikovun, X.Mirzəzadənin, E.Abasovanın (1977-1991 illərdə rektor),F. və X. Qasımovaların, V.Adıgözəlovun və b. mühüm xidmətləri vardır. 1949 ildən ADK Üzeyir Hacıbəyovun adını daşıyır. 1994 ildən Bakı Musiqi Akademiyası (BMA) adlanır. 2000 ildə x.ç.a. şöbəsi ayrılaraq, AMK-nın tərkibinə daxil olmuşdur.

Hal-hazırda BMA-ya SSRİ xalq artisti, professor Fərhad Bədəlbəyli rəhbərlik edir. BMA-da təhsil iki pilləlidir: bakalavr və magistr pillələri





üzrə Fortepiano, İfaçılıq, Musiqi tarixi və nəzəriyyəsi fakültələrində bəstəkarlıq, musiqişünaslıq, etnomusiqişünaslıq, fortepiano, orqan, vokal, dirijorluq, nəfəsli və simli alətlər ifaçılığı ixtisasları üzrə mütəxəssislər yetişdirilir. ADK-nın nəzdində Ş.Məmmədova ad. Opera studiyası, Məktəb studiya, "Şifahi ənənəli musiqinin tədqiqi problemləri", "Qədim musiqi alətlərinin bərpası" elmi laboratoriyaları, "Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi" kafedrasının tərkibində "Xalq musiqisi kabineti" və s. qurumlar fəaliyyət göstərir. Veb saytın ünvanı: *http://musakademiya.musigi-dunya.az*

**BAKI MUSİQİ KOLLECİ (BMK)** - Asəf Zeynallı ad. Orta İxtisas Musiqi Texnikumu - milli musiqiçi kadrları hazırlayan 4 illik orta ixtisas musiqi təhsili məktəbi. Əsası Tiflis və Moskva konservatoriyalarının məzunu olan A.N.Yermolayeva tərəfindən 1895-1896 tədris ilində şəxsi musiqi məktəbi kimi qoyulmuş, 1901 ildə Rus Musiqi Cəmiyyətinin Bakı şöbəsi nəzdində fəaliyyət göstərmişdir; bunun əsasında 1916 ildə ilk musiqi texnikumu yaradıldı. Burada vokal, skripka, violonçel və s. alətlərdə çalmaq üzrə dərs keçirilirdi. İllər ötdükcə burada təhsil alanların sayı artmış, müəllim heyəti ixtisasçılarla zənginləşmişdir. 1953 ildə məktəbə Asəf Zeynallının adı verilmişdir. 1999-2000 tədris ilində Azərb. Respublikası Təhsil Nazirliyinin əmri ilə Texnikum Bakı Musiqi Kolleci adlandırılmışdır. BMK-nə müxtəlif illərdə Ü.Hacıbəyov, S.Ələsgərov, V.Adıgözəlov, B.Mehdiyev və b. rəhbərlik etmişlər. Hal-hazırda BMK-nin direktoru əməkdar incəsənət xadimi, professor Nazim Kazımovdur.

Bir əsrdən artıq yaşı olan bu musiqi məktəbi müxtəlif ixtisaslar üzrə səkkiz mindən artıq musiqiçi kadr yetişdirmişdir. Onun məzunlarının sorağı yaxın-uzaq xarici ölkələrdən gəlir. Məktəbin yetirmələri Azərb. və onun hüdudlarından uzaqlarda yerləşən ölkələrdə musiqi həyatında mühüm rol oynayan sənətkarlar kimi tanınmışlar. BMK respublikada muğam ifaçıları yetişdirən əsas baza təhsil ocağı olmuş və hal-hazırda da bu missiyanı daşıyır. Burada görkəmli muğam ustadları - Seyid Şuşinski, Mirzə Mansur Mansurov, Qurban Primov və onların ənənələrinin davamçıları Əhməd Bakıxanov, Bəhram Mansurov, Nəriman Əliyev, Hacıbaba Hüseynov, Əlibaba Məmmədov, Ağaxan Abdullayev və başqalarının fəaliyyəti xanəndə və xalq musiqi ifaçılarının yetişdirilməsində mühüm əhəmiyyətə malikdir. BMK-də hal-hazırda 1400 nəfərə yaxın tələbə təhsil alır, 400 nəfərdən artıq müəllim kollektivi çalışır. Bir çox muğam ustadları kollecin müəllimləridir.

**BAKIXANOV Əhmədxan Məmmədrza oğlu** (05.09.1892, Bakı - 26.03.1973, Bakı) - tarzən, pedaqoq, musiqi xadimi, əməkdar müəllim (1943), əməkdar incəsənət xadimi (1964), xalq artisti (1973). İlk təhsilini İranda almış, burada ustad tarzənlərdən tar ifaçılığının və muğamatın sirlərinə dərindən yiyələnmiş, 1920 ildən Bakıda musiqi məclislərində və konsertlərdə çalmış, müəllimlik etmişdir. 1930 illərdən Üzeyir Hacıbəyovun dəvəti ilə ADK-da, daha sonra ADMM-də muğamdan dərs demişdir (1930-1973). Azərb. radiosunun nəzdində x.ç.a. ansamblının təşkilatçısı və rəhbəri (1931-1973) olmuşdur. 1973 ildən həmin ansambl Əhməd Bakıxanovun adını daşıyır. Bu ansambl bir çox görkəmli xanəndələri - Cabbar Qaryağdıoğlunu, Seyid Şuşinskini, Hüseynqulu Sarabskini, Zülfi Adıgözəlovu və b. müşayiət etmiş, geniş konsert proqramları ilə çıxış etmişdir. Azərb. xalq musiqisinin, xüsusilə muğamların təbliğində



*Əhmədxan Bakıxanov, tarzən*

Ə.Bakıxanovun böyük xidməti var. O, muğam sənətinin dərin bilicisi olmuş, ifaçılıq təcrübəsində az ifa olunan "Nəva-nişapur", "Əbu-əta" muğamlarının mahir ifaçısı kimi tanınmışdır. Eyni zamanda, onun yaratdığı bir çox melodiyalar, rənglər xalq ifaçılığında geniş yayılmışdır. Ə.Bakıxanov "Azərbaycan xalq rəngləri" (1964), "Azərbaycan ritmik muğamları" (1968), "Muğam, mahnı, rəng" (1975) kimi not nəşrlərinin müəllifidir. Bu məcmuələr xalq musiqisinin tədrisi və tədqiqi üçün qiymətli vəsaitdir. Onun musiqi məktəbləri üçün tərtib etdiyi muğam proqramı tar tədrisində bu gün də istifadə olunur. Ə.Bakıxanov ömrünün çox hissəsini musiqi kadrlarının tərbiyəsinə həsr etmişdir: Həbib Bayramov, Əhsən Dadaşov, Sərvər İbrahimov, Əliağa Quliyev, Əlikram Hüseynov onun tələbələri olmuşlar. Bir çox bəstəkarların (Arif Məlikov, Hacı Xanməmmədov, Nəriman Məmmədov

və b.) muğam müəllimi olmuşdur. İranlı musiqiçilər Əli Səlimi və Adil Axundzadə onun yetirmələri olmuşlar. Ə.Bakıxanovun ifasından bəstəkar N.Məmmədov tərəfindən bir çox instrumental muğamlar: "Rast", "Şur", "Bayatı-Şiraz", "Segah-Zabul", "Rahab", "Şüştər", "Hümayun", "Şahnaz" muğamları nota salınaraq çap olunmuşdur. Ə.Bakıxanovun oğlu, bəstəkar, xalq artisti Tofiq Bakıxanov onun ifaçılıq üslubundan bəhrələnərək, "Dügah", "Nəva", "Şahnaz", "Hümayun", "Rahab" simfonik muğamlarını bəstələmişdir. Əhməd Bakıxanovun mənzilində Azərb. Dövlət Musiqi Mədəniyyəti Muzeyinin filialı yaradılmış, burada tarzənin x.ç.a.-dan ibarət zəngin kolleksiyası sərgisi nümayiş olunur. 1994 ildə Əhməd Bakıxanovun 100 illiyinə həsr olunmuş tələbə və gənclərin tar alətində muğam ifaçılığı üzrə respublika müsabiqəsi keçirilmişdir.

**BAKIXANOV Məmmədxan Məmmədrza oğlu** (1890, Bakı - 20.02.1957, Bakı) - tarzən, əməkdar artisti (1943). İlk təhsilini İranda almış, 1916 ildən məclislərdə çıxış etməyə başlamışdır. 1920 ildən Bakıda fəaliyyət göstərmişdir. Şərq konservatoriyasında təhsil almış, Şirin Axundov və Məşədi Həsənin sinfində sənətini təkmilləşdirmişdir; eyni zamanda, konservatoriyanın inspektoru vəzifəsində çalışmışdır. 1923-1936 illərdə Əli Bayramov ad. əməkçi türk qadınlarının Mərkəzi Mədəniyyət Sarayında tar müəllimi olmuş, ilk dəfə burada qızlardan ibarət "Şərq orkestri" yaratmışdır. M.Bakıxanov gənc musiqiçi kadrların yetişdirilməsinə, milli musiqi mədəniyyətinin inkişafına böyük əmək sərf etmişdir. Onun rəhbərlik etdiyi "Şərq orkestri" respublikada və başqa şəhərlərdə geniş konsert proqramları ilə çıxış edərək çox məşhurlaşmış, olimpiada və festivalların iştirakçısı olmuşdur; 1934 ildə Tiflis ş.-də keçirilən Zaqafqaziya incəsənət olimpiadasında, 1936 ildə Moskvada bədii özfəaliyyət kollektivlərinin baxış-müsabiqəsində birincilik qazanmışdır. M.Bakıxanov 1941 ildən ömrünün sonuna kimi ADF-nın solisti olmuşdur. Klassik muğam ifaçılığı texnikasına dərindən bələd olan mahir tarzən həm solo ifaçı, həm də müşayiətçi kimi tanınmışdı. O, musiqi məclislərində və konsertlərdə Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Zülfi Adıgözəlov kimi ustad xanəndələri müşayiət etmişdir. M.Bakıxanovun oğlu əməkdar artist Akif Bakıxanov tanınmış viola ifaçısı, Ü.Hacıbəyov ad. Azərb. Dövlət Simfonik orkestrinin konsertmeysteridir.

**BAKIXANOV Tələt Soltan oğlu** (13.06.1927, Bakı - 30.05.2000, Bakı) - kamança ifaçısı, əməkdar artisti (1975). Musiqiçi kimi yetişməsində əmisi Əhməd Bakıxanovun böyük rolu olmuşdur. A.Zeynallı ad. ADMM-də (1947-1949) kamança ixtisası üzrə Hafiz Mirzəliyevdən və Firuz Əlizadədən dərs almışdır. 1947 ildən M.Maqomayev ad. ADF-nın solisti olmuşdur. Bir sıra xarici ölkələrdə (Fransa, İndoneziya, Malta, İran, Türkiyə, Suriya və s.) qastrol səfərlərində olmuş, muğam üçlüyünün tərkibində görkəmli xanəndələri müşayiət etmişdir. Azərb. muğamlarının, xüsusilə, "Segah" instrumental muğamının ən gözəl ifaçılarından biri kimi tanınmışdır. T.Bakıxanov respublika və beynəlxalq əhəmiyyətli müsabiqələrin, simpoziumların iştirakçısı və qalibi olmuşdur. 1970-1980 illərdə Səmərqənddə keçirilən "Yaxın və Orta Şərq xalqları peşəkar musiqisinin ənənələri və müasirlik" mövzusunda birinci və ikinci beynəlxalq simpoziumlarının iştirakçısı olmuş, B.Mansurov, C.Əkbərov, A.Qasımov kimi sənətkarlarla birgə Azərb. muğam ifaçılığı sənətini təmsil etmişdir. T.Bakıxanov 1988 ildən Bülbül ad. Orta İxtisas Musiqi Məktəbində çalışmışdır.

**BAKIXANOV Tofiq Əhmədxan oğlu** (08.12.1930, Bakı) - bəstəkar, xalq artisti (1990), professor (1983). "Şöhrət" ordeninə (2000) layiq görülmüşdür. ABİ-nın üzvü. ADK-nı skripka və bəstəkarlıq üzrə (Q.Qarayevin sinfi) bitirmişdir. ADK-nın "Kamera ansamblı" kafedrasında çalışır. 1969 ildə Parisdə keçirilən VII beynəlxalq rəqs festivalında; 1998, 2000, 2001 illərdə Quzey Kıbrıs Türk Cümhuriyyətində II, IV, V beynəlxalq "Bellapais" musiqi festivallarında, Moskvada, Tiflisdə, son illərdə İstanbul, İzmir, Tehran və Bolqarıstanda müəllif konsertləri ilə çıxış etmişdir. T.Bakıxanovun yaradıcılıq irsi genişdir. O, "Xəzər balladası" (1968), "Şərq poeması" (1976), "Xeyir və Şər" (1990) birpərdəli baletlərinin, "Altı qızın biri pəri"



*Tofiq Bakıxanov, bəstəkar*





(1964), "Məmmədəli kurorta gedir" (1969), "Qız görüşə tələsir" musiqili komediyalarının (N. Məmmədovla birgə), müxtəlif alətlər üçün yazılmış 24 sonata, 26 konsert (simfonik orkestrin müşayiəti ilə), vokal və instrumental əsərlərin müəllifidir. T.Bakıxanov 5 simfonik muğamın müəllifidir: "Dügah", "Hümayun", "Nəva", "Rahab", "Şahnaz". Simfonik muğamlarının səsyazısı AzTR Fondunda saxlanılır.

**"BAKU"** - Moskvada çap olunan rus dilli jurnal. Baş redaktoru və naşiri Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyinin başçısı Leyla Əliyevadır. Jurnalın ilk sayı 2007 ildə nəşr olunmuşdur. Jurnalda Azərb. və Rusiya arasındakı mədəniyyətlərarası əlaqələri işıqlandıran, Azərb. haqqında həqiqətləri dünyaya çatdıran maraqlı materiallar və illüstrasiyalar öz əksini tapır. *http://baku-media.ru*

**BALABAN (balaman)** - nəfəslə çalınan qədim Azərb. musiqi aləti. Fındıq, tut, qoz, yaxud ərik ağacından hazırlanır. Silindrik gövdəsi (uzunluğu 280-320 mm) üzərində 9 dəlik (8-i ön, biri isə arxa tərəfdə) olur. Gövdəsinin baş



*Balaban - nəfəsli musiqi aləti*

tərəfinə qamışdan ikiqat dilçəkli yastı müştük taxılır. Buna görə də el arasında balabana - "yastı balaban" deyilir. Müştüyün ortasındakı xərək vasitəsilə alətin kökü dəyişdirilir. Balabanın diapazonu kiçik oktavanın sol səsindən ikinci oktavanın do səsinə qədərdir. Yumşaq, təsirli, həzin tembri var. Balabandan həm solo alət kimi istifadə olunur; həm də x.ç.a. ansamblları və orkestrlərində, aşıq ansambllarında müşayiətedici alət kimi o, əsasən, dəmsaz (fon əmələ gətirən) alət olaraq xüsusi yer tutur. Muğam ansamblına da balaban aləti daxil olunaraq, səslənməyə xüsusi tembr boyaları aşılayır. Tanınmış balabançalanlardan Bəhruz Zeynalovun adını çəkmək olar.

**BALASAQUNİ Yusif Xass Hacib** (təqr. 1021, Balasaqun ş. - ? ) - Orta Asiya şairi, alim və mütəfəkkir. Türkdilli xalqların qədim ədəbi abidələrindən olan "Kutadqu biliq" ("Xoşbəxtlik bəxş edən elm", 1069; uyğur dilində) poemasının müəllifidir. Balasaquninin etik görüşləri İbn Sinanın təliminə əsaslanır, yaradıcılığına Firdovsinin təsiri olmuşdur. Türkdilli xalqların şeirinə əruz vəznini ilk dəfə Balasaquni gətirmiş, poemasını mütəqarib bəhrində, məsnəvi formasında yazmışdır.

**BALU-KƏBUTƏR** (hərfi mənası: *bal* - qanad, *kəbutər* - göyərçin) - **1.** Şur və hümayun dəstgahlarının mayəsində hər bir musiqi cümləsini ayrılıqda tamamlamaq üçün (kadans) hər dəfə zildən bəmə doğru kvarta intervalının özünəməxsus tərzdə çalınmasına (tarda iki dəfə boş ağ simin və sonra bir dəfə boş sarı simin vurulması) əsaslanır. **2.** Orta əsr Azərb. klassik musiqisində "Rast" və "Rəvahi" ("Rahab") dəstgahlarında "Mavərənnəhr" ilə "Hicaz" şöbələri arasında ifa olunan guşə; **3.** "Çahargah" muğamının mayəsində çalınan instrumental epizod.

**BANK-SƏBZƏ** (hərfi mənası: yaşıllıqdan gələn səs) - muğam guşəsi.

**BARATAŞVİLİ Nikolas** (1816-1845) - görkəmli gürcü şairi. Naxçıvanda olarkən, o dövrün məşhur xanəndəsi Səttarla tanış olmuş, onun oxumağına heyran olaraq, onu yüksək qiymətləndirmişdir. N.Barataşvilinin evində təşkil edilən poeziya və musiqi gecələrində Səttar böyük məharətlə öz sənətini nümayiş etdirirdi. Bu məclislərdə iştirak edən Naxçıvan xanının qızı Qönçə bəyimin şeirlərini N.Barataşvili gürcü dilinə çevirmiş, Səttar isə bu şeirlər əsasında həm Azərb., həm də gürcü dilində mahnılar oxumuşdur.

**BARBƏD** - Orta əsrlər Şərq musiqi mənbələrində adı çəkilən xanəndə, musiqi alətləri ifaçısı və şair. Təxm. VI-VII əsrlərdə I Xosrov Pərviz şahın sarayında musiqiçi olmuşdur.

*Orta əsrlərin miniatüründə Barbədin təsviri*



Barbədin ad. orta əsrlər Şərq ədəbiyyatının bir çox nümunələrində rast gəlmək olur. İran şairi Firdovsinin (X əsr) "Şahnamə" əsərində, Azərb. şairi Nizaminin (XII əsr) "Xosrov və Şirin" poemasında Barbədin adı çəkilir, onun sənətkarlığından söz açılır. Nizami poemada şahın sarayında keçirilən musiqi məclisində Barbədlə Nəkisanın yarışmasını təsvir edir, onların oxuduğu muğamların adını göstərir ki, bu da o dövrün musiqi həyatı haqqında qiymətli məlumat hesab olunur. XIV əsr İran tarixçisi Həmdulla Qəzvinli Barbədi türkmən baxşılarına aid edir.

**BARMAQ** - xalq musiqi ifaçılığında istifadə olunan termin. Musiqi aləti ifaçısının fərdi yaradıcılıq üslubu ilə bağlı melodik ibarə, çox kiçik, lakin bitkin instrumental epizod, improvizasiya prosesində yaradılan variant mənasını daşıyır.

**BAS** (italyan: *basso* - aşağı, bəm, qalın) - ***1.*** Qalın kişi səsi; diapazon həcmi böyük oktavanın fa səsindən birinci oktavanın fa səsinə kimidir. ***2.*** Nəfəsli orkestrlərdə istifadə olunan genişmenzuralı mis nəfəs aləti. ***3.*** Akkordun ən aşağı səsi. ***4.*** Çoxsəsli musiqidə ən aşağı səs.

**BAS ALƏTLƏR** - registrinə görə aşağı, bas kişi səsinə uyğun gələn alətlərin müxtəlif növləri. Orkestrdə qalın səsli alətlər. Müxtəlif tərkibli orkestrlərdə hər bir alətlər qrupunda bas alətlər yer almışdır; məs., simf ork.-də faqot, tuba, *kontrabas* və s.; x.ç.a. orkestrində *bas tar,* bas balaban və s.

**BAS TAR və ya BƏM TAR** – tarın ən aşağı registrə malik növü; qalın, bəm səsli simli-dartımlı musiqi aləti. XX əsrin 60 illərində musiqi kollektivlərində bas (bəm) səslərə olan ehtiyacı ödəmək üçün yaradılmışdır (Fərid Fərzəlibəyov tərəfindən). Bas tarın quruluşuna görə tarın böyük formasıdır, mizrabı adi tar mizrabından iki dəfə böyükdür. Bir qayda olaraq, tarzənlər tərəfindən ifa olunur. Alətin notları bas açarında yazılır.

**BAVİ** (qəbilə adı) - "Hümayun" dəstgahında "Əbülçəp" ilə "Süzi - güdaz" şöbələri arasındakı guşə.

**BAYATI** - Xalq şeiri forması; bir bəndi dörd misradan təşkil olunaraq, hər misrası yeddi hecadan ibarətdir; misralar *aaba* şəklində qafiyələnir. Əsas fikir son iki misrada ifadə edilir. Xalq ədəbiyyatında geniş yayılmış janrlardan biridir. Bayatılarda dərin fikir, müəyyən bir fəlsəfi məna ifadə olunur. Bayatıların mənşəcə Azərb. yaşayan qədim türkdilli bayat tayfasının adı ilə bağlı olduğu ehtimal edilir. Şifahi ənənəli musiqidə bir çox xalq mahnılarının mətn əsasını bayatılar təşkil edir. Bir sıra zərbi muğamlarda da poetik mətn kimi bayatılardan istifadə olunur. Məsələn: *Heyratı, Arazbarı, Qarabağ şikəstəsi, Kəsmə şikəstə və s.* Eyni zamanda, bayatı xalq musiqi ifaçılığına daxil olmuşdur. Bayatı adı ilə başlanan çoxsaylı muğam şöbələri yaranmışdır: *Bayatı-İsfahan, Bayatı-Əcəm, Bayatı-Qacar, Bayatı-türk, Bayatı-kürd, Qatar-bayatı, Çoban-bayatı və s.*

**BAYATI-ƏCƏM** - muğam şöbəsi. "Bayatı-Kürd" kiçik həcmli muğamının tərkibinə daxil olan ikinci əsas şöbə (əcəm - ərəb olmayan adama deyilir, "əcəmin bayatısı" mənasını verir).

**BAYATI–ƏRƏBAN** - Orta əsrlərdə Şərq musiqisində muğam şöbəsi.

**BAYATI–İSFAHAN** - muğam şöbəsi. *"Bayatı-Şiraz"* muğam dəstgahının əsas şöbələrindən biri. XX əsrə qədərki dövrdə muğam ifaçılığında "Bayatı - İsfahan" dəstgahı mövcud olmuş və aşağıdakı şöbələri əhatə etmişdir: "Bərdaşt", "Gərduniyyə", "Nişibi-fəraz", "İsfahanək", "Bayatı - İsfahan", "Xosrovan", "Nühif", "Hacı-Yuni", "Naleyi-zənbur", "Məsnəvi", "Pəhləvi", "Bayatı - kürd", "Qatar", "Bayatı-əcəm", "Gəbri", "Baba Tahir", "Azərbaycan", "Əbül-çəp", "Bayatı-Şiraz", "Xavəran", "Üzzal", "Dilrüba" və "Mayə Bayatı - Şiraza ayaq". Yalnız XIX əsrin axırlarından "Bayatı - Şiraz" muğamı müstəqil muğam kimi tanınmağa başlamış, "Bayati-İsfahan" isə onun tərkibinə əsas şöbə kimi daxil olmuşdur.

**BAYATI-KÜRD** - kiçik həcmli muğam. "Şur" muğam ailəsinə daxildir. Tərkibi üç şöbədən ibarətdir: a) "Bayatı-Kürd"; b) "Bayatı-Əcəm"; c) "Bayatı-Kürdə ayaq" (kadensiya). Re mayəli şur məqam-tonallığında oxunur. Əvvəllər "Şur" muğam dəstgahının bir şöbəsi olmuş, sonradan kiçik həcmli muğam kimi ifaçılıq təcrübəsinə daxil olmuşdur. "Bayatı-Kürd" muğamının musiqisi qəmgin, dalğın, həyəcanlı xarakter daşıyır.

**BAYATI-QACAR** - ***1.*** Muğam dəstgah. Məcmusu "Bərdaşt", "Mayə", "Hüseyni", "Şikəstə", "Zil Bayatı-Qacar", "Zəmin-xarə", "Dügah", "Mavərənnəhr", "Şah Xətai", "Ruhül-ərvah" kimi şöbələrdən ibarətdir. ***2.*** "Şur" və "Dügah" muğamlarının tərkibində ifa olunan əsas şöbələrdən biri.





**BAYATI-RACE** - "Şur" muğam ailəsinə daxil olan "Əfşarı" muğamının guşələrindən biri.

**BAYATI-ŞİRAZ MƏQAMI** - Azərb. musiqisində yeddi əsas məqamdan biri (Ü.Hacıbəyov). Quruluşu: 1-1-1/2(ton, ton, yarım ton) ton formullu iki tetraxordun k.3 interval məsafəsində birləşməsindən ibarətdir; səssırası 9 pillədir, IV pillə mayə (tonika) pilləsidir. Məqamın səssırasının II, IV, VI, VIII pillələri istinad-dayaq pilləsi kimi "Bayatı-Şiraz" muğamının şöbələrinin əsasını təşkil edir; bu məqamda qurulan musiqi nümunələri həmin pillələrə əsaslanır.

Bayatı-şiraz məqamının səssırası:




**BAYATI-ŞİRAZ MUĞAMI** - Azərb. muğam dəstgahlarından biri. Məcmusu: "Bərdaşt", "Mayə-Bayatı-Şiraz", "Nişibi-fəraz", "Bayatı-İsfahan", "Zil Bayatı-Şiraz", "Xavəran", "Üzzal", "Dilrüba" və "Bayatı-Şiraza ayaq (kadensiya)" kimi şöbə və guşələrdən ibarətdir. Bu muğam dəstgah "sol" bayatı-şiraz məqam kökündə (tonallığında) ifa olunur. "Bayatı-Şiraz" muğamı öz gözəl, axıcı melodikasına və dərin təsir qüvvəsinə görə musiqiçilər tərəfindən çox zaman "ərusi–musiqi" ("musiqinin gəlini") adlandırılır. Ü.Hacıbəyov "Bayatı-Şiraz"ı emosional baxımdan qəmli əhval-ruhiyyə daşıyan muğam kimi xarakterizə etmişdir. Bəhram Mansurov "Bayatı-Şiraz" muğamının müstəqil muğam kimi yalnız XIX əsrin axırlarından mövcud olduğunu və əvvəllər isə "Bayatı-İsfahan" dəstgahı kimi tanındığını söyləyir.

**BAYATI-ŞİRAZ MUĞAMININ NOT YAZILARI** - *"Bayatı-Şiraz"* muğamını instrumental şəkildə N.Məmmədov tarzən Əhməd Bakıxanovun ifasından (1962), A.Əsədullayev tarzən Elxan Mirzəfərovun ifasından (2003) nota yazmışdır.

Bu muğam əsasında bəstəkarlar müxtəlif janrlı əsərlər, o cümlədən, Süleyman Ələsgərov "Bayatı-Şiraz", Fikrət Əmirov "Gülüstan Bayatı-Şiraz" simfonik muğamlarını, Nazim Əliverdibəyov a kapella (müşayiətsiz) xor üçün "Bayatı-Şiraz" kompozisiyasını və onun orqan üçün işləməsini, Polad Bülbüloğlu "Bayatı-Şiraz" simfoniyasını yaratmışlar.

**BAYATI-TÜRK** - muğam şöbəsi. "Şur" muğamının tərkibinə daxil olunaraq, rast məqamına keçid əmələ gətirir. Muğam ifaçılığında "Bayatı-Qacar" muğamının ikinci adı kimi də istifadə olunaraq, onun tonallığına görə fərqlənən bir variantı kimi qəbul olunmuşdur. Ə.Bədəlbəylinin məlumatına əsasən, "Bayatı-türk" Orta və Yaxın Şərq xalqlarının musiqisində "Dügah", "Fili", "Şikəstə", "Camədaran", "Mehdiyi-zərrabi", "Ruh-ül-ərvah" kimi şöbələri birləşdirən muğam olmuşdur.

**BAYRAMOV Həbib Əbdülhüseyn oğlu** (14.06.1926, Bakı - 15.08.1994, Bakı) - tarzən, xalq artisti (1983). ADMM-də təhsil almış, 1941 ildən Əhməd Bakıxanovun rəhbərlik etdiyi Azərb. X.Ç.A. ansamblında çalışmış, 1973 ildən ömrünün sonunadək həmin ansamblın bədii rəhbəri olmuşdur; bir çox xanəndələri müşayiət etmişdir. Onun sənəti yüksək ifaçılıq mədəniyyəti ilə fərqlənirdi. Repertuarında "Rast", "Şur", "Çahargah", "Humayun", "Segah" və digər muğamlar əsas yer tuturdu.

**BAYRAMOVA Aygün Əliqulu qızı** (13.08.1967, Ağdam r-nu) - xanəndə, xalq artisti (2005). Musiqi təhsilini 1985-1989 illərdə A.Zeynallı ad. ADMM-də xalq artisti Şövkət Ələkbərovanın sinfində almış, 1989-1995 illərdə ADK-da təhsilini davam etdirmiş, xalq artisti Arif Babayevin tələbəsi olmuşdur. 1989 ildən Muğam Teatrının, 2002 ildən ADOBT-nın solistidir. Azərb. bəstəkarlarının operalarında Leyli (Ü.Hacıbəyov - "Leyli və Məcnun"), Xanəndə qız (V.Adıgözəlov - "Natəvan") obrazlarını yaradıb. A.Bayramovanın repertuarı genişdir. O, həm muğam və təsniflərin, həm də xalq və bəstəkar mahnılarının mahir ifaçısı kimi tanınmışdır. Dünyanın bir çox ölkələrində (Amerika, Kanada, İsveçrə, Almaniya, Avstriya, Hollandiya, Suriya, Səudiyyə Ərəbistanı, Türkiyə) konsert səfərlərində olmuşdur. A.Bayramova AMK-nın və BMK-nin müəllimidir.

**BEHBUDOV Qaraxan İmran oğlu** (25.11.1935, Ağdam r-nu, Əfətli k.) – xanəndə, əməkdar artist (2006). Qarabağ xanəndəlik məktəbinin tanınmış nümayəndəsidir. Əmisi Əfətli Əkbər Qarabağda məşhur xanəndə idi, Q.Behbudovun ilk muğam müəllimi olmuşdur. Bəstəkar 1963-1968 illərdə A.Zeynallı ad. ADMM-nin xanəndəlik sinfində oxumuş, görkəmli xanəndələr Əlibaba Məmmədov və Nəriman Əliyevin tələbəsi olmuş, muğam dəstgahlarını öyrənmişdir. Seyid Şuşinski, Xan Şuşinski və başqa xanəndələrlə ünsiyyəti sayəsində o, öz sənətini təkmilləşdirir, onların ənənələrini öz yaradıcılığında davam və inkişaf etdirir. 1964 ildən ADF-nın solistidir. Əliağa Quliyevin idarəsi ilə

x.ç.a. ansamblı ilə çalışmışdır. Onun bir xanəndə kimi püxtələşməsində görkəmli tarzən Bəhram Mansurovun böyük rolu olmuşdur. Onun müşayiəti ilə Q.Behbudovun ifasında bir sıra muğamlar lentə yazılaraq, radionun fonduna daxil edilmişdir. Q.Behbudov zil səsli xanəndədir. O, "Bayatı-Şiraz" muğamının mahir, orijinal ifaçısı kimi tanınmışdır. Bundan başqa o, "Segah-Zabul", "Rahab", "Mirzə Hüseyn Segahı", "Qatar", "Çahargah", "Rast" muğamlarını da xüsusi şövqlə oxumuşdur. Q.Behbudov pedaqoji fəaliyyətlə məşğul olur, onun yetişdirdiyi tələbələr müxtəlif müsabiqələrdə və festivallarda iştirak edir.

**BEHBUDOV Məcid Behbudalı oğlu** (18.04.1873, Şuşa - 06.09.1945, Qazax) - xanəndə. Qarabağ muğam məktəbinin görkəmli nümayəndəsi. Gözəl səsi olan və uşaqlıqdan xanəndə olmaq arzusu ilə yaşayan M.Behbudov bir müddət məsciddə nohə oxumuş və minacat vermiş, xüsusi məclislərdə və toy şənliklərində xanəndəlik etməyə başlamışdır. O, əvvəllər Qarabağda və Gəncədə xanəndə kimi fəaliyyət göstərsə də, sonralar uzun illər Tiflisdə yaşamış və konsertlər vermişdir. Öz müasirləri kimi, M.Behbudov da öz gözəl səsi və ifa tərzi ilə diqqəti cəlb etmiş, "Qrammofon" şirkəti onu

*Məcid Behbudov, xanəndə*



səsini vala yazmaq 1910 ildə Riqa şəhərinə dəvət etmişdir. Riqada xanəndə Məşədi Cəmil Əmirovun müşayiəti ilə bir neçə muğam, təsnif və xalq mahnılarını oxuyub vala yazdırmışdır. M. Behbudovun repertuarı geniş və rəngarəng idi. "Mirzə Hüseyn Segahı", "Şüştər", "Çahargah" muğamlarının mahir ifaçısı sayılırdı. O, klassik muğamlarla yanaşı, Qafqaz xalqlarının dillərində də mahnılar oxumaqla dinləyiciləri valeh edirdi. Xanəndə Azərb. opera teatrının inkişafında da yaxından iştirak etmişdir. O, 1910 illər ərzində Azərb. meydana gəlmiş bir sıra muğam operalarında və operettalarda çıxış etmişdir. Bu baxımdan, o dövrün afişa və mətbuat səhifələrindən maraqlı məlumatlar əldə etmək olar. Belə ki, M.Behbudov Ü.Hacıbəyovun opera və operettalarında, M.C.Əmirovun "Seyfəl-Mülk" operasındakı rolları ilə yadda qalmışdır. Məcid Behbudov Azərb. şəhərləri, Qafqaz ölkələri ilə yanaşı, İranda da qastrol səfərlərində olmuş, dinləyicilər tərəfindən böyük sevgi ilə qarşılanmışdır. M. Behbudov ömrünün çox hissəsini Gürcüstanda yaşamış, Tiflis teatrlarında, konsert salonlarındakı çıxışları ilə yaddaşlara həkk olunmuşdur. Onun Qafqaz ölkələrində Azərb. musiqisini təbliğ etmək sahəsində mühüm xidmətləri vardır. Ömrünün son illərini isə M. Behbudov Qazax rayonunda yaşamışdır. O, burada mədəniyyət evində çalışmış, bir sıra istedadlı xanəndələr yetişdirmişdir. Məcid Behbudovun övladları Azərb. mədəniyyətində mühüm rol oynamışlar: məlahətli səsi ilə dünyanı fəth edən müğənni, SSRİ xalq artisti Rəşid Behbudov, rejissor, Rusiyanın xalq artisti Ənvər Behbudov, aktrisa, əməkdar artist Nəcibə Behbudova ailə ənənəsini davam etdirmişlər.

**BEHBUDOV Rəşid Məcid oğlu** (14.12.1915, Tiflis - 09.06.1989, Bakı) - müğənni (lirik tenor), xalq artisti (1951), SSRİ xalq artisti (1959), Sosialist Əməyi Qəhrəmanı (1980), Azərb. Dövlət mükafatı laureatı (1978). İfaçılıq fəaliyyətinə Tiflisdə başlamışdır (1930). 1946-56 illərdə ADF-nın, eyni zamanda 1953-60 illərdə (fasilələrlə) eyni zamanda ADOBT-nın solisti, 1957-1959 illərdə Azərb. Dövlət Konsert Ansamblının təşkilatçısı və rəhbəri olmuşdur. 1966 ildən özünün təşkil etdiyi Azərb. Dövlət Mahnı Teatrının solisti və bədii rəhbəri olmuş; teatrda musiqi və estrada sənətinin müxtəlif janrları (balet, pantomima və s.) üzvi surətdə birləşmişdir. Zəngin çalarlı müstəsna gözəl səsə malik olan R.Behbudov Azərb. vokal məktəbinin görkəmli nümayəndələrindəndir. Azərb. xanəndələri üçün səciyyəvi olan improvizəetmə xüsusiyyəti R.Behbudov yaradıcılığında özünü orijinal şəkildə göstərmişdir. Azərb. xalq mahnılarının, Azərb. bəstəkarlarının vokal əsərlərinin xarici ölkələrdə populyarlaşmasında R.Behbudovun xidməti böyükdür. R.Behbudovun repertuarına dünya xalqlarının, eləcə də özünün mahnıları daxildir; R.Behbudov 50-dən artıq xalqın mahnısını həmin xalqların dilində ifa edib. Azərb. opera teatrında Balaş (F.Əmirov - "Sevil"), Əsgər (Ü.Hacıbəyov - "Arşın mal alan") partiyalarını ifa etmişdir (Əsgər partiyasını R.Behbudov, həmçinin K.S.Stanislavski və V.İ.Nemiroviç-Dançenko ad. Moskva Dövlət Musiqili Teatrında oxumuşdur). Onun ifasındakı Balaş partiyası Azərb. vokal sənəti tarixində əhəmiyyətli yer tutur. R.Behbudov "Arşın mal alan" (1945), "Sevimli mahnı" (1958), "1001-ci qastrol" (1974) bədii filmlərində, eləcə də "Doğma xalqımıza" (1954) sənədli filmində çəkilmişdir.







*Rəşid Behbudov, müğənni*

**BELYAYEV Viktor Mixayloviç** (06.02.1888, Nijnye-Uralsk - 16.02.1968, Moskva) - musiqişünas, pedaqoq, sənətşünaslıq doktoru (1944). Rusiya Bədii Elmlər Akademiyasinin həqiqi üzvü, 1924 ildən Akademiyanın musiqi seksiyasının nəzəriyyə bölməsinin müdiri olmuşdur. Peterburq (Leninqrad; 1914-1944, 1918 ildən professor) və Moskva konservatoriyalarında (1923-1959, 1944 ildən professor) musiqi nəzəriyyəsi və musiqi tarixindən dərs demişdir. 1959-1968 illərdə İncəsənət tarixi institutunun baş elmi işçisi olmuşdur. SSRİ xalqları musiqisinin və musiqi paleoqrafiyasının tədqiqatçılarından biri olan V.Belyayev Şərq musiqisi, eləcə də Azərb. musiqisinə dair elmi əsərlər yazmışdır. Görkəmli musiqişünas alimin fəaliyyəti XX əsr musiqi mədəniyyətinin inkişafında müstəsna rol oynamış, milli musiqişünaslıq məktəblərinin formalaşmasına mühüm təsir göstərmiş, böyük musiqişünaslar nəsli yetişdirərək, öz məktəbini yaratmışdır (azərbaycanlı musiqişünaslar Bayram Hüseynli, Əminə Eldarova, Ramiz Zöhrabov bu məktəbin davamçılarıdır). Elmi irsinin qiymətli nümunələri olan "SSRİ xalqlarının musiqi tarixinə dair oçerklər" (1963), "Musiqi folkloru və qədim yazılar haqqında" (1971) və s. kitablarında Azərb. musiqisinə ayrıca oçerklər həsr etmiş, xalq və şifahi ənənəli musiqi tarixi və nəzəriyyəsi məsələlərini araşdırmışdır.

**BERTELS Yevgeni Eduardoviç** (25.12.1890, Peterburq - 07.10.1957, Moskva) - şərqşünas. SSRİ EA müxbir üzvü (1939), Özbəkistan (1944) və Tacikistan əməkdar elm xadimi (1946). İran EA (1944) və Ərəb EA (Dəməşqdə) müxbir üzvü (1955). SSRİ Dövlət mükafatı laureatı (Nizami yaradıcılığı ilə bağlı tədqiqatlarına görə, 1948). 1920 ildə Petroqrad Universitetinin Şərq dilləri fakültəsini bitirmiş, ömrünün sonunadək SSRİ EA Şərqşünaslıq İnstitutunda (1930 ilədək SSRİ EA Asiya Muzeyi) işləmişdir. Y.Bertels fars, tacik və bir sıra türkdilli xalqların ədəbiyyat tarixi sahəsində görkəmli mütəxəssis olmuşdur. Sufizm və sufi ədəbiyyatına, Firdovsi, Sədi, Cami, Nəvai və b. klassiklərin yaradıcılığına, Yaxın və Orta Şərq xalqlarının mədəniyyət tarixinə həsr olunmuş əsərlərin müəllifidir. "İslam Ensiklopediyası"nın fəal müəlliflərindən olmuşdur. Y.Bertels Firdovsinin "Şahnamə", Nizaminin "İsgəndərnamə" (akademik Ə.Əlizadə ilə birlikdə) əsərlərinin elmi-tənqidi mətnini hazırlamış, mətnşünaslığa dair nəzəri məqalələr yazmışdır. Y.Bertels Azərb. ədəbiyyatının tədqiqi sahəsində də böyük iş görmüş, Nizami, Xaqani və Füzulinin yaradıcılığının tədqiqi ilə ardıcıl məşğul olmuşdur. Y.Bertels SSRİ-də nizamişünasliğin banilərindəndir. Bir çox əsəri Şərq və Qərbi Avropa dillərinə tərcümə olunmuşdur. Y.Bertelsin şəxsi kitabxanası Azərb. SSR EA kitabxanasına verilmişdir. Əsərləri: "Böyük Azərbaycan şairi Nizami" (1958); "Nizami və Füzuli" (1962).

**BEYNƏLXALQ MUSİQİ İTTİFAQI** (fransızca: *Con seil International de la Musique - CİM*) - YUNESKO-nun tərkibində yaradılmış, özündə professional və həvəskar musiqi təşkilatlarını və müxtəlif ixtisaslı musiqi xadimlərini cəmləşdirən beynəlxalq cəmiyyət (1949, Paris). BMİ-nin əsas məqsədi milli və beynəlxalq musiqi təşkilatları arasında əlaqə və inkişaf, onların fəaliyyəti koordinasiyaları; konqreslərin (1971, Moskva), müsabiqələrin, festivalların, simpoziumların keçirilməsindən ibarətdir. BMİ ildə iki dəfə baş assambleyanı yığır. Hər il bəstəkar və

ifaçı "tribunaları", hər iki ildən bir Asiya və Afrika musiqisi forumu təşkil olunur. BMİ-yə 60-a yaxın ölkənin milli musiqi komitələri daxildir. BMİ-nin tərkibində 16 beynəlxalq musiqi cəmiyyəti, (Müasir musiqinin beynəlxalq cəmiyyəti, Musiqişünaslığın beynəlxalq cəmiyyəti, Gənclərin beynəlxalq musiqi federasiyası, Musiqi folklorunun beynəlxalq ittifaqı və.b.) daxildir.

**BEYT** - Yaxın və Orta Şərq poeziyasında şeirin eyni vəzndə yazılmış və mənaca bir-birinə bağlı iki yanaşı misrası. Klassik ədəbiyyatda beyt şeir vahidi sayılır. Beytdə misraların həmqafiyə olması şərt deyil. Şərq poetikasında bəzən beyt termini, ümumiyyətlə, şeir mənasında da işlənir. Şeirin ən gözəl və mənalı beytlərinə "şah beyt", iki misradan ibarət müstəqil əsər olan beytə isə müfrəd deyilir. Qəzəl və qəsidənin ilk beyti mətlə, son beyti isə məqtə adlanır. Şairin təxəllüsü, bir qayda olaraq, şeirin məqtəsində olur.

**BEYTÜS-SƏFA** - ədəbi məclis. XIX əsrin 60 illərində Şamaxıda şair Məhəmməd Səfanın evində yaradılmışdı; məclisin adı da bununla əlaqədardır (ərəbcədən tərcümədə: "Səfanın evi" deməkdir). Seyid Əzim Şirvani, Mollağa Bixud, Ağababa Zühuri, Qafar Raqib, Ələkbər Qafil, Molla Mahmud Zuyi və b. şairlər məclisin fəal üzvləri idi. Məclisə Seyid Əzim Şirvani və Mollağa Bixud başçılıq edirdilər. "Beytüs-Səfa" Şuşadakı "Məclisi-üns", "Məclisi-fəramuşan", Bakıdakı "Məcməüş-şüəra" ilə sıx əlaqə saxlayırdı. Məclisdə ədəbiyyat, incəsənət, fəlsəfə məsələlərinə dair söhbətlər aparılır, klassiklərin əsərləri mütaliə olunur, onların məşhur şeirlərinə nəzirələr yazılır, yeni yaranan qəzəllər xanəndələr tərəfindən oxunaraq, yayılırdı.

**BƏDƏLBƏYLİ Əfrasiyab Bədəl oğlu** (19.04.1907, Bakı - 06.01.1976, Bakı) - bəstəkar, dirijor, musiqişünas, librettoçu, xalq artisti (1960). 1930 ildə Azərb. Dövlət Universitetini, 1938 ildə Leninqrad konservatoriyası nəzdində musiqi məktəbini bitirmişdir. 1930 ildən ömrünün sonunadək ADOBT-nın dirijoru olmuşdur. Repertuarında Avropa, rus, sovet, eləcə də Azərb. bəstəkarlarının əsərləri, o cümlədən "Aida" və "Riqoletto" (C.Verdi), "Toska" (C.Puççini), "Leyli və Məcnun" (Ü.Hacıbəyov), "Sevil" (F.Əmirov), "Vaqif" (R.Mustafayev) operaları və s. əsərlər əsas yer tutmuşdur. Ə.Bədəlbəyli ilk milli Azərb. baleti - "Qız qalası"nın (1940, 2-ci redaksiyası 1958), "Nizami" (1948), "Söyüdlər ağlamaz" (1971, 2-ci redaksiyası 1975) operalarının müəllifidir. Bir çox dram tamaşasına



*Əfrasiyab Bədəlbəyli, bəstəkar, dirijor*

musiqi bəstələmişdir ("Hacı Qara", "1905-ci ildə", "Fərhad və Şirin" və s.). Ə.Bədəlbəyli "Bahadır və Sona", "Söyüdlər ağlamaz" operalarının, "Qız qalası", "Qızıl açar" baletlərinin librettosunu yazmış, "Sevilya bərbəri" (C.Rossini), "Daisi" (Z.Paliaşvili) operalarının mətnini ekviritmik tərcümə etmişdir. Ə.Bədəlbəyli Azərb. musiqi sənətinin təbliğçisi, publisist kimi də tanınmışdır. Bakıdakı 23 saylı musiqi məktəbi Ə.Bədəlbəyli adınadır. Ə.Bədəlbəylinin musiqi tarixi ilə bağlı bir sıra elmi əsərləri vardır: "Musiqi haqqında söhbət" (1953); "Qurban Primov" (1955); "Musiqi lüğəti" (1969). Bu əsərlərdə muğam sənəti ilə bağlı geniş məlumatlar, ustad sənətkarların yaradıcılıq portretləri öz əksini tapmışdır. Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə "Musiqi dünyası" jurnalı tərəfindən Ə.Bədəlbəylinin həyat və yaradıcılığına həsr olunmuş veb-sayt yaradılmışdır: *http://afrasiyab.musigi-dunya.az.*

**BƏDƏLBƏYLİ Fərhad Şəmsi oğlu** (27.12.1947, Bakı) - pianoçu, dirijor, ictimai xadim, xalq artisti (1978), SSRİ xalq artisti (1990), professor (1983). Azərb. Dövlət mükafatı laureatı (1985). BMA-nın rektoru (1991 ildən bu günə qədər). 1965-1969 illərdə ADK-da (professor M.R.Brennerin sinfində), 1969-1971 illərdə P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının aspiranturasında (dosent B.Davidoviçin sinfində) təhsil almışdır. Bir sıra beynəlxalq müsabiqələrin qalibi və laureatıdır: B.Smetana ad. (Çexoslovakiya, 1967, III mükafat və Smetana əsərinin ən yaxşı ifaçısı mükafatı) və Viana da Mota ad. (Portuqaliya, 1968, I mükafat). F.Bədəlbəyli fəal konsert yaradıcılığı ilə məşğuldur. Pianoçunun qastrol səfərləri - Bolqarıstan, Almaniya, Yunanıstan, İsrail, İtaliya, Kuba, Norveç, Portuqaliya, Tunis, Türkiyə, Finlandiya, Fransa,







*Fərhad Bədəlbəyli, pianoçu*

Çexoslovakiya, İsveçrə, Yuqoslaviya, Yaponiya və b. ölkələri əhatə edir. 1971 ildən ADK-da pedaqoji fəaliyyət göstərən F.Bədəlbəyli, bir sıra pianoçuların sənət müəllimidir. F.Bədəlbəylinin təşəbbüsü ilə ADK - Bakı Musiqi Akademiyasına çevrilmişdir (1994). Hal-hazırda BMA klassik musiqi ənənələrinin yaşadan ali musiqi təhsili ocağı kimi musiqi mədəniyyətində mühüm rol oynayır. F.Bədəlbəyli musiqi təşkilatçısı kimi də tanınmışdır: Azərb. Musiqi Cəmiyyətinin idarə heyəti sədrinin I müavini (1986-1989) olmuş, Bakı İncəsənət Mərkəzini (1987-1996 illərdə rəhbəri) və Azərb. Musiqi Xadimləri Cəmiyyətini (1989 ildən sədri) yaratmışdır. 1995 ildən "Azərbaycan Mədəniyyətinin Dostları" fondunun üzvüdür.

**BƏDƏLOV Elman Kərim oğlu** (04.06.1929, Ağdam r-nu - 25.06.1991, Bakı) - kamança ifaçısı, əməkdar artisti (1982). Gənc yaşlarından musiqi ilə məşğul olmuş, tar və kamança alətlərində məharətlə çalmışdır. Ağdam Dövlət Dram Teatrının tamaşalarında, konsertlərdə çıxış etmiş, Azərb. gənclərinin II festivalının laureatı olmuşdur (1957). Bununla yanaşı, Ağdam Pedaqoji Məktəbində fizika-riyaziyyat sahəsində təhsil almış və müəllim kimi çalışmışdır (1947-1951). Professional musiqi təhsilini ADMM-da (1957-1961) və ADK-da (1975-1980) almışdır. 1958 ildən ömrünün sonuna kimi AzTRV QSC S.Rüstəmov ad. x.ç.a. orkestrinin solisti və kamança qrupunun konsertmeysteri olmuşdur. E.Bədəlov solo ifaçı və muğam üçlüyünün tərkibində konsertlərdə çıxış etmiş, bir çox ölkələrdə (Türkiyə, Yaponiya, Danimarka, İsveç, Norveç və s.) qastrol səfərlərində, beynəlxalq musiqi festivallarında olmuşdur. E.Bədəlovun ifasında "Şur", "Segah", "Şüştər", "Rahab", "Hümayun", "Bayatı-Şiraz", "Rast" və b. instrumental muğamlar AzTR Fondunda saxlanılır. Sənətkarın ifasında bu muğamlar həzinliyi, emosionallığı, dərinliyi, improvizasiya ustalığı ilə seçilir. E.Bədəlov pedaqoji fəaliyyətlə məşğul olmuş, Bülbül ad. orta ixtisas musiqi məktəbində və ADK-da dərs demişdir. Yetirdiyi çoxsaylı tələbələri - Ədalət Vəzirov, Ağacəbrayıl Abasəliyev, Yaqut Seyidova və b. onun ifaçılıq ənənələrinin davamçılarıdır.

**BƏDR** (mənası: 14 gecəlik ay, mehtab) - "Çahargah" dəstgahının mayəsində çalınan guşə.

**BƏHR** - musiqi vəzninin təşəkkül sistemi. Əgər vəzn musiqi səslərinin zaman ərzində səslənmə müddəti ilə əlaqədar olan ölçüdəki qarşılıqlı nisbəti ifadə edirsə, bəhr səslərin bu hərəkət ahəngində olan həmin bu nisbətin meyarı vəzifəsini daşıyır və ölçü normasını təsbit və tənzim etmiş olur. Musiqi səslərinin məntiqi, həm də mənalı surətdə təkrarlanması və növbələnməsi (ahəng) üçün bəhr təşəkkülünün olması zəruridir. Sərbəst improvizasiya yolu ilə ifa olunan Azərb. muğamlarının bəhri həm olduqca mürəkkəb, həm də dəyişəndir.

**BƏHR-NUR** - **1.** "Rast-pəncgah" dəstgahında "Üşşaq"dan sonra gələn guşə; **2.** "Hümayun" dəstgahında "Bayatı-əcəm" ilə "Şahnaz" arasında olan guşə.

**BƏXTİYARİ** - "Hümayun" dəstgahındakı ilk guşələrdən biri.

**BƏM** - **1.** Aşağı registr; **2.** Aşağı səs, yoğun səs, qalın səs (bas, bariton); **3.** Ud musiqi alətində ən aşağı sim, birinci sim.

**BƏND** - ədəbiyyatda şeirin qafiyə və ya intonasiyaya görə birləşdirilmiş, vahid məna ifadə edən bir neçə misrası. Misraların sayına görə bəndlər ikilik, üçlük, dördlük, beşlik, altılıq və s. olur. Musiqidə əsasən xalq mahnılarının və aşıq havalarının forma quruluşunda mühüm əhəmiyyət kəsb edir.

*Bərbət - qədim simli musiqi aləti*



**BƏRBƏT** (hərfi mənada: *bər* - sinə, döş + *bət* - ördək) - ən qədim Azərb. simli musiqi aləti. XVI-XVII əsrlərdə Azərb. istifadə olunmuş mizrabla çalınan simli musiqi alətidir. Ud tipli alətlər ailəsinə mənsub olan bərbətin gövdəsi uda nisbətən böyük, qolu isə xeyli uzundur. Əsasən, saray musiqi aləti sayılan bərbət haqqında Azərb. klassiklərinin, o cümlədən, Nizami Gəncəvinin yaradıcılığında ətraflı məlumat öz əksini tapmışdır.

**BƏRDAŞT** - müqəddimə xarakterli muğam şöbəsi, dəstgahın giriş hissəsi. "Mayə" şöbəsindən əvvəl ifa olunur və "Mayə" şöbəsinə hazırlıq funksiyasını daşıyır. Hər bir muğam dəstgah mütləq olaraq "Bərdaşt"la başlanır (vokal-instrumental muğam dəstgahlarda əvvəlcə *Dəraməd*, sonra *Bərdaşt* ifa olunur) və muğama müvafiq olaraq adlandırılır: *"Bərdaşt-Rast"*, "Bərdaşt-Şur", "Bərdaşt-Çahargah" və s. "Bərdaşt" şöbəsinin əsas xüsusiyyəti ondan ibarətdir ki, bu şöbənin musiqisi yüksək registrdən, muğamın mayəsindən bir oktava yuxarıda başlayaraq, tədriclə mayəyə enir və "Mayə" şöbəsinin səslənməsini hazırlayır. Adətən, "Bərdaşt" şöbələri muğamın zil şöbələrinin musiqi materialı əsasında qurulur: məs., *"Rast"* muğamının *"Bərdaşt"* şöbəsinin musiqi materialı *"Əraq"* şöbəsinin melodiyasına əsaslanır. Bəzi muğamlarda "Bərdaşt" şöbəsinin xüsusi adları olur: məs., "Rast" muğamının "Bərdaşt" şöbəsi "Novruzi-rəvəndə", "Şüştər" muğamının "Bərdaşt"ı "Əmiri" adlanır.

**BƏSİT** - əruz vəznindəki bəhrlərdən biri.

**BƏSTƏKAR** (latın: *compositor* - müəllif, tərtibçi) - musiqi əsərinin yaradıcısı, müəllifi. Şifahi ənənəli musiqidə - xalq yaradıcılığında və muğam sənətində adətən bəstəkar və ifaçı bir simada birləşir, belə ki, onlar musiqi əsərlərini ifa edərək yaradırlar. Muğam ifaçıları həm də bəstəkarlıq qabiliyyətinə malik olub, bir çox təsnif və rənglərin yaradıcısı kimi tanınmışlar.

**BƏSTƏ-NİGAR** - muğam şöbəsi. "Çahargah" dəstgahının əsas şöbələrindən biri.

**BİBLİOQRAFİYA, MUSİQİ BİBLİOQRAFİYASI** (yunan dilindən tərcümədə: "kitab yazıram") - Musiqi haqda elmi-praktik fəaliyyətin hazırlanması və informasiyanın ötürülməsi üçün məkan. Musiqi biblioqrafiyasının obyektini musiqi ədəbiyyatı, not materialları və əlyazmalar təşkil edir.

**BİDAD** (hərfi mənada: haqsızlıqdan şikayət) - "Hümayun" dəstgahında beşinci pillədə ifa olunan həzin və kədərli əhval-ruhiyyəli guşə.

**BİDƏGANİ** - "Əbu-Əta" muğamının son guşəsi.

**BİRİNCİ TAR** - X.ç.a. orkestrində birinci səsi - ən ifadəli və mühüm əhəmiyyətli melodik xətti ifa edən tarlar qrupu. Orkestrdə birinci tarlar ümumi sayına görə üstünlük təşkil edir və dirijordan sol tərəfdə əyləşirlər.

**BİRSƏSLİLİK, TƏKSƏSLİLİK** - musiqinin ifadə tərzi; bir ifaçı və ya bir alət tərəfindən ifa olunan melodiya. Azərb. xalq musiqisində, xüsusilə, xalq mahnı və rəqslərində birsəslilik üstünlük təşkil edir, eləcə də instrumental muğamlar birsəsli ifa tərzinə əsaslanır.

**BOETSİY** (Böetius, Böethius, Boezio) Anisiy Manlin Severin (təxminən 480-524) - Roma dövlət xadimi, filosof, musiqiçi, şair. "Musiqi tərtibatları haqqında" traktatı Antik dövrdə musiqi sahəsində meydana gələn ən görkəmli nəzəri əsərlərdəndir. Şərqin görkəmli ensiklopedist alimləri (Fərabi, Cami, İbn-Sina, S.Urməvi, Ə.Marağai və b.) bu traktatdan bəhrələnmişlər.

**BOĞAZ** - xalq musiqi ifaçılığında istifadə olunan termin. Xanəndənin fərdi yaradıcılıq üslubu ilə bağlı melodik ibarə, kiçik avaz ifadələri.

**BÖD** (ərəb) - iki səsin ucalığı (səs ehtizazının sayı, ya da səs dalğalarının uzunluğu) etibarı ilə bir-birinə olan nisbəti (interval).

**BÖYÜK MƏSNƏVİ** - *bax: Məsnəvi.*

**BÖYÜK SAZ** - həcmi etibarı ilə ən böyük saz (ana saz); *bax: Saz.*



*Böyük saz - simli musiqi aləti*





**BUSƏLİK** - **1.** Orta əsrlərdə Şərq xalqlarının klassik musiqisinin əsasını təşkil edən 12 muğamdan biri. **2.** Müasir muğam ifaçılığı təcrübəsində "Şur" muğamının tərkibində bir guşə kimi mövcuddur.

**BUSTAN** - qədim zərbi muğam.

**BURDON** (*bourdon*, fransız dilindən tərcümədə: "qatı bas") - **1.** kamanlı alətlərdə ifa zamanı qısaldılmayan bas simləri. Adətən, qrifdə yerləşdirilmir. **2.** bas səslərinin musiqi alətində ifasının fasiləsiz səslənməsi, çoxsəsliliyin ibtidai forması. Xalq ifaçılığında geniş tətbiq olunur. Bax: *Dəmkeş; Dəmsaz* not.

**BÜLBÜL** (Murtuza Rza oğlu Məmmədovun təxəllüsü; 22.06.1897, Şuşa - 26.09.1961, Bakı) - müğənni (lirik-dramatik tenor), SSRİ xalq artisti (1938), SSRİ dövlət mükafatı laureatı (1950), professor (1940). Bülbül Azərb. vokal ifaçılığı məktəbinin bünövrəsini qoyaraq, milli musiqi tarixində yeni bir dövr açmışdır. Uşaqlıqdan qeyri-adi qabiliyyəti, təbii, nadir və güclü səsə malik olması, xüsusi ustalıqla bülbülləri təqlid etməsi, nəfəsini dərmədən uzun müddət oxuması sayəsində ona verilmiş "Bülbül" adı sonradan onun parlaq istedadını əks etdirən artistlik təxəllüsünə çevrilmişdir. Muğamları öyrənən, tanınmış Şuşa xanəndələri ilə ünsiyyətdə olan gənc sənətkar çox keçmədən Zaqafqaziya və Orta Asiyada məşhur olur. Bülbül xanəndəlikdən professional vokal müğənnisinədək çətin bir yol keçmişdir. O, 1916 ildə ilk dəfə Gəncədə M.C.Əmirovun "Seyfəl-Mülk" operasında çıxış etmişdir. 1920 ildən başlayaraq, Bakıda fəaliyyət göstərmiş, opera teatrının solisti olmuş, İbn-Səlam və Kərəm rollarını (Ü.Hacıbəyov - "Leyli və Məcnun", "Əsli və Kərəm") səhnədə yaratmışdır. 1927 ildə ADK-nı bitirmiş və İtaliyada vokal təhsili almışdır (1927-1931). Bülbül ADK-da özünün vokal məktəbini yaratmağa müvəffəq olmuşdur. O, klassik muğam məktəbi və İtaliya vokal məktəbinin ənənələrini üzvi surətdə birləşdirmiş, Azərb. klassik vokal ifasına yeni rənglər, çalarlar gətirmişdir. Bülbül Azərb. milli vokal məktəbinin özünəməxsusluğunu elmi-təcrübi əsaslandırmağa nail olmuşdur. Bülbül ADOBT-da Avropa və rus klassik operalarında (C.Verdi - "Riqoletto", J.Massne - "Verter", S.Raxmaninov - "Aleko" və s.), həmçinin Azərb. bəstəkarlarının klassik operalarında baş rollarda (Ə.Bədəlbəyli - "Nizami", Niyazi - "Fərhad və Şirin" və s.) çıxış etmiş, yadda qalan obrazlar yaratmışdır. Yaradıcılığının zirvəsini Ü.Hacıbəyovun "Koroğlu" operasındakı Koroğlu surəti təşkil edir. Bülbül azərb. bəstəkarlarının mahnı və romanslarının (Ü.Hacıbəyovun "Sənsiz" və "Sevgili canan", A.Zeynallının "Ölkəm", Niyazinin "Arzu" və s.) ilk ifaçısı olmuşdur. Eyni zamanda, o, bir çox xalq mahnılarını təkrarolunmaz sənətkarlıqla ifa etmişdir. Bülbül həm də xalq musiqi nümunələrinin qorunmasına həssaslıqla yanaşmışdır. Onun təşəbbüsü və rəhbərliyi ilə ADK-nın nəzdində *Elmi-Tədqiqat Musiqi Kabineti* yaradılmışdır (1931-1943). Xalq musiqisi, aşıq yaradıcılığı və muğam sənəti ilə bağlı nümunələrin toplanmasında, fonoqrafa və nota yazılmasında, onların məcmuə şəklində çap olunmasında Bülbülün əvəzsiz xidmətləri olmuşdur. Onun aşıqlar və xanəndələr haqqında məqalələri də musiqi elmi üçün mühüm əhəmiyyət kəsb edir. Müğənni və artist, pedaqoq və musiqişünas-alim kimi o, musiqi sənətində mütərəqqi yeniliyin ehtiraslı təbliğatçısı və təşəbbüsçüsü olmuşdur. Bülbül vokal sahəsində musiqi tədrisi və elmi-tədqiqat prosesinin zirvəsinə yüksəlmiş ilk azərbaycanlı professordur. Azərb. vokal sənətini rus və Avropa vokal sənətinin nailiyyətləri əsasında inkişaf etdirərək, zənginləşdirmişdir.

*Bülbül, müğənni*



**BÜLBÜL ADINA ORTA İXTİSAS MUSİQİ MƏKTƏBİ** - Azərb. dövlət konservatoriyasının nəzdində yaradılmış onillik xüsusi musiqi məktəbi. Təməli Üzeyir Hacıbəyov tərəfindən qoyulan Bülbül ad. Orta İxtisas musiqi məktəbi Azərb. unikal tədris sisteminə malik tədris ocağıdır. 1931 ildə ADK-da 60 şagirddən ibarət olan uşaq musiqi qrupu təşkil edilir. 1937-1938 tədris ilində Azərb. SSR-nin Xalq Maarif Komissarlığı incəsənət şöbəsinin qərarı ilə ADK-nın nəzdində (Moskva və Leninqrad Konservatoriyalarının nəzdindəki mərkəzi musiqi məktəbi - MMM tipli) təhsil sistemi yaradılır və "Gənc istedadlar qrupu" yenicə yaranmış mərkəzi musiqi məktəbinə daxil olub həmin məktəbin özəyini təşkil edir. Üzeyir Hacıbəyovun şəxsi təqdimatı və Xalq Maarif Komissarlığının İncəsənət şöbəsinin 13 sentyabr 1937 il tarixli qərarı ilə Kövkəb xanım Səfərəliyeva bu məktəbə direktor təyin edilir. Müxtəlif illərdə məktəbə Tahir Atakişiyev (1952-1962), Nazim Əliverdibəyov (1962-1985), Faiq Daşdəmirov (1985-1992) rəhbərlik etmişdir. 1992 ildən məktəbə musiqişünas, fəlsəfə elmləri doktoru Nigar Cərulla qızı Əsgərova rəhbərlik edir. Musiqi Məktəbində fortepiano, orkestr alətləri, kamera ansamblı və musiqişünaslıq şöbələri fəaliyyət göstərir. 1980 ildən məktəbin Milli Çalğı Alətləri şöbəsində xanəndə bölümü açılır. Bura Azərb. müxtəlif guşələrindən Respublika müsabiqələrində iştirak edib qalib gələn balaca xanəndələr qəbul olunur. Bu şagirdlərə Respublikanın tanınmış sənətkarları - xalq artistləri Ş.Ələkbərova, A.Babayev, İ.Rzayev, Ə.Məmmədov dərs keçiblər.

**BÜLBÜLÜN EV-MUZEYİ** - Azərb. professional vokal sənətinin banisi, SSRİ xalq artisti, SSRİ Dövlət Mükafatı laureatı, professor Bülbülün memorial ev muzeyi 1982 ildə Bakıda yaradılmışdır. Muzeydə Bülbülün demək olar ki, Azərb. musiqi incəsənətinin bütün sahələrinə aid hərtərəfli və müxtəlif yaradıcılığı (səhnə, elmi-tədqiqi, pedaqoji, ictimai fəaliyyəti) haqqında 6000-dən artıq sənəd və material toplanmışdır. Bu mənzildə Bülbül 1937 ildən ömrünün son günlərinədək yaşayıb yaratmışdır. Muzeyin direktoru Bülbülün həyat yoldaşı "Şöhrət" ordenli Adelaida xanım Məmmədovadır.

**BÜLBÜLCAN** - *bax: Zülalov Əbdülbaqi*

**BÜLBÜLOĞLU POLAD** (04.02.1945, Bakı) - bəstəkar, müğənni, ictimai xadim, xalq artisti (1982). ADK-da təhsil almış, Qara Qarayevin tələbəsi olmuşdur. Azərb. estrada ansamblının bədii rəhbəri (1975 ildən), ADF-nın bədii rəhbəri və direktoru (1987 ildən), Azərb. Respublikası Mədəniyyət Naziri (1988-2006) vəzifələrində çalışmışdır. "Bayatı-Şiraz" muğamının mövzuları əsasında simfoniyanın (1980), "Eşq və ölüm" baletinin, simfonik poemanın, mahnıların, estrada orkestri üçün pyeslərin, vokal silsilələrin, tamaşalara, dram tamaşalarına və kino filmlərə musiqinin müəllifidir. "Qorxma, mən səninləyəm" bədii filmində (rej. Y.Qusman) P.Bülbüloğlu xanəndə surətini yaradan aktyor, müğənni və bəstəkar kimi iştirak edib. P.Bülbüloğlu 1988 və 1989 illərdə Şuşada keçirilən beynəlxalq "Xarı bülbül" festivalının təşkilatçısı olmuşdur.

**BÜZÜRK** (farsca: böyük, adlı-sanlı) - **1.** Orta əsrlərdə Şərq xalqlarının klassik musiqisinin əsasını təşkil edən 12 muğamdan biri. **2.** Müasir dövrdə muğam şöbəsi. "Şur" dəstgahında son şöbələrdən biri. ■

*Bülbülcan, xanəndə*







# C

**CABBAR QARYAĞDIOĞLU** (Cabbar Məşədi İsmayıl oğlunun təxəllüsü; 31.03.1861, Şuşa - 20.04.1944, Bakı) - xanəndə, xalq artisti (1935). Cabbar Qaryağdıoğlu XIX əsrin ikinci yarısında yetişən və Azərb. musiqi tarixində ən görkəmli rol oynayan xanəndələrdən biridir. Azərb. xanəndəlik sənətinin yeni bir mərhələsi onun adı ilə bağlıdır. Cabbar Qaryağdıoğlu Şuşada Xarrat Qulunun məktəbində muğam dərsləri almışdır. Eyni zamanda, Şuşa şəhərinin zəngin musiqi mühiti Cabbarın inkişafında müstəsna rol oynamışdı. Cabbar fitri istedada, məftunedici tembrli uca və gur səsə, qeyri-adi musiqi yaddaşına və yüksək ustalığa malik idi. Onu məşhur italyan müğənnisi Karuzo ilə müqayisə etmişlər. Rus şairi S.Yesenin onu "Şərq musiqisinin peyğəmbəri" adlandırmışdır. Qarabağ, Gəncə, Şirvan, Bakı məclislərində çox məşhur olan Cabbar Zaqafqaziyada, Orta Asiya ölkələrində, İranda da tanınmışdı. Cabbar Qaryağdıoğlu musiqi tarixində muğamı teatr və konsert səhnəsindən səsləndirən ilk xanəndə olmuşdur. Belə ki, 1897 ildə görkəmli yazıçı-dramaturq Əbdürrəhim bəy Haqverdiyevin rəhbərliyi ilə Şuşada tamaşaya qoyulan "Məcnun Leylinin məzarı üstündə" musiqili səhnəciyində Məcnun rolunun ifaçısı Cabbar Qaryağdıoğlu olmuşdur. O, "Şərq konsertləri"nin də fəal iştirakçısı idi. Cabbar Şuşada Mirzə Sadıq Əsəd oğlunun sazandalar dəstəsi ilə, 1900-1905 illərdə Bakıda tarzən Mirzə Fərəc və kamançaçı Məşədi Qulu ilə çıxış etmişdir. 1905 ildə tarzən Qurban Primov və kamançaçalan Saşa Oqanezaşvilidən ibarət trio yaratmışdır. Bu trio 20 ildən artıq birlikdə fəaliyyət göstərmişdir. 1906-1912 illər ərzində "Sport-rekord", "Ekstrafon" və "Qrammofon" səhmdar cəmiyyətləri tərəfindən Kiyev, Moskva, Varşava ş.-də Cabbar Qaryağdıoğlunun səsi qrammofon valına yazılmışdır. Şərqin musiqi sənəti tarixində bunlar ən birinci yazılardır. 1912 ildə Varşavadan qayıdarkən, Moskvada Şərq konsertləri vermişdir. C.Qaryağdıoğlu klassik muğamların hamısını və bir çox təsniflərі böyük məharətlə oxumuşdur. Xüsusilə, onun oxuduğu "Heyratı", "Mənsuriyyə" zərbi muğamları, "Mahur", "Şahnaz" muğamı musiqi tariximizdə misilsiz nümunələrdir. Cabbar klassik poeziyanı mükəmməl bilirdi. Cabbar özündən əvvəlki ustadlardan fərqli olaraq, xanəndəlik sənətində ilk dəfə olaraq, muğam və təsniflərdə Azərb. dilində qəzəllər oxumuşdur. O, konsert və məclislərdə Füzuli, Qasım bəy Zakir, Seyid Əzim Şirvani, Xurşidbanu Natəvan və b. Azərb. şairlərinin qəzəllərini ifa edirdi. Məhz ana dilində oxumaq muğamların xalq arasında geniş yayılmasına səbəb olmuşdur. Cabbar həm də bəstəkar və şair kimi tanınırdı. Onun yaratdığı təsniflərdən "İstəkanın deşilsin", "Tiflisin yolları", "İrəvanda xal qalmadı", "Naxçıvanın gədiyindən aşeydim" və b. göstərmək olar. Onun ifasında 300-ə yaxın mahnı və təsnif ADK-nın nəzdindəki Bülbülün rəhbərlik etdiyi xalq musiqisini öyrənən Elmi-Tədqiqat Kabinetində fonovaliklərə yazılmışdır, bir çox mahnı və təsniflər Ü.Hacıbəyov, M.Maqomayev,

*Cabbar Qaryağdıoğlu, xanəndə*



S.Rüstəmov tərəfindən nota köçürülmüş və nəşr olmuşdur "Azərbaycan türk el nəğmələri" (1927), "Azərbaycan xalq mahnıları" (1938, 1956-1958, 1967); *bax: "Azərbaycan xalq musiqisinin antologiyası"*). C.Qaryağdıoğlu bəstəkarlara yaradıcılıq köməyi də göstərmişdir. Ü.Hacıbəyov, Niyazi, F.Əmirov kimi bəstəkarlar onun sənətindən bəhrələnmişlər. Niyazi onun ifasında "Rast" muğamını nota yazmış (çap olunmayıb) və bu materillardan "Rast" simfonik muğamında istifadə etmişdir. Rus bəstəkarı R.Qliyerin "Şahsənəm" operası üzərində iş prosesində (tarzən Qurban Primovla birgə) Azərb. musiqisini öyrənməsində bəstəkara yaxından köməklik etmişdir. C.Qaryağdıoğlunun musiqi tarixinin tədqiqi üçün mühüm əhəmiyyət kəsb edən "Azərbaycan musiqisinin keçmişi haqqında xatirələr" adlı əlyazmasında XIX əsrin xanəndə və musiqiçilərindən, təsnif və mahnılardan bəhs edilir. C.Qaryağdıoğlu 1934 ildə Tiflis ş.-də keçirilən Zaqafqaziya incəsənəti olimpiadasının qalibi olmuşdur. C.Qaryağdıoğlu ADF-nın və Azərb. Radiosunun solisti olmuş, respublikanın mədəni həyatında fəal iştirak etmişdir. C.Qaryağdıoğlu Ü.Hacıbəyovun dəvəti ilə ADK-da dərs demişdir. O, xalq arasında məşhur olan bir sıra istedadlı xanəndələr yetişdirmişdir. Onlardan Seyid Şuşinski, Bülbül, Xan Şuşinski, Zülfi Adıgözəlov və bir çox başqaları Cabbar Qaryağdıoğlunun ənənələrini davam etdirmişlər.

**CABBAR QARYAĞDIOĞLU ADINA MUĞAM ÜÇLÜYÜ** - 1987 ildə M.Maqomayev ad. ADF-nın nəzdində yaradılmış ilk muğam triosudur. Tərkibi: xalq artistləri Möhlət Müslümov (tar), Fəxrəddin Dadaşov (kamança) və Zahid Quliyev (xanəndə). Sonrakı illərdə muğam üçlüyü bir çox xanəndələrlə işləmiş, dünyanin bir çox ölkələrində qastrol səfərlərində olmuşdur. Müxtəlif xanəndələri müşayiət edən üçlüyün ifasında xarici ölkələrdə bir sıra disklər buraxılmışdır.

**CABBAR QARYAĞDIOĞLU ADINA MÜSABİQƏ** - 1986 ildə Bakıda keçirilən xanəndələrin I respublika müsabiqəsi. Görkəmli xanəndə Cabbar Qaryağdıoğlunun 125 illiyinə həsr olunmuşdur. Müsabiqənin laureatları Alim Qasımov, Elza Qaybalıyeva, Zahid Quliyev, Fəxrəddin Hüseynov, Nahidə Həmdəmova, Yusif Mirzəyev, Təşkilat Nəsirov olmuşdur. Bu xanəndələri tarda Möhlət Müslümov və kamançada Fəxrəddin Dadaşov müşayiət etmişlər. "Melodiya" firması tərəfindən müsabiqənin laureatlarının səs yazılarından ibarət qrammofon valları albomu buraxılmışdır (1987).

**CABİR NOVRUZ** (Cabir Mirzəbəy oğlu Novruzovun təxəllüsü; 12.03.1933, Xızı r-nu, Upa k. - 12.12.2002, Bakı) - xalq şairi, əməkdar incəsənət xadimi (1979). "*Ulduz*" jurnalının baş redaktoru olmuşdur (1967-70). Azərb. Yazıçılar İttifaqı İdarə Heyətinin katibi (1970 ildən), "Azərbaycan" jurnalının baş redaktoru olmuşdur (1984 ildən). "Mənim muğamatım" (1960), "İnsan məhəbbəti" (1963), "İllərin ömrü" (1965), "Bizim əsr" (1968), "Adi həqiqətlər" (1969), "Həyat, sən nə qəribəsən" (1971), "Bir dünyam var" (1974), "İnsan himnləri" (1978), "Nə qədər ki, sağam" (1980), "Ömür keçir karvan kimi" (1985) və s. kitablarındakı şeir və poemalarında müasirlərinin zəngin mənəvi aləmi, vətəndaşlıq, vətənpərvərlik və beynəlmiləlçilik duyğuları, sülh tərənnüm olunur. Əsərləri bir sıra xarici dillərə tərcümə edilmişdir.

**CAHANGİROV Cahangir Şirgəşt oğlu** (20.06.1921, Bakı ş., Balaxanı k. - 25.03.1992, Bakı) - bəstəkar, xalq artisti (1963), professor (1978). ADK-nı bitirmişdir (1951, B.Zeydmanın bəstəkarlıq sinfini). 1940 illərdə C.Cahangirov ADF-də mahnı və rəqs ansamblının xor qrupuna, sazçı qızlar ansamblına, 1944-60 illərdə AzTR nəzdindəki xora rəhbərlik etmişdir. C.Cahangirov ADK-da dərs demişdir (1975-1992 illərdə xor dirijorluğu kafedrasının müdiri). C.Cahangirov skripka və simfonik ork. üçün konsert (1951) janrına müraciət etmiş ilk Azərb. bəstəkarıdır. C.Cahangirov yaradıcılığının əsas hissəsini təşkil edən xor əsərləri Azərb. xor musiqisinin inkişafında əhəmiyyətli rol oynamışdır: solist, xor, qiraətçi və simfonik ork. üçün "Arazın o tayında" (1949) vokal-simfonik poeması və "Dostluq nəğməsi" (1956) süitasını, "Füzuli" (1959) və "Nəsimi" (1973) kantatalarını, "Sabir" (1962), "Hüseyn Cavid-59" (1984) oratoriyalrını bəstələmişdir. C.Cahangirov xanəndələrin repertuarında mühüm yer tutan lirik mahnıların ("Nazənin", "Ana", "Zəriflik", "Xəzər", "Dan ulduzu, bir də mən", və s.) , "Azad" (1957) və "Xanəndənin taleyi" (1978) operalarının, "Təzə gəlin" (1976) operettasının, Azərb. x.ç.a. ork. ("Osetin süitası", "Misir lövhələri" və s.) üçün əsərlərin, kinofilmlərə ("Koroğlu", "Yenilməz batalyon", "Dəli Kür" və s.) musiqinin müəllifidir. C.Cahangirovun yaradıcılıq üslubunun kökləri muğam sənəti ilə dərindən bağlıdır. O, ilk dəfə olaraq, "Azad" operasında "Çhargah" xor muğamını yaratmışdır. Onun "Xanəndənin taleyi" operasının mövzusu bilavasitə muğam sənəti ilə bağlı olub, xanəndə Seyid Mirbabayevin həyatından bəhs edir. Operada muğamlardan geniş istifadə olunmuşdur.



*Cahangir Cahangirov, bəstəkar*

**CAMƏDƏRAN** - *Şərq mus-də*: "Hümayun" dəstgahında "Bəxtiyarı" şöbəsindən əvvəl oxunan guşə; "Bayatı-İsfahan" dəstgahının ilk muğam şöbələrindən biri.

**CAMİ ƏBDÜRRƏHMAN Nürəddin ibn Əhməd** (1414-1492) - fars-tacik şairi, filosofu, musiqi nəzəriyyəçisi. XV əsrin II yarısında fars dilində yazdığı "Musiqi haqda traktat"ında (rus dilinə tərcümə, Daşkənd, 1960) o dövrdəki Şərq musiqisi təcrübəsindəki nailiyyətləri ümumiləşdirmişdir.

**CAVANŞİROV Allahyar Aslan oğlu** (05.02.1907, Şuşa - 17.02.1972, Bakı) - tarzən. Xan Şuşinskinin qardaşı. Tar çalmağı və muğamatı Şuşada öyrənmiş, İslam Abdullayevi və digər xanəndələri müşayiət etməklə sənətini təkmilləşdirmişdir. 1939 ildən Bakıda fəaliyyət göstərməyə başlamışdır. 38 il müddətində Xan Şuşinski ilə birgə çıxış etmiş, onun ən yaxşı müşayiətçisi kimi tanınmışdır. Bu ansamblda müxtəlif vaxtlarda Tələt Bakıxanov, Habil Əliyev, Elman Bədəlov və digər kamança ifaçıları da çıxış etmişlər. Onlar respublikanın şəhər və rayonlarında geniş dinləyici kütləsi qarşısında, hərbi hissələrdə əsgərlər qarşısında çıxış etmiş və çox məşhurlaşmışlar.

**CƏBRAYILOV Eynulla Eynulla oğlu** (08.04.1935, Kürdəmir - 14.09.1992, Kürdəmir) - xanəndə. Şirvan musiqi mühitində yetişən Eynulla Cəbrayılov bu bölgənin ustad sənətkarlarının ənənələrindən bəhrələnir, muğam və aşıq sənətinin sirlərinə yiyələnir. O, ifaçılığında bu iki sənətin xüsusiyyətlərini qovuşdurmağa nail olur. Gənc yaşlarından peşəkar xanəndə kimi respublikada tanınan E.Cəbrayılovun Aşıq Şakir və nəfəs alətləri ifaçısı Həsrət Hüseynovla birgə çıxışları xüsusilə əlamətdar olmuşdur. E.Cəbrayılov aşıq havalarını ("Nazlana-nazlana", "Bala nərgiz", "Kimə yalvarım" və s.) böyük şövqlə oxuyan xanəndə kimi məşhurlaşmışdır. Bu havalar bu gün xanəndələrin repertuarında kök salmışdır. E.Cəbrayılov geniş diapazonlu, rəngarəng tembrli güclü səsə malik xanəndə olmuşdur. Onun ifasında "Rast", "Segah-Zabul", "Mirzə Hüseyn Segahı", "Çahargah" və başqa muğamlar AzTR Fondunda saxlanılır. E.Cəbrayılov 1952 ildən ömrünün sonuna kimi Kürdəmir rayon Mədəniyyət İdarəsində çalışmış, eyni zamanda, respublikanın musiqi həyatında yaxından iştirak etmişdir. 1956 və 1957 illərdə Azərb. gənclərinin birinci və ikinci festivallarının laureatı olmuşdur.

**CƏFƏROV Cavanşir Xəlil oğlu** (22.06.1953, Bakı) - dirijor, əməkdar incəsənət xadimi (2000), xalq artisti (2006). Sankt-Peterburq konservatoriyasının xor-dirijorluq fakültəsini bitirib (1977). 1980-1985 illərdə Azərb. Dövlət Xor Kapellasının bədii rəhbəri və baş dirijoru, 1985-1990 illərdə Musiqili Komediya teatrının baş dirijoru, 1996 ildən ADOBT-nın baş dirijoru vəzifəsində çalışır. Eyni zamanda, BMA-nın professorudur. Repertuarı: Ü. Hacıbəyov - "Koroğlu", "Leyli və Məcnun"; Verdi - "Aida", "Riqoletto", "Traviata"; Bize - "Karmen"; Puççini - "Madam Batterflay"; Çaykovski - "Qu gölü"; Adan - "Jizel"; Minkus - "Don Kixot"; F.Əmirov - "Sevil", "1001 gecə" və s. əsərlərdən ibarətdir.

**CƏLD MİZRAB** - tar ifaçılığında ənənəvi mizrab işlətmə üsulu; əsasən triollarla ifa edilir. "Segah", "Çahargah", "Mahur-Hindi" və b. muğamlarda şox rast gəlinir.

**CƏLİLOV Kamil Cəlil oğlu** (29.01.1938, Bakı) - qoboyçalan, xalq artisti (2000). İlk qoboy müəllimi C.Məmmədov olmuşdur. 1955-1959 illərdə



*Kamil Cəlilov, qoboy ifaçısı*

ADMM-də, 1959-1965 illərdə ADK-da təhsil almışdır. Qoboy müəllimi V.A.Knyazkovun və professor A.Abdullayevin rəhbərliyi altında sənətini təkmilləşdirmişdir. Müxtəlif illərdə Q.Qarayev ad. Azərb. Dövlət kamera orkestrinin, xalq artisti Gülarə Əliyevanın rəhbərlik etdiyi "Dan ulduzu" instrumental ansamblının, Niyazi adına simfonik orkestrin solisti olmuşdur. "Dan ulduzu" ansamblı ilə bir çox xarici ölkələrdə - Suriya, Livan, Əlcəzair, Hindistan, Şri-Lanka, Polşa, Çexoslovakiya, İsveçrə, İtaliya, Finlandiya, Fransa və s. qastrol səfərlərində olmuşdur. Bəstəkar əsərləri ilə yanaşı, K.Cəlilov, eyni zamanda, Azərb. muğamlarının qoboy alətində mahir ifaçısı kimi tanınmışdır. Virtuoz ifaçı olan və xalq musiqisini dərindən bilən K.Cəlilov Avropa musiqi alətinin bədii-texniki imkanlarından istifadə edərək, onları milli musiqi xüsusiyyətləri ilə qovuşdurmuş, Azərb. muğamlarının bənzərsiz təfsirini yarada bilmişdir. K.Cəlilov Respublika İncəsənət Gimnaziyasında sənətinin sirlərini gənc musiqiçilərə öyrədir.

**CƏM** (ərəb) - bir neçə səsin qarşılıqlı rabitəsini göstərən qayda.

**CƏNGİ** - qəhrəmanlıq və cəngavərlik ruhunda gümrah və şən musiqi əsəri. Cəngi pəhləvanlar yarışında da, cıdır düzündə də çalınır. Bir qayda olaraq zurnaçılar dəstəsi tərəfindən ifa olunur.

**CƏRƏS** - zınqırov, çox kiçik zəng.

**CİDAYİ** - muğam şöbəsi. "Şur" muğam ailəsindən olan kiçik həcmli "Dəşti" muğamının ikinci (zil) şöbəsi (farsca "Cidayi" - "mizraq", "süngü" deməkdir). Həyəcanlı əhval-ruhiyyə daşıyır.

**CİNGƏNƏ** - tarın iki cüt ən zil simi. Bunlardan bir cütü tarın ağ simindən bir oktava yuxarı, o biri cütü isə tarın sarı simindən bir oktava yuxarı köklənir. Cingənə simlərini ilk dəfə XIX əsr Azərb. görkəmli tarzəni Mirzə Sadıq Əsəd oğlu tar alətini yenidən qurarkən tətbiq etmişdir. Cingənə *alikvot* simlər olaraq həm tarın ümumi *rezonansını* artırır, həm də ifaçı tərəfindən *mizrab* ilə vurulduqda xüsusi effekt verir.

**CİNS** - **1.** üç müxtəlif interval məsafəsində yerləşən səsin məcmusu (akkord); **2.** Əl-Fərabinin əsərlərində janr mənasında işlənir.

**CÜMLƏ** - musiqidə ən kiçik quruluş; müəyyən kadensiya ilə yekunlaşır. Muğam şöbələrinin quruluşu cümlələrdən ibarət olur. ■

# Ç

**ÇAHAR-BAĞ** - qədim musiqidə mahnı adı.

**ÇAHAR MİZRAB** - tar ifaçılığında ənənəvi mizrab işlətmə üsullarından biri; əsasən səslərin dörd-dörd qruplaşdırılmasından ibarət çalğıdır. Çahar mizrab çingənə simlərin, kök simin və ya ağ simlərdən birinin hər dəfə ostinat kimi və müəyyən metroritmi saxlamaqla yaradılır. Çahar mizrab üsulu "Rast", "Mahur", "Çahargah", "Dügah", "Qatar" və bir sıra muğamlarda daim işlədilir.

**ÇAHAR-PARƏ** - qədim musiqidə mahnı adı.

**ÇAHARGAH MƏQAMI** (farsca hərfi mənası: *çahar* - dörd + *gah* - mövqe, məkan, vəziyyət) - Azərb. musiqisində yeddi əsas məqamdan biri (Ü.Hacıbəyov). Quruluşu: ½ - 1½ - ½ ton formullu üç tetraxordun qovuşuq və yanaşı üsullarla (I və II tetraxordlar - qovuşuq, II və III tetraxordlar yanaşı üsülla) birləşməsindən ibarətdir; səssırası 11 pilləlidir, IV pillə mayə (tonika) pilləsidir. Məqamın səssırasının II, IV, VI, VIII, IX (IX#), XI pillələri istinad-dayaq pilləsi kimi "Çahargah" muğamının şöbələrinin əsasını təşkil edir; bu məqamda qurulan musiqi nümunələri həmin pillələrə əsaslanır.

Do çahargah məqamının səssırası:




**ÇAHARGAH MUĞAMI** - Azərb. şifahi ənənəli professional musiqisində ən böyük muğam dəstgahı. Məcmusu: "Bərdaşt", "Mayəyi-Çahargah", "Bəstə-Nigar", "Hasar", "Müalif", "Qərrə", "Müxalif", "Məğlub", "Mənsuriyyə", "Üzzal", "Çahargaha ayaq" şöbə və guşələrindən ibarətdir. Hazırda dəstgahın yığcam və lakonik ifası məqsədilə: "Bərdaşt", "Mayəyi-Çahargah", "Bəstə-Nigar", "Hasar", "Müxalif", "Məğlub" və "Mənsuriyyə"dən (zərbi muğamı) ibarət tərkibdə ifa olunur.

"Çahargah" Şərq xalqları musiqisində də geniş yayılmış muğamlardan biridir. "Çahargah" - orta əsrlərdə Yaxın Şərq xalqlarının musiqisində muğam şöbəsi olmuşdur (*Ə.Marağai*).





XIX əsr Azərb. musiqisində "Çahargah" dəstgahı aşağıdakı muğam şöbələrindən ibarət idi: "Çahargah", "Segah", "Zabul", "Yədi-hasar", "Müxalif", "Məğlub", "Mənsuriyyə", "Zəminxara", "Mavərənnəhr", "Hicaz", "Şahnaz", "Azərbaycani", "Əşiran", "Zəng-şötör" və "Kərkuki" (*M.M.Nəvvab*).

"Çahargah" parlaq, virtuoz, qəhrəmani xarakterli, dərin dramatik məzmunlu bir dəstgahdır. Musiqi alimlərinin fikrincə, çahargah məqamı göy gurultusu ilə əlaqədar olaraq yaradılmışdır (M.M.Nəvvab *"Vüzuh-ül-ərqam"*). "Çahargah" dinləyicidə coşqunluq və ehtiras hissi oyadır. (Ü.Hacıbəyov - *"Azərbaycan xalq musiqisinin əsasları"*).

**ÇAHARGAH MUĞAMININ NOT YAZILARI** - Bu muğam müxtəlif muğam ifaçılarından nota salınmışdır: N.Məmmədov instrumental şəkildə tarzən Əhməd Bakıxanovun ifasından (1962), vokal-instrumental şəkildə xanəndə Yaqub Məmmədov və muğam üçlüyünün ifasından (1970), A.Əsədullayev instrumental şəkildə tarzən Elxan Mirzəfərovun ifasından (2005) nota yazmışlar. Bütün bu not yazıları "Azərbaycan xalq musiqisinin antologiyasına" daxil edilmişdir.

**ÇALĞI ALƏTLƏRİ FƏSİLƏSİ** - eyni quruluşa və səsçıxartma prinsipinə malik, lakin ölçüsünə görə fərqlənən alətlər qrupu; bu tip alətlər oxşar *tembrli* olsa da, səssıraları müxtəlif registri əhatə edir. Məs., *saz, tar* və s. alətlər fəsiləsi vardır.

**ÇANAQ** - simli alətlərin gövdəsi; onun üzərinə simlər çəkilir; simlərin dartılmasından alınan səslərin rezonansını artırır.

**ÇATAR** - üç-dörd simli musiqi aləti.

**ÇEŞİD** - yay ilə çalınan simli musiqi aləti.

**ÇƏKAVƏK** (fars: torağay) - "Hümayun" dəstgahının əvvəlində oxunan muğam şöbəsi.

**ÇƏQANƏ** - Kamanla çalınan dördsimli çalğı alətidir. XIX əsrin sonlarına kimi Azərb. ərazisində mövcud olmuşdur. Müasir dövrdə bərpa olunaraq, qədim musiqi alətləri ansamblında istifadə olunur.

**ÇƏNG** - üçbucaq şəklində simli, dartımlı musiqi aləti. Üst qolu at boynu tərzində hazırlanır və baş (yuxarı) tərəfində gözəllik üçün iri ipək qotaz salladılır. Çəngə 24 sim qoşulmuş və bu simlər qoşa bağlandığından alətdən 12 müxtəlif səs (bir oktava daxilində bütün xromatik qamma səslərini) əldə etmək mümkün olmuşdur. Yaranma tarixi çox qədimlərə gedib çıxır. Əsasən, saray məclislərində istifadə olunan zərif və incə səsli çəngin ən erkən növləri İkiçayarası və Misir sivilizasiyalarına aid edilir. Çəng böyük Azərb. şairləri Nizaminin və Füzulinin əsərlərində vəsf edilmişdir.

**ÇƏNGƏL (çəngək)** - tarın çanağı içərisindəki dayaq taxtasının bərkidilməməsi (ya da ümumiyyətlə, qolunun çanağa yaxşı oturulmaması) nəticəsində tar qolunun səviyyəsinin düzgün olmaması. Bu qüsur çox vaxt tarın *"pərdə vurması"* ilə nəticələnir.

*Orta əsrlərin miniatüründə çəng alətinin təsviri*



**ÇIRTIQ** - xalq rəqslərinin bəzilərində oyun zamanı barmaqları şıqqıldatmaq yolu ilə əlləri səsləndirmə üsulu.

**ÇIRTIQ MİZRAB** - tar ifaçılığında istifadə olunan ənənəvi mizrab işlətmə üsullarından biri; bir alt mizrab, iki üst mizrabın ardıcıllaşmasından ibarətdir. Birinci alt mizrab dırnaqla vurulduğundan çırtıq kimi səslənir. Texniki çalğı üsulu kimi muğam ifaçılığında geniş yayılmışdır.

**ÇIRTMA** - zərbli musiqi alətlərində (*nağara, dəf* və s.) əl ilə vurularaq səsləndirilən xüsusi çalğı üsulu.

**ÇOBAN-BAYATI** - ***1.*** Qədim dövrlərdən çobanların tütəkdə çaldıqları melodiya. ***2.*** Ənənəvi aşıq havası. ***3.*** XX əsrin əvvəllərindən muğam ifaçılığına daxil olmuşdur. İlk dəfə tarda Qurban Primov ifa edərək, instrumental muğam ifaçılığına gətirmişdir. Xanəndə yaradıcılığında da rast gəlinir. Qurban Primovun müşayiətilə Cabbar Qaryağdıoğlu və Keçəçioğlu Məhəmmədin ifasında "Çoban bayatı" muğamının səsyazısı qrammofon vallarında saxlanılmışdır.

**ÇOĞUR** - Tarixi qaynaqlara əsasən, XII-XVII yüzilliklərdə, Qafqaz, İran və Anadoludakı sufi mərasimlərində, dərviş - aşıq məclislərində bu musiqi alətindən istifadə edilmişdir.



*Çoğur - qədim musiqi aləti*

**ÇOXSƏSLİLİK** - eyni vaxtda müxtəlif yüksəkliyə malik səslərin birləşdirilməsindən əmələ gələn musiqi quruluşu. Muğam dəstgahların, zərbi muğamların, təsniflərin vokal-instrumental ifası zamanı çoxsəsli musiqi quruluşu əmələ gəlir.

**ÇUPANİ** (fars., azərb.: çobanı) - XIX əsr Azərb. musiqisində muğam şöbələrindən biri. ■

# D

**DAD** (fars: haraya çağırmaq) - *"Mahur"* muğamının ilk guşələrindən biri.

**DADAŞOV Əhsən Əliabbas oğlu** (16.08.1924, Bakı - 29.05.1976, Bakı) - tarzən, əməkdar artisti (1953). Mansur Mansurovun muğam ənənələrinin davamçısıdır. Muğamların və bəstəkar əsərlərinin tar və ud alətlərində mahir ifaçısı idi. O, həmçinin, bir sıra rəng və təsniflərin yaradıcısıdır. Görkəmli müğənni Rəşid Behbudovun ansamblının üzvü kimi dünyanın bir çox ölkələrində qastrol səfərlərində olmuş, Azərb. musiqisini təmsil etmişdir. AzTRV QSC nəzdində 1960 ildə x.ç.a. ansamblı yaratmış və ömrünün sonuna kimi bu ansamblın bədii rəhbəri olmuşdur. Hazırda "Xatirə" x.ç.a. ansamblı (bədii rəhbəri Adil Bağırov) Əhsən Dadaşovun adını daşıyır. Ə.Dadaşov bir çox tarzənlərin sənət müəllimi olmuşdur.



*Əhsən Dadaşov, tarzən*

**DADAŞOV Fəxrəddin Əlisahib oğlu** (26.09.1950, Bakı) - kamança ifaçısı, xalq artisti (2005). 1972-1977 illərdə ADMM-də təhsil alıb. İlk muğam müəllimi Tələt Bakıxanov olub. ADK-da Ramiz Mirişlidən dərs alıb. 1966 ildən bu günə kimi Əhməd Bakıxanov ad. x.ç.a. ansamblının konsertmeysteridir. 1989 ildən Cabbar Qaryağdıoğlu ad. muğam üçlüyünün rəhbəridir. Dünyanın 50-ə yaxın xarici ölkəsində qastrol səfərində olub. 1970 ildən bugünədək ADF-nın solistidir. 1988,1998 illərdə Beynəlxalq folklor festivalının laureatı adını qazanmış, gümüş medalla təltif olunmuşdur (Fransada). Xarici ölkələrdə diskləri çıxıb (Fransa, Almaniya, İtaliya, Kanada). AzTR Fondunda onun ifasında "Mahur-Hindi", "Şüştər", "Çahargah", "Bayatı-Şiraz", "Rahab", "Vilayəti-Dilkəş", "Şur" muğamlarının lent yazıları saxlanılır.





**DAİRƏ** - zərbli musiqi aləti. Sağanağının diametri dəf (qaval) sağanağındakından bir qədər (təxminən 10-15 mm) böyük olur. Həm də üzərinə qavalda olduğu kimi balıq dərisi deyil, keçi, ya dana dərisi, bəzi hallarda isə qoyun qarnından üz çəkilir.

**DARTIMLI ALƏTLƏR** - simli alətlərin bir növü: çalğı zamanı simlər barmaqla və ya mediatorla dartılaraq ehtizaza gətirilir; *tar, saz, qanun* və s. bu növ alətlərə aiddir.

**DARTMA SİM** - simli alətlərdə çalğı üsulu; səslər və ya melodiya mizrab vurmadan barmaqların simi dartması vasitəsilə çalınır. Buna xalq musiqiçiləri "əngüş-kari", yəni "mizrabsız barmaq gəzimi" də deyirlər.İnstrumental muğam ifaçılığında mizrabla zəng simlərə toxunmaqla müxtəlif variantlı "dartma sim" üsulundan istifadə etmə hallarına rast gəlinir.

**DASTAN** - aşıq yaradıcılığında öz həcmi etibarı ilə ən böyük musiqili-poetik, epik janr. Azərb. aşıq yaradıcılığının məhsulu. Aşıqlar tərəfindən yaradılan və ifa olunan nəsr, şeir və musiqi hissələrini özündə cəmləşdirən iri həcmli əsər. Məzmununa görə iki növə ayrılır: a) Qəhrəmanlıq ("Koroğlu", "Şah İsmayıl"); b) Məhəbbət dastanları ("Leyli və Məcnun", "Əsli və Kərəm", "Aşıq Qərib"); c) öyüd-nəsihətverici dastanlar ("Alıxan-Pəri", "Səliv şah"). Azərb. dastanları bir çox opera əsərlərinin librettosunun əsasını təşkil edir.

**DEKA** (alman: *decke* - qapaq) - simli alətlərin gövdəsinin üst və alt taxtaları, alətin üzü.

**DETONASİYA** (fransız: detonner - xaric oxumaq, xaric çalmaq) - səsin düzgün olmayan ifası; Detonasiya pis eşitmə qabiliyyətini nəticəsində və ya vokal səsin səhv qoyuluşu nəticəsində meydana gəlir.

**DƏF** - zərb aləti; bir üzünə dəri çəkilmiş taxta dairədən ibarətdir. Dairəyə kiçik metal lövhəciklər birləşdirilir. *Bax: Qaval.*

**DƏLİK, GÖZ** - nəfəsli alətlərdə havanın alətin daxilinə üfürülməsi yeri; başqa sözlə: üfürmə dəliyi.

**DƏMANƏ** (*dəman* - çevik, qıvraq, güclü) - *"Mahur"* dəstgahına mənsub şöbələrdən biri.

**DƏMİROV Teyyub Hacı Məmməd oğlu** (25.04.1908, Bakı - 09.08.1970, Bakı) - qarmon ifaçısı, muğam bilicisi. İfaçılıq sənətinin sirlərini görkəmli qarmonçalan Əhəd Əliyevdən öyrənmiş, onun davamçısı olmuş, özü də bir çox musiqiçilərin sənətə gəlməsində böyük rol oynamışdır. T.Dəmirovun qarmon alətinin təkmilləşdirilməsi ilə bağlı dəyərli təklifləri alətin hazırlanmasında tətbiq olunmuşdur. O, Əhməd Bakıxanovun rəhbərliyi ilə x.ç.a. ansamblının üzvü kimi respublikada keçirilən tədbirlərin fəal iştirakçısı olmuş, bir sıra xanəndələri müşayiət etmişdir. T.Dəmirov çox sayda rəqslər, rəng və dəramədlər yaratmışdır. Onun ifasında "Bayatı-Şiraz", "Segah", "Rast", "Zabul", "Bayatı-Qacar", "Şur" instrumental muğamları AzTR Fondunda saxlanılır.



*Teyyub Dəmirov, qarmon ifaçısı*

**DƏMKEŞ** - zurnaçı, ya da balabançının (usta) çaldığı havanın əsas kök səsini uzadaraq müşayiət edən çalğıçı.

**DƏMSAZ** - çalınan hava kökünə (məqamına) münasib əsas səsin başqa çalğıçı tərəfindən uzun müddət uzadılaraq davam etdirilməsi: ansamblda ikinci balabanın funksiyası.

**DƏMSAZ NOT** - *1.* Pedal - *bas səsdə* uzun müddət saxlanılan və ya dəfələrlə ardıcıl təkrarlanan səs; *2.* Orqan punktu - təkrarlanan və ya uzadılan bas səsi və onun fonunda *melodik* hərəkətin müstəqil davam etdirilməsi. Saxlanılan bas səsi üzərində qurulmuş *akkord*ların tərkibi dəyişilir. Adətən, yuxarı səslərin hərəkəti basa uyğun akkordla yekunlaşdırılır. Orqan punktu ladın *tonika* və *dominanta* pilləsi üzərində (ayrı-ayrılıqda və ya birlikdə götürülmüş) qurulur. Tonika orqan punktu əsərin əvvəlində və ya sonunda istifadə olunur, dominanta orqan punktundan isə əsərin ortasında (*sonata formasında reprizadan* əvvəl), *əsas mövzunun* təkrarı zamanı və tonika funksiyasının daha qabarıq səslənməsi məqsədi ilə istifadə olunur. *Orkestrdə* orqan punktunun səsləndirilməsində *litavralardan* istifadə olunur. Orqan punktuna müəyyən *ostinat* fiqurasiyalar da aid edilir. Dördsəsli musiqidə bəzən bas səsindən əlavə, yuxarı səslərdə də orqan punktuna rast gəlinir.

**DƏRAMƏD** - Azərb. musiqisində instrumental musiqi janrı; rəngin bir növü. Muğam dəstgahın başlanğıcında ifa olunaraq, instrumental giriş əhəmiyyəti daşıyır. Dəramədin musiqi dilinin xüsusiyyətləri bilavasitə muğamla bağlı olub, həmin muğamın qurulduğu məqama əsaslanır və onun adını qəbul edir: "Rast dəramədi", "Şur dəramədi" və s. Dəramədlər həcminə və quruluşuna görə rənglərdən fərqlənir. Dəraməd, həcmi baxımından daha geniş olub, musiqi bölümləri məqamın bütün istinad-dayaq pillələrini (mayədən zilə kimi) və muğamın kadensiya və intonasiya xüsusiyyətlərini əhatə edir. Muğam ifaçıları tərəfindən hər bir muğamla bağlı rəngarəng musiqi məzmunlu dəramədlər yaradılmışdır.

**DƏRVİŞ ƏLİ** (təxəllüsü Çəngi; XVI əsrin II yarısı - XVII əsrin əvvəlləri) - tacik musiqişünası, müğənni, çəşgçalan. "Risaleyi musiqi" (2-ci variantı "Töhfət üs-sürur" - "Sevinc töhfəsi") adlı elmi əsərin müəllifidir. 12 fəsildən ibarət əsərin bir hissəsi musiqi elminə, digər hissəsi musiqiçilərin həyatına həsr olunmuşdur. Dərviş Əli özünün əsas və törəmə məqam sistemlərini şərh etmiş, ritm (üsul), instrumental (peşrav) və vokal-instrumental (əməl, sövt, nəqş və s.) əsərlər, musiqi alətləri (tənbur, ney, çəng və s.) haqqında məlumat vermişdir.

**DƏSTAN** (ərəb) - dartımlı simli musiqi alətləri qoluna bağlanan pərdələr.

**DƏSTGAH** (ərəb, fars: *dəst* - komplekt + *gah* - mövqe, məqam, məkan) - müəyyən muğam tərkibinə daxil olan bütün şaxələr, şöbələr, guşələr, rədiflər, rənglər və təsniflərin küll halında, məntiqi inkişaf qaydası üzrə mütəşəkkil məcmusu.

**DƏŞTİ** (ərəb: *dəşt* - çöl, səhra) - kiçik həcmli muğam. "Şur" muğam ailəsinə daxildir. Tərkibi üç şöbədən ibarətdir: "Mayeyi-Dəşti", "Cidayi", "Gəbri". (farsca: "Dəşti" sözü "səhra", "çöl", "xiyaban"; "Cidayi" - "mizraq", "süngü", "Gəbri" - "böyük", "ulu", "qoca"). Re mayəli şur məqam-tonallığında oxunur. Əvvəllər "Şur" muğamının, həmçinin, "Bayatı-kürd" muğamının tərkibində ifa olunmuş, zaman keçdikcə, dəstgahdan ayrılaraq, müstəqil mahiyyətli kiçik muğama çevrilmişdir. "Dəşti" muğamı mülayim, aramlı, sakit, təmkinli əhval-ruhiyyə daşıyır. Muğamın əvvəlində və sonunda "Dəşti" təsnifləri ifa olunur. İfaçılıq təcrübəsində "Sənin eşqin məni gətirdi dilə" (xalq sözlərinə) təsnifi geniş yayılmışdır.

*Qədim əlyazmalarda ney çalan dərvişin təsviri*







**DƏYİŞƏN MƏQAM** - *1.* Melodik lad - tərkibindəki səslərin saxlanılması şərtilə tonika yerini dəyişərək, bu və ya digər pillə melodiyanın sabit dayaq pilləsinə çevrilir; başqa sözlə, müvəqqəti olaraq melodik modulyasiya (melodik yönəlmə) baş verir. *Bax: Melodik ladlar.* *2.* Dəyişən lad - major və minorda tonikanın dəyişilməz olaraq saxlanılması şərtilə əmələ gələn lad; eyniadlı tonallığa keçidin əsasını təşkil edir. *Bax: Lad modulyasiyası.*

**DİALOQ** (yunan: *dialogos* - iki şəxs arasında söhbət) - iki alətdə və ya iki səslə ifa olunan sual - cavab quruluşlu melodik frazaların ardıcıllaşması.

**DİAPAZON** (yunan: *diapason (chordon)* - hərfi mənada: simlərin hamısının üzərindən) - bir alətə və ya səsə xas olan musiqi səsləri sırasının tam həcmi.

**DİATONİKA** (yunan: *diatonikos* - gərilmiş, yəni bir səsdən, bir pərdədən o birisinə keçən) - yalnız xalis, böyük və kiçik intervalları özündə cəmləşdirən diatonik səssırasına əsaslanan səslərin birləşməsini və bir-birini əvəz etməsini öyrənən elm sahəsi.

**DİATONİK MODULYASİYA** - bir tonallıqdan digərinə keçid zamanı hər iki tonallıq (başlanğıc və yeni tonallıq) üçün eyni ortaq səslərə malik akkorddan istifadəni nəzərdə tutur. Diatonik modulyasiya birinci dərəcəli və ikinci dərəcəli qohum tonallıqlar arasında mümkün hesab olunur.

**DİATONİK NOTLAR** - diatonik səslər: səslərin əsas (dəyişilməmiş) şəkli - do, re, mi, fa, sol, lya, si.

**DİATONİK SƏSSIRASI** - *1.* Sadə səslərin (alterasiya işarəsi olmadan) ardıcıllığından əmələ gələn səssırası: do, re, mi, fa, sol, lya, si; başqa sözlə - əsas səssarası. *2.* Alterasiyalı səslərin də daxil olduğu, lakin əsas səssırasına uyğun gələn intervallardan ibarət səssırası. *3.* Bərabər temperasiyalı səssırası.

**DİATONİK YARIMTON** - iki qonşu səs arasında əmələ gələn və kiçik sekunda intervalı yaradan yarımton: məs., si-do, mi-fa, lya-si-bemol və s. *bax: Yarımton.*

**DİXUL** (ərəb) - müqəddimə, giriş.

**DİLÇƏK** - qamış dilçək. Qarğıdan düzəldilən kiçik plastinka; bir sıra nəfəsli alətlərdə nəfəs borusunun ağzında yerləşir; birqat dilçək və ikiqat dilçək istifadə olunur. *Bax: balaban, zurna.*

**DİLETANT** (italyan: *dilettante; dilettare* - həzz vermək) - həvəskar; musiqi ilə və ya elmlə peşəkarcasına deyil, öz şəxsi zövqünə görə məşğul olan şəxs.

**DİLƏNGİZ** - Şərq xalqlarının musiqisində muğam şöbəsi.

**DİLƏNVAZ** - Şərq xalqlarının musiqisində muğam şöbəsi.

**DİLKƏŞ** (fars: cazibəli, xoşagələn, valehedici) - muğam şöbəsi. "Şahnaz" kiçik həcmli muğamının ikinci (bəm) şöbəsi: "Şahnaz" ilə "Şəddşahnaz" arasında ifa olunur. Dinləyicidə dərin lirik təsir oyandırdığına görə xanəndələr çox vaxt "Rast" və "Mahur" muğamlarında "Vilayəti" şöbəsini "Dilkəş" ilə əvəz edirlər.

**DİLRÜBA** (fars: füsunkar, məftunedən) - muğam şöbəsi; xarakter etibarilə həzin, kövrək, füsunkardır, müəyyən dərəcə sabit ölçü ilə həzin bir tərzdə ifa olunur. Bu şöbə segah məqamına əsaslanaraq, müxtəlif muğam dəstgahlarının tərkibində, adətən, "Şikəsteyi-fars" və ya "Hüzzal" şöbələrindən sonra ifa olunur və muğamın mayəsinə keçid əhəmiyyəti daşıyır. "Dilrüba" şöbəsi bir sıra görkəmli muğam ifaçıları tərəfindən "*Mahur*" muğamında (Q.Primov); "*Dügah*" (M. Mansurov); "Rahab", "Qafqaz hümayunu", "Bayatı-İsfahan" muğamlarında (B. Mansurov) səsləndirilmişdir. Müasir dövrdə "Bayatı-Şiraz" muğamının tərkib hissəsi kimi, "Hüzzal" və "Bayatı-Şiraza ayaq" şöbələri arasında muğam proqramlarında yer almışdır. "Bayatı-Şiraz" muğamında dəstgahın mərkəzi şöbəsi olan "Bayatı-İsfahan"dan sonra zil registrli şöbə və guşələr - "Zil Bayatı-Şiraz", "Xavəran", "Hüzzal", "Dilrüba" ardıcıllaşır. Bunlardan "Zil Bayatı-Şiraz" mayə şöbəsinin zildə dəyişilmiş, coşqun xarakterdə təkrarıdırsa, "Xavəran"da rast ladına keçid, "Hüzzal"da isə segaha keçid özünü göstərir. "Dilrüba" isə "Bayatı-Şiraz" dəstgahının kompozisiyasında guşə əhəmiyyətindədir və "Bayatı-Şiraz"a "ayaq" üçün bir növ "hazırlıq" guşəsi sayılır. "Könül açan" əhval-ruhiyyəli bu guşənin aşağı istiqamətli melodiyası bilavasitə "Bayatı-Şiraza ayaq" guşəsinə gətirib çıxarır.

**DİNAMİKA** (yunan: *dynamikos* - güc, qüvvət) - musiqi səslənməsinin əsas gücünü bildirir. Əsas işarələri: *forte* (f) və *piano* (p) - qüvvətli

və zəif səslənmə, kreşendo (crescendo) və diminuendo (diminuendo) - səsin artırılması və azaldılması.

**DİPLOMANT** - müsabiqədə münsiflər heyəti tərəfindən fəxri fərmanla təltif olunmuş iştirakçıya verilən ad.

**DİREKSİON** (fransız: *direction*; latın: *directio* - istiqamət) - musiqili səhnə əsərinin librettosunu əvəz edən proqram - ssenari planı. Ü.Hacıbəyov "Leyli və Məcnun" muğam operasını yaradarkən direksiona əsaslanmışdır.

**DİRĞƏM** - Qədim Şərq musiqisində muğam şöbəsi.

**DİRİJOR** (fransız: *diriger* - rəhbərlik etmək, idarə etmək) - ansambl (ork., xor, opera və s.) musiqisinin öyrənilməsinə və ifasına rəhbərlik edən şəxs; ifa olunan əsərin bədii təfsiri dirijora məxsusdur. Əvvəllər ansamblın bir üzvü dirijor rolunda çıxış edir, ifaçılara yol göstərirdi; sonralar xüsusi dirijor meydana gəldi. Dirijor əsərin ifa xarakterini ork. üzvlərinə xüsusi hərəkətlə şərh edir.

**DİRİJORLUQ** (fransız: *diriger* - idarə etmək) - ifaçılıq sənətinin ən mürəkkəb növlərindən biri olub, musiqi əsərinin məşq və ya konsert zamanı musiqiçilər kollektivinə (ork., xor, opera və balet truppası, ansambl və s.) rəhbərlik deməkdir. Dirijorluq sənəti xüsusi əl hərəkətləri sisteminə əsaslanır; ifa zamanı dirijorun üzünün ifadəsi, baxışı, mimikası mühüm rol oynayır. Dirijor ansamblın həmahəng səslənməsini, ifanın texniki kamilliyini təmin edir, əsərin ideya məzmununu, üslubunu və bədii məqsədini idarə etdiyi kollektivə çatdırmağa çalışır. Azərb. musiqi mədəniyyətində görkəmli dirijorların adları parlayır. Simfonik ork. və opera dirijorları: M.Maqomayev, Ə.Bədəlbəyli, Niyazi, K.Əliverdibəyov, R.Abdullayev, C.Cəfərov, Y.Adıgözəlov və b. X.Ç.A. orkestrinin dirijorları: S.Rüstəmov, N.Əzimov, A.Paşayev və b.

**DİRİNGİ** - Azərb. şifahi ənənəli professional musiqisində instrumental musiqi janrı, rəngin bir növü. Xalq musiqi ifaçılığında rəqs xarakterli rəngləri diringi adlandırırlar. Diringilərin musiqi məzmununun əsasını rəqs melodiyaları təşkil edir.

**DİSHARMONİYA** (yunan: *dis* - inkar önşəkilçisi + *harmonia* - ahəngdar, həmsaz) - qeyri - ahəngdar, mütənasibliyin pozulması, ahəngsiz səslənmə.

**DİSKANT** (latın: *discantus*; *dis* - ayırma + *cantus* - oxuma) - yüksək uşaq səsi; həcmi birinci oktavanın sol səsinə kimidir.

**DİSSONANS** (fransız: *dissonance*; latın: *dissono* - ahəngsizlik) - bir-birinə uyğun olmayan səslərin birləşməsi. Belə səs birləşməsi kəskin, qıcıqlandırıcı eşidilir. Dissonans intervallara böyük və kiçik sekunda, septima və nona, artırılmış kvarta və əksildilmiş kvinta intervalları aiddir. Dissonans akkordlara böyük və kiçik üçsəsliklərdən başqa bütün digər akkordlar aid edilir. Dissonans musiqidə güclü ifadə vasitəsi hesab olunur; musiqidə gərginlik, iztirab, həyəcan və s. bu kimi əhval - ruhiyyə yaradır.

**DİVAN** (ərəb) - **1.** oktava (diatonik səsdüzümünün - 7, xromatik səsdüzümünün - 12, klassik Şərq musiqisinin isə 17-24 pilləsini qavrayan səs sahəsi): divani-əvvəl - birinci oktava; divani-sani - ikinci oktava və s. **2.** Şərq ölkələrində bir şairin əsərlərinin məcmuəsi. məs., Nizami Gəncəvi - "Divani-həkim", Məhəmməd Füzuli "Divani-mövlana" və s.

**DİVANİ** - ən çox şifahi xalq yaradıcılığında, bəzən də yazılı ədəbiyyatda işlənən dörd misralıq şeir forması. Hər misrada 15 heca olur.

**DOBROVOLSKİ İvan Vikentyeviç** (1780-1790 - 1851) - rus bəstəkarı, folklorçu-etnoqraf, not nəşrlərinin orijinal üslubunun ixtiraçısı, dirijor, skripka ifaçısı, musiqi alətləri ustası idi. Bir sıra şəhərlərdə, o cümlədən, Bakıda konsert səfərlərində olmuşdur, teatr orkestrlərinə dirijorluq etmişdir. 1817 ildən Rusiyada ilk dövrü musiqi nəşrinin - "Asiya musiqi jurnalı"nın naşiridir. 1840 ildə Dobrovolskinin jurnalında çap olunan "Dərbəndli Fətəli xanın mahnısı" Azərb. xalq melodiyalarının ilk dəfə nota yazılması kimi əhəmiyyət kəsb edir.

**DÖVR** (ərəb) - nəğmə, mahnı.

**DÖYMƏ MİZRAB** - tar ifaçılığında istifadə olunan ənənəvi mizrab işlətmə üsullarından biri; tremolo xüsusiyyətli olub, mizrabların hamısı iti hərəkətli üst mizrabla çalınır.

**DRAMATİK MUSİQİ** - **1.** Musiqi əsərinin xarakterinə görə fərqləndirilməsi; gərgin, həyəcanlı musiqi məzmununa malik əsər. **2.** Dram tamaşasına yazılmış musiqi növü.

**DUET** (alman: *duett*, latın: *duo* - iki sözündən) - **1.** İki ifaçıdan - *müğənni* və ya *çalğıçı*dan ibarət *ansambl*, hər ifaçının məxsusi *partiya*sı olur.





**2.** İki ifaçı üçün bəstələnmiş *əsər*; *duettino* - kiçik həcmli duet.

**DULOGİYA** (latın: *duo* - iki; yunan: *logos* - məfhum, təlim, anlayış) - eyni bir mövzu ətrafında birləşmiş iki müstəqil hissədən ibarət əsər; hissələr dramaturji süjet xəttinə görə bağlı olmayıb, bir-birindən fərqlənir və ayrı-ayrılıqda da ifa olunur. *F.Əmirovun "Şur" və "Kürd Ovşarı" simfonik muğamları* dulogiya əmələ gətirir.

**DUMBUL** - iki tərəfli, enli, girdə sağanaqlı təbil. Üzərinə ya buzov, ya da qoyun dərisi çəkilir. Çalğıçı dumbulu hər iki tərəfinə ağac vuraraq səsləndirir.

**DÜBEYTİ** - **1.** Ənənəvi aşıq havası. **2.** "Dəşti" muğamında "Nəğmeyi-dəşti" ilə "Giləyi" arasındakı şöbə.

**DÜGAH** (farsca mənası: səhər-axşam) - **1.** muğam. "Rast" muğam ailəsinə daxil olan muğamlardan biridir, mi bemol rast məqam-tonallığında ifa olunur. Əsas şöbələri: "Bərdaşt", "Mayeyi-Dügah", "Güşeyi-Bayatı-Qacar", "Ruhül-Ərvah", "Mavərənnəhr", "Hüseyni", "Şikəsteyi-fars", "Dilrüba", "Əraq", "Zəngi-Şütür", "Rak" və "Dügah (kadensiya)". **2.** muğam şöbəsi. " Mahur" dəstgahında "Dilkəş" ilə "Zəngşütür" arasındakı şöbə.

**DÜMA ALEKSANDR** (Düma-ata; 24.07.1802, Viller-Kope - 05.01.1870, Plüş) - fransız yazıçısı. Dümanın ədəbi irsi zəngindir; "Üç muşketyor" (1844), "İyirmi ildən sonra" (1845), "Vikont de Brajelon" (1848-1850), "Kraliça Marqo" (1845), "Xanım Monsoro" (1947-1948), "Qraf Monte-Kristo" (1845-1846) tarixi-macəra romanları yazıçıya dünya şöhrəti qazandırmışdır. 1858 ildə Düma Qafqazda, o cümlədən, Tiflisdə, Bakıda, Qarabağda olmuş, bu münasibətlə "Parisdən Həştərxana" və "Qafqaz" kitablarını nəşr etdirmişdir. O, M.F.Axundovla, X. Natəvanla görüşmüş, şairə öz əl işlərindən Dümaya hədiyyə vermişdir. "Qafqaz" kitabında Bakının tarixi abidələrindən, milli musiqi sənətindən bəhs olunur.

**DÜMBƏK** - sağanağı çiçək vazasına bənzər biçimdə zərbli musiqi aləti.

**DÜRİNQ JAN** (1947, Alzas, Fransa) - musiqişünas, Fransa Milli Elmi-Tədqiqat Mərkəzində tədqiqat rəhbəridir. Fəlsəfə və Qərb musiqisi üzrə təhsil aldıqdan sonra onu Şərq mədəniyyəti və musiqisi cəlb edir. Bunun nəticəsində J.Dürinq İrana köçür və doqquz il burada yaşayır. Bu illər ərzində o, bir sıra tanınmış müəllimlərdən xalq musiqisi dərsləri alır, klassik və milli ud alətində ifa etməyi öyrənir, Şərq alimlərindən - filosoflardan, ilahiyyətçilərdən islam dünyagörüşünü öyrənir. 1981 ildə o, Fransaya qayıdır. J.Dürinq Bakı, Tehran, Düşənbə kimi mərkəz şəhərlərlə bərabər Xorasanın, Kürdüstanın, Baluçistanın kəndlərində də xalq musiqisi tədqiqatı aparmışdır. Ümumiyyətlə, onun ilk əsas araşdırmaları İran və Azərb. musiqisi ilə bağlıdır. Sonralar isə o, Çin türklərinin, Orta Asiya, əsasən də Tacikistanın musiqisi ilə məşğul olmuşdur. Baluç musiqisinin casibəsi isə onu Pakistana aparır. Dürinq Avropa dillərində (fransız dilində) Azərb. muğamına aid ilk böyük tədqiqat işinin müəllifidir. Tədqiqat işləri ilə bərabər o, Avropada Şərq musiqisi konsertləri təşkil edir. J.Dürinq - "İran musiqisi" (1984), "Musiqi və ekstaz" (1988), "Azərbaycan xalq musiqisi və muğam nəzəriyyəsi" (1988), "İran ənənələrində musiqi və mistika" (1989), "Uyqur musiqi təliminə giriş" (1991), "Orta Asiya musiqisi" (1998) və b. kitabların müəllifidir.

**DÜTAR** - iki simli, zahiri görünüşü ilə saza bənzəyən dartımlı musiqi aləti.

*Dümbək - zərbli musiqi aləti*



**DÜZÜLÜŞ** - **1.** Musiqi alətində çalğı zamanı barmaqların vəziyyəti. **2.** Musiqidə səslərin və səs təbəqələrinin müəyyən nisbətdə şaquli və ya üfüqi vəziyyəti. ■

# E

**EHTİZAZ** - simin dartılması nəticəsində yaranan səsin titrəyişi.

**EKSPROMT** (lat. *ekspromtus* - həmişə hazır) - bədahətən, hazırlıqsız yaradılan instrumental pyes; bir anda bəstəkarın təxəyyülündə yaranan bədii məzmunu və obrazları əks etdirir; bəstəkarlar adətən coşqun improvizasiya xarakterli pyesləri belə adlandırırlar.

**ELEKTROMEXANİKİ SƏSYAZMA** - cihazlar vasitəsilə səsin qrammofon valına yazılması.

**ELMİ-TƏDQİQAT MUSİQİ KABİNETİ (ETMK)** - 1931-1943 illərdə ADK-nın nəzdində Bülbülün rəhbərliyi altında fəaliyyət göstərmişdir. ETMK-nın əsas məqsədi şifahi ənənəli musiqi yaradıcılığı nümunələrinin toplanması, kataloqlaşdırılması və nota salınmasından ibarət idi. ETMK-nın ilk əməkdaşları Asəf Zeynallı, Səid Rüstəmov olmuş, kabinetin işində Üzeyir Hacıbəyov yaxından iştirak etmişdir. 1930-1940 illərdə ADK-da təhsil alan bəstəkar və musiqişünaslar da ETMK-ya cəlb olunmuşlar. Niyazi, Tofiq Quliyev, Qara Qarayev, Cövdət Hacıyev, Zakir Bağırov, Fikrət Əmirov, Məmmədsaleh İsmayılov, Ərtoğrul Cavid və b. kabinetin fəal əməkdaşları olmuşlar. ETMK-nın işi iki istiqamətdə: səsyazma studiyasında və ekspedisiyalarda aparılırdı. ETMK-nın səsyazma studiyasına görkəmli musiqi ifaçıları - Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Qurban Primov, Aşıq Əsəd Rzayev, Aşıq Mirzə Bayramov və b. dəvət olunaraq, onların ifasından muğamlar, təsnif və rənglər, xalq mahnı və rəqsləri, aşıq havaları *fonoqraf* vasitəsilə *fonovaliklərə* yazılmışdır. Eyni zamanda, musiqi folklorunun toplanması məqsədilə respublikanın rayonlarına ekspedisiyalar təşkil olunmuşdur: Qarabağ, Lənkəran, Astara, Masallı, Şəki, Zaqatala, Gəncə, Tovuz, Qazax, Xaçmaz, Quba, Qusar rayonlarına, Dilican, Basarkeçər, Borçalı və digər bölgələrə ekspedisiyalar zamanı zəngin material toplanmaşdır. ETMK-nın fondundakı səsyazıları nota salınaraq çap olunmuşdur. S.Rüstəmovun not yazıları əsasında "Azərbaycan xalq mahnıları" (Cabbar Qaryağdıoğlunun ifasından 50 mahnı, 1938), "Azərbaycan rəqs havaları" (1937), "Azərbaycan aşıq mahnıları" (1938). Bu materialların işlənilməsi sayəsində sonrakı illərdə də bir sıra not məcmuələri çap olunmuşdur: S.Rüstəmov, F.Əmirov və T.Quliyevin not yazıları üzrə Bülbülün redaktəsi ilə "Azərbaycan xalq mahnıları" (I - 1956; II - 1958), S.Rüstəmov - "Azərbaycan xalq rəngləri" (I - 1954; II - 1956) və s. ETMK-da muğamların notlaşdırılması da diqqət mərkəzində olmuşdur. Muğamın ilk çap nəşri 1936 ildə Mirzə Mansur Mansurovun ifasından T.Quliyevin ("Rast", "Zabul") və Z.Bağırovun ("Dügah") not yazıları əsasında həyata keçirilmişdir. Bundan əlavə, həminb dövrdə Niyazi, Q.Qarayev, F.Əmirov və b. bəstəkarlar da muğamları nota salmışlar (*bax: Muğamın not yazıları*). Adı çəkilən bəstəkarların ETMK-da fəaliyyəti zamanı topladıqları materiallar onların yaradıcılığına da böyük təsir göstərmiş, bir sıra yeni əsərlərin, eləcə də xalq mahnı və rəqslərinin müxtəlif tərkibli ansambllar üçün işləmələri meydana gələrək, ifaçılıq repertuarını zənginləşdirmişdir. ETMK-dakı işin daha bir sahəsi Azərb. musiqi tarixinə dair materialların toplanması ilə bağlı olmuşdur. Bununla əlaqədar olaraq, Cabbar Qaryağdıoğlunun, Qurban Primovun və b. sənətkarların xatirələri, muğam sənətinə dair məlumatları toplanmışdır (əlyazma şəklində). 1943 ildə ETMK fəaliyyətini dayandırmış, toplanan arxiv AMEA-nın MİI-na verilmişdir. ETMK-dan başlanılan şifahi ənənəli xalq və professional musiqi irsinin tədqiqi işi *AMEA MİI*-nun "Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi" şöbəsində, eləcə də 1971 ildə Ü.Hacıbəyov ad. ADK-da (indiki *BMA*) təşkil olunmuş "Xalq musiqisi kabineti"ndə musiqişünaslar tərəfindən davam etdirilmişdir. ETMK-nın materiallarının bir hissəsi AMEA-nın arxivində, digər hissəsi, o cümlədən, səsyazma studiyasında istifadə olunmuş fonoqraf və yuzə yaxın fonovaliklər *Bülbülün ev-muzeyində* saxlanılır.

*Bülbül və Cabbar Qaryağdıoğlu səsyazma studiyasında*



**ENHARMONİZM** (yunan: *enharmonios* - həmsazlıq, taraz gəlmək) - eyni yüksəklikdə yerləşən müxtəlif adlı səslər və ya müxtəlif adlı səslərin ton yüksəkliyi baxımından bərabərliyi: məs., do-diyez və re-bemol. Enharmonik bərabər səslər fiziki baxımdan taraz olsalar da, tamamilə fərqli bədii ifadə əhəmiyyətinə malikdir.

Bir səsin enharmonik əvəzlənməsi diatonik intervalı xromatik intervala çevirir (məs., kiçik tersiya - artırılmış sekunda); akkordun strukturunu dəyişir. Enharmonik modulyasiya, enharmonik bərabər tonallıqlar bu qəbildəndir.

**EŞİDİŞ (eşitmə)** - eşitmə orqanı (qulaq) vasitəsilə səs tezliyinin qəbul olunması. Musiqiçi üçün mühüm olan qabiliyyət göstəricisi: kamil eşitmə, daxili eşidiş, nisbi eşidiş ola bilir.

**ETNOMUSIQIŞÜNASLIQ** - xalq musiqisinin, daha geniş mənada, ənənəvi musiqi mədəniyyətinin fiksasiyası, sistemləşdirilməsi, öyrənilməsinə həsr olunmuş elm sahəsi. Müxtəlif tarixi dövrlərdə və müxtəlif ölkələrdə musiqi folklorçuluğu, musiqi etnoqrafiyası, musiqi etnologiyası, müqayisəli musiqişünaslıq adı ilə də tanınır. İlk dəfə termin olaraq hollandiyalı Y.Kunst tərəfindən 1950 ildə musiqi elminə daxil edilib. Amerika musiqi təcrübəsi sayəsində geniş vüsət qazanıb. 1947 ildən YUNEKOnun tərkibində "Xalq musiqisinin beynəlxalq şurası" fəaliyyət göstərir. Etnomusiqişünaslardan B.V.Asafyev, K.Zaks, B.Bartok, Ç.Siqer və b., Azərb. etnomusiqişünaslarından, Tahirə Kərimova, Həsən Adıgözəlzadə, Fəttah Xalıqzadə, Kamilə Dadaşzadə və b. adlarını çəkmək olar.

**ETOS** (yunan: adət, zövq, xarakter) - qədim yunan etika, estetika və pedaqogikasında hər hansı fiziki, əxlaqi və estetik hadisənin mahiyyətini bildirən termin. Etos haqqında təlim antik musiqi nəzəriyyəsinin əsas hissəsi olub, musiqini insana estetik-bədii təsir vasitəsi kimi şərh edir. Musiqinin bu cür dərk olunması qədim yunan mifologiyası ilə bağlı olub, sonrakı dövrlərdə musiqi məqamlarının müəyyən xarakterlərlə əlaqələndirilməsi məsələlərini önə çəkdi. Şərq musiqi elmində məqamların müəyyən əhval-ruhiyyəni ifadə etməsi, insana emosional təsiri ətraflı şəkildə öyrənilmişdir. Səfiəddin Urməvinin (XIII), Əbdülqadir Marağainin (XIV), Mir Möhsün Nəvvabın (XIX) əsərlərindəki mülahizələrə əsaslanan Üzeyir Hacıbəyov (XX) muğamların insana emosional təsirini belə izah etmişdir: "Bədii-ruhi təsir cəhətindən "Rast" dinləyicidə mərdlik və gümrahlıq hissi, "Şur" şən, lirik əhvali-ruhiyyə, "Segah" məhəbbət hissi, "Şüştər" dərin kədər, "Çahargah" həyəcan və ehtiras, "Bayatı-Şiraz" qəmginlik, "Hümayun" isə "Şüştər"ə nisbətən daha dərin bir kədər hissi oyadır."

**ETÜD** (fransız: *etude*, hərfi mənada - təmrin) - ifaçılıq texnikasını təkmilləşdirmək üçün nəzərdə tutulan instrumental pyes; ifaçılıq baxımından çətin üsulların dəfələrlə təkrarlanmasına əsaslanır. Görkəmli bəstəkarlar tərəfindən yaradılan etüdlər yüksək bədii əhəmiyyət kəsb edir. Bütün alətlərin tədrisində etüdlərdən istifadə olunur. X.ç.a. ifaçılığının tədrisi üçün Azərb. bəstəkarları tərəfindən *muğam etüdləri* bəstələnmişdir.

**EYVAZOVA ŞƏFİQƏ ALXAS QIZI** (09.03.1947, Bakı) - kamança ifaçısı, xalq artisti (2000). 1962-1966 illərdə ADMM-da, 1966-1971 illərdə ADK-da təhsil alıb. Azərbaycanda ilk qadın solist kamança ifaçısıdır. 1970 ildə Voronej şəhərində, 1973 ildə Berlində keçirilən festivalların qalibi olmuşdur. Ş.Eyvazova 2003 ildən Türkiyənin "Tekfen-Kara Dəniz" simfonik orkestrinin solistidir. Ş.Eyvazovanın ifasında "Şur", "Şüştər", "Rahab" və bir çox muğamların lent yazıları AzRT fondunda saxlanılır. 1967 ildən ADMM-də, ADK-da müəllim kimi çalışmış, hal-hazırda AMK-nın professorudur. ■

*Şəfiqə Eyvazova, kamança ifaçısı*



# Ə

**ƏBDÜLQADİR MARAĞAİ** (Xacə Əbdül-qadir ibn Qeybi əl-Hafiz əl-Marağai, bəzi mənbələrdə Marağalı, Marağİ; 1353, Marağa - 1437, Herat) - Azərb. musiqi nəzəriyyəçisi, bəstəkar və musiqi ifaçısı. Orta əsrlərdə Azərb. ən iri elm və mədəniyyət mərkəzi olmuş Marağa şəhərində yaşayıb yaratmışdır. Səmərqənddə Teymur şahın sarayında musiqiçi olmuşdur. Şərq ölkələrində ən böyük musiqiçi, müğənni və alimlərdən biri kimi tanınmışdır. Fərabi, İbn-Sina, Səfiəddin Urməvinin musiqi nəzəriyyəsi sahəsindəki nailiyyətlərini inkişaf etdirmişdir. Dövrünün musiqi təcrübəsini və musiqi nəzəriyyəsini əks etdirən bir sıra musiqi risalələrinin müəllifidir: "Came əl-Əlhan" ("Melodiyalar külliyyatı"), "Məqasid əl-əlhan" ("Melodiyaların məqsədləri"), "Şərh əl-Ədvar" (Səfiəddin Urməvinin "Kitab əl-ədvar" əsərinə şərh), "Fəvaidi-əşərə" ("On fayda"), "Kənz əl-əlhan" ("Melodiyalar xəzinəsi") risalələrini yazmışdır. Ə.Marağai məqam və ritmlərin quruluşunu izah etmiş, orta əsr musiqişünaslığında ilk dəfə olaraq, 12 əsas məqamdan törəmə 24 şöbə sistemini elmi cəhətdən əsaslandırmış, dövrünün musiqi formalarının (növbə, əməl, bəsit, pişrov və s.) təsvirini vermişdir. Ə.Marağainin nəzəri əsərlərində bəstəkarlıq, ifaçılıq üsullarından, musiqidə şeir və onun vəzninin əhəmiyyətindən bəhs edilmişdir. Bir çox musiqi əsərlərinin mətnini özü yazmışdır. Azərb. dilində şeirləri vardır. Ə.Marağainin yaratdığı 20 yeni ritmdən (iqa) 6-sı (zərb ür-rəbi, zərb ül-fəth, si dövr, qumriyyə, dövri-cədid, dövri-ədl) sonrakı dövr musiqişünasları tərəfindən klassik ritmlər silsiləsinə daxil edilmişdir. O, bir çox musiqi alətində, xüsusilə, udda məharətlə çalmış, bəzi alətləri təkmilləşdirmiş (kasat, əlvah) və yeni musiqi alətləri (nüzhə) icad etmişdir. Ə.Marağainin elmi və musiqi yaradıcılığı Yaxın və Orta Şərq musiqi mədəniyyətinin inkişafına böyük təsir göstərmişdir. Bəzi əlyazmaları Türkiyənin Nur-Osmaniyyə və Topqapı, İranın Məşhəd kitabxanalarında, İngiltərənin Oksford Universitetinin kitabxanasında saxlanılır. Marağainin yaradıcılığı bir sıra alimlər, o cümlədən, R.Q.Gizevetter, Q.C.Farmer, Z.Səfərova, S.Ağayeva tərəfindən öyrənilmişdir.

**ƏBDÜLQASIMOV Vaqif Əmir oğlu** (26.08.1942 Ağdam) - tarzən, sənətşünaslıq namizədi (1990), professor (1992). 1963-1968 illərdə ADK-da təhsil almış (tar və x.ç.a. orkestrin dirijoru ixtisasları üzrə) və burada "Xalq musiqisi" kafedrasında çalışmışdır (1971-2001). 2001 ildən AMK-nın elmi işlər üzrə prorektorudur. Bir çox müsabiqə və festivallarda fəxri fərmanlar və qızıl medal almışdır. 1977-1987 illərdə Respublika "Musiqi Mədəniyyəti Universiteti"-nin rektoru olmuşdur. Respublikada keçirilən bir sıra festival və müsabiqələrin təşkilatçılarındandır. Elmi tədqiqat sahəsində 6 monoqrafiyanın, 80-ə qədər elmi əsərlərin və dərsliklərin müəllifidir. "Azərbaycan tarı" (1989) monoqrafiyası fars, türk, ingilis dillərində çap olunmuşdur.

**ƏBÜ-L-FƏRƏC ƏL-İSFAHANİ** (Əli ibn Hüseyn əl-Qüreyşi; 897, İsfahan - 21.11.967) - ərəb şairi, alim. Tarix, filologiya və poeziyaya dair əsərlər yazmışdır. Ömrünün çox hissəsini Bağdadda yaşamışdır. Başlıca əsəri "Kitab əl-ağani əl-kəbir" ("Böyük nəğmələr kitabı") VII-X əsrlər ərəbdilli poeziyanın ən böyük antologiyalarındandır. 24 hissədən ibarət olan bu kitabda mahnıların mətnləri, onların ifaçıları və s. barədə məlumat toplanılmışdır. Antologiya ərəbdilli Azərb. ədəbiyyatını öyrənmək üçün mənbə əhəmiyyəti daşıyır.

**ƏBƏH** (ərəb) - xırıltılı səslə, boğuq səslə oxumaq.

**ƏBU-ƏTA** - "Şur" ailəsinə mənsub kiçik həcmli muğamlardan biri. Tərkibinə "Hicaz", "Çahar-bağ", "Səyyahi", "Səlmi" ("Səlmək") kimi şöbələr daxildir.

**ƏBÜL** - "Mahur" dəstgahına mənsub olan şöbələrdən biri.

**ƏBÜLÇƏP** - muğam şöbəsi. "Bayatı-Şiraz" muğamında "Bayatı-İsfahan"dan sonra ifa olunan kiçik şöbə.

**ƏBÜLHƏSƏNXAN İqbali Azər** (Əbülhəsənxan Musa oğlunun təxəllüsü; 1870, Qəzvin ş., Əlvənd k. - 05.02.1971, Təbriz) - xanəndə. Təbrizdə yaşamış, gənc yaşlarından istedadlı və muğamı dərindən bilən sənətkar kimi tanınmışdır. 1905-1911 illərdə İran inqilabına qoşulmuş, Səttarxan ona "İqbali Azər" adını vermişdir. Əbülhəsənxan gözəl tembrli, məlahətli, güclü səsə malik xanəndə idi. Onun ifasında "Şur", "Çahargah", "Mahur", "Əbu-əta", xüsusilə, "Segah" muğamları yüksək emosional tərzdə səslənmişdir. Özünəməxsus üslubda ifa etdiyi "Segah" muğamı İranda "Əbülhəsənxan segahı" adı ilə məşhurlaşmışdır. Əbülhəsənxanın səsi 1914 ildə Tiflisdə "Qrammofon" şirkəti tərəfindən vala yazılmış, bu şəhərdə konsertləri olmuşdur. Seyid Şuşinski Əbülhəsənxan ilə yaxından dostluq etmiş, onun yaradıcılığından çox bəhrələnmişdir. Əbülhəsənxan vallarından birində "Hümayun" muğamını oxuyaraq, üzərində onu Seyid Şuşinskiyə həsr etdiyini yazdırmışdı.

**ƏFŞARI (OVŞARI)** - etimologiyası qədim türk tayfalarından biri olan əfşarların adı ilə bağlıdır. ***1.*** Zərbi muğam; məqam əsası şüştər, musiqi ölçüsü 2/4-dir. ***2.*** Ənənəvi aşıq havasıdır. Şux, oynaq xarakter daşıyır.

**ƏHMƏD BAKIXANOV ADINA XALQ ÇALĞI ALƏTLƏRİ ANSAMBLI** - 1931 ildə Azərb. Radiosunun nəzdində M.Maqomayevin təşəbbüsü ilə Əhməd Bakıxanovun rəhbərliyi altında yaradılmışdır. Ansamblın heyəti on iki nəfərdən - tarzən Əmirulla Məmmədbəyli, Xosrov Məlikov, Ağası Məşədibəyov, kamançaçalan Hafiz Mirzəliyev, Qılman Salahov, məşhur qarmonçalan Kor Əhəd, dəfçalan Xalıq Babayev və b. təcrübəli ifaçılardan ibarət idi. İlk konsertlərin proqramı "Segah", "Çahargah", "Rast", "Şur", "Humayun" və s. muğamlardan ibarət idi. Bu muğamları ansamblın müşayiəti ilə Cabbar Qaryağdıoğlu, Həqiqət Rzayeva, Yavər Kələntərli və b. müğənnilər oxuyurdular. Şövkət Ələkbərova, Fatma Mehrəliyeva, Tükəzban İsmayılova, Zeynəb Xanlarova, Həbib Bayramov, Əliağa Quliyev və digər sənətkarlar da bu ansamblın kollektivində çalışmışlar. Ansambla 1973 ildən Həbib Bayramov, 1994 ildən Möhlət Müslümov rəhbərlik edir.

**ƏHMƏDOV Kamil Əlisəftər oğlu** (30.04.1920, Bakı - 1996, Bakı) - tarzən, əməkdar mədəniyyət işçisi (1978). 1936 ildə ADMM-nin tar sinfinə daxil olur. Gənc Tamaşaçılar Teatrında işləmiş, teatrın nəzdindəki Kukla Teatrının tamaşalarına musiqi tərtibatı vermişdir. 1946 ildən ADMM-nə muğamat və xalq mahnıları sinfinə müəllim təyin olunmuş, Seyid Şuşinski ilə çalışmışdır. Muğamın yaddan çıxmış şöbələrini aid olduğu muğamlara daxil edərək, dəstgah şəklində lentə alıb: "Hacı Yuni", "Busəlik", "Mavərənnəhr", "Dilruba" və "Məxlud-müxalif". 1965 ildə tərtib etdiyi muğamların tədrisi proqramında ritmik muğamları iki hissəyə bölür. Zərbi muğamlar: "Mani", "Arazbarı", "Səmayi-Şəms", "Ovşarı", "Heyratı", "Mənsuriyyə"; şikəstələr: "Qarabağ şikəstəsi", "Kəsmə şikəstə", "Sarıtorpaq şikəstəsi". Həmçinin o, x.ç.a.-nın qədim sənət növü olan sədəfvurma ilə məşğul olmuşdur. Onun məşhur sədəf vurduğu tar, kamança, qaval, qoşa nağara 1977 ildə Moskvada açılan x.ç. a. sərgisinin eksponatları olmuşdur. 1979 ildə Azərb. Dövlət İncəsənət Muzeyində "Azərbaycan milli musiqi alətlərinin respublika sərgisi"ndə K.Əhmədovun alətləri I dərəcəli diploma layiq görülmüşdür. AzTR Fondunda onun ifasında səslənmiş muğam lent yazıları saxlanılır.

**ƏHSƏN DADAŞOV ADINA "XATİRƏ" XALQ ÇALĞI ALƏTLƏRİ ANSAMBLI** - Azərb. fəaliyyət göstərən musiqi kollektivi. 1960 ildə *AzTRV QSC* nəzdində əməkdar artist tarzən Əhsən Dadaşovun rəhbərliyi altında yaradılmışdır. 1976 ildə Ə.Dadaşovun vəfatından sonra ansambla onun adı verilmiş və Əhsən Dadaşov ad. "Xatirə" x.ç.a. ansamblı adlandırılmışdır. Həmin vaxtdan bu günə kimi ansambla xalq artisti, tarzən Adil Bağırov rəhbərlik edir. Ansamblın ənənəvi tərkibi - tar, ud, qanun, bas tar, kamança, balaban, qarmon, nağara, qoşanağara kimi x.ç.a.-dən ibarətdir; repertuarı - muğam dəstgahlardan, təsnif və rənglərdən, xalq mahnı və rəqslərindən təşkil olunmuşdur. Ansambl fəaliyyət göstərdiyi müddətdə bir çox tanınmış xanəndələri müşayiət etmişdir ki, onların audio və video yazıları AzRT Fondunda qorunur.

**ƏHSƏN DADAŞOV ADINA MÜSABİQƏ** - Azərb. x.ç.a. (*tar, kamança, qanun*) ifaçılarının *Əhsən Dadaşov* adına I respublika müsabiqəsi. 2005 ildə Azərb. Respublikasının Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi və AMK-nın təşkilatçılığı ilə keçirilmişdir. Müsabiqə milli musiqinin təbliğində xüsusi xidmətləri olan respublikanın əməkdar artisti, görkəmli tarzən Əhsən Dadaşovun xatirəsinə həsr olunmuşdur. Müsabiqəyə respublikanın ali və orta ixtisas məktəblərində təhsil alan x.ç.a. ifaçıları qatılmışdır. Müsabiqənin mütləq proqramında Azərb. və xarici ölkə bəstəkarlarının əsərlərinin və muğamların ifası nəzərdə tutulmuşdur.

**ƏFƏNDİYEV Timuçin İlyas oğlu** (17.07.1945, Bakı) - ədəbiyyatşünas, əməkdar incəsənət xadimi (2002), filologiya elmləri doktoru (2000), professor (1990), Yazıçılar Birliyinin üzvü. 1969 ildə Azərb. Dövlət Universitetinin (indiki BDU) şərqşünaslıq fakültəsini bitirib. 1977 ilədək Nizami ad. Ədəbiyyat İnstitutunun elmi katibi

vəzifəsində çalışmışdır. 1977 ildə M.Əliyev ad. İncəsənət İnstitutunda (indiki ADMİU) teatr və kino aktyorluğu fakültəsinin dekanı kimi fəaliyyətə başlayır. 1987 ildən ADMİU-nun rektorudur. "Rus dramaturgiyası və Azərbaycan teatrı" (1979), "Qüdrətli dramaturq" (1984), "Hüseyn Cavidin ideyalar aləmi" (1985), "Ukrayna və Belarus teatrı" (1986), "XVIII əsr rus teatrı" (1988), "Antik ədəbiyyat" (1998), "C.Cabbarlı və romantik dramlar" (1999), "Azərbaycan dramaturgiyasında metodlar" (2002), "Azərbaycan mədəniyyəti və incəsənəti" (2003) kimi monoqrafiya, kitab və dərsliklərin müəllifidir. Beynəlxalq Bioqrafiya Mərkəzi tərəfindən (London) "Dünyanın aparıcı pedaqoqları - 2005-ci il" fəxri adına layiq görülmüşdür. Mədəniyyətimizin, teatr sənətinin tərəqqisi və tədrisi sahəsində xidmətlərinə görə Teatr Xadimləri İttifaqının "Teatr Xadimi" fəxri adı, "Jurnalistlərin dostu" mükafatı ilə təltif olunmuşdur. T.Əfəndiyev İSESKO təşkilatının ekspertidir.

**ƏKBƏROV Canəli Xanəli oğlu** (10.03.1940, Lənkəran r-nu, Tükəvilə k.) - xanəndə, xalq artisti (1992), professor (2008). "Şöhrət" ordeni (2002) ilə təltif olunmuşdur. C.Əkbərov muğamın sirlərini atasından öyrənmişdir. C.Əkbərov musiqi təhsilini Bakıda ADMM-də almışdır. Müəllimləri Seyid Şuşinski və Xan Şuşinskidən muğam ifaçılığının qayda-qanunlarını mənimsəyir və öz ifaçılıq məharətini təkmilləşdirir. 1965 ildən C.Əkbərov ADF-nın solisti, 1976 ildən bu günə qədər ADOBT-nın solistidir. Xanəndə bu teatrın səhnəsində muğam operalarında bir sıra yadda qalan obrazlar: Məcnun və İbn-Səlam (Ü.Hacıbəyov "Leyli və Məcnun"), Şah İsmayıl (M.Maqomayev "Şah İsmayıl"),



*Canəli Əkbərov, xanəndə*

Aşıq Qərib (Z.Hacıbəyov "Aşıq Qərib") obrazlarını yaratmışdır. C.Əkbərov xarici ölkələrdə - Almaniyada, Malidə, Avstriyada və s. ölkələrdə dəfələrlə qastrol səfərlərində olmuşdur. O, bir sıra müsabiqə və festivalların iştirakçısı və laureatı olmuşdur. Səmərqənddə keçirilən Şərq musiqi simpoziumunda və Kuybışevdə Şərq xalqlarının musiqi festivalında böyük nailiyyət əldə etmişdir. C.Əkbərovun repertuarı genişdir. Onun ifa etdiyi bütün muğam dəstgahlar vallara və disklərə yazılmışdır. C.Əkbərov hal-hazırda muğam müəllimi kimi, gənc xanəndələr nəslini yetişdirir, ADMİU-da "Muğam sənəti" kafedrasının müdiri vəzifəsində çalışır.

**ƏKRƏM CƏFƏR** (Cəfərov Əkrəm Səftər oğlu, 15.05.1905, İsmayıllı r-nu, Lahıc k. - 18.08.1991, Bakı) - şərqşünas, filoloq-dilşünas, əruz bilicisi, tərcüməçi, şair, türkoloq, filologiya elmləri doktoru (1969), professor (1971). 15 yaşında Bakıda Pedaqoji texnikuma daxil olur. Filosof-şair Hüseyn Cavidin tələbəsi olur. Texnikumda müəllimləri Üzeyir Hacıbəyov, Abdulla Şaiq, Ömər Faiq Nemanzadədən dərs alır. 1929-1932 illərdə Moskva Dövlət Universitetinin Ədəbiyyat və dilşünaslıq fakültəsində təhsil alır və burada işləməyə başlayır. 1937-1939 illərdə Azərb. Pedaqoji İnstitutunda, 1939-1942 illərdə Azərb. Dövlət Universitetində "Şərq filologiyası və ümumi dilşünaslıq" kafedarsının müdiri vəzifəsində çalışır. 1942-1954 illərdə Türkmənistanda sürgündə olur. Bu illərdə "Qurani-Kərim"in surə və ayələrini türk dilinə tərcümə edir. 1954 ildə vətənə qayıtdıqdan sonra bir sıra ali məktəblərdə dərs deyir. 250-dən çox elmi işlərin, bir neçə monoqrafiyanın müəllifidir. "Böyük Sovet Ensiklopediyası" və "Azərbaycan Sovet Ensiklopediyası"nı redaktə etmişdir. Gözəl natiqlərdən biri idi, 8 xarici dili mükəmməl bilirdi. Bir çox dünya şöhrətli sənət incilərini azərb. dilinə tərcümə etmişdir. İlk dəfə o, müəllifin struktur və yazı üslubunu saxlayaraq, Ömər Xəyyamın rübailərini tərcümə etmişdir. Fundamental əsərlərindən olan "Əruz nəzəriyyəsinin əsasları və Azərb. əruzu (ərəb, fars, tacik, türk və özbək əruzu ilə müqayisədə)". Bu əsərini elmi mühitdə "Əruz elminin Quranı" adlandırırlar. Əsər ərəb filoloqu və musiqişünası Şeyx İmam Xəlil ibn Əhməd əl-Fərahidi əl- Bəsrinin (VIII əsr) araşdırmalarına əsaslanmış əruz elmi haqda sistemləşdirilmiş mükəmməl elmi işdir.

**ƏL-KİNDİ** (Əbu Yusif Yaqub ibn İshaq; təqr. 800, Bəsrə - 870, Bağdad) - ilk ərəb filosofu və alimi. "Ərəblərin filosofu" ləqəbi ilə məşhur-





dur. Qədim yunan filosof və alimlərinin əsərlərinin tərcümə və şərhində iştirak etmiş, Aristotel fəlsəfəsi ilə tanış olmuşdur. Metafizika, məntiq, astrologiya, təbabət və s. bəhs edən risalələrlə (240 adda risaləsi məlumdur) yanaşı, musiqi nəzəriyyəsi ilə bağlı risalənin də müəllifidir.

**ƏLƏKBƏROV Firidun Yusif oğlu** (20.06.1922, Gəncə) - tarzən, əməkdar artist (1989). Gəncədə Qənbər Hüseynlidən tar çalmağı öyrənmiş, F.Əmirovla, Z.Qayıbovla birgə Gəncədə yaradılan x.ç.a. ork. qəbul olunmuş, ork. konsertmeysteri olmuşdur. 1938 ildən Gəncə Dövlət Filarmoniyasının solisti kimi fəaliyyət göstərmişdir. 1943 ildə Filarmoniyanın x.ç.a. orkestrinə rəhbərlik etmiş, eyni zamanda, xanəndələri, o cümlədən, qastrola gələn Bülbülü müşayiət etmişdir. Ü.Hacıbəyov onun çalğısını çox dəyərləndirmişdir. 1949 ildən Bakıda ADF-nın solisti kimi fəaliyyət göstərməyə başlamışdır. 1950 illərdə ADMM-də təhsil almışdır. Həm solo, həm də müşayiətçi kimi geniş konsert fəaliyyəti ilə məşğul olmuşdur. 1981 ildə muğamların təbliği məqsədi ilə respublikanın rayonlarında solo proqramla çıxış etmişdir. AzTR Fondunda F.Ələkbərovun ifasında bütün instrumental muğamlar saxlanılır. Hal-hazırda pedaqoji fəaliyyətlə məşğul olur, Bülbül ad. Orta İxtisas Musiqi Məktəbində dərs deyir.

**ƏLƏKBƏROVA Şövkət Feyzulla qızı** (20.10.1922, Bakı - 07.02.1993, Bakı) - Müğənni (metso-soprano), xalq artisti (1959). ADMM-də

*Süleyman Ələsgərov (sağda), bəstəkar*

*Şövkət Ələkbərova, müğənni*



Hüseynqulu Sarabskinin sinfini bitirmişdir. 1938-1945 illərdə Azərb. Dövlət Mahnı və Rəqs Ansamblında işləmiş, 1945 ildən ADF-nın solisti olmuşdur. Repertuarında muğamlar ("Segah", "Qatar", "Şahnaz" və s.), xalq və bəstəkar mahnıları üstünlük təşkil edirdi. Onun yüksək ifaçılıq mədəniyyəti, səsinin məlahəti və qeyri-adi tembri xüsusilə diqqəti cəlb edirdi. Onun ifasında səslənən muğamlar improvizə ustalığı ilə seçilir. Əksər Azərb. bəstəkarlarının mahnıları məhz onun ifasında ilk dəfə səslənmişdir. Bir çox xarici ölkələrdə (Fransa, İsveçrə, Şri-Lanka, Əfqanıstan, Hindistan, Əlcəzair, İran, Türkiyə və s.) çıxış etmişdir. Ş.Ələkbərova ifaçılıqla müəllimlik fəaliyyətini məharətlə uzlaşdırmışdır; Aygün Bayramova, Aybəniz Haşımova, Könül Xasıyeva və b. onun tələbələri olmuşlar.

**ƏLƏSGƏROV Süleyman Əyyub oğlu** (22.02.1924, Şuşa - 22.01.2000, Bakı) - bəstəkar, dirijor, pedaqoq, ictimai xadim, xalq artisti (1974), professor (1976). Ü.Hacıbəyov adına respublika mükafatı laureatı (1967). ADK-nı bitirmişdir (1948). Müxtəlif illərdə ADMM-nin direktoru, AzTR X.Ç.A. ork-nın dirijoru, Musiqili Komediya Teatrının direktoru və baş dirijoru olmuşdur. 1956 ildən ADK-da çalışmış, x.ç.a. orkestri üzrə dirijor kadrlar yetişdirmişdir. 11 operettanın ("Ulduz", "Özümüz bilərik", "Milyonçunun dilənçi oğlu" və s.), opera, kantata, simfoniya janrında yazılmış əsərlərin, o cümlədən, "Bayatı-Şiraz" simfonik muğamının (1950) müəllifidir. Azərb. x.ç.a. ork. üçün əsərlər - "Cəngi", "Lirik pyeslər", "Sözsüz mahnı"lar, tar və ork. üçün konsert bəstələmişdir.



**ƏLİVERDİBƏYOV Ağalar Kərbəlayi Ələkbər oğlu** (1880, Şuşa - 1953, Bakı) - musiqi xadimi, musiqi folkloru toplayıcısı, muğam bilicisi. Şuşada Realni məktəbi bitirmiş, Peterburqda və Varşavada inşaat mühəndisi ixtisası üzrə təhsil almışdır. Ü.Hacıbəyovun dayısı idi və onun ilk musiqi müəllimi olmuşdur. A.Əliverdibəyov dövrünün ziyalı şəxsiyyətlərindən biri idi. O, Şuşanın mədəni həyatında yaxından iştirak edir, muğam ifaçılarını öz ətrafına toplayaraq, sənət haqqında söhbətlər, müsamirələr keçirirdi. Onun evi xanəndə və ifaçılar üçün sənət ocağına çevrilmişdi. Musiqi tarixi ilə dərindən maraqlanan A.Əliverdibəyovun yazdığı "Rəsmli musiqi tarixi" əsəri (2002 ildə Bakıda nəşr olunmuşdur) musiqi elmi üçün mühüm əhəmiyyət kəsb edir. Burada müəllif həm dünya xalqlarının musiqi mədəniyyətinə nəzər salmış, həm də dövrünün sənətkarları və musiqi haqqında qiymətli məlumatlar vermişdir. Ömrünün son illərində ADMM-də muğam ifaçılığından dərs demişdir.

**ƏLİVERDİBƏYOV Kazım Ağalar oğlu** (27.11.1934, Bakı) - dirijor, əməkdar incəsənət xadimi (1978), professor (1991). ADK-nı xor dirijorluğu üzrə bitirmişdir (1959). 1961 ildən ADOBT-da işləyir. Ü.Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm", "Koroğlu" operalarına, "Arşın mal alan", "O olmasın, bu olsun" musiqili komediyalarına dirijorluq etmişdir.

**ƏLİVERDİBƏYOV Nazim Ağalar oğlu** (24.08.1926, Bakı - 16.02.1986, Bakı) - bəstəkar. ADK-nı bitirmiş, Bülbül ad. Orta İxtisas musiqi məktəbində (1964-1985 illərdə direktor) və ADK-da dərs demişdir. "Cırtdan" uşaq operasının, kamera-vokal və simfonik əsərlərin müəllifidir. "Bayatı-Şiraz" muğamı əsasında *a kapella* xoru üçün əsər yaratmış, sonradan onu orqan aləti üçün işləmişdir. Əsər həm Xor kapellasının, həm də orqançalanların konsert repertuarında görkəmli yer tutur. Bu əsərin orqan versiyası əsasında "Muğam" adlı xoreoqrafik lövhə balet artistləri tərəfindən səhnələşdirilmişdir.

**ƏLİYEV Firuz Əliabbas oğlu** (04.06.1950, Bakı) - tarzən, xalq artisti (2007). Musiqi təhsilini 1965-1969 illərdə ADMM-də almışdır. 1970-1975 illərdə ADK-nın X.ç.a. şöbəsində ali təhsil almışdır. 1983 ildən görkəmli xanəndə İslam Rzayevin rəhbərliyi ilə təşkil olunmuş instrumental ansamblın konsertmeysteridir. Bu ansamblla bir çox xanəndələri müşayiət etmişdir. F.Əliyev, həmçinin, solist tarzən kimi və muğam üçlüyünün tərkibində də çıxış edir. Xarici ölkələrdə - Türkiyədə, Almaniyada, Amerikada, Braziliyada, Kanadada, Yunanıstanda və s. yerlərdə qastrol səfərlərində olmuşdur. Eyni zamanda, müəllim kimi fəaliyyət göstərir. 1992 ildən Ü.Hacıbəyov ad. ADK-da, 2001 ildən isə AMK-da milli musiqiçi kadrlar yetişdirir.

**ƏLİYEV Əbülfət Əsəd oğlu** (30.12.1926, Şuşa - 1990, Bakı) - xanəndə, xalq artisti (1964).



*Əbülfət Əliyev, xanəndə*

Azərb. musiqi mədəniyyəti tarixinə Qarabağ xanəndəlik məktəbinin ən görkəmli nümayəndələrindən biri kimi daxil olmuşdur. O, Qarabağın Xan Şuşinski, Seyid Şuşinski, Musa Şuşinski kimi məşhur xanəndələrinin ifasından muğamları, təsnifləri öyrənərək, onların yaradıcılıq ənənələrinə əsaslanaraq, öz orijinal üslubunu yarada bilmişdir. Sonrakı illərdə Ə.Əliyev Ağdamda Xan Şuşinskidən və Bahadur Mehralı oğlundan muğam dəstgahlarını dərindən öyrənmişdir. O, zəngin, rəngarəng çalarlı səsə, muğam improvizasiyası bacarığına, qeyri-adi ritm həssaslığına və gözəl qaval çalmaq qabiliyyətinə malik olmuşdur. O, "Rast", "Şur", "Çahargah", "Bayatı-Şiraz", "Hümayun", "Segah-Zabul" muğam dəstgahlarını xüsusi məharətlə oxumuş, öz yaradıcılığında qədim xalq mahnılarına və təsniflərə müraciət etmişdir. Ə.Əliyevin ifasında bir çox muğam və təsniflər AzTR Fondunda saxlanılır. Onun səsi bir neçə qrammofon vallarında yazılmışdır. 1945 ildən ADF-nın və ADOBT-nın solisti kimi fəaliyyət göstərmişdir. Xanəndə qastrol səfərlərində çox olmuş, Qvineya, Qana, İran, Suriya, Livan və s. ölkələrdə konsertlər vermişdir. Ə.Əliyev ADOBT-da Məcnun, Kərəm (Ü.Hacıbəyov - "Leyli və Məcnun", "Əsli və Kərəm") və Şah İsmayıl (M.Maqomayev - "Şah İsmayıl") partiyalarını oxumuşdur.





**ƏLİYEV Habil Mustafa oğlu** (28.05.1927, Ağdaş) - kamança ifaçısı, xalq artisti (1978). "Şöhrət" (1997) və "İstiqlal" (2007) ordenləri ilə təltif olunmuşdur. Ağdaş rayonu pedaqoji məktəbində oxumuş və eyni zamanda Ağdaş dram teatrında işləmişdir. 1952 ildə ADMM-də təhsil almış, təhsil müddətində müşayiətçi kimi ADF-yə qəbul edilmiş, bir çox görkəmli xanəndələrlə - Seyid Şuşinski, Xan Şuşinski, Fatma Mehrəliyeva, Şövkət Ələkbərova və b. ilə ansamblda çıxış etmişdir. Eyni zamanda, solist kimi fəaliyyət göstərərək, instrumental muğam ifaçılığını zənginləşdirmişdir. Onun ifasında "Segah", "Şüştər" və s. muğamların səsyazısı AzTR Fondunda saxlanılır. H.Əliyevin xüsusi bir şövqlə ifa edərək yaratdığı "Segah" muğamını çox zaman "Habil Segah" adlandırırlar. Muğam ustadının ifasından ilhamlanan bəstəkar Firəngiz Əlizadənin yazdığı "Habilsayağı" əsərində H.Əliyevin muğam ifaçılığı üslubu canlandırılır. H.Əliyev 15-dən artıq mahnının müəllifidir "Gülüm yatsın", "Şəhla gözlüm", "Vəfa", "İlk məhəbbət", "Güləsən gərək" və s. H.Əliyev 1958 ildən solist və müşayətçi kimi xarici ölkələrə səfər etmişdir: Misir, Bolqarıstan, Əlcəzair, Türkiyə, Fransa, Belçika, İrlandiya, Şotlandiya, Monqolustan, ABŞ və s. H.Əliyevin Fransada, İtaliyada, ABŞ-da, Yaponiyada Azərb. xalq mahnılarından və muğamlarından ibarət diskləri çıxmışdır.



*Habil Əliyev, kamança ifaçısı*

**ƏLİYEV Heydər Əlirza oğlu** (10.05.1923, Naxçıvan - 12.12.2003, Bakı) - Azərb. xalqının ümummilli lideri. 1939 ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərb. Sənaye İnstitutunun memarlıq fakültəsində təhsil almışdır. 1941 ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili işlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmiş və 1944 ildə dövlət təhlükəsizlik orqanlarında işə göndərilmişdir. Bu dövrdən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1964 ildən Azərb. SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967 ildən sədri vəzifəsində işləmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. Həmin illərdə o, Leninqrad şəhərində (indiki Sankt-Peterburq) xüsusi ali təhsil almış, 1957 ildə Azərb. Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969 il iyul plenumunda Heydər Əliyev Azərb. Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olmuşdur. 1982 ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur. Heydər Əliyev 20 il ərzində SSRİ Ali Sovetinin deputatı, 5 il isə SSRİ Ali Soveti sədrinin müavini olmuşdur. 1987 ildə tutduğu vəzifəsindən istefa etmişdir. 1990 ilin 20 yanvarında Sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar etirazını bildirmiş, 1991 ilin iyul ayında Sovet İttifaqı Kommunist Partiyası sıralarını tərk etmişdir. 1990 ilin iyulunda Azərb. qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991-1993 illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərb. Respublikası Ali Soveti Sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992 ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993 ilin iyun-may aylarında o zamankı kəskin vəziyyətlə əlaqədar Azərb.

xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxır. Heydər Əliyev 1993 il iyunun 15-də Azərb. Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərb. Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993 il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərb. Respublikasının Prezidenti seçildi. O, 1998 il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin



*Heydər Əliyev*

76,1 faizini toplayaraq, yenidən Azərb. Respublikasının Prezidenti seçilmişdir. Heydər Əliyev 4 dəfə Lenin ordeni, Qırmızı Ulduz ordeni, "Yaroslav Mudrı" (Ukraynanın ali mükafatı, 27.3.1997, Kiyev) ordeni; "Atatürk Sülh Mükafatı" (Türkiyəin ən nüfuzlu mükafatı, 13.4.1999) ilə təltif edilmiş; 2 dəfə Sosialist Əməyi Qəhrəmanı adına, Moskva Dövlət Universitetinin "Fəxri professoru" adına layiq görülmüşdür. Həmçinin H.Əliyev Rusiya Federasiyasının Təhlükəsizlik, Müdafiə və Hüquq Qaydası Problemləri Akademiyasının professoru və həqiqi üzvü (03.04.2003) seçilmiş, Y.V.Andropov adına mükafata layiq görülmüşdür. 10 may 2003 ildə Rusiyanın yüksək mükafatı - Müqəddəs Apostol Andrey Pervozvannı ordeni ilə təltif olunmuşdur.

H.Əliyev Azərb. musiqi mədəniyyətinə ümumən milli mədəniyyətin, respublikanın daxili ictimai-mədəni və sənət proseslərinin, müasir incəsənətin və dünya musiqi mədəniyyətinin ayrılmaz tərkib hissəsi kimi yanaşırdı. O, musiqi incəsənətinin inkişafına milli inkişafın ayrılmaz və mühüm tərkib hissəsi kimi baxırdı. Bu mənada, H.Əliyev milli mədəni dəyər, milli sərvət kimi yüksək qiymətləndirdiyi muğamlara, xalq musiqisinə milli ruhda tərbiyənin, milli zəmində bədii-estetik tərbiyənin vacib amili kimi yanaşır, buna görə də onların qorunması və yaşaması üçün, istedadlı xanəndə, ifaçı və müğənnilərə hər cür dövlət qayğısı göstərilməsi üçün əlindən gələni əsirgəmirdi. H.Əliyevin fikrincə, xalq musiqisi, muğamlar bəstəkarlar tərəfindən daha çox işlənilərsə, bəstəkar yaradıcılığına, peşəkar ifaçıların yaradıcılığına daha çox yol taparsa, onların dünya ictimaiyyətinə çatdırılması imkanları da genişlənər və biz müasir dünyaya qədim musiqi dəyərlərimizi bəstəkarlar vasitəsilə yeni texniki və bədii üsullarla da tanıtdıra bilərik.

Heydər Əliyev Azərb. mədəniyyəti və incəsənətinin hamisi idi. Tarixi mədəniyyət abidələrinin bərpası, milli mənəvi dəyərlərə sadiqlik, mədəniyyət və incəsənət adamlarına verilən qiymət, göstərilən diqqət və qayğı onun mədəniyyət siyasətinin əsas amilləri olmuşdur. *www.heydar-aliyev.org*

**ƏLİYEV İlham Heydər oğlu** (24.12.1961, Bakı) - Azərb. Respublikasının Prezidenti. 1977-1982 illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunda təhsil almış və MDBƏİ-nun aspiranturasına daxil olmuşdur. 1985 ildə dissertasiya müdafiə edərək tarix elmləri namizədi dərəcəsi almışdır. 1985-1990 illərdə MDBƏİ- də müəllim işləmişdir. 1991-1994 ildə özəl biznes sahəsində çalışmışdır. Bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik etmişdir. 1994 ildən 2003 ilə qədər Azərb. Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti olmuşdur. Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsində fəal iştirak etmişdir. Suveren Azərb. neft siyasətinin geosiyasi aspektlərinə dair bir sıra tədqiqat işlərinin müəllifidir. Siyasi elmlər doktorudur. İki dəfə - 1995 və 2000 illərdə Azərb. Respublikası Milli Məclisinə seçilmişdir. 2003 ildə Azərb. Respubilkasının baş naziri vəzifəsinə təyin edilməsi ilə əlaqədar olaraq deputat səlahiyyətlərinə xitam verilmişdir. 1997 ildən Azərb. Milli Olimpiya Komitəsinin Prezidentidir. İdmanın və olimpiya hərəkatının inkişafında böyük xidmətlərinə görə Beynəlxalq Olimpiya Komitəsinin ali ordeni ilə təltif edilmişdir.



1999 ildə hakim Yeni Azərb. Partiyası sədrinin müavini, 2001 ildə sədrin birinci müavini, 2005 ildə isə partiyanın sədri seçilmişdir. 2001-2003 illərdə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərb. Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri olmuşdur. 2003 ilin yanvarında Avropa Şurası Parlament Assambleyası sədrinin müavini, AŞPA-nın Büro üzvü seçilmişdir. 2004 ilin aprelində AŞPA-nın fəaliyyətində fəal iştirakına və Avropa İdealla-



*İlham Əliyev və Mehriban Əliyeva "Muğam - 2007" müsabiqəsinin iştirakçıları ilə*

rına sədaqətinə görə AŞPA-nın fəxri üzvü diplomu və AŞPA medalı ilə təltif edilmişdir. 2003 il avqustun 4-də Milli Məclis tərəfindən təsdiq edildikdən sonra Azərb. Respublikasının Baş naziri təyin edilmişdir. 2003 il oktyabrın 15-də Azərb. Respublikasının Prezidenti seçilmişdir.

Ümummilli lider Heydər Əliyevin mədəniyyət siyasəti sahəsindəki ənənələrini davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları elm, təhsil, mədəniyyət sahələrində dövlət proqramlarının həyata keçirilməsində mühüm işlər görür. Respublikada mədəniyyət siyasətini uğurla təşkil edən Prezident İlham Əliyevin bu sahədəki fəaliyyəti musiqi sənətinin yeni nailiyyətləri üçün zəmin yaradır. *www.ilham-aliyev.org*

**ƏLİYEVA Mehriban Arif qızı** (26.08.1964, Bakı) - Heydər Əliyev adına Fondun Prezidenti (10.05.2004), Azərb. Mədəniyyətinin Dostları Fondunun Prezidenti (1995), YUNESKO-nun (13.08.2004), İSESKO-nun (24.10.2006) xoşməramlı səfiri. 1982 ildə N.Nərimanov ad. Azərb. Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. 1988 ildə M.Seçenov ad. I Moskva Dövlət Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir. 1988-1992 illər ərzində Moskvada Akademik Krasnovun rəhbərliyi altında Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda işləmişdir. 1995 ildə Mehriban Əliyevanın təşəbbüsü ilə hal-hazırda onun rəhbərlik etdiyi "Azərbaycan Mədəniyyətinin Dostları Fondu" təsis olunmuşdur. 1996 ildə Mehriban Əliyeva Azərb. mədəniyyətinin geniş təbliğ olunması məqsədi ilə üç dildə (azərb., ingilis və rus) çap olunan "Azərbaycan- İrs" jurnalını təsis etmişdir. 2002 ildə Azərb. gimnastika federasiyasının prezidenti seçilmişdir. Onun beynəlxalq aləmdə artmaqda olan nüfuzu Beynəlxalq Gimnastika Federasiyasının Bədii Gimnastika üzrə 2003-2004 il dünya Kuboku yarışlarının və 2005 il Dünya Çempionatının Azərb. keçirilməsinə dair qərarın qəbul olunmasında

həlledici rol oynamışdır. 2004 il dekabrın 28-də Mehriban Əliyeva Azərb. Respublikası Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinə üzv seçilmişdir. 2005 il-də "İlin qadını" adına layiq görülmüşdür. 2005 il iyunun 9-da Rusiyanın "Yüzilliyin mesenatla-rı" Beynləxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninə layiq görülmüşdür. 2005 ildə fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almışdır. 2005 il noyabrın 6-da Əzizbəyov rayon seçki dairəsindən Milli Məclisə deputat seçilmişdir. Milli qəhrəman Çingiz Mustafayev Fondu və ANS Şirkətlər Qrupu fəaliyyətinə görə Mehriban Əliyevanı "2005 ilin adamı" elan etmişdir. Dünya Səhiyyə İcraiyyə Komitəsinin 2007 il yanvarın 29-da Cenevrədə keçirilən 120-ci sessiyasının qərarı ilə Mehriban Əliyeva ana, uşaq və ailə sağlamlığının qorunması və möhkəmlənməsi işində müstəsna xidmətlərinə görə bu beynəlxlaq təşkilatın mükafatına layiq görülmüşdür. 2007 ilin mayında "Qızıl ürək" beynəlxalq mükafatı ilə təltif olunmuşdur.

Azərb. Respublikasının beynəlxalq aləmdə daha geniş tanınması, ölkəmizin sivil dövlətlər sırasına daxil olması, Azərb. vətəndaşlarının xoşbəxt yaşaması – bunlar, Mehriban xanım Əliyevanın fəaliyyətində ən əsas, ən önəmli prinsiplərdir. Heydər Əliyev və Azərb. Mədəniyyətinin Dostları Fonduna rəhbərlik edən Mehriban xanım Əliyeva və onun ətrafına toplaşmış həmfikirlərinin təşəbbüsü ilə bu fondlar tərəfindən keçirilən mədəni tədbirlərin, təşkil edilən xeyriyyə aksiyalarının miqyasına, yüksək səviyyəsinə görə bu fondlar təkcə vətənimizdə deyil, dünyanın bir çox ölkəsində böyük diqqətə və qiymətə layiq görülmüş, beynəlxalq aləmdə nüfuz qazanmışdır. Mehriban xanım Əliyevanın Azərb. musiqisi, mədəniyyəti, həmçinin tarixi qarşısında möhtəşəm xidmətləri, Azərb. klassik muğam sənətinin təbliği və tərəqqisi naminə, gənc istedadların ərsəyə gəlməsinə, ulu muğam sənətinin ölməzliyinə yönəlmiş unikal layihələri mühüm əhəmiyyətə malikdir. Mehriban xanım Əliyevanın müəllifi olduğu "Muğam-İrs", "Muğam Dəstgah", "Qarabağ xanəndələri", "Muğam Ensiklopediyası", "Muğam-İnternet", "Muğam-Antologiya", "Muğam dünyası", "Muğam mərkəzi" layihələri muğam mədəniyyəti ənənələrinin qorunub saxlanılmasını nəzərdə tutur və bu gün uğurla həyata keçirilməkdədir. Bu layihələrin özünəməxsusluğu onların sırf muğam aləminə, muğam fenomeninə həsr olunması ilə bağlıdır, onlar Azərb. muğam sənətinin qorunub saxlanılaraq, gələcək nəsillərə ötürülməsinə, çoxcəhətli, hərtərəfli surətdə öyrənilməsinə və təbliğinə xidmət edir. Səsyazılarını, elektron və çap nəşrlərini özündə ehtiva edən bu layihələrdə dünyamiqyaslı tədbirlərin, beynəlxalq festivalların və müsabiqələrin keçirilməsi də nəzərdə tutulur. XXI əsrin başlanğıcında intibah dövrünü, klassik muğam ənənələrinin çiçəklənməsi dövrünü yaşayan Azərb. muğam sənəti YUNESKO-nun "Ümumdünya mədəni irs" siyahısına daxil edilmişdir. *www.mehriban-aliyeva.org*

**ƏLİYEV Nəriman Mövsüm oğlu** (05.05.1930, Bakı – 28.04.1998, Bakı) - xanəndə. 1956 ildə xanəndə Seyid Şuşinski ilə tanışlığı, onunla yaxın ünsiyyəti N. Əliyevin həyatında böyük rol oynamışdır. O, ADMM-də, S. Şuşinskinin xanəndəlik sinfində təhsil almış, ondan muğa-



*Nariman Əliyev, xanəndə*

mın sirlərini öyrənərək, muğam bilicisi və müəllim kimi yetişmişdir. S.Şuşinski ənənələrinin davamçısı olmuş, ondan sonra ADMM-də böyük bir xanəndələr nəslini yetişdirmişdir; Ağaxan Abdullayev, Canəli Əkbərov, Səkinə İsmayılova, Qaraxan Behbudov, Vahid Abdullayev, Sabir Abdullayev, Məmmədbağır Bağırzadə və bir çox b. xanəndələrin ustadı olmuşdur. N.Əliyevin tələbələri respublika və beynəlxalq miqyaslı müsabiqələrin laureatları olmuş, o özü dəfələrlə muğam müsabiqələrinin münsif lər heyətində iştirak etmişdir. 1988 ildə Muğam Teatrına məsləhətçi kimi dəvət olunmuşdur.

N.Əliyev 1960 ildən ADF-nın solisti olmuş, konsertlərdə çıxış etmişdir. AzTR Fondunda onun ifasında "Rast", "Bayatı-Şiraz", "Rahab", "Mahur-Hindi", "Çahargah", "Şur", "Mənsuriyyə", "Mani" muğam və təsniflərinin, xalq mahnılarının lent yazısı saxlanılır.

**ƏLİYEV Zamiq Balarza oğlu** (25.05.1950, Bakı) - tarzən, xalq artisti (2007). ADMİU-da təhsil almışdır. Tar müəllimi Hacı Məmmədov olmuşdur. 1974 ildən ADF-də işləmişdir. "Azərbaycan təranələri" x.ç.a. ansamblının tərkibində, 1974 ildən Gülarə Əliyevanın rəhbərliyi ilə "Dan ulduzu" instrumental ansamblında fəaliyyət göstərmişdir. Xarici ölkələrdə (Suriya, Livan, Əlcəzair, İspaniya, Fransa, ABŞ, Yəmən və s.) qastrol səfərlərində olmuşdur. 1979 ildə Zeynəb Xanlarovanın rəhbərliyi altında x.ç.a. ansamblının konsertmeysteri olmuşdur. 1992 ildən xa-



*Zaur Əliyev, pianoçu*

nəndə Ağaxan Abdullayev, kamançaçı Ədalət Vəzirovla birgə Zülfi Adıgözəlov ad. muğam üçlüyü yaratmışdır. Bu trio İranda, İraqda Füzulinin 500 illiyi ilə bağlı YUNESKO-nun tədbirlərində çıxış etmişlər. 1997 ildən bu trioya Simarə İmanova daxil olub. 1997 ildə Səmərqənddə keçirilən "Şərq təranələri" festivalında Qran-pri mükafatına layiq görülmüşdür. 1998 ildən ADMİU-də pedaqoji fəaliyyət göstərir. AzTR fondunda onun ifasında "Şur", "Çahargah", "Bayatı-Şiraz", "Dilkəş", "Vilayəti" və s. muğamların lent yazıları saxlanılır. "Azərbaycan muğamları" adlı diski buraxılmışdır. O, xanəndələrin repertuarına daxil olmuş 20-dən çox mahnının, o cümlədən, "Ah, bu gecə", "Ümid nəğməsi", "İlham alıram" "Allah səni pənahında saxlasın", "Gözəllər" və s. mahnıların müəllifidir.

**ƏLİYEV Zaur Süleyman oğlu** (09.10.1937, Bakı) – pianoçu, muğam ifaçısı. 1950 illərdə ADMM-də nəzəriyyə və bəstəkarlıq üzrə təhsil almış, ADK-da təhsilini davam etdirmiş, Q.Qarayevin tələbəsi olmuşdur. ADMİU-da konsertmeyster kimi fəaliyyət göstərmişdir. Muğam ifaçılığını Əhməd Bakıxanovdan öyrənmiş, fortepianoda muğamların mahir ifaçısı kimi tanınmışdır. 1959-1973 illərdə Ə.Bakıxanovun x.ç.a. ansamblının üzvü olmuşdur. 1981 ildən AzTRV QSC-nin solistidir. AzTR Fondunda onun ifasında muğamların və bəstəkar əsərlərinin səsyazısı saxlanılır.

**ƏLİYEVA Fərəh Şirməmməd qızı** (07.09.1961, Bakı) – musiqişünas, sənətşünaslıq doktoru (2008). ADK-da təhsil almışdır (1979-1984). Həmin ildən BMA-da dərs deyir, "Musiqi tarixi" kafedrasının professorudur. 2006 ildən Azərb. Respublikası Mədəniyyət və Turizm Nazirliyində çalışır. Elmi yaradıcılığı XX əsrdə Azərb. bəstəkarlıq məktəbinin formalaşması və inkişafı proseslərinin öyrənilməsi problemləri ilə bağlıdır. "Musiqi tariximizin səhifələri" (2003), "XX əsr Azərbaycan musiqisi: tarix və zamanla üzüzə" (2007) əsərlərinin müəllifidir. "XX əsr Azərbaycan musiqi mədəniyyətinin qaynaqları" (3 cilddə; 2005,2006) kitabının tərtibatçısıdır. Burada 1901-1920 illərdə Azərb. dövri mətbuatında dərc edilmiş Bakının musiqi həyatına, o cümlədən, Şərq konsertlərinə, Üzeyir Hacıbəyovun yaradıcılığına həsr olunmuş 500-dən artıq musiqi tənqidi, elmi-publisistik məqalə, resenziya, oçerk toplanmışdır.

**ƏLİYEVA Gülarə Əziz qızı** (17.11.1933, Bakı – 27.07.1991, Bakı) – pianoçu, bəstəkar, pedaqoq, əməkdar incəsənət xadimi (1977), sənətşünaslıq namizədi (1966). ADK-nı bitirmişdir (1955). S.Rüstəmov ad. x.ç.a. ork., Ə.Dadaşov ad. x.ç.a. ansamblında işləmişdir. G.Əliyeva 1966 ildə "Dan ulduzu" instrumental ansamblını yaratmışdır. Ansamblın tərkibi Azərb. milli musiqi alətlərindən (tar, ud, dümbək) və Qərb musiqi alətlərindən (fortepiano, skripka, violonçel, fleyta, gitara, zərb) ibarət idi. O, ansamblın həm bədii rəhbəri, həm də fortepiano partiyasının ifaçısı olmuşdur. G.Əliyeva muğamlar əsasında yazılmış "Şüştər" rapsodiyası, "Hümayun" süitası, "Şur" fantaziyası, "Bayatı-Şiraz" kimi əsərlərin müəllifidir.

**ƏLİYEVA Töhvə Əliqulu qızı** (04.05.1922, Bakı – 08.11.2007, Bakı) – xanəndə. Muğamın sirlərini qardaşı Məmmədəli Əliyev və Əhməd Bakıxanovdan öyrənmişdir. AzTR-nin xorunda solist olmuşdur (1942-1943). 1944-1956 illərdə

Ə.Bakıxanov ad. ansamblın solisiti olmuşdur. Onun ifasında bir çox xalq və bəstəkar mahnılarının, o cümlədən, "Mirzə Hüseyn segahı", "Səmayi-Şəms", "Bayatı-Şiraz", "Xaric Segah" və b. muğamların səsyazıları AzTR Fondunda saxlanılır.

**ƏLİZADƏ Aqşın Əliqulu oğlu** (22.05.1937, Bakı) – bəstəkar, əməkdar incəsənət xadimi (1982), xalq artisti (1987), professor (1990). "Şöhrət" ordeni (1997) ilə təltif olunmuşdur. 1962 ildə ADK-nı Cövdət Hacıyevin sinfi üzrə bitirmişdir və 1963 ildən ADK-nın bəstəkarlıq kafedrasında çalışır, gənc musiqiçilər nəslinin yetişməsində böyük xidmətləri var. Müxtəlif illərdə Y.Məmmədəliyev ad. Naxçıvan Universitetində və Türkiyənin Van Şəhərindəki Yüzüncü Yıl Universitetində fəaliyyət göstərmişdir. ABİ üzvüdür. 1979-1985 illərdə ABİ İdarə heyətinin katibi, 1985-1990 illərdə birinci katib olub. 2007 ildən ABİ İdarə Heyətinin katibidir. A.Əlizadənin yaradıcılığı zəngindir. O, "Babək", "Qafqaza səyahət" (A.Dümanın motivləri əsasında), "Ümid valsı" baletlərinin, 5 simfoniyanın, "Pastoral", "Aşıqsayağı", "Cəngi" və s. ork. əsərlərinin, "Azərilər" kantatasının, "Bayatılar" xor silsiləsinin, kamera-instrumental əsərlərin - Fortepiano üçün "Dastan", "Qədim oyunlar", orqan üçün "Muğam sədaları" kimi əsərlərin müəllifidir. Bəstəkar muğamlardan yaradıcı surətdə bəhrələnərək yazdığı Dördüncü simfoniyasını "Muğamvari" adlandırmışdır. Burada muğam ünsürlərinin müasir musiqi dilinin imkanları ilə əlaqələndirilməsi problemi bəstəkar tərəfindən son dərəcə qabarıq şəkildə həll olunmuşdur.

**ƏLİZADƏ Firəngiz Əliağa qızı** (28.05.1947, Bakı) – bəstəkar, əməkdar incəsənət xadimi (1990), xalq artisti (2000), professor (1999). "Şöhrət" ordeni (2007) ilə təltif olunmuş, YUNESKO-nun "Şülh artisti" (2008) fəxri adına layiq görülmüşdür. ADK-da iki ixtisas üzrə (bəstəkarlıq və piano fakültəsində - C.Hacıyev, Q.Qarayev və U.Xəlilovun sinfində) təhsil almışdır. 1970 ildə - fortepiano, 1972 ildə bəstəkarlıq fakültələrini bitirmişdir. Həmin ildən ADK-da çalışmışdır. 1973 ildə Q.Qarayevin rəhbərliyi altında assistent olaraq çalışmışdır. 1974 ildə - SSRİ və ABİ üzvü olmuş, 1979 ildə isə ABİ İdarə Heyətinin katibi seçilmişdir. ABİ qurultay və plenumlarında, xarici ölkələrin musiqi festivallarında fəal iştirak etmiş, gözəl pianoçu olaraq Azərb. bəstəkarlarının əsərlərini ilk dəfə ifa etmişdir: M.Quliyev, A.Dadaşov, F.Qarayev, O.Felzer, R.Rüstəmzadə və b. əsərləri F.Əlizadənin ifasında respublikada və xarici ölkələrdə səslən-


*Firəngiz Əlizadə, bəstəkar*

mişdir. 1993-1998 illərdə Türkiyənin Mersin şəhərində Kültür Bakanlığının dəvəti ilə "Boş beşik" baletini bəstələmiş və bu illərdə həmin teatrda çalışmışdır. 1999 ildə Almaniyanın İncəsənət Akademiyasının dəvəti ilə (Akademie der Künste) bir neçə il (1999-2006) Berlin şəhərində yaradıcılıq ezamiyyətində olmuşdur. F.Əlizadənin əsərləri dünyanın bir çox məşhur musiqi ifaçılarının və musiqi kollektivlərinin – Yo-Yo-Ma, İ.Monigetti, Kronus Quartet (San-Fransisko), Collegium Novum (Sürix) və b. tərəfindən ifa edilmişdir. F.Əlizadə mütəmadi olaraq xarici ölkələrdə Azərb. musiqi mədəniyyətini təmsil edərək, mühazirələrlə çıxış edir. 1990 ildə ABİ-nın VII qurultayında İdarə Heyətinin katibi, 2007 ildə Azərb. Bəstəkarlarının VIII qurultayında ABİ İdarə Heyətinin Sədri vəzifəsinə seçilmişdir.

F.Əlizadənin yaradıcılıq irsi çox genişdir. Əsas əsərləri sırasında "Qarabağnamə", "Ağ atlı haqqında əfsanə" operaları, "Ölümsüzlüyə səyahət" oratoriyası, zərb alətləri və kamera orkestri üçün "Silk road" konserti, müxtəlif heyətlər üçün "Miraj", "Oasis", "Abşeron", "Muğamsayağı", "Atəş", violonçel və fortepiano üçün "Habilsayağı" əsərləri qeyd olunmalıdır.

**ƏLİZADƏ Firuz Məmməd oğlu** (09.01.1923, Bakı – 05.11.1987, Bakı) – kamança ifaçısı. ADMM-ni bitirmiş, Əhməd Bakıxanovun tələbəsi olmuşdur. 1940 illərdə Ə.Bakıxanovun rəhbərlik etdiyi x.ç.a. ansamblında fəaliyyət göstərmiş, eyni zamanda, ADMM-də müəllim kimi çalışaraq, istedadlı musiqiçilər yetişdirmişdir. F.Əlizadə həm də Azərb. Dövlət Tibb İnstitutunu bitirmiş və tanınmış həkim olmuşdur.

**ƏMİRİ** – muğam şöbəsi. "Şüştər" və "Rahab" muğamlarının əvvəlində ifa olunur, bu muğamların "Bərdaşt"ı bu şöbə ilə başlanır.






*Fikrət Əmirov, bəstəkar*

**ƏMİROV Fikrət Məşədi Cəmil oğlu** (22.11.1922, Gəncə - 20.02.1984, Bakı) – bəstəkar, xalq artisti (1958), AMEA-nın müxbir üzvü (1980). 1959 ildən ABİ-nın, 1974 ildən həmçinin SSRİ Bəstəkarlar İttifaqının katibi olmuşdur. ADK-nı bitirmişdir (1948, B.Zeydmanın sinfi). F.Əmirovun yaradıcılığı zəngin və rəngarəngdir. O, "Sevil" operasının (1953), "Ürəkçalanlar" (1944), "Gözün aydın" (1946) musiqili komediyalarının, "Nəsimi dastanı" (1973), "Min bir gecə" (1979), "Nizami" (1984) baletlərinin müəllifidir. "Azərbaycan" süitası, "Simfonik rəqslər", "Azərbaycan qravürləri", fortepiano üçün "12 miniatür",uşaq pyesləri, skripka ilə fortepiano üçün "Muğam-poema", Sonata, mahnı və romanslar və s. əsərlər bəstələmişdir. F.Əmirov Azərb. musiqisində simfonik muğam janrının yaradıcısıdır. "Şur", "Kürd-ovşarı", "Gülüstan-Bayatı-Şiraz" simfonik muğamları onun yaradıcılığında mühüm mərhələ təşkil edir. O, ilkin mənbəyə - şifahi ənənəli professional musiqi janrı olan muğam dəstgahlara müraciət edərək, bu əsərləri özünəməxsus bəstəkarlıq texnikası, yaradıcı təxəyyülü ilə zənginləşdirmiş, ork. boyalarının əlvanlığına nail olmuşdur. F.Əmirovun simfonik muğamları dünyanın bir çox görkəmli dirijorlarının (Niyazi, G.Rojdestvenski, L.Stokovski, Ş.Münş, G.Abendrot və b.) repertuarına daxil olmuş, xarici ölkələrin (ABŞ, Fransa, Almaniya, Türkiyə, İsveç və s.) konsert salonlarında səsləndirilmişdir.

**ƏMİROV Məşədi Cəmil Əmiraslan oğlu** (1875, Şuşa – 1928, Gəncə) – tarzən, bəstəkar, musiqi xadimi. İlk təhsilini mədrəsədə almışdır. Onun musiqiçi kimi yetişməsində dövrünün böyük musiqişünas alimi Mir Möhsün Nəvvabın böyük rolu olmuşdur. Məşədi Cəmil parlaq istedadı sayəsində tezliklə Qarabağ, Şəki və Şirvanda həm tarzən, həm də xanəndə kimi dinləyicilərin məhəbbətini qazanmışdır. 1907 ildən Məşədi Cəmil Gəncə ş.-də yaşamışdır. Burada o, şəhərin musiqi həyatında mühüm rol oynayır. Bir çox görkəmli musiqiçiləri – Məşədi Məmməd Fərzəliyevi, Malıbəyli Həmidi, sonralar Bülbülü və Seyid Şuşinskini tarda müşayiət edir. 1910 ildə Riqanın "Qrammofon" şirkətində M.Əmirovun bu musiqiçilərlə birgə ifa etdiyi bir sıra muğam və mahnılar qrammofon valına yazılmışdır. 1911 ildə o, musiqi təhsili almaq üçün Türkiyəyə gedir. İki il İstanbulda yaşayaraq, Türk və Avropa musiqisi ilə yaxından tanış olur. Burada o, həm də Azərb. musiqisinin qızğın təbliğatçısı kimi çıxış edir. Onun İstanbulda verdiyi konsertlər və Azərb. musiqisi haqqında maraqlı məruzələr böyük rəğbətlə qarşılanır. Məşədi Cəmil, həm də Azərb. musiqisi tarixində ilk dəfə olaraq muğamları nota salmışdır. İstanbulda yaşadığı vaxt, 1912 ildə o, "Heyratı" muğamını nota salıb "Şəhbal" jurnalında çap etdirmişdir. Türkiyədə o, ud və kanonda çalmağı da öyrənmiş və vətənə qayıdarkən, bu alətləri özü ilə gətirmişdi. Məşədi Cəmilin fəaliyyəti çoxcəhətli idi. O, teatr sahə-

*Məşədi Cəmil Əmirov, tarzən*



sinə də maraq göstərərək, Üzeyir Hacıbəyovun Şuşada və Gəncədə tamaşaya qoyulan opera və operettalarında müxtəlif rollar oynamış, özü də qələmini sınayaraq, "Seyfəl-Mülk" muğam operasını (1915), "Namuslu qız" operettasını (1923) bəstələmişdir. Bu əsərlər müvəffəqiyyətlə səhnədə oynanılmışdır. Məşədi Cəmilin Gəncədəki evi musiqi salonuna çevrilmişdi. O, tez-tez şəhərin xanəndə və çalğıçılarını toplayıb, muğamat gecələri, müsabiqələr keçirir, ən yaxşı ifaçıları mükafatlandırırdı. 1923-28 illərdə o, Gəncə musiqi məktəbini yaratmış, onun müdiri olmuş, burada tardan dərs demiş, x.ç.a. ansamblına rəhbərlik etmişdi. Sonralar bu məktəb Gəncə musiqi texnikumuna çevrildi. Məşədi Cəmilin yetişdirdiyi musiqiçilər Azərb. musiqisində əvəzsiz xidmətləri ilə tanınmışlar. Məşədi Cəmilin oğlu Fikrət Əmirov dünya şöhrətli bəstəkar, musiqi mədəniyyətinin ən böyük simalarındandır.

**ƏNƏNƏ** - Sosial və mədəni irsin nəsildən-nəslə keçən və müəyyən cəmiyyət, sinif və ya sosial qrup tərəfindən üzün müddət qorunub saxlanılan ünsürləri. Müəyyən ictimai təsisatlar, davranış qaydaları, sərvətlər, ideyalar, adətlər, mərasimlər və s. ənənə şəklini ala bilər. Ənənə ictimai həyatın ən müxtəlif sahələrinə xasdır. Dində və etnoqrafiyada ənənənin rolu xüsusilə böyükdür. Ənənə ədəbiyyat, incəsənət, mədəniyyət sahəsində böyük əhəmiyyət kəsb edir (məs., Nizami, Füzuli ənənələri və s.). Ədəbiyyat və incəsənətdə ənənələrin davam etdirilməsi bəzən təqlidçiliyə gətirib çıxara bilir. Azərb. müəyyən etnoqrafik zonalarında müəyyən həyat tərzi, ədəbi və musiqi yaradıcılığı formaları, tətbiqi sənətkarlıq sahələri formalaşaraq, ənənə şəklini almışdır. Ənənələrin həyatiliyi onun yeni tarixi şəraitdə sonrakı nəsillər tərəfindən inkişaf etdirilməsindədir. Ənənələrin mütərəqqi cəhətləri nəsildən-nəslə keçərək yaşayır, köhnəlmiş, yeni şəraitlə uyuşmayan əlamət və cəhətləri isə aradan çıxır. Ənənələrin inkişafı üçün ən başlıca şərt sosial sərvətlərin varislik yolu ilə qorunub saxlanılması və keçmiş irsə yeni tarixi şəraitdən irəli gələn təzə ünsürlər əlavə olunmasıdır. Azərb. mədəni ənənələrin qorunub saxlanılması və inkişafı mühüm əhəmiyyətli məsələ kimi öyrənilir və daim diqqət mərkəzindədir. Veb saytın ünvanı: *http://atlas.musigi-dunya.az.*

**ƏRAQ** (İraq) - **1.** Orta əsrlərdə Şərq xalqları klassik musiqisinin əsasını təşkil edən 12 muğamdan biri; **2.** Müasir dövrdə Rast məqamına əsaslanan muğam şöbəsi. "Əraq" - "Mayeyi-Rast" şöbəsinin musiqi materialına əsaslanır, mayədən bir oktava yuxarıda, zildə ifa olunaraq, muğam dəstgahın kulminasiyasını əmələ gətirir. Öz bədii təsir qüvvəsinə görə olduqca gümrah və əzəmətli səslənməyə malikdir. "*Rast*" muğamı ilə yanaşı, "*Segah*", "*Mahur-Hindi*" və "*Rahab*" muğamlarının kulminasiyasında (zildə) istifadə olunur.

**ƏRUZ VƏZNİ** - Şərq (o cümlədən, Azərb.) klassik şeirinin əsasını təşkil edən vəzn. Əruz ilk dəfə VIII əsrdə Bəsrə şəhərində ərəb şairi və alimi Xəlil ibn Əhməd tərəfindən yaradılmış və sistemə salınmış, sonralar müsəlman Şərqinin bir sıra ölkələrində işlənmişdir. Türkdilli poeziyada əruz vəznində ilk əsər Yusif (Balasaquni) Xass Hacibin XI əsrdə Kaşğar şəhərində yazdığı "Kutadqu bilinq" ("Xoşbəxtlik bağışlayan kitab") poemasıdır. Əruz vəzninin çox mürəkkəb bir şeir sistemi vardır. Burada əsas şərt misralarda hecaların sayca bərabər olması yox, uzun və qısa hecaların müəyyən qayda ilə düzülməsidir. Odur ki, bəzən əruzla yazılan eyni bir şeirdə misranın biri 11, ikincisi 10, üçüncüsü hətta 9 hecadan ibarət ola bilər. Əruz vəznində yazılan şeirlər misraların ölçüsündən, sözlərin ifadə üsulundan və hecaların düzülüş qaydasından asılı olaraq müxtəlif şəkillər alır ki, bir-birindən seçilən belə şəkillərə bəhr deyilir. Əruz vəzninin 19 bəhri var: təvil, kamil, səri, münsərih, mütəqarib, rəcəz, rəməl, həzəc, mədid, bəsit, vafir, xəfif, müzare, müqtəzəb, müctəs, mütədarik (sadalanan 16 bəhr ərəb şeirində işlədilir), cədil, qərib, (bu bəhrlər əruzdan istifadə edən başqa xalqlar tərəfindən yaradılmışdır). Azərb. şeirində bu bəhrlərdən çoxuna təsadüf olunur.

Klassik Azərb. şairlərindən Nizami, Xəqani, Füzuli, Seyid Əzim, Sabir və b. əruz vəznində çox dəyərli əsərlər yaratmışlar. Xüsusilə Füzuli, Sabir kimi şairlər Azərb. şeir dilinə əruzdan istifadə ilə bağlı olaraq daxil olan və dili ağırlaşdıran ərəb-fars sözlərindən uzaqlaşaraq, əruzu azərbaycanlılaşdırmış, əsərlərinin çoxunu sadə, aydın bir dildə yazmağa müvəffəq olmuşlar. Azərb. şairləri Əliağa Vahid, Bəxtiyar Vahabzadə, Süleyman Rüstəm və b. onların yolunu davam etdirmişlər. Muğamların poetik əsasını əruz vəznində yazılmış qəzəllər təşkil edir.

*Orta əsrlərin miniatüründə saray şeir və musiqi məclisi*



**ƏSAS MÖVZU** - əsərin əsas tonallığında səslənən ən parlaq və ifadəli mövzusu. Muğamın əsas mövzusu "Bərdaşt" və "Mayə" şöbələrində səslənir, daha sonra həmin mövzu əsasında zil şöbələr qurularaq, əsas məqam-tonallığın təsdiqinə xidmət edir. Bundan əlavə, hər bir muğam şöbəsinin əsas mövzusu olur ki, şöbə boyu improvizasiya olunaraq inkişaf etdirilir.

**ƏSAS PİLLƏLƏR** - məqamın funksional əhəmiyyətli pillələri olub, muğamın melodik quruluşunda dayaq əhəmiyyəti kəsb edir. *Bax: istinad pillələri.*

**ƏSAS TON** - **1.** *Tersiya* quruluşlu *akkord*un sıx düzülüşündə aşağıda birinci yerləşən səsi; başqa sözlə, akkordun priması. **2.** Harmonik həmsədalar şkalasında ən aşağı və aydın səslənən səs. **3.** Azərb. məqamlarında funksional əhəmiyyətli pillə.

**ƏSAS TONALLIQ** - Musiqi əsərinin başlandığı və bitdiyi tonallıq. Bu tonallıqdan müvəqqəti olaraq digər tonallığa keçilən zaman tətbiq olunan termin. Muğam dəstgahda əsas tonallıq "Mayə" şöbəsində göstərilir, inkişaf boyu digər məqam tonallıqlara keçidlər öz əksini tapsa da, zil şöbədə yenidən əsas məqam tonallıq bərqərar olur.

**ƏSƏDOV Eynulla Fətulla oğlu** (1930, Biləsuvar r-nu - 20.12.1976, Bakı) - xanəndə. Gənc yaşlarından xanəndə kimi respublikanın rayonlarında el məclislərində xanəndə kimi fəaliyyət göstərmiş, gur və məlahətli səsi ilə ustad xanəndələrin diqqətini cəlb etmişdir. Görkəmli xanəndə Mütəllim Mütəllimovun məsləhəti ilə ADMM-də təhsil almış, Zülfi Adıgözəlovdan muğam sənətinin sirlərinə yiyələnmişdir. 1960 illərdən ADF-nın solisti kimi geniş konsert fəaliyyəti ilə məşğul olmuşdur. E.Əsədullayev "Şahnaz", "Segah" muğamlarının, "Qarabağ şikəstəsi" zərbi muğamının mahir ifaçılarından hesab olunurdu. AzTR Fondunda onun ifasında bu muğamların səsyazıları saxlanılır.

**ƏSƏR** - **1.** Bəstəkar tərəfindən yaradılan musiqi. **2.** Musiqi əsəri - lat. *opus.* Hər bir bəstəkar yaratdığı əsərləri, adətən, ardıcıllıqla nömrələyir: məs., op.1; op.2 və s. Bəzən bir nömrə ilə eyni vaxtda yaranmış bir neçə əsər işarə olunur. 3. Şifahi ənənəli xalq və professional musiqidə ifaçıların yaradıcılıq məhsulu - əsərləri (mahnı və rəqslər, aşıq havaları, muğamlar, zərbi muğamlar, təsnif və rənglər).

**ƏSGƏROV Qulu Rüstəm oğlu** (18.12.1928, Salyan r-nu - 11.04.1989, Bakı) - xanəndə. Gənc yaşlarından rayon teatrında çıxış etmiş, x.ç.a. ansamblına rəhbərlik etmişdir. 1953 ildə Gənc istedadların respublika olimpiadasının qalibi olmuşdur. Q.Əsgərov 1954-1958 illərdə ADMM-də musiqi təhsili almışdır. Burada Azərb. görkəmli xanəndələrinin (Seyid Şuşinski, Nəriman Əliyev) ifaçılıq ənənələrini mənimsəmiş və muğamın sirlərinə dərindən yiyələnmişdir. Eyni zamanda, Əhməd Bakıxanovdan, Adil Gəraydan tar, Midhət Əhmədovdan bəstəkarlıq dərsləri almışdır. Muğam sənətində özünəməxsus ifa tərzi ilə seçilən Q.Əsgərov bütün muğam dəstgahlarını yüksək peşəkarlıqla və ən incə cizgiləri ilə dinləyiciyə çatdıra bilirdi. Q.Əsgərov yaradıcı xanəndə idi. O, xalq arasında dillər əzbəri olan bir sıra mahnı və təsniflərin müəllifidir. Onun lent yazıları AzTR Fondunda qorunur, yeni gələn nəsil tərəfindən ilhamla ifa olunur. Xanəndə uzun illər boyu ADOBT-nın solisti olmuşdur. O, bu teatrın səhnəsində muğam operalarında bir sıra yadda qalan obrazlar yaratmışdır: Məcnun, İbn-Salam, Kərəm (Ü.Hacıbəyov - "Leyli və Məcnun", "Əsli və Kərəm"), Şah İsmayıl (M.Maqomayev - "Şah İsmayıl"), Aşıq Qərib (Z.Hacıbəyov - "Aşıq Qərib") obrazlarını böyük aktyorluq məharəti ilə hərtərəfli açmağa nail olmuşdur. Q.Əsgərov xanəndəlik sənəti üzrə böyük bir ifaçı nəsli yetişdirən gözəl müəllim olmuşdur. Onun da-

vamçıları olan xanəndələr (Mələkxanım Əyyubova və b.) muğam sənətində nailiyyətlər əldə edərək, ustadın ənənələrini yaşadırlar.

**ƏSL** (ərəb) - səs düzümündə birinci əsas tetraxord.

**ƏŞİRAN** (hərfi mənada: qohum-əqrəba, dosttanış) - *1.* muğam şöbəsi. İfaçılıq təcrübəsində "Orta Mahur" muğamının tamamlayıcı şöbəsi kimi, "Mahur-Hindi" muğamında "Dilkəş" şöbəsindən, "Rahab" muğamında "Əraq" şöbəsindən sonra, "Nəva" muğamında "Zəng-şötör" şöbəsindən əvvəl ifa olunur. *2.* Ə.Marağainin əsərlərində göstərilən 24 şöbədən biri.

**ƏVSƏT** (ərəb) - tersiya.

**ƏYYUBOVA Mələkxanım Məzahir qızı** (05.11.1963, Şamaxı) - xanəndə, xalq artisti (2002). M.Əyyubova el sənətkarları olan atasından və qardaşından aşıq və muğam sənətinin sirlərini öyrənmişdir. 1979-1984 illərdə ADMİU-da təhsil almış, xanəndə Qulu Əsgərovun tələbəsi olmuş, muğam sənətinə dərindən yiyələnmişdir. M.Əyyubova bir sıra musiqi kollektivlərində çalışmışdır: "İrs" folklor ansamblının, AzTR S.Rüstəmov ad. x.ç.a. ork. solisti olmuşdur. Eyni zamanda, muğam üçlüyünün tərkibində çıxış edir. Xanəndənin repertuarına muğam dəstgahları, zərbi-muğamlar, təsniflər, xalq və bəstəkar mahnıları daxildir. Onun ifasında "Rahab", "Mirzə Hüseyn Segahı", "Şahnaz", "Bayatı-Şiraz", "Qatar" muğamları AzTR Fondunda saxlanılır. Xanəndənin Azərb. və xaricdə 10-a yaxın kompakt diski, o cümlədən, Almaniyada və Fransada "Muğam antologiyası" seriyasından diskləri buraxılmışdır. O, həmçinin, bir çox xarici ölkələrdə - İngiltərədə, Amerikada, Avstraliyada, İtaliyada, Hollandiyada, Koreyada, İsveçrədə və s. ölkələrdə qastrol səfərlərində olmuşdur. M.Əyyubova pedaqoji fəaliyyətlə də məşğul olur, ADMİU-nin "Muğam sənəti" kafedrasının dosentidir.

**ƏZİMOV Nəriman Abbasqulu oğlu** (01.06.1936, Gəncə) - dirijor, xalq artisti (1991), professor (2003). 1955 ildə ADK-nın "Dirijorluq" fakültəsinə daxil olub. AzTR-nin Xor kollektivində xormeyster işləyib. AzTRV QSC səs rejissoru işləyib. 1974 ildən Səid Rüstəmov ad. Azərb. x.ç.a ork. bədii rəhbəri və baş dirijorudur. ■

# F

**FAKTURA** (latın: *factura* - hərfi mənada emal, məcazi mənada: quruluş) - musiqinin əsası, məğzi, texniki quruluşu, musiqi səslənməsinin tərkibi. Fakturanın elementləri - melodiya, müşayiət, bas, ayrı-ayrı səslər, səsaltı xətlər, mövzular və s. Fakturanın əsas növləri: a) homofonik; b) akkordlu-harmonik; c) polifonik. Vokal-instrumental muğamların ifası zamanı polifonik faktura özünü göstərir.

**FAXTİ** (fars: *faxtə* - meşə göyərçini, alabaxta quşu) - bu quşun avazına xas olan musiqi vəzninə oxşar bəhr. *Bax: Münsərih.*

**FALSET** (italyan: *falsetto* - yalan, saxta) - vokal ifaçılığında səs registrlərindən biri; tenor səsinə aiddir. Falsetdə sinə rezonatoru təcrid edilməklə, təkcə bir rezonatordan istifadə olunur.

**FANTAZİYA** (yunan: *phantasia* - xəyal, xülya, təsəvvür) - fikir zənginliyi mənasında istifadə edilir. Musiqidə ənənəvi forma çərçivəsindən kənara çıxan müstəqil və sərbəst formaya malik instrumental musiqi əsəri "fantaziya" adlandırılır. Azərb. bəstəkarları muğamlar əsasında fantaziyalar yaratmışlar: Üzeyir Hacıbəyovun x.ç.a. ork. üçün "Çahargah" və "Şur" fantaziyaları, Vasif Adıgözəlovun orqan üçün "Muğam fantaziyası" və s.

**FASİLEYİ-KƏBİRƏ** (ərəb-fars) - dörd hecadan ibarət vurğunun bir lal səs ilə tamamlanması (tənənənən - failatün).

**FASİLEYİ-SƏĞİRƏ** (ərəb-fars) - üç hecadan ibarət vurğunun bir lal səs ilə tamamlanması (tənənən - failat).

**FASİLEYİ-ZƏRBİ** (fars) - takt.

**FASİLƏ** (ərəb) - *1.* interval; *2.* səslərin təqti bölgüsünü göstərən cizgi.

**FELZER Oleq** (1939, Bakı - 1998, Nyu-York) - bəstəkar. 1966 ildə ADK-nı (C.Hacıyevin bəstəkarlıq sinfi üzrə) bitirmiş və "Musiqi nəzəriyyəsi" kafedrasında çalışmışdır. Yaradıcılığında kamera janrlarına üstünlük vermiş, solo alətlər - viola, orqan, arfa və fortepiano üçün sonatalar, "Azərbaycan kvarteti", İ.Takubokunun sözlərinə "5 tanka" və s. əsərləri bəstələmişdir.





1989 ildə O.Felzer ABŞ-a köçmüş və burada fəaliyyətini davam etdirmişdir. Onun "Zabul simfoniyası" 1993 ildə bəstələnmişdir. Bəstəkarın Azərb. mənəvi bağlılığını ifadə edən bu əsər "Zabul" muğamının mövzuları əsasında müasir bəstəkarlıq texnikası ilə yaradılmışdır. Əsər ilk dəfə 1996 ildə ABŞ-da (dirijor J.Sachs), 2008 ildə Bakıda (dirijor V.Runçak) səsləndirilmişdir.

**FERMATA** (italyan: *fermata* - dayanacaq) - səsin, pauzanın davam etdirilməsini bildirir. Fermatanın davam etmə müddəti ifaçının musiqi zövqündən asılıdır. Fermata səs, xanə xətti, pauza üzərində işarələnir. Muğam ifaçılığında fermatadan çox istifadə olunur: 𝄐 𝄑

**FEYZULLAYEV Novruz Səbzəli oğlu** (05.05.1932, Bakı - 04.05.2008, Bakı) - xanəndə. İranda yaşamış (1937-1960), Ərdəbil şəhərində təhsil almışdır. Gənc yaşlarından xanəndə kimi fəaliyyət göstərməyə başlamışdır. 1946 ildə İranda Cəfər Pişəvərinin rəhbərliyi altında qurulan milli hökumət tərəfindən Təbrizdə açılan Filarmoniyaya dəvət alır; burada Azərb. gəlmiş bəstəkarlar C.Cahangirovun və H.Xanməmmədovun təşkil etdiyi mədəni tədbirlərdə və konsertlərdə iştirak edir. N.Feyzullayev 1960 illərdə ADMM-də Seyid Şuşinskinin sinfində muğam sənətinin incəliklərini öyrənmişdir. 1978 ildə N.Feyzullayev Azərb. Siyasi Mühacirlər Cəmiyyətinin nəzdində "Məşəl" ansamblını təşkil etmişdir. N.Feyzullayev "Hümayun" muğamının ən yaxşı ifaçısı kimi tanınmışdır. O, həmçinin, İranda çox yayılan "Dəşti" muğamını özünəməxsus bir tərzdə ifa edərək, onu Azərb. muğamsevərlərinə tanıtmış və xanəndəlik repertuarını zənginləşdirmişdir. N.Feyzullayevin yaratdığı 100-ə yaxın təsniflər ("Qaşların kamandır", "Oğrun yollara baxmaqdan" və s.) xanəndələr tərəfindən ifa olunur.

**FƏRABİ** (Farabi Əbu Nəsr Məhəmməd ibn Məhəmməd; 870, Farab - 950, Dəməşq) - Şərq filosofu, ensiklopediyaçı-alim. Orta Asiyada türk qəbiləsindən olan hərbi xidmətçi ailəsində doğulmuşdur. Bağdadda Əbu Bişr Məttədən və Yuhənna İbn Heylandan təhsil almış, fəlsəfi biliklərə, məntiqə dərindən yiyələnmişdir. "Təhsil əs-səadə" ("Xoşbəxtliyin əldə edilməsi"), "İhsa əl-ülum" ("Elmlərin siyahıya alınması") və s. elmi, fəlsəfi əsərlərin müəllifidir. Fərabi Aristotelin, Platonun, Ptolemeyin, Porfirinin əsərlərini şərh etmiş, orta əsr müsəlman Şərqində Aristoteldən sonra "İkinci müəllim" ("əl-Müəllim əs-sani") fəxri adını almışdır. Musiqiyə dair "Kitab əl-musiq əl-kəbir" ("Musiqi haqqında böyük kitab") çoxcildli məşhur əsərində Fərabi musiqi elmini nəzəri və əməli hissələrə bölüb, melodiyanın daxili düzülüşünü, qanunauyğunluqlarını hesablamışdır. Şərq musiqisinin ritmik əsasını dəlillərlə şərh etmişdir. Fərabi məşhur musiqiçi, bəstəkar, yeni musiqi alətlərinin ixtiraçısı olmuşdur. Fərabinin elmi-fəlsəfi irsi İbn Sina, Bəhmənyar, Nizami, İbn Rüşd, Səfiəddin Urməvi, N.Tusi, İbn Xəldun və b. üçün zəngin bilik xəzinəsi, ideya qaynağı olmuşdur.

**FƏRƏNG (nəfir-fərəng)** - Şərq xalqları musiqisində "Hümayun" və "Rast-pəncgah" dəstgahlarında kiçik bir guşə.

**FƏRRUX-RUZ** - orta əsrlərdə mahnı adı.

**FƏRHADOVA Sevil Məmmədbağır qızı** (31.07.1947, Bakı) - musiqişünas. Sənətşünaslıq doktoru (2006). ADK-da təhsil almışdır (1965-1970). 1974 ildən AMEA-nın MİI-də çalışır. 2007 ildən "Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi" şöbəsinin müdiridir. Elmi tədqiqatları Azərb. mərasim musiqisinin və muğam sənətində monodiya tipli musiqinin öyrənilməsi ilə bağlıdır. "Azərbaycan mərasim musiqisi" (1990), "Muqa - monodiya təfəkkür tərzi kimi" (2001) monoqrafiyalarının müəllifidir.

**FƏRZƏLİYEV Məşədi Məmməd** (1872, Şuşa - 1962, İstanbul) - xanəndə. Azərb. xanəndəlik məktəbinin ən görkəmli nümayəndələrindən biri. M.M. Fərzəliyev musiqi təhsilini Şuşada, Xarrat Qulunun məktəbində almışdır. Zəngin yaradıcılıq yolu keçmiş Məşədi Məmməd güclü nəfəsə, geniş diapazonlu gur səsə malik olmuşdur. O, səsinin gücünü ucalığına və səslənmə tempinə görə sərbəst dəyişmək qabiliyyəti, sürəkli, çağlayan zəngulələri ilə məşhur idi. Məşədi Məmməd dinləyicilər qarşısında həmişə zəngin və orijinal repertuarla çıxış etmişdir. Onun oxuduğu "Bayatı-Kürd", "Rast", "Şur", "Çahargah", "Zabul-Segah", "Kürd Şahnaz" muğam-dəstgahları, "Heyratı", "Mənsuriyyə", "Səmayi-Şəms", "Qarabağ şikəstəsi", "Arazbarı", "Kərəmi", "Əfşarı" zərbi-muğamları dinləyicilər tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Xüsusilə, Azərb. xanəndəlik sənəti tarixində "Şüştər" muğamının mahir ifaçısı kimi tanınmışdır. O, qədim Azərb.mahnılarını və təsnifləri böyük məharətlə ifa edirdi. "Qarabağda bir dənəsən", "Alma", "Nəbi", "Vətən şərqisi", "Mən bir türkəm", "Axşam oldu" onun şövqlə ifa etdiyi təsniflər idi. 1912-1915 illərdə M.M.Fərzəliyev "Sport-Rekord" (Varşava) və "Ekstrafon" (Kiyev) səhmdar cəmiyyətlərinin



*Məşədi Məmməd Fərzəliyev, xanəndə*

dəvəti ilə 40-a qədər muğam, təsnif və mahnı oxuyub vala yazdırmışdır. M.M.Fərzəliyev, həmçinin geniş konsert fəaliyyəti ilə məşğul olur, "Şərq konsert"lərində, teatr tamaşalarında çıxış edirdi. 1923 ildə Məşədi Məmməd Gəncədə açılan şəhər musiqi məktəbində muğamatdan dərs demək üçün dəvət alır. Burada o, gənc xanəndələrin yetişməsinə böyük qayğı göstərir. 1926 ildən M.M.Fərzəliyev muğam üçlüyünün müşayiəti ilə Rusiyanın bir çox şəhərlərində, Polşa, Almaniya, Fransa, Belçika, İngiltərə, Avstriya, Rumıniya, Türkiyə və İranda dəfələrlə konsertlər vermişdir. 1929 ildən Türkiyəyə köçərək, ömrünün sonuna kimi burada yaşamışdır. M.M.Fərzəliyev Azərb. xanəndəsi kimi milli musiqi mədəniyyətini xaricdə geniş surətdə tanıtmışdır.

**FƏSƏLƏ** (ərəb) - üzərinə düşən zil səsin gücünə görə bir sədanın o birisini susdurması.

**FƏTULLAH ŞİRVANİ** (tam adı Fətullah Əbdüləziz İbrahim əş-Şəbərani əş-Şamaxi əş-Şirvani; bəzi mənbələrdə adının əvvəlinə "Mövlana" və "Mömin" sözləri əlavə edilir; 1417, Şamaxı - 1486, Şamaxı) - Azərb. ensiklopedik alim, filosof, musiqişünas. Şərq aləmində ustad alim və müəllim kimi tanınmışdır. İlk təhsilini atasından almış, sonralar biliyini artırmaq məqsədi ilə Şirazda, Səmərqənddə və Tusda təhsilini davam etdirmiş, dövrünün görkəmli ustadlarından dərs almışdır. F.Şirvani həndəsə, astronomiya, riyaziyyat, kəlam və məntiq sahəsində mükəmməl biliyə sahib olmuşdur. O, həmçinin, Məkkədə, Qahirədə, İstanbulda, Anadoluda da olmuş, burada dərs demiş və elmi yaradıcılıqla məşğul olmuşdur. F.Şirvani bir çox alimlərin əsərlərinə şərhlər yazmışdır. Onun ən böyük əsərlərindən biri "Məcəllə fil-musiqa" (1453), yəni "Musiqi məcəlləsi" və ya "Musiqi məcmuəsi" adlanır. Bu əsər o dövrün musiqi nəzəriyyəsinə dair ətraflı və qiymətli bir mənbədir.

**FİQURASİYA** (latın: *figuratio* - forma, üsul, obrazlı ifadə; *fiquro* - yaratmaq, bəzəmək) - musiqi materialının işlənmə üsullarından biri; musiqidə səslərin müxtəlif şəkilli hərəkəti. Üç növü var: melodik fiqurasiya - birsəsli və ya əsas səsin ətrafında melodik gəzişmələr, melodik xəttin variantlılığı; harmonik fiqurasiya - akkord səslərindən birinin, əsasən, basın, akkordun digər səsləri ilə ardıcıl yerini dəyişməsi; ritmik fiqurasiya - bir səsin və ya bir qrup səsin, akkordun təkrarlarından ibarət ritmik formullar.

**FİLARMONİYA** (yunan: *philos* - dost, *harmonia* - ahəng; "gözəl sənətləri dəyərləndirən" mənasını verir) - geniş dinləyicilər arasında klassik və müasir musiqinin təbliği ilə məşğul olan konsert təşkilatı. *Bax: Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası (ADF).*

**FİLİ** (fars: açıq boz rəng) - Azərb. musiqisində: "Hümayun" və "Şüştər" dəstgahında muğam şöbəsi.

**FİNAL** - silsilə şəkilli musiqi əsərinin (simfoniya, konsert, kvartet, sonata və s.) sonuncu hissəsi; opera və ya balet əsərinin yekunu; həmçinin, bu əsərlərdə ayrı-ayrı aktların tamamlayıcı, yekun hissəsi; irihəcmli, birhissəli əsərin tamamlayıcı fraqmenti.

**FİORİTURA** (italyan: *fioritura* - çiçəklənmə) - melodik bəzəklərin ümumi adı; termin kimi əsasən, vokal musiqiyə tətbiq olunur. Muğamın oxunmasında fiorituralardan geniş istifadə olunur.

**FİRUZİ** - "Çahargah" dəstgahında "Mənsuriyyə" şöbəsindən sonra "Mayeyi-Çahargah"a qayıtmaq üçün istifadə olunan kiçik bir guşə.



**FLAJOLET** (fransız: *flageolet* - tütək) - **1.** Nəfəslə çalınan musiqi aləti, fleytanın qədim növü. **2.** Kamanla çalınan simli alətlərdə istifadə olunan ifaçılıq üsulu. Simlərə müəyyən bölgü nöqtələrində toxunmaqla zərif və soyuq tembrli səslənmə alınır.

**FOLKLOR** (ingilis: *folk* - xalq, *lore* - təlim) - xalq müdrikliyi, xalq yaradıcılığı mənasını verir. Şifahi ənənələrə əsaslanan bədii yaradıcılıq növlərini - xalq ədəbiyyatını (nağıllar, zərbi-məsəllər, lətifələr, əfsanələr və s.), xalq musiqisini (mahnı və rəqslər), tətbiqi-dekorativ sənətləri (naxış-tikmə, xalçaçılıq, dulusçuluq) və s. əhatə edir. Musiqi folkloru xalq mahnı və rəqslərindən ibarətdir; xalqın arzu və istəklərini, duyğularını, mənəviyyatını, dünyagörüşünü, həyat tərzini, əmək prosesini əks etdirir. Məzmununa görə əmək, mərasim, məişət, tarixi mahnı və rəqs növlərinə bölünür.

**FOLKLORŞÜNASLIQ** - folkloru (xalq yaradıcılığını) öyrənən elm. Xalq yaradıcılığı nümunələrinin toplanması, nəşri və tədqiqi ilə məşğul olur. Avropada xalq yaradıcılığına elmi maraq XVIII əsrdən başlamışdır, Azərb. folklorşünaslıq XX əsrin I yarısında inkişaf etmişdir. Folklorşünaslıq bəzən etnoqrafiyanın, ədəbiyyatşünaslığın, musiqişünaslığın bir sahəsi hesab edilsə də, müasir dövrdə müstəqil elm sahəsi kimi formalaşmış, onun tədqiqat metodları işlənib hazırlanmışdır. Folklorşünaslıqda xalq yaradıcılığının (şifahi ədəbiyyat, musiqi, rəqs folkloru və s.) spesifikası, ayrı-ayrı tarixi inkişaf mərhələləri, milli özünəməxsusluğu, folklorun professional ədəbiyyat, musiqi, rəqs və s. incəsənət sahələri, başqa xalqların folkloru ilə qarşılıqlı əlaqələri və s. problemlər araşdırılır. Şifahi ənənəli musiqi yaradıcılığı nümunələri - xalq mahnıları, rəqsləri və s. toplanıb nəşr olunmuş və tədqiqata cəlb edilmişdir. *Bax: Etnomusiqişünaslıq.*

**FONOQRAM** (yunan: *phone* - səs, *gram* - yazı) - səsyazma nəticəsində alınan siqnaloqram. Mexaniki fonoqram - qrammofon valları, fotoqrafik, maqnit, mono-, stereo -, kvadrafonik fonoqram növləri vardır.

**FONOQRAF** (yunan: *phone* - səs, *grapho* - yazıram) - mexaniki səsyazma və yazını yenidən səsləndirmək üçün cihaz. 1877 ildə amerikalı ixtiraçı T.Edison tərəfindən yaradılmışdır. XX əsrin 30 illərinə qədər diktofon kimi istifadə edilirdi. Onun əsasında qrammofon, patefon kimi mexaniki səsyazma cihazları meydana gəlmişdir. 1940-1950 illərdə elektrofon və maqnitofon meydana gəldikdən sonra istifadədən çıxmışdır. 1930 illərdə Azərb. xalq musiqisinin toplanması və nota yazılması prosesində fonoqrafdan geniş istifadə olunmuşdur. *Bax: Elmi-tədqiqat musiqi kabineti.*



*Fonoqraf - səsyazma cihazı*

**FONOTEKA** (yunan: *phone* - səs; *theke* - saxlanılan yer, anbar) - musiqi, ədəbi, sənədli, xüsusi tədris və s. əsərlərinin, səsyazmalarının sistemlə təşkil olunmuş toplusu; səsyazmalarını toplayan, onları xüsusi qayda ilə qoruyub saxlayan müəssisə. Azərb. bir neçə belə fonotekalar mövcuddur: *Azərbaycan Radio və Televiziyasının Fonotekası, Azərbaycan Dövlət Səsyazıları Arxivi, M.F.Axundov ad. Milli Kitabxananın fonotekası, Bakı Musiqi Akademiyasının fonotekası* və s.

**FORMA** - *bax: musiqi forması.*

**FORTEPİANO** - simli-klavişli musiqi aləti. Klavişlərə bərkidilmiş kiçik çəkiclərin zərblə simlərə vurulmasından səs yaranır. Fortepianonun ağ və qara dilləri - klavişlər klaviaturanı əmələ gətirir; klavişlərə barmaqlarla toxunmaqla çalınır. Geniş səs diapazonuna və universal texniki imkanlarına görə musiqi təcrübəsində mühüm əhəmiyyətə malikdir. Qədimdə meydana gəlmiş növləri: klavikord, klavesin. XIX əsrdə meydana gələn növləri: royal (üfüqi simlərlə), pianino (şaquli simlərlə).

Azərb. musiqisində fortepiano XX əsrdən tətbiq olunmağa başlamış və bəstəkar yaradıcılığında mühüm yer tutmuşdur. Musiqi təcrübəsində muğamların fortepianoda ifası müəyyən əhəmiyyət kəsb edir. Muğamların bəstəkarlar tərəfindən həyata keçirilən not yazıları fortepiano alətinin imkanlarına uyğun tərtib olunmuş və fortepianoda ifa üçün nəzərdə tutulmuşdur.

Muğamların fortepianoda ifası da geniş yayılmışdır. Azərb. musiqi tarixində Xədicə Qayıbova, Rüxsarə Mirzəbəyova, Zaur Əliyev kimi pianoçular muğamların mahir ifaçıları kimi yadda qalmışlar.

**FORUZ , FORUD** (ərəb: aşağı) - muğam şöbələrindən əvvəl, ya da bilavasitə sonra oxunan kiçik bir guşə; oxunmuş - çalınmış şöbənin variantı, tamamlanmış müxtəsər yekunlaşdırıcı ifadəsi (məs.: "foruz-dilkəş", "foruz-mahur", "foruz-neyriz").

**FORŞLAQ** (alman: *vorschlag* - əvvəlki zərbə) - musiqidə melizm (bəzək) işarələrindən biri; bir və ya bir neçə səsdən ibarət olub, kiçik notlarla yazılır və tez ifa olunur; onun ifası xanə ölçüsünə daxil deyil, lakin ifa zamanı onu dolğunlaşdırır. Azərb. melodiyalarında forşlaqlardan çox istifadə olunur.

**FRAQMENT** (latın: *fragmentum*) - parça, hissə.

**FRAZA** (yunan: *phrasis* - ifadə) - melodiyanın, mövzunun nisbətən tamamlanmış musiqi hissəsi olub, "musiqi kəlməsi" kimi izah olunur. Hər tamamlanmış musiqi fikri frazalara ayrılır. Fraza sezura işarəsi ilə qeyd olunur.

**FRAZİROVKA, FRAZALAŞDIRMA** - cümlələrdən frazaların ayrılması, *sezura*ların yerləşdirilməsi, liqa ilə birləşdirilməsi, artikulyasiya və nüansların araşdırılması; Frazirovka əsərin ifadəli, bədii mətnin təsirli səslənməsini şərtləndirir.

**FRUQ-ÜL-LƏHNİYYƏ** (ərəb) - nüans.

**FÜZULİ Məhəmməd Süleyman oğlu** (1494, İraq, Kərbəla ş. - 1556, Kərbəla ş.) - Azərb. şairi, mütəfəkkir. Ailəsi Azərb. İraqa köçmüş bayat tayfasına (qədim türk tayfalarından biri) mənsub olmuşdur. Füzuli Kərbəlada, Bağdadda təhsil almış, orta əsr elmləri (məntiq, tibb, nücum, riyazi və humanitar elmlər), dini-fəlsəfi cərəyanlarla tanış olmuş, klassik ərəb, fars, özbək, türk və farsdilli hind ədəbiyyatını öyrənmişdir. Füzuli mədrəsədə oxuyarkən yazdığı aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Azərb., fars və ərəb dillərində klassik Şərq poeziyasının qəzəl, qəsidə, müsəddəs, tərkibbənd, tərcibənd, rübai, qitə, mürəbbe və digər formalarında yazmışdır. Hər üç dildə divanı var. Füzuli Azərb. ədəbi-bədii dilinin yaradıcılarındandır. O, klassik Azərb., habelə digər türkdilli xalqların poeziyasına qüvvətli təsir göstərmiş, ədəbi məktəb yaratmışdır. "Bəngü Badə", "Ənis ül-qəlb", "Yeddi cam", "Səhhət və Mərəz", "Rindü Zahid", "Şikayətnamə", "Həqiqət üs-səda", "Mətlə ül-etiqad" və s. ədəbi-bədii, fəlsəfi və elmi əsərlərin müəllifidir. Yaradıcılığının zirvəsi sayılan "Leyli və Məcnun" poeması təkcə Azərb. və ümumtürk ədəbiyatının deyil, dünya poeziyasının nadir incilərindəndir. Füzuli irsi dünya alımləri tərəfindən öyrənilir, samballı tədqiqatlar meydana gəlir. Onun ənənələri müasir Azərb. poeziyasında da öz davamını tapır, bir çox şairlər Füzuli ruhunda qəzəllər yazırlar. Bakıda "Füzuli şairlər məclisi" yaranmışdır. Füzulinin yaradıcılığı Azərb. incəsənətinin inkişafına güclü təsir göstərmişdir. Onun əsərləri əsasında təsviri sənət, heykəltaraşlıq, musiqi əsərləri yaranmışdır. Füzulinin poeziyası Azərb. muğam sənətinin də inkişafına təkan vermişdir. Ustad xanəndələr muğam ifaçılığında Füzulinin qəzəllərindən geniş istifadə edirlər. Azərb. bəstəkarları Füzuli poeziyasına müraciət edərək, müxtəlif janrlı əsərlər bəstələmişlər: Ü.Hacıbəyov ilk Azərb. operası "Leyli və Məcnun"u Füzuliyə əsaslanaraq yazmış, digər əsərlərində ("Əsli və Kərəm", "O olmasın, bu olsun", "Arşın mal alan") Füzulinin qəzəllərindən istifadə etmişdir. Azərb. bəstəkarları (C.Cahangirov, S.Ələsgərov, A.Məlikov, A.Rzayeva və b.) Füzulinin əsərləri əsasında kantata, simfonik poema, romans və s. yazmışlar. Əsərləri dünya xalqlarının dillərinə tərcümə olunmuşdur. Füzulinin 500 illiyi YUNESKO tərəfindən beynəlxalq miqyasda qeyd olunmuşdur.

**"FÜZULİ" ədəbi məclisi** - 1994-1999 illərdə Bakıda füzulişünas, qəzəlxan-şair Hacı Mail tərəfindən yaradılan şairlər məclisi. Şairlərdən Şahin Fazil, Südabə Cəlil, Natiqə Yusifqızı, Sona Xəyal məclisin ilk və fəal üzvləri olmuşdur. Məclis Bir sıra tanınmış şairləri, naşirləri, ədəbiyyatşünasları, Füzuli poeziyasının vurğunu olan ziyalıları, xanəndələri, əruz və muğam bilicilərinin öz ətrafına toplamışdı. Məclisin üzvləri olan şairlər tərəfindən Füzulinin şeirləri oxunaraq şərh edilir, müxtəlif dillərə (məs., Həkim Qəni tərəfindən rus dilinə, Mircəlal Zəkiyev tərəfindən fars dilinə) tərcümə olunur, onun qəzəllərinə təxmislər yazılır, əruzun, qafiyənin nəzəri əsasları öyrənilir, gənc şairlərin yeni şeirləri dinlənilərək, onlara dəyərli tövsiyələr verilirdi. "Füzuli" ədəbi məclisi klassik ədəbiyyatın, əruzun gənc nəslə öyrədilməsi baxımından böyük əhəmiyyətə malik olmuş, poeziyanın inkişafına xidmət etmişdir. ■





# G

**GAF** - XIX əsr Azərb. musiqisində dəstgahlar tərkibində olan kiçik instrumental epizod. Muğam ifaçılığında bir şöbədən digərinə keçmək prosesində istifadə olunan təsnif və rəngləri əvəz edirdi.

**GEŞAİŞ** (fars: rahatlıq, yüngüllük) - "Mahur" dəstgahının əvvəlində olan şöbələrdən biri.

**GƏBRİ** (farsca: *gəbr* - böyük, ulu, yaşlı, qoca) - muğam şöbəsi. "Şur" muğam ailəsindən olan kiçik həcmli "Dəşti" muğamının üçüncü (sonuncu) şöbəsi. Musiqisi ciddi, təmkinli, təkəbbürlü xarakterə malikdir.

**GƏNC BAD AVƏRƏD, GƏNC-KAB, GƏNC SOXTƏ** - Nizaminin əsərlərində qeyd olunan mahnıların adları.

**GƏRAYLI** - aşıq musiqisi - şeir yaradıcılığında hər misrası 8 hecadan ibarət olan şeir forması; eyniadlı aşıq havasının əsasını təşkil edir.

**GƏRDANİYYƏ** - *1.* Orta əsrlərdə Şərq xalqlarının klassik musiqisində altı avazdan biri. *2.* Müasir dövrdə muğam guşəsi kimi "Rast" muğamında "Mayeyi-Rast"dan, "Nəva" dəstgahında "Mayeyi-Nəva"dan sonra ifa olunur.

**GƏZİŞMƏ** - muğam ifaçılığında istifadə olunan üsul; ifaçılıq prosesində müəyyən musiqi frazasını zənginləşdirmək məqsədi ilə onun başqa variantlarda təkrar edilməsindən ibarətdir. Muğam melodiyasının ifa edilərək yaradılmasında məqam pillələri üzərində gəzişmək mühüm əhəmiyyətə malikdir.

**GİTARA** - simli-dartımlı musiqi aləti; solo və müşayiətedici alət kimi istifadə olunur. Azərb. musiqi məişətində geniş yayılaraq, həmçinin, x.ç.a. ansambllarının tərkibinə də daxil edilir.

**GİLƏGİ** - "Dəşti" muğamında "Dübeyt"dən sonra ifa olunan şöbə.

**GÖZƏLLƏMƏ** - aşıq yaradıcılığında müəyyən şəxsiyyəti və ya əlamətdar bir hadisəni vəsf edən əsər.

**GURULTU** - fiziki (akustik) mənada müəyyən ton yüksəkliyinə malik olmayan səs. Zərb alətlərinin çalınmasından əmələ gələn gurultu musiqinin ifadə vasitələrinə aiddir.

**GUŞƏ** - dəstgahlar tərkibində şöbələrlə yanaşı ifa olunan bitkin və aydın melodik quruluşa malik vokal - instrumental epizod. Guşələr şöbələr daxilində, ya da şöbələrarası olur.

**GÜLƏBƏTİN** - kanitel: bəzi simlərə sarınan metal sap.

**GÜLNUŞ** - muğam guşəsi.

**GÜLRİZ** - "Şur" dəstgahında muğam şöbəsi.

**GÜLZAR** - muğam guşəsi.

**GÜŞEYİ-BAYATI-QACAR** - muğam guşəsi. ■

# H

**HACI HÜSÜ Neftali oğlu** (təqr.1830 illər, Şuşa - 1898, Aşqabad) - xanəndə. Musiqi təhsilini Şuşada Xarrat Qulunun məktəbində almışdır. Güclü və məlahətli səsi olan Hacı Hüsü klassik Şərq və Azərb. muğam və təsniflərinə dərindən bələd idi. O, Mir Möhsün Nəvvabla birgə Şuşada ilk "Musiqişünaslar məclisi"nin əsasını qoymuş, Xarrat Qulunun ölümündən sonra gənc xanəndələr yetişdirmək məqsədilə "Xanəndələr ittifaqı" yaratmışdı. Hacı Hüsü "Rast", "Şur", "Mahur" muğamlarına yeni guşə və xallar əlavə etmiş, "Kürdü" muğamını "Şahnaz"la birləşdirmişdir ("Kürdü-Şahnaz"). Hacı Hüsü "Qatar" muğamının yaradıcısı sayılır. Azərb. musiqisini təbliğ edən Hacı Hüsü Yaxın və Orta Şərqdə geniş şöhrət qazanmışdır.

**HACI HÜSNİ** - XIX əsr musiqi təcrübəsində "Şur" dəstgahında şöbə.

**HACI DƏRVİŞİ** - muğam guşəsi. "Şur" muğamında mayə pilləsində, "Mayeyi-Şur"dan sonra, "Baba Tahir" guşəsi ilə yanaşı ifa olunur.

**HACI MAİL** (Mail İsmayıl oğlu Əliyevin təxəllüsü; 25.10.1935, Bakı ş. Nardaran k. - 22.08.1999, Bakı) - füzulişünas, qəzəlxan-şair, filologiya elmləri namizədi. Azərb. Dövlət Bədən Tərbi-


*Hacı Mail, şair*

yəsi İnstitutunu bitirmişdir (1960). Klassik Şərq ədəbiyyatına və xüsusilə də Füzuli yaradıcılığına böyük həvəs göstərmiş, Bakının Nardaran kəndinin ədəbi mühiti onun qəzəlxan-şair kimi yetişməsində böyük rol oynamışdır. Hacı Mail 20 ildən artıq AMEA-nın Məhəmməd Füzuli ad. Əlyazmalar İnstitutunda çalışmışdır. Türk, fars və ərəb dillərini yaxşı bildiyindən orta əsrlərin əlyazmaları üzərində dərin tədqiqat işləri aparmış, "Füzuli divanının tekstoloji tədqiqi və elmi-tənqidi mətni" kitabını yazmışdır. Bundan başqa o, "Cahanşah Həqiqi. Seçilmiş əsərləri" və "Dahilərin göz yaşı" kitablarının tərtibatçısı idi. "Kişvərinin seçilmiş əsərləri", "Məhəmməd Füzulinin "Leyli və Məcnun" əsərinin elmi-tənqidi mətni", "Hacı Şeyx Əli Tutinin şeirləri" kitabları onun redaktorluğu altında çap edilmişdir. Hacı Mail həm də şair idi. 1986 və 1994 illərdə iki qəzəllər toplusu,2005 ildə isə "Divan"i və "Qoşmalar" kitabları çapdan çıxmışdır. Qəzəlləri bu gün də xanəndələr tərəfindən ifa olunur. O, "Məcməüş-şüəra" ədəbi məclisinin bərpaçısı, "Füzuli" ədəbi məclisinin təşkilatçısı və sədri olmuşdur. Bu məclisdə qəzəlxan şairlərlə yanaşı, ustad xanəndələr də iştirak etmişlər.

**HACI YUNİ** - muğam şöbəsi. Ə.Bədəlbəylinin məlumatına əsasən, XIX əsr Azərb. musiqisində "Rəhavi" dəstgahında "Bayatı-Şiraz" ilə "Sarənc" arasında; "Nəva" dəstgahında "Şahnaz" ilə "Bayatı-kürd" arasında ifa olunmuşdur.

**HACIBABABƏYOV Hüseynağa Soltan oğlu** (19.05.1898, Şamaxı - 10.11.1972, Bakı) - müğənni (lirik tenor), xalq artisti (1938). ADK-nı bitirmişdir (1928). 1910 ildən "Nicat" cəmiyyətinin nəzdindəki xorda oxumuş, 1913 ildən "Səfa" cəmiyyəti dram truppasının tamaşalarında çıxış etmişdir. H.Hacıbababəyov 1916 ildən Azərb. musiqi truppası ilə Zaqafqaziya, Orta Asiya və İranın bir çox şəhərlərində qastrolda olmuş, əsasən, qadın partiyalarını - Leyli, Əsli, Gülçöhrə, Gülnaz (Ü.Hacıbəyov - "Leyli və Məcnun", "Əsli və Kərəm", "Arşın mal alan", "O olmasın, bu olsun") oxumuşdur: H.Hacıbababəyov 1920-1960 illərdə ADOBT-nın solisti olmuşdur. Nadir tembrli gözəl səsə, virtuoz vokal texnikasına malik müğənni milli operalarda Məcnun, Kərəm, Əsgər (Ü.Hacıbəyov - "Leyli və Məcnun", "Əsli və Kərəm", "Arşın mal alan"), Şah İsmayıl, Əlyar (M.Maqomayev -"Şah İsmayıl", "Nərgiz"), Qərib (Z.Hacıbəyov - "Aşıq Qərib"), Xosrov (Niyazi - "Xosrov və Şirin") partiyalarını oxumaqla yanaşı, xarici bəstəkarların klassik operalarında (Almaviva, C.Rossini - "Sevilya bərbəri") da çıxış etmişdir. H.Hacıbababəyov xalq mahnılarının və bəstəkarların vokal əsərlərinin ifaçısı kimi də tanınmışdır.

**HACIBƏYOV (Hacıbəyli) Üzeyir Əbdülhüseyn oğlu** (18.09.1885, Şuşa, Ağcabədi k. - 23.11.1948, Bakı) - bəstəkar, musiqişünas alim, dramaturq, publisist, pedaqoq, ictimai xadim. Müasir Azərb. professional musiqisinin və milli

*Üzeyir Hacıbəyov və həyat yoldaşı Mələkə xanım*








*Üzeyir Hacıbəyov, bəstəkar*

operasının banisi. Şərqdə ilk operanın yaradıcısı. SSRİ xalq artisti (1938), professor (1940), AMEA-nın akademiki (1945),. SSRİ Dövlət mükafatları laureatı (1941, 1946). ABİ sədri (1938-1948), ADK-nın rektoru (1928-1929; 1939-1948), AMEA-nın İncəsənət İnstitutunun direktoru (1945-1948) olmuşdur. Ü.Hacıbəyov Şuşada, muğam məclisləri mühitində böyümüş, şəhər məktəbində təhsil almışdır. O, uşaqlıqdan muğamları dayısı, məşhur muğam bilicisi Ağalar Əliverdibəyovdan öyrənmiş, Şuşada göstərilən ilk musiqili səhnəciklərin ("Məcnun Leylinin məzarı üstündə",1897) iştirakçısı olmuşdur. 1899-1904 illərdə Gürcüstanda yerləşən Qori müəllimlər seminariyasında mükəmməl təhsil almışdır. 1905 ildən Ü.Hacıbəyov Bakıya köçmüş, müəllimliklə məşğul olmuş, dövrü mətbuat səhifələrinə publisistik və satirik yazılarla çıxmış, şəhərin ictimai-siyasi və mədəni həyatında yaxından iştirak etmişdir.

1908 ildə yanvarın 25-də Ü.Hacıbəyovun Füzulinin poeması əsasında yaratdığı ilk Azərb. operası "Leyli və Məcnun" muğam operası səhnəyə qoyulur. Bütün Şərqdə opera sənətinin əsasını qoyan bu əsər Azərb. musiqi mədəniyyətində yeni səhifə açmaqla musiqinin inkişafını yeni axara yönəldir. Sonrakı illərdə Ü.Hacıbəyov daha bir neçə muğam operası yazır: "Şeyx Sənan" (1909), "Rüstəm və Söhrab" (1910), "Şah Abbas və Xurşid Banu" (1912), "Əsli və Kərəm" (1912), "Harun və Leyla" (1915). Ü.Hacıbəyov Azərb. musiqili komediya janrının da yaradıcısı olmuşdur: "Ər və arvad" (1910), "O olmasın, bu olsun" (1911), "Arşın mal alan" (1913). Ü.Hacıbəyov 1912-1914 illər ərzində Moskva və Peterburq konservatoriyalarında öz musiqi təhsilini artırmışdır. 1918-1920 illərdə Azərb. Demokratik Respublikası dövründə Ü.Hacıbəyov "Azərbaycan"qəzetinin redaktoru olmuş, bir sıra himnlər və marşlar bəstələmişdir. 1920-1930 illərdə Azərb. musiqi təhsili sisteminin yaradılması ilə, ölkənin musiqi həyatının yenidən qurulması ilə ardıcıl məşğul olmuşdur. Onun təşəbbüsü və rəhbərliyi ilə ADK (1921), azərb. tələbələr üçün ilk musiqi məktəbi olan Dövlət Türk Musiqi Məktəbi (1921; 1926 ildə ADK-ya birləşdirilmişdir), musiqi kollektivləri - Simfonik ork., xor kapellası, notla çalan Azərb. x.ç.a. ork. (1931) yaranmışdır. Bu illərdə o, həmin musiqi kollektivlərinin repertuarı üçün bir sıra əsərlər də yazmışdır: "Çahargah" və "Şur" fantaziyaları, "Azərbaycan türk el nəğmələri" (xalq mahnılarının not yazıları və işləmələrindən ibarət məcmuə, M.Maqomayevlə birgə), kütləvi mahnılar, kantatalar və s. 1925 ildə Ü.Hacıbəyovun rəhbərliyi ilə musiqi məktəblərində muğamın sistematik tədrisi üçün ilk proqram yaradılmışdır.

1937 il aprelin 30-da Ü.Hacıbəyovun "Koroğlu" operası (librettosu H.İsmayılov və M.S.Ordubadinindir) tamaşaya qoyulmuşdur. Bu əsər bəstəkarın yaradıcılığının zirvəsi və klassik Azərb. operasının şah əsəri oldu. 1940 illərdə Ü.Hacıbəyov vətənpərvər ruhlu mahnılar, "Sənsiz" və "Sevgili canan" qəzəl-romanslarını (Nizaminin sözlərinə) bəstələyir. Azərb. musiqi elmində yeni səhifə açan, Azərb. musiqisinin məqam nəzəriyyəsini yaradan Ü.Hacıbəyovun "Azərbaycan xalq musiqisinin əsasları" fundamental elmi əsəri çap olunmuşdur (1945).

Ü.Hacıbəyov öz musiqi və elmi yaradıcılığı ilə Azərb. musiqi mədəniyyətində böyük dönüş yaratmışdır. O, əsrlər boyu şifahi ənənələr əsasında mövcud olan milli musiqini Avropa bəstəkarlıq məktəblərinin nailiyyətləri ilə zənginləşdirmiş, Şərq və Qərb musiqi sistemlərinin üzvi vəhdətini yaratmağa nail olmuşdur.
*http://uzeyir.musigi-dunya.az*

**HACIBƏYOV Zülfüqar Əbdülhüseyn oğlu** (17.04.1884, Şuşa - 30.09.1950, Bakı) - bəstəkar, əməkdar incəsənət xadimi (1943). İlk Azərb.

operalarından olan "Aşıq Qərib" (1915) əsərində muğamlara əsaslanmış, xalq musiqisi ilə Avropa musiqisini əlaqələndirməyə çalışmışdır. Öz librettolarına bəstələdiyi "Əlli yaşında cavan" (1909), "Varlı" ("On bir yaşında gəlin", 1911), "Evliykən subay" (1911) kimi musiqili komediyaların müəllifidir.Bir sıra mahnı, simfonik ork., nəfəs alətləri və x.ç.a. üçün əsərlər, dram tamaşalarına, "Almaz" kinofilminə (Niyazi ilə birlikdə) musiqi yazmışdır.

**HACIYEV Əhməd Cövdət İsmayil oğlu** (18.06.1917, Şəki - 18.01.2002, Bakı) - bəstəkar, pedaqoq, xalq artisti (1960), professor (1963). Moskva Dövlət Konservatoriyasında D.D.Şostakoviçin tələbəsi olmuşdur. Azərb.


*Cövdət Hacıyev, bəstəkar*

simfonizminin əsasını qoyanlardan biridir. 8 simfoniyanın, simfoniyettanın, 3 simfonik poemanın, o cümlədən, "Sülh uğrunda" (1951) və digər ork. əsərlərinin müəllifidir. Həmçinin o, "Vətən" operasını (bəstəkar Qara Qarayevlə birgə, 1945), oratoriyalar, kamera-instrumental əsərlər (Kvartet-poema, 1961), fortepiano üçün əsərlər (Sonata, Ballada, Prelüd, "Musiqili lövhələr" silsiləsi, 1977), Xor-poema, romans-qəzəllər və s. bəstələmişdir. Aşıq mahnılarının, xalq rəqslərinin not yazılarının və işləmələrinin müəllifidir. Əsərlərində muğamlardan bəhrələnmiş və muğam melodiyalarından yaradıcılıqla istifadə etmişdir. 1947 ildən ömrünün sonuna kimi ADK-da bəstəkarlıq üzrə dərs demiş (1957-1969 illərdə rektor), böyük bəstəkarlar nəsli yetişdirmişdir.

**HAQVERDİYEV Əbdürrəhim bəy** (1870, Şuşa - 1933, Bakı) - yazıçı, dramaturq, ictimai xadim, ilk muğam konsertlərinin təşkilatçısı, əməkdar incəsənət xadimi (1928). 1891 ildə Peterburq yol mühəndisləri institutuna daxil olmuş, eyni zamanda azad dinləyici kimi Peterburq universitetinin Şərq fakültəsində oxumuşdur. "Bəxtsiz cavan", "Pəri-cadu" və s. pyeslərin, "Ağa Məhəmməd şah Qacar" tarixi faciəsinin, realist nəsr əsərlərinin ("Marallarım" adlı hekayə silsiləsi, "Xortdanın cəhənnəm məktubları" povesti, "Bomba", "Şeyx Şaban", "Mirzə Səfər" və s. hekayələr) müəllifidir. Ə.Haqverdiyevin Azərb. musiqi mədəniyyətində mühüm xidmətləri vardır. O, muğamlar əsasında ilk səhnələşdirilmiş tamaşanın təşkilatçısı olmuşdur. 1897 ildə Şuşada tamaşaya qoyulan ilk musiqili səhnə - "Məcnun Leylinin məzarı üstündə" səhnəsi şair Məhəmməd Füzulinin (XVI əsr) "Leyli və Məcnun" poemasından sonuncu hissənin teatrallaşdırılmış musiqili ifasından ibarət bir tamaşa idi. Burada, ilk dəfə olaraq, teatr, poeziya və muğam qovuşdurulmuşdu. Tamaşanın iştirakçıları xanəndə və sazəndələrdən, musiqisi isə muğam və təsniflərdən ibarət idi. Xanəndələr sazəndə dəstəsinin müşayiəti ilə muğam üstə poemanın mətnindən müəyyən parçaları ifa edirdilər. Tamaşada xor fraqmentləri də öz yerini tutmuşdu. Həmin tamaşada dövrün ən məşhur xanəndəsi Cabbar Qaryağdıoğlu Məcnun rolunda çıxış etmişdi. Tamaşanı tarzən Mirzə Sadıq Əsəd oğlu müşayiət etmişdi. Bu musiqili səhnə Azərb. mədəni həyatında əlamətdar hadisə idi. Muğamlara əsaslanan musiqili səhnənin göstərilməsi muğam ifaçılığı sənətinin inkişafında irəliyə doğru mühüm addım kimi qiymətləndirilir.

"Məcnun Leylinin məzarı üstündə" musiqili tamaşası xalq tərəfindən böyük rəğbətlə qarşılanmış və çox sevilmişdi. Bütün Zaqafqaziyanın musiqi həyatında əlamətdar hadisə olan bu kiçik tamaşa Azərb. musiqili teatrın inkişafına təkan verdi. Ə.Haqverdiyev Ü.Hacıbəyovun "Leyli və Məcnun" operasının 1908 ildə Bakıda tamaşaya qoyulmasında yaxından iştirak etmiş, ilk tamaşaya dirijorluq etmişdir. Ə.Haqverdiyev həm də "Şərq konsertləri"nin və "Muğam gecələri"nin fəal təşkilatçısı olmuşdur. Azərb. ilk "Şərq konserti" Şuşada 1901 ildə, Bakıda isə 1902 ildə keçirilmişdi. Sonrakı illərdə də bu cür konsertlərin keçirilməsi, xüsusilə, Bakının musiqi həyatında bir ənənə halını almışdır.

**HARMONİYA** (yunan: *harmonia* - ahəngdarlıq, uyğunluq, mütənasiblik) - eyni zamanda səslənən tonların qanunauyğun ahəngdarlığı. Musiqi kompozisiyasında akkordların düzgün qurulması üsullarından bəhs edən elm. Ayrı-ayrı akkordları və ya ahəngləri, səsbirləşməsini xarakterizə etmək üçün istifadə olunan məfhum (məs., "gözəl harmoniya", "kəskin harmoniya" və s.). Bir bəstəkarın musiqisi üçün xas olan, müəyyən bir əsərdə öz əksini tapmış ifadəli akkordlar və səsbirləşmələrinin səciyyələndirilməsi.

Vokal-instrumental muğam ifaçılığında xanəndə, tar, kamança partiyaları arasında harmonik uyğunluğun olması vacibdir. Zərbi-muğamlarda və təsniflərin müşayiətində də müəyyən məqam pillələrinin birləşməsindən əmələ gələn harmoniyalar xüsusi əhəmiyyət kəsb edir.

**HARMONİZƏ ETMƏ (harmonizasiya)** - akkordlu harmonik quruluşlu musiqidə verilmiş melodiyaya əlavə səslərin qoşulması; Hər hansı bir melodiya əsasında musiqi əsərinin yaradılması (məs., xalq mahnısının harmonizasiyası); Harmoniya fənninin tədrisində əsas çalışma növlərindən biri. Ü.Hacıbəyov "Azərbaycan xalq musiqisinin əsasları" fundamental elmi əsərində xalq melodiyalarının harmonizasiya üsullarını göstərmişdir.

**HASAR** (ərəb: *hisar*, fars: *hesar* - istehkam, barı, çəpər, mühasirə mənalarında) - muğam şöbəsi. "Çahargah" dəstgahında "Bəstə-Nigar" şöbəsindən sonra, "Müxalif" şöbəsindən əvvəl ifa olunur. Melodik cəhətdən "Mayəyi-Çahargah"a oxşardır, lakin ondan bir kvinta (beş pillə) yuxarıda yerləşir.

**HAŞIMOV Bakir Musa oğlu** (1926, Ağdam - 1989, Bakı) - xanəndə. Qarabağ xanəndəlik ənənələrinin davamçısı. Uşaq vaxtlarından ustad xanəndələrdən eşitdiyi muğamları və təsnifləri böyük şövqlə ifa etmişdi. 1950 illərdə Bakıda ADMM-də professional musiqi təhsili almışdır. Seyid Şuşinskinin sinfində bütün muğam dəstgahlarını öyrənmişdir. Həmin illərdə B.Haşımovun ifaçılığı bəstəkarlardan Fikrət Əmirovun və Niyazinin diqqətini cəlb etmiş və onu ADOBT-da solist dəvət etmişlər. B.Haşımovun yaradıcılığının əsas hissəsi bu teatrla bağlı olmuşdur. O, Ü.Hacıbəyovun "Leyli və Məcnun" operasında Məcnun, İbn Səlam, "Əsli və Kərəm" operasında Kərəm surətlərini böyük məharətlə ifa etmiş və xalqın yaddaşına həkk olunmuşdur.

**HAŞIMOVA Ceyran Əsəd qızı** (08.03.1934, Bakı) - tar ifaçısı, xalq artisti (2006). ADMM-də (1952-1956) təhsil almışdır. 1958 ildən ADMM-də müəllim kimi fəaliyyət göstərir. S.Rüstəmov ad. x.ç.a. ork. saz qrupunun konsertmeysteri olmuşdur. 1964 ildə "Lalə" qızlar ansamblını yaratmışdır. Ansamblda bir çox müğənnilər - Raziyə Şirinova, Təranə Vəlizadə, Mahrux Muradova, Nisə Qasımova, Ruhəngiz Allahverdiyeva, Kəmalə Rəhimli, Firuzə İbadova və b., həmçinin, musiqi alətləri ifaçıları fəaliyyət göstərmişlər. Ansambl bir çox ölkələrdə qastrol səfərlərində olmuşdur.

**HAVA** - musiqi əsərinin əsasını təşkil edən tərənə, melodiya. *Bax: Aşıq havaları.*

**HETEROFONİYA** (yunan: *heteros* - başqa, *phone* - səs) - bir melodiyanın bir neçə ifaçı tərəfindən oxunması zamanı eyni vaxtda improvizasiya edilərək, səslərin ayrılması nəticəsində əmələ gələn çoxsəslilik.

**HECA VƏZNİ** - şeirdə ritmik hissələrin - vurğuların növbələşməsinə əsaslanan vəzn. Ümumiyyətlə, türkdilli xalqların, o cümlədən, Azərb. xalqının şeir vəznidir. Heca vəzni - əsas vəzn kimi xalq şeirində (bayatı, qoşma, gəraylı və s.), bir sıra sənətkarların (Şah İsmayıl Xətai, Yunus İmrə və b.), M.P.Vaqif və xalq şeiri üslubunda yazan digər şairlərin yaradıcılığında istifadə edilmişdir. Azərb. xalq şeirində, eləcə də aşıq poeziyasında bu vəznin 7, 8, 11 hecalı şəkilləri işlənmişdir. Heca vəzni daha çox dil qanunlarına bağlı olduğundan, mütləq vəzn qanun-

*Orta əsrlərin miniatüründə şeir və musiqi məclisinin təsviri*



larına əsaslanan əruz vəznindən özünün dinamikliyi, inkişafa, zənginləşməyə meyli ilə seçilir.

**HEYDƏR ƏLİYEV FONDU** - 2004 il mayın 10-da Azərb. xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olaraq açılmış Heydər Əliyev Fondunun məqsədi ulu öndərin zəngin irsinin öyrənilməsi, ölkəmizin tərəqqisi və Azərb. xalqının rifahına xidmət edən genişmiqyaslı proqramların həyata keçirilməsi, milli-mənəvi dəyərlərin qorunması və Azərb. mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılması, müstəqil Azərb. iqtisadi qüdrətinin artırılmasına xidmət edən layihələrin gerçəkləşdirilməsi, müxtəlif proqram və tədbirlərin, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrin dəstəklənməsi, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi, Azərb. beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin reallaşdırılması sahəsində fəaliyyət göstərməkdən ibarətdir.Qeyri-hökumət, ictimai təşkilat olan Fond Heydər Əliyevin ideyalarına, işıqlı amal və məsləklərinə daim sadiq qalır və bu dahi şəxsiyyətin Azərb. inkişafı naminə gördüyü işləri yaşatmağı və gələcək nəsillərə tanıtmağı özünün borcu hesab edir. Fondun prezidenti Azərb. birinci xanımı, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyevadır.

Fond müxtəlif sahələri əhatə edən layihələr, o cümlədən, mədəniyyət sahəsində: tarixi-mədəniyyət abidələrinin yenidən qurulması, rəsm müsabiqələrinin keçirilməsi, muğam sənətinin inkişaf etdirilməsi, görkəmli mədəniyyət xadimlərinin musiqi albomlarının hazırlanması, muğam müsabiqələrinin və dünya şöhrətli musiqiçilərin yubileylərinə həsr edilmiş beynəlxalq festivalların keçirilməsi; elm və texnologiya sahəsində: saytların, internet portallarının və multimediya disklərinin işlənib hazırlanmasını həyata keçirmişdir.

Heydər Əliyev Fondunun mədəniyyət sahəsində həyata keçirdiyi layihələr, əsasən, Azərb. musiqisini, onun incisi olan muğamı qorumağa, inkişaf etdirməyə, onun gözəlliyini və dərin fəlsəfəsini gələcək nəsillərə çatdırmağa yönəlmişdir. **"Azərbaycan muğamı" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" musiqi albomunun nəşri:** Azərb. xalqının mədəni ənənələrində və tarixində dərin köklərə malik olan muğam sənətinin inkişafına və təbliğinə xüsusi önəm verən Heydər Əliyev Fondunun prezidenti M.Əliyevanın təşəbbüsü ilə Azərb. muğamı 2003 ildə YUNESKO tərəfindən Bəşəriyyətin Şifahi və Qeyri-Maddi İrsinin "Şah Əsərləri" Siyahısına daxil edilmişdir.2005 ildə "Azərbaycan muğamı" layihəsi çərçivəsində Fond "Qarabağ xanəndələri" musiqi albomunu nəfis şəkildə nəşr etdirmişdir. Albomda 24 sənətçinin ifasında səslənən muğam parçaları xalqımızın qədim və zəngin muğam mədəniyyəti barədə dinləyicilərdə əyani təsəvvür yaradır. Albomun təqdimat mərasimi 2005 ilin martında Parisdə, YUNESKO-nun qərargahında, xoşməramlı səfirlərin illik toplantısında olmuşdur. **Beynəlxalq Muğam Mərkəzinin yaradılması:** Heydər Əliyev Fondu milli-mənəvi dəyərlərimizin qorunması və Azərb. mədəniyyətinin təbliği sahəsində mühüm layihələr həyata keçirmişdir. Bunların arasında Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzinin yaradılması layihəsi önəmli yer tutur. Mərkəzin təməlqoyma mərasimi Azərb. Prezidenti İlham Əliyevin və YUNESKO-nun Baş direktoru cənab Koişiro Matsuuranın iştirakı ilə 2005 il avqustun 24-də olmuşdur. İnşa olunmuş Beynəlxalq Muğam Mərkəzində gənc ifaçılar Azərb. musiqi mədəniyyətinin mühüm qismini təşkil edən muğam sənətinin incəliklərinə yiyələnəcəklər. Bundan əlavə, mərkəzdə dünya ictimaiyyətinin diqqətini Azərb. muğam sənətinə cəlb etməyi bacarmış görkəmli muğam ustalarının konsertləri, muğam gecələri, beynəlxalq konfranslar təşkil olunacaq. **Muğam müsabiqələri və beynəlxalq festivallar:** xalqımızın möhtəşəm mədəniyyət abidəsi, professional musiqimizin yaranıb formalaşmasında əvəzsiz rol oynayan muğam sənətini yaşatmaq və təbliğ etmək, qədim ifaçılıq ənənələrini yenidən inkişaf etdirmək, gənc ifaçıları üzə çıxarmaq və muğam sənətinin dünyada təbliğini gücləndirmək məqsədi ilə Heydər Əliyev Fondu muğam müsabiqələrini təşkil etmişdir. 2005 ildə görkəmli Azərb. bəstəkarı Üzeyir Hacıbəyovun anadan olmasının 120 illiyinə həsr edilmiş birinci muğam müsabiqəsi keçirildi. Muğam sənətinin ən mahir bilicilərindən ibarət münsiflər heyəti Azərb. bütün bölgələrindən 500-ə yaxın gənc ifaçı dinləmiş və onlardan 20 iştirakçı seçmişlər. Finala çıxmış gənc istedadlara diplomlar və mükafatlar təqdim edilmişdir. Fond öz ənənələrinə sadiq qalaraq 2007 ildə növbəti muğam müsabiqəsini keçirmişdir. Müsabiqənin gedişi boyu, bütün Azərb. muğamları - "Rast", "Şur", "Segah", "Çahargah" və s., zərbi muğamlar - "Heyratı", "Arazbarı", "Səmayi-şəms", təsniflər, xalq mahnıları səsləndi. Müsabiqə sadəcə ifaçıların yarışması deyildi, burada münsiflər tərəfindən səsləndirilən hər bir irad və tənqid müəllim tövsiyəsi kimi qəbul edilirdi və bu yarışma əsil ustad dərsləri idi. 2006 ilin oktyabrında YUNESKO-nun 60 illiyi münasibəti ilə Parisdə, YUNESKO-nun qərargahında, Azərb. həftəsi çərçivəsində Azərb. mədəniyyəti günləri keçirilmişdir. YUNESKO-nun sərgi salonunda respublikamızın gözəl





mənzərələrini, zəngin mədəniyyətini, tarixini, xalqımızın adət-ənənələrini, mədəni irs nümunələrini, azsaylı xalqların həyatını əks etdirən fotoşəkillərdən, misgərlik sənətinin nümunələrindən ibarət sərgi təşkil olunmuşdur. 2005-2006 illərdə Fond tərəfindən Bakıda dünya şöhrətli musiqiçilər Bülbül və D.Şostakoviçin yubileylərinə həsr edilmiş beynəlxalq festivallar təşkil edilmiş, ustad dərsləri keçirilmişdir. 2007 il dekabrında Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakıda Mstislav Rostropoviç ad. I Beynəlxalq musiqi festivalı keçirilmişdir. Festival çərçivəsində ADF-da Aleksandra Korsantiya (ABŞ), Mixail Lidski (Rusiya) kimi tanınmış pianoçular, məşhur rusiyalı skripkaçı, dirijor Maksim Vengerov, skripkaçı Sergey Krılov, violonçelçi Natalya Qutman, habelə dünyanın ən məşhur musiqiçilərindən biri sayılan Yuri Başmetin idarəçiliyi ilə "Solistı Moskvı" kamera orkestri çıxış etmişlər.

**Musiqi albomlarının hazırlanması:** 2005 ildə Fond dünya şöhrətli musiqiçi Mstislav Rostropoviç və xanımı, məşhur müğənni Qalina Vişnevskayaya həsr edilmiş musiqili albom hazırlamışdır. Nəfis şəkildə tərtib olunmuş kitab ingilis dilində olmaqla Maestro və xanımının həyat və yaradıcılığını əks etdirən fotoşəkillərlə zəngindir. 2008 ildə Heydər Əliyev Fondu Azərb. musiqi mədəniyyətinin görkəmli nümayəndələri, muğam sənətinin ustadları, xalq artistləri Arif Babayevin, Əlibaba Məmmədovun və böyük sənətkar, virtuoz kamança ustası Habil Əliyevin yaradıcılığını əhatə edən musiqi albomları hazırlamışdır. Azərb. və ingilis dillərində nəfis tərtibatda nəşr olunmuş albomlara sənətçilərin həyat və yaradıcılığından bəhs edən kitablar və DVD-lər, onların ifa etdiyi musiqi parçalarından ibarət disklər daxildir.Bundan başqa, 2008 ildə Heydər Əliyev Fondu Azərb. musiqi mədəniyyəti tarixində xüsusi yeri olan xalq artisti, cazmen, pianoçu, bəstəkar R.Babayevin yaradıcılığını əhatə edən musiqi albomu hazırlamışdır. MDB ölkələrinin və Azərb. dövlət arxivlərindən toplanmış materiallar əsasında hazırlanmış alboma Rafiq Babayevin həyat və yaradıcılığından bəhs edən və yüksək poliqrafik səviyyədə buraxılmış kitab, nadir videoyazılar olan 2 DVD və sənətkarın əsərlərindən ibarət 8 CD daxildir.

**Muğama həsr olunmuş nəşrlər:** Azərb. musiqisinin və muğam sənətinin inkişafına xüsusi önəm verən Heydər Əliyev Fondu 2006 ildə Səfiyəddin Urməvinin "Kitabül-Ədvar" və "Şərəfiyyə risaləsi" və Fətullah Şirvanın "Musiqi məcəlləsi" kitablarını və disklərini hazırlamışdır. Fondun fəaliyyətini əks etdirən veb saytın ünvanı: *http://www.heydar-aliyev-foundation.org*

**HEYRAN XANIM** (17..., Naxçıvan - 186..., Təbriz) - Azərb. şairəsi. XVIII əsrin sonlarında Kəngərli xanları ailəsində doğulmuşdur. Naxçıvanda təhsil almış, klassik Azərb. və fars ədəbiyyatını öyrənmişdir. XIX əsrin əvvəllərində ailəsi ilə İrana köçmüş, 60 illərdə burada vəfat etmişdir. Azərb. və fars dillərində, əsasən, aşiqanə şeirlər (qəzəl, müxəmməs, rübai və s.) yazmışdır. Nəsimi, Füzuli və b. şairlərə nəzirələri də vardır. Əruzun oynaq, ahəngdar, heca vəzninə yaxın bəhrlərində, sadə xalq dilində şeirləri ilə də tanınır. Əsərlərinin üç əlyazması (Bakı, Tehran, Tiflisdə saxlanılır) məlumdur. Heyran xanımın yaradıcılığı muğam ifaçılığında xanəndələr tərəfindən çox oxunur.

**HEYRATI** - Azərb. zərbi muğamı. Rast məqamına əsaslanır. "Mahur-Hindi" muğamı kökündə (do mayəli rast məqamı) qurulur. Gümrah, nikbin və cəngavər əhval-ruhiyyəli zərbi muğamdır. Poetik mətni qəzələ əsaslanır. Musiqi təcrübəsində, əsasən, Nizami Gəncəvinin "Gözüm aydın, gözümə surəti - canan görünür" misrası ilə başlanan qəzəlindən üç beyt oxunur. Ölçüsü 2/4-dir; ritmik əsasını ikipaylı, ikixanəli formul təşkil edir.

Ü.Hacıbəyovun "Leyli və Məcnun" operasında sərkərdə Nofəlin səhnəsi və leytmotivi "Heyratı" zərbi muğamının mövzusuna əsaslanır. Müasir dövrdə hərbi-vətənpərvərlik ruhuna görə əsgər marşı kimi də oxunur.

Bir neçə variantda not yazısı çap olunmuşdur. S.Rüstəmovun "Azərbaycan xalq rəngləri" (Bakı, 1958), Ə.Bakıxanovun "Azərbaycan ritmik muğamları" (1968) məcmuələrində zərbi muğamın instrumental epizodları nota alınmışdır. R.Zöhrabovun "Zərbi muğamlar" (Bakı, 2004) kitabında xanəndə Xan Şuşinskinin və sazəndə ansamblının ifasından bu zərbi muğamın vokal-instrumental (partitura) şəklində nota yazısı verilmişdir.

**HƏSƏNOVA Gülxar İbrahim qızı** (10.12.1918, Bakı - 30.03.2005, Bakı) - müğənni (soprano), xalq artisti (1982). Səhnə fəaliyyətinə Azərb. Gənc Tamaşaçılar Teatrında başlamışdır (1936-1942). Gözəl səsə malik istedadlı aktrisanın sonrakı taleyi ADOBT-in səhnəsi ilə bağlı olmuşdur. O, burada parlaq, koloritli qadın obrazları yaratmışdır. Onun ifasında Leyli, Leylinin anası, Əsli, Xanəndə qız (Ü.Hacıbəyov - "Leyli və Məcnun", "Əsli və Kərəm", "Koroğlu"), Şahsənəm (Z.Hacıbəyov - "Aşıq Qərib"), Ərəbzəngi (M.Maqomayev - "Şah İsmayıl"), Təravət xanım (S.Ələsgərov - "Bahadır və Sona"), Ana (Ş.Axundova - "Gəlin qayası") və digər partiyalar özünəməxsusluğu ilə seçilir.

**HƏKİM QƏNİ** (Hüseynov Qəni Hüseynqulu oğlunun təxəllüsü, 16.02.1918, Bakı - 10.06.2008, Bakı) - şair, qəzəlxan. Tibb institutunda təhsil almışdır (1936-1941). Hərbi həkim kimi fəaliyyət göstərmiş (1941-1945), ömrünün sonuna kimi Bakıda Respublika xəstəxanasında həkim işləmişdir. Gözəl qəzəlxan kimi tanınmışdır. M.Füzuli, S.Ə.Şirvani, Ə.Cavad, M.Ə.Sabir, H.Cavid, M.Şəhriyar, Ə.Vahid yaradıcılığının, bütün Şərq ədəbiyyatının, o cümlədən, Azərb. əruz vəzni poeziyasının kamil bilicisi idi. Əliağa Vahidlə şəxsi dostluğu olmuşdur. Əruz vəzninin əksər bəhrlərində qəzəllər, heca vəznində əsərlər, dramlar, qoşmalar, aforizmlər və s. yaradıb. M.Füzulinin 120 qəzəlinə təxmis yazmışdır, şairin qəzəllərinin ilk dəfə rus dilinə tərcüməçilərindən biri olmuşdur. Ədəbi məclislərin iştirakçısı olmuş, 1993 ildə "Vahid poeziya evi"nin nəzdində "Vahid" ədəbi məclisini yaratmışdır.

**HƏFTGAH** - diatonik əsas səsdüzümünün yeddinci səsi.

**HƏZƏC** (ərəb: həzicə, həzzəc - mahnı oxumaq, zəngulə vurmaq; xoş avaz ilə oxumaq) - əruz vəzninin ən çox yayılmış bəhrlərindən biri.

**HƏZİN** - muğam şöbəsi. "Şur", "Çahargah", "Mahur", "Nəva" dəstgahlarında istifadə olunur.

**HƏZİZ** (hərfi mənası: aşağı nöqtə) - "Şur" dəstgahında "Nişibi-fəraz" şöbəsindən sonra oxunan guşə.

**HİCAZ** - ***1.*** Orta əsrlərdə Şərq xalqlarının musiqisində 12 əsas muğamdan biri. ***2.*** XIX əsr Azərb. musiqisində "Rast" dəstgahında "Bal-kəbutər" ilə "Şahnaz" arasındakı, "Rəvahi" dəstgahında "Bal-kəbutər" ilə "Bağdadi" arasındakı, "Çahargah" dəstgahında "Mavərənnəhr" ilə "Şahnaz" arasındakı əsas muğam şöbəsi; ***3.*** "Şur" dəstgahında "Səmayi-şəms" zərbi muğamı ilə "Sarənc" arasındakı şöbə.

**HİMN** (yunan: *humnos*) - ***1.*** Mədhiyyə, mədhedici mahnı. ***2.*** Təntənəli mahnı. ***3.*** Dövlət himni - dövlətin birlik simvolu kimi qəbul edilmiş təntənəli marş. Azərb. Respublikasının Dövlət himninin müəllifləri: musiqisi - Üzeyir Hacıbəyov, sözləri - Əhməd Cavad (1918, bərpa, transkripsiya, aranje etmə, bəstəkar Aydın Əzimov, 1989).

**HODİ** - Şərq musiqisində: "Çahargah" dəstgahında muğam şöbəsi.

**HOMOFONİYA** (yunan: *homos* - tən, bərabər + *phone* - səs) - çoxsəsli musiqi quruluşunun bir növüdür; səslərdən biri (adətən, yuxarı səs)

*Şərq hökmdarının sarayında musiqi məclisinin orta əsr miniatür təsviri*







aparıcı səs kimi mühüm əhəmiyyətə malikdir. Digər səslər isə onu müşayiətedici funksiya daşıyır.

**"HÜMAYUN" XALQ ÇALĞI ALƏTLƏRİ ANSAMBLI** - ADF-nın nəzdində fəaliyyət göstərən musiqi kollektivi. 1968 ildə xanəndə Əlibaba Məmmədov tərəfindən yaradılmışdır. Ansamblın konsertmeysteri əvvəlcə tarzən Tofiq Məmmədov olmuş, 1978 ildən İdris Məmmədovdur. Ansamblın müşayiəti ilə bir çox xanəndələr - Məmmədbağır Bağırzadə, Səxavət Məmmədov, Zümrüd Məmmədova, Təhmiraz Şirinov və b. çıxış etmişlər; onların səsyazıları AzTR Fondunda saxlanılır. Hal-hazırda da kollektiv gənc xanəndələri müşayiət edərək, onların sənətə gəlməsinə yardımçı olur.

**HÜMAYUN MƏQAMI** (farsca: "cənnət quşu"; "səadətli") - Azərb. musiqisində yeddi əsas məqamdan biri; nəzəriyyədə səssırasının iki növü göstərilir: Məqamın I növünün səssırası ½ -1½ - ½ ton formullu iki tetraxordun böyük tersiya (orta ton vasitəsi ilə) birləşməsindən əmələ gəlir, səssırası 9 pillədən ibarətdir; IV və VII pillələr məqamın mayəsi hesab olunur (Ü.Hacıbəyov). Məqamın II növünün quruluşu: ½ -1- ½ ton formullu iki tetraxordun yanaşı üsulla (artırılmış sekunda vasitəsi ilə) birləşməsindən əmələ gəlir. Səssırası 8 pillədən ibarətdir: II pillə məqamın mayəsi, IV pillə kadensiyalar üçün səciyyəvi tondur (M.S.İsmayılov). Hümayun məqamının I növünün səssırası (do mayəli hümayun).




**HÜMAYUN MUĞAMI** - ***1.*** Orta əsrlərdə Şərq xalqlarının musiqisindəki 24 əsas muğam şöbələrindən biri. Zaman keçdikcə, inkişaf prosesində təkmilləşərək, muğam dəstgaha çevrilmişdir. İran musiqisində geniş yayılmışdır. XIX əsrdən sonra Azərb. şifahi ənənəli musiqisində muğam dəstgah kimi mühüm yer tutmuşdur və muğam ifaçılığı təcrübəsində iki növü tanınmışdır: "İran Hümayunu", "Qafqaz Hümayunu". ***2.*** Müasir Azərb. musiqisində muğam dəstgahlardan biri. Məcmusu: "Bərdaşt", "Hümayun", "Feli", "Şüştər", "Tərkib", "Üzzal", "Kiçik Məsnəvi", "Hümayuna ayaq" şöbə və guşələrindən ibarətdir. "Hümayun" muğamının musiqi məzmunu qəm-qüssəli, kədərli əhval-ruhiyyə daşıyır, lirik-dramatik xarakterlidir və sanki, iki gəncin iztirablı məhəbbətini, onların vüsal həsrətini təcəssüm etdirir.

**HÜMAYUN MUĞAMININ NOT YAZILARI** - "*Hümayun*" muğamını instrumental şəkildə N.Məmmədov tarzən Əhməd Bakıxanovun ifasından (1962), A.Əsədullayev tarzən Elxan Mirzəfərovun ifasından (2003) nota yazmışdır. Bu muğam əsasında bəstəkarlar müxtəlif janrlı əsərlər, o cümlədən, Tofiq Bakıxanov "Hümayun" simfonik muğamını yaratmışdır.

**HÜSEYN CAVİD** (Hüseyn Abdulla oğlu Rəsizadənin təxəllüsü; 24.10.1882, Naxçıvan ş. - 05.12.1941, İrkutsk vil., Naxçıvanda dəfn olunub) - şair, dramaturq. İlk təhsilini mollaxanada və 1894-1898 illərdə yeni üsullu məktəbdə ("Məktəbi-tərbiyə") almışdır. 1899-1903 illərdə Təbrizdə Talibiyyə mədrəsəsində təhsilini davam etdirmiş, 1909 ildə İstanbul universitetinin ədəbiyyat şöbəsini bitirmişdir. Gəncədə, Tiflisdə, Bakıda müəllimlik etmişdir. Hüseyn Cavid klassik Azərb. ədəbiyyatı ənənələrinin XX əsrdə ən görkəmli davamçısı, Azərb. ədəbiyyatında Azərb. romantizmin banilərindən biri olmuşdur. Hüseyn Cavid sənəti bədii növ, janr və forma cəhətdən zəngindir. O, lirik şeirlərin, lirik-epik, epik poemaların, Azərb. ədəbiyyatında ilk mənzum faciə və dramların ("Şeyx Sənan", "İblis", "Şeyda", "Peyğəmbər", "Topal Teymur", "Azər", "Telli saz", "Kor neyzən" və s.) müəllifidir. Hüseyn Cavid poeziyası yüksək bədii sənətkarlığı, dərin emosionallığı, səmimiliyi ilə seçilir. Şair muğam sənətini çox sevmiş, bəstəkarlarla və xanəndələrlə, xüsusilə, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Seyid Şuşinski və b. musiqiçilərlə dost olmuşdur. Onun şeirləri xanəndələr tərəfindən muğam ifaçılığında istifadə olunur. Bununla yanaşı, şair öz əsərlərində musiqiyə böyük yer vermiş, dram əsərlərindəki remarkalara muğam adlarını daxil edərək, onları səhnədə cərəyan edən hadisələrlə bağlamış və əsərin musiqi tərtibatını şərtləndirmişdir. Məs., "Şeyx Sənan" dramında Kor ərəbin səhnəyə çıxaraq, "Hicaz" muğamı ifa etməsi müəllif tərəfindən qeyd olunmuşdur. "Şeyx Sənan" tamaşasına (1956) musiqi yazan Fikrət Əmirovun "Hicaz" muğamına əsaslanaraq yaratdığı "Kor ərəbin mahnısı" çox məşhurlaşmış, xanəndələrin repertuarına daxil olmuşdur. *www.huseyncavid.com*

**HÜSEYNİ** (ərəbcə: gözəl) - ***1.*** Orta əsrlərdə Şərq xalqlarının klassik musiqisində 12 əsas muğamdan biri; ***2.*** Müasir muğam ifaçılığı təcrübəsində muğam guşəsi. "Rast" və "Mahur-

Hindi" muğam dəstgahlarında "Üşşaq" guşəsi ilə "Vilayəti" şöbəsi arasında ifa olunur.

**HÜSEYNLİ Bayram Xəlil oğlu** (22.03.1923, Gəncə - 1992, Bakı) - musiqişünas, sənətşünaslıq namizədi (1966), professor (1991). ADK-da təhsil almışdır (1946-1951). 1970 ildən ömrünün sonuna kimi ADK-nın "Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi" kafedrasında çalışmış, konservatoriyanın "Xalq musiqisi kabineti"nə rəhbərlik etmişdir. Xalq musiqi nümunələrinin toplanması, sənədləşdirilməsi, yazıya alınması sahəsində mühüm xidmətləri olmuşdur. B.Hüseynli 1972 ildən SSRİ Bəstəkarlar İttifaqı Xalq musiqisi komissiyasının daimi üzvü, 1980 ildən Beynəlxalq folklor festivalları Sovet Komitəsinin YUNESKO tərəfindən təsdiq edilmiş fəxri üzvü olmuşdur. Elmi yaradıcılığında xalq rəqs musiqisinin araşdırılmasına böyük diqqət yetirmiş, yallı, halay kimi rəqs janrlarına aid nümunələri toplayaraq, sistemləşdirmiş, xalq rəqslərinin təsnifatını vermişdir.

**HÜSEYNOV Hacıbaba Hüseynəli oğlu** (19.03.1919, Bakı - 24.10.1993, Bakı) - xanəndə, xalq artisti (1991). H.Hüseynov ruhani ailəsində böyümüşdür. Erkən yaşlarından güclü hafizəsi sayəsində eşitdiyi dini musiqi nümunələrini, muğamları dərindən mənimsəmiş, əruz vəzninin qayda-qanunlarına yiyələnərək, qəzəllər yazmağa başlamışdır. O, əvvəlcə nağaraçı olmuş, virtuoz qaval çalan kimi məşhurlaşmışdır. Tədricən muğam və təsniflər oxumağa başlamışdır. Onun səs diapazonu o qədər də geniş olmasa da, öz tembrinə görə təsirli və məlahətli idi. Xanəndənin zəhmətsevərliyi və sənət axtarışları nəticəsində əldə etdiyi ifaçılıq texnikası,



*Hacıbaba Hüseynov, xanəndə*

poeziya və muğamı yüksək bədii zövqlə uzlaşdırma qabiliyyəti muğam biliciləri və musiqisevərlər tərəfindən yüksək dəyərləndirilmişdir. O, muğam ustadlarının ənənələrindən bəhrələnərək, bu sənətdə öz dəst-xəttini yaratmağa müvəffəq olmuşdur. Uzun illər ADMM-də muğamatdan dərs demiş, xanəndələr yetişdirmişdir. Onun yaratdığı çoxsaylı təsniflər musiqi irsinə daxil olmuş və muğam ifaçılığında geniş yayılmışdır. H.Hüseynovun yaratdığı təsniflər mürəkkəb ritm duyğusu ilə aşılanmış melodiyaları və zövqlə seçilmiş mətnlərinə görə dinləyicilərin yaddaşına hopmuşdur.

**HÜSEYNOV Əlikram Həsən oğlu** (20.04.1926, Bakı - 2006, Bakı) - tarzən, əməkdar artist (2001). ADMM-də təhsil almışdır. Müəllimləri Adil Gəray, Əhməd Bakıxanov olmuşlar. 1947 ildə Praqada keçirilən I Ümumdünya gənclər festivalında "Laureat diplomu" ilə mükafatlandırılır. 1947-1964 illərdə ADF-na dəvət alır, orada Şövkət Ələkbərova, Sara Qədimova, Fatma Mehrəliyeva, Əbülfət Əliyev, Zeynəb Xanlarova, Bülbül, Hüseynağa Hacıbababəyov, Həqiqət Rzayeyeva kimi məşhur sənətkarları tarda müşayiət edir. 1951-1953 illərdə Şuşaya musiqi məktəbinin direktoru və tar üzrə müəllim göndərilir. 1954 ildə ADU-nin filologiya fakültəsinə daxil olur. 1957-2000 illər ərzində ADOBT-da solist kimi çalışır. Bir çox operalarımızda solo partiyaları ifa edib: Ü.Hacıbəyov - "Leyli və Məcnun", "Əsli və Kərəm", "Koroğlu", Z.Hacıbəyov - "Aşıq Qərib", M.Maqomayev - "Şah İsmayıl" və s.

**HÜSEYNOV Rafael Baba oğlu** (12.08.1954, Bakı) - ədəbiyyatşünas, filologiya elmləri doktoru (1992), professor (1993). AMEA-nın müxbir üzvü (2007). AMEA-nın Nizami Gəncəvi ad. Ədəbiyyat Muzeyinin direktorudur. Azərb. Respublikasının Milli Məclisinin deputatıdır. 34 monoqrafiyanın, o cümlədən, "Vaxtdan uca" (1987), "Min ikinci gecə" (1988), "Məhsəti necə varsa" (1989), "Rəfibəylilər" (1996), "Millətin zərrəsi Bakı" (2001) kitablarının müəllifidir. "Min ikinci gecə" kitabında Azərb. mədəniyyətinin görkəmli xadimlərinin, o cümlədən, ayrı-ayrı xanəndələrin yaradıcılıq portretlərini yaratmışdır.

**HÜSEYNOV Şirzad Abasəli oğlu** (14. 05. 1906, Bakı - 10.05.1971, Bakı) - opera müğənnisi, əməkdar artist (1943). Gənc yaşlarından muğamları mənimsəyən Ş.Hüseynov dini mərasimlərdə, daha sonra isə teatr tamaşalarında iştirak edərək, gözəl və gur səsi ilə diqqəti cəlb edir və Ü.Hacıbəyov tərəfindən ADOBT-yə dəvət olunur. Burada o, əvvəl xorda oxuyur, tədriclə, səsinin fərqliliyini, ahəngini, tembrini görüb





ona muğam operalarında müxtəlif rolları həvalə edirlər. Ü.Hacıbəyovun "Leyli və Məcnun" operasında Zeyd, İbn-Səlam, Məcnun rollarını, "Əsli və Kərəm" operasında Kərəm və Sofi obrazlarını bacarıqla yaradır. 1937 ildə "Koroğlu" operasının premyerasının, baxış tamaşasının afişalarında Koroğlu rolunun ifaçısı kimi Bülbüllə yanaşı, Şirzad Hüseynovun da adı yazılır. Sonralar müntəzəm olaraq, opera səhnəsində Ş.Hüseynov Məcnun, Kərəm, Aşıq Qərib və Koroğlu obrazlarını özünəməxsus tərzdə oynamışdır. Bu, Ş.Hüseynovun yaradıcılığındakı özünəməxsus bir məqamdır; Azərb. opera ifaçılığı tarixində heç bir opera müğənnisi Ş.Hüseynov kimi həm Məcnun, həm də Koroğlu (Rövşən) rollarını oynamayıb. Məcnun rolu sırf xanəndələr üçün, Koroğlu isə vokalist müğənnilər üçün nəzərdə tutularaq, ifaçılıq baxımından bir-birindən kəskin fərqlənir. Şirzad Hüseynovun Məcnundan Koroğluya kimi, muğam ifaçılığından vokal ifaçılığına kimi böyük bir yaradıcılıq yolu keçməsi, bu rolları yüksək səviyyədə ifa etməsi onun necə qüdrətli, fenomen sənətkar oluğundan xəbər verir. Sənətinin kamil və püxtələşdiyi bir dövründə, 44 yaşı olarkən, (1950 ildə) Ş.Hüseynov opera teatrından uzaqlaşmış, bir müddət Bakının Maştağa və Yeni Suraxanı kəndlərinin Mədəniyyət Evlərində, İ.Əbilov ad. Klubda bədii rəhbər vəzifəsində çalışmış, bu mədəniyyət ocaqlarında yerli həvəskar aktyorların iştirakı ilə bir sıra muğam operalarını tamaşaya qoymuşdur.

**HÜZZAN** - "Çahargah" dəstgahında "Həzin" ilə "Hodi" şöbələri arasında ifa olunan kiçik muğam guşəsi. ■

*Qədim əlyazmalarda şeir və musiqi məclisinin təsviri*



# X

**XAQANİ ŞİRVANİ** (Əfzələddin İbrahim ibn Əli Nəccar Şirvani; 1126, Şamaxı ş., Məlhəm k. - 1199, Təbriz) - Azərb. şairi, mütəfəkkir. Nizami Gəncəvinin yaşca böyük müasiri olan Xaqani Azərb. ədəbiyyatının ən görkəmli simalarındandır. Xaqaninin ədəbi irsi zəngindir. Fars dilində yazmışdır. "Töhfət ül-İraqeyn" (1157) məsnəvisi Yaxın Şərq ədəbiyyatı tarixində epik poeziyanın ilk nümunəsi hesab olunur. Yaxın və Orta Şərqin bir çox görkəmli şairləri onu özlərinə ustad saymışlar. Xaqaninin qəzəlləri Azərb.dilinə çevrilərək, xanəndələr tərəfindən oxunur, eyni zamanda, bəstəkarlar onun əsərləri əsasında musiqi əsərləri yaratmışlar.

**XALQ MAHNISI** - vokal musiqi janrı. Xalq mahnıları qədim dövrlərdən bəri yaranaraq, şifahi surətdə, yaddaş vasitəsi ilə nəsildən-nəslə keçmiş və təkmilləşərək, dəyişilərək müxtəlif variantlarda müasir dövrə gəlib çatmışdır. Xalq mahnılarının sözlərinin və musiqisinin müəllifləri məlum deyil. Çox zaman bu mahnılar insanların hiss və duyğularının ifadəsi olaraq yaranır. Xalq mahnısı xalqın arzu və düşüncələrini, onun dünyagörüşünü, həyat tərzini və məişətini, əmək prosesini, adət və ənənələrini, mərasimlərini əks etdirir.

Xalq mahnılarının növləri: a) Əmək mahnıları - əkinçiliklə, maldarlıqla, sağıcılıqla, xalçaçılıqla və digər xalq sənət növləri ilə bağlı mahnılar; b) Mərasim mahnıları - mövsüm (təqvim) mərasimləri ilə bağlı mahnılar: yazın gəlməsi ilə qeyd olunan Novruz mərasimində oxunan mahnılar; ailə mərasimləri ilə - toy və matəm mərasimləri ilə bağlı mahnılar; c) Məişət mahnıları - beşik mahnıları: laylay, ninni, oxşama; uşaq mahnıları, lirik mahnılar, yumorlu və satirik mahnılar. d) Tarixi mahnılar - xalq qəhrəmanları və tarixi hadisələrlə bağlı mahnılar.

**XALQ MUSİQİ ALƏTLƏRİ** - xalq tərəfindən yaradılan və xalq məişətində geniş yayılmış musiqi alətləri; həm xalq ifaçılığında, həm professional musiqidə istifadə olunur; həm də musiqi həvəskarları tərəfindən çalınır. Azərb. xalq musiqi alətləri səsləndirmə və quruluşuna görə simli (*tar, saz, ud, qanun, kamança* və s.), nəfəsli (*zurna, balaban, ney, tütək* və s.) və zərb (*nağara, qoşa nağara, dəf, qaval* və s.) alətlərinə bölünür. *bax: alət; musiqi alətləri.*

**XALQ YARADICILIĞI** - *Bax: folklor.*

**XANƏ** (latın: *tactus* - təsir, təmas) - musiqi ölçüsü daxilində bir qüvvətli vurğudan növbəti qüvvətli vurğuya kimi yerləşən və fasiləsiz olaraq təkrarlanan metrik hissə. Xanələr *not yazısında xanə xətti* ilə bir-birindən ayrılır. Xanənin quruluşu *xanə ölçüsü* ilə (*metr*) ifadə olunur. Xanələrin növləri: sadə xanələr - bir qüvvətli vurğuya malikdir. Məs., 2/4, 3/4, 3/8; mürəkkəb xanələr - iki və daha artıq qüvvətli vurğuya malikdir. Məs., 4/4, 6/8 və s. Zərbi-muğam, təsnif, rəng kimi musiqi nümunələrində dəqiq ölçülü xanələrə bölünmə özünü göstərir. Muğam melodiyalarının not yazılarında isə xanə bölgüsündən şərti olaraq istifadə ounur.

**XANƏNDƏ** - bu ad, adətən, muğamat sənətinə kamil surətdə yiyələnmiş nəğməkara aid edilir. Bir qayda olaraq, o, xanəndə - sazəndə dəstəsində (muğam üçlüyündə) həm də dəfçi vəzifəsini daşıyır.

**XANƏNDƏ VƏ SAZƏNDƏ DƏSTƏSİ** - şifahi ənənəli professional musiqinin - muğamın yaradıcıları və ifaçıları olan peşəkar sənətkarlar. Muğamlar xanəndələr və x.ç.a. ifaçıları tərəfindən ifa olunaraq yaradılır. Xanəndə və sazəndələr - x.ç.a. ifaçıları muğam sənətinin ənənələrini sədaqətlə qoruyaraq sonrakı nəsillərə ötürməklə yanaşı, həm də onları inkişaf etdirir, zənginləşdirirlər. *Bax: Muğam, muğam ansamblı, muğam üçlüyü.* Ü.Hacıbəyov yazırdı: "Xanəndə və sazəndə dəstəsi əksər ovqat üç nəfərdən ibarət olar ki, onlardan biri oxuyar, təğənni edər, digəri tar və üçüncüsü isə kamança çalar, bu dəstənin əhli bütün muğam və dəstgahları lazımınca bilməlidirlər; baxüsus xanəndə bir çox şeir, qəzəl və təsniflər hifzində saxlamalıdır. Tarçalan dəxi dəstgahların yollarını yaxşıca bilməlidir ki, xanəndəyə "rəhbər"lik etsin, yəni xanəndə bir guşəni oxuduqdan sonra onun dalınca gələn guşəni çalıb xanəndəni qızışdırsın, kamançaçı isə əksərən tarçalanın dalınca gedir. Xanəndə gözəl səsə malik olub, ustadanə təğənni etməkdən əlavə bir də zərb alətindən olan qavalı da ustalıqla çala bilməyə borcludur ki, rəng və təsnif lərə keçdikdə bəhr tuta bilsin".

**XANLAROVA Zeynəb Yəhya qızı** (28.12.1936, Xızı) - Müğənni (lirik soprano), Azərbaycan xalq artisti (1975), SSRİ xalq artisti (1980). ADMM-ni bitirmiş (1961), Seyid Şuşinskinin tələbəsi olmuşdur. 1961 ildən ADOBT-nın solistidir. Opera teatrının səhnəsində böyük uğurla Leyli,Əsli (Ü. Hacıbəyov - "Leyli və Məcnun",



*Zeynəb Xanlarova, müğənni*

"Əsli və Kərəm") partiyalarını ifa etmişdir. Xanəndə kimi geniş şöhrət qazanmışdır. Z.Xanlarovanın repertuarına muğamlar ("Şahnaz", "Qatar", "Bayatı-Şiraz", "Mahur" və s.), təsniflər ("Şur", "Çahargah", "Dilkəş" təsnifləri), Azərb. xalq mahnıları , bəstəkar mahnıları (Q.Qarayev, F.Əmirov, T.Quliyev, C.Cahangirov, E.Sabitoğlu, Ə.Tağıyev və b.), dünya xalqlarının mahnıları (ərəb, iran, türk, əfqan və s.) daxildir. O, həmçinin bir sıra mahnıların müəllifidir. Z.Xanlarova "Çahargah" muğamını ifa edən ilk qadın xanəndələrdən biridir. Azərb. xalq musiqisinin və bəstəkar mahnılarının populyarlaşmasında onun xidmətləri böyükdür. Onun ifa üslubu üçün yüksək artistizm və temperament səciyyəvidir. O, AzTR-nın Ə.Bakıxanov ad. x.ç.a. ansamblının və 1975 ildən özünün rəhbərlik etdiyi ansamblın solistidir. Z.Xanlarova dünyanın bir çox ölkələrində qastrol səfərlərində olmuş, Azərb. musiqisini ləyaqətlə təmsil etmişdir. Z. Xanlarova Azərb. Respublikası Milli Məclisinin deputatıdır.

**XANMƏMMƏDOV Hacı Dadaş oğlu** (15.06.1918, Dərbənd - 07.04.2005, Bakı) - bəstəkar, dirijor, pedaqoq, əməkdar incəsənət xadimi (1967), xalq artisti (1988), professor (1988). "Şöhrət" ordeni (2000) ilə təltif olunmuşdur. ABİ-nın üzvü olmuşdur. H.Xanməmmədov ADK-da təhsil almış, tar ixtisası üzrə S.Rüstəmovun sinfində oxumuşdur (1932). O, Azərb.







*Hacı Xanməmmədov, bəstəkar*

xalq musiqisi şöbəsinin ilk tələbələrindən biri olmuş, Ü.Hacıbəyovdan dərs almışdır. 1934 ildən AzTR x.ç.a. orkestrinin solisti kimi çalışmağa başlamışdır. 1952 ildə Q.Qarayevin bəstəkarlıq sinfini bitirmişdir. Müxtəlif illərdə Azərb. Dövlət Mahnı və Rəqs Ansamblının (1952-1954), Təbriz Filarmoniyasının (1946) bədii rəhbəri, ADF-nın direktoru (1966-1968) olmuşdur. 1957 ildən ADK-da dərs demiş, x.ç.a. orkestri üzrə dirijor kadrlar yetişdirmişdir. H.Xanməmmədovun yaradıcılığı zəngindir. O, 2 operettanın, instrumental konsertlərin, x.ç.a. ork. üçün süitaların, mahnıların ("Arzuya bax, sevgilim", "Yadıma düşdü", "Güllü", "Ceyran") və s. əsərlərin müəllifidir. H.Xanməmmədov Azərb. musiqi tarixinə ilk tar və simfonik orkestr üçün, kamança və simfonik orkestr üçün konsertlərin yaradıcısı kimi daxil olmuşdur. Onun yazdığı beş tar konserti və bir kamança konseri x.ç.a. ifaçılarının repertuarında görkəmli yer tutaraq, tədris proqramlarının əsasını təşkil edir. Ondan sonra Azərb. və Orta Asiya respublikalarında bir çox bəstəkarlar x.ç.a. üçün konsertlər yaratmışlar. H.Xanməmmədovun konsertləri görkəmli tarzənlərin ifasında səslənmişdir. 2 saylı konsert Rusiya Mərkəzi Televiziyasında və radiosunda dirijor V.Fedoseyevin idarəsi ilə lentə yazılmışdır.

**XARA** - muğam şöbələrindən biri.

**XARƏZMİ** - muğam şöbələrindən biri.

**XARİC** (oxumaq, çalmaq) - pərdəyə dəqiq surətdə düşə bilməmək nəticəsində istənilən səsi lazım gəldiyindən ya zil, ya da bəm oxumaq (çalmaq). Xaric oxumaq çox zaman xanəndənin eşitmə qabiliyyətinin zəif olması ya da avazın düzgün qurulmaması nəticəsində baş verir.

**XARİC SEGAH** - "Segah" muğam ailəsinə daxil olan dəstgahlardan biri; "Segah" muğamının bir variantı olub, "Orta segah"dan kvarta aşağı, "si" mayəli segah məqamında qurulur.

**XARRAT QULUNUN MƏKTƏBİ** - Qarabağ muğam ifaçılığı sənətinin tarixində mühüm rolu olmuş muğam bilicisi Xarrat Qulunun yaratdığı muğam tədrisi ocağı. XIX əsrin ortalarında fəaliyyət göstərən bu məktəb, əsasən, dini məqsədlərə xidmət etmişdir. Xarrat Qulu dini mərasimlərdə (məhərrəmlik təziyəsində) iştirak etmək üçün gözəl səsi olan gəncləri öz məktəbinə cəlb edir, onlara muğamatı və oxumaq qaydalarını öyrədirdi. Lakin inkar olunmaz bir faktdır ki, bu məktəb sonradan muğam tədris edən musiqi məktəblərinin təşkilində nümunə olmuşdur. Xarrat Qulunun musiqi məktəbi dinə xidmət etsə də, Azərb. muğam sənətinin inkişafında mühüm rol oynamış bir sıra ustad sənətkarların yetişməsinə səbəb olmuşdur. Qarabağın ən görkəmli xanəndələri Hacı Hüsü, Məşədi İsi, Dəli İsmayıl, Şahnaz Abbas, Əbdülbaqı Zülalov (Bülbülcan), Keştazlı Həşim, Keçəçioğlu Məhəmməd, Cabbar Qaryağdıoğlu və məşhur tarzən Sadıqcan həmin məktəbin yetirmələridir. Xarrat Qulunun məktəbi Qarabağ muğam ifaçılığının inkişaf tarixində mühüm bir mərhələ oldu. Onun vəfatından sonra Şuşada musiqi məktəbində muğamın tədrisi işini Kor Xəlifə adlı musiqiçi, daha sonra Molla İbrahim davam etdirərək, yeni musiqiçilər nəslini yetişdirdi.

**XAVƏRAN** - muğam şöbəsi. "Rast" dəstgahında "Xocəstə" ilə "Əraq" şöbələri arasında; "Bayatı-Şiraz" dəstgahında "Bayatı-İsfahan" ilə "Üzzal" şöbələri arasında ifa olunur.

*Qədim musiqi ansamblı*



**XƏRƏK** – simli musiqi alətlərində simlərin səslənən hissəsinin uzunluğunu məhdudlaşdıran qurğu. Üst deka ilə simlər arasında yerləşdirilir. Kiçik taxta parçasından ya da mal buynuzu qırığından emal olunur. Xərək simlərin ehtizazını musiqi alətinin çanağına (gövdəsinə) ötürməklə səsi gücləndirir.

**XOCƏSTƏ** (fars: bəxtiyar, uğurlu, mübarək) – muğam şöbəsi. "Rast" və "Mahur-Hindi" dəstgahlarında "Vilayəti" şöbəsindən sonra ifa olunur. Melodik və məqam əsasına (segah) görə, muğam dəstgah kompozisiyasındakı əhəmiyyətinə görə "Şikəsteyi-fars" şöbəsinə oxşardır və muğam dəstgahın inkişaf prosesində rastdan segaha keçidi təmin edir.

**XİTAM** (ərəb) – "Rast" dəstgahında "Ruh-əfza" ilə "Pəncgah" arasında yerləşən muğam guşəsi.

**XOR** (yunan: *choros* – yığıncaq, camaat) – ***1.*** Vokal musiqinin kollektiv ifası. ***2.*** Xor oxuması üçün təşkil edilmiş musiqi kollektivi – xor kapellası. ***3.*** Xor üçün yazılmış musiqi əsəri. Xor üçün zəruri sayılan əlamətlər - ansambl, kök, nüanslardan ibarətdir. Xor səslərinin sayına və keyfiyyətinə görə fərqlənir: qadın xoru, kişi xoru, uşaq xoru, qarışıq xor. Xor dörd səs qrupuna bölünür: soprano, alt, tenor, bas.

Azərb. muğam operalarında xor mühüm əhəmiyyətə malikdir və hadisələrin aparıcı qüvvəsi kimi çıxış edirdi. XX əsrin əvvəllərində Şərq konsertlərində xanəndələrin təsnifləri xorla (unison) ifa etməsi geniş yayılmışdı.

**XORMEYSTER** (xor + alman: *meister* – ustad) – ***1.*** Xor dirijoru. ***2.*** Xorda ifa olunacaq əsərlərin öyrənilməsi prosesinə rəhbərlik edən şəxs.

**XROMATİZM** (yunan: *chroma* – rəng; qədim yunanlar diatonik səssırasının 7 pilləsini göy qurşağındakı 7 rənglə müqayisə edirdilər; yarımtonlar isə əsas rənglərdən yaranan boyalara bənzədilirdi) – eyni adlı, lakin müxtəlif yüksəklikdə yerləşən səslərin ardıcıllaşması, yaxud qovuşdurulması.

**XUN** – tar muğam ifaçılığında çalğı üsulu; tarzənin vurduğu mizrablardan sonra tarın qolunun geriyə dartılması və ya tarın silkələndirilməsi sayəsində səsin titrəyişinin uzadılmasından ibarətdir. Bunun nəticəsində muğam musiqisində gözəl bədii effekt yaradılır, musiqinin təsirliyi artırılır. İnstrumental muğam ifaçılığında bu üsuldan geniş istifadə olunur.

**XUZİ** – Yaxın Şərq xalqları klassik musiqisində 24 əsas muğam şöbələrindən biri. ■

*Üzeyir Hacıbəyov və ilk Azərbaycan xoru*







# İ

**İBN-SİNA** (Əbu Əli Hüseyn ibn Abdullah; latınlaşdırılmış adı Avisenna; 980, Buxara yaxınlığındakı Əfşana k. - 18.06.1037, Həmədan) – alim, filosof, orta əsrlərdə Şərq aləmində ən məşhur həkim. Orta Asiyada və İranda yaşamışdır, saray həkimi və vəzir olmuşdur. İbn-Sina fəlsəfədə Fərabinin davamçısı olmuş, Aristotel təliminə əsaslanaraq, antik fəlsəfi fikrin inkişafında mühüm rol oynamışdır. İbn-Sinanın dövrümüzə qədər 250-dən artıq əsəri çatmışdır: "Kitab ül-işarət və-t-tənbihat" ("Göstərişlər və qeydlər kitabı"), "Danişnamə" ("Bilik kitabı"), "Kitab əl-insaf" ("Ədalət kitabı"), "Əl-qanun fi-t-tib" ("Tibb elminin qanunu"), "Kitab əş-şəfa" ("Müalicə elmi kitabı"), "Kitab ün-nicat" ("Nicat kitabı") əsas əsərləridir. İbn-Sina ərəb və fars dillərində şeirlərin, fəlsəfi alleqorik povestlərin müəllifidir. Əsərlərinin çox bölmələri, o cümlədən, "Musiqi elmi haqqında" əsəri musiqi-nəzəri problemlərə həsr olunub.

**İBRAHİMİ** – Orta əsrlər Şərq musiqisində muğam şöbələrindən biri.

**İBRAHİMOV Mənsum İsrafil oğlu** (01.10.1960, Ağdam r-nu, İmamqulubəyli k.) – xanəndə, xalq artisti (2005). Qarabağ xanəndəlik məktəbinin müasir dövrdə davamçısı. 1982-1987 illərdə ADMM-də professional təhsil alır. Burada xanəndə Vahid Abdullayevdən muğam dəstgahlarını öyrənir. Daha sonra isə təhsilini ADMİU-də davam etdirir (1988-1993). 1985 ildə Üzeyir Hacıbəyovun anadan olmasının 100 illiyi münasibətilə keçirilən muğam müsabiqəsinin qalibi olmuşdur. Müsabiqədən sonra Azərb. görkəmli müğənnisi Şövkət Ələkbərovadan sənətkarlıq dərsləri almışdır. Həmin ildən operaya solist qəbul olunmuşdur. Ü.Hacıbəyovun "Leyli və Məcnun" operasında Məcnun, Z.Hacıbəyovun "Aşıq Qərib" operasında Aşıq Qərib, Ş.Axundovanın "Gəlin qayası" operasında Camal, R.Mustafayevin "Vaqif", V.Adıgözəlovun "Natəvan" operalarında xanəndə rollarında çıxış etmiş və yüksək səviyyəli ifası ilə seçilmişdir. 1994 ildə Məhəmməd Füzulinin 500 illik yubileyi ilə əlaqədar İraqda keçirilən tədbirlərdə Mənsum İbrahimov Məcnun rolunu ifa etmişdir. Səhnədə onun tərəf müqabilləri Nəzakət Teymurova və Aygün Bayramova olmuşlar. M.İbrahimov öz repertuarında bütün muğam-dəstgahlara, təsniflərə və unudulmuş xalq mahnılarına müraciət edir. Xanəndə bir çox xarici ölkələrdə – Almaniya, Hollandiya, Kanada, Fransa və s. – qastrol səfərlərində olmuş, Azərb. musiqi mədəniyyətini layiqincə təmsil etmişdir. Onun Azərb. muğamlarından ibarət diskləri Almaniyada, Kanadada, Hollandiyada buraxılmışdır. M.İbrahimov müəllim kimi də fəaliyyət göstərir, AMK-da və musiqi məktəblərində muğam sənətini gənc xanəndələrə öyrədir. Muğam müsabiqələrinə münsiflər heyətinin üzvü kimi dəvət olunur.

**İBRAHİMOV Nazim Sadiq oğlu** (01.02.1935, Bakı) – naşir, ictimai xadim. Azərb. Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti Komitəsinin sədri (1980-1988), "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyinin baş direktoru (1991-1992) olmuşdur. Bir sıra kitabların müəllifi və tərtibçisidir. "Üzeyir Hacıbəyov ensiklopediyası"nın hazırlanmasının təşəbbüsçüsü, onun elmi-redaksiya şurasının sədridir. Azərb. musiqi mədəniyyətinin təbliğatçısı və maarifçi kimi tanınmışdır. Veb saytın ünvanı: *http://uzeyirbook.musigi-dunya.az*

**İBRAHİMOV Sərvər Rza oğlu** (13.02.1930, Şuşa - 07.05.2002, Bakı) – tarzən, əməkdar artisti (2000). ADMM-də təhsil almışdır (1944-1950). Müəllimləri Əhməd Bakıxanov, Mirzə Mansur olmuşdur. 1946-1955 illərdə ADF-nın solisti, 1955-1964 illərdə Azərb. Dövlət Mahnı və Rəqs Ansamblının solisti olmuşdur. 1978 ildən Azkonsert birliyində çalışmışdır. Bülbül ad. orta ixtisas musiqi məktəbində dərs demişdir. Bir çox görkəmli xanəndələri, o cümlədən, Xan Şuşinskini müşayiət etmişdir.

**İFAÇI** – dirijor, müğənni, pianoçu, skripkaçı və digər musiqi alətlərində çalanlar musiqi əsərlərini ifa edərək, bəstəkarın öz əsəri ilə dinləyicilərə çatdırmaq istədiyi əhval-ruhiyyəni, ideya və düşüncələri əks etdirirlər.

**İFAÇILIQ NƏFƏSİ** – səs aparatının aktiv fəaliyyəti, vəziyyətidir. Əzələlərin sərbəstliyi, ifa olunan əsərə maksimum diqqətlə yanaşma, özünə qarşı tələbkarlıq – yaxşı düşünülmüş məşğələlər nəticəsində əldə edilən cəhətlər – ifaçılıq nəfəsinin yaranmasına səbəb olur.

**İXTİSAS TƏHSİLİ** – mədəniyyətin müxtəlif sa-

hələrində çalışmaq üçün nəzəri biliklər verən və əməli vərdişlər aşılayan xüsusi təhsil.

**İKİHİSSƏLİ FORMA** və ya sadə ikihissəli forma – musiqi əsərinin forması olub tematik məzmununa görə yaxın olan iki hissədən ibarətdir; hər hissə bir perioda bərabərdir. Xalq mahnılarında çox təsadüf olunur.

**İKİNCİ PARTİYA** – çoxsəsli musiqinin ifası zamanı ikinci iştirakçının ifa etdiyi melodik xətt; vokal musiqidə – ikinci səs. Muğam ansamblında kamançanın partiyası.

**İQA** (ərəb) – musiqi səslərinin müəyyən nizam və qaydaya uyğun növbələnməsi. İqa – musiqinin təşəkkülünü təmin edən əsas ifadə vasitələrindən biridir. Melodiyanın ən kiçik ifadəli rüşeymi olan hər bir musiqi cümləsi, hər bir musiqi intonasiyası öz daxilində mütləq müəyyən uyğunluq, mütənasiblik və müntəzəmliyə malik olmalıdır ki, bunu da vaxt, zaman ərzində təmin edən iqadır. Musiqi ləhnlərinin iqa əsasında təşəkkülü istər bilavasitə ən yaxın münasibətdə (*bax: Bəhr*), istərsə də nisbətən uzaq qarşılıqlı nisbətdə təzahür edə bilər. Bunun sayəsində ayrı-ayrı musiqi cümlələri, dövrləri ilə yanaşı, musiqi sənətinin daha möhtəşəm iri formalarının da yaradılması mümkün olur. Vokal musiqidə iqa oxunan şeirin vəzn və bəhrini özündə əks etdirir. Beləliklə, musiqinin iqa üzrə quruluşu musiqi sənətinə xas olan nizam və qaydalara əsaslanır.

**İMAD** (ərəb: dayaq, sütün) – bəm səs, bas səs, aşığı səs. Məşhur ərəb musiqişünası, nəğməkarı və şairi İshaq ibn İbrahim əl-Mosuli (767-849) "Nəğmələr kitabı"nda yazır ki, "bütün başqa (yəni yuxarı) səslər məhz imada istinad etməli və onun üzərində qurularaq inkişaf etməlidir".

**İMİTASİYA** (latın: *imitatio* – təqdil) – bir səsdə verilmiş mövzunun və ya motivin hər hansı digər səsdə təkrarlanması; imitasiya zamanı birinci səs öz hərəkətini davam etdirirək, əks hərəkət əmələ gətirir. İmitasiyanın növləri: *əksharəkətli imitasiya, qeyri-dəqiq imitasiya (tonal imitasiya), sadə imitasiya, dəqiq imitasiya*. İmitasiya polifonik musiqidə tematik materialın ən mühüm inkişaf üsullarından biri, bir çox polifonik növlərin səciyyəvi başlanğıc üsuludur. Vokal-instrumental muğam ifaçılığında tar və kamança partiyalarının, eləcə də, xanəndə və tar partiyalarının melodik xətti arasında müxtəlif növlü imitasiyalı səslənmə özünü göstərir.

**İMPROVİZASİYA** (italyan: *improvisazione*, latın: *improvisus* – qəfildən, gözlənilmədən, qeyri-müntəzir) – musiqi əsərinin eyni vaxtda bəstələnməsi və ifa olunması. Ənənəvi bir havanın ifa olunaraq inkişaf etdirilməsi, zənginləşdirilməsi xalq musiqi yaradıcılığının əsas xüsusiyyətidir. Professional musiqidə improvizasiya sənətinin geniş yayıldığı dövrlərdə bəstəkarlar verilən melodiyanı improvizə edərək, virtuoz xarakterli pyeslər yaratmışlar; bir çox ifaçılar öz konsert proqramlarına improvizasiya nömrələrini daxil etmişlər. Muğam sənətində inprovizasiya əsas rol oynayır.

**İMRANİ Rafiq Hüseyn oğlu** (23.01.1951, Bakı) – kamança ifaçısı. Sənətşünaslıq doktoru (1998). ADMM-də (1968-1972) və ADK-da (1972-1977) təhsil almışdır. ADK-da müəllim kimi fəaliyyət göstərmişdir. AMEA-nın Folklor İnstitutunda çalışır. "Azərbaycan muğam janrının yaranması və inkişaf tarixi" (1994), "Muğam tarixi" (1999) və s. elmi əsərlərin müəllifidir.

**İNSTRUMENTAL ANSAMBL** – yalnız çalğı alətlərindən ibarət ansambl: kvartet, *trio*, müxtəlif tərkibli *xalq çalğı alətləri ansamblı*, zurnaçılar ansamblı, nağaraçalanlar ansamblı musiqi ifaçılığı təcrübəsində istifadə olunur.

**İNSTRUMENTAL MUĞAM** – muğamın ifa tərzi ilə - hər hansı bir alətdə (tar, kamança, ud, qanun, balaban və s.) solo ifası ilə bağlı meydana gəlmiş ifa növü. Muğamın instrumental ifası haqqında məlumatlara orta əsr mənbələrində rast gəlinir; böyük alim – musiqişünas Səfiəddin Urməvinin virtuoz ud ifaçısı olduğu məlumdur. Bununla belə, ifaçılıq təcrübəsində instrumental muğamların tətbiqi XIX əsrdə yaşayıb-yaratmış böyük tarzən, Azərb. tarının yaradıcısı kimi tarixə düşmüş Mirzə Sadıq Əsəd oğlunun adı ilə əlaqələndirilir.

**İNSTRUMENTAL MUSİQİ** – ayrı-ayrı alətlər, müxtəlif tərkibli ansambl və orkestrlər tərəfindən ifa olunan musiqi; musiqi alətlərində çalınması nəzərdə tutulan əsər; İnstrumental musiqi janrlarına aiddir: rəqslər, pyeslər, prelüd, fuqa, sonata, simfoniya, kvartet, kvintet, konsert və s. Azərb. musiqisində instrumental janrlar: dəramədlər, rənglər, diringilər, xalq rəqsləridir; instrumental muğamlar da ifaçılıq təcrübəsində geniş yayılmışdır.

**İNTERVAL** (latın: *intervallum* – məsafə, aralıq; fərq) – musiqidə iki səs arasındakı münasibət; İntervalın aşağı səsi əsas, yuxarı səs – zirvə adlanır. İntervallar əsas və zirvə səslər arasındakı məsafənin kəmiyyət və ya pillə ölçüsünə görə





adlandırılır: prima – 1; sekunda – 2; tersiya – 3; kvarta – 4; kvinta – 5; seksta – 6; septima – 7; oktava – 8; nona – 9; desima – 10; undesima – 11; duodesima – 12; tersdesima – 13; kvartdesima – 14; kvintdesima – 15 pilləyə bərabərdir.

İntervallar keyfiyyət ölçüsünə görə xalis, böyük və ya kiçik, artırılmış və ya əksildilmiş olur. Azərb. musiqi nəzəriyyəsində məqam pillələrinin interval münasibətləri mühüm rol oynayır. Pillələrin funksional vəzifələri mayədən (tonikadan) müəyyən interval məsafəsində yerləşməsinə görə təyin olunur: məs., mayənin alt kvartası, mayənin üsr kvintası, mayənin kvintası və s.

**İNTERLÜDİYA** (latın: *inter* – arasında + *ludus* – çalğı) – musiqi əsərinin hissələri arasında səslənən və bağlayıcı rolu oynayan musiqi parçası və ya kiçik həcmli pyes. Muğamda araçalğı, diringi, rəng.

**İNTERMEDİYA** (latın: *inter* – arasında, *mediae* – məclis) – Teatr tamaşasında, əsasən, fasilə zamanı ifa olunan səhnəcik və ya pyes.

**İNTERMETSO** (italyan: *intermezzo* – fasilə) – keçid əhəmiyyəti daşıyan pyes; adətən, xarakter və quruluşuna görə digər pyeslərin arasında səslənərək, təzadlıq gətirir. Bəzən bəstəkarlar müxtəlif məzmunlu pyesləri də İntermetso adlandırırlar. Muğam dəstgahlarda da bu tip keçid əhəmiyyətli guşələr mövcuddur.

**İNTERPRETASİYA** (latın: *interpretatio* – şərh etmə, izah etmə) – təfsir; əsərin mənasının açıqlanması; Musiqi əsərinin İnterpretasiyası ifaçı tərəfindən onun məzmununun şərh edilməsinə yönəlmiş özünəməxsus ifaçılıq xüsusiyyətləri ilə bağlıdır.

**İNTONASİYA** (latın: *intonare* – ucadan söyləmək, bərkdən danışmaq) – ***1.*** Musiqi əsərinin səsləndirildiyi zaman müstəqil ifadəli əhəmiyyətə malik ən kiçik hissəcik; ***2.*** Musiqinin hərəkət prosesində səslərin yüksəklik münasibəti; ***3.*** Oxuma və çalma zamanı musiqi səslərinin ifaçılıq keyfiyyəti; ***4.*** Musiqi səslərinin düzgün və ya xaric ifası; sabit intonasiya və ya qeyri-sabit intonasiya. **5.** Melodik ibarə - motivə bərabər qurum.

**İNTRODUKSİYA** (latın: *introductio* – giriş, mədxəl) – ***1.*** Giriş, hər hansı bir pyesin xüsusi tempinə və xarakterinə görə seçilən başlanğıc bölməsi; ***2.*** Nisbətən kiçik ölçülü uvertüra; ***3.*** Operada birinci vokal ansambl və ya böyük səhnə.

**İRAQ** – *bax: Əraq.*

**"İRS / NASLEDİYE"** – beynəlxalq Azərb. jurnalı. 1994 ildən Moskvada rus dilində nəşr olunur. Naşirlər İskəndər Xəlilov, Musa İsmayılovdur. Baş redaktor Musa Mərcanlıdır. Jurnalda Azərb. mədəniyyətinin və incəsənətinin müxtəlif sahələrinə həsr olunmuş materiallar, məqalələr öz əksini tapır. "İrs / Naslediye" jurnalının xüsusi buraxılışı (№ 2-3 (20-21), 2006)

*Orta əsrlərin miniatüründə saray musiqiçiləri və rəqqasələrin təsviri*



muğam sənətinə həsr olunmuşdur. Veb saytın ünvanı: *www.irs-az.com*

**İRTİFA** - *1.* Səsin ucalığı, yüksəkliyi. *2.* Melodiyanın ən zil nöqtəsi.

**İSFAHAN (İSFAHANİ)** - Orta əsrlərdə Şərq xalqlarının klassik musiqisinin əsasını təşkil edən 12 muğamdan biri.

**İSAZADƏ Ağa Əhməd İsa oğlu** (18.01.1928, Bakı - 13.02.2007, Bakı) - musiqişünas, sənətşünaslıq doktoru (1989), əməkdar elm xadimi (1991), professor (1992). ADK-nı bitirmişdir (1951). 1960 ildən AMEA Mİİ-də çalışmış, "Xalq musiqisinin tarixi və nəzəriyyəsi" şöbəsinin müdiri olmuşdur. Alimin elmi maraqları XX əsrdə Azərb. musiqi folklorunun sistematik toplanması, nəşri və tarixi, xronoloji ardıcıllıqla Azərb. xalq musiqisinə aid olan monoqrafiya və biblioqrafik materialların aşkar olunması ilə, Azərb. xalq musiqisinin toplanması, tədqiqi, tarixi inkişafı, milli səciyyəvi problemlərinin tədqiqi ilə, XIX əsrin II yarısı və XX əsrin əvvəllərində rus mətbuatında Azərb. musiqi folkloru haqqında məlumatların öyrənilməsi və sistemləşdirilməsi ilə bağlıdır. O, bir çox kitabların, elmi məqalə və məruzələrin müəllifidir. Çap olunmuş elmi əsərləri: "1920-1925 illərdə Azərbaycan musiqi həyatının salnaməsi" (Bakı, 1995), "Görkəmli müğənni". (Bülbülün həyat və yaradıcılığı haqqında (Bakı, 1967), "Xalq mahnıları və rəqs melodiyaları" (N.Məmmədovla birlikdə, I - Bakı, 1975; II - Bakı, 1984). 2000 illərdə Ə. İsazadənin təşəbbüsü və rəhbərliyi altında AMEA-nın Mİİ-nin "Xalq musiqisinin tarixi və nəzəriyyəsi"şöbəsinin əməkdaşları tərəfindən 10 cildlik *"Azərbaycan xalq musiqisinin antologiyası"* tərtib olunmuş və çapa hazırlanmışdır.



*Tükəzban İsmayılova, xanəndə*

**İSMAYILOV Məmmədsaleh Cəmil oğlu** (22.04.1912, Şəki - 10.05.1994, Bakı) - musiqişünas, folklorçu, pedaqoq, əməkdar incəsənət xadimi (1972), sənətşünaslıq namizədi (1964), professor (1983). Azərb. ilk nəzəriyyəçi musiqişünası olmuşdur. Ü.Hacıbəyovun Azərb. xalq musiqisinin əsasları üzrə işini davam etdirmişdir. ADK-da əvvəl skripka sinfində, sonra Ü.Hacıbəyovun məsləhəti ilə həm də tar sinfində təhsil almışdır (1930-1940). II dünya müharibəsi illərində (1941-1945) cəbhədə iştirak etmiş, hərbi dirijor kimi fəaliyyət göstərmişdir. Müharibədən sonra musiqişünaslıq sahəsinə qayıdaraq, tədqiqatlarını davam etdirmişdir. Ü.Hacıbəyovun rəhbərliyi ilə AMEA-nın Mİİ-də və ADK-da çalışmağa başlamışdır. 1946 ildən ADK-da (fasilələrlə) dərs demişdir (1960-1971, "Azərbaycan xalq musiqisi" kafedrasının müdiri, 1980-1991, "Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi" kafedrasının müdiri). 1950 ildə M.İsmayılov Ü.Hacıbəyovun "Azərbaycan xalq musiqisinin əsasları" elmi əsərini Azərb. dilinə tərcümə etmişdir. M.İsmayılovun "Azərbaycan xalq musiqisinin janrları" (1960, təkrar nəşr 1984), "Azərbaycan xalq musiqisinin muğam və məqam nəzəriyyəsinə dair elmi metodik oçerklər" kimi tədqiqat əsərləri və çoxsaylı elmi məqalələri məqam məsələlərinin öyrənilməsinə həsr olunmuş, Ü.Hacıbəyovun sistemləşdirdiyi milli məqam nəzəriyyəsini yeni müddəalarla zənginləşdirmişdir.

**İSMAYILOVA Səkinə Qulu qızı** (24.02.1956, Bakı) - xanəndə, xalq artisti (1995). ADMM-də təhsil almışdır (1974-1978). Muğam müəllimi xanəndə Nəriman Əliyev olmuşdur. 1980 ildən ADOBT-nın solistidir. Bu teatrın səhnəsində Azərb. bəstəkarlarının operalarında baş rollarda çıxış etmiş, Leyli, Əsli (Ü.Hacıbəyov - "Leyli və Məcnun", "Əsli və Kərəm"), Ərəbzəngi (M.Maqomayev - "Şah İsmayıl"), Şahsənəm (Z.Hacıbəyov - "Aşıq Qərib"), Gülbahar (Ş.Axundova -"Gəlin qayası"), Xanəndə qız (R.Mustafayev -"Vaqif") kimi yaddaqalan obrazlar yaratmışdır. Onun iştirakı ilə "Leyli və Məcnun" və "Aşıq Qərib" opera tamaşaları AzTR Fondunda saxlanılır. S.İsmayılova Azərb. ilk dəfə olaraq, qadın ifaçılardan ibarət muğam üçlüyü yaratmış, qadın xanəndələr arasında ilk olaraq, səhnəyə qavalla çıxmışdır. S.İsmayılovanın repertuarında Azərb. muğamları və təsnifləri əsas yer tutur. Onun ifasında "Çahargah", "Hümayun", "Bayatı-Şiraz" muğamlarının səsyazıları qızıl fonda daxil edilmişdir. Xanəndə dünyanın bir çox ölkələrində (Fransa, ABŞ, Yaponiya, İsveçrə, Almaniya, Rusiya və b. ) qastrol səfərlərində olmuş, Azərb. muğamını layiqincə təmsil etmişdir. S.İsmayılova pedaqoji fəaliyyətlə məşğul olur, ADMİU-da dərs deyir. Muğam müsabiqələrində münsiflər heyətinin üzvü kimi iştirak edir.





**İSMAYILOVA Tükəzban Məhərrəm qızı** (21.12.1923, Bakı - 24.03.2008, Bakı) - xanəndə, xalq artisti (1993). "Şöhrət" ordeni (1998) ilə təltif edilmişdir. ADMM-də Hüseynqulu Sarabskinin sinfini bitirmişdir. T.İsmayılova ADF-nin və Azərb. radiosu xorunun solisti olmuşdur. Onun repertuarında Azərb. bəstəkarlarının əsərləri və xalq mahnıları xüsusi yer tutur. Xanəndə, "Qatar", "Heyratı", "Şahnaz", "Segah" muğamlarını məharətlə ifa etmişdir. 1985 ildən İncəsənət Gimnaziyasında muğamdan dərs demişdir.

**"İZAHLI-MONOQRAFİK MUSİQİ LÜĞƏTİ"** - Veb saytı. "Musiqi dünyası" jurnalının yaradıcı qrupu tərəfindən Ə.Bədəlbəylinin 100 illiyi münasibətilə hazırlanmışdır. Sayt üç dildə (azərb., rus, ingilis dillərində) olub, üç bölmədən: "Azərbaycan musiqi terminləri", "Musiqi terminləri", "Xarici sözlər və terminlər"dən ibarətdir. Elektron musiqi lüğətini çap nəşrindən fərqləndirən əsas xüsusiyyət ondan ibarətdir ki, saytın bütün bölmələri bir-birilə qarşılıqlı surətdə bağlıdır; bütün terminlərin izahları aktiv olub, başqa səhifələrə və "Musiqi dünyası"nın digər saytlarına keçidlər vasitəsi ilə hərtərəfli işıqlandırılır, terminlər audio-vizual canlandırılaraq, çoxcəhətli və çoxtəbəqəli izahlarla, notlarla, fotoşəkillərlə, audio-video materiallarla təqdim olunur. Burada 6 minə yaxın termin, 400-ə yaxın audio fraqment, 250-dən artıq video nümunələr, 300-ə yaxın şəkil və not nümunələri, 15 səs mühazirələri verilmişdir. Saytın ünvanı: ***http://lugat.musigi-dunya.az.*** ■

# J

**JANR** (fransız: *genre* - tərz, cins, səpki, üsul) - musiqi əsərinin növü; müxtəlif xüsusiyyətlər (quruluşu, ifaçı tərkibi, xarakteri, ifaçılıq mühiti və s.) əsasında müəyyənləşdirilir. Azərb. şifahi ənənəli professional musiqi janrlarına muğam dəstgah, zərbi muğam, kişik həcmli muğam, təsnif, rəng, bərdaşt, peşrov, dəraməd və b. aiddir. ■

# K

**KABİLİ** - "Mahur-Hindi" kökündə zərbi muğam. "Heyratı" zərb muğamında ifa olunur. (*bax: Heyratı*).

**KADANS** (fransız: *cadence*; italyan: *cadenza*; latın: *cado* - tamamlanıram) - musiqi quruluşunu tamamlayan və ritmik dayanma ilə müşayiət olunan harmonik və ya melodik ifadə. Kadans mühüm tamamlayıcı vasitə olmaqla yanaşı, həm də musiqi əsərinin hissələrə bölünməsi üçün vacib amildir.

**KADENSİYA** (latın: *cadere*; italyan: *cadenza* - sonluq) - *1.* Virtuoz pyesin hər hansı bir hissəsinin improvizə xarakterli geniş sonluğu. Ansambl musiqisində solist tərəfindən müşayiətsiz ifa olunur, kadensiya solistin ifa məharətinin parlaqlığının üzə çıxarılması üçün tətbiq olunur və texniki baxımdan çətin ifa üsullarından ibarətdir. Çox vaxt solo partiyada ən parlaq yeri göstərir, buna görə də, kadensiya, adətən, musiqi kompozisiyasının ən gərgin anında, dönüş nöqtəsində yerləşdirilir (sonata formasında - *kodadan* və ya *reprizadan* əvvəl). Kadensiya daha çox tematik motivlərin sərbəst işlənməsini əks etdirən müxtəlif passajlarla qurulur. XIX əsrin II onilliyinə kimi Kadensiya çox vaxt ifaçılar tərəfindən yazılır və improvizasiya edilirdi. *2.* Melodik və ya harmonik hərəkətin sonluğu, tamamlanması; (*kadansda* olduğu kimi). Muğamda kadensiya vacib amillərdən biridir. Muğam sənətində muğam dəstgahın, onun tərkibindəki hər bir şöbənin və guşənin sonunda mayə pilləsinə qayıdışı təmin edən tamamlayıcı epizod - *ayaq etmə*. Hər bir muğamın özünəməxsus sabit kadensiya ibarələri vardır.

**KAMAN** - *1.* Azərb. zərbli musiqi aləti. Adından da bəlli olduğu kimi, kaman şəklində düzəldilən bu musiqi alətinin yayına kiçik həcmli bir çox müxtəlif zınqırovlar, çax-çax, şax-şax, halqalar və xırda zənglər taxılır. Çox vaxt yallı gedərkən yallıbaşı kamanı bir əlində tutub silkələyərək, həm səsləndirir, həm də rəqsin ölçüsünü oynaya - oynaya qeyd edir. *2.* Yay (italyan: *arco*) - uclarına tarıma çəkilmiş bir çəngə at tükü bərkidilən ağac çubuq. Simli musiqi alətlərində (kamança, skripka, violonçel və s.) səs alınması üçün istifadə olunur.

**KAMANÇA** - Azərb. simli-kamanlı musiqi alə-

ti. Ən qədim musiqi alətlərindən biridir. Nizaminin "Xosrov və Şirin" poemasında adı çəkilmiş, Təbriz miniatür rəsm əsərlərində (Ağamirək İsfahani, Mir Seyid Əli) təsvir olunmuşdur. Kamança, əsasən, qoz ağacından düzəldilir. Kürəşəkilli çanaqdan, dairəvi qol, "aşıq"lar yerləşən kəllə hissədən və "şiş" adlanan dəmir mildən ibarətdir. Çanağın üzü - membranı balıq dərisindən, ya da qaramal ciyərinin pərdəsindən çəkilir, qolu pərdəsizdir. Simləri kaman vasitəsi ilə səsləndirilir. Kaman - uclarına bir çəngə at tükü bağlanmış yayşəkilli ağac çubuqdur. Alətin ümumi uzunluğu 650-900 sm olur. Əvvəllər 1-3 simdən ibarət idi. Hazırda 4 simi var: kiçik oktavada lya, birinci oktavada mi, lya, ikinci oktavada mi köklənir. Diapazonu kiçik oktavanın lya - üçüncü oktavanın mi (bəzən sol) səsləri həcmindədir. İncə, həzin səsi var. Son dərəcə təsirli tembri olan kamançada lirik musiqinin ifası xüsusilə gözəl təsir bağışlayır.

Kamançadan həm solo, həm də ansambl tərkibində musiqi aləti kimi istifadə olunur.

*Kamança - simli musiqi aləti*



Kamança əsas alətlərdən biri kimi sazandalar ansamblının, x.ç.a. ansamblları və orkestrlərinin tərkibinə daxildir. Kamança tar və qaval alətləri ilə birlikdə muğam üçlüyünü əmələ gətirir. İnstrumental muğamların kamançada solo ifası geniş yayılmışdır. Azərb. məşhur kamançaçalanları - Habil Əliyev, Şəfiqə Eyvazova və b.

**KAMANLI ALƏTLƏR** - kamanla çalınan simli alətlər qrupu: skripka, alt, violonçel, kontrabas. Xalq çalğı alətlərindən ən geniş yayılmış kamanla çalınan simli alət - kamançadır.

**KAMERA MUSİQİSİ** (italyan: *camera* - otaq) - *1.* XVI əsrdə kilsə musiqisindən fərqli olan bütün kübar musiqisi. *2.* XVIII əsrin II yarısından etibarən, simfoniya və simfonik musiqinin yaranması və genişlənməsi ilə əlaqədar olaraq, "Kamera musiqisi" termini az sayda ifaçı və məhdud dinləyici dairəsi üçün nəzərdə tutulmuş əsərlərə aid edilir.

**KAMERTON** (alman: *Kammer* - otaq + *ton* - səs) - müəyyən yüksəklikdəki səsi zəif harmonik əlavə səslərlə dəqiq və aydın səsləndirən kiçik portativ (yığcam, yüngül) alət; İfa praktikasında alətin köklənməsi üçün istifadə olunur. A kapella oxuyan zaman (müşayiətsiz) xorun rəhbəri səsin yüksəkliyini Kamerton vasitəsi ilə tapır və xorda oxuyanlara göstərir ("xoru kökləyir").

**KAMİL** - əruz vəzninin klassik Şərq musiqisində çox təsadüf edilən bəhrlərindən biri.

**KAMİL EŞİTMƏ (qabiliyyəti)** (italyan: *absolutus* - mükəmməl) - eşitməklə müəyyən etmə və səsin dəqiq yüksəkliyini özün üçün təyin etmə qabiliyyəti. Kamil eşitmənin mövcudluğu musiqiçi üçün vacib deyil, lakin. adətən, onun professional inkişafına kömək edir.

**KANİFOL** - xüsusi qatran; yayı simlərə toxundurarkən onları ehtizaza gətirmək və rəvan səsləndirmək üçün yayın tellərinə sürtürlər.

**KANTATA** (italyan: *cantata, cantare* - oxumaq) - *1.* XVII əsrin əvvəllərində (İtaliyada) sonatadan fərqli olaraq, oxumaq üçün müşayiətli əsər; *2.* Solist müğənnilər, ork., həmçinin xor üçün yazılmış, bitmiş nömrələrdən ibarət olan və konsert planında ifa olunması nəzərdə tutulan əsər. İfa tərzinə görə Kantata *oratoriyaya* bənzəyir; tədricən Kantata və oratoriyanı müəyyənləşdirən fərqlər yox olmuşdur; böyük həcmli Kantata oratoriyaya yaxınlaşır və adətən, daha bütöv və inkişaflı süjetə malik olan lirik elementlərlə seçilir. C.Cahangirovun "Füzuli" kantatası bu janrda ən məşhur əsərlərdən biridir.





**KANTABİLE** (italyan: *cantare* - oxuma, *cantabile* - axımlı) - melodiyanın, eləcə də, musiqi ifasının axımlılığıdır. "Kantabile" termini çox zaman musiqi əsərinin və ya hissəsinin başlığında tempi göstərən işarə ilə birlikdə yazılır, musiqinin xarakterini müəyyən edir.

**KANTİLENA** (italyan: *cantilena*; - ahəngli oxuma, ahəngdarlıq) - ahəngli, oxunaqlı melodiya.

**KAR** - qədim musiqi kitablarının bəzisində dəstgahlar tərkibinə daxil olan guşələrin adı. Musiqidən bəhs edilən başqa risalələrdə də "kar" sözünə təsadüf edilir. Övliya Çələbi öz *"Səyahətnamə"*sində xanəndə dərviş Ömər Gülşəninin nəğməkarlıq sənətini alqışlayaraq yazır ki, o, segah məqamında nə qədər *"kar, nəqş, səvt, zikr, zəcəl, təsnifat, qollar, şərqiyyat, ərəsəfiyyat"ı* böyük məharətlə ifa edirdi.

**KAPELMEYSTER** (alman: *Kapelmeister*: *Kapelle* - xor, orkestr + *Meister* - ustad, rəhbər) - xorun və ya orkestrın rəhbəri və dirijoru.

**KAPRİÇÇİO** (italyan: *capriccio* - keçici arzu, həvəs) - adətən, virtuoz, şıltaq, qəribə xarakterli, sərbəst quruluşlu pyes. Bəstəkarlar kapriççionun tərkibinə daha çox xalq mahnılarını daxil edirlər. F.Əmirovun "Azərbaycan kapriççiosu" simfonik əsəri çox məşhurdur.

**KAVKABİ** (Mövlana Nəcməddin Kavkabi; Buxara - 1576) - özbək alimi, şair və musiqiçi. Elmin bir çox sahələrinə aid traktatlar yazmışdır. Dövrünün məşhur musiqi alimlərindən biri kimi tanınmış Kavkabi musiqi nəzəriyyəsi, qafiyə və ritmlər barədə geniş məlumat verən əsərlər yazmışdır. O, həm də musiqi əsərlərinə poetik mətnlər qoşmuş, makamlar əsasında melodiyalar bəstələmişdir. Onun əsas əsərlərindən biri "Risaleyi-musiqi" - "Musiqi traktatı" müxtəlif nəzəri və təcrübi məsələlərin şərhinə həsr olunmuşdur.

**KAZIMOV Nazim Kazım oğlu** (04.04.1950, Naxçıvan şəhəri) - tarzən, pedaqoq, əməkdar insəsənət xadimi (2006), pedaqoji elmlər namizədi (1997), professor (2008). 1966-1970 illərdə ADMT-nun "X.ç.a." şöbəsində tar ixtisası üzrə təhsil almışdır. Eyni zamanda, 1967-1973 illərdə A.D.U-nin filologiya fakültəsində oxumuşdur. 1973-1978 illərdə ADK-nın Xalq musiqisi fakültəsində xalq artisti, Dövlət mükafatı laureatı, professor Səid Rüstəmovun sinfində (tar ixtisası üzrə) təhsilini davam etdirmişdir. 1970 illərdən başlayaraq, Bakıda və Əli-Bayramlı şəhər musiqi məktəbində tar müəllimi kimi fəaliyyət göstərmiş, 1984-1992 illərdə həmin məktəbin direktoru olmuşdur. 1992-2001 illərdə Azərb. Respublikası Təhsil Nazirliyində baş mütəxəssis vəzifəsində çalışmışdır. 2001 ildən AMK tərkibində BMK-nin direktorudur. AMK-nın professorudur. "Tar ilə fortepiano üçün pyeslər" məcmuəsinin (1999), "Ümumtəhsil məktəblərində muğamların tədrisi məsələləri" (2000), "Ümumtəhsil məktəblərinin VII sinifləri üçün "Musiqi dərsliyi"nin (2004), metodik tövsiyyələr, proqramlar və elmi-publisistik məqalələrin müəllifidir. "Səid Rüstəmov" (2007), "Pedaqoji təsrübə" (2007), "Musiqi Kolleci - 110" (2008) kitabları çapdan çıxmışdır.

**KEÇƏÇİOĞLU MƏHƏMMƏD** (Məhəmməd Məşədi Xəlil oğlunun təxəllüsü; 1864, Şuşa - 1940, Quba) - xanəndə. Azərb. musiqi mədəniyyətinin inkişafında əhəmiyyətli rol oynamışdır. Xanəndəlik sənətini Şuşada Xarrat Qulunun məktəbində və məşhur xanəndə Məşədi İsidən öyrənmişdir. Qarabağ məktəbinin digər görkəmli nümayəndələri ilə yanaşı, yaradıcılığında

*Keçəçioğlu Məhəmməd, xanəndə*



muğam sənətini inkişaf etdirmiş, Azərb. muğamının şöhrətini hər yana yaymışdır. Onun repertuarında klassik muğamlar, təsnif və xalq mahnıları əsas yer tuturdu. Geniş diapazonlu güclü və zil səsə malik xanəndə bütün muğam-dəstgahları və zərbi muğamları ustalıqla oxuyurdu. Keçəçi oğlu Məhəmməd öz sənətinə tələbkarlıqla yanaşan və öz üzərində daim, yorulmaq bilmədən çalışan xanəndə olmuşdur. Oxuduğu "Zəmin-xarə", "Hümayun" kimi muğamlarla o, dinləyiciləri ələ almağı və öz bənzərsiz ifası ilə onları valeh etməyi bacarırdı. Keçəçi oğlu Məhəmməd klassik muğamları, həmçinin, "Nəva", "Mahur" və "Bayatı-Qacar" muğamını orijinal bir şəkildə, özünəməxsus çəhətlərlə ifa edirdi. Bununla yanaşı, o, xüsusən zərbi-muğamların təbliğatçısı kimi tanınmışdır. 1904 ildən Bakıda fəaliyyət göstərmiş, Qurban Primov, Məşədi Zeynal kimi tarzənlərlə birgə musiqi məclislərində və toylarda, Şərq konsertlərində çıxış etmişdir. Onun ifasında bir sıra muğam, təsnif və xalq mahnıları 1912 ildə "Sport-rekord" (Varşava), 1914 ildə "Ekstrafon" (Kiyev) şirkətləri tərəfindən qrammofon valına yazılmışdır. Burada Keçəçioğlu Məhəmməd "Rahab", "Şahnaz", "Dəşti", "Çoban bayatı" muğamlarını, "Heyratı", "Qarabağ şikəstəsi" zərbi muğamlarını ifa etmiş, eyni zamanda, o, "Getdi-gəlmədi", "Gülə-gülə", "Xuraman", "Axşam oldu" təsniflərini də vala yazdırmışdır. Xüsusilə, onun "Leyli" təsnifi dillər əzbəri olmuşdur. Xanəndə Şərq konsertlərində çıxışları ilə də xalqın məhəbbətini qazanmışdır. Xüsusilə onun Cabbar Qaryağdıoğlu ilə birgə Füzulinin "Leyli və Məcnun" poemasından səhnələri duet şəklində oxumaları çox məşhur idi. Onun qastrol səfərləri də qeyd olunmalıdır. Xanəndəliklə yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. Keçəçi oğlu Məhəmməd bütün qüvvəsini və biliyini musiqi mədəniyyətimizin inkişafına həsr etmişdir. 1926 ildə Üzeyir Hacıbəyovun təşəbbüsü ilə Keçəçioğlu Məhəmməd ADK-ya dəvət edilir. O, burada Azərb. bir çox tanınmış xanəndələrini yetişdirmişdir.

**KEREŞMƏ** (fars: göz vurmaq, nazlanmaq) - "Mahur" və "Çahargah" dəstgahlarının başlanğıcında ifa olunan bir guşə.

**KEŞİŞ OĞLU** - **1.** Ənənəvi aşıq havası; **2.** Zərbi muğamlarda ("Maani-Osmanlı") melodiyaların pərdə-pərdə zilə qaldırılması ilə əlaqədar olaraq ifa olunan guşə.

**KEY-XOSRAVANI** - Şərq musiqisndə muğam şöbələrindən biri.

**KƏLƏNTƏRLİ Haşım Səməd oğlu** (1899, Lənkəran - 24.05.1984, Bakı) - xanəndə, əməkdar artist (1943). ADOBT (1924-1933) və ADF-nın (1949-1953) solisti, Azərb. Dövlət Dram Teatrının (1933-1949) aktyor-müğənnisi olmuşdur. "Leyli və Məcnun" (Ü.Hacıbəyov), "Qaçaq Nəbi" (S.Rüstəmov), "Od gəlini" (C.Cabbarlı), "Fərhad və Şirin" (S.Vurğun) və s. tamaşalarda çıxış etmişdir. Muğam, təsnif, xalq mahnılarının mahir ifaçısı kimi tanınmışdır. Onun dram tamaşalarında oxuduğu bir çox mahnılar, o cümlədən, Hüseyn Cavidin "Şeyx Sənan" dramına yazdığı "Kor ərəbin mahnısı" xanəndələrin repertuarına daxil olmuşdur. H.Kələntərli "Segah" muğamı-



*Kərbəlayı Lətif, qarmon ifaçısı*

nın mahir ifaçısı kimi yadda qalmışdır. O, "Segah" muğamını yeni tonallıqda - sol segah tonallığında oxuyaraq muğamın yeni variantını yaratmışdır. Bu variant "Haşım Segah" adı ilə muğam ifaçılığı təcrübəsinə daxil olmuşdur.

**KƏLƏNTƏRLİ Yavər Əli qızı** (Zamanova; 26.03.1902, Şamaxı - 05.02.1979, Bakı) - xanəndə, əməkdar artist (1939), AzTR-nin (1932-1937), ADOBT-nın (1937-1941; 1945-1951) solisti olmuşdur. Y.Kələntərli muğam, təsnif və xalq mahnılarının mahir ifaçısı kimi tanınmışdır. O, muğam operalarında bir çox rollarda məharətlə çıxış etmişdir: Leyli və Leylinin anası (Ü.Hacıbəyov - "Leyli və Məcnun"), Əsli (Ü.Hacıbəyov - "Əsli və Kərəm"), Ərəbzəngi (M.Maqomayev - "Şah İsmayıl"). Y.Kələntərli gözəl, yanıqlı səsə malik bir xanəndə olub, improvizasiya ustalığı ilə fərqlənmişdir.

**KƏLLƏ** - simli musiqi alətlərinin (tar, saz, kamança) başı.

**KƏMİNƏ FATMA XANIM** (1841, Şuşa - 1898, Şuşa) - Azərb. şairəsi. Bilikli olduğuna görə "Mirzə Fatma xanım" adı ilə tanınmışdır. Azərb. və fars dillərində şeirlər yazmışdır. Xurşid Banu Natəvanın başçılıq etdiyi "Məclisi-üns", Mir Möhsün Nəvvabın "Məclisi-fəramuşan" ədəbi-musiqili məclislərinin fəal iştirakçısı olmuşdur.

**KƏRBƏLAYI LƏTİF Hüseyn oğlu** (1876, Şuşa - 06.12.1944, Bərdə) - qarmonçalan. Musiqi ifaçılığını atasından öyrənmişdir. Kərbəlayı Lətif uzun müddət Qarabağ məclislərində məşhur xanəndələri (Keçəçioğlu Məhəmməd və b.) müşayiət etmişdir. "Ekstrafon" (Kiyev) şirkəti onun ifasında "Şur", "Rast", "Segah", "Bayatı-Qacar" və s. muğamları, Azərb. xalq rəqslərini qrammofon valına yazmışdır.

**KƏRƏMİ** - **1.** Ənənəvi aşıq havası; "Əsli və Kərəm" dastanı ilə bağlıdır. **2.** Xanəndəlik təcrübəsində zərbi muğam kimi ifa olunur ("Bayatı-Qacar" və ya "Segah" kökündə).

**KƏRİM-ABADİ** – "Çahargah" muğamında "Mənsuriyyə"dən əvvəldə ifa olunan şöbələrdən biri.

**KƏRİMİ Siyavuş Əşrəf oğlu** (09.11.1954, Bakı) - tarzən, bəstəkar, ictimai xadim, xalq artisti (2005), professor (2007). 1961-1972 illərdə Bülbül ad. orta ixtisas musiqi məktəbində təhsil almış və görkəmli tarzən Əhsən Dadaşovun tar sinfini bitirmişdir. 1972-1977 illərdə ADK-da təhsilini davam etdirmişdir. 1979 ildən başlayaraq, Rəşid Behbudov ad. Azərb. Dövlət Mahnı Teatrının orkestrində solist musiqiçi, Azkonsertin "Aşıqlar" ansamblında bədii rəhbər, AzTR estrada simfonik ork. bədii rəhbər, "Cəngi" EFA musiqi rəhbəri vəzifəsində, C.Cabbarlı ad. Azər.film Kinostudiyasının Rafiq Babayev ad. musiqi studiyasında bədii rəhbər vəzifəsində çalışmışdır. 2001 ildən AMK-nın rektorudur. AMK-nın "Milli musiqinin tarixi və nəzəriyyəsi" kafedrasının professorudur. O, bir çox beynəlxalq miqyaslı musiqi lahiyələrinin müəllifidir. Azərb.-Norveç vokal musiqi lahiyəsi (2001), Azərb. və Cənubi Amerika musiqiçiləri ilə müştərək yaratdıqları "Salasm hola" Beynəlxalq lahiyəsi (2002) onun rəhbərliyi ilə uğurla həyata keçirilmişdir. Siyavuş Kərimi "Sarı gəlin", "Sonuncu döyüş", "Əlvida cənub şəhərim", "Girov" və s. bədii filmlərə, 9 seriyadan ibarət "Heydər Əliyev" televiziya filminə, 2 animasiya filminə və 10-dan artıq teatr tamaşasına musiqi bəstələmişdir. "Hamlet" əsərinin musiqisinə görə "Qızıl Dərviş" mükafatına (2003) layiq görülmüşdür. S.Kərimi milli musiqinin inkişafı, tədrisi, tədqiqi və təbliği sahəsində mühüm əhəmiyyətli işlər görür. Onun rəhbərliyi ilə AMK-nın professor-müəllim heyəti bu istiqamətlərdə geniş fəaliyyət göstərirlər. O, "Saz məktəbi" dərsliyinin həmmüəllifi (A.Quliyev, M.Əliyevlə birlikdə), iki cilddən ibarət "Azər-



*Siyavuş Kərimi, tarzən, bəstəkar*

baycan xalq mahnıları" məcmuəsinin tərtibçisidir. "Muğam ensiklopediyası"nın "Azərbaycan xanəndələri" CD toplusunda "Gənc xanəndələr" bölməsinin səsyazısına rəhbərlik etmişdir.

**KƏRİM (Kərimov) Məcnun Təbriz oğlu** (01.09.1945, Zəngəzur r-nu, Şəki k.) - tarzən, əməkdar artist (2007), sənətşünaslıq namizədi (1995). 1972 ildə ADK-nın "x.ç.a." şöbəsini bitirib. 1991 ildən BMA-nın "Qədim musiqi alətlərinin bərpası və təkmilləşdirilməsi" elmi laboratoriyasının müdiri vəzifəsində çalışır. 1996 ildən fəaliyyət göstərən "Qədim musiqi alətləri" Dövlət ansamblının yaradıcısı və bədii rəhbəridir.

**KƏRİMOV Lətif Hüseyn oğlu** (17.11.1906, Şuşa - 08.09.1991, Bakı) - Azərb. dekorativ sənət ustası, ornamentçi rəssam, xalçaşünas, xalq rəssamı (1950), əməkdar incəsənət xadimi (1955), SSRİ Dövlət mükafatı laureatı (1950), sənətşü-

naslıq namizədi (1950). Kərimov xüsusi rəssamlıq təhsili almışdır. 1930 ildən "Azərxalça" birliyinin sədri olmuşdur. 1945 ildən AMEA-nın MII-nin Dekorativ Tətbiqi Sənət Şöbəsinin müdiri olmuşdur. Onun eskizləri və başçılığı ilə toxunmuş "Əfşan" (1932), "Qonaqkənd" (1939), "Şuşa" (1953), "Qarabağ" (1960), "İslimi" (1964), "Şəbi-hicran" (1975) və s. çeşidli xalçalar, "Füzuli" (1972), "Nəsimi" (1974), "Səfiəddin Urməvi" (1975) və s. bu kimi görkəmli yazıçı və şairlərə, dövlət və elm xadimlərinə həsr olunmuş portret xalçalar ornamental bəzəyi, rəsmlərinin zərif liyi və ifadəli uyarlığı, kompozisiya bitkinliyi, zəngin koloritinə görə xalçaçılıq sənətinin qiymətli nümunələridir. Əsərləri dünyanın bir çox ölkələrində nümayiş etdirilmişdir. "Azərbaycan xalçası" (1961) adlı əsərində 1200-dən artıq Azərb. xalça ornament elementi ABŞ-da, Avropa və Şərq ölkələrində maraq doğurmuşdur.

**KƏRKUKİ** - Azərb. klassik musiqisində "Rast", "Çahargah" və "Nəva" dəstgahlarının tərkibində olan əsas şöbələrdən biri.

**KƏSMƏ ŞİKƏSTƏ** - Azərb. zərbi muğamı. Adı onun ifaçılıq xüsusiyyətləri ilə bağlıdır. Musiqi ibarələri, bir növ qırıq-qırıq, kəsik-kəsik, fasilələrlə ifa olunduğuna görə "kəsmə" adlandırılmışdır. "Kəsmə şikəstəyə" bəzən "Bakı şikəstəsi" də deyirlər. Segah məqamına əsaslanır. Musiqisi lirik xarakterə malikdir. Poetik mətni xalq bayatılarından ibarətdir. Bu zərbi muğam qadın xanəndələrinin yaradıcılığında xüsusi yer tutur.

R.Zöhrabovun "Zərbi muğamlar" (Bakı, 2004) kitabında xanəndə Fatma Mehrəliyevanın və sazəndə ansamblının ifasından bu zərbi muğamın vokal-instrumental (partitura) şəklində not yazısı verilmişdir. Bu not yazısı "Azərbaycan xalq musiqisinin antologiyası"na daxil edilmişdir.

**KİÇİK MƏSNƏVİ** - *bax: Məsnəvi.*

**KİN-İRƏC** - *klassik ədəbiyyatda*: muğam ləhnlərindən biri. Qədim İranın əfsanəvi şahlarından olan Firidunun oğlu İrəcin qəzəbini və qəlbində bəslədiyi ədavət duyğusunu oxşayan tərənə nəzərdə tutulur. Mahnının məzmunu belədir: qardaşları taxt-taca sahib olmaq məqsədi ilə İrəci xaincəsinə öldürürlər. Bu zülm və haqsızlıq sonradan İran ilə Turan arasında əsrlər boyu davam edən ədavət və düşmənçilik ilə nəticələnir.

Kin-İrəc Firdovsinin "Şahnamə"sində və Nizaminin bir çox əsərlərində dəfələrlə yad edilir.

**KİN-SƏYAVUŞ** - *klassik ədəbiyyatda*: qədim muğam ləhnlərindən biri. Kəyan tacdarı Keykavusun oğlu Səyavuşun cəngavərliyini, mərdliyini, igidliyini və nəhayət, onun uğursuz taleyini təsvir edən böyük epik mahnı.

**"KİTABÜL-ƏDVAR"** - *bax: Səfiəddin Urməvi.*

**KLARNET** (italyan: *clarinetto*) - ağac nəfəs aləti; silindr şəkilli boru formasındadır, birdilçəkli olub, klapanlar sistemi ilə təchiz olunmuşdur. Dörd müxtəlif növü var: böyük Klarnet, kiçik Klarnet, bas Klarnet, bassethorn (alt Klarnet). Simfonik ork. tərkibinə daxil olan əsas alətlərdən biridir.



*Klarnet - nəfəsli musiqi aləti*

**KLASSİK** (latın: *classicus* - ən nümunəvi) - məhdud mənada: antik yazıçılara verilən ad. Geniş mənada: ümumxalq şöhrəti, nüfuzu qazanmış, mədəniyyət və elm xəzinəsini zənginləşdirən əsərlər yaratmış yazıçı, rəssam, musiqiçi, alim. Bu söz bədii əsərlərə də şamil edilir.

**KLAVİR** (alman: *klavier*) - **1.** Simli klavişli alətlərin ümumi adıdır: klavikord, klavesin, piano. **2.** Musiqili səhnə əsərinin səs ilə fortepiano üçün köçürülməsidir.

Ork. və kamera əsərlərinin də fortepiano üçün köçürmələri "klavir" adlanır.

**KLAVİATURA** (alman: *Klaviatur*, latın: *clavis* - açar ) - klavişli musiqi alətlərində ağ və qara







dillərin məcmusu. Klaviaturada klavişlər soldan sağa, aşağıdan yuxarıya doğru yüksələn səssırası ilə düzülür.

**KLAVİŞ, DİL** (latın: *clavis* - açar) - bəzi musiqi alətlərində xüsusi qurğu (fil sümüyündən və ya plastmasdan hazırlanır); Klavişə zərblə toxunarkən çəkic bərkidilmiş mexanizm hərəkətə gələrək simlərə vurulur: məs., fortepianoda olduğu kimi; orqanda və digər körüklü alətlərdə isə trubaya hava axınının yolu açılır.

**KODA** (italyan: *coda* - sonluq) - musiqi əsərinin sonunda istifadə olunan əlavə yekunləşdırıcı epizod. Kodada, adətən, əsas tonallıq möhkəmləndirilir və burada əsas mövzunun elementlərindən istifadə olunur. Muğam dəstgahın və ya böyük həcmli, geniş inkişaflı muğam şöbələrinin sonunda mayəyə qayıdışı təmin edən hissə koda əhəmiyyətinə malikdir.

**KOLORATURA** (italyan: *coloratura* - bəzək) - Musiqidə melodiyanı zənginləşdirən virtuoz passajlar, trel və b. ritmik xırdalıqlara malik melodik naxışlardır. Opera əsərlərində ən yüksək registrli qadın səslərinin partiyasında tətbiq olunur: koloratur soprano.

**KOMPOZİSİYA** (latın: *compositio* - tərtib, əsər) - **1.** Musiqi əsərinin bəstələnməsi prosesi, musiqi yaradıcılığı. **2.** Bitmiş musiqi əsəri. **3.** Musiqi əsərinin quruluşu, onun hissələrinin yerləşdirilməsi və əlaqəsi; *musiqi forması.*

**KOMMA** (yunan: hissə, parça) - 1/8 bütöv tonundan aşağı interval, yüksəkliynə görə iki yaxın səs arasındakı fərq, ya bir kökdən qurulmuş başqa cür həll olunan intervallar, yaxud da eyniadlı müxtəlif köklərdən qurulmuş intervallar.

**KONSERT** - **1.** Artistin əvvəlcədən tərtib olunmuş müəyyən proqram əsasında kütlə qarşısında çıxışı. Musiqili, ədəbi, estrada konserti, muğam konsertləri kimi növləri var. **2.** (alman: *konzert*; latın: *concerto*) - bir, bəzən 2-3 solo alət ilə ork. üçün yazılmış virtuoz xarakterli musiqi əsəri. Konsert üçün solist ilə ork. yarışı, qarşılaşdırılması, solo partiyanın parlaqlığı, virtuozluğu səciyyəvidir. Instrumental konsertin ilk nümunələri XVII əsrin sonunda İtaliyada meydana gəlmişdir. Fortepiano, skripka, violonçel, fleyta, klarnet və s. alətlər üçün konsertlərlə yanaşı, Azərb. musiqisində tar (H.Xanməmmədov, S.Ələsgərov, T.Bakıxanov, N.Məmmədov), kamança (Z.Bağırov, H.Xanməmmədov, R.Mirişli) kimi milli musiqi alətləri üçün də konsertlər meydana gəlmişdir. Eyni zamanda, x.ç.a. ork. ilə fortepiano (F.Əmirov və A.Babayev), tar (S.Rüstəmov) üçün konsertlər də yaranmışdır.

**KONSERTMEYSTER** (alman: *Konzertmeister*) - **1.** Simfonik ork. solo skripka çalan, bəzən məşq zamanı dirijoru əvəz edən birinci skripka. X.ç.a. ork. eyni vəzifəni birinci tar yerinə yetirir. **2.** Ork. simli qruplardan birinin əsas ifaçısı. Ork. hər hansı alətlər qrupunun başçısı olub, həmin qrupun musiqiçilərini öz ardınca apararaq, onlara ifaçılıq üsullarını göstərən musiqiçi konsertmeysterdir. Məs., x.ç.a. ork. birinci tarların, kamança qrupunun konsertmeysteri. Məsuliyyətli solo epizodlarının ifası da onlara tapşırılır. Birinci tarların konsertmeysteri, eyni zamanda, bütün ork. konsertmeysteri hesab olunur. **3.** İfaçıları konsertdə müşayiət edən və partiyaları öyrənməkdə onlara kömək göstərən, onlarla məşq edən və konsertlərdə çıxış edən pianoçuya da konsertmeyster deyirlər.

**KONSERVATORİYA** (italyan: *conservatorio* - ilk mənası: - sığınacaq; latın: *conservo* - qoruyuram, saxlayıram) - musiqi sənəti sahəsində mütəxəssis (ifaçı, bəstəkar, musiqişünas) hazırlayan ali musiqi təhsili müəssisəsi. XVI əsrdə İtaliyada yaranmış, sonradan Avropa və Asiya ölkələrində konservatoriyalar meydana gəlmişdir. *Bax: ADK (indiki BMA), AMK.*

**KONSONANS** (fransız: *consonanse* - həmahənglik) - bir-birinə uyuşan səslərin eyni vaxtda səslənməsi, həmahəngliyidir.Konsonansa - prima, böyük və kiçik tersiya, kvarta, kvinta, seksta intervalları, eləcə də, bu intervallardan ibarət dissonanssız akkordlar aiddir.

**KONTRABAS** - Tembrinə görə ən qalın səsli simli-kamanlı alət. Simfonik ork. simli alətlər qrupunda mühüm yer tutur. Diapazonu kiçik oktavanın mi səsindən birinci oktavanın sol səsinə kimidir. Azərb. x.ç.a. ork. daxil edilir.

**KOOS (KUUS)** - ən qədim Azərb. zərbli musiqi aləti. Koos haqqında olan rəvayətlərdə deyilir ki, koos o qədər böyük həcmli musiqi aləti idi ki, onu iki cüt öküzün çəkib apardığı xüsusi arabada yerləşdirir və iki nəfər tabilçinin iri çomaqlarla vuraraq səsləndirilməsi mümkün olurdu. Koosun səsi o qədər güclü idi ki, vuruş meydanında çalındığı zaman düşmən lərzəyə gəlirdi. Hazırda raspublikamızın bəzi rayonlarında ağac ilə çalınan iri nağaralar da bəzən "koos" adlandırılır.



*Xalq çalğı alətləri ansamblı. Birinci sırada qarmon ifaçısı Kor Əhəd*

**KOR ƏHƏD** (Əliyev Əhəd Fərzəli oğlu; 1887, Bakı - 17.02.1942, Bakı) - qarmonçalan. Mahir musiqiçi kimi şöhrət qazanmışdır. Uşaqlıqdan gözləri tutulduğuna görə xalq arasında "Kor Əhəd" adı ilə tanınmışdır. Onun ifasında "Segah" və "Çahargah" muğamları 1938 ildə qrammofon valına yazılmışdır. Hazırda çalınan qarmonun xromatik səsdüzümünü Əhəd Əliyev Azərb. xalq musiqisinə uyğunlaşdırmışdır. Bir çox Azərb. qarmonçalanları onun yetirmələridir.

**KÖK** - ***1.*** səs sistemi pillələrinin tezliyə (ucalığına) görə nisbəti; riyazi kəmiyyətlərlə göstərilir. 12 səsli bərabər temperasiyalı kök qəbul olunmuşdur. ***2.*** Səs ucalığı etalonu olan kamertonun köklənmə tezliyi. Səs ucalığı 1-ci oktavanın lya səsinə ($a^1$) müvafiq götürülür. ***3.*** Musiqi alətlərində geniş mənada səsdüzümü, dar mənada açıq simlərin interval nisbəti, nəfəsli musiqi alətlərinin qəbul olunmuş not yazısı ilə real səslənməsinin ucalıq nisbəti (məs., si bemol köklü klarnetdə si bemol səsi yazılışından bir ton aşağı səslənir) kimi başa düşülür. ***4.*** Azərb. musiqisində muğamların əsasını təşkil edən məqamlar müəyyən kökdə verilir. Başqa sözlə desək, hər bir muğam özünəməxsus kökdə ifa olunur.

**KÖRÜK** - orqan, qarmon kimi musiqi alətlərinin bir hissəsi olub, səsin əmələ gəlməsində mühüm rol oynayır.

**KRAÇKOVSKİ İqnati Yulianoviç** (16.03.1883, Vilnüs - 24.01.1951, Leninqrad) - ərəbşünas, rus ərəbşünaslıq məktəbinin yaradıcılarından biri, akademik (1921). Peterburq Universitetinin Şərq dilləri fakültəsini bitirmişdir (1905). 1918 ildən keçmiş SSRİ-nin bir sıra ali məktəblərinin, xarici akademiyaların və şərqşünaslıq cəmiyyətlərinin üzvü olmuşdur. 450-dən artıq elmi əsərin müəllifidir. "Qurani-Kərim"i rus dilinə tərcümə etmişdir. Kraçkovski Nizaminin "Leyli və Məcnun" əsərinin mənbələrini araşdırmış, həmin əfsanənin islamdan əvvəl ərəblər arasında dolaşdığını göstərmişdir.

**KRİVONOSOV Vladimir Mixayloviç** (1904-1941) - rus folklorçusu, bəstəkar. Q.E.Konyusun, R.M.Qlierin (musiqi nəzəriyyəsi və bəstəkarlıq) tələbəsi olmuşdur. Çuvaş respublikasının ilk





musiqili komediyasının müəllifidir: "Sevinc" (1965, Çeboksarı). Bundan əlavə kantatalar, süitalar, üverturalar, dram tamaşalarına musiqinin müəllifidir. Krivonosov 1930 illərdə Bakıda folklor ekspedisiyasında olmuş, bir çox xalq mahnı və rəqslərini, aşıq havalarını, muğam şöbələrini nota köçürmüşdür. Həmin not yazılarından bir hissəsi V.M.Belyayevin "SSRİ xalqlarının musiqi tarixinə dair oçerklər" kitabında çap olunmuşdur. Notların əlyazmaları və ekspedisiya haqqında qeydlər AMEA-nın MİI-nin Arxivində saxlanılır.

**KRIMSKİ Aqafangel Yefimoviç** (15.01.1871, Vladimir-Volinski - 25.01.1942, Kustanay) - Ukrayna yazıçısı, şərqşünas, akademik (1918). 1892 ildə Moskvadakı Lazarev Şərq Dilləri İnstitutunu, 1896 ildə Moskva Universtitetinin tarix fakültəsini bitirmişdir. Şərq xalqlarının tarix və mədəniyyətinə dair bir sıra əsərlərin müəllifidir. Şərq tarixini ümumdünya tarixinin bir hissəsi kimi tədqiq edən ilk rus şərqşünasıdır. Azərbaycanşünaslığa dair qiymətli tarixi və filoloji əsərlər yazmışdır: "Nizami və müasirləri", "Şimali, yaxud Qafqaz Azərbaycanı (klassik Albaniya) tarixindən səhifələr", "Şəki" və s.

**KUPÜR** (fransız: *coupure* - qısaltma, ixtisar etmə) - musiqi əsərində (opera, balet) ifaçı - dirijor, rejissor tərəfindən edilən ixtisardır. Kupür əsərin musiqi dramaturgiyasına xələl gətirmədən edilir.

*Orta əsrlərin miniatüründə sufi məclisinin təsviri*



**KULMİNASİYA** (latın: *culmen* - zirvə) - musiqi əsərində və ya onun nisbətən tamamlanmış hissəsində inkişafın yüksək nöqtəsi, zirvəsidir. Kulminasiyanın yaranmasında bütün musiqi ifadə vasitələri iştirak edir və bu, dinamikanın, ştrixin dəyişməsi, diapazonun yüksəlməsi və s. vasitələrlə əldə edilir. Muğam dəstgahlarda musiqi tədricən inkişaf etdirilərək kulminasiyaya - zilə çatdırılır.

**KÜRDİ** - muğam guşəsi. "Bayatı-kürd" muğamı kökündə olduğuna görə "kürdi" adlandırılmışdır.

**KÜRD-OVŞARI** - "Şur" dəstgahı kökündə zərbi muğam. Fikrət Əmirovun bəstələdiyi eyni adlı məşhur simfonik muğamda "Ovşarı" zərbi muğamı ilə yanaşı "Maani" ("Osmanı") zərbi muğamından da geniş istifadə edilmişdir.

**KÜRD-ŞAHNAZ** - "Şur" kökündə olan muğam. *Bax: "Şahnaz", "Şur-Şahnaz".*

**KÜTLƏVİ MAHNI** - bəstəkarlar tərəfindən yaradılan, həm peşəkar ifaçılar, həm də geniş xalq kütlələrinin ifası üçün nəzərdə tutulan mahnılar. Belə mahnılar çox zaman xalq arasında geniş yayılaraq, yaddaşlarda qalır və böyük təsir gücünə malik olur.

**KVARTA** (latın: *quarta* - dördüncü) - ***1.*** Dörd pillə həcmində interval. 4 rəqəmi ilə işarə olunur. Xalis kvarta (2½ ton), artırılmış kvarta (3 ton), əksildilmiş kvarta (2 ton) olur. ***2.*** Səsdüzümünün 4-cü pilləsi. ***3.*** Azərb. məqamlarında tətbiq olunan funksional pillə adı: Mayənin üst kvartası - mayədən kvarta yuxarıda yerləşən pillə; Mayənin alt kvartası - mayədən kvarta aşağıda yerləşən pillə.

**KVİNTA** (latın: *quinta* - beşinci) - ***1.*** Beş pillə həcmində interval. 5 rəqəmi ilə işarə olunur. Xalis kvinta (3½ ton), artırılmış kvinta (4 ton), əksildilmiş kvinta (3 ton) olur. ***2.*** Səsdüzümünün 5-ci pilləsi. ***3.*** Azərb.məqamlarında tətbiq olunan funksional pillə adı: Mayənin kvintası - mayədən kvinta yuxarıda yerləşən pillə. ■

# Q

**"QABUSNAMƏ"** - XI əsrdə yaranmış didaktik əsər; Keykavusa məxsusdur. (Keykavus - İranın əfsanəvi hökmdarlarından biri kimi Firdovsinin "Şahnamə" əsərində təsvir olunur). "Qabusnamə"nin məzmunu atanın oğluna nəsihətlərindən ibarət olub, gündəlik həyatda və sənət seçimində əməl olunmalı qayda-qanunlardan bəhs edir. Dari dilində yazılan bu əsər bir çox xalqların dillərinə, o cümlədən, azərb. dilinə tərcümə olunmuşdur. "Qabusnamə"ni müsəlman Şərqində pedaqogikanın əsasları kimi yüksək qiymətləndirir, onu gənc nəslin yetişməsində praktiki əhəmiyyətə malik vəsait hesab edirdilər. Əsərdə o dövrün musiqi həyatı, musiqiçilərin adət-ənənələri, musiqi təcrübəsində geniş yayılmış musiqi janr və formaları haqqında qiymətli məlumatlar öz əksini tapmışdır.

**QACAR SÜRƏYYA Sədrəddin qızı** (01.05.1910, Şuşa - 27.07.1992, Bakı) - müğənni (metso-soprano), xalq artisti (1954). 1927 ildə Bakı Pedaqoji Texnikumunu bitirmişdir. 1927-1939 illərdə ADOBT-nin solisti olmuşdur. Burada Leyli ("Leyli və Məcnun"), Əsli ("Əsli və Kərəm"), Gülnaz ("O olmasın, bu olsun"), Asya ("Arşın mal alan"), Şahsənəm ("Aşıq Qərib") partiyalarında çıxış etmişdir. 1940 ildən ADF-nin solisti olmuş, eyni zamanda, pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. Süreyya Qacarın repertuarını muğamlar, xalq və bəstəkar mahnıları təşkil edirdi. Onun ifası sadəliyi, səmimiliyi, incə zövqü ilə fərqlənirdi. O, bir çox şəhərlərdə qastrol səfərlərində olmuş və böyük rəğbətlə qarşılanmışdır.

**QAFİYƏ** - şeirdə misranın sonundakı səslərin təkrarı, həmahəngliyi. Mənaca müxtəlif sözlərin son hecalarının uyuşması ilə yaranır. Eyni zamanda, misra daxili qafiyələrdən də istifadə olunur. Qafiyə şeiri mürəkkəb bir ahəng quruluşunda birləşdirir ki, bu da ona fikri və ritmik gözəllik verir. Şeirin qafiyələnməsi musiqiyə də təsir edir. Muğamlarda, xüsusilə də təsniflərdə və xalq mahnılarında poetik mətnin qafiyələnməsi musiqi düzümlərinin kadensiya ilə bitməsi və musiqi fikrinin tamamlanması ilə əlaqədar olur.

**QAQARİN Qriqori Qriqoryeviç** (11.05.1810, Peterburq - 30.01.1893, Fransa, Şatelro) - rus rəssamı, incəsənət tədqiqatçısı. Romada K.P.Bryullovdan dərs almışdır. Peterburq Rəssamlıq Akademiyasının vitse-prezidenti olmuşdur (1859-1872). Qaqarin Qafqazda hərbi xidmətdə olarkən (1840-1850) burada yaşayan xalqların məişətinə aid tablolar, portret, mənzərə rəsmləri və batal səhnələri çəkmişdir. Qaqarin Azərb. şəhərlərində də olmuş, "Şamaxı rəqqasələri", "A.A.Bakıxanovun portreti" və s. rəsmlər, həmçinin, Azərb. memarlıq abidələrini təsvir edən əsərlər çəkmişdir.

**QAFQAZ HÜMAYUNU** - XX əsrin əvvəllərində Azərb. musiqi təcrübəsində mövcud olmuş "Hümayun" muğamının bir növü.

**QALUSİ** - Şərq xalqlarının musiqi təranələrindən biri.

**QANUN** - simli musiqi aləti. Yaxın və Orta Şərqdə geniş yayılmışdır. Azərb. şairləri Nizaminin, Füzulinin və b. əsərlərində bu alət haqqında məlumat verilmişdir. Qanun üzərində naxışlı üç rezonator dəliyi olan düzbucaqlı trapesiya formalı yastı taxta qutudan ibarətdir.

*Musiqiçi qız.*
*Q. Qaqarin, Şamaxı, 1840*







Qanunun üzünün aşağı hissəsinə çəkilmiş dərinin üzərində xərək yerləşir. Xərəyin üstündən 24-25 üçləşdirilmiş sim keçir. Qanunun simləri barmaqlara taxılmış oymağabənzər metal mizrablarla səsləndirilir. Diapazonu üç oktava yarımdır (böyük oktavanın sol səsindən ikinci oktavanın si bemol səsinə qədər). Qanunun incə, məlahətli səsi var. Azərb. x.ç.a. ansamblının və ork. tərkibinə daxildir.

**QAPAQ** (alman: *klappe* - qapaq) - nəfəsli alətlərdə səs deşiklərinin açılması və ya bağlanması üçün düzəldilmiş qurğu; klapan.

**QARABAĞ** - Azərb. vilayət. Kiçik Qafqaz dağlarından başlamış Kür və Araz çayları arasındakı ərazini əhatə edir. "Qarabağ" adı mənbələrdə XII əsrdən başlayaraq çəkilir. Ən qədim insan məskənlərindən biri olan Azıx mağarası Qarabağda aşkar olunmuşdur. Şərqi Zaqafqaziyada geniş yayılmış Xocalı-Gədəbəy mədəniyyətinin zəngin abidələri də ilk dəfə Qarabağda tapılmışdır. Bu torpaq tarixi abidələrlə zəngindir. Ağoğlan və Qanzasar məbədləri, Axsadanbaba, Babı və Bərdə türbələri, Qarabağ xanlarının sarayı, Mirəli türbəsi və s. abidələr burada yerləşir.

Tarixən şahlar arasında çəkişmələrin, yadelli işğalçılara qarşı mübarizələrin meydanına çevrilmiş Qarabağ qədim dövrlərdən mədəniyyət mərkəzlərindən biri olmuşdur. Qarabağda əkinçilik, sənətkarlıq, ticarət inkişaf etmişdir. Şəhərlərin, xüsusilə Bərdə və Beyləqanın başqa ölkələrlə geniş ticarət əlaqələri vardı. Xalq sənətkarlığının ən gözəl nümunələri olan Qarabağ xalçalarının şöhrəti Azərb. çox-çox uzaqlara yayılmışdır. Qarabağda elm, təhsil, ədəbiyyat, memarlıq da təşəkkül tapmışdır. Mirzə Camal Qarabağı, Mirzə Adıgözəl bəy, Mir Mehdi Xəzani, Əhməd bəy Cavanşir Qarabağın tarixinə dair əsərlər yazmışlar.

Xüsusilə, vilayətin mərkəzi olan Şuşa şəhəri XIX əsrlərdən Azərb. poeziya və musiqi ocağı kimi tanınmış, "Qafqazın konservatoriyası" adlandırılmışdır. Bu dövrdə Şuşada Molla Pənah Vaqif, Xurşid Banu Natəvan, Mir Möhsün Nəvvab kimi şairlər yazıb-yaratmış, bir neçə ədəbi-musiqili məclislər fəaliyyət göstərmişdir. Azərb. mədəniyyətinin bir çox görkəmli simaları, elm və mədəniyyət xadimləri - Qasım bəy Zakir, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Firidun bəy Köçərli, Süleyman Sani Axundov, Yusif Vəzir Çəmənzəminli, Üzeyir Hacıbəyov, Bülbül bu torpağın yetirmələridir. Azərb. musiqi mədəniyyətinin inkişafında Qarabağlı musiqiçilərin böyük rolu olmuşdur. Hacı Hüsü, Cabbar Qaryağdıoğlu, Məşədi Məmməd Fərzəliyev, Məşədi İsi, Keçəçioğlu Məhəmməd, Mirzə Sadıq Əsəd oğlu (Sadıqcan), Qurban Primov, Əbdülbaqi Zülalov, Seyid Şuşinski, Xan Şuşinski, Zülfi Adıgözəlov və yüzlərlə xanəndə və musiqi ifaçılarının adı Azərb. musiqi mədə-

*Qarabağ, Əsgəran qalası*



niyyəti xəzinəsinə qızıl hərflərlə yazılmış və dünyanın bir çox ölkələrində məşhurlaşmışdır.

**QARABAĞ MUĞAM MƏKTƏBİ** - Qarabağ bölgəsinin mərkəzi olan Şuşa şəhərində təşəkkül tapmış və Qarabağda yaşayıb-yaradan xanəndələri, x.ç.a. ifaçılarını - sazəndələri özündə cəmləşdirən muğam ifaçılığı ənənələri. Qarabağ muğam ifaçılığı məktəbi məhz ayrı-ayrı görkəmli sənətkarların adı ilə bağlı olub, onların ifaçılıq üslubunu yaşadan və davamçıları tərəfindən nəsildən-nəslə ötürülən ənənələrdən yaranmışdır. Qarabağ muğam ifaçıları Azərb. qədim musiqi ənənələrinin inkişaf etdirilməsində böyük xidmət göstərmişlər. Xanəndələr və instrumental ifaçılar ənənəvi şəkildə muğam ifaçılığı sənətinin incəliklərini, muğamları nəsildən-nəslə ötürərək böyük bir məktəb yaratmağa nail olmuşlar. Qarabağ sənətkarlarının neçə nəsli dəyişsə də, onların yaratdığı ənənələr bu gün də muğam ifaçıları tərəfindən yaşadılmaqdadır. Bu baxımdan Qarabağın görkəmli muğam ustadları Hacı Hüsü, Əbdülbaqi Zülalov, Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd, İslam Abdullayev, Seyid Şuşinski,

*Qarabağ musiqiçiləri*



Xan Şuşinski və b. öz məktəblərini yaratmışlar. Qarabağ musiqi mədəniyyəti tarixində, tədris ocağı kimi "muğam məktəbi" ilk dəfə XIX əsrin ortalarında Xarrat Qulu tərəfindən yaradılmışdır. *(Bax: Xarrat Qulunun məktəbi).* Xarrat Qulunun məktəbi Qarabağ muğam ifaçılığı məktəbinin inkişaf tarixində mühüm bir mərhələ olmuşdur. Onun vəfatından sonra Şuşada musiqi məktəbində muğamın tədrisi işini Kor Xəlifə adlı musiqiçi, daha sonra Molla İbrahim davam etdirərək, yeni musiqiçilər nəslini yetişdirdi. Şuşa məktəblərində də poeziyanın və musiqinin sirləri yeniyetmələrə gənc yaşlarından öyrədilirdi. Ona görə də, muğamı və şeiri Qarabağın xanəndə və instrumental muğam ifaçıları hələ uşaq yaşlarından dərindən bilirdilər.

**QARABAĞ MUĞAM MƏCLİSLƏRİ** - Qarabağın muğam ifaçılığı sənətinin inkişafında XIX əsrdə fəaliyyət göstərən musiqi məclislərinin böyük və əhəmiyyətli rolu olmuşdur. Dövrünün tanınmış muğam ifaçılarının hamısı demək olar ki, məhz bu məclislərdə iştirak etmiş, orada ustad sənətkarların rəngarəng çıxışlarını görmüş və bu gözəl ənənə sayəsində püxtələşmişlər. Musiqi məclisləri ziyafətlərdən və toy şənliklərindən fərqlənirdi. Bu məclislərdə ədəbiyyata, rəssamlığa və musiqi sənətinə dair maraqlı söhbətlər aparılırdı. Burada şeir, musiqi və sənətin estetik problemləri ətraflı müzakirə olunurdu. Bəzən bu söhbətlər diskussiyalara da çevrilirdi. Musiqi məclislərində birinci növbədə muğam ifaçılığına diqqət yetirilirdi. Muğam dəstgahları təkmilləşdirilir, müxtəlif şöbə və guşələrlə zənginləşdirilir, yeni yaradılan təsnif və rənglər səsləndirilirdi. Bəzən musiqi məclislərində muğamı bir neçə xanəndə oxuyar, muğam biliciləri onların haqqında rəylərini söyləyərdilər. Buna görə də hər bir xanəndə və çalğıçı öz sənətini daha dərindən öyrənməyə və təkmilləşdirməyə səy göstərirdi. Çox zaman isə yaradıcılığa yeni başlayan musiqiçilər burada ustad sənətkarlardan xeyir-dua alırdılar. Bu məclislər muğam sənətinin inkişafı üçün çox önəmli idi və muğam ifaçıları üçün əsl ustadlıq məktəbinə çevrilmişdi. Bu məclislərdə Şərq musiqisinin incəliklərinə dərindən bələd olan görkəmli musiqişünaslar xanəndələrin düzgün oxumasına və ustalığına xüsusi qayğı göstərirdilər. Musiqi məclislərində "Şur", "Rast", "Mahur", "Çahargah", "Bayatı-İsfahan" muğamlarının oxunması iki, bəzən də üç saat çəkərdi. Maraqlı budur ki, məclislərdə bütün muğamları düzgün və tamam-dəstgah oxumağı öyrənən xanəndələr hər hansı bir muğamı daha kamil öyrənir, ixtisaslaşmağa çalışırdılar. Bəzən musiqi məclislərində xanəndəni dinləyən tamaşaçılar, peşəkar və həvəskar xanəndələr isə dəstgah oxuyan xanəndənin səhv cəhətlərini tənqid edərdilər. Bu tənqidi qeydlər çox zaman ciddi mübahisələrə çevrilərdi. Mübahisə kəskin şəkil aldıqda müəyyən bir muğamı tamam-dəstgah oxumaq üçün müsabiqə elan edilirdi. O dövrün musiqiçilərinin xatirələrində deyildiyi kimi, müsabiqə üçün ən yaxşı sazəndələr çağırılırdı. Hələ musiqi məclisinə bir həftə qalmış ən yaxşı xanəndə, eləcə də, sazəndələr və rəisi-məclis seçilirdi. Həmin şəxs xanəndə və sazəndələrin ifa edəcəkləri musiqi proqramını tərtib edirdi. Tamaşaçılar məclisin





qayda-qanunlarına tabe olaraq, xanəndənin oxuduğu sözlərə qulaq asmaq üçün tam sakitliyi gözləməli idi. Rəisi-məclis və xalq tərəfindən bəyənilən xanəndə və musiqiçilər mükafat alırdılar. Proqramın öhdəsindən gələ bilməyən ifaçılar isə istehza altında məclisi tərk edirdilər. Buna görə də hər bir xanəndə və ya sazəndə öz sənətini daha da təkmilləşdirməyə səy göstərirdi. Şuşa musiqi məclisinin rəhbəri olan Mir Möhsün Nəvvab xanəndə Hacı Hüsünün yaxından iştirakı ilə "Xanəndələr məclisi" təşkil etmişdi. Onun musiqi məclisi Xarrat Qulunun musiqi məktəbindən və Xurşidbanu Natəvanın "Məclisi-üns"ündən sonra şəhərin mədəni həyatında müstəsna rol oynamışdır. Qarabağ xanəndələri Şamaxı və Bakı musiqi məclislərinin üzvləri arasında da xüsusi hörmət və ehtirama malik idilər, bir çox digər sənətkarlara istiqamət verirdilər. Müxtəlif yerlərdən xanəndə və tarzənlər Şuşaya gəlib Qarabağ musiqiçiləri üçün çalıb-oxuyar, onlardan göstəriş və qiymət almağa can atardılar.Şuşa musiqi məclisləri milli musiqiçilərin, muğam ifaçılarının yetişməsində müstəsna rol oynamış və Azərb. musiqisinin inkişafına təkan vermişdir.

*"Qarabağ xanəndələri" albomu*




**"QARABAĞ XANƏNDƏLƏRİ"** - CD-albom. Qarabağ muğam ifaçılığı məktəbinin müxtəlif nəsillərinə aid 24 xanəndənin səsyazıları olan CD disklərdən və 4 dildə (azərb., ing., rus, fransız) çap olunmuş xanəndələrin həyat və yaradıcılığı ilə bağlı məlumat və fotoları əhatə edən albomdan ibarətdir. Layihənin müəllifi və rəhbəri Mehriban xanım Əliyevadır. Layihədə AzTR, Azərb. Dövlət Musiqi Mədəniyyəti Muzeyinin, Azərb. Dövlət Səsyazmalar Arxivinin, S.Mümtaz ad. Azərb. Respublikası Ədəbiyyat və İncəsənət Dövlət Arxivinin, Ü.Hacıbəyovun ev-muzeyinin, Bülbülün Ev-Muzeyinin fondlarından, F.Şuşinskinin, B.Mənsurovun, X.Şuşinskinin şəxsi arxivlərindən istifadə olunmuşdur. Qarabağ xanəndələrinin 1903-1912 illərə məxsus qrammofon vallarındakı səsyazılarının rəqəmsal bərpası "Musiqi dünyası" jurnalının yaradıcı qrupu tərəfindən həyata keçirilmişdir.

**QARABAĞ ŞİKƏSTƏSİ** - Azərb. şifahi ənənəli musiqisində zərbi muğam. Segah məqamına əsaslanır. Ölçüsü 2/4-dir. Poetik mətni xalq bayatılarından ibarətdir. Müasir dövrün musiqi təcrübəsində Səməd Vurğunun sözlərindən




*Qrammofon valının etiketi. "Qarabağ şikəstəsi"*

istifadə olunur. Ü.Hacıbəyov tərəfindən nota salınmış və xor üçün işlənilmişdir ("Azərbaycan türk el nəğmələri", Bakı, 1927). V.Adıgözəlov "Qarabağ şikəstəsi" əsasında eyniadlı oratoriya yaratmışdır (1989).

Bir neçə variantda not yazısı çap olunmuşdur. S.Rüstəmovun "Azərbaycan xalq rəngləri" (Bakı, 1958), Ə.Bakıxanovun "Azərbaycan ritmik muğamları" (1968) məcmuələrində zərbi muğamın instrumental epizodları nota alınmışdır. R.Zöhrabovun "Zərbi muğamlar" (Bakı, 2004) kitabında xanəndə Xan Şuşinskinin və sazəndə ansamblının ifasında bu zərbi muğamın vokal-instrumental (partitura) şəklində not yazısı verilmişdir. Qeyd olunan hər üç not yazıları "Azərbaycan xalq musiqisinin antologiyası"na daxil edilmişdir.

**QARA QARAYEV ADINA AZƏRBAYCAN DÖVLƏT KAMERA ORKESTRİ** - 1964 ildə bəstəkarlar Qara Qarayevin və Fikrət Əmirovun təşəbbüsü ilə yaradılmışdır. Orkestrin baş dirijoru və bədii rəhbəri, xalq artisti, Dövlət mükafatları laureatı Nazim Rzayev olmuşdur. 1998 ildən orkestrə respublikanın xalq artisti Teymur Göyçayev rəhbərlik edir. Kollektiv dünyanın bir çox məşhur səhnələrində, nüfuzlu beynəlxalq festivallarda iştirak etmiş, xarici ölkələrdə Azərb. musiqi sənətini ləyaqətlə təmsil etmişdir. Orkestrin repertuarı Azərb. və xarici ölkə bəstəkarlarının əsərlərindən ibarətdir. Son illərdə T.Göyçayevin təşəbbüsü və rəhbərliyi altında muğam ifaçıları ilə birgə konsert layihələri həyata keçirilir. Muğam dəstgahların xanəndə və muğam üçlüyü tərəfindən ənənəvi ifasından fərqli olaraq, rəng və təsniflər orkestrin müşayiəti ilə verilərək, maraqlı səslənmə yaradır.

**QARAYEV Qara Əbülfəz oğlu** (05.02.1918, Bakı - 13.05.1982, Bakı) - bəstəkar, pedaqoq və ictimai xadim, SSRİ xalq artisti (1959), Sosialist Əməyi Qəhrəmanı (1978), AMEA-nın həqiqi üzvü, akademik (1959), SSRİ Dövlət mükafatları laureatı (1946, 1948), M.F.Axundov ad. respublika mükafatı laureatı (1965), Lenin mükafatı laureatı (1967). 1953 ildən ABİ sədri, 1962 ildən SSRİ Bəstəkarlar İttifaqının katibi olmuşdur. Q.Qarayev ADK-da və Moskva Konservatoriyasında təhsil almışdır (D.Şostakoviçin sinfini bitirmişdir). 1947 ildən ömrünün sonuna kimi ADK-da pedaqoji fəaliyyətlə məşğul olmuş (1957 ildən professor), Azərb. bəstəkarlarının böyük bir nəslini yetişdirmişdir. Q.Qarayevin yaradıcılıq irsi geniş və çoxcəhətlidir. O, "Yeddi gözəl" (Nizaminin əsərləri əsasında, 1952), "İldırımlı yollarla" (Piter Abrahamsın əsəri əsasında, 1958) baletlərinin, "Vətən" operasının (C.Hacıyevlə birlikdə, 1945), "Zəriflik" monooperasının (Anri Barbüsün əsəri əsasında, 1973), "Çılğın qaskoniyalı" musiqili komediyasının (E.Rostanın əsəri əsasında, 1972) müəllifi olmaqla yanaşı, üç simfoniya (1943, 1946, 1965), "Leyli və Məcnun" simfonik poemasını (1948), "Don Kixot" simfonik qravürlərini (1960), çoxsaylı simfonik və kamera-instrumental əsərlər bəstələmişdir. Q.Qarayev 1938 ildə tarzən Qurban Pirimovun ifasından "Şur" muğamını nota salmışdır. Bu not yazısının ayrı-ayrı hissələri V.Belyayevin "Oçerki istorii muziki narodov SSSR" kitabında (M., 1963) çap olunmuşdur. *http://qara-qarayev.musigi-dunya.az*



*Qara Qarayev, bəstəkar*

**QARAYEV Fərəc Qara oğlu** (19.12.1943, Bakı) - bəstəkar, əməkdar incəsənət xadimi (1982), professor. 1966 ildə ADK-nın bəstəkarlıq şöbəsini professor Q.Qarayevin sinfi üzrə bitirib. Simfonik və kamera ork. üçün "Tristessa-I", "Tristessa- II". BSO üçün Serenada, Qarışıq





xor və simfonik ork. üçün "Qoyya" proqramlı simfoniyasının (həmmüəlif Q. Qarayev), Simfonik ork. üçün 4 Postlüdiya, kamera-instrumental əsərlərin və kinofilmlərə yazdığı musiqilərin müəllifidir. "Xütbə, muğam və surə" əsərində muğamlardan istifadə etmişdir. Veb saytın ünvanı: *http://www.karaev. net*

**QARMON** - pnevmatik dilli musiqi aləti; körüyünün açılıb-yığılması nəticəsində yaranan hava axını xüsusi kanallarla qarmonun metal dillərini hərəkətə gətirir. Almaniyada musiqi alətləri ustası K.F.L.Buşman tərəfindən ixtira edilmişdir (1822). Sonradan Rusiyada müxtəlif növləri istehsal olunmağa başlamışdır. Azərb. xalq musiqi məişətinə daxil olmuş və milli musiqinin xüsusiyyətlərinə uyğunlaşdırılmışdır. Azərb. qarmonunun səs sırası xromatikdir, bu alətdən solo və ansambl aləti kimi istifadə olunur.

**QATAR** - kiçik həcmli muğam. "Rast" muğam ailəsinə daxildir. Tərkibi üç şöbədən ibarətdir: ***1.*** "Zil Qatar"; ***2.*** "Mayeyi-Qatar"; ***3.*** "Zil Qatar". Do mayəli rast məqam-tonallığında oxunur. Keçmişdə "Mahur-Hindi" muğamının tərkibində zil tessituralı şöbələrdən biri kimi ifa olunmuş, zaman keçdikcə, dəstgahdan ayrılaraq, müstəqil mahiyyətli kiçik muğama çevrilmişdir. "Qatar" muğamının musiqisi nikbin, gümrah, təntənəli xarakter daşıyır. "Qatar" təsnifləri də ifaçılıq təcrübəsində geniş yayılmışdır. "Bulud zülflü, ay qabaqlı gözəlin" (Molla Pənah Vaqif) sözləri ilə oxunan təsnif çox məşhurdur.

**QATAR-BAYATI** - kiçik həcmli muğam. "Qatar" muğamı ilə "Çoban bayatısı"nın intonasiyalarının birləşməsindən əmələ gəlmişdir. Bu muğam "Qatar"dan fərqli olaraq, "Çoban bayatısı" kadensiyaları ilə tamamlanır.

**QASIMOV Alim Həmzə oğlu** (14.08.1957, Şamaxı r-nu, Nabur k.) - xanəndə, xalq artisti (1993). "Şöhrət" ordeni (2007) ilə təltif olunmuşdur. A.Qasımov musiqi təhsilini 1980 illərdə ADMM-də xanəndə Ağaxan Abdullayevin muğam sinfində almışdır. O, eyni zamanda, Seyid Şuşinski, Hacıbaba Hüseynov və Azərb. digər görkəmli xanəndələrinin muğam ifaçılığı ənənələrini mənimsəyərək, özünəməxsus dəst-xəttini yarada bilmişdir. Tarzən Bəhram Mansurovla birgə çıxışları da onun üçün əsl sənət məktəbi olmuşdur. A.Qasımov geniş diapazona malik səsinə və ifa manerasına görə bir çox xanəndələrdən fərqlənir. Muğam sənətinin sirlərini, muğam ifaçılığının klassik qayda-qanunlarını dərindən öyrənmiş A.Qasımov xanəndəlik məharətini təkmilləşdirməklə yanaşı, daim yaradıcılıq axtarışları ilə diqqəti cəlb edir.



*Alim Qasımov, xanəndə*

A.Qasımov Cabbar Qaryağdıoğlu ad. xanəndələrin birinci respublika müsabiqəsinin (1986) ilk qalibidir. Xanəndə həmçinin bir çox beynəlxalq musiqi festivallarının iştirakçısı və qalibi olmuş, dünyanın nüfuzlu musiqi təşkilatları tərəfindən bir sıra medallarla və fəxri adlarla təltif olunmuşdur. 1990 ildən A.Qasımov ADOBT-nin solistidir. Xanəndə bu teatrın səhnəsində muğam operalarında Məcnun, Kərəm (Ü.Hacıbəyov - "Leyli və Məcnun", "Əsli və Kərəm"), Aşıq Qərib (Z.Hacıbəyov - "Aşıq Qərib") obrazlarını məharətlə yaratmışdır. A.Qasımov dünyanın bir çox ölkələrində dəfələrlə qastrol səfərlərində olmuşdur. Onun səsi yazılmış disklər xaricdə böyük tirajla yayılır. A.Qasımov AMK-da muğam sinfində gənc xanəndələr nəslini yetişdirir.

**QASIMOV Tələt Məmmədağa oğlu** (21.06.1933, Bakı) - xanəndə, xalq artisti (2006). Erkən yaşlarından musiqiyə maraq göstərərək, əvvəlcə dini musiqiyə çox meyl etmiş və mərsiyəxan olmuşdur. Sonradan isə xanəndəlik sə-

nətinə gəlmişdir. O, Zülfi Adıgözəlov, Hacıbaba Hüseynov kimi ustad sənərkarlardan muğamın sirlərini dərindən mənimsəyərək, onların ənənələrini davam etdirmişdir. İllər keçdikcə, xanəndə kimi sənətini təkmilləşdirən T.Qasımov öz dəst-xətti ilə tanınmışdır. T.Qasımovun repertuarı zəngindir. O, bir çox muğamları və təsnifləri məharətlə və xüsusi şövqlə ifa edir. Onun ifasında "Rast", "Şur", "Segah-Zabul" muğam-dəstgahları, "Şüştər" təsnif ləri AzTR Fondunda saxlanılır. T.Qasımov ADF-nin solistidir.

**QAŞIĞEK** - içərisində olduqca çoxlu xırda zınqırov doldurulmuş və sonradan bir-birinin üstünə qapadılaraq silkələməklə səsləndirilən iki qaşıqdan ibarət zərbli musiqi aləti. Çox zaman çalğıçı o biri əlində tutduğu mil ilə qaşığeklərin üzərinə vuraraq yeni növ səslənmələr (tembrlər) əldə etməyə çalışır.

**QAVAL** - zərbli musiqi aləti. Dairəşəkilli, eni 60-75 və diametri 350-450 mm olan sağanağın üzərinə balıq dərisi çəkilmiş alətdir. Sağanağın içərisinə dairə boyu xırda halqalar bərkidilir və onlar çalğı vaxtı səslənir. Muğam ifaçılığında geniş tətbiq olunur. Klassik muğam üçlüyü tar, kamança və qavaldan ibarətdir. Xanəndə qavalda çalaraq, ansamblda dəqiq ritmli musiqi epizodlarının ifasında iştirak edir. Buna görə də qaval aləti, bir növ, xanəndənin atributuna çevrilmişdir.

*Qaval*



**QAYIBOVA Xədicə Osman qızı** (24.05.1893, Tiflis - 1938) - ilk azərb. pianoçu qadınlardan biri. Tiflisdə "Müqəddəs Nina" qız məktəbində oxumuş, fortepiano üzrə xüsusi kurs keçmişdir (1910-1911). 1919 ildən Bakıda yaşamışdır. Azərb. musiqi təhsili sisteminin yaradılmasında fəal iştirak etmişdir. 1920 ildə onun təşəbbüsü və rəhbərliyi ilə Bakıda "Qısa müddətli Şərq musiqisi kursları" açılmışdı. Fortepianoda muğamların ilk ifaçılarından biri kimi məşhurlaşmışdı.

**QAYNATMA** - xanəndənin ifa zamanı müəyyən bir notun boğazda trel tərzində iti sürətlə növbələnməsi.

**QAYTAĞI** - melodik cəhətdən son dərəcə vazeh, müntəzəm, qəti və sürət (temp) etibarı ilə çox yeyin və dinamik olan Azərb. oyun havası. Musiqi ölçüsü başlıca olaraq 6/8-dır, lakin musiqi cümlələri içərisində ikihissəli vəznlə üçhissəli vəznin ardıcıl surətdə növbələnməsinə də təsadüf edilir ki, bu da musiqinin itiliyini xeyli artırır. Qaytağı rəqs ifaçılığında oynayanlar arasında yarış duyğusu oyadır, onların çevikliyini, virtuozluq qabiliyyətini, yorulmamazlığını, gücünü, qüvvətini nümayiş etdirir. Diringi kimi istifadə olunur.

**QƏDİMOVA Sara Bəbiş qızı** (31.05.1922, Bakı - 12.05.2005, Bakı) - xanəndə (lirik-koloratur soprano), xalq artisti (1963). S.Qədimovanın bir müğənni kimi yetişməsində Hüseynqulu Sarabskinin, Seyid Şuşinskinin, Xan Şuşinskinin böyük təsiri olmuşdur. 1941 ildən ADF-nın solisti olmuşdur. O, həmçinin 1957-1962 illərdə ADOBT-nin solisti olmuş, burada Leyli və Əsli (Ü.Hacıbəyov - "Leyli və Məcnun", "Əsli və Kərəm") partiyalarını ifa etmişdir. S.Qədimovanın repertuarına bütün Azərb. muğamları ("Rast", "Şur", "Bayatı-Şiraz", "Şahnaz", "Qatar" və s.), Azərb. xalq və bəstəkar mahnıları, Şərq xalqlarının mahnıları daxil idi. S.Qədimovanın AzTR Fondunda çox sayda səsyazıları qorunub saxlanılır. Müğənni dünyanın bir sıra ölkələrində (İran, İraq, Almaniya, Macarıstan, Efiopiya, İndoneziya, Tunis və s.) qastrol səfərlərində olmuşdur.

**QƏHRƏMANOV Səfa Hüseyn oğlu** (1949, Ağcabədi r-nu, Minəxorlu k. - 05.05.2008, Bakı) - xanəndə, xalq artisti (2006). S.Qəhrəmanov 1974-1978 illərdə ADMM-də musiqi təhsili almış, muğam ustası Nəriman Əliyevin tələbəsi olmuşdur. 1985-1990 illərdə ADMİU-də təhsilini davam etdirmişdir. Bu illər ərzində onun ifasında xalq mahnıları və muğamlar lentə alınaraq, qızıl fonda daxil edilmişdir. 1991 ildən ADOBT-nin solisti olmuşdur. Ü.Hacıbəyovun "Leyli və Məcnun" əsərində Məcnun, Məcnunun atası, İbn Səlam, M.Maqomayevin "Şah İsmayıl" əsərində Şah İsmayıl kimi yaddaqalan obrazlar yaratmış, R.Mustafayevin "Vaqif" operasında xanəndə, V.Adıgözəlovun "Natəvan" operasında Qarabağ xanəndəsi rollarını ifa etmişdir. S.Qəhrəmanov həm də müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur. 1999 ildən A.İsgəndərov ad. mədəniyyət sarayında muğam sinfində dərs vermişdir. S.Qəhrəmanov ADMİU-nin da müəllimi olmuşdur.

**QƏMƏNGİZ** - "Dəşti" muğamı daxilində olan bir guşə.

**QƏNA, QİNA** (ərəb) - oxuma (vokal); qənayirükban - karvan mahnısı; qənayi-mütqan - sənətkar mahnısı).

**QƏRAİ** - "Rast" muğam dəstgahında "Əraq" və "Pəncgah"dan sonra gələn şöbə. Muğamın zilindən bəminə - mayəyə doğru enmək "Qərai" şöbəsinə xasdır. "Rast" ailəsinə daxil olan digər muğam dəstgahlarında da eyni əhəmiyyətə malikdir.



*Sara Qədimova, xanəndə*

**QƏRRƏ** - Qədim Şərq musiqisində muğam guşəsi.

**QƏSƏMƏ** (ərəb) - qədim Şərq musiqisində intervalın iki bərabər hissəyə bölünməsi.

**QƏSİDƏ** - vəznini (şeir cəhətdən), həm də qafiyəsini dəyişməyən böyük həcmli musiqili - şeir formasıdır. Məzmunundan asılı olaraq, əsas etibarı ilə üç bitkin fəsilə bölünür: ***nəsib*** - əsərdə təriflənən gözəl haqqında xatirə, *vəsf* - vüsal ümidi ilə gedilən yolun təsviri, *qəsd* - əsərin əsas hissəsi. Burada ya müəyyən bir şəxs alqışlanır, mədh edilir, ya da qəsidə müəllifinin öz keçmiş həyatındakı xoş günlər yad edilir. Məzmunu ilə əlaqədar olaraq, hər fəslin özünə müvafiq musiqisi olur.

**QƏVEŞT** - Yaxın Şərq xalqlarının musiqisinin əsas 6 avazatından biri.

**QƏZƏL** - klassik Şərq şeiri növü. Ərəb ədəbiyyatında yaranmış, sonralar bütün Yaxın və Orta Şərq, Cənub-Şərqi Asiya, həmçinin Azərb. poeziyasının ən çox işlənən formasına çevrilmişdir. Əruz vəzninin müxtəlif bəhrlərində yazılır. Əsasən 5-12 beyt olur. İlk beyti "mətlə", son beyti "məqtə" adlanır. Mətlənin hər iki misrası həmqafiyə olur. Qalan beytlərin isə ikinci misrası mətlə ilə qafiyələnir (aa, ba, va, da...). Məqtədə şair təxəllüs və ya adını göstərməlidir. Qəzəl əsasən, lirik şeir növüdür. Lakin ictimai-siyasi və fəlsəfi məzmunlu qəzəllər də vardır. Azərb. şairlərindən Nizami, Nəsimi, Füzuli, Seyid Əzim Şirvani və b. qəzəlin klassik nümunələrini yaratmışlar. Müasir Azərb. şeirində qəzəl ənənələrini Əliağa Vahid, Mir Mehdi Seyidzadə davam etdirmiş, Səməd Vurğun, Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə və b. şairlər də qəzəllər yazmışlar. İ.V.Höte, V.Y.Bryusov və b. Şərq mövzusundakı əsərlərində qəzəl formasından istifadə etmişlər. Muğamların poetik əsasını qəzəllər təşkil edir.

**QİFL-RUMİ** - Şərq musiqisində muğam şöbələrindən biri.

**QİŞEK** - çanağı girdə, üzərinə, adətən, ipəkdən eşilmiş iki sim qoşulmuş qədim simli musiqi aləti.

**QLİSSANDO** (italyan: ***glissando***; fransız: ***glissant*** - sürüşərək) - bir səsdən digərinə sürüşdürülərək keçmək; bir çox simli alətlərdə barmağın sim üzərində sürüşdürülməsi ilə əldə edilən səslənmə.

**QLİYER Reynqold Moritseviç** (11.01.1875, Kiyev - 23.06.1956, Moskva) - rus bəstəkarı, dirijor, Azərb. (1934) və SSRİ (1938) xalq artisti. Azərb. musiqi folkloru və "Aşıq Qərib" dastanı əsasında "Şahsənəm" operasını yazmışdır (libretto müəllifi Cəfər Cabbarlı; ilk tamaşası 1927, II redaksiyası 1934). 1920-30 illərdə Qurban Primov Cabbar Qaryağdıoğlu ilə birlikdə Reynqold Qliyerə "Şahsənəm" operası üzərində iş prosesində yaxından kömək etmiş, Azərb. xalq

mahnı və təsniflərindən bəzi nümunələri bəstəkara öyrətmiş, onların nota salınmasında iştirak etmiş, eyni zamanda, Azərb. musiqisinin zəngin xəzinəsi haqqında məlumatları bəstəkara çatdırmışlar. R.M.Qliyer "Şah Sənəm" operasının necə bəstələndiyi haqqında məqaləsində bununla bağlı olaraq yazır: "Xalq şeriyyətinin tükənməz mənbəyini və zəngin xəzinəsinin qapısını qarşımda taybatay açan mənim müəllimlərim: qocaman xalq müğənnisi Cabbar Qaryağdıoğlu ilə tarçı Qurban Primov olmuşlar". "Şah Sənəm" operasının musiqi mətnində R.M.Qliyer 28 xalq melodiyasından istifadə etmişdir. Onların arasında görkəmli opera müğənnisi Şövkət Məmmədovanın iki türk xalq mahnısını, operanın libretto müəllifi, böyük dramaturq Cəfər Cabbarlının - iki türk xalq mahnısını, həmçinin konservatoriyanın professoru B.Karaqiçevin bir azərbaycan xalq mahnısını bəstəkara verdiyi məlumdur. Digər xalq mahnı, instrumental rəng və rəqs melodiyaları Cabbar Qaryağdıoğlu və Qurban Primov tərəfindən ifa edilmişdir. Onlardan "Naxçıvanda", "Qadan alım, ay alagöz", "Bəli, bəli can", "Onu demə, zalım yar" xalq mahnıları və təsniflərlə yanaşı, "Hüseyni" rənginin, "Qarabağ şikəstəsi" instrumental melodiyasının, "Çahargah" muğamının melodiyasının, "Arazbarı" zərbi-muğamının mövzusunun, "Ənzəli" Azərb. xalq rəqsinin, "Dərin bahar" fars xalq mahnısının, aşıqların yarışmasının əsasını təşkil edən "Kərəmi" havasının adları qeyd olunmalıdır. R.M.Qliyer "Şahsənəm" operasının yaranma tarixinə həsr olunmuş məqaləsində Azərb. musiqisinə dair bir sıra diqqətəlayiq fikirlər söyləmiş, muğamların əsas xüsusiyyətlərini belə səciyyələndirmişdi: "Azərb. muğamları xalq dastanının əzəmətini, vüsətini ifadə edərək, cilalanmış, püxtələşmiş forması və müdrik bitkinliyi ilə bizi heyran qoyur".

**"QOBUSTAN" gözəl sənətlər toplusu** - Azərb. Yazıçılar Birliyinin nəşri. 1969 ildən nəşr olunur. Baş redaktoru xalq şairi Fikrət Qoca. Topluda ədəbiyyat, teatr, kino, rəssamlıq və s. incəsənət sahələri ilə bağlı məqalələrlə yanaşı, musiqi sənətinə də əhəmiyyətli yer verilir, bəstəkarların, muğam ustadlarının, musiqi ifaçılarının yaradıcılıq portretləri, sənət nailiyyətləri haqqında yazılar öz əksini tapır.

**QOL** - simli musiqi alətlərinin (tar, kamança, saz, ud və s.) çanağına nəsb olunmuş hissə. Çalğıçı barmaqları ilə qolun üzərindəki simləri sıxır. Simlər uzun-qısa vəziyyət alır ki, bununla da çalğı aləti səslərinin müxtəlif yüksəklikdə olması əldə edilir.

**QOPUZ (qobuz)** - Azərb. ən qədim simli musiqi alətlərindən biri. Vaxti ilə türk dünyasının ozan - aşıq ifaçılıq sənətində tətbiq və istifadə etdikləri əsas çalğı aləti.


*Qopuz*

**QOBOY** (almanca: *Oboe*, fransızca: *hautbois*, hərfi mənası - hündür ağac) - nəfəslə çalınan musiqi aləti. Ağacdan düzəldilir. XVII əsrin II yarısında Fransada yaranmışdır. Müasir qoboy ucu bir qədər genəldilmiş konusşəkilli nazik borudan ibarətdir. Borunun üzərində 25 dəlik olur, bunlardan 22-24-ü qapaqla örtülür. Alətin ensiz hissəsinə dilli müştük taxılır. Ümumi uzunluğu 600-643 mm-dir. Diapazonu kiçik oktavanın si (si bemol) səsindən üçüncü oktavanın lya səsinə qədərdir. Solo və ansambl aləti kimi istifadə olunur. Muğam ifaçılığında da uğurla tətbiq olunur. Məşhur qoboyçalan Kamil Cəlilovun ifa etdiyi muğamların lent yazıları AzTR Fonduna daxil edilmişdir.

**QORODETSKİ Sergey Mitrofanoviç** (1884-1967) - rus şairi. Dəfələrlə Azərbaycanda olmuş, Azərb. mədəniyyəti ilə maraqlanmış və diqqətəlayiq fikirlər söyləmişdir. O yazmışdır: "Azərbaycan Qərbin artıq unutduğu qədim sənət növlərini hələ də saxlayır. Burada aşıqlar oxuyur, musiqi improvizasiyası yaşayır, məişətdə ornament işlənir, Qərbin muzeylərdə tamaşa etdiyi hər bir şey burada diridir".

**QOŞA QAFİYƏ** - dörd misradan (rübai) ibarət olan hər béndə bir-iki söz əlavə etmək yolu ilə şeirin inkişafını təmin edən priyomlardan biri.

*Qoşanağara*






**QOŞANAĞARA** - Azərb. zərb aləti. Üstünə keçi dərisi çəkilmiş və bir-birinə birləşdirilmiş müxtəlif ölçülü iki çanaqdan ibarətdir. Kiçik çanağın diametri 110-140 mm, böyük çanağın diametri 240-280 mm-dir. Əvvəllər qoşanağaranın gövdələri tuncdan düzəldilirdi və yumşaq səs almaq üçün kəndirlə bir-birinə möhkəm sıxılırdı, taxta çubuqlarla və ya toxmaqla çalınırdı. Müasir qoşanağaranın gövdəsi qoz, yaxud tut ağacından düzəldilir. Güclü və təmiz səs alınması üçün üzünün dərisi dolama, yaxud çarpaz iplərlə tarım çəkilir və oda verilir. Azərb. x.ç.a. ansambllarının və orkestrin tərkibinə daxildir. Başqa adlarla bir sıra ölkələrdə də yayılmışdır.

**QOŞMA** - Azərb. şeir forması. 11 hecalıdır, 4 misralı 5 bənddən ibarət olur. Birinci bənddə çarpaz qafiyə yaradılır (abab), bəzən 1-ci və 3-cü misralar sərbəst buraxılır. Sonrakı bəndlərin ilk 3 misrası bir-biri ilə, 4-cü misrası isə ilk bəndin axırıncı misrası ilə qafiyələnir (vvvb, qqqb...). Cığalı qoşma, təcnis, dodaqdəyməz kimi növləri var. Şeirin sonunda müəllif adını, yaxud təxəllüsünü qeyd edir, buna "möhürbənd" deyilir. Azərb. şeirinin ən qədim formalarından olan qoşma aşıq poeziyasında geniş yayılmışdır. Qoşma lirik xalq mahnılarının da poetik əsasını təşkil edir.

**QRAMMOFON** (yunan: *gramma* - yazı + *phone* - səs) - *qrammofon valına* yazılmış səsi mexaniki quruluşlarla yenidən səsləndirən aparat. Qrammofon işləyən zaman fırlanan val üzərindəki spiral çığırda hərəkət edən qrammofon iynəsi ucunun mexaniki rəqsləri membrana ötürülür və oradan alınan səs rəqsləri ruporla gücləndirilir. Qrammofondan və xüsusilə, onun yığcam variantı olan patefondan 20-ci əsrin ortalarına kimi istifadə edilmişdir. Sonralar daha təkmilləşmiş cihazlar - elektrik valoxudanı və elektrofon meydana gəlmişdir.

**QRAMMOFON VALI** - səthindəki spiral cığırlara səs yazılmış disk. Qrammofon valı sintetik materialdan hazırlanır, qrammofon, elektrofon və s. aparatlar vasitəsi ilə oxudulur. Monofonik (cığırında bir səs kanalı olan) və stereofonik (cığırında iki səs kanalı olan) növləri var. Beynəlxalq standartlarda diametrinə görə üç ölçüdə qəbul olunmuşdur: 17,5 sm (valın hər üzü 6 dəqiqə oxuyur); 25 sm (18 dəqiqə); 30 sm (28 dəqiqə). Müxaniki yazma və səsləndirmə prinsipi ilk dəfə fransız şairi, musiqiçisi və alimi Ş.Kro (1842-1888) tərəfindən kəşf edilmişdir. XIX əsrin sonu - XX əsrin əvvəllərində bir sıra ölkələrin səhmdar cəmiyyətləri tərəfindən qrammofon valları fabriki təşkil olunmuş və səsyazma sənayesi inkişaf etməyə başlamışdır. "Qrammofon", "Sport-Rekord", "Premyer-Rekord", "Pate", "Ekstrafon", "Nogin zavodu" fəaliyyət göstərmişdir.

1901-1902 illərdən başlayaraq, Riqada "Qrammofon" ingilis səhmdar cəmiyyəti tərəfindən məşhur Azərb. xanəndələrinin - Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd, Məşədi Məmməd Fərzəliyev, İslam Abdullayev, Əbdülbaqi Zülalov, Məcid Behbudov, Seyid Mirbabayev, Ələsgər Abdullayev və b. səsi yazılmış qrammofon valları buraxılmışdır. 1908-1912 illərdə Cabbar Qaryağdıoğlu, Qurban Primov və Saşa Oqanezaşvilidən ibarət trio Varşavada bir neçə dəfə qastrol səfərlərində olarkən "Sport-Rekord" firması onların çıxışlarını qrammofon vallarına yazmışdır. 1916 ildə Kiyevdəki "Ekstrafon" şirkəti Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasını vala yazmışdır.

1957 ildə yaranan "Melodiya" firması da keçmiş Sovet İttifaqında böyük tirajla qrammofon valları istehsal etmişdir. Bu firmada Azərb. bəstəkarlarının əsərləri ilə yanaşı, bir çox görkəmli ifaçıların da səsyazıları kütləvi tirajla buraxılmışdır. Azərb. bəstəkarlarından Q.Qarayevin, F.Əmirovun əsərləri ABŞ-da, Azərb. muğamları YUNESKO xətti ilə tarzən Bəhram Mansurovun ifasında Hollandiyada qrammofon valına yazılmışdır.

**QRİF** (alman: *griff* - dəstə, tutacaq; azərb. qol) - simli alətlərdə möhkəm ağacdan düzəldilmiş alətin qol hissəsidir, onun üzərinə simlər çəkilir.

*Qrammofon*


**QRUBER Roman İliç** (01.12.1895, Kiyev - 24.03.1962, Moskva) - rus musiqişünası, pedaqoq, sənətşünaslıq doktoru (1947), professor (1935). Leninqrad (indiki Sankt-Peterburq) və Moskva Konservatoriyasında dərs demişdir. Əsas tədqiqat sahəsi dünya musiqi tarixinin qədim dövrlərdən başlayaraq öyrənilməsindən ibarətdir. Bu kontekstdə Şərq xalqlarının, o cümlədən, Azərb. musiqi tarixinə dair qiymətli məlumatlar öz əksini tapmışdır. "Musiqi mədəniyyətinin tarixi" (2 cild. I - 1941; II - 1953-1959) fundamental tədqiqat əsərinin, "Musiqinin ümumi tarixi" (2 hissə; 1956, 1965) dərsliyinin müəllifidir.

**QRUPLAŞDIRILMA** - notların xanə ölçüsünə görə düzgün bölüşdürülməsi.

**QRUPPETTO** (italyan: *gruppetto* - kiçik qrup) - melizm növlərindən biri; işarə. Notun üzərində qoyulan Qruppetto işarəsi onun əhatəsindəki notların cəld tempdə ardıcıl ifa olunmasını göstərir.

**QULİYEV Cavanşir Rəhim oğlu** (22.11.1950, Şəki) - bəstəkar, əməkdar incəsənət xadimi (1992), professor (2008). ADK-nın bəstəkarlıq fakültəsini (1975, C.Hacıyevin sinfi) bitirmişdir. Musiqi təhsilinə tar çalmaq ilə başlayan və muğamata dərindən bələd olan C.Quliyev bəstələdiyi əsərlərin bir coxunda muğamatın quruluş prinsiplərindən bəhrələnmişdir. Bir baletin ("Oğuznamə"), iki operettanın ("Məhəbbət oyunu", "Yeddi məhbusə"), 4 simfoniyanın, iki yaylı, bir nəfəsli kvartetlərin, simfonik ork. və zurna üçün Uvertüranın, violino və saz üçün Sonatanın, piano üçün "Muğam səssıralarında Yeddi Pyes"in, "Karvan" triosunun, "Bayatı" poemasının, müxtəlif kamera-instrumental əsərlərin, çox sayda mahnıların müəllifidir. Əsərləri ABŞ-da, Almaniyada, İsveçrədə, Hollandiyada, Fransada, Türkiyədə, Rusiyada, Gürcüstanda, Şimali Kiprdə və s. ölkələrdə ifa olunub. "Musiqi dünyası" jurnalı ilə əməkdaşlıq edərək qədim muğam qrammofon vallarının və lent yazılarının səslənməsini dijital üsulla bərpa etmişdir - "Qarabağ xanəndələri", "Muğam dəstgahları", "Ustad xanəndələr" CD topluları.

**QULİYEV Əliağa Eyvaz oğlu** (09.05.1917, Bakı - 11.01.1998, Bakı) - tarzən, xalq artisti (1989). 1934 ildən Ü.Hacıbəyovun rəhbərlik etdiyi x.ç.a. ork. çalışmışdır. 1939 ildə ADK-nın "Xor dirijorluğu" fakültəsinə daxil olmuşdur. 1946-1951 ildə Əhməd Bakıxanovun rəhbərlik etdiyi ansamblda konsertmeyster vəzifəsində çalışmışdır. AzTR baş redaktor və x.ç.a. rəhbəri (1951-1955), ADOBT-da solo-tar ifaçısı (1955-1960), R.Behbudov ad. Mahnı Teatrında solo-tar ifaçısı (1966-1969), ADF-də x.ç.a. rəhbəri (1960-1966; 1969-1978), "Azərbaycan Dövlət Qastrol Konsert Birliyinin" xalq çalğı ansamblının rəhbəri və musiqi konsertlərinin təşkilatçı-rejissoru (1978-1995) vəzifələrində işləmişdir. Uzun müddət AzTR-də musiqi redaktoru vəzifəsində çalışmışdır. Moskvada keçirilən Azərb. ədəbiyyatı və incəsənəti ongünlüyündə (1938), Ümumdünya Musiqi Konqresində (1971), Alma-Atada Asiya Ölkələri Xalqlarının Musiqi Festivalında (1973), "Daşkənd Qızıl Payızı" müsabiqəsində, YUNESKO-nın himayəsi altında keçirilən mötəbər musiqi məclisində (1983) iştirak etmişdir. Bir çox mahnılar bəstələmişdir: "Əmək mahnısı", "Dağlar", "Pambıqçı qız", "Al yanaq", "Vüsal nəğməsi". İndoneziya, Türkiyə, İran, Hindistan, Fransa, İtaliya və digər xarici ölkələrdə qastrol səfərlərində olmuşdur.



*Əliağa Quliyev, tarzən*

**QULİYEVA Qəndab Həbi qızı** (10.08.1949, Füzuli r-nu, Dilağarda k.) - xanəndə, xalq artisti (1992). 1976-1980 illərdə ADMM-də, 1991-1996 illərdə ADMİU-də təhsil almışdır. İlk muğam müəllimi Nəriman Əliyev olmuşdur. Eyni zamanda, o, Vahid Abdullayevin muğam sinfində dərs almış və sənətini təkmilləşdirmişdir. 1981 ildən ADOBT-nin solistidir. Bu teatrın səhnəsində Leyli, Əsli (Ü.Hacıbəyov - "Leyli və Məcnun", "Əsli və Kərəm"), Ərəbzəngi (M.Maqomayev - "Şah İsmayıl"), Şahcənəm (Z.Hacıbəyov - "Aşıq Qərib"), Gülbahar (Ş.Axundova - "Gəlin qayası"), Xanəndə qız (R.Mustafayev - "Vaqif") rollarını yaratmışdır. Q.Quliyeva bir çox xarici ölkələrdə - Almaniyada, Kanadada, Yaponiyada, Fransada, İsveçdə, Türkiyədə, İranda, İraqda qastrol səfərlərində olmuş, Azərb. muğam sənətini təmsil etmişdir. Xanəndənin repertuarına muğam dəstgahlar və təsniflər daxildir. Onun ifasında "Xaric Segah", "Şahnaz", "Mahur-Hindi", "Bayatı-Şiraz", "Şur" muğamlarının səsyazıları AzTR Fondunda saxlanılır. Xanəndənin ifasında "Çahargah" muğamının səsyazısı isə Fransada "Muğam antologiyası" CD diskinə daxil olunmuşdur. Q.Quliyeva pedaqoji fəaliyyətlə də məşğul olur. ADMİU-də muğamatdan dərs deyir.





**QULİYEV Məmməd Mehdi oğlu** (09.02.1936, Göyçay - 02.10.2001, Bakı) - bəstəkar, əməkdar incəsənət xadimi (1992). ADMM-ni tar ixtisası üzrə bitirmiş (1958), ADK-da bəstəkarlıq şöbəsində (1958-1963; Qara Qarayevin sinfində) təhsil almışdır. M.Quliyev "Aldanmış ulduzlar" (M.F.Axundovun povesti əsasında) operasının, 7 simfoniyanın, instrumental konsertlərin, iri həcmli xor əsərlərinin, o cümlədən, "Dədə Qorqud diyarı" (Fikrət Qocanın sözlərinə) kantatasının, "Şəbi-hicran" (Füzulinin sözlərinə) lirik poemasının, kamera-instrumental əsərlərin müəllifidir. Muğam sənətinin bilicisi olan M.Quliyev öz yaradıcılığında daim muğam ənənələrinə müraciət etmiş, onları müasir bəstəkarlıq texnikası ilə qovuşdurmağa çalışmışdır. Xüsusilə simfonik yaradıcılığında bu qovuşma özünü qabarıq büruzə verir. Bəstəkarın 3 saylı "Azərbaycan" simfoniyası qadın xanəndə, solistlər, xor və simfonik orkestr üçün yazılmışdır. 4 saylı simfoniya "Muğam" adlanır. Kamera orkestri üçün "Muğamsayağı" əsərini bəstələmişdir.

**QULİYEV Ramiz Əyyub oğlu** (30.04.1947, Ağdam r-nu) - tarzən, xalq artisti (1988), professor (1990). "Şöhrət" ordeni (2007) ilə təltif olunmuşdur. 1964-1969 illərdə ADK-da tar və dirijorluq ixtisasları üzrə təhsil almışdır. 1974 ildən ADK-nın x.ç.a. kafedrasında pedaqoji fəaliyyət göstərir, 1990-2002 illərdə kafedra müdiri olmuşdur. ADF-nin və Dövlət konsert birliyinin solisti olmuşdur (1964-1994). 1974 ildə musiqiçilərin Zaqafqaziya festivalında birinci mükafata layiq görülmüş, Moskvada keçirilən estrada artistlərinin V Ümumittifaq müsabiqəsinin laureatı olmuşdur. 1987 ildə Səmərqənddə keçirilən III Beynəlxalq musiqişünaslıq simpoziumunda R.Quliyev Sadıqcan ad. muğam üçlüyünün rəhbəri və solisti kimi çıxış etmişdir. 1988 ildə YUNESKO xətti ilə ABŞ-da keçirilən Beynəlxalq folklor festivalında xüsusi diploma layiq görülmüşdür. 1989 ildə isə R.Quliyev ənənəvi "Böyük ipək yolu" festivalına dəvət olunaraq, 40 gün



*Ramiz Quliyev, tarzən*

ərzində Yaponiyanın 30-dan artıq şəhərində konsertlər vermişdir. 1998 ildə Londonda keçirilən Azərb. mədəniyyəti günlərində müvəffəqiyyətlə çıxış etmişdir. 1997 ilin dekabrında İsrailin Yerusalim şəhərində Beynəlxalq Şərq musiqisi festivalında öz çıxışları ilə fərqlənmiş və orada yaratdığı "Şərq alətləri orkestri"ni nümayiş etdirmişdir. R.Quiyev Niyazi, S.Rüstəmov, R.Abdullayev, N.Rzayev, R.Məlik-Aslanov, F.Kərimov, Y.Adıgözəlov, Ə.Quliyev, Y.İmanov, N.Əzimov, T.Göyçayev, A.Əliyev, A.Paşayev (Azərb.), N. Nekrasov, A.Mixaylov (Rusiya), V.Həqnəzərov (Özbəkistan), Daniel Klayner (Almaniya) və digər dirijorların rəhbərlik etdikləri orkestrlərin müşayiətilə Azərb. və dünya klassiklərinin əsərlərini ifa etmiş və lentə yazdırmışdır. R.Quliyev respublikada keçirilən bir çox müsabiqə və festivallarda münsiflər heyətinin sədri olmuşdur. R.Quliyev bir sıra dərsliklərin, proqramların, elmi məqalələrin və metodiki tövsiyələrin, xarici və Azərb. bəstəkarların əsərlərinin tar ilə fortepiano üçün köçürmələrinin müəllifidir. Dünyanın 30-dan artıq ölkəsində R. Quliyevin ifasinda muğamlar, xalq musiqisi nümunələri, Azərb. və xarici ölkə bəstəkarlarının əsərləri müxtəlif orkestrlərin müşayiəti ilə lentə alınmış, kütləvi tirajla çap olunmuşdur. Ramiz Quliyevin oğlu Əyyub Quliyev tarzən, dirijor, beynəlxalq müsabiqələr laureatıdır.

**QULİYEV Oqtay Süleyman oğlu** (22.09.1938 Şuşa ş., Malıbəyli k.) - tarzən, əməkdar incəsənət xadimi (2007), sənətşünaslıq namizədi (1979), professor (1990). ADMM-ni 1957 ildə bitirmiş, 1958-1963 illərdə ADK-da təhsil almışdır. 1957 ildə Moskvada keçirilmiş Ümumittifaq və VI Ümumdünya Gənclər və tələbələr festivallarının qızıl medalını almış və laureat adına layiq görülmüşdür. 1955-1963 illərdə AzTR X.Ç.A. orkestrində tarzən kimi çalışmışdır. 1970 ildən

ADK-da dərs demiş, tar ixtisası üzrə böyük bir musiqiçi nəsli yetişdirmişdir. "X.ç.a." kafedrasının müdiri vəzifəsində çalışmışdır. 2001 ildən AMK-nın tədris işləri üzrə prorektorudur. O.Quliyevin əsas elmi tədqiqat sahəsi alətşünaslıqla bağlıdır. "Azərbaycan xalq çalğı alətləri orkestri" monoqrafiyasının, çoxsaylı elmi məqalələrin müəllifidir.



*Tofiq Quliyev, bəstəkar*

**QULİYEV Tofiq Ələkbər oğlu** (07.11.1917, Bakı - 04.10.2000, Bakı) - bəstəkar, musiqi xadimi, əməkdar incəsənət xadimi (1958), xalq artisti (1964). 1957 ildən ABİ İdarə Heyətinin üzvü, 1968 ildən katibi, 1973 ildən birinci katibi, 1990-2000 illərdə sədri olmuşdur. ADK-da təhsil almış (1934-1936), Moskva konservatoriyasını və aspiranturasını (1951; 1954; bəstəkarlıq üzrə Y.Qolubevin, dirijorluq üzrə L.Ginzburqun siniflərini) bitirmişdir. 1954-1958 illərdə ADK-da orkestr sinfinə rəhbərlik etmişdir. 1961-1964 illərdə ADF-nin direktoru (1958-1959 illərdə bədii rəhbəri) olmuşdur. 1939 ildə Bakıda ilk caz-ork. təşkil edir. Müxtəlif illərdə Moskvada A.Sfasman və E.Roznerin ork.-ləri ilə işləmiş, Azərb. estrada ork-nə rəhbərlik etmişdir. T.Quliyev Azərb. estrada musiqisinin yaradıcılarındandır. Azərb. xalq musiqisi ənənələrindən faydalanan T.Quliyevin mahnıları kütləvi mahnı janrının gözəl nümunələrindəndir. T.Quliyevin musiqi dili sadə, aydın və milli koloritlidir. T.Quliyev yüzlərlə mahnı, 5 operetta, valslar, fortepiano üçün prelüd və variasiyalar, filmlərə və dram tamaşalarına musiqi və s. yazmışdır: "Neftçilər mahnısı", "Qızıl sünbül", "Azərbaycan", "Sənə də qalmaz", "İlk bahar", "Sevgilim", "Sən mənim, mən sənin", "Axşam görüşlərinə", "Bəxtəvər oldum" və s. T.Quliyevin Azərb. kino musiqisinin inkişafında da rolu vardır. O, "Sevimli mahnı", "Görüş", "Qızmar günəş altında", "Ögey ana", "Telefonçu qız", "Belə ada da vardır", "Nəsimi" və s. filmlərə musiqi bəstələmişdir. T.Quliyev "Aktrisa" (1943), "Qızılaxtaranlar" (1963), "Sənin bircə sözün" (1967), "Tahirin süqutu" (1972), "Sabahın xeyir, Ella!" (1973) operettalarının müəllifidir. T.Quliyev bir sıra Azərb. xalq mahnı və rəqslərini fortepiano üçün işləmişdir. O, "Rast" və "Zabul" muğamlarını (1936) ustad tarzən Mansur Mansurovun ifasından nota salmışdır. Bunlar muğamın ilk not nəşrləri kimi musiqi tarixinə daxil olmuşdur. *http://tofigguliyev.musigi-dunya.az*

**QULİYEV Zahid** Abdulla oğlu (1961, Cəbrayıl r-nu, Söyüdlü k.) - xanəndə. Qarabağ muğam ənənələrinin davamçısı. Atası Aşıq Abdulla Qarabağın məşhur aşıqlarından idi, dastanları və muğamları böyük məharətlə ifa edirdi. Professional musiqi təhsilini Z.Quliyev Bakıda almış, 1986 ildə ADMM-ni bitirmişdir. Sahib Şükürov, Nəriman Əliyev, Hacıbaba Hüseynov kimi muğam ustadlarından dərs almışdır. Həmin ildə o, Cabbar Qaryağdıoğlu adına respublika müsabiqəsində II yerə layiq görülmüşdür. 1986 ildə ADF-də Zahid Quliyev, Möhlət Müslümov (tar) və Fəxrəddin Dadaşovdan (kamança) ibarət Cabbar Qaryağdıoğlu ad. muğam triosu yaradılır. Onlar konsert proqramı ilə dünyanın bir çox ölkələrində çıxış edərək, Azərb. muğamını yüksək səviyyədə dünyada təbliğ etmişlər. Z.Quliyev bir xanəndə kimi geniş diapazonlu, təmiz və zəngin tembrli səsə, muğam sahəsində dərin biliyə malikdir. Onun repertuarı genişdir. Xanəndənin ifasında "Şur", "Mahur-Hindi", "Çahargah", "Bayatı-Şiraz" muğam-dəstgahları radionun qızıl fondunda saxlanılır. Fransa və Hollandiyada onun ifasında muğam-dəstgahlardan ibarət bir neçə disk buraxılmışdır. ■





## L

**LAD** (məqam) - Müxtəlif yüksəklikdə yerləşən səslərin bir-birinə tərəf meyl edərək, eyni zamanda bir sabit səs - tonika ətrafında birləşməsi; o cümlədən, həmin səsdən qurulan interval və ya akkord (adətən, tonika üçsəslisi) ətrafında cəmlənməsi. Ladı əmələ gətirən səslər "pillə" adlanır və tonikadan (I pillə) başlayaraq, yuxarıya doğru artan sıra ilə rum rəqəmləri ilə işarə olunur. Ladın hər bir pilləsi müəyyən funksiya (vəzifə) daşıyır. Ladlar bir-birindən səssırasının quruluşuna görə fərqlənir, yəni səslər arasındakı intervalın kəmiyyəti və keyfiyyəti, həmçinin ayrı-ayrı pillələr arasındakı qarşılıqlı münasibət ladın səssırasının quruluşunu müəyyən edən amildir. Bu, "ladın quruluş formulu" adlanır. Hər bir lad özünəməxsus adla adlandırılır.

*Bax: Melodik ladlar; Məqam; Ladtonallıq; Lad alterasiyası; Lad modulyasiyası.*

**LAD ALTERASİYASI** - Ladın qeyri-sabit pillələrinin yarımton əksildilməsi və ya artırılması; həmin pillələrin sabit pillələrə doğru cazibəsini gücləndirmək məqsədi daşıyır. Alterasiya sayəsində qeyri-sabit pillələr sabit pillələrə yaxınlaşır və xromatik intervallar sırası əmələ gəlir. Lad alterasiyası zamanı işarələr açarda deyil, notun yanında (təsadüfi işarə kimi) göstərilir.

**LAD MODULYASİYASI** - tonikanın (yəni tonallığın) saxlanılması şərtilə ladın dəyişdirilməsini nəzərdə tutur; başqa sözlə, eyniadlı tonallıqlar arasında modulyasiya: məs., Do majordan - do minora modulyasiya. *Bax: dəyişən lad.*

Şifahi ənənəli Azərb. musiqisində və bəstəkar yaradıcılığında milli ladlar arasında modulyasiyalar geniş tətbiq olunur. Lad modulyasiyası çoxsəsli musiqidə *(homofon-harmonik quruluşlu musiqi, polifoniya, heterofoniya)* forma-yaradıcı və bədii ifadə vasitəsi kimi istifadə olunur.

**LADTONALLIQ** - eyni vaxtda ladın və onun tonikasının (mayəsinin) təyin olunması: məs., lya minor; do rast, sol şur və s.

**LAL BARMAQ** - simli musiqi alətlərində ifaçılıq üsulu; mizrabın və yayın iştirakı olmadan (sol əlin barmaqları vasitəsi ilə) simin səsləndirilməsi.

**LAL PƏRDƏ** - xalq musiqi ifaçılığında istifadə olunan termin; simli musiqi alətlərinin qoluna çəkilmiş əsas (diatonik səsdüzümünə mənsub olan) pərdələrin arasında bağlanan əlavə pərdələr belə adlanır.

**"LEYLİ VƏ MƏCNUN"** - Üzeyir Hacıbəyovun yaratdığı ilk Azərb. operası. 1907 ildə yazılmış, 1908 ildə yanvarın 25-də Bakıda Tağıyev teatrında (hazırda Azərb. Dövlət Musiqili Komediya teatrının binası) tamaşaya qoyulmuşdur.

"Leyli və Məcnun" musiqi tarixinə bütün Şərqdə ilk opera kimi daxil olmuş və Azərb. musiqi mədəniyyətində yeni səhifə açmışdır. Opera Azərb. şairi Füzulinin (XVI əsr) "Leyli və Məcnun" poeması əsasında yazılmışdır. Libretto müəllifi Üzeyir Hacıbəyovdur. Operanın musiqisinin əsasını muğamlar, zərbi-muğamlar, təsnif və rənglər təşkil edir. Bütün bu musiqi materialını Ü.Hacıbəyov özünün bəstəkar təxəyyülünə uyğun olaraq işləmiş, operanın bir

*Hüseynqulu Sarabski Məcnun rolunda*



sıra musiqi parçalarını özü bəstələmişdir.
"Leyli və Məcnun"la Azərb. operanın yeni növünün – muğam operanın əsası qoyulmuşdur. O, Şərq musiqisinin ən yüksək inkişaflı forması olan muğamla Avropa musiqisinin ən böyük və mürəkkəb janrı olan operanın əsas cəhətlərinin qovuşmasından yaranmışdır. "Leyli və Məcnun"un bir çox bitkin səhnələri muğamlar üzərində qurulur. Burada muğam şöbələri opera ariyalarını, vokal ansamblllarını əvəz edir. Eyni zamanda, əsərin dramaturgiyasının inkişafında muğamlar mühüm rol oynayır. Ü.Hacıbəyov muğamların seçimində, onların süjet xəttinə uyğun ardıcıllaşmasında muğamların bədii-emosional təsir xüsusiyyətlərinə əsaslanmışdır.



*"Leyli və Məcnun" operasından səhnə*

Operada muğamlar nota yazılmamış, bəstəkar yalnız muğam şöbələrinin adını və onların əsasında oxunacaq sözləri qeyd etmişdir. Yalnız ork. epizodları, xor və ansambl səhnələri nota salınmış və orkestrləşdirilmişdir. Operanın əsas ifaçıları xanəndələrdir. Muğam hissələrini xanəndələr tarzənin müşayiəti ilə oxuyurlar. Hər bir xanəndə ifa etdiyi obrazın vokal partiyasını öz yaradıcılıq dəst-xəttinə uyğun olaraq təfsir edir. Bu da əsərin hər dəfə yeni ruhda səslənməsinə imkan yaradır.

Operanın ilk tamaşasının rejissoru Hüseyn Ərəblinski, dirijoru Əbdürrəhim bəy Haqverdiyev (sonrakı tamaşalarda Üzeyir Hacıbəyov) olmuşdur. Məcnun rolunun ilk ifaçısı Hüseynqulu Sarabski idi. Leyli rolunda ilk dəfə Əbdürrəhim Fərəcov, sonralar Əhməd Ağdamski çıxış etmişdir (ümumiyyətlə, XX əsrin 20 illərinə qədər teatr səhnəsində bütün qadın rollarını kişilər ifa edirdi). İlk tamaşadan başlayaraq, operanın muğam epizodlarını tarda Qurban Primov müşayiət etmişdir (sonralar tarzən Bəhram Mansurov və başqaları da müşayiətçi olmuşlar).

"Leyli və Məcnun" operası bir neçə dəfə səhnələşdirilmişdir. Rejissorlar S.Dadaşov, M.Məmmədov, F.Səfərov, H.Quliyev müxtəlif illərdə əsəri yeni quruluşda tamaşaya qoymuşlar. Məcnun və Leyli rolunun ifaçıları çox olmuşdur. Azərb. bir çox görkəmli xanəndələrinin yaradıcılığında bu obrazlar parlaq səhifə təşkil edir. Xanəndələrdən Əliövsət Sadıqov, Hüseynağa Hacıbababəyov, Əbülfət Əliyev, Bakir Haşımov, Qulu Əsgərov, Arif Babayev, Canəli Əkbərov, Alim Qasımov, Mənsum İbrahimov, Səbuhi İbadov (Məcnun), Süreyya Qacar, Həqiqət Rzayeva, Gülxar Həsənova, Rübabə Muradova, Sara Qədimova, Zeynəb Xanlarova, Nəzakət Məmmədova, Səkinə İsmayılova, Qəndab Quliyeva, Mələkxanım Əyyubova, Aygün Bayramova, Nəzakət Teymurova, Gülüstan Əliyeva (Leyli) və başqaları bu operada yaddaqalan obrazlar yaratmışlar.

Bəstəkar Nazim Əliverdibəyov operanın yeni ork. redaksiyasını hazırlamışdır. Operanın librettosu ilk dəfə 1912 ildə Bakıda Orucov qardaşlarının mətbəəsində, klaviri 1959 ildə, partiturası 1983 ildə çap olunmuşdur (baş redaktoru Qara Qarayev, redaktoru Nazim Əliverdibəyov, ön söz və şərhlərin müəllifi Zemfira Səfərova).

Operanın 100 illiyi ilə bağlı "Leyli və Məcnun" operasının "virtual muzey" kimi internet saytı hazırlanmışdır. Burada əsərin librettosu, audio- və video yazıları, notları, arxiv sənədləri, foto materiallar və s. toplanmışdır: *http://leyli-mejnun.musigi-dunya.az*

**LEYLİ VƏ MƏCNUN** – muğam şöbəsi. "Şur", "Şahnaz" dəstgahlarında "Muyə" ilə "Əbülçəp" şöbələri arasında ifa olunur.

**LEYTMOTİV** (alman: *leitmotiv* – aparıcı motiv) – musiqi əsəri boyunca dəfələrlə təkrarlanan kiçik melodiya, motiv, fraza, bütöv mövzu, bəzən müəyyən harmoniya və ya harmonik ardıcıllıq, ritmik fiqur, instrumental tembr və s. Leytmotiv, adətən, müəyyən personajı, ideyanı, anlayışı, emosiyanı, əşyanı, hadisəni səciyyələndirir. Opera, balet və proqramlı musiqidə geniş istifadə olunur. Muğamlarda da leytmotiv əhəmiyyətli mövzular özünü büruzə verir.

**LƏHN** (ərəb) – ***1.*** Səs, səda; ***2.*** Motiv; ***3.*** Ton, melodiya. "Ləhn – bir-birinə sevindirici, mehriban və xeyirxah münasibətdə olmaq sayəsində yaradılan xoş təranədir" (Səfiəddin Urməvi).





**LİBRETTO** (italyan: *libretto* – kitabça) – Opera, operetta, balet, musiqili dram, kantata, oratoriya və s. iri həcmli musiqi əsərlərinin ədəbi mətnidir. Libretto xalq dastan və nağıllarının, əfsanələrinin, yaxud professional bədii əsərlərin motivləri əsasında yaradılır. Libretto müəllifi şair və ya yazıçı, bəzən isə bəstəkar özü olur.

**LİNEARLIQ** (latın: *linea* – xətt) – musiqi mətnində yüksələn, enən və dalğavari şəkilli pilləvari hərəkətə əsaslanan hər bir ayrıca götürülmüş melodik xəttin quruluşuna deyilir.

**LİRA** – Qədim yunan musiqi aləti; daxilinə simlər çəkilmiş əyilmiş çərçivə şəklindədir. Liranın sxematik təsviri musiqi sənətinin emblemine çevrilmişdir.



*Qədim əlyazmada liranın təsviri*

**LİRİKA** (yunan: *"Lyra"* sözündən) – bədii ədəbiyyatın üç növündən (epos, lirika, dram) biridir. Lirikada qəhrəmanın daxili aləmi, şəxsi hiss və həyəcanları əks olunur. Musiqidə əsas lirik janrlar – romans, mahnı, instrumental miniatürdür. Lirik opera, lirik kantata və simfoniyalar da olur. Lirika muğamda aparıcı mövqeyə malikdir. Muğamın poetik və musiqi məzmununa liriklik xasdır.

**LÜFTPAUZA** (alman: *Luftpause* – yüngül pauza) – musiqi ifaçılığında kiçik fasilə. ■

## M

**MAANİ** – "Şur" muğam ailəsinə aid zərbi muğam. Muğam ifaçılığı təcrübəsində bu zərbi muğamı "Osmanlı" da adlandırırlar. "Maani" xalq şeiri mətnlərinə oxunur. Burada qəhrəmanın hiss və həyəcanları, sevgilisinə müraciəti, vüsal arzusu və iztirabı əks olunur. Musiqi mətni marşvari ritmdə olub, təmkinli xarakter daşıyır. Zərbi muğamın ifası, adətən, təsniflə tamamlanır. "Maani" zərbi muğamı xanəndə yaradıcılığında mühüm yer tutur. Seyid Şuşinski bu zərbi-muğamın ən yaxşı ifaçılarındandır. Onun ifasından "Maani" zərbi muğamı R.Zöhrabov tərəfindən nota salınmışdır (1986). "Maani" zərbi muğamından Ü.Hacıbəyov "Leyli və Məcnun" operasında İbn Səlamın partiyasında istifadə etmişdir.

**MAESTRO** (italyan: *maestro* – müəllim, ustad) – musiqi ifasına rəhbərlik edən şəxslərə (dirijorlar, konsertmeysterlər) hörmətli müraciət forması.

**MAHUR** (fars: uçurum, dərin yarğan) – "Rast" muğam ailəsindən olan muğam dəstgah adı. Azərb. musiqisində "Mahur"un iki növü işlənir: *I–Mahur-Hindi; II–Orta mahur*. "Mahur-Hindi"nin tonallığı tarın hansı kökdə olmasından asılıdır: əgər tarın ağ simi birinci oktavanın *do* səsi üzərində köklənmişsə, "Mahur-Hindi" *do rast* kökündə oxunacaqdır. "Orta mahur" isə "Mahur-Hindi"dən kvarta yuxarı (*fa rast*) ifa olunmalıdır.

**MAHUR-HİNDİ** – muğam dəstgahı. "Rast" muğam ailəsinə daxildir. "Rast" dəstgahından kvarta yuxarı qurularaq, onun variantını təşkil edir. Məqam-tonallığına görə do mayəli rasta əsaslanır. Məcmusu: "Bərdaşt", "Mayeyi-Mahur", "Üşşaq", "Hüseyni", "Vilayəti", "Şikəsteyi-fars", "Əraq", "Qərai" şöbə və guşələrindən ibarətdir. "Mahur-Hindi" şöbə tərkibinə görə "Rast" muğamına uyğun olsa da, xarakterinə görə fərqlənir və coşğun, əzəmətli, ehtiraslı səslənməyə malikdir.

**MAHURİ-MÜHƏYYƏR** (ərəb: mühəyyər, heyrətə gətirən) – muğam guşəsidir; "Mahur" muğamında "Əraq" şöbəsindən sonra ifa olunur. Bəzən "Rast" dəstgahında "Mayeyi-Rast"dan sonra ifa edilə bilir. Bəzən "Bayatı-İsfahan"dan "Bayatı-Şiraz"a qayıtmaq üçün istifadə olunur.

**MAKAM** (ərəb: yer, məkan) - Yaxın və Orta Şərq xalqlarının (ərəb, türk) şifahi ənənəli professional musiqisinin əsasını təşkil edən sistem; Şərq musiqi mədəniyyətində "makam" termini bir neçə məna daşıyır: sarayda musiqiçinin çıxışı üçün ayrılan yer; pərdə, simli musiqi alətinin qrifində barmağın tutduğu mövqe; Səs strukturu- modus, məqam səs sırası, melodiya tipi, melodik model; musiqinin inkişaf prinsipi; universal variasiya prinsipi və ya monodiyanın inkişafı; janr; improvizasiya modeli, bədii yaradıcılıq qanunları. Makam ərəb klassik musiqisi təfəkkür sistemi kimi səs materialının modal təşəkkülünə və onun xətti inkişafına əsaslanmanı; səssırası və onun əsasında qurulan melodik ibarələri, sabit obrazlı-emosional səciyyəyə malik müəyyən makama əsaslanan kompozisiya modelini; modal səssırasına, metroritmika tipinə əsaslanan musiqinin universal inkişaf prinsipini nəzərdə tutur. "Makam" termini səs tonlarının funksional differensasiyasına əsaslanan səssırasını bildirir. Ərəb makam sistemi 9 makam ailəsindən ibarətdir: rast, bayatı, nəhavənd, navasar (nakris), kurd, hicaz, əcəm, sika, saba (makamların növlərində alt tetraxordları ümumidir). Makam - ərəb musiqisində sabit quruluş xüsusiyyətlərinə malik janr, vokal-instrumental silsilə forma. *Bax: Makom, Muğam, Raqa, Dəstgah.*

**MAKOM** - Özbəkistan və Tacikistan xalqlarında şifahi ənənəli professional musiqi anlayışı, muğamın regional müxtəlifliyi. "Makom" termini bir neçə məna kəsb edir: ***1.*** Xüsusi fəlsəfi, sosial-etik və ya lirik-psixoloji konsepsiyanı təmsil edən melodiya-model (məs., Rost- gözəllik dərəcəsi və təbiilik, Buzruk- monumentallıq, Navo- musiqi, həyat özünütəsdiqliliyi); ***2.*** 12 lad (bütün "cəm" ladların XIII əsr siyahısı): üşşaq, navo, busəlik (Əbu Səlik), rast, irak, isfahan, zirəfkənd, buzurq, zəngulə, rəhəvi, hüseyni, hicaz; *şaşmakom* - 6 lad sistemi: buzruk, rast, navo, duqox, seqox, irok; ***3.*** Emosional-obrazlı modus, bu və ya digər lada aid, birhissəli və ya çoxhissəli vokal, vokal-instrumental və ya instrumental forma, solist və ya ansambl tərəfindən ifa oluna bilər; ***4.*** Şifahi ənənəli professional musiqinin janr sistemləri (Buxara şaşmakomu, Xorəzm makomu, Fərqanə-Daşkənd makomu, Dutar makomları, həmçinin surnay üçün makom melodiyaları).

**MAQNİTOFON** - səs siqnallarını maqnit lentinə və ya məftilinə yazan, sonra isə səsləndirən aparat. Bircığırlı və çoxcığırlı Maqnitofonlar monofonik və stereofonik yazma və səsləndirmə üçündür.

**MAQOMAYEV Müslüm (Əbdülmüslüm) Məhəmməd oğlu** (18.09.1885, Qroznı -28.07.1937, Bakı) - bəstəkar, dirijor, ictimai xadim, əməkdar incəsənət xadimi (1936). Qori seminariyasında təhsil almışdır. Musiqi ilə maraqlanmış və ilk əsərlərini bəstələmişdir. 1905-1911 illərdə müəllimlik etmişdir. 1911 ildən Bakıda fəaliyyət göstərmişdir. Ü.Hacıbəyovun ən yaxın dostu olmuşdur. 1912 ildən ömrünün axırınadək opera tamaşalarına dirijorluq etmişdir. "Şah İsmayıl" və "Nərgiz" operalarının, mahnı-rapsodiya, rəqs, marş və fantaziyaların müəllifidir. 300-dən artıq Azərb. xalq mahnı və rəqslərini nota salmışdır. 1928 ildə Q.Primovun ifasından "Rast" muğamını ilk dəfə olaraq nota yazmışdır.



*Müslüm Maqomayev, bəstəkar*

**MALIBƏYLİ Cümşüd** (1845, Şuşa, Malıbəyli k. - 1915, Şuşa) - xanəndə. Qarabağ xanəndəlik məktəbinin nümayəndəsi. Xanəndə kimi yetişməsində el şənliklərinin, muğam məclislərinin mühüm rolu olmuşdur. Zil səsi, coşğun və sürəkli zəngulə vurmaq bacarığı, aydın, rəvan diksiyalı oxuma tərzi ilə yadda qalmışdır. "Segah", "Şahnaz" "Orta Mahur", "Şüştər" muğamlarını, "Heyratı", "Qarabağ şikəstəsi" zərbi muğamlarını özünəməxsus üslubda oxumuş, qədim el mahnılarının ifasına öz yaradıcılığında böyük yer vermişdir. Azərb. və İranda geniş şöhrət qazanmış, musiqi məclislərinə dəvət olunmuşdur. Şuşanın musiqi həyatında, xüsusilə, XX əsrin əvvəllərində Şərq konsertlərində və opera tamaşalarında yaxından iştirak etmişdir. 1913 ildə Malıbəyli Cümşüdün ifasında "Mahur", "Rast", "Segah", "Şikəsteyi-fars" muğamları və bir neçə təsnif Kiyevdə "Ekstrafon" şirkəti tərəfindən qrammofon valına yazılmışdır.





**MALIBƏYLİ Həmid** (Qurbanov Həmid İmamqulu oğlunun təxəllüsü; 1869, Şuşa, Malıbəyli k. - 22.03.1922, Ağdam) - xanəndə, tarzən. Qarabağ muğam ifaçılığı ənənələrinin davamçısı. Xanəndəlik sənətini Hacı Hüsüdən öyrənmişdir. Zil və məlahətli səsi olmuş, "Rast" və "Segah" muğamlarını böyük ustalıqla oxumuşdur. 1910 ildə Malıbəyli Həmidin ifasında "Şur", "Rast", "Yetim Segah", "Hümayun" muğamları, bir çox təsnif və xalq mahnıları Riqada "Qrammofon" şirkəti tərəfindən qrammofon valına yazılmışdır. Səsi batdıqdan sonra tarzənliklə məşğul olmuşdur, Keçəçioğlu Məhəmməd, Məcid Behbudov, Məşədi Məmməd Fərzəliyev, İslam Abdullayev, Bülbül və b. xanəndələri tarda müşayiət etmişdir.

**MANƏNDƏ** (fars: bənzər, oxşar) - "Zabul Segahı" dəstgahında "Orta Segah"a keçməzdən əvvəl "Muyə" ilə "Segah" arasında yerləşən şöbə.

**MANƏNDİ-HASAR** (fars: *mənənd* - kimi, bənzər, oxşar; *manəndi-hasar* - hasara bənzər) - "Zabul Segah" muğamında "Bərdaşt" şöbəsindən sonra oxunan güşə.

**MANƏNDİ-MÜXALİF** (fars: *mənənd* - kimi, bənzər, oxşar deməkdir; *manəndi-müxalif* - müxalifə bənzər) - muğam şöbəsi. "Zabul Segah" muğamında "Muyə" və "Segah" arasında yerləşən şöbə. Ə.Bədəlbəylinin məlumatına əsasən, ilk dəfə xanəndə Xan Şuşinskinin şəxsi yaradıcılıq təşəbbüsü ilə "Mirzə Hüseyn Segahı" muğamında "Manəndi-müxalif"dən başlanıb sonra "Segaha" keçilmişdir. Belə halda "Manəndi-müxalif" oxunan dəstgahın müqəddiməsi mahiyyətini kəsb edir. Sonradan bu, muğam ifaçılığı təcrübəsində ənənəyə çevrilmişdir.

**MANSUROV Bəhram Məşədi Süleymanbəy oğlu** (12.02.1911, Bakı - 14.05.1985, Bakı) - tarzən, xalq artisti (1978). Tar çalmaq sənətini atasından və əmisi Mansur Mansurovdan öyrənmişdir. 1929 ildən Azərb. Dövlət Şərq Orkestrində, sonralar AzTR x.ç.a. orkestrində fəaliyyət göstərmiş, ADF-nin solisti olmuşdur. O, Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Hüseynqulu Sarabski, Həqiqət Rzayeva, Zülfi Adıgözəlov və digər görkəmli xanəndələri müşayiət etmişdir. Ustad tarzən kimi tarın bədii-texniki vasitələrindən məharətlə istifadə etmiş, mizrabi-dəstikari üsulunun - tarın qrifində sol əllə çalmaq üsulunun nadir ifaçılarından olmuş, Sadıqcan, Mirzə Mansur, Məşədi Süleymanın tar ifaçılığının davamçısı olaraq, bir çox texniki üsulları, mürəkkəb çalğı texnikasını yaşatmış və davam etdirmişdir. 1932 ildən ADOBT-nin solisti



*Bəhram Mansurov, tarzən*

və konsertmeysteri olmuş, uzun illər boyu muğam operalarını tarda müşayiət etmişdir. B.Mansurovun muğam operaları üçün müğənnilərin hazırlanmasında xidməti böyükdür. B.Mansurovun ifasından "Çahargah"(1970) və "Rast" (1978) muğamları nota salınmışdır (bəstəkar Nəriman Məmmədov tərəfindən). "Bayatı-Şiraz", "Hümayun", "Nəva-Nişapur", "Şur", "Bayatı-kürd", "Mahur-Hindi", "Çahargah" muğamları ilk dəfə olaraq, YUNESKO xətti ilə qrammofon valına yazılmışdır (1971, 1975). B.Mansurov musiqişünasların Səmərqənddə keçirilən beynəlxalq sinpoziumunun, "Bəstəkar və folklor" Ümumittifaq festivalının iştirakçısıdır (1978). 1941 ildən ADMM-də pedaqoji fəaliyyət göstərmiş, bir çox tarzənlərin ustadı olmuşdur.

**MANSUROV Eldar Bəhram oğlu** (28.02.1952, Bakı) - bəstəkar, əməkdar incəsənət xadimi (2005). ABİ üzvü (2007 ildən İdarə heyətinin katibi), Kinematoqrafçılar İttifaqının üzvüdür. 1968-1972 illərdə ADMM-də fortepiano ixtisası üzrə, 1974-1979 illərdə ADK-nın bəstəkarlıq fakültəsində, professorlar Cövdət Hacıyev və Arif Məlikovun sinfində təhsil almışdır. Müxtəlif illərdə pedaqoji fəaliyyət göstərmiş, ADMM-də, Azərb. Pedaqoji Universitetində, ADK-da, Respublika İncəsənət Gimnaziyasında, Türkiyənin İstanbul Universitetində müəllim vəzifəsində çalışmışdır. 1979 ildən AzTR musiqi verilişləri redaksiyasında redaktor, Səsyazma Evində səs rejissoru, televiziyanın musiqi verilişləri Baş redaksiyasında baş redaktor, BMTİ, "Lider" telekanallarında musiqi redaksiyasında çalışmışdır. E.Mansurov 2 balet, 5 simfoniya, 2 simfonik poema, Violin və ork. üçün Konsert, bir çox kamera və xor əsərlərinin, bir çox filmlərə və tamaşalara musiqinin, mahnıların müəllifidir. 1983 və 1987 illərdə Səmərqənddə keçirilən Beynəlxalq simpoziumda muğamların tarixi üzrə məruzələrlə çıxış etmişdir. Fransa, Almaniya və Rusiyada muğamlar haqqında elmi iş-

ləri dəfələrlə müxtəlif elmi məcmuələrdə çap olunub. "Muğam düşüncələrim" (1985) kitabçası, "Mansurovlar sülaləsinin tarixi" (2006) kitabı çap olunub. "Bəhramnamə" konsert layihəsinin müəllifidir. Görkəmli Azərb. xanəndəlrinin səs yazılırını bərpa edərək CD-DVD şəklində buraxdırmışdır.

**MANSUROV Mirzə Mansur Məşədi Məlik oğlu** (05.01.1887, Bakı - 30.06.1967, Bakı) - tarzən, pedaqoq, əməkdar incəsənət xadimi (1940). Tarzən Mirzə Sadıq Əsəd oğlunun ifaçılıq ənənələrindən bəhrələnmişdir. Mirzə Mansur "Rast", "Şur", "Segah", "Mahur-Hindi" və s. muğam dəstgahlarını ustalıqla çalmış, muğam nəzəriyyəçisi kimi tanınmışdır. 1922 ildən Azərb. Dövlər Türk Musiqi Məktəbində, 1926-1946 illərdə ADK-da dərs demişdir. Mirzə Mansurun ifasından "Rast", "Zabul" muğamları T.Quliyev tərəfindən, "Dügah" muğamı Z.Bağırov tərəfindən 1936 ildə nota salınmışdır. M.Mansurov Ü.Hacıbəyovun yaxın məsləkdaşı olmuşdur. 1925 ildə muğamat dərsləri üzrə ilk proqramın



*Bakı ziyalıları. Ayaq üstə soldan Mirzə Mansur*

yaradılması prosesində yaxından iştirak etmişdir. Eyni zamanda, Ü.Hacıbəyovun təşəbbüsü ilə tar alətini təkmilləşdirmişdir. Onun yeni quruluşda hazırladığı tar aləti Paris və İstanbul incəsənət sərgilərində nümayiş etdirilmişdir (1934).

**MARŞ** (fransız: *marche* - addımlamaq, irəli hərəkət etmək) - 4/4 ölçülü, xanədə dəqiq ritmə malik pyes (nadir hallarda 2/4 və ya 6/8 ölçüdə olur), kollektiv yürüşü müşayiət etmək üçün nəzərdə tutulur. Marş musiqisindən addımlayan insanların hərəkətini birləşdirmək üçün, onlarda müəyyən əhval-ruhiyyə yaratmaq üçün istifadə olunur. Marş xarakterinə görə müxtəlif növlərə bölünür: təntənəli marş, yürüşmarşı, qarşılama marşı, matəm marşı və s. Hərbi hissələrdə nəfəsli ork. tərəfindən ifa olunan nizami marşlar çox tətbiq olunur. Marşın müxtəlif növlərində öz əksini tapan bədii obrazlardan instrumental musiqidə və mahnılarda istifadə edilir. Azərb. musiqisində marş xarakterli rənglərə də rast gəlinir ("Heyratı", "Əraq" rəngləri). Qrammofon vallarında Azərb. xanəndələri C.Qaryağdıoğlunun, Keçəçioğlu Məhəmməd, Məşədi Məmməd Fərzəliyev, İ.Abdullayev və Ə.Abdullayevin birgə oxuduqları "Mən bir türkəm", "Ey vətəndaşlar" və s. kimi qədim türk marşlarının səs yazıları saxlanmışdır.

**MAVƏRƏNNƏHR** (ərəb) - *1.* Mərkəzi Asiyada tarixi vilayət. Səmərqənd və Buxara şəhərlərinin arasında, Amudərya və Sırdərya çayları sahilində yerləşən iri mədəniyyət mərkəzi; *2.* Muğam şöbəsi. "Dügah" dəstgahında "Ruh-ül-ərvah" ilə "Hüseyni" arasında yerləşən şöbə; "Rast" dəstgahında "Bayatı-Qacar" ilə "Bal-kəbutər" arasında; "Rahab" dəstgahında "Zəmin-xara" ilə "Bal-kəbutər" arasında; "Çahargah" dəstgahında "Zəmin-xara" ilə "Hicaz" arasında ifa olunur.

**MAYƏ** - *1.* Məqamın əsas sabit pərdəsi; məqamın digər pillələri mayəyə doğru meyl edərək, onun ətrafında cəmləşir. "Mayə" - özül, bünövrə deməkdir; *2.* Muğam dəstgahların birinci və ən əsas şöbəsi - məqamın mayəsinə istinad edir və "Mayə" şöbəsi adlanır: məsələn, "Mayeyi-Rast", "Mayeyi-Şur" və s. Muğam ifaçılığında bir qayda olaraq, dəstgah mayədən başlayaraq, bəm registrdən zilə doğru, şöbədən şöbəyə keçərək, inkişaf prosesində kulminasiyaya - zil mayəyə (mayənin oktavasına) çatdırılır. Muğamın mayəsi öz cazibə qüvvəsini dəstgahın əvvəlindən axırına kimi saxlayır və nəticədə, musiqi inkişafı yenidən mayəyə qayıdıb, mayədə, mayə pərdəsində tamamlanır.Orta əsrlərdə Yaxın Şərq xalqlarının musiqisində "Mayə" altı avazdan biri kimi göstərilir.

**MEDİANTA** (latın: *media* - orta) - *1.* Major-minor lad sistemində tonika və dominanta arasında yerləşən pillə: III (üst medianta) və VI (alt medianta) pillələr; *2.* Azərb. məqamlarında funksional əhəmiyyətli pillə. Üst medianta tonikadan üç pillə yuxarıda, alt medianta tonikadan üç pillə aşağıda yerləşir.

**MEDİATOR** (latın: *mediator* - vasitəçi) - bir sıra simli alətlərdə çalğı zamanı simləri hərəkətə gətirmək üçün istifadə olunan sümükdən, metaldan, taxtadan və ya bərk dəridən hazırlanan kiçik, iti uclu lövhəcik; mizrab, təzənə.





**MEHDİ ZƏRRABİ** - "Şur" muğamına mənsub şöbələrdən biri.

**MEHRALIYEV Nəriman Bahadır oğlu** (05.06.1916, Şuşa - 05.08.1983, Ağdam) - tarzən. Muğam sənətini atası Bahadır Mehralıoğlundan öyrənmiş, eyni zamanda, qaval, tütək, saz alətlərində gözəl çalmışdır. 1930 ildən Ağdamda pedaqoji və ifaçılıq fəaliyyəti ilə məşğul olmuşdur.Bir çox görkəmli muğam ifaçılarını yetişdirmişdir. H.Məmmədov, Ə.Dadaşov, Ə.Əliyev, X.Fərəcov, Q.Rüstəmov, O.Quliyev və b. ifaçılar onun yetirmələridirlər. 1958 ildən Ağdam musiqi texnikumunda dərs demiş, muğam proqramlarını tərtib etmişdir. Uzun müddət atasını muğam üçlüyündə müşayiət etmiş, eyni zamanda, onun sinfində konsertmeyster olmuşdur. Bir sıra mahnı və rənglərin yaradıcısıdır. Musiqişünaslar Ə.İsazadə, B.Hüseynli onun ifasından yaratdığı melodiyaları nota köçürmüşlər. Oğlu Aydın Mehralıyev də (03.10.1947) ailə ənənəsini davam etdirir, mahir tarzəndir. Ağdam musiqi məktəbinin müdiridir.



*Fatma Mehrəliyeva, xanəndə*

**MEHRƏLİYEVA Fatma Yusif qızı** (04.06.1926 -04.01.2000) - müğənni (lirik soprano), əməkdar artist (1956). Yaradıcılıq fəaliyyətinə "Sazçı qızlar" ansamblında (1940) başlamış, sonralar ansamblın solisti olmuşdur. 1940 illərdən ADF-nin solisti olmuş, geniş konsert fəaliyyəti göstərmişdir. Ü.Hacıbəyovun "Şəfqət bacısı" mahnısının ilk ifası ona uğur qazandırmışdır. İfa etdiyi muğamlar və mahnılar AzTR Fonduna daxildir. "Arşın mal alan" filmində (1945) Telli rolunu ifa etmişdir. Bir çox Azərb. muğamlarını məharətlə oxumuş, "Kəsmə-şikəstə"nin əvəzsiz ifaçısı olmuşdur.

**MELODİYA** (yunan: *melodiya* - mahnı oxumaq: *melos* - mahnı, *ode* - oxumaq) - Təranə, hava; müəyyən yüksəkliyə, uzunluq və cazibə qüvvəsinə malik (məqama və metrə əsaslanan) səslərin birsəsli qaydada ardıcıl birləşərək əmələ gətirdiyi quruluş. Musiqi əsərinin əsasını təşkil edən müxtəlif obraz və əhval-ruhiyyəni əks etdirməyə qadir olan mühüm ifadə vasitəsidir.

**MELODİKA** (yunan: melodik, mahnıvari) - *1.* Melodiya haqda elm; *2.* Musiqi yaradıcılığında melodik ifadənin həmahəngliliyi, özəl xüsusiyyətləri (məs., muğamın melodikası, Ü.Hacıbəyovun melodikası, Q.Qarayevin melodikası və s.).

**MELODİK LADLAR** - bir sabit səsə (tonikaya) doğru meyl edən və pillələr arasında, əsasən, sekunda melodik cazibəsinə əsaslanan ladlar. Melodik ladlar müxtəlif xalqların milli musiqisinin əsasını təşkil edir və peşəkar bəstəkarların yaradıcılığında istifadə olunur. Melodik ladlar diatonik və xromatik olur. Orta əsr diatonik ladlara: ionik, lidik, miksolidik, dorik, frigik, eolik ladlar aiddir; xromatik ladların tərkibi xromatik səssırasından (tonikadan yuxarı artırılmış və əksildilmiş intervallardan) ibarət olur; şifahi ənənəli Azərb. musiqisində istifadə olunan əsas ladlar: *rast, şur, segah, çahargah, şüştər, bayatı-şiraz, hümayun.*

**MELİZMLƏR** (yunan: *melismos* - xüsusi bir üsul üzrə oxuma) - melodiyanın ayrı - ayrı səsləri ətrafında gəzişmədən əmələ gələn melodik dönmələri, bəzəkləri göstərən xüsusi işarələr. Melizmlər bunlardır: *forşlaq, qruppetto, mordent, trel.*

**MELODEKLAMASİYA** (yunan: *melos* - mahnı + lat. *declamatio* - deklamasiya) - ifadəli, bədii qiraət olub, melodramatik xarakterli musiqi ilə müşayiət olunur.

**MELODİK MODULYASİYA** - melodiyada bir laddan digərinə keçid. Xalq və professional musiqi nümunələrində çox təsadüf olunan bir ünsürdür. Azərb. musiqisində melodik modulyasiya özünəməxsus cəhətlərə malikdir; bir laddan digərinə keçid müəyyən qanunauyğunluqlara tabe olub, məqam pillələrinin funksionallığına əsaslanır.

**MELOS** (yunan: *melos* - mahnı) - melodik element, musiqidə melodik başlanğıc.

**MEMARLIQ AKUSTİKASI** - məkan akustikası, hər hansı bir binada eşidilmənin keyfiyyətini bildirir; qapalı məkanlarda səsin müxtəlif hərə-

kətli yayılması haqqında ümumi məlumat (mühazirə, konsert zalları, səsyazma studiyaları) verir. Əsas məqsədi səsin düzgün, dəqiq, eyni şəkildə yayılmasını təmin etməkdən ibarətdir. Məkan akustikası istifadə olunan materiallarla, məkanın tavanının hündürlüyü, divarların paralel və qeyri-paralelliyi ilə ölçülür. Binanın inşasından çox şey asılıdır. Yaranmış defektləri bəzi hallarda elektron akustika vasitəsi ilə aradan qaldırırlar. Konsert və tamaşa zalında səhnənin akustikası mühüm əhəmiyyətə malikdir. *bax: akustika.*

**MENZURA** (latın: *mensura* - ölçü) - musiqi alətlərinin ölçüləri və müxtəlif hissələri arasında qarşılıqlı nisbət.

**MENZURAL NOTASİYA** (latın: *mensura* - ölçü, *nota* - işarə) - Qərbi Avropa musiqisində (XII-XVI əsrlər) yazı sistemi, səslərin həm yüksəkliyini, həm də uzunluğunu işarə edir.

**METRONOM** (yunan: *metron* - ölçü, *nomos* - qanun; ölçü qanunu) - metrin ölçüsünü dəqiq göstərmə yolu ilə əsərin tempini dəqiq müəyyənləşdirən cihaz; 1816 ildə İ.N.Metsel tərəfindən yaradılmışdır; ifaçıya rəqəmlərlə göstərilən tempi dəqiq təyin etməyə kömək edir:

**METRİKA** (yunan: ölçü, dərəcə) - Antik musiqi nəzəriyyəsində şeir ölçülərinə həsr olunmuş bölmə; onun qanunlarına əsasən musiqi ölçüsü ilə şeirin ölçüsü üst-üstə düşməlidir. Bu termin orta əsr musiqi nəzəriyyəsində də saxlanılır. Sonralar şeirin tədricən musiqidən ayrılması ilə bu nəzəriyyə qrammatikaya aid edilir. Yeni dövrdə metroritm poeziyanın bölməsinə çevrilmiş və tədricən musiqi nəzəriyyəsinə, musiqi metri haqda elmə aid edilmişdir.

**METSO-SOPRANO** (italyan: *mezzo* - orta və soprano) - orta registrli qadın səsi; soprano və kontralto arasında yerləşir. Diapazonu: kiçik oktavanın lya səsindən - ikinci oktavanın lya səsinə kimi. Xorda alt səsi - ikinci səs.

**MƏCLİS** - oturmaq yeri, yığıncaq yeri. Mədrəsədə "dərs otağı", "qəbul otağı", "görüş yeri" mənalarında istifadə olunur. Müasir dövrdə Türkiyə, İran və Azərb. parlament mənasında da istifadə olunur. Müsəlman ölkələrində məclislər ictimai və mədəni həyatda geniş yayılmışdır. Xüsusilə alimləri, şairləri, xanəndə və musiqi ifaçılarını özündə birləşdirən məclislər mədəniyyət tarixinin inkişafında mühüm rol oynamışdır. *Bax: Məclisi-üns, Məclisi-fəramuşan.*

*Tarzən Qurban Primov (ortada) musiqi məclisində*



**MƏCLİSİ-ÜNS** (ərəb: ülfət məclisi) - ədəbi məclis. 1864 ildə Şuşada, şair H.A.Agahın evində təşkil olunmuş, X.Natəvanın rəhbərliyi ilə 1897 ilədək fəaliyyət göstərmişdir. X.Natəvan, M.P.Fəna, M.Ə.Növrəs, A.H.Yüzbaşov, M.Məmai, M.S.Piran və b. şairlər məclisin fəal iştirakçıları idilər. Məclisə Qarabağ xanəndələri də dəvət olunur və şairlərin qəzəlləri əsasında muğamlar ifa edirdilər.

**MƏCLİSİ-FƏRAMUŞAN** (farscadan tərcümədə: unudulanlar məclisi) - ədəbi məclis. 1872 ildə M.M.Nəvvabın evində təşkil edilmiş, 1910 ilədək fəaliyyət göstərmişdir. M.M.Nəvvab, H.Qaradaği, F.Kəminə, A.Asi, M.Ə.Baki, B.Səbur, B.Fədai, M.Katib və b. şairlər məclisin fəal iştirakçıları idilər. Qarabağ xanəndələri də bu məclisdə yaxından iştirak edirdilər.

**MƏCMƏÜŞ-ŞÜƏRA** (ərəbcədən tərcümədə: şairlər yığıncağı) - ədəbi məclis. 1880 ildə Bakıda təşkil edilmişdir. M.Cürminin, sonralar isə A.Süreyyanın rəhbərliyi ilə təxminən 1915 ilədək fəaliyyət göstərmişdir. İ.Zülali, M.Dilxun, Ə.Vaqif, Ə.Cənnəti, Ə.Yusif, K.Salik, M.Müsəvvir, M.Azər və b. məclisin fəal üzvlərindən idilər. Məclisdə bəzən qonaq sifəti ilə Seyid Əzim Şirvani də iştirak edirdi. Məclisin üzvləri olan şairlərin qəzəlləri Abşeron xanəndələrinin muğam ifaçılığında geniş istifadə olunurdu.

**MƏCRA** (ərəb) - adsız barmaq.

**MƏDD** (ərəb) - səsi uzatmaq xassəsi.

**MƏDİHƏT** (ərəb) - nüfuzlu bir şəxsin ya da əlamətdar bir hadisənin şərəfinə oxunan şeir - musiqili kompozisiya.

**MƏQAM** (latın: *modus*; rus: *lad*) - musiqi səslərinin qarşılıqlı əlaqə sistemi; bu sistem qeyri-sabit səslərin sabit səslərdən (istinad pillələrindən) asılılığı ilə müəyyən olunur. Məqam bir-birinə tərəf meyl göstərən və bir sabit səs (mayə - tonika) ətrafında toplaşan müxtəlif yüksəklikli musiqi səslərinin qarşılıqlı münasibət sistemindən ibarətdir. Məqamda hər səsin, hər pərdənin öz mövqeyi və öz xüsusi keyfiyyəti var. Məqamı əmələ gətirən səslər *"pillə"* adlanır və I pillədən başlayaraq, yuxarıya doğru artan sıra ilə rum rəqəmləri ilə işarə olunur. Məqamın hər bir pilləsi müəyyən funksiya (vəzifə) daşıyır. Məqamlar bir-birindən *səssırasının* quruluşuna görə fərqlənir, yəni səslər arasındakı *intervalın kəmiyyəti və keyfiyyəti*, həmçinin ayrı-ayrı pillələr arasındakı qarşılıqlı münasibət məqamın səssırasının quruluşunu müəyyən edən amildir. Bu, "məqamın quruluş formulu" adlanır. Hər bir məqam özünəməxsus adla adlandırılır. *Bax: Melodik ladlar;*

Azərb. məqamlarının quruluş xüsusiyyətlərini XX əsrdə Ü.Hacıbəyov "Azərbaycan xalq musiqisinin əsasları" fundamental elmi əsərində üzə çıxarmışdır. Ü.Hacıbəyov öz məqam nəzəriyyəsində yeddi əsas məqamı göstərir: *rast, şur, segah, çahargah, bayatı-şiraz, şüştər, hümayun*. Həmçinin, üç əlavə məqam - şahnaz, sarənc, ikinci növ çahargah - qeyd olunur. Azərb. musiqi irsində bütün melodiyalar və musiqi əsərləri - muğamlar, zərbi muğamlar, təsnif və rənglər, xalq mahnı və rəqsləri, aşıq havaları bu məqamlar üzərində qurulur. Azərb. bəstəkarlarının yaradıcılığında da bu məqamlardan geniş istifadə olunur.

**MƏQAM ALTERASİYASI** - Məqamın qeyri-sabit pillələrinin *yarımton* əksildilməsi və ya artırılması; həmin pillələrin sabit pillələrə doğru cazibəsini gücləndirmək məqsədi daşıyır. *Alterasiya* sayəsində qeyri-sabit pillələr sabit pillələrə yaxınlaşır və xromatik intervallar sırası əmələ gəlir. Məqam alterasiyası zamanı işarələr açarda deyil, notun yanında (təsadüfi işarə kimi) göstərilir.

**MƏQAM MODULYASİYASI** - *tonikanın* (yəni tonallığın) saxlanılması şərtilə ladın dəyişdirilməsini nəzərdə tutur; *Şifahi ənənəli Azərbaycan musiqisində və bəstəkar yaradıcılığında milli ladlar arasında modulyasiyalar geniş tətbiq olunur.* Məqam modulyasiyası çox zaman formayaradıcı və bədii ifadə vasitəsi kimi istifadə olunur.

**MƏĞLUB** - muğam şöbəsi. "Çahargah" dəstgahında "Müxalif"dən sonra ifa olunur.

**MƏXLUT** (hərfi mənası: qarışıq, qatışıq, aşqarlı) - muğam guşəsi. "Zabul Segahı" dəstgahında "Orta segah"dan "Şikəsteyi-fars"a keçməzdən əvvəl çalınır.

**MƏLİKOV Arif Cahangir oğlu** (13.09.1933, Bakı) - bəstəkar, Azərb. xalq artisti (1978), SSRİ xalq artisti (1986), professor (1979). AMEA-nın müxbir üzvü (2001). Azərb. Dövlət mükafatı laureatı (1986). "İstiqlal" ordeni (1998) ilə təltif edilmişdir. ADMM-də tar ixtisası üzrə təhsil

almış, ADK-nı bəstəkarlıq ixtisası üzrə (Q.Qarayevin sinfini) bitirmişdir. 1958 ildən burada çalışır, bəstəkarlıq kafedrasının müdiridir. Yaradıcılığı genişdir. Baletləri dünyanın 65 ölkəsində teatr səhnəsində qoyulmuşdur. Bir çox əsərləri Çexiya, Bolqariya, Rumıniya, Polşa, Almaniya, Macarıstan, Finlandiya, Türkiyə, ABŞ, Yaponiya, İngiltərə, Fransa, Avstraliya, Misir və b. ölkələrdə səslənib. "Məhəbbət əfsanəsi", "Yer üzündə iki nəfər", "İki qəlbin poeması" baletlərinin, "Dalğalar" operettasının, 8 simfoniyanın, N.Hikmətin şeirlərinə bəstələnmiş romanslar, onlarla müxtəlif adlı simfonik əsərlər, kamera musiqisi, kino, teatr musiqisinin müəllifidir. Əsərlərində muğamlardan yaradıcılıqla bəhrələnmişdir. Xüsusilə Dördüncü və Altıncı simfoniyalarında muğam təfəkkür tərzi, dəstgahların quruluş prinsipi, bir məqam çərçivəsində inkişaf və daxili məzmunun vahidliyi kimi amillər bəstəkarın özünəməxsus dəst-xətti ilə üzvi surətdə əlaqələndirilmişdir.


*Arif Məlikov, bəstəkar*

**MƏMMƏDƏLİYEV Vasim Məmmədəli oğlu** (27.09.1942, Bakı) – ərəbşünas, filologiya elmləri doktoru (1974), professor (1979), əməkdar elm xadimi (1992), AMEA-nın müxbir üzvü (2001), AMEA-nın həqiqi üzvü (2007). İslam Konfransı Təşkilatı Müsəlman Hüququ Akademiyasının həqiqi üzvü, İraq Elmlər Akademiyasının müxbir üzvü, Türkiyə Elmi Araşdırmalar Vəqfinin fəxri üzvü. Misir Ərəb Respublikasının Misir ərəb dili Akademiyasının müxbir üzvü. "Şöhrət" ordeni (2002) ilə təltif olunmuşdur. Qafqaz Müsəlmanları İdarəsinin Elmi-dini Şurasının sədri. Bakı Dövlət Universitetini bitirmişdir. 1964 ildən burada çalışır. 1991 ildən "Ərəb filologiyası" kafedrasının müdiri, eyni zamanda, 1993 ildən "İlahiyyat" fakültəsinin


*Vasim Məmmədəliyev, şərqşünas-alim*

dekanıdır. Elmi yaradıcılığı ərəb dilçilik elminin dünya dilçilik elmində orijinal sistemə malik olması, onun nəzəri və metodoloji baxımdan Hind-Avropa dilçiliyindən fərqlənməsi, ərəb dilçiliyinin ilkin orta əsr dilçilik tarixində yeni söz olması, Avropa dilçilik elminə təsiri məsələlərinin öyrənilməsi ilə; "Qurani Kərim"in dil və üslub xüsusiyyətlərinin, ərəb ədəbi dilinin ən böyük abidəsi olması, ecazi və təkrar olunmazlığı, Azərb. dilinə tərcümə xüsusiyyətlərinin tədqiqi ilə, ərəb ədəbi dilindən fərqli olaraq bəzi ərəb dialektlərinin tipoloji baxımdan Azərb. dili ilə daha yaxınlığı problemlərinin tədqiqi ilə bağlıdır. 150-dən artıq elmi əsərin (monoqrafiya, dərslik, tərcümələr və elmi məqalələr), o cümlədən, "Ərəb dilçiliyi" (1985), "Kufə qrammatika məktəbi" (1988), "Azərbaycan dilinin ərəb qrafikası ilə ifadəsi" (Rabat, 2000, ərəb dilində), "Quran və elm" (2006) monoqrafiyalarının müəllifidir. Əsərləri muğam sənətinin tarixinin, muğam adlarının etimologiyasının öyrənilməsində əsas mənbələrdən biridir.

**MƏMMƏD OĞLU Ağa Mirzə Əli Əsgər Qarabaği** (XIX əsr, Şuşa) – xanəndə, muğam bilicisi. XIX əsr Azərb. musiqisinin və maarifçiliyinin ən görkəmli simalarından biri. Bir çox görkəmli muğam ustadlarının - Xarrat Qulu, Hacı Nəcəf bəy, Mirzə Səttar, Hacı Hüsü, Məşədi İsi, Mirzə Sadıq Əsəd oğlu kimi sənətkarların sələfi sayılır. Mirzə Əli Əsgərin yaradıcılığı çoxcəhətli olmuşdur. O, həm məlahətli səsə malik xanəndə, həm də əsl ustad bir kamançaçı idi. O, Azərb. musiqisini dərindən öyrənərək, onun özünəməxsus cəhətlərini üzə çıxarır və mahiyyətini şərh edərək, musiqiçilərə öyrədirdi. O, həmçinin, dövrünün qabaqcıl musiqi xadimi kimi, muğam sənətinin inkişafında mühüm rol oynamışdır.

**MƏMMƏDQULUZADƏ Cəlil Məmmədqulu oğlu** (ədəbi təxəllüsü: Molla Nəsrəddin; 10.02.1866, Naxçıvan - 04.01.1932, Bakı) - yazıçı, dramaturq, mütəfəkkir, jurnalist, ictimai xadim. "Molla Nəsrəddin" jurnalının yaradıcısı və redaktoru, realist-demokratik "Molla Nəsrəddin" ədəbi məktəbinin banisi. "Danabaş kəndinin əhvalatları" povestinin, "Ölülər", "Anamın kitabı", "Dəli yığıncağı", "Kamança" kimi klassik səhnə əsərlərinin, onlarca hekayə, novella, felyeton, oçerk və məqalələrin müəllifidir. Əsərlərində muğam sənətini yüksək dəyərləndirmiş, bir çox muğam ustadları ilə dostluq etmişdir.

**MƏMMƏDLİ Qulam Məmməd oğlu** (25.03.1897, Təbriz - 18.11.1994, Bakı) - jurnalist, ədəbiyyatşünas və teatrşünas, əməkdar mədəniyyət işçisi (1977). 1916 ildən mətbuatda çıxış etmişdir. "Kəndli qəzetəsi" (1930-1932), "Azərbaycan kolxozçusu" (1932-1935), "Yeni yol" (1937) qəzetlərinin, "Kirpi" jurnalının (1956-1959) redaktoru olmuşdur. Azərb. teatrı, Azərb. ədəbiyyatı və incəsənətinin bir çox klassikləri (C.Məmmədquluzadə, H.Ərəblinski, C.Zeynalov, H.Cavid, N.Nərimanov, Ü.Hacıbəyov) haqqında salnamələrin müəllifidir.

**MƏMMƏDOV Əlibaba Balaəhməd oğlu** (05.02.1930, Bakı ş., Maştağa k.) - xanəndə, xalq artisti (1989). Ə.Məmmədovun xanəndə kimi yetişməsində Bakının və Abşeron kəndlərinin özünəməxsus muğam mühiti böyük rol oynamışdır. Ə.Məmmədov musiqi təhsilini 1953-1958 illərdə ADMM-də xanəndə Seyid Şuşinskinin sinfində almışdır. 1945 ildən ADF-nin solisti, 1978-1988 illərdə "Azkonsert birliyi"nin solisti olmuşdur. 1968 ildə ADF-nin nəzdində maestro Niyazinin təşəbbüsü ilə "Hümayun" x.ç.a. ansamblını yaratmışdır və bu günə kimi həmin ansambla rəhbərlik edir (konsertmeysterlər: Tofiq Məmmədov, İdris Səmədov). Ə.Məmmədov Azərb. görkəmli xanəndələrinin ənənələrindən bəhrələnmiş və muğam sənətində öz yolunu açan ustad xanəndə kimi tanınmışdır. Muğam sahəsində geniş biliyi, bədii-texniki cəhətdən kamil ifaçılıq üslubu və daimi yaradıcılıq axtarışları onun sənətində özünü büruzə verir. Xanəndənin böyük məharətlə ifa etdiyi "Rast", "Bayatı-Şiraz", "Rahab", "Dəşti" və b. muğam-dəstgahlarının səsyazıları AzTR Fondunda saxlanılır. Ə.Məmmədov 100-dən artıq mahnı və təsniflər yaratmışdır ki, onlar xanəndələrin repertuarına daxil olmuşdur: "Yaşa məhəbbətim, yaşa ürəyim", "Gəl bizə, yar", "Bir dənəsən" və s. Füzuli, Vahid, M.Müşfiq, Süleyman Rüstəm, B.Vahabzadə kimi Azərb. şairlərinin sözlərinə yazılmış bu mahnılar AzTR Fondunda bir çox görkəmli xanəndələrin lent yazısında qorunub saxlanılır. Ə.Məmmədov pedaqoji və maarifçilik fəaliyyətinə böyük önəm verir. O, 1963 ildən BMK-də, 1988 ildən Bülbül ad. Orta İxtisas Musiqi Məktəbində muğamdan dərs deyir, gənc xanəndələr nəslinin yetişməsində böyük əmək sərf edir. Ə.Məmmədov muğam ifaçılığı sənətinə yeni qədəm qoyan gənclərin yaxın məsləhətçisi və sənət müəllimidir. O, dəfələrlə muğam müsabiqələrinin münsiflər heyətinin üzvü olmuşdur.


*Əlibaba Məmmədov, xanəndə*


*Hacı Məmmədov, tarzən*

**MƏMMƏDOV Hacı Məmməd oğlu** (28.04.1920, Şamaxı – 02.08.1981, Bakı) – tarzən, xalq artisti (1963). 1948 ildə Azərb. Dövlət Tibb Universitetini bitirmiş, 1949-1970 illərdə həkim-cərrah işləmişdir. Tarda çalmağı müstəqil öyrənmişdir. 1930-1948 illərdə Azərb X.Ç.A. Ork. işləmiş, 1949 ildən ADF-nin solisti olmuşdur. Muğamların və bəstəkar əsərlərinin orijinal

və mahir ifaçısı idi. H.Məmmədovun sənətkarlığının əsas xüsusiyyəti emosionallıq və virtuozluq kimi keyfiyyətlərin qovuş-masından ibarət idi. Onun ifasında "Orta Mahur", "Segah", "Çahargah", "Zabul", "Şur" muğamları, xalq musiqisi və bəstəkar əsərləri AzTR Fondunda qorunub saxlanılır. H.Məmmədov Bülbül, Seyid Şuşinski, Zülfi Adıgözəlov kimi xanəndələri müşayiət etmişdir. Bir çox xarici ölkələrdə (Belçika, Polşa, Macarıstan, İran, Suriya, Əlcəzair və s.) qastrol səfərlərində olmuşdur.

**MƏMMƏDOV Mürşüd Səlim oğlu** (21.08.1932, Ağdam r-nu, Muradbəyli k. - 26.04.1996, Bakı) - xanəndə. Qarabağ xanəndəlik məktəbinin tanınmış nümayəndəsidir. 1953 ildə Ağdam musiqi məktəbinə qəbul olunmuşdur. M.Məmmədov Seyid Şuşinskidən muğamları öyrənmiş və professional xanəndə kimi püxtələşmişdir. S.Şuşinski onun "Rast" və "Mahur" muğamlarını ifa etməsini yüksək qiymətləndirirdi. M.Məmmədov 1955 ildə Bakıda musiqi olimpiadasında iştirak etmiş, onun oxuduğu "Segah" muğamı dinləyicilər tərəfindən böyük rəğbətlə qarşılanmış və radioda lentə alınmışdır. Həmin illərdən başlayaraq, ADF-nin solisti kimi konsert proqramları ilə çıxış etmiş, qastrol səfərlərində olmuşdur. O, opera səhnəsində də qüvvəsini sınamış, muğam operalarında bir sıra rolları (İbn Səlam və Zeyd, Ü.Hacıbəyov - "Leyli və Məcnun") ifa etmişdir. M.Məmmədov geniş diapazonlu səsə malik xanəndə idi. Xüsusilə yuxarı registrdə onun səsi cingiltili səsləndirdi, şaqraq zəngulələri ilə fərqlənirdi. O, oxuduğu muğamın ruhuna dərindən nüfuz edərək, onun emosional bədii təsir qüvvəsini açmağa nail olurdu. AzTR Fondunda M.Məmmədovun ifasında "Bayatı-Şiraz", "Segah", "Zabul-Segah", "Rast", "Qatar", "Qarabağ şikəstəsi" muğamlarının, bir sıra mahnı və təsniflərin lent yazıları saxlanılır.

**MƏMMƏDOV Nəriman Həbib oğlu** (28.12.1927, Naxçıvan ş.) - bəstəkar, əməkdar incəsənət xadimi (1982), xalq artisti (2005), Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi (1974), professor (2006). ADK-da təhsil almış, C.Hacıyevin bəstəkarlıq sinfini bitirmişdir. ADMM-də, AMEA-nın MİI-də işləmişdir. BMA-nın Azərb. xalq musiqisinin tarixi və nəzəriyyəsi kafedrasında çalışır. Muğamları instrumental və vokal-instrumental şəkildə nota salmış və çap etdirmişdir. Nəşr olunan muğamlar: "Azərbaycan muğamları Çahargah və Hümayun" (Bakı, 1962), "Azərbaycan muğamları Bayatı-Şiraz və Şur" (Moskva, 1962)", "Azərbaycan muğamları Rast və Şahnaz" (Bakı, 1963), "Azərbaycan muğamları Segah-Zabul və Rəhab" (Bakı, 1965), "Azərbaycan muğamı Çahargah" (Moskva, 1970), "Azərbaycan muğamı Rast" (Moskva, 1978).

**MƏMMƏDOV Vəli Muxtar oğlu** ( 05.08.1933, Ağdam r-nu, Qaradağlı k.) - yazıçı-jurnalist, pedaqoq və xanəndə, muğam sənətinin tədqiqatçısı, filologiya elmləri namizədi (1964). Əməkdar müəllim. Azərb. Jurnalistlər Birliyinin və Azərb. Yazıçılar Birliyinin üzvüdür (1959). 1952-1957 illərdə Azərb. Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil almışdır. Həmin dövrdən gözəl səsi və ifaçılıq məharəti ilə diqqəti cəlb etmişdir. Tələbə özfəaliyyət kollektivində çıxış etmiş, 1957 ildə gənclərin və tələbələrin Moskvada keçirilən Ümumittifaq və VI ümumdünya festivallarının laureatı adına və qızıl medala layiq görülmüşdür. ADMM-də (1960-1964) görkəmli xanəndə Seyid Şuşinskidən ifaçılıq sənətinin sirlərini öyrənmişdir. Onun ifasında "Kürdü-Şahnaz", "Mirzə Hüseyn Segah", "Çahargah", "Bayatı-Şiraz","Heyratı", "Arazbarı", "Qarabağ şikəstəsi" muğamları, bir sıra mahnı və təsniflər qrammofon vallarına yazılmışdır. AzTR-də əbədi-musiqili verilişlərin, "İqtisadçının səsi" radio verilişinin müəllifi olmuşdur. 1966 ildən Azərb. Dövlət İqtisad Universitetində Azərb. dili kafedrasının dosentidir (1972-1982 illərdə kafedra müdiri). 1951 ildən Respublika mətbuatında elmi-metodik, publisist, dil, ədəbiyyat və xalq musiqisi məsələlərinə dair 350-dən artıq məqaləsi və 100-dən çox hekayələri çap edilib. H.B.Zərdabinin həyat və yaradıcılığı, "Əkinçi" və o dövrki müxtəlif mətbuat orqanları haqqında tədqiqat işləri, bədii və ifaçılıq sənətinə aid kitabları nəşr olunmuşdur: "Havalansın xanın səsi", "Füzulinin musiqi dünyası", "Muğam, söz, ifaçı" kitablarında muğam ifaçılarının portret oçerkləri öz əksini tapmışdır. Azərb. İqtisad Universitetində "Tər sətirlər" ədəbi məclisini və "Mədəniyyət universiteti"ni (1969-1989) yaratmış, müəllim və tələbələri bura cəlb etmişdir. Şairlər, musiqişünaslar, ədəbiyyatşünaslar, xanəndə və müğənnilər mədəniyyət universitetinin tədbirlərində yaxından iştirak etmişlər.

**MƏMMƏDOVA Nəzakət Əli qızı** (28.02.1944, Gəncə - 21.10.1981, Bakı) - müğənni (lirik-dramatik soprano), əməkdar artist (1974). ADMM-ni bitirmiş, Hacıbaba Hüseynovdan və Əhməd Bakıxanovdan dərs almışdır. Konsert fəaliyyətinə "Lalə" qızlar ansamblında başlamışdır. 1970-1981 illərdə ADOBT-nin solisti olmuş, bütün muğam operalarında əsas rolları oynamışdır. Leyli, Əsli, Xanəndə qız (Ü.Hacıbəyov - "Leyli və Məcnun", "Əsli və Kərəm", "Koroğlu"), Gülbahar (Ş.Axundova - "Gəlin qayası") obrazlarını özünəməxsus məharətlə yaratmışdır. Repertuarı muğamlardan, təsniflərdən, bəstəkar və xalq mahnılarından ibarət idi. Onun ifasında "Qatar", "Rast", "Şahnaz", "Segah" muğamları, "Sarı bülbül", "Qaragilə" xalq mahnıları AzTR Fondunda saxlanılır.

**MƏMMƏDOV Fehruz Əmirxan oğlu** (23.08.1972, Ağdam rayonu) - xanəndə, əməkdar artist (2005). Müasir dövrdə Qarabağ muğam ifaçılığı məktəbinin layiqli davamçılarından biri, xanəndə Səxavət Məmmədovun qardaşıdır. F.Məmmədov Xan Şuşinski ad. Ağdam muğam məktəbinin yetirməsidir. İlk müəllimi, Qarabağ xanəndəlik məktəbinin ənənələrini yaşadan və bu gün də yeni gələn xanəndələr nəslinin təlim-tərbiyəsində əməyini əsirgəməyən Əlisəfa Hüseynov olmuşdur. 1994-1997 illərdə F.Məmmədov təhsilini ADK-da, görkəmli xanəndə Arif Babayevin muğam sinfində davam etdirmiş, sənətini təkmilləşdirmişdir. F.Məmmədov Qarabağ xanəndələrinin yaradıcılığından bəhrələnərək, eyni zamanda, sənətdə qardaşı Səxavət Məmmədovun yolunu davam etdirir. Onların səsindəki və ifa tərzindəki oxşarlıq da bunu sübut edir. Bununla belə, F.Məmmədov özünəməxsus ifaçılıq üslubu, istedadı və zəhmətsevərliyi sayəsində xalqın rəğbətini qazanmışdır. Xanəndə İran, Türkiyə və b. ölkələrə qastrolları zamanı da Azərb. musiqi mədəniyyətini böyük məsuliyyət hissi ilə təmsil edir. Xanəndənin muğam və təsniflərdən ibarət bir neçə diski buraxılmışdır.

**MƏMMƏDOV Mirzə Muxtar Mirzə Əli Əsgər oğlu** (1841, Şuşa - 16.01.1929, Bakı) - xanəndə, muğam bilicisi, teatr xadimi. Muğamları dövrünün ən tanınmış muğam bilicilərindən biri olan atası Mirzə Əli Əsgərdən öyrənmişdir. 1897 ildə Şuşada göstərilən "Məcnun Leylinin məzarı üstündə" birpərdəli musiqili tamaşasında iştirak etmişdir. 1908 ilədək dram tamaşalarında çıxış etmişdir. "Leyli və Məcnun" operasının ilk tamaşasında Məcnunun atası rolunu oynamışdır. Digər muğam operalarında ("Əsli və Kərəm", "Şah Abbas və Xurşidbanu" və s.) müxtəlif rollarda çıxış etmişdir. Mirzə Muxtar muğam sahəsində dərin savada malik bir şəxs olmuşdur. Bir çox xanəndələr ondan muğam sənətinin qanun-qaydalarını mənimsəmişdir. Mirzə Muxtar xanəndələrə səsi qorumaq haqqında, davranış qaydaları ilə bağlı qiymətli məsləhətlər vermişdir. Onun tövsiyələri xanəndələr arasında dildən-dilə keçərək yaşayır.

**MƏMMƏDOVA Rəna Azər qızı** (27.02.1950 Bakı) - musiqişünas, sənətşünaslıq doktoru (1990), professor (1999), AMEA-nın müxbir üzvü (2001). ADK-nı bitirmişdir. AMEA-nın MİInin "İncəsənətin qarşılıqlı əlaqələri" şöbəsinin müdiridir. Azərb. xalq musiqisində - funksional təhlilin əsasları, musiqi türkşünaslığının, müqayisəli sənətşünaslığın əsasları problemlərinin tədqiqatçısı kimi tanınmışdır. Musiqişünaslıqda yeni istiqamət olan musiqi türkologiyasının əsasını qoymuşdur. 100-dən artıq elmi əsərləri - monoqrafiya, kitab və məqalələri çap olunmuşdur; o cümlədən, "Azərbaycan muğamlarının estetik xüsusiyyətləri" (1987), "Muğam-sonata qovşağı" (1989), "Azərbaycan muğamlarının funksional problemləri" (1989), "Azərbaycan muğamı" (2002) əsərlərində muğam sənətinin estetik və nəzəri məsələləri öyrənilmişdir.

**MƏMMƏDOV Səxavət Əmirxan oğlu** (23.10.1953, Ağdam r-nu, Abdal-Gülablı k. - 30.09.1991, Bakı) - xanəndə. Qarabağ muğam ifaçılığı məktəbinin layiqli davamçılarından biri. Səxavət Məmmədov erkən yaşlarından sənətə gəlmişdir. Məlahətlə oxuduğu el havaları və təsniflər onu xalqın sevimlisinə çevirmişdi. S.Məmmədovun professional sənət yolu isə 1970 illərdən başlayır. Əvvəlcə ADMM-də muğam sinfində, daha sonra isə ADMİU-də təhsil alır. Muğam sənətinin incəliklərini S.Məmmədov görkəmli muğam ustadı, xanəndə Hacıbaba Hüseynovdan öyrənir. Öz ifaçılıq üslubunda Qarabağ xanəndələrinin ənənələrini yaşadan S.Məmmədov həm də özünəməxsus oxu tərzi ilə fərqlənmişdir. O, səsinin incə çalarları ilə oxuduğu muğamların təfsirində yeni cizgiləri açmağa nail olmuşdur. S.Məmmədovun yara-



*Səxavət Məmmədov, xanəndə*

dıcılığında xüsusilə "Rast", "Şahnaz", "Mirzə Hüseyn Segahı" muğam dəstgahları, "Heyratı", "Səmayi-Şəms" zərbi muğamlarının təfsiri bənzərsiz keyfiyyətlərə malikdir. Xanəndə muğam-dəstgahların ifasına çox məsuliyyətlə yanaşır, onun bütün şöbələrini ardıcıllıqla və dəqiqliklə oxuyurdu. S.Məmmədov qədim xalq mahnılarına, aşıq havalarına diqqət yetirərək, onları öz repertuarına daxil etmiş, unudulmuş melodiyaları yenidən öz ifası ilə həyata qaytarmışdı. Bu baxımdan, onun oxuduğu "Sarı bülbül", "Azad bir quşdum" mahnıları və s. xalq arasında geniş yayılmışdır. Səxavət Məmmədovun xarici ölkələrə qastrol səfərləri də çox olmuş, Fransada, Almaniyada, İsraildə, Avstriyada, Nikaraquada, Hindistanda konsertləri böyük müvəffəqiyyətlə keçmişdir. Xanəndənin muğam və təsniflərdən ibarət diskləri Azərb., Ukraynada, Almaniyada buraxılmışdır.


*Tariyel Məmmədov, musiqişünas*

**MƏMMƏDOV Tariyel Aydın oğlu** (28.02.1949, Bakı) - musiqişünas, sənətşünaslıq doktoru (1989), professor (2005). 1974 ildə ADK-nı musiqişünaslıq ixtisası üzrə bitirmişdir. Elmi və pedaqoji fəaliyyətlə məşğuldur. Elmi tədqiqatlarının əsas mövzusu aşıq sənəti ilə bağlıdır. Bir neçə monoqrafiya və dərs vəsaitlərinin, o cümlədən, "Koroğlu mahnıları" (1984), "Azərbaycan aşıqlarının ənənəvi nəğmələri" (1988), "Sifahi ənənəli xalq-professional musiqisi" (2002) tədqiqat əsərlərinin, 100-dən artıq elmi məqalənin müəllifidir. BMA-nın "Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi" kafedrasında çalışır. ABİ üzvüdür. "Musiqi Dünyası" jurnalının baş redaktoru və naşiridir. Musiqi mədəniyyəti üzrə 25 Veb saytların müəllifi və rəhbəridir. Üzeyir Hacıbəyovun "Azərbaycan xalq musiqisinin əsasları", Ə.Bədəlbəylinin "İzahlı-monoqrafik musiqi lüğəti" elektron nəşrlərinin elmi redaktorudur. Bir sıra beynəlxalq konfranslarda (Özbəkistan, ABŞ, Litva, Belorus, Tunis) iştirak etmişdir. "Qarabağ xanəndələri" və "Muğam ensiklopediyası" layihələrinin koordinatoru və məsul redaktorudur.

**MƏMMƏDOV Yaqub Məhəmməd oğlu** (05.05.1930, Ağcabədi - 05.07.2002, Bakı) - xanəndə, xalq artisti (1991). Qarabağ xanəndəlik məktəbinin XX əsrin II yarısında yetişmiş orta nəslinin görkəmli nümayəndəsidir. Qarabağ torpağında boya-başa çatmış Yaqub Məmmədov professional musiqi təhsilini ADMM-də almışdır. Görkəmli xanəndə Seyid Şuşinskidən muğam dəstgahları, xanəndəlik sənətinin sirlərini öyrənmiş, həmçinin musiqi və poeziya sahəsində dərin biliklər qazanmışdır. Yüksək ifaçılıq mədəniyyətinə malik xanəndə gözəl səsi,


*Yaqub Məmmədov, xanəndə*

təkraredilməz oxuma tərzi ilə diqqəti cəlb etmişdi. O, bütün muğam dəstgahlarının gözəl bilicisi olmaqla yanaşı, həm də Azərb. poeziyasını dərindən bilirdi. Y.Məmmədov uzun illər ADF-nin solisti olmuş, konsertlərdə çıxış etmişdir. Onun ifasında qrammofon vallarına yazılmış muğam dəstgahları bütün Yaxın və Orta Şərqdə yayılmışdır. Ustad xanəndə kimi püxtələşmiş Y.Məmmədov sənətdə öz ənənələrini yaratmışdır. Öz dövrünün bir çox xanəndələri, eyni zamanda, yeni gələn nəsil onun yaradıcılığından bəhrə-lənmişlər.

**MƏMMƏDOVA Zümrüd Mövlud qızı** (1954, Quba) - xanəndə, əməkdar artist (1998), xalq artisti (2003). 1976 ildə ADMM-nin muğam şöbəsini, 1983 ildə ADMİU-nu bitirmişdir. 1978 ildən ADF-nin solistidir. Bir çox respublika və





beynəlxalq festivalların laureatıdır: Vyetnamda (1982) "Xalqlar Dostluğu" medalına, Yaponiyada (1989) "İpək yolu", Bağdadda (1999) "Babilistan" festivalında fəxri diploma layiq görülmüşdür. Yaponiyada muğamlardan ibarət diskləri çıxmışdır. Dünyanın bir çox ölkələrində Azərb. muğamını təmsil etmişdir. Z.Məmmədovanın repertuarına "Qatar", "Heyratı", "Şahnaz", "Qarabağ şikəstəsi", "Mənsuriyyə", "Çahargah", "Segah" kimi muğamlarla yanaşı, xalq və bəstəkar mahnıları da daxildir. 1998 ildən ADMİU-nin Muğam kafedrasında və AMK-nın nəzdində İncəsənət Gimnaziya-sında müəllim kimi çalışır. Həmçinin, 1990 ildən bu günə kimi Azərb. Respublikası Müdafiə Nazirliyinin Nümunəvi nəfəsli alətlər orkestrində hərbçi-müğənnidir. Tez-tez hərbi hissələrdə əsgərlər qarşısında konsertlər verir.

**MƏNİMSƏMƏ** - bilik, bacarıq və vərdişlərə yiyələnməyə yönəldilmiş əqli fəaliyyət. Muğam sənətində şifahi şəkildə müəllimdən şagirdə ötürülən biliklərin və musiqi materialının mənimsənilməsi əsas amildir. Bu zəmində informasiyanın yaddaşda qorunması və onun yaradıcılıqla mənimsənilərək yeniləşmiş tərzdə gələcək nəslə ötürülməsi muğam sənətinin inkişafında mühüm əhəmiyyətə malikdir.

**MƏNSURİYYƏ** - **1.**"Çahargah" muğamında "Müxalif"dən sonra zildə oxunan şöbə, muğamın kulminasiyası. **2.** "Çahargah" kökündə olan zərbi muğam. Eyni zamanda, "Çahargah" dəstgahının tərkibinə daxil olaraq, muğamın son şöbələrindən biri hesab olunur.

**MƏRSİYƏ** - **1.**Yaxın Şərq xalqları ədəbiyyatında şeir növlərindən biri; məzmunu matəmlə, hüznlə bağlı olduğundan kədərli xarakter daşıyır. **2.** Matəm nəğməsi. Musiqisi muğamların ən yanıqlı intonasiyaları üzərində tərtib olunduğuna görə təsirli səslənir, özünəməxsus üslub xüsusiyyətlərinə malikdir.

**MƏSİHİ** - muğam şöbəsi. *"Rahab"* muğamında *"Dilrüba"*dan, *"Rast"* dəstgahında *"Vilayəti"*dən sonra ifa olunan şöbə.

**MƏSNƏVİ** - **1.** Klassik şeir forması. Misraları qoşa qafiyələnir: aa, bb, cc və s. Məsnəvinin

*Mövlanə Cəlaləddin Rumi. Məsnəvi*



hər beytində bitkin bir fikir ifadə olunur. Məsnəvi forması, xüsusilə, poema janrı üçün səciyyəvidir. **2.** Muğam şöbəsi. Muğam təcrübəsində "Hümayun" və "Şüştər" muğamlarında "Tərkib" şöbəsindən sonra "Böyük məsnəvi", "Kiçik məsnəvi" kimi şöbələr ifa olunur.

**MƏŞƏDİBƏYOV Ağası Abutalıb oğlu** (1912-1984) - tarzən, bəstəkar, əməkdar incəsənət xadimi (1963). Ü.Hacıbəyovun təşkil etdiyi x.ç.a. ork. yaranmasında fəal iştirak etmişdir. 1946 ildə Gəncədə filarmoniya təşkil etmək üçün oraya göndərilmişdir. "Azərbaycan təranələri" adlı x.ç.a. ansamblı təşkil etmiş və uzun illər həmin ansamblın rəhbəri olmuşdur. "Toy kimindir" musiqili komediyasının, bir çox mahnıların müəllifidir.

**MƏŞƏDİ İSİ** ( . . . - 1905, Ağdam) - xanəndə. Musiqi təhsilini Şuşada, Xarrat Qulunun məktəbində almış, məşhur xanəndə Hacı Hüsünün "Xanəndələr məclisi"nin ən fəal üzvlərindən olmuşdur. Muğam ifaçılığı texnikasına dərindən bələd olan Məşədi İsi "Şur", "Hümayun", "Mahur" muğamlarını ustalıqla oxumuş, təsniflər müəllifi kimi də şöhrət qazanmışdır. Məşədi İsi Azərb. bir çox şəhərlərində, həmçinin, Orta Asiya və İranda çıxış etmişdir.

**MƏŞƏDİ MƏLİK MANSUROVUN MUĞAM MƏCLİSLƏRİ** - *Bax: Bakı muğam məclisləri.*

**MƏŞƏDİ ZEYNAL Haqverdiyev** (1861, Şuşa - 1918, Bakı) - tarzən. Mirzə Sadıq Əsəd oğlunun tar məktəbinin məşhur davamçılarından olmuşdur. Uzun müddət İslam Abdullayev, Məcid Behbudov, Seyid Şuşinski kimi xanəndələri tarda müşayiət etmiş, XX əsrin əvvəllərində Şuşa və Bakıda verilən Şərq konsertlərində şöhrət qazanmışdır. Məşədi Zeynal muğamların, xüsusilə, "Zabul" muğamının solo ifaçısı kimi də tanınmış, Ü.Hacıbəyovun Bakı, Şuşa və Tiflisdə göstərilmiş opera və operetta tamaşalarında çalmışdır.

**MƏVALİYAN** - "Hümayun" dəstgahının ilk şöbələrindən biri.

**MİNİATÜR** (italyan: *miniatura* - keçmişdə əlyazma kitablarını bəzəmək üçün istifadə edilən əlvan rənglər) - **1.** Orta əsrlərdə əlyazmalarda istifadə olunan kiçik rəsm illüstrasiyaları; həcminin kiçikliyi və bədii üsullarının incəliyi ilə fərqlənən təsviri sənət əsəri. Şərq ölkələrində, xüsusilə Azərb. inkişaf etmişdir. Təbriz miniatür məktəbinin nümayəndələri - Sultan Məhəmməd, Mir Müsəvvir, Mir Seyid Əli, Mirzə Əli Təbrizi və b. tərəfindən Firdovsinin, Nizaminin əsərlərinin əlyazmalarına çəkilən illüstrasiyalarda o dövrün musiqi həyatı, musiqi alətləri və ansamblları haqqında dolğun məlumatlar əldə etmək olur. **2.** Kiçik həcmli əşya; **3.** Musiqidə kiçik həcmli pyes.

**MİNZAF** - cəng (arfa) tərzində dartımlı simli musiqi aləti.

**MİR MÖHSÜN NƏVVAB** - *Bax: Nəvvab Mir Möhsün Hacı Mirəhməd oğlu .*

**MİR SEYİD ƏLİ** (XVI əsrin əvvəlləri, Təbriz - 1570 illər, Dehli) - XVI əsr Azərb. rəssamı, Təbriz miniatür məktəbinin nümayəndəsi. Təbrizdə Sultan Məhəmmədin başçılıq etdiyi saray kitabxanasında çalışmış, Firdovsinin

*Yektar alətində çalan gənc*







"Şahnamə" (1537) və Nizaminin "Xəmsə"sinin (1539-1543) əlyazmalarına illüstrasiyalar, Nizaminin əsərlərinin süjetləri əsasında müstəqil miniatürlər və portretlər çəkmişdir. "Məcnun Leylinin çadırı önündə", "Sarayda musiqi məclisi" və s. miniatürləri obrazların reallığı, kolorit zənginliyi və dekorativliyi ilə fərqlənir. Əsərləri Nyu-Yorkda Metropoliten muzeyində, Londonda Britaniya muzeyində, Kembricdə Harvard Universitetində, Parisdə Luvr muzeyində saxlanılır.

**MİRBABAYEV Seyid Mirtağı** (1867, Bakı - 1953, Tehran) - xanəndə. XIX əsrin sonu, XX əsrin əvvəllərində Bakıda yaşayıb-yaratmışdır. Orijinal ifaçılıq üslubuna, qüvvətli səsə malik xanəndə Bakı məclislərində çox məşhur olmuşdur. İfasında bir sıra muğamlar qrammofon vallarına yazılmışdır. Sonradan neft sənayesində tanınmış milyonçulardan biri olmuş və xanəndəlikdən uzaqlaşmışdır. Bəstəkar C.Cahangirov "Xanəndənin taleyi" operasında Seyid Mirbabayevin proobrazını yaratmışdır.

**MİRCAVADOV Mirməmməd Mirbaba oğlu** (04.10.1953, Bakı) - xanəndə, muğam bilicisi. 1987-1992 illərdə ADMM-də xanəndəlik təhsili alıb, Ağaxan Abdullayevin tələbəsi olub, eyni zamanda, xalq artisti Hacıbaba Hüseynovun dərslərindən bəhrələnib. M.Mircavadov Türkiyə, İran, Polşa və keçmiş SSRİ-nin bütün respublikalarında mədəniyyətimizi layiqincə təmsil edib. Əruz vəznini, şeiriyyəti gözəl bilməsi onun muğam ifaçılığında uğur qazanmasına çox kömək edir. Yüksək musiqi duyumu, gözəl qaval çalması, oxuduğu qəzəlləri aydın tələffüs etməsi Mirməmmədin ustad xanəndə olduğundan xəbər verir. M.Mircavadov vaxtaşırı televiziya kanallarında muğam-dəstgah və xalq mahnılarımızdan ibarət proqramla konsertlər verir.

**MİRİŞLİ Ramiz Aqil oğlu** (1934, Naxçıvan) - bəstəkar, xalq artisti (1990), professor (1993). Kamança və bəstəkarlıq ixtisasları üzrə təhsil almışdır. ADK-nı bitirmişdir (1962). Həmin ildən orada dərs deyir. 1989-95 illərdə Azərb. Dövlət Mahnı və Rəqs Ansamblının bədii rəhbəri olmuşdur. "Qaçırılmış qız" (1982), "Gəl, qohum olaq" (1983) operettalarının, 3 simfonik poemanın, kamera ork. üçün simfoniyanın, tar və simfonik ork. üçün konsertin, kamança üçün 3 konsertin, kantata və süitaların, bir çox dram əsərlərinə və kinofilmlərə musiqinin, mahnıların müəllifidir.

**MİRZƏ HÜSEYN SEGAHI** - "Segah" muğam ailəsinə daxil olan dəstgah. Azərb. musiqisində yaranmış "Segah" muğamının variantlarından biri. "Orta segah"dan kvarta yuxarıda ("lya" mayəli segah məqamı) ifa olunur. İlk dəfə Mirzə Hüseyn adlı Azərb. xanəndəsi (XVIII əsr) tərəfindən ifa olunduğundan onun adı ilə adlandırılmışdır.

**MİRZƏ FƏRƏC Rza oğlu Rzayev** (15.03.1847, Bakı - 27.03.1927, Bakı) - tarzən. İfaçılıq sənəti Bakı (Abşeron) muğam ifaçılığı məktəbi ilə bağlıdır. Tar ifaçılığını tarzən Şirazlı Əlidən öyrənmiş, sənətini təkmilləşdirmək məqsədi ilə bir müddət İranda yaşamış və muğam sənətinin dərin sirlərinə yiyələnmiş, qədim musiqi traktatları ilə tanış olmuşdur. Mirzə Fərəc Bakıda Məşədi Məlik Mansurovun musiqi məclislərinin fəal üzvü olmuşdur. Bir çox məşhur xanəndələrlə birgə çalışmışdır. Musiqi tarixi ilə yaxından maraqlanmış, muğam bilicisi kimi tanınmışdır. Üzeyir Hacıbəyovun rəhbərliyi ilə 1925 ildə muğam tədrisi üzrə ilk proqramın hazırlanmasında digər görkəmli muğam ustadları ilə yanaşı iştirak etmiş, "Muğam komisyonu"nun üzvü olmuşdur. Onun tərtib etdiyi muğam cədvəlləri o dövrün muğam ifaçılığı təcrübəsində mövcud olan muğamlar, onların tərkibindəki şöbə və guşələr barədə dolğun məlumat verir və müasir musiqi elmi üçün mühüm əhəmiyyətə malikdir.

**MİRZƏ FƏTƏLİ AXUNDOV ADINA AZƏRBAYCAN DÖVLƏT OPERA VƏ BALET TEATRI, (ADOBT)** - respublikanın ən böyük musiqi teatrı. Azərb. operasının tarixi 1908 il yanvarın 25-də Ü.Hacıbəyovun "Leyli və Məcnun" operasının ilk tamaşası ilə başlanır. Azərb. bəstəkarlarının bundan sonra yaranan bütün muğam

*Azərbaycan Dövlət Opera və Balet Teatrı*



operaları ADOBT-nin səhnəsində oynanılmış və "Leyli və Məcnun", "Şah İsmayıl", "Aşıq Qərib" kimi muğam operaları bu gün də səhnədədir. Fəaliyyəti dövründə ADOBT-də Azərb. və xarici ölkə bəstəkarlarının çox sayda opera və balet əsərləri səhnəyə qoyulmuşdur. Bir çox görkəmli müğənnilər bu səhnədə çıxış etmişlər. Azərb. muğam operalarının başlıca xüsusiyyəti burada bütün rolların xanəndələr tərəfindən ifa olunmasından ibarətdir. "Leyli və Məcnun" və digər muğam-operalarının ərsəyə gəlməsində muğam ifaçılarının məharəti mühüm əhəmiyyətə malikdir. Bu da xanəndəlik sənətində yeni bir istiqamətin - opera ifaçılığının yaranmasını və bununla əlaqədar olaraq, xanəndələrin opera aktyoru kimi hazırlanması məsələlərini irəli çəkdi. Bir çox xanəndələr ADOBT-nin solisti kimi bu gün də muğam operalarında uğurla çıxış edirlər. Səkinə İsmayılova, Qəndab Quliyeva, Nəzakət Teymurova, Mənsum İbrahimov, Səbuhi İbayev və başqaları teatrın solistidirlər. ADOBT-nin direktoru, əməkdar incəsənət xadimi Akif Məlikovdur.

**MİRZƏ FƏTƏLİ AXUNDOV ADINA AZƏRBAYCAN MİLLİ KİTABXANASI** - Azərb. Respublikasında ən böyük kitabxana, respublikada çap olunan əsərlərin dövlət kitab saxlayıcısı, kitabxanaşünaslıq və biblioqrafiya üzrə elmi-metodik mərkəz. 1939 ildə M.F.Axundovun adı verilmişdir. Nadir kitablar bölməsində tarix və elmi əhəmiyyətə malik qiymətli əsərlər saxlanılır. Azərb. ədəbiyyatı klassiklərinin əsərlərinin nadir nüsxələrəi, Təbriz, İstanbul, Qahirə, Tehran və b. yerlərdə Azərb. dilində buraxılmış bir çox çap məhsulları kitabxananın qızıl fonduna daxildir. Milli kitabxananın direktoru Kərim Tahirovdur. *www.anl.az*

**MİRZƏ GÜLLƏR** (XIX əsr, Sabirabad r-nu, Cavad k. - Şamaxı) - xanəndə. XIX əsrdə yaşayıb-yaratmış ilk Azərb. peşəkar xanəndə qadın. O dövrdə qadınların çadrasız məclislərdə görünməsi yasaq olduğuna görə kişi paltarında çıxış etmişdir. 1890 illərdən Şamaxıda xanəndəlik etmiş, xanəndə Mirzə Məhəmmədhəsənin yaradıcılığından bəhrələnmiş, Şamaxı musiqi məclislərində həmişə fəal iştirak etmişdir. Azərb. digər bölgələrində də el məclislərində məşhurlaşmışdı. "Şur", "Mahur-Hindi", "Rast", "Segah", "Heyratı-Kabili", "Bayatı-Şiraz", "Bayatı-Qacar" muğamlarını Mirzə Güllər xüsusi məlahətlə oxumuşdur. 1914 ildə Kiyevdə "Monarx-Rekord" "Ekstrafon" səsyazma şirkətində Mirzə Güllərin ifasında bir neçə muğam və mahnılar qrammofon valına yazılaraq, xanəndəyə böyük şöhrət gətirmişdi.

**MİRZƏ MƏHƏMMƏDHƏSƏN İsmayıl oğlu** (1851, Şamaxı - 1917, Şamaxı) - xanəndə. Yaradıcılığına Şirvan bölgəsinin musiqi həyatının, xüsusilə də Şamaxılı mesenat Mahmud ağanın sarayında təşkil olunan muğam məclislərinin böyük təsiri olmuşdur. Onun ilk muğam müəllimi Kərbəlayı Əkbər Mahmud ağanın sarayında xanəndə idi. Gənc Məhəmmədhəsən dini mərasimlərdə iştirak etmiş, Kərbəlayı Əkbərdən muğam və təsnifləri dərindən öyrənmişdir. Onun istedadını dəyərləndirən Mahmud ağa onu öz sarayına dəvət etmişdir. O, burada püxtələşərək, dövrünün mahir xanəndələrindən biri kimi tanınmış, hətta muğam məclislərində Hacı Hüsü, Əbdülbaqi Zülalov kimi ustad xanəndələrlə yarışa girmişdi; muğamatı və poeziyanı dərindən bildiyinə və özü də şeirlər yazdığına görə onu "Mirzə" çağırırdılar. O, təkcə Azərb. deyil, Zaqafqaziyanın hər yerində çox məşhurlaşmışdı. O, "Şur", "Şüştər", "Hümayun", "Rast" muğamlarını, xüsusilə, "Mənsuriyyə" zərbi muğamını böyük məharətlə oxumuşdur. "Sarıtorpaq şikəstəsi"nin, xanəndələrin repertuarına daxil olmuş bir çox təsniflərin yaradıcısı hesab olunur. Mirzə Məhəmmədhəsən həm də şair olmuşdur. Onun qəzəllərindən muğam ifaçılığında istifadə olunur. Ömrünün son illərində o, kor və kar olmuş, həyatı ağır ehtiyac içində keçmişdir. O, bütün duyğularını öz şeirlərində təcəssüm etdirmişdir. Onun "Nalə" adlı şeirlər kitabı 1916 ildə çap olunmuşdur.

*Mirzə Sadıq Əsəd oğlu (Sadıqcan), tarzən*



**MİRZƏ SADIQ Əsəd oğlu, Sadıqcan** (1846, Şuşa - 1902, Şuşa) - tarzən, müasir Azərb. tarının yaradıcısı. 17-18 yaşlarından Mirzə Sadıq tütək, ney, kamança çalmağı öyrənmiş, məşhur musiqiçi Mirzə Əli Əsgər Qarabağidən tar dərsi almışdır. O, virtuoz tarzən kimi Zaqafqaziyada, İranda geniş şöhrət qazanmışdı. Xalq arasında sevilərək, "Sadıqcan" çağırılmışdır. O, Hacı Hüsü, Məşədi İsi, Keştazlı Haşım, Əbdülbaqi Zülalov, sonralar Cabbar Qaryağdıoğlunu tarda müşayiət etmişdir. O, Şuşada "Şərq konsertləri"ndə çıxış etmiş, 1890 illərdə yaratdığı ansamblla Azərb.-ın bir çox şəhərlərində, Aşqabadda, Tehranda və İstanbulda konsertlər vermişdir. 1897 ildə Şuşada göstərilən birpərdəli "Məcnun Leylinin məzarı üstündə" tamaşasının musiqi hissəsinin tərtibatçısı olmuşdur. Sadıqcan 1875-78 illərdə tar alətinin quruluşunu dəyişmiş, Azərb. xalq musiqisinin və muğamatın xüsusiyyətlərini nəzərə alaraq, tarın səs düzümünü yeni qaydada tənzimləmiş, onları xromatik qaydada düzmüşdür. O, tara cingənə və kök simlər əlavə etmiş, onların sayını 5-dən 11-ə çatdırmış, tarın gərilməsinin qarşısını almaq üçün onun çanağının içərisinə ağac dayaq artırmışdır. Əvvəllər diz üstündə tutulan tarı Mirzə Sadıq ilk dəfə sinədə çalmışdır. O, tarda ifaçılıq üslubunu təkmilləşdirmiş, onu mükəmməl solo aləti səviyyəsinə qaldırmışdır. Sadıqcanın tar modeli üzrə düzəldilən tarlar Zaqafqaziya, Dağıstan, Orta Asiya və İranda geniş yayılmışdır. O, tarda "zabul" pərdəsini müəyyənləşdirmiş, "Mahur", "Segah" muğamlarına yeni şöbələr əlavə etmiş, bir sıra təsnif, rəng və mahnıların müəllifi kimi tanınmışdır. Azərb. tarzənlərindən Qurban Primov, Məşədi Zeynal, Malıbəyli Həmid, Məşədi Cəmil Əmirov, Şirin Axundov Mirzə Sadıq Əsəd oğlunun məktəbinin yetirmələri və davamçıları olmuşlar.

**MİRZƏ SƏTTAR** (1844, Ərdəbil - . . . , Bakı) - kamança ifaçısı. Eyni zamanda, tar, saz, qarmon alətlərində gözəl çalmış, muğamları pəstdən məlahətli səslə oxumuş, muğam bilicisi olmuşdur. 1879 ildən Bakıda fəaliyyət göstərmiş, Məşədi Məlik Mansurovla dostluq əlaqələri saxlamış, musiqi məclislərində yaxından iştirak etmişdir. Bakıda bir çox sənət adamları ondan bəhrələnmişlər. Məşədi Məlik Mansurov, şair Ağakərim Salik, tarzən Mirzə Fərəc Mirzə Səttardan muğamları dərinliklərinə kimi öyrənərək püxtələşmişlər.

**MİRZƏBƏY** (Həmədan) - azərb. musiqişünas alim; XVII əsrin I yarısında yaşayıb-yaratmışdır. "Risaleyi musiqi" əsərinin müəllifidir. Özündən əvvəlki musiqişünasların yaradıcılığından bəhrələnmiş, dövrünün musiqi təcrübəsinə istinad edərək, muğamları şərh etmişdir. Xüsusilə onun elmi baxışlarında Dərviş Əlinin böyük təsiri hiss olunur. Mirzəbəy öz traktatında dövrünün musiqiçilərindən söhbət açmış, onların ifaçılıq üsulunu da şərh etmişdir. Əsərdə digər traktatlardan məlum olan "Novruz", "Mayə", "Şahnaz", "Gərdaniyyə" avazları ilə yanaşı, "Həsrək", "Hasar", "Bədəl" avazlarının da adını çəkmişdir.

**MİRZƏBƏYOVA Rüxsarə Hadi qızı** (05.12.1909, Bakı - 04.03.1977, Bakı) - pianoçu. Muğamların pianoda ilk qadın ifaçısı kimi tanınmışdır. Kiçik yaşlarından musiqili bir mühitdə böyümüş, pianoda xalq mahnı və rəqslərini və muğamları çalmağı öyrənmişdir. Ü.Hacıbəyov onun istedadını yüksək qiymətləndirmişdir. O, Xədicə Qayıbovadan dərs almış, onun açdığı musiqi kurslarında ifaçılığını təkmilləşdirmişdir. 1930 illərdə konsertlərdə çıxış etmiş, Hüseynqulu Sarabskini, Hüseynağa Hacıbababəyovu pianoda müşayiət etmişdir. 1940-1957 illərdə Əhməd Bakıxanovun rəhbərliyi ilə x.ç.a. ansamblının solisti olmuşdur. ADMM-də fortepino müəllimi olmuş, muğamat sinfinə rəhbərlik etmiş, xalq musiqisini və muğamları musiqiçilərə öyrətmişdir. "Zabul Segah", "Rast" muğamlarının mahir ifaçısı olmuşdur.

**MİRZƏCAN** - ənənəvi aşıq havası; xanəndələrin repertuarına daxil olmuşdur.

**MİRZƏYEV Baba Mahmud oğlu** (07.11.1940, Qazax - 06.12.2006, Bakı) - xanəndə, xalq artisti (1992). Musiqi təhsilini ADMM-də almışdır. Burada onun sənət müəllimi Azərb. görkəmli xanəndəsi Seyid Şuşinski olmuşdur. O, bu xanəndədən muğam ifaçılığının qayda-qanunlarını mənimsəyir və öz ifaçılıq məharətini təkmilləşdirir. B.Mahmudoğlunun ifaçılığında ruh yüksəkliyi, virtuoz ifaçılıq texnikası və artistizm özünü qabarıq bürüzə verir. Onun yaradıcılıq axtarışları təkcə muğam sənəti ilə məhdudlaşmamışdır. O, xalq musiqi yaradıcılığını dərindən bilməsi sayəsində çoxsaylı xalq mahnılarını və aşıq havalarını zövqlə ifa edərək, onları həm muğam ifaçıları, həm də geniş

dinləyici auditoriyası arasında populyarlaşdırmışdır. Baba Mahmudoğlu ADF və ADOBT solisti olmuşdur. Xanəndə bu teatrın səhnəsində muğam operalarında bir sıra yadda qalan obrazlar yaratmışdır: Məcnun və İbn-Səlam (Ü.Hacıbəyov - "Leyli və Məcnun"), Şah İsmayıl (M.Maqomayev - "Şah İsmayıl"), Aşıq Qərib (Z.Hacıbəyov -"Aşıq Qərib") obrazları bu qəbildəndir. O, həmçinin, Ü.Hacıbəyovun "Koroğlu" operasında Təlxək surətini özünəməxsus ustalıqla yaratmışdır. Xanəndə xarici ölkələrdə də Azərb. muğamlarının, xalq mahnı və təsniflərinin mahir ifaçısı kimi tanınmışdır.

**MİS ALƏTLƏR** - bürüncdən, bəzən digər metallardan hazırlanan nəfəs alətləri. Simfonik ork. xüsusi qrup təşkil edir. Eyni zamanda, müstəqil nəfəsli ork. tərkibinə daxildir (bir sıra ağac nəfəsli alətlərlə birgə). Bəzi hallarda mis nəfəsli alətlərdən solo və ansambl alətləri kimi istifadə olunur. Mis nəfəsli alətlərə truba, valtorna və s., həmçinin, bir sıra *xalq çalğı alətləri* (*kərənay*) aiddir.

**MİSLAS** (ərəb) - ud musiqi alətində "bəm" simdən sonra gələn ikinci sim (birinci oktavanın *fa* səsi).

**MİZƏF** - qədim simli musiqi aləti.

**MİZHAR** - qədim dartımlı simli musiqi aləti.

**MİZMAR** - **1.** Qara rəngli xüsusi qamışdan hazırlanan nəfəsli musiqi aləti; **2.** Boğazda səs yolu.

**MİZRAB** - dartımlı simli musiqi alətlərinin (tar, ud) simlərini dartıb ehtizaza gətirmək üçün mal buynuzundan (bəzən sümükdən, ya da plastmasdan) düzəldilən nazik plastinka. Qanun musiqi aləti üçün mizrab metaldan hazırlanır. Saz mizrabı gilənar ağacının qabığından düzəldilir və "təzənə" adlanır.

**MİZRABİ-DƏSTİKARİ** - tarın qrifində sol əllə çalmaq üsulu.

**MOALİF** - "Hümayun" dəstgahının əvvəlində, "Bəxtiyari" ilə "Leyli və Məcnun" şöbələri arasında ifa olunan parça.

**MODERATOR** (latın: *moderator* - zəiflədən, tutub saxlayan) - *pianino* və *royal*da səsi zəif lətmək üçün istifadə olunan mexanizm.

**MODULYASİYA** (latın: *moduiatio* - ölçmə; italyan: *modulazione* - səs keçidləri, intiqal) - bir tonallıqdan digərinə, eləcə də məqamına görə fərqlənən eyniadlı tonallığa keçid. Modulyasiya melodiya və harmoniyanı yeni çalarlarla zənginləşdirir, akkordların funksional əlaqəsini genişləndirir, musiqinin gərgin, dinamik inkişafına səbəb olur. Musiqi əsərinin kompozisiyası və hissələrinin qarşılıqlı əlaqəsində modulyasiya əhəmiyyətli rol oynayır. Muğam dəstgahların inkişaf prosesində bir məqamdan digərinə keçid mühüm əhəmiyyətə malik olub, kompozisiyaya rəngarənglik gətirir.

**MOLLA NAZİ** - "Şur" dəstgahında "Səlmək" ilə "Büzürk" arasında olan şöbə. Başqa mülahizəyə görə, "Bayatı-Qacar" ilə "Həzin" arasında yerləşən şöbə.

**MOLLA PƏNAH VAQİF** - *Bax: Vaqif.*

**MONOTEMATİZM** (yunan: *monos* - bir + *thema* - haqqında danışılan predmet) - musiqi əsərinin bir mövzu əsasında qurulması.

**MONODİYA** (yunan: *monos* - bir + *ode* - oxuma) - bir melodiyanın bir səsli ifası; solo və ya ansamblla (unison və ya oktava münasibətində) müşayiətsiz ifa.

**MONOXORD** (yunan: *monos* - bir + *chorde* - sim) - birsimli, ilk dəfə qədim Yunanıstanda səsin keyfiyyətini öyrənmək üçün yaradılmış alət.

**MONOTON** (yunan: *monos* - bir + *tonos* - gərginlik) - yeknəsək, eyni səsdə təkrar olunan, eyni qüvvətlə - yüksəlib enmədən səslənmə.

**MORDENT** (italyan: *mordente* - iti, dişləyən) - melizm növlərindən biri; üç notun ardıcıl cəld ifası nəzərdə tutulur.

**MOTİV** (italyan: *motivo*; alman: *motive*; latın: *moveo* - hərəkətə gətirirəm) - **1.** Ən kiçik musiqi quruluşu, bir neçə səsin bir vurğu altında birləşdirilməsini nəzərdə tutur; **2.** Müstəqil əhəmiyyətə malik melodik ibarə; **3.** Əsərdə mövzunun ən xarakterik hissəsi kimi islənmə bölməsində müstəqil əhəmiyyət kəsb edir; **4.** Məişətdə işlənən melodiya, avaz mənasında.

**MOTİV İŞLƏMƏSİ** - mövzunun hissələrinin, yəni motivlərinin şəklidəyişilmiş təkrarı. *Bax: Variasiya.*

**MOŞT** (ərəb) - xərək. Fərabi və Urməvi ud musiqi alətinin təsvirində moştu səsin ibtida nöqtəsi kimi qeyd edirlər.

**MÖVLƏVİ** - **1.** Sufi təriqətlərindən biri. XIII əsrin sonunda Mövlana Cəlaləddin Rumi (1207-1273) tərəfindən yaradılmışdır. Bu təriqətin üzvləri öz məclislərində musiqidən geniş istifadə edirdilər. Quran ayələrini və Peyğəmbəri mədh edən şeirlər musiqi müşayiəti ilə oxunurdu. Əsasən, tənbur, rübab, ney alətlərindən istifadə olunurdu; **2.** Muğam şöbəsi. "Hümayun" muğamında ifa olunur.

**MÖVSÜMOV Məhərrəm Ağabala oğlu** (1916, Bakı - 04.10.1957, Bakı) - tanınmış balaban ifaçısı. 1936-1940 illərdə ADMM-də balaban ixtisası üzrə təhsil almışdır. 1937 ildə ADF-nin x.ç.a. ork. balabançalan vəzifəsində işləyir. M.Mövsümov 1938 ildə Moskvada keçirilən Azərb. ədəbiyyatı və incəsənəti ongünlüyündə nümayəndə heyətinin tərkibində ölkəmizi layiqincə təmsil etmişdir. 1946 ildə peşəkarlığı və yüksək musiqi duyumu nəzərə alınaraq, S.Rüstəmov tərəfindən ork. balabançılar qrupunun konsertmeysteri təyin edilir. 1949 ildə ADF-nın nəzdində Dövlət Mahnı və Rəqs Ansamblının solisti olur. M.Mövsümovun muğamlardan və xalq rəqslərindən ibarət qrammofon valı işıq üzü görüb. Onun bir neçə ifası AzTR Fondunda qorunur.

**MÖVZU** (yunan: *thema* - müzakirə və ya danışıq predmeti) - melodik və forma cəhətdən tamamlanmış, bitkin musiqi fikrini bildirən musiqi qurumu. Kompozisiyanın vacib amili sayılır; musiqi əsərində müəyyən məna, ideya, daşıyıcısıdır; obrazın xarakter xüsusiyyətlərinin təcəssümündə mühüm rol oynayır. Hər bir muğam şöbəsinin və guşəsinin özünəməxsus mövzusu vardır.

**MUĞAM** (ərəb: yer, məkan) - Azərb. musiqisində şifahi ənənəli professional musiqi sənəti; Şifahi ənənəyə malik Azərb. klassik musiqi janrlarından biri; iri həcmli vokal-instrumental və ya instrumental əsər. Mürəkkəb ideya - emosional məna daşıyan, dərin və bitkin təfəkkür, bədii həyəcan və müxtəlif musiqi obrazlarının inkişafını ifadə edir. Xüsusi musiqi təhsili görmüş peşəkar musiqi ifaçılarının yaradıcılıq məhsulu olan muğam şifahi ənənələr əsasında ustad-şagird münasibətləri zəminində nəsildən-nəslə ötürülür. Muğam yarandığı zamanlardan başlayaraq, əsrlər boyu davam edən tədrici inkişaf və təkamül prosesi nəticəsində yetkinləşmiş, formalaşmış, kamilləşmişdir. Bütün Şərq xalqlarının mədəniyyətində belə bir musiqi növü vardır, lakin müxtəlif regionlarda yaşayan xalqlarda müxtəlif adlar daşıyır: azərb. *muğam*, iranlılarda *dəstgah*, ərəblərdə *makam*, türklərdə *təqsim*, tacik və özbəklərdə *şaşmakom*, uyğurlarda patet, qazaxlarda küy, qırğızlarda kü və s. Belə ad müxtəlifliyinə baxmayaraq, onları birləşdirən əsas cəhət muğamın yalnız professional musiqiçilər tərəfindən yaradılması və ifa olunmasıdır. Muğam tipli sənət nümunələri bütün Şərq xalqlarında əsrlərdən bəri sabit qanunlar əsasında çalınıb-oxunaraq yaradılan silsilə əsərlərdir. Onlar varislik ənənəsi ilə mənilsənilərək, nəsil-nəsil qorunur. Bununla yanaşı, hər bir xalqın mədəniyyətinə və musiqisinə xas olan milli xüsusiyyətlər bu sənət növündə - həm musiqidə, həm də ifaçılıqda özünü büruzə verir. Bu da onları bir-birindən fərqləndirən əsas cəhətdir.

**Muğamın tarixi** çox qədimdir. Şərq musiqisinin möhtəşəm sənət abidəsi olan muğamın yaranmasını alimlər hələ keçən minilliyə, islamaqədərki dövrə aid edirlər. Onun köklərini zərdüştiliklə bağlayırlar. Muğam sözünün mənası da Allah tərəfindən göndərilən musiqi kimi izah olunmuşdur. Muğamın İlahinin qüdrətilə insanların ruhunu təmizləməsi, saflaşdırması fikri də söylənilir. Təsadüfi deyil ki, qədim dövrün alimləri insanları muğam sədaları ilə müalicə edirdilər. Muğamları planetlərlə əlaqələndirirdilər: "Nəva" muğamı - Ay planetinə, "Busəlik" - Merkuri, "Rast" - Venera, "Əraq" - Günəş, "Üşşaq" - Mars, "Zirəfkənd" - Yupiter, "Rəhavi" - Saturn planetinə uyğundur.

Qədim dövrlərdə peşəkar xalq ifaçılarının yaratdıqları musiqi "*nəva*", "*rah*", "*xosrovani*" adlanırdı. Musiqi mədəniyyəti inkişaf etdikcə isə yeni forma və janrlar meydana gəlmişdir. Muğamın bir janr kimi formalaşması XII-XIII əsrlərə "*Müsəlman Renessansı*" dövrünə aiddir. Bu dövrdə məhz poeziyanın yüksəlişi (*Nizami, Xaqani, Nəsimi, Füzuli* və b. şairlər ) muğamın da inkişafına təkan verdi. Şərq ölkələrində yüksək poeziya dili kimi qəbul olunmuş ərəb-fars dilləri saray mühitində formalaşan muğam sənətinə böyük təsir göstərmişdir. Şərq poeziyasının ən mükəmməl şeir forması olan *qəzəl* ərəb dilinin xüsusiyyətləri ilə sıx bağlı olduğuna görə, qəzəllər əsasında oxunan muğam melodiyalarının quruluşunda əruz vəzni böyük rol oynayır. Məhz bu dövrdə yaranmış muğamlar ərəb-fars mənşəli adları qəbul etmiş və ənənəvi olaraq, bu gün də saxlanılmışdır.

Orta əsrlərdə Şərq musiqisində 12 klassik muğam: "Üşşaq", "Nəva", "Busəlik", "Rast", "Əraq", "İsfahan", "Zirəfkənd", "Büzürk", "Zəngulə", "Rəhavi", "Hicaz"; 6 avaz: "Şahnaz", "Mayə", "Səlmək", "Novruz", "Gərdaniyə", "Güvaşt" mövcud idi. Eyni zamanda, 24 şöbə və zərbi muğamlar, təsnif adları da qeyd olunur. Zaman keçdikcə, bütün bu muğamla-

rın mahiyyəti dəyişsə də, onların adları bu günə kimi bütün Şərq xalqlarının musiqisində eyni şəkildə qalmışdır. Orta əsrlərdə yaranmış muğam və avazlardan bəzisi inkişaf edərək, böyük bir muğam dəstgaha çevrilmiş, bəzisi isə şöbə kimi muğam dəstgahların tərkibinə daxil olmuş və ya kiçik həcmli muğam əhəmiyyəti kəsb etmişdir. Muğam sənəti təkmilləşərək bizə gəlib çatmışdır. Müasir dövrdə Azərb. musiqi irsinin əsasını "Rast", "Şur", "Çahargah", "Bayatı-Şiraz", "Şüştər", "Hümayun" və s. muğamlar təşkil edir. Yalnız "Rast" muğamı orta əsrlərdən mükəmməl şəkildə qorunaraq, bu gün də əsas muğam dəstgah sayılır. "Üşşaq", "Hüseyni", "Əraq" isə onun tərkibinə muğam şöbəsi kimi daxil olmuşdur.

**Muğam adlarının etimologiyası** maraqlıdır. Bəzi muğam adları rəqəmlərlə bağlıdır: məs., "Dügah": dü - ikinci, gah - "məqam", "məkan", "mövqe" mənasını daşıyır, "ikinci məqam" deməkdir. O cümlədən, "Segah" - "üçüncü", "Çahargah" - "dördüncü", "Pəncgah" - "beşinci" məqam mənasını verir. Ölkə və şəhər adları ilə bağlı muğamlar var: "Azərbaycan", "Hicaz", "Zabul", "Bayatı-Şiraz", "Bayatı-İsfahan", "Əraq" (və yaxud "İraq"), "Arazbarı", "Heyratı", "Kabili", "Qarabağ şikəstəsi" və s. yer adlarını daşıyır. Tarixi şəxsiyyətlərlə və ifaçılarla bağlı muğam adları: "Mənsuriyyə", "Heydəri", "Baba Tahir", "Hacı Dərviş", "Hacı Yuni", "Şah Xətai" muğam şöbələrində öz əksini tapır. Heyvanat aləmi ilə bağlı muğam adlarına da rast gəlinir: məs., "Balu-kəbutər" - "qaranquş qanadları", "Zəngi-şötör" - "dəvə zəngləri" mənalarını daşıyır. Musiqinin obrazlı məzmunu ilə əlaqədar muğam adları mövcuddur: "Səmayi-Şəms", "Şur", "Hümayun", "Şahnaz", "Dilkəş", "Dilrüba" və s. Eyni zamanda, türk qəbilə və tayfa adları da muğamlarda öz əksini tapmışdır: məs., "Bayatı" - Bayat tayfasının, "Ovşarı" ("Əfşarı") - Əfşar tayfasının adı ilə bağlıdır. Həmçinin, "Bayatı-Türk", "Bayatı-Qacar", "Bayatı-Kürd" ("Kürd" sözü türk mənşəli "Qurd" sözünün xalq arasında tələffüz formasıdır) muğamların qədim türk kökləri ilə bağlılığından xəbər verir.

*Azərbaycan xanəndələri Varşavada səsyazma şirkətinin nümayəndələri ilə*







**Muğam ənənələri** bu gün də qorunub saxlanılır. Muğam - əsaslı ustad məktəbi keçmiş, ifaçılıq texnikasına məharətlə yiyələnmiş, virtuoz improvizə bacarığına və bəstəkarlıq istedadına malik, muğam qanunlarını və poeziyanı dərindən bilən professional musiqiçilər tərəfindən şifahi ənənə əsasında oxunub-çalınaraq yaradılır. Muğam bir yaradıcılıq prosesidir və sənətkarın təxəyyülü üçün geniş imkanlar açır. Muğam ifaçısı - xanəndə və ya x.ç.a. ifaçısı öz zövqündən, məharətindən, bacarığından asılı olaraq, ciddi qayda-qanunlar əsasında qurulan muğam kompozisiyasında bir muğamdan-digərinə keçərək, onu rəngarəngləşdirir, öz ifaçılıq versiyasını yaradır.

**Muğamın ifası** iki cür olur: birincisi, vokal-instrumental, yəni ansambl şəklində; belə ansambl keçmişdə "xanəndə və sazəndə dəstəsi" adlanırdı, müasir musiqi ifaçılığında "muğam üçlüyü" deyilir - klassik muğam üçlüyü tar, kamaça və xanəndədən (eyni zamanda, qaval çalır) ibarətdir. İkincisi, muğamlar instrumental, yəni solo şəkildə ifa olunur. Muğamın bütün tərkib hissələri müəyyən bədii fikri müxtəlif bədii ifadə vasitələri ilə əks etdirir. Muğamın hər bir hissəsi (şöbəsi, guşəsi) çox vaxt özü - özlüyündə müstəqil bir mahiyyət kəsb edir və ayrılıqda ifa edilə bilsə də, onun mütəşəkkil vahid əsas inkişaf xətti ardıcıl surətdə məntiqi qaydalara əsaslanaraq öz bütövlüyünü, tamlığını itirmir.

**Muğamın janrları** bunlardır: muğam dəstgahları, zərbi muğamlar, kiçik formalı muğamlar, təsnif və rənglər. Azərb. muğamları dərin məzmuna, məntiqli kompozisiya quruluşuna malik olub, möhkəm lad sistemi və sabit melodik özəklər əsasında improvizasiya üslubunda qurulmuş geniş inkişaflı silsilə əsərlərdir.

**Muğamın tədrisi** üç pillədə: uşaq musiqi məktəblərində, orta ixtisas və ali musiqi məktəblərində aparılır. Keçirilən muğam müsabiqələri yeni nəsil muğam ifaçılarının yetişməsi üçün əsaslı zəmindir. Görkəmli muğam ifaçılarının yaradıcılıq irsi qorunur və dünya miqyasında təbliğ olunur.

**"MUĞAM-ANTOLOGİYA"** layihəsi - Heydər Əliyev Fondu tərəfindən yaradılan muğam layihələrindən biri. Layihənin məqsədi muğamla bağlı zəngin nəzəri və fəlsəfi, musiqi irsinin nəşrindən ibarətdir. Səfiəddin Urməvi, Əbdülqadir Marağai və digər tədqiqatçıların əsərləri həmin nəşrlər sırasındadır. Tanınmış Azərb. alimləri ilə yanaşı, Şərqin şöhrətli alimlərindən Fərabinin, Qərb alimlərindən Farmer, Rayt, Dürinq və eləcə də, başqalarının muğama dair əsərlərinin çapı nəzərdə tutulur.

**"MUĞAM DƏSTGAH"** layihəsi - Heydər Əliyev Fondu tərəfindən yaradılan muğam layihələrindən biri. Layihənin məqsədi həm köhnə val yazılarının, həm də məharətlə ifa olunan muğamların bütün şöbə və guşələrinin yenidən bərpasından ibarətdir. Layihə çərçivəsində muğam-dəstgahların konsertlərdən birbaşa yazıya alınması və gələcək nəsillər üçün qorunub saxlanması nəzərdə tutulur.

**MUĞAM DƏSTGAHLARI** - Şifahi ənənəli Azərb. professional musiqisinin ən böyük janrı, mükəmməl və klassik formasıdır. "Dəstgah" sözü - "dəst" - bütöv, tam; "gah" - yer, mövqe deməkdir. Dəstgah - muğamın vokal-instrumental şəkildə bütün hissələrinin - *şöbə, guşə, rəng, təsniflərin* tam, bütövlükdə, muğam kompozisiyasının tələbləri səviyyəsində ifası deməkdir. Dəstgahın ən başlıca xüsusiyyəti muğam şöbələrinin və guşələrinin, təsnif və rənglərin məntiqli surətdə ardıcıllaşaraq, silsilə yaratmasından ibarətdir. Bunun da nəticəsində muğam dəstgahlarının özünəməxsus inkişaf dramaturgiyası yaranır. Beləliklə, muğam dəstgahları kamil formalı, çoxhissəli, silsilə quruluşlu musiqi əsərləridir.

Azərb. muğam dəstgahları bunlardır: *"Rast", "Şur", "Segah", "Çahargah", "Bayatı-Şiraz", "Mahur-Hindi", "Orta Mahur", "Mirzə Hüseyn Segahı", "Zabul Segahı", "Xaric Segah", "Şüştər", "Hümayun"*. Bu muğam dəstgahları *rast, şur, segah, şüştər, bayatı-şiraz, çahargah, hümayun məqamlarına* əsaslanır. Bir məqam əsasında bəzən bir neçə muğam qurulur, beləliklə, muğam ailələri əmələ gəlir. Azərb. musiqisində *"Rast", "Şur", "Segah" muğam ailələri* yaranmışdır.

Muğam dəstgahlarının mətn əsasını qəzəllər təşkil edir. Qəzəl seçimi hər bir xanəndənin öz zövqündən və istəyindən asılı olmaqla yanaşı, həm də muğamın xarakteri ilə bağlı olur: məs., "Rast"da oxunan qəzəllər "Segah"da və ya "Çahargah"da oxunmur. Muğam dəstgahların ifası müddəti (xronometraj) sabit deyil. Eyni dəstgah 2-3 saat, 30-40 dəqiqə və ya 10-15 dəqiqə müddətində ifa oluna bilər.

**"MUĞAM DÜNYASI"** layihəsi - Heydər Əliyev Fondu tərəfindən yaradılan muğam layihələrindən biri. Layihə çərçivəsində simpoziumların, "XXI əsrdə muğam sənəti" beynəlxalq konfransının keçirilməsi, müxtəlif festival və yarışmaların, həmçinin muğam mütəxəssisləri tərəfindən hazırlanmış xüsusi layihələrin təşkili planlaşdırılır.

**"MUĞAM ENSİKLOPEDİYASI"** layihəsi - Heydər Əliyev Fondu tərəfindən yaradılan muğam

layihələrindən biri. Layihənin Azərb. muğamına həsr olunmuş nəşri həm elektron, rəqəmsal, həm də kitab variantlarını əhatə edir.

**MUĞAM ETÜDLƏRİ** - Azərb. bəstəkarlarının *x.ç.a.* ifaçılıq tədrisi məqsədi ilə bəstələdikləri əsərlər: Adil Gərayın, Səid Rüstəmovun "Muğam etüdləri" çox istifadə olunur.

**"MUĞAM İRS"** layihəsi - Heydər Əliyev Fondu tərəfindən yaradılan muğam layihələrindən biri. Layihənin məqsədi Azərb. xanəndəələrinin qədim qrammofon vallarının bərpasından və yeni disklərin buraxılmasından ibarətdir. Layihə çərçivəsində "Qarabağ xanəndələri", "Unudulmuş səslər", "Azərbaycan qadın xanəndələri", "İnstrumental muğamlar", "Muğam ustaları" CD albomların hazırlanması nəzərdə tutulur.

**"MUĞAM İNTERNET"** layihəsi - Heydər Əliyev Fondu tərəfindən yaradılan muğam layihələrindən biri. Layihənin məqsədi İnternetdə muğamla bağlı audio və video materialları özündə ehtiva edən muğam yaratmaqdan ibarətdir.

**"MUĞAM" jurnalı** - Azərb. nəşr olunan beynəlxalq musiqi jurnalı. "Muğam" jurnalının təsisçisi Azərb. Mədəniyyətinin Dostları Fondu, baş redaktoru Azərb. Mədəniyyətinin Dostları Fondunun və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevadır. Jurnalın tərtibatı və səhifələnməsi Azərb. Mədəniyyətinin Dostları Fondunun nəzdində "Muğam mərkəzi"nə aid olub, "Şərq-Qərb" mətbəəsində çap olunur. "Muğam" jurnalının ilk sayı 2007 ildə azərbaycan, rus və ingilis dillərində çıxmışdır.

**MUĞAM LAYİHƏLƏRİ** - Heydər Əliyev Fondunun yaratdığı muğam mədəniyyəti ənənələrinin qorunub saxlanmasını nəzərdə tutan "Muğam İrs", "Muğam Dəstgah", "Muğam Ensiklopediyası", "Muğam-İnternet", "Muğam-Antologiya", "Muğam dünyası", "Muğam mərkəzi" layihələri bu gün uğurla həyata keçirilməkdədir. Bu layihələrin özünəməxsusluğu onların sırf muğam aləminə, muğam fenomeninə həsr olunması ilə bağlıdır, onlar Azərb. muğam sənətinin qorunub saxlanılaraq, gələcək nəsillərə ötürülməsinə, çoxcəhətli, hərtərəfli surətdə öyrənilməsinə və təbliğinə xidmət edir. Səsyazılarını, elektron və çap nəşrlərini özündə ehtiva edən bu layihələrdə dünyamiqyaslı tədbirlərin, beynəlxalq festivalların və müsabiqələrin keçirilməsi də nəzərdə tutulur.

**MUĞAM MƏCLİSLƏRİ** - Azərb. mədəniyyət tarixində mövcud olmuş xanəndə və sazəndələrdən, muğam bilicilərindən ibarət yığıncaq, dərnək. XIX əsrin II yarısında Bakı, Şamaxı, Şuşa kimi iri mədəni mərkəzlərdə müxtəlif şəxslər - görkəmli şair və musiqiçilər, mədəniyyət hamiləri - mesenatlar, eləcə də zadəganlar tərəfindən öz saraylarında və kübar salonlarında təşkil olunan "musiqi məclisləri" mövcud idi. Bu musiqi məclislərini bəzən "musiqi dərnəyi" və ya "musiqi salonu" da adlandırırdılar. Şuşada "Nəvvabın məclisi", Şamaxıda "Mahmud ağanın dərnəyi", Bakıda isə "Məşədi Məlik Mansurovun salonu" qeyd olunmalıdır. Bütün bu musiqi məclisləri əsl musiqi məktəbinə, sənətkarlıq məktəbinə çevrilmişdi. Belə məclislərin əks-sədası təkcə iri şəhərlərdə deyil, əyalətlərdə və hətta kəndlərdə yayılır, buradakı musiqisevərlər tərəfindən də xüsusi muğam məclisləri təşkil olunurdu.

**"MUĞAM MƏRKƏZİ"** layihəsi - Heydər Əliyev Fondu tərəfindən yaradılan muğam layihələrindən biri. Layihənin məqsədi Azərb. muğam mərkəzinin yaradılmasından ibarətdir. Mərkəz, eyni zamanda, muğamla bağlı bütün layihələrin fəaliyyətini əlaqələndirən bir qurum kimi nəzərdə tutulur.



*Muğam Mərkəzinin görünüşü*

**"MUĞAM - 2005"** televiziya müsabiqəsi - dahi Azərb. bəstəkarı Üzeyir Hacıbəyovun 120 illik yubileyi münasibəti ilə keçirilmişdir. "Azərbaycan Mədəniyyətinin Dostları Fondu" və "Space TV"-nin birgə layihəsi. Muğam televiziya müsabiqəsinin təşkilatçısı əməkdar incəsənət xadimi Nadir Axundovdur. Müsabiqəsinin qalibləri Təyyar Bayramov, Babək Niftəliyev, İlkin Əhmədov, Pərvaz İbrahimli, Vəfa Orucova, Bəyimxanım Mirzəyeva (müşayiətçilər - respublikanın əməkdar artistləri Elçin Həşimov (tar), Elnur Əhmədov (kamança), Kamran Kazımov (nağara) idi) bu gün muğam sənətimizi təkcə respublikamızda deyil, onun hüdudlarından uzaqlarda da layiqincə təmsil edirlər.





**MUĞAM MÜSABİQƏSİ - 2007** - *Heydər Əliyev Fondu*nun dəstəyi ilə *Azərb. Mədəniyyətinin Dostları Fondu*nun layihəsi əsasında *Azərb. Respublikası Mədəniyyət və Turizm Nazirliyi* yaxından köməyi ilə AzTRQSC tərəfindən keçirilmişdir. Muğam televiziya müsabiqəsinə dəstək olan Heydər Əliyev Fondunun başlıca məramı və məqsədi:

- xalqımızın möhtəşəm mədəniyyət abidəsi olan, əsrlər boyu milli-mənəvi dəyərlərimizi özündə əks etdirən, professional musiqimizin yaranıb formalaşmasında əvəzsiz rol oynayan muğam sənətinin yaşadılmasından və inkişaf etdirilməsindən;
- muğam ifaçılıq ənənələrinin yeni nəslə çatdırılmasından, gənc istedadların üzə çıxarılmasından, gənc ifaçılara sənətkarlıq vərdişlərinin aşılanmasından;
- yeni nəslin nümayəndələri tərəfindən klassik poeziyanın bütün xüsusiyyətlərinin mənimsənilməsinə kömək etməkdən;
- muğam sənətimizin dünyada təbliğini gücləndirməkdən ibarətdir. Münsiflər heyətinə nüfuzlu muğam biliciləri daxil edilmişdir. Müsabiqə iştirakçılarını tarda Sahib Paşazadə, kamançada Toğrul Əsədullayev, nağarada Sultan Əliyev müşayiət etmişdir.

"Muğam - 2007" müsabiqəsinin qalibləri: Birinci yer - Elməddin İbrahimov və Güllü Muradova, ikinci yer - Abgül Mirzəliyev və Ehtiram Hüseynov, üçüncü yer - Nasir Ətapur və Rəvanə Ərəbova.

**MUĞAM MÜSABİQƏLƏRİ** - muğam ifaçılarının yarışı. Müxtəlif təşkilatlar tərəfindən, müxtəlif yaş səviyyələrində təşkil olunur. Ayrı-ayrı görkəmli muğam ustadlarına həsr olunmuş müsabiqələr və gənc istedadların üzə çıxarılması məqsədi ilə müsabiqələr keçirilir. *Sadıqcan ad. müsabiqə, Cabbar Qaryağdıoğlu ad. müsabiqə, Üzeyir Hacıbəyovun 100 illiyinə həsr olunmuş müsabiqə, Əhsən Dadaşov adına müsabiqə.* Məktəblilər arasında muğam müsabiqələrinin keçirilməsi də ənənəvi hal almışdır. *Azərb. Respublikası Mədəniyyət və Turizm Nazirliyi* tərəfin-dən Uşaq musiqi məktəbləri arasında muğam ifaçılarının respublika müsabiqəsi keçirilir. 2002 ildən başlayaraq, hər iki ildən bir təşkil olunur. Bu müsabiqənin münsiflər heyətinə

*"Muğam - 2007" televiziya müsabiqəsinin iştirakçıları*



görkəmli muğam ustadları dəvət olunur. Respublika üzrə kiçik yaşlı muğam ifaçılarının bu yarışması muğam sənətini davam etdirən gənc nəslin üzə çıxarılması məqsədini daşıyır.

**MUĞAM ÜÇLÜYÜ** – üç ifaçıdan – xanəndə (və qavalçı), tarzən və kamançaçalandan ibarət ənənəvi muğam ansamblı. *Xanəndə və sazəndə dəstəsi.*

**MUĞAMIN NOT YAZILARI** – Muğam şifahi ənənəli professional musiqi növü kimi eşitmə yolu ilə qavranılaraq, yaddaş vasitəsilə müəllimdən şagirdə, bir ifaçıdan digərinə ötürülmüşdür. Orta əsrlərdə Səfiəddin Urməvinin icad etdiyi not yazı sistemi (əbcəd) Şərqdə musiqi alimləri tərəfindən geniş tətbiq olunmuş, bu sistemlə S.Urməvinin, Ə.Marağainin və b. yaratdıqları musiqi əsərləri yazıya alınaraq, qorunub saxlanmışdır. XX əsrdə universal Avropa not yazı sisteminin Azərb. musiqisində tətbiqi nəticəsində 1930 illərdən sonra yetişən bəstəkar və musiqişünaslar tərəfindən muğam dəstgahları, zərbi muğamlar, təsnif və rənglər nota salınıb çap olunmuşdur. Azərb. şifahi ənənəli musiqisinin ilk nümunələri - xalq mahnı və rəqs melodiyaları hələ XIX əsrin II yarısından başlayaraq, rus etnoqrafçıları - P.Vostrikov, M.P.Polonski və b. tərəfindən nota yazılıb müxtəlif jurnallarında nəşr olunmuşdur. Azərb. ilk dəfə olaraq, 1927 ildə isə Ü.Hacıbəyovun və M.Maqomayevin nota yazıb işlədikləri "Azərbaycan türk el nəğmələri" məcmuəsi çap olundu.

Azərb. ilk dəfə muğamın nota köçürülməsi işi ilə Müslüm Maqomayev məşğul olmuşdur. O, 1928 ildə Qurban Primovun ifasından "Rast" muğamını nota salmışdır. Həmin not yazısı çap olunmamışdır (AMEA-nın Füzuli ad. Əlyazmaları İnstitutunda saxlanılır). Muğamların nota yazılması sahəsində Niyazinin xidmətləri qeyd edilməlidir. "Rast" və "Şur" dəstgahlarını vokal-instrumental şəkildə Cabbar Qaryağdıoğlunun ifasından nota yazılmış, lakin çap olunmamışdır (Niyazinin ev-muzeyi). 1932 ildə ADK-nın nəzdində Bülbülün rəhbərliyi ilə yaranmış Elmi-tədqiqat musiqi kabinetinin əməkdaşları tərəfindən də muğamların notlaşdırılması sahəsində mühüm işlər görülmüşdür. 1936 ildə nəşr olunmuş ilk not yazıları – Tofiq Quliyevin "Rast" "Zabul", Zakir Bağırovun "Dügah" muğam dəstgahları tarzən Mənsur Mənsurovun ifasından nota yazılmışdır və L.Rudolfun harmonizasiyasında, yəni, fortepiano üçün işləməsində verilmişdir. Qara Qarayev tərəfindən Qurban Primovun ifasından nota yazılmış "Şur" muğamı muğam melodiyalarını orijinalda


*Muğam üçlüyü*

olduğu kimi, heç bir işlənmə elementlərinə yol verməyərək, dəqiq əks etdirir (əlyazması AMEA MİI-nin arxivində saxlanılır, inv.№ 94) Bu əlyazmasının yalnız bir hissəsi – "Mayə" şöbəsi V.Belyayevin "Oçerki istorii muzıki narodov SSSR" ("SSRİ xalqlarının musiqi tarixinə dair oçerklər") kitabında nümunə kimi təqdim edilmişdir. Bundan başqa, 1930 illərin sonunda F.Əmirov xanəndə Bilal Yəhyanın ifasından "Rast", "Şur", "Segah" muğamlarının şöbələrini, M.İsmayılov xanəndə Əlizöhabın ifasından təsnifləri nota yazmışdır. V.Belyayevin adı çəkilən kitabında Qurban Primovun ifasından nota salınmış "Rast" muğamının daha iki not yazısı verilmişdir. Birincisini - instrumental şəkildə "Rast" muğamını rus musiqişünası V.Krivonosov nota yazmışdır. İkinci not yazısı isə bəstəkar Tofiq Quliyevə məxsusdur. Bu not yazısı "Rast" muğam dəstgahının vokal-instrumental şəkilini əks etdirir, Zülfi Adıgözəlovun və Qurban Primovun ifasından yazılmışdır.

1960 illərdə bəstəkar Nəriman Məmmədovun tarzən Əhməd Bakıxanovun ifasından nota yazdığı instrumental muğamlar çap olunmuşdur: "Bayatı-Şiraz" və "Şur" (1962), "Rast" və "Şahnaz" (1963), "Çahargah" və "Hümayun" (1962), "Segah-Zabul" və "Rahab" (1965). N.Məmmədovun 1970 illərdə vokal-instrumental şəkildə nota yazdığı "Çahargah" (1970) muğamı xanəndə Yaqub Məmmədovun, "Rast" (1978) muğamı Hacıbaba Hüseynovun ifaçılıq təfsirinə uyğundur. 2000 illərdə muğamların not yazıları kamança ifaçısı, sənətşünaslıq namizədi Arif Əsədullayev tərəfindən tarzən Elxan Mirzəfərovun ifasında nota salınıb çap edilmişdir: "Bayatı-Şiraz" və "Hümayun" (2003), "Rast" və "Çahargah" (2005), "Şüştər", "Şur", "Zabul Segah" (2006). Muğam dəstgahlarla yanaşı, mağamın digər janrlarına aid nümunələr də nota yazılıb çap olunmuşdur: S.Rüstəmov "Azərbaycan xalq rəngləri" (I dəftər - 1954, II dəftər - 1956), Ə.Bakıxanov "Azərbaycan xalq rəngləri" (1964), "Azərbaycan ritmik muğamları" (1968), R.Zöhrabov "Azərbaycan təsnifləri" (1983), "Azərbaycan zərbi muğamları" (1986), "Zərbi muğamlar" (2004), E.Mansurov və A.Kərimov "Azərbaycan dəraməd və rəngləri" (1984), "Azərbaycan diringi və rəngləri" (1986).

**MUĞAM OPERASI** – XX əsrin əvvəllərində Azərb. meydana gəlmiş orijinal opera janrı. Üzeyir Hacıbəyovun yaradıcılığında təşəkkül tapmışdır. Onun muğam sənətinə əsaslanaraq yaratdığı *"Leyli və Məcnun"* (1908) operası ilə Azərb. və Şərqdə opera sənətinin əsası qoyulmuşdur. Bu əsərin tamaşaya qoyulması musiqi teatrının yaranmasına səbəb olmuş, Azərb. bəstəkarlıq sənətinin bünövrəsini qoymuşdur. Eyni zamanda, bu hadisə muğam ifaçılığı sənətinin hüdudlarını genişləndirmiş, xanəndələrin opera səhnəsinə çıxmasına təkan vermişdir. Ü.Hacıbəyov , həmçinin, "Şeyx Sənan" (1909), "Rüstəm və Söhrab" (1910), "Şah Abbas və Xurşid Banu" (1912), "Əsli və Kərəm" (1912), "Harun və Leyla" (1915) operalarının müəllifidir. Ü.Hacıbəyovun yaradıcılıq təcrübəsindən bəhrələnən digər bəstəkarlar da muğam operaları yaratmışlar: Z.Hacıbəyovun "Aşıq Qərib" (1916), M.Maqomayevin "Şah İsmayıl" (1916) operaları bu janrın maraqlı nümunələridir. Bu ənənə XX əsrin II yarısında da bəstəkarlar tərəfindən davam etdirilmişdir: Ş.Axundovanın "Gəlin qayası", C.Cahangirovun "Xanəndənin taleyi" operaları bu qəbildəndir. V.Mustafayevin "Vaqif", V.Adıgözəlovun "Natəvan" operalarında dövrün görkəmli xanəndələrinin obrazlarını canlandırmaq üçün əsərin musiqi məzmununda muğamlardan istifadə edilmişdir.

**MUĞAMIN SƏS YAZILARI** – Muğamların qrammofon vallarında ilk səs yazıları 1900 illərdən başlayaraq meydana gəlmişdir. 1906 ildə "Qram-



*Qrammofon valının etiketi*

mofon" şirkətinin dəvəti ilə Riqa şəhərində Şərq musiqi tarixində ilk dəfə olaraq, Cabbar Qaryağdıoğlunun səsi qrammofon valına yazılmışdır. Ondan sonra Ələsgər Abdullayev, Seyid Mirbabayev, İslam Abdullayev, Məşədi Məmməd Fərzəliyev, Keçəçioğlu Məhəmməd, Məcid Behbudov, Seyid Şuşinski və bir çox başqa xanəndələr 1906-1915 illər ərzində "Qrammofon", "Sport-Rekord", "Pate" şirkətləri tərəfindən Riqa, Varşava, Peterburq, Kiyev, Moskva, Tiflis şəhərlərinə dəvət olunaraq, səsləri qrammofon vallarına yazılmışdır. Bu xanəndələri əksər hallarda tarzən Qurban Primov və kamançaçı Saşa Oqanezaşvili müşayiət etmişlər. Sonrakı illərdə "Noqin zavodu", "1905", "Melodiya" səsyazma şirkətləri tərəfindən xanəndələrin qrammofon valları kütləvi tirajla buraxılmışdır. Muğamların səsyazılarının daha bir mərhələsi ADK-nın nəzdində Bülbülün rəhbərlik etdiyi *Elmi-Tədqiqat Musiqi Kabineti* tərəfindən həyata keçirilmişdir. Burada Cabbar Qaryağdıoğlu və başqa xanəndələrin ifasından xalq mahnıları və təsniflər, muğamlar fonovalikə yazılmış və onlardan bir hissəsi nota köçürülmüşdür (*Bülbülün ev-muzeyi*ndə saxlanılır). Müasir dövrdə muğam ifaçılarının səsyazıları kütləvi tirajla Azərb. və xarici ölkələrdə CD-DVD formatında buraxılır.

Qədim qrammofon valları milli musiqi xəzinəsinin ən dəyərli sərvəti kimi *Azərb. Dövlət Səsyazıları Arxivi*ndə, *Ü.Hacıbəyovun ev-muzeyi*ndə və *Azərb. Dövlət Musiqi Mədəniyyəti Muzeyi*nin fondlarında saxlanılır. Qədim qrammofon vallarının bir hissəsi *"Musiqi Dünyası" jurnalı*nın yaradıcı qrupu tərəfindən rəqəmsal bərpa olunmuşdur Qrammofon vallarının kataloqu *"Azərbaycan diskoqrafiyası (1900-1940)"* adlı veb sayta yerləşdirilmişdir və həmin kataloq





*Məmmədağa Muradov, tarzən*
*Rübabə Muradova, xanəndə*

çox böyük həcmdə informasiyanı əhatə edir. Bundan başqa, "Musiqi Dünyası"nın yaradıcı qrupu tərəfindən "Qədim qrammofon vallarının" (1900-1940) bərpası layihəsi həyata keçirilərək (2003-2005), görkəmli xanəndələrin səsyazılarından ibarət 450 CD disk formatında muzeylərə və Dövlət Səsyazıları Arxivinə təqdim olunmuşdur.

**MUĞNİ** - böyük Azərb. musiqişünası Səfiəddin Urməvinin (1230-1294) ixtira etdiyi simli, dartımlı musiqi aləti.

**MURADXANİ** - orta əsrlər musiqi təcrübəsində muğam şöbəsi.

**MURADOV Məmmədağa Məmmədhəsən oğlu** (1921, Bakı - 1969, Bakı) - tarzən. Qurban Primovun yetirməsi olmuş, onun ifaçılıq ənənələrini davam etdirmişdir. ADF-nin solisti olmuşdur, Xan Şuşinskini, Zülfi Adıgözəlovu müşayiət etmiş, həmin ifalar qrammofon vallarında həkk olunmuşdur. M.Muradov Azərb. muğamlarının mahir solo ifaçısı kimi də tanınmışdır.

**MURADOVA Rübabə Xəlil qızı** (22.03.1933, Ərdəbil - 28.08.1983, Bakı) - Müğənni (metso-soprano), xalq artisti (1971). ADMM-ni, Seyid Şuşinskinin sinfini bitirmişdir. Güclü, təsirli və müxtəlif çalarlı səsə, orijinal ifaçılıq üslubuna malik müğənni idi. ADOBT-nin solisti olmuşdur. Leyli (Ü.Hacıbəyov - "Leyli və Məcnun"), Əsli (Ü.Hacıbəyov - "Əsli və Kərəm"), Şahsənəm (Z.Hacıbəyov - "Aşıq Qərib"), Sənəm (Ş.Axundova - "Gəlin qayası") və başqa partiyaları ifa elmişdir. Muğam, təsnif və xalq mahnılarının mahir ifaçısı olmuşdur.

**MUREH** - Şərq musiqisində muğam şöbəsi.

**MUSİQİ AKUSTİKASI** - musiqidə istifadə olunan səslərə və onların qavranılması qanunlarına həsr olunmuş elm sahəsidir, musiqi səslərinin təbiətinin, fiziki parametrlərinin və musiqi alətlərinin öyrənilməsi ilə bağlıdır. *bax: Akustika.*

**MUSİQİ ALƏTİ** - Müəyyən tembrli musiqi səsləri əldə etmək üçün xüsusi qurğu. Musiqi alətləri səsçıxarma imkanlarına və quruluş xüsusiyyətlərinə görə fərqlənir.

**Simli musiqi alətləri** - simlərin səsləndirilməsi üsullarına görə növlərə bölünür: *kamanlı alətlər; dartımlı alətlər; mizrablı alətlər; zərbli alətlər.*

**Nəfəsli musiqi alətləri** (başqa sözlə, *üfləmə alətlər*) - havanın alətin daxilinə üfürülməsi (nəfəs verilməsi) üsulu ilə səs əldə olunur, hazırlanma materialına görə növlərə bölünür: *mis alətlər; ağac alətlər.* Quruluşuna görə növləri: *dəlikli alətlər, qamış dilçəkli alətlər, müştüklü alətlər.*







*Qarmon*

*Laqqutu*



**Zərb alətləri** - alətin dəri çəkilmiş gövdəsinə əllə və yaxud çubuqla vurulmaqla səs əldə edilir, səslənməsinə görə aşağıdakı növlərə bölünür: *köklənən alətlər* (müəyyən səsyüksəkliyinə malik zərb alətləri); *köklənməyən alətlər* (qeyri-müəyyən yüksəklikli zərb alətləri), *özüsəslənən alətlər.* Quruluşuna görə növləri: *birüzlü zərb alətləri, ikiüzlü zərb alətləri.*

**Klavişli (dilli) alətlər** - xüsusi mexanizmlə təchiz olunmuş alətlər olub, səsçıxarma üsullarına görə fərqlənir. Növləri: *klavişli-zərbli alətlər (fortepiano); körüklü-klavişli alətlər (qarmon).*

Alətlərin səslənmə registrinə görə növləri vardır: *bas alətlər, soprano alətlər, tenor alətlər.* Alətlərin quruluşuna görə növləri: *natural alətlər, transpozisiyalı alətlər.*

Müxtəlif xalqların musiqisində istifadə olunan çoxsaylı simli, nəfəs və zərb alətləri mövcuddur.

*Azərb. x.ç.a.* də quruluşuna, səslənmə üsullarına, hazırlanma materialına görə bu bölgü sisteminə əsaslanır:
***simli alətlər:*** *tar, saz, ud, tənbur (mizrablı alətlər); kamança (kamanlı alət); qanun, çəng (dartımlı alətlər); santur (simli-zərbli alət) və s.*
***nəfəs alətləri:*** *zurna, tütək, ney, balaban və s.*
***zərb alətləri:*** *nağara, qoşa nağara, qaval, laqqutu, dəf, şaxşax, zınqırov, zəng və s.*

**"MUSİQİ DÜNYASI" jurnalı** - Bakıda çıxan ilk beynəlxalq rüblük elmi-pedaqoji, tənqidi-publisistik və mədəni-maarif musiqi jurnalı. 1999 ildən çap olunur. Təsisçiləri ABİ və BMA-dır. Baş redaktoru və naşiri - sənətşünaslıq doktoru, professor Tariyel Məmmədov, məsul redaktoru - sənətşünaslıq namizədi, dosent Cəmilə Həsənovadır. Jurnalın redaksiya heyətinə Azərb. görkəmli elm, mədəniyyət və incəsənət xadimləri daxildir. "Musiqi dünyası" jurnalı üç formatda təqdim olunur: çap şəklində, internetdə və radio jurnalı (AzTR ilə birgə) şəklində. Jurnalın "Ustadlarımızın xatirəsinə", "Musiqişünaslığın aktual problemləri", "Portretlər", "Musiqi nəzəriyyəsi", "Etnomusiqişünaslıq", "Musiqi təhsili və maarifçiliyi", "Üzeyirşünaslıq", "Kulturoloji məsələlər", "Məxəzşünaslıq" kimi rubrikaları vardır. Jurnalın səhifələrində Azərb. musiqi həyatında baş verən hadisələr, musiqi elminin nailiyyətləri işıqlandırılır; Azərb. olan müəlliflərlə yanaşı, jurnalda xarici ölkələrin (Rusiya, Türkiyə, Özbəkistan, Qazaxıstan və b.) musiqi xadimlərinin elmi yaradıcılığı da (S.Daukeyevanın "Əbu Nəsr Məhəmməd əl-Fərabinin "Musiqi risaləsi"nin rus dilinə tərcüməsi) öz əksini tapır. "Musiqi dünyası" jurnalının yaradıcı qrupu veb saytların hazırlanması sahəsində ixtisaslaşmışdır və musiqi mədəniyyətinin müxtəlif sahələri ilə bağlı olan 25 veb-sayt hazırlamışdır. "Musiqi dünyası" elektron jurnalının ünvanı: *http://musigi-dunya.az.*

**MUSİQİLİ KOMEDİYA** - musiqi janrı; komik məzmuna malik musiqili səhnə əsəri. Solistlər, xor, balet və ork. tərəfindən ifa olunur, musiqi epizodları danışıq dialoqları ilə növbələşir. Azərb. bəstəkarlarının musiqili komediyalarında məzmunla bağlı olaraq, muğam və xalq mahnılarından yaradıcılıqla istifadə olunması diqqətəlayiqdir. Azərb. bu janrın ilk nümunələri *Ü.Hacıbəyovun* "Ər və arvad" (1909), "O olmasın, bu olsun" (1910, saytın ünvanı: *http://meshadi.musigi-dunya.az* ), "Arşın mal alan" (1913, saytın ünvanı: *http://arshin.musigi-dunya.az)* musiqili komediyalarıdır.

**MUSİQİ QABİLİYYƏTİ** - insanın eşitmə vasitəsi ilə musiqini qavraması, onun obrazlı mənasını dərk etməsi və onu ifadə etmək bacarığına malik olması.

**MUSİQİ İFASI** - bədii yaradıcılığın xüsusi növü; musiqinin səslə və ya musiqi alətləri vasitəsi ilə canlandırılması; musiqiçidən xüsusi professional hazırlıq, musiqi mədəniyyəti sahəsində xüsusi biliklər, özünəməxsus məna yozumu və bədii kamillik səviyyəsi tələb edir.

**MUSİQİ FORMASI** - **1.** Geniş mənada: musiqidə müəyyən ideya-bədii məzmunu təcəssüm etdirən, bir-birinə qarşılıqlı təsir göstərən və əlaqədə olan ifadə vasitələri kompleksi. Musiqi formasının daxili məntiqi və tarixən inkişaf

edən qanunauyğunluqları var. Burada milli musiqi mədəniyyətinin kökləri mühüm rol oynayır. *2.* Dar mənada: musiqi əsərinin kompozisiya planı, quruluşu, onun hissələri arasında qarşılıqlı münasibət. Musiqi formasında ən kiçik məna və quruluş vahidi motivdir, onun tamamlanmış ilkin tərkib hissəsi isə musiqi mövzusudur. Mövzuların qarşılıqlı əlaqəsi və inkişaf tipləri musiqi əsərinin kompozisiya planının yaranmasında əsas rol oynayır. Hər bir əsərin özünəməxsus forması olsa da, müəyyənləşmiş musiqi forması tipləri vardır: məs., rondo, sonata forması və s. Musiqi sənətinin tarixi inkişafı boyu hər bir xalqın musiqisində müəyyən formalar yaranmış və təkmilləşmişdir. Şərq musiqisində tarixən təşəkkül tapmış formalar arasında muğam dəstgah ən irihəcmli özünəməxsus cəhətlərə malik silsiləşəkilli forma hesab olunur.

**MUSİQİ MÜSABİQƏLƏRİ** (latın: *concursus* - görüş, qarşılaşma, toqquşma) - musiqiçilərin yarışması; qabaqcadan elan olunmuş müəyyən proqram əsasında keçirilir. Müsabiqənin ən yaxşı iştirakçıları münsiflər heyəti tərəfindən mükafatlarla və laureat adı ilə təltif olunur. Musiqi müsabiqələri şəhər, respublika və beynəlxalq əhəmiyyətli olur. Azərb. *muğam müsabiqələrinin* keçirilməsi ənənəvi hal almışdır.

**MUSİQİ ÖZFƏALİYYƏTİ** - musiqiçi olmayan (qeyri-peşəkar səviyyədə) insanların musiqi yaradıcılığı; fərdi və ya kollektiv şəkildə vokal və instrumental musiqi ifaçılığından ibarət olur. Adətən, dərnəklərdə, studiyalarda musiqi həvəskarlarının yaradıcı təşəbbüsləri reallaşdırılır.

**MUSİQİ TƏHSİLİ** - musiqi fəaliyyəti üçün vacib olan biliklərə və vərdişlərə yiyələnmək prosesi. Musiqi təhsili anlayışı həmçinin, musiqi təhsili sisteminin təşkilini bildirir. Ümumi və xüsusi musiqi təhsili anlayışı mövcuddur:
- Ümumi musiqi təhsili hər bir insana həvəskar səviyyədə musiqi ilə məşğul olmaq üçün bilik və vərdişlərin öyrədilməsini nəzərdə tutur. Ümumtəhsil məktəblərində, uşaq yaradıcılıq evlərində və musiqi dərnəklərində bu proses gedir.
- Xüsusi musiqi təhsilinin əsas məğzini müəyyən təhsil ocağında müəllimin rəhbərliyi altında xüsusi bilik və vərdişlərin öyrədilməsi təşkil edir. Bunun əsas məqsədi musiqi sahəsində mütəxəssis kadrların hazırlanması ilə bağlıdır. Xüsusi musiqi təhsili üç səviyyədən ibarətdir: ibtidai, orta və ali təhsil. Hər bir səviyyəyə uyğun müəyyən musiqi təhsili ocaqları fəaliyyət göstərir: uşaq musiqi məktəbləri, orta-ixtisas musiqi məktəbləri, ali musiqi məktəbləri.

Azərb. ibtidai musiqi təhsili ocaqları olaraq, çox sayda uşaq musiqi məktəbləri, incəsənət məktəbləri fəaliyyət göstərir. Orta-ixtisas musiqi təhsili respublikanın iri şəhərlərində fəaliyyət göstərən musiqi texnikumlarında, o cümlədən, BMK, Bülbül ad. Orta ixtisas musiqi məktəbində aparılır. Ali təhsil ocaqları: BMA, AMK, həmçinin, ADMİU, Azərb. Dövlət Pedaqoji Universitetinin və digər universitetlərin musiqi fakültələri fəaliyyət göstərir.

**"MUSİQİÇİNİN ELEKTRON KİTABXANASI"** veb saytı - elektron kitabxana. "Musiqi dünyası" jurnalının yaradıcı qrupu tərəfindən hazırlanmışdır. Saytın bölmələrində Azərb. bəstəkarlarının əsərlərinin, şifahi ənənəli musiqi irsinin nümunələri - xalq mahnı və rəqslərinin, aşıq havalarının, muğamların, təsnif və rənglərin not yazıları və səs yazıları toplanmış, elmi ədəbiyyat sistemləşdirilmişdir. Veb-saytın ünvanı: *http://e-library.musigi-dunya.az*

**MUSİQİÇİ** - musiqinin müəyyən bir sahəsi ilə (məs., bəstəkarlıq, dirijorluq, vokal və ya instrumental ifaçılıq, musiqi elmi) məşğul olan peşəkar şəxs.

**MUSİQAR** - *1.* Nəfəsli ağac musiqi aləti; *2.* Musiqi sənətinin simvolu olan əfsanəvi quşun adı; *3.* Musiqiçi.

**MUSİQİŞÜNAS** - musiqi tarixi və nəzəriyyəsi sahəsində ixtisaslaşmış mütəxəssis (elmi-nəzəri tədqiqatçı, pedaqoq, redaktor, tənqidçi, lektor).

**MUSİQİŞÜNASLIQ** - musiqi haqqında elm, sənətşünaslığın bir sahəsi. Musiqinin tarixi və nəzəriyyəsi, musiqi estetikası, musiqi tənqidi və folklorşünaslıq - etnomusiqişünaslıq sahələrini özündə cəmləşdirir. Azərb. musiqişünaslığının tarixi qədimdir. Azərb. alimlər Səfiəddin Urməvi (XIII əsr), Əbdülqadir Marağai (XIV əsr) və b. Şərq musiqi elminin görkəmli simaları olmuşlar. XX əsr Azərb. musiqişünaslığının yaradıcısı Üzeyir Hacıbəyov olmuş, ondan sonra böyük bir muşiqişünaslar nəsli yetişmişdir.

**MUSTAFAYEV Ramiz Hacı oğlu** (16.10.1926, Çərcou - 10.04.2008, Bakı) - bəstəkar, əməkdar incəsənət xadimi (1973), xalq artisti (1987), professor (2001). "Şöhrət" ordeni (2001) ilə təltif olunmuşdur. ABİ-nin üzvü (1968-1973 illərdə İdarə Heyətinin katibi) olmuşdur. ADK-da iki ixtisas - vokal (1948-1953) və bəstəkarlıq (1953-1957) üzrə təhsil almışdır. 1948 ildən ömrünün sonuna kimi AzTRV QSC Xor kollektivinin xormeysteri, bədii rəhbəri və baş dirijoru olmuşdur. Eyni zamanda, ADK-da və AMK-da pedaqoji







*Vaqif Mustafazadə, pianoçu-bəstəkar*

fəaliyyətlə məşğul olmuşdur. R.Mustafayevin yaradıcılığı zəngindir. "Şirin" (1957), "Vaqif" (1960), "Polad" (1964), "Aydın" (1982) operalarının, bir neçə musiqili komediyanın, xor əsərlərinin, oratoriya və kantataların, mahnı və romansların müəllifidir. "Vaqif" operası tarixi keçmişlə bağlı olub, böyük Azərb. şairi Molla Pənah Vaqifin yaşadığı dövrü və onun surətini dərindən açılmasına həsr olunmuşdur. Bəstəkar bu operada muğamlardan yaradıcılıqla bəhrələnmiş, o dövrün musiqi ənənələrini əks etdirmişdir.

**MUSTAFAZADƏ Vaqif Əziz oğlu** (16.03.1940, Bakı - 16.12.1979, Bakı) - pianoçu, bəstəkar, əməkdar artist (1979), Azərb. Dövlət mükafatı laureatı (1982, ölümündən sonra), caz musiqi ustalarından biri. ADMM-ni bitirmişdir (1963). Gürcüstan Filarmoniyasında "Qafqaz" caz-triosunu yaratmışdır (1965). Azərb. Dövlət Estrada Ork. solist-pianoçusu (1969-1970) olmuş, "Leyli" adlı ilk qadın vokal kvartetinə (1970), "Sevil" vokal-instrumental ansamblına (1971-1977) və "Muğam" instrumental ansamblına (1977-1979) rəhbərlik etmişdir. Orijinal ifaçılıq üslubuna malik olan V.Mustafazadə Azərb. muğamlarını, xalq mahnı və rəqslərini yaradıcılıqla işləmişdir. O, "Tallin-66", "Tbilisi-78" Ümumittifaq caz festivallarının laureatı olmuş, bəstəkarların Monte-Karloda VIII Beynəlxalq caz müsabiqəsində (Monako, 1978) I mükafata layiq görülmüşdür. V.Mustafazadə fortepiano və simfonik ork. üçün Konsertin, "Muğam" simfoniyasının (tamamlanmamışdır) və s. əsərlərin müəllifidir. Vaqif Mustafazadənin ev-muzeyi Azərb. Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı kimi fəaliyyət göstərir. "Musiqi dünyası" jurnalı tərəfindən "Vaqif Mustafazadə" memorial saytı yaradılmışdır. Veb-saytın ünvanı: *http://vagif.musigi-dunya.az.*

**MUSTAFAYEV Teymur Ağaxan oğlu** (10.04.1939, Cəlilabad) - xanəndə, xalq artisti (2005). ADMM-də təhsil almışdır. Sənət müəllimləri Seyid Şuşinski, Əhməd Bakıxanov olmuşdur. ADMİU-da təhsilini davam etdirmişdir. 1964 ildən ADF-nin solistidir. 1978 ildə Azərb. Dövlət Konsert Birliyində, 1998 ildən Muğam Teatrında fəaliyyət göstərir. T.Mustafayevin repertuarı muğam və təsniflərdən, xalq

və bəstəkar mahnılarından ibarətdir. Onun ifa etdiyi muğam və təsniflər AzTR Fondunda saxlanılır. Bir çox xarici ölkələrdə (Avropa ölkələrində, Ərəb ölkələrində, Rusiyada, Türkiyədə, İranda, Əfqanıstanda) qastrol səfərlərində olmuşdur.

**MUYƏ** - muğam guşəsi. Bir sıra muğam dəstgahlarında istifadə olunur: "Zabul" dəstgahında "Mayəyi-Zabul" və "Manəndi-müxalif" guşələri arasında; "Şur" muğamında "Səlmək" ilə "Leyli və Məcnun" şöbələri arasında ifa edilir.

**"MUZIKALNAYA AKADEMİYA"** - Moskvada nəşr olunan beynəlxalq musiqi jurnalı. Rüblük, elmi-nəzəri , tənqidi-publisistik jurnal. 1933 ilin fevral ayından nəşr olunur. 1992 ilə kimi "Sovetskaya muzıka" adlanıb. Təsisçiləri: Rusiya Federasiyasının Bəstəkarlar İttifaqı. Baş redaktor professor Y.S.Korev. Jurnal keçmiş sovet məkanında ən iri həcmli musiqi jurnalı kimi bəstəkar və musiqişünasların yaradıcılığını işıqlandırmışdır. Burada Azərb. musiqi həyatına da diqqət yetirilmiş, musiqişünasların məqalələri çap olunmuşdur. Jurnalın 2002, №1 sayının "Azərbaycan: on ildən sonra" adlı hissəsi Azərb. musiqisinə həsr olunmuşdur.

**MÜALİF** - muğam şöbəsi. "Çahargah" muğamında ifa olunur.

**MÜBƏRRİQƏ** (fars: üzü duvağ ilə örtülü qız) - Muğam şöbəsi. Segah məqamına əsaslanır. "Şikəsteyi-fars" şöbəsindən sonra ifa olunur. "Zabul segah", "Rahab" və b. muğam dəstgahlarında "Şikəsteyi-fars" ilə "Əraq" şöbələri arasında yerləşir.

**MÜCƏNNƏB** (ərəb: qonşu) - qonşu pərdə. Simli musiqi alətlərinin qoluna bağlanan əsas pərdələr yanında olan ikinci dərəcəli pərdələr. Ud musiqi alətində müstəsna olaraq mücənnəb əsas pərdələrdən biridir.

**MÜQƏDDİMƏ** (giriş) - *1.* Teatr tamaşasında hər hansı pərdədən əvvəl ifa olunan instrumental pyes; *2.* Süitanın birinci hissəsinin adı; *3.* Homofonik formalarda (üçhissəli forma, sonata forması) başlanğıc hissə. Tətbiqi hər zaman vacib sayılmır. Əsas hissəni hazırlamaq məqsədi daşıyır, xarakterinə, tempinə və digər xüsusiyyətlərinə görə əsas hissə ilə oxşar və ya təzadlı ola bilər.

**MÜƏLLİFLİK HÜQUQU** - mülki hüquq bölməsi; elm, ədəbiyyat və incəsənət əsərlərinin yaradılması və istifadəsi ilə (nəşr, ifa, nümayiş və s.), yəni insanların bu sahədə yaradıcılıq fəaliyyətinin nəticələri ilə bağlı hüquq münasibətlərini nizamlayır. Müəllifin, əsəri qanunun yol verdiyi bütün üsullarla - öz adı ilə, şərti adla (ləqəblə) və ya ad göstərmədən (adsız) dərc etdirmək, təkrar dərc etdirmək və ya yaymaq hüququ; əsərinə toxunulmazlıq hüququ; əsərdən digər şəxslərin istifadəsi üçün haqq almaq və s. hüquqları var. Dərc olunmuş əsərin ifa edilməsinə, qrammofon vallarında buraxılmasına və s. müəllifin razılığı tələb olunmur, lakin haqq verilir. Müəllif hüquqları müəllifə ömürlük məxsusdur və qanunla müəyyən olunmuş qaydada vərəsəlik üzrə keçir. Müəlliflik hüququ müəlliflik şəhdətnaməsi ilə təsdiqlənir. Azərb.-da müəllif hüquqları Azərb. Respublikası müəllif hüquqları agentliyi tərəfindən qorunur və nəzarət edilir.

**MÜĞƏNNİ** - nəğməkar, xanəndə, avaz ilə oxuyan.

**MÜHƏYYƏR** (ərəb: heyrətə gətirən) - "Mahur" dəstgahında "Əraq" şöbəsindən sonra ifa olunan parça.

**MÜXALİF** (ərəb) - "Çahargah" dəstgahında "Hasar" ilə "Məğlub" arasındakı şöbə.

**MÜXƏMMƏS** - şeir formalarından biri. Adından da bəlli olduğu üzrə (ərəb: *xəms* - beş), müxəmməsin hər bəndi beş misradan ibarət olur. Klassik şeirdən fərqli olaraq aşıq yaradıcılığında müxəmməsin hər bəndinin dördüncü misrasından sonra tamamilə başqa bir "həngdə" olan yeni bir bənd əlavə olunur ki, buna "cığa" deyilir. Əsas bəndin beşinci misrası cığadan sonra oxunur.

**MÜNACAT** - dini, ya da matəm mərasimi ilə əlaqədar olaraq ucadan avaz ilə oxunan dua. Çox vaxt "Zəmin-xara" muğamı əsasında ifa olunur.

**MÜNSƏRİH** - *bax: Faxti.*

**MÜNŞİD** (ərəb) - nəğməkar, mahnı deyən.

**MÜSƏLMAN RENESSANSI** - *bax: Renessans*

**MÜSLÜM MAQOMAYEV ADINA AZƏRBAYCAN DÖVLƏT FİLARMONİYASI** - Azərbaycanın ən iri konsert təşkilatlarından biri. 1936 ildə Üzeyir Hacıbəyovun rəhbərliyi ilə yaradılmışdır. ADF-də Azərb. Dövlət Mahnı və Rəqs Ansamblı (1938), *Ü.Hacıbəyov ad. Azərb. Dövlət Simfonik Orkestri (1938), Q.Qarayev ad. Kamera Orkestri (1964), Azərb. Dövlət Xor Kapellası (1966), Azərb. Xalq Çalğı Alətləri Orkestri (2000)* və b. kollektivlər fəaliyyət göstərir. Azərbaycanın bir çox muğam ustadları ADF-nin solistidir. ADF-də mütəmadi olaraq, muğam konsertləri keçirilir. Hal-hazırda ADF-yə əməkdar artist Murad Adıgözəlzadə rəhbərlik edir. Veb saytın ünvanı: *http://www.philarmonia.az*

**MÜSLÜMOV Möhlət Xanəli oğlu** (09.08.1954, Bakı) - tarzən, xalq artisti (2006). 1969-1973 illərdə ADMM-ni bitirmişdir. 1976-1981 illərdə ADK-da tar ixtisası üzrə təhsil almışdır. AzTR Ə.Bakıxanov ad. x.ç.a. ansamblının bədii rəhbəridir. 1987 ildə ADF-nın nəzdində Cabbar Qaryağdıoğlu adına muğam üçlüyünü yaratmış və ona rəhbərlik edir. Pedaqoji fəaliyyətlə məşğul olur. 1990 illərdə ADK-da çalışmış, 2001 ildən AMK-nın dosentidir. Tələbələrindən Elçin Həşimov(əməkdar artist), Əliağa Sədiyevin adlarını çəkmək olar. Xarici ölkələrdə bütün muğamlar üzrə kompakt diskləri çıxmışdır.



*Mikayıl Müşfiq, şair*

**MÜŞFİQ** (Mikayıl Mirzə Əbdülqadir oğlu İsmayılzadənin təxəllüsü; 05.06.1908, Bakı - 06.01.1938) - şair. XX əsr Azərb. poeziyasının yaradıcılarından biri. Atası öz dövrünün ziyalı, maarifpərvər şəxsiyyətlərindən biri olmuş, bəstəkarlarla yaradıcılıq əlaqəsi saxlamış, M.Maqomayevin "Şah İsmayıl" operasının librettosunu yazmışdır. Müşfiq 1920-1927 illərdə Bakı Darülmüəlliminində təhsil almış, 1931 ildə Azərb. Pedaqoji İnstitutunu bitirmişdir. Bakı məktəblərində müəllimlik etmişdir. Çoxsaylı şeirlərin, poemaların müəllifidir. "Bir gün" (1926), "Küləklər" (1930), "Günün səsləri" (1932), "Qaya" (1935), "Əbədiyyət nəğməsi" (1978), "Yenə o bağ olaydı" (1976), "Sındırılan saz" (1968), "Oxu, tar" (1981) və s. kitabları nəşr olunmuşdur. Müşfiq şifahi xalq ədəbiyyatına və klassik ədəbiyyata yaxından bələd olmuş, onların ənənələrini davam etdirmişdir. Müşfiq poeziyası orijinal sənətkarlıq xüsusiyyətlərilə də fərqlənir. Dərin emosionallıq, ahəngdarlıq və yığcamlıq Müşfiq şeirinin əsas bədii keyfiyyətləridir. Müşfiq yaradıcılığında məhəbbət lirikası mühüm yer tutur. "Sənin gözlərin", "Ulduzlar", "Şirin qız", "Yenə o bağ olaydı", "Ürək", "Maral", "Sənin gülüşlərin", "Nə deməkdir?" və s. şeirlərinə Azərb. bəstəkarları çoxlu mahnılar bəstələmişlər. Həmin mahnılar xanəndələrin repertuarında geniş istifadə olunur.

**MÜTƏLLİMOV Mütəllim Kəblə Ələkbər oğlu** (1909, Ağcabədi - 1981, Bakı) - xanəndə. Qarabağ xanəndəlik məktəbinin parlaq nümayəndələrindən biri kimi o, klassik muğam ənənələrini davam və inkişaf etdirmiş, bu sənəti öz orijinal ifa manerası ilə zənginləşdirmişdir. Uşaqlıqdan musiqiyə və ədəbiyyata həvəs göstərmişdir. Ailələrinin yaxın dostu olan şair Naim ona şer yazmağın qaydalarını, Nizami və Füzulinin bir çox qəzəllərinin poetik mənasını izah etməyi, qəliz sözlərin tələffüzünü öyrədir. Onda səsini idarə etmək, sözlə melodik xətti üzvi surətdə qovuşdurmaq bacarığı yaranır ki, bu da onun muğam ifaçılığı üslubunun əsas xüsusiyyətinə çevrilir. Muğam dəstgahlarını və təsnifi M. Mütəllimov məşhur Qarabağ xanəndəsi Musa Şuşinskidən oyrənir, böyük xanəndələrin yaradıcılıq ənənələrini mənimsəyir. O, repertuar seçiminə diqqətlə yanaşmış, öz səsinə uyğun muğam və təsnifləri oxumuşdur. 1930 illərdən M.Mütəllimov Bakıda ADF-nin solisti olmuş, geniş konsert fəaliyyəti ilə məşğul olmuşdur. M. Mütəllimovun repertuarında "Çahargah", "Orta Mahur", "Bayatı-Şiraz", "Mirzə Hüseyn Segahı", "Şur" muğam dəstgahları xüsusi yer tuturdu. O, mahir təsnif ifaçısı kimi də tanınmışdı, çox zaman təsnifləri silsilə şəklində, yəni ardıcıl olaraq "Rast" və ya "Segah" təsniflərini ifa edirdi. Muğamlara özünəməxsus həssaslıqla yanaşmışdır. Belə ki, "Segah" muğamının variantları onun ifasında incə lirizmi ilə, "Çahargah" və "Orta Mahur" muğamları isə döyüş ruhu ilə yadda qalmışdır.

**MÜTƏLAİM** - konsonans; həmsaz, həmahəng səslənmə; qulağı oxşar, qulağa xoş gələn tərzdə səslənmə.

**MÜTƏNAFİR** - dissonans; həmsazlıqdan məhrum səslənmə.

**MÜTLƏQ** (ərəb) - boş sim, açıq sim. ■

# N

**NAĞARA** - zərbli musiqi aləti. Sağanağının hər iki tərəfinə dəri çəkilir. Nağara ağac nəfəsli alətlərin (zurna, balaban, tütək), həm də sazın çalğısını müşayiət edir. Nağaranı sol qoltuğun altında tutub çalırlar. Musiqi alətlərindən hansı birinin çalğısını müşayiət edəcəyindən asılı olaraq nağaranın əl ilə (barmaqlar), yoxsa ağac çubuqlarla çalınacağı müəyyən edilir. Əgər balaban (son zamanlar həm də klarnet), ya da aşıq sazının çalğısı müşayiət ediləcəksə, nağara da ovucun içi və barmaqlarla çalınacaqdır. Əgər zurna çalğısını (həm də açıq havada) müşayiət etmək lazım gəlirsə, o zaman dərilər üzərinə ağacla zərblər vurulur. Həcmindən (böyüklüyündən) asılı olaraq nağara müxtəlif növlərə ayrılır: koos (böyük nağara), bala nağara, ya da cürə nağara və kiçik nağara.

*Nağara*



**NAXUNƏK** - nazik poladdan hazırlanan qarmaqlı mizrab.

**NAQUS** (ərəb) - zəng, zınqırov.

**NALEYİ-ZƏNBURİ** - muğam guşəsi.

**NARODİTSKAYA İnna** - fəlsəfə doktoru, ABŞ-ın Miçiqan Universitetində Azərb. və Şərq musiqi mədəniyyəti üzrə mütəxəssis. Eyni zamanda, rus musiqisi, Gender tədqiqatları və diaspora məsələləri ilə məşğul olur. Etnomusiqişünaslıq sahəsində bir sıra elmi məqalələrin müəllifidir. Azərb. muğamı ilə xalça sənətinin qarşılıqlı əlaqələri və kökləri mövzusunda məqalələri "İrs naslediye" jurnalında, "Lətif Kərimov" toplusunda çap olunmuş və böyük marağa səbəb olmuşdur.

**NATƏVAN Xurşidbanu Mehdiqulu qızı** (1832-1897) - şairə, dövlət xadimi. Qarabağ xanı Mehdiqulu xanın qızıdır. "Xan qızı" adı ilə tanınmışdır. Xurşidbanu dövrün tanınmış alim və sənətkarlarından dərs almış, ərəb və fars dillərini də mükəmməl öyrənmişdir. Şərq mövzu və janrlarında şeirlər yazmış, həm də istedadlı rəssam olmuşdur. Natəvanın yaradıcılığının coşqun çağları Qarabağ ədəbi məclislərinin fəaliyyət göstərdiyi dövrlə bağlıdır. 1872 ildə onun təşəbbüsü və maddi yardımı ilə Şuşada "Məclisi-üns" ədəbi məclisi təşkil olunmuşdur. 25 ilə yaxın rəhbərlik etdiyi "Məclisi-üns"də Azərb. dili ilə yanaşı, fars və cığatay dillərində də qiymətli mənzumələr yaranmışdır.

**NAYİ-TƏNBUR** - orta əsrlərdə geniş istifadə olunan simli musiqi aləti.

**NEHOFT** (fars: gizli, məxfi) - "Nəva" dəstgahında "Həzin" ilə "Qəveşt" arasında yerləşən muğam şöbəsi.

**NEY** (fars: qarğı, qamış) - nəfəsli musiqi aləti; ağacdan, qamışdan, ya da bürüncdən hazırlanır. Düz silindr şəklində, 60-70 sm uzunluqda lülədən ibarətdir. Ucunda heç bir müştük, ya dilçək olmur. Yalnız lülənin aşağı tərəfində bir neçə (3-6) dəlik açılır ki, bu da səslərin müxtəlif ucalıqda olduğunu təmin edir. Neyin səsi olduqca məlahətli, zərif və təsirlidir. Ney ən qədim Azərb. musiqi alətlərindən biridir. Onun xoş səsi *Xaqani, Nizami, Füzuli* və başqa şairlərimizin əsərlərində vəsf edilmişdir.

**NEY-DAVUD** - muğam şöbəsi. *"Hümayun"* dəstgahında *"Bidad"* ilə *"Bavi"* arasında ifa olunur.

*Ney*







**NƏBATİ Seyid Əbdül Qasım Möhtərəm oğlu** (1812, Cənubi Azərb. Qarabağ vilayəti, Üşdibin kəndi - 1873) - Azərb. şairi. Azərb. və fars dillərində yazıb. Ruhani təhsili almışdır. "Məcnun", "Məcnun şah", "Xan çobanı" təxəllüsləri ilə şerlər yazıb. Həm klassik, həm də aşıq şeir tərzində orijinal əsərlər yaratmışdır. Dərin lirizm, nikbin, həqiqi məhəbbət, gözəllərin vəsfi şeirlərinin əsas mövzusu olmuşdur. "Gözlər, nə gözlər", "Bu göz kimi göz", "Aytək", "Pəri", "Gəlsin, gəlməsin" və s. qoşmaları, "Gəlməz", "İstər", "Heç", "Bəs" və s. rədif li qəzəlləri muğam ifaçılığında geniş istifadə edilmişdir.

**NƏBƏRAT** - *1.* vurğu; *2.* ton, səs, intonasiya; *3.* zəngulə (fioritura mənasında).

**NƏBR** - vurğu, aksent.

**NƏFİR** - *1. Nəfəsli musiqi aləti*. Qaramal buynuzundan hazırlanır. *Müştüyü zurna* müştüyü kimi ikiqat nazik yonulmuş qarğıdan düzəldilir. Gövdəsində heç bir *dəlik* olmadığına görə gövdə daxilində havanın *ehtizaz* tezliyi dəyişilmir. Nəfir musiqi aləti səsin nisbi ucalığından, demək olar ki, tamamilə məhrumdur; *2.* Muğam şöbəsi; *"Hümayun"* dəstgahında *"Mureh"* ilə *"Camədəran"* arasında ifa olunur.

**NƏFİR-FƏRƏNG** - Şərq musiqisində: "Rast-pəncgah" dəstgahında "Müəttər" şöbəsindən "Novruz-ərəb"ə keçmək üçün çalınan kiçik instrumental epizod.

**NƏĞMƏ** - *1.* Qədim musiqidə: a) muğam mənasında; b) avazın tonu; *2.* Mahnı, təranə. Poetik surətlə musiqi obrazını üzvi surətdə birləşdirən vokal musiqi sənətinin ən sadə və ən geniş yayılmış forması; *3.* Dəstgahlarda bəzi şöbə intonasiyaları əsasında olan vokal-instrumental epizodlar; *məs.: nəğməyi-dəşti* (Şur muğamında), *nəğməyi-Şüştər* (Hümayun muğamında) və s.

**NƏHAVƏND** - muğam guşəsi; Şərq musiqisində: "Segah" dəstgahında "Guşeyi-mədain"dən sonra ifa olunan şöbə.

**NƏHİB** - *1.* "Şur" dəstgahında "Hüseyni" ilə "Əraq" şöbələri arasında ifa olunan vokal-instrumental epizod; *2.* "Rast" dəstgahında "Mübərriqə" ilə "Mühəyyər" şöbələri arasındakı vokal-instrumental parça.

**NƏXCİRKAN** - orta əsrlərdə muğam şöbələrindən biri.

**NƏQARƏT** (ərəb) - a) zərbə, zərb vurmaq; b) taqqıltı, taqqıldatmaq) - *1.* Mahnının hər bəndindən sonra eyni mətnlə təkrarlanan misralar; *2.* Kuplet formasında bəstələnən əsərin ikinci hissəsi; *3.* Qədim musiqidə: təbil vurmaq, nağarada çalmaq.

**NƏQŞ** - melodiyanın ayrı-ayrı səsini oxşamaq, avazın hər nəfəsini bəzəmək üçün istifadə olunan çox xırda, lətif və incə ornamet sədalar (xırdalıqlar).

**NƏRƏ** (ərəb) - *1.* Səslənmə; *2.* Ağızın yumulmuş vəziyyətində, burunda oxumaq üsulu; *3.* Bağırmaq, nərildəmək, gurultu salmaq.

**NƏRİMANBƏYOV Toğrul Fərman oğlu** (07.08.1930, Bakı) - rəssam, xalq rəssamı (1967). SSRİ Dövlət Mükafatı laureatı (1974). Ə.Əzimzadə ad. Azərb. Dövlət Rəssamlıq Məktəbini (1950) və Vilnüsdə Litva Rəssamlıq İnstitutunu (1955) bitirmişdir. Məişət, portret, mənzərə və natürmort janrlarında, monumental boyakarlıq, illüstrasiya və teatr rəssamlığı sahələrində fəaliyyət göstərir. "Xəzər üzərində şəfəq" (1957), "Narlar" (1959), "Muğam" (1965) və s. əsərlərin müəllifidir. F.Əmirovun "Min bir gecə" (1979), "Nəsimi dastanı" (1973), Q.Qarayevin "Yeddi gözəl" (1978) və s. musiqili səhnə əsərlərinə bədii tərtibat vermişdir.

**NƏSİMİ** (Seyid Əlinin təxəllüsü; 1369, Şamaxı - 1417, Hələb) - Azərb. şairi, mütəfəkkir. İmaddin Nəsimi adı ilə də məşhurdur. İlk təhsilini Şamaxıda almış, dövrünün elmlərini, dinlərin tarixini, məntiq, riyaziyyat və astronomiyanı öyrənmişdir. XIV əsrin sonlarında geniş yayılmış hürufilik təriqətini təbliğ edən şeirlər yazmış və hürufiliyin banisi Fəzlullah Nəiminin təxəllüsünə həmahəng olan "Nəsimi" təxəllüsünü qəbul etmişdir. Hürufilik təriqətini yaydığı üçün dəfələrlə zindana salınmış, "kafir", "dinsiz" elan edilərək, Hələbdə (Suriya) diri-diri dərisi soyularaq edam olunmuşdur. Nəsimi poeziyasında insana məhəbbət, insan şəxsiyyətinin azadlığı mövzusu başlıca yer tutur. Şair "qiblə" adlandırdığı insanı alçaldan, azadlığını buxovlayan feodal-dini əsarət əleyhinə çıxır, insanı yaradıcı bir varlıq kimi ucaldır, "Məndə sığar iki cahan, mən bu cahana sığmazam", "ənəlhəq" deyərək, insanı ilahiləşdirirdi. Nəsiminin bədii yaradıcılığı Azərb. poeziyasının və ədəbi dilinin inkişafında mühüm bir mərhələdir. Nəsimi Azərb. dilinin şəkli xüsusiyyətlərinin təkmilləşməsində cox böyük rol oynamış, əruz vəzninin bəhrlərini Azərb. dilinin xüsusiyyətlərinə uyğunlaşdırmağa çalışmışdır. Nəsimi

poeziyasından muğam sənətində də istifadə olunur. Şairin bəzi aşiqanə şeirlərində muğam adlarının, muğam şöbələrinin məzmunu və mahiyyətinin bədii dillə şərhinə də rast gəlinir.
YUNESKO-nun qərarı ilə Nəsiminin anadan olmasının 600 illiyi beynəlxalq miqyasda qeyd olunmuşdur (1973). Azərb. ədəbiyyatında və musiqisində Nəsimiyə həsr olunmuş bir sıra bədii əsərlər, o cümlədən, F.Əmirovun "Nəsimi dastanı", C.Cahangirovun "Nəsimi" oratoriyası, "Nəsimi" bədii filmi (ssenari müəllifi İ.Hüseynov, rejissor H.Seyidbəyli) yaradılmışdır.

**NƏSTƏRİ** - "Nəva" muğam dəstgahının son şöbəsi.

**NƏŞİD** - klassik ədəbiyyatda mahnı.

**NƏVA** - *1.* Yaxın Şərq xalqları klassik musiqisində 12 əsas muğamdan biri; *2.* Azərb. musiqisində: "Nəva", "Nişapur", "Busəlik", "Hüseyni", "Məsihi", "Şahnaz", "Hacı Yuni", "Bayatı-kürd", "Azərbaycan", "Əşiran", "Zəng-şötör", "Kərkuki", "Şah Xətai", "Əfşari" və "Şikəsteyi-Şirvan" şöbə və guşələrindən ibarət dəstgah.

**NƏVAYİ** - *1.* Nəva kökündə ya da nəva üslubunda çalınan hər hansı bir musiqi parçası; *2.* Əmir Əlişir Nəvainin şərəfinə tərtib olunan mahnı.

**NƏVAYİ-NİŞAPUR** - "Nəva" dəstgahının ikinci adı.

**NƏVVAB Mir Möhsün Hacı Mirəhməd oğlu** (1833, Şuşa - 1918, Şuşa) - Azərb. şairi, filoloq, rəssam, xəttat və musiqişünas. Nəvvab "Məclisi-fəramuşan" ədəbi məclisinə başçılıq etmiş, Şuşada qiraətxana, "üsuli-cədid" məktəbi, mətbəə və cildxana açmışdır. Qarabağ şairlərindən bəhs edən "Təzkireyi-Nəvvab" əsərinin (1913 ildə Bakıda nəşr olunmuşdur) müəllifidir. Nəvvabın rəssamlıq, xəttatlıq və kitab tərtibatı sahəsində fəaliyyəti genişdir. Nəvvabın ornamental divar rəsmləri (Şuşada Böyük məscidin minarələrində, öz evinin və dərs dediyi məktəbin divarlarında), quş və çiçək təsvirləri, portretləri (R.Mustafayev ad. Azərb. Dövlət İncəsənət muzeyində saxlanılır), nəfis xətlə yazdığı əlyazmaları və şəxsi mətbəəsində litoqrafiya üsulu ilə çap etdirdiyi kitabların bədii tərtibatı XIX əsrin sonu , XX əsrin əvvəllərində Azərb.-da təsviri sənət və kitab tərtibatının inkişafında əhəmiyyətli rol oynamışdır. Nəvvabın Azərb. klassik musiqisi haqqındakı "Dər elmi musiqi vüzuh ül-ərqam" ("Musiqi elmində rəqəmlərin aydınlaşdırılması", 1913) əsəri Azərb.-da musiqiyə dair nəşr olunmuş ilk kitabdır. Əsərdə Nəvvab orta əsrlər müsəlman Şərqinin (Fərabi, İbn-Sina, Səfiəddin Urməvi, Əbdülqadir Marağai) və antik dövrün (Platon, Aristotel) görkəmli filosof və musiqişünaslarının tədqiqatlarına əsaslanmış, musiqinin mənşəyi, musiqi estetikası, ifaçılıq problemləri, musiqinin dinləyicilərə emosional təsiri, onun şəfaverici xüsusiyyətləri haqqında məlumat vermişdir. Burada XIX əsrin sonu , XX əsrin əvvəllərində Azərb. musiqi ifaçılığı təcrübəsi ümumiləşdirilmiş, muğamların təsnifatı verilmiş və onlar orijinal sistemə salınmışdır; bu sistem kitaba əlavə edilən 5 cədvəldə öz əksini tapmışdır.

**NƏZƏRLİ Ələkbər Cavad oğlu** (1882, Xızı r-nu, Sayadlar k. - 17.12. 1951, Bakı) - qarmon ifaçısı, müəllim, xeyriyyəçi. Sərbəst şəkildə qarmon ifaçılığını mənimsəyən Ələkbər gənc yaşlarından mahir qarmonçalan kimi tanınmışdı. Ə.Nəzərli 1918-1920-ci illərdə musiqi kollektivi yaradaraq, onun bədii rəhbəri idi. Onun yorulmaz zəhməti sayəsində ansambl xüsusi proqram-repertuar hazırlamışdı. Proqramda muğam, mahnı, rəqslərimizlə bərabər, dünya bəstəkarlarının əsərlərindən nümunələrə də xüsusi yer ayrılırdı. Ə.Nəzərli əsrin əvvəllərində yaradılan Bakı Musiqiçilər Birliyinin rəhbərlərindən biri idi. O, həm də xeyriyyəçi kimi tanınırdı. Ə. Nəzərlinin Bakıda Dağlı məhəlləsindəki bağında, çoxlarının "Cənnət bağı" adlandırdıqları istirahət məkanında sənət adamları tez-tez görüşüb, fikir mübadiləsi aparırdılar. Bu bağa Üzeyir Hacıbəyov, tarzənlər Qurban Primov, Məmmədxan Bakıxanov, xanəndələr Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd, İslam Abdullayev, Bülbül, qarmonçular Əhəd Əliyev, Teyyub Dəmirov və digər sənət ustaları, yazıçı, dramaturq Cəfər Cabbarlı, Şəmsəddin Abbasov və b., həmçinin, qonşu respublikalardan musiqiçilər gələrdilər. Bu bağda tez-tez musiqi gecələri, sənət yarışları keçirilirdi. Ə.Nəzərlinin bəstələdiyi "Sabahı" rəqsi dəyərlidir. Ə.Nəzərlinin çoxlu tələbələri olub. Onların arasında qarmonçu Teyyub Dəmirov fitri istedadı ilə seçilmişdir.

**NƏZƏRLİ Mehdi Cavad oğlu** (1892, Bakı - 1952, Bakı) - milli nəfəs alətləri ustası, muğam bilicisi. M.Nəzərli eyni məharətlə tütək, ney, balaban, zurna, çonqur saz, cürə saz, qarmon və klarnet alətlərində çalmışdır. Azərb. klarnet ifaçılığı sənətinə ilk yiyələnənlərdən biri olmuşdur. O, bu alətlərin müxtəlif üsullarla səsləndirilməsinə baxmayaraq, hamısında eyni məharətlə çalmağı bacarırdı. Mehdinin bu keyfiyyətləri Ü.Hacıbəyovun diqqətindən kənarda qalmamış, onu ADOBT-a musiqiçi kimi işə dəvət etmişdi.





M.Nəzərli Ü.Hacıbəyovun "Koroğlu" operasının premyerasında bu alətlərdə ifa etmişdir. Onun çalğı alətləri ADF-nın fondunda qorunur. Muğam bilicisi Mehdi Nəzərli dövrünün bir çox məşhur xanəndələrini böyük ustalıqla müşayiət etmiş, bu sahədə illərlə əldə etdiyi zəngin biliyini gənc nəslə öyrətmişdir.



*Mehdi Nəzərli, milli nəfəs alətləri ifaçısı*

**NİİRİZ** - Şərq xalqları musiqisində: "Mahur" dəstgahında "Nişapurək" ilə "Dilkəş" şöbələri arasında, "Rast" dəstgahında "Üşşaq" ilə "Bayatı-əcəm" arasında şöbə.

**NİMRUZ** - orta əsrlərdə muğam şöbələrindən biri.

**NİŞAPUR** - "Nəva" dəstgahının birinci şöbəsi.

**NİŞAPURƏK** - "Nəva" dəstgahında guşə.

**NİŞİBİ-FƏRAZ** (farca hərfi mənası: eniş, yoxuş) - muğam şöbəsi. "Şur" dəstgahında "Sarənc" şöbəsindən sonra, "Bayatı-Şiraz" dəstgahında "Bayatı-İsfahan"dan əvvəl ifa olunan bağlayıcı şöbə.

**NİYAZİ Zülfüqar oğlu Hacıbəyov-Tağızadə** (20.06.1912, Tiflis - 02.08.1984, Bakı) - dirijor, bəstəkar, ictimai xadim. SSRİ xalq artisti (1959), Sosialist Əməyi Qəhrəmanı (1982). Dirijorların Ümumittifaq baxışının laureatı (1946), SSRİ Dövlət mükafatı laureatı (1951, 1952), Ü.Hacıbəyov ad. Azərb. Dövlət mükafatı laureatı (1967), Beynəlxalq Nehru mükafatı laureatı (1974). Niyazinin musiqiçi kimi formalaşmasında Ü.Hacıbəyovun böyük rolu olmuşdur. Moskvada və Leninqradda (Peterburqda) musiqi təhsili almış, ADK-nın aspiran-turasında oxumuşdur. Niyazi bəstəkarlıq və dirijorluq fəaliyyətinə 1930 illərdə başlamışdır. Azərb. Dövlət Simfonik Ork. formalaşmasında yaxından iştirak etmiş, 1938 ildən (müəyyən fasilələrlə) ömrünün sonuna kimi orkestrin bədii rəhbəri və baş dirijoru olmuşdur. Niyazinin ifaçılıq fəaliyyəti, həmçinin ADOBT ilə (1937 ildən başlayaraq, 1958-1959; 1961-1965 - direktor, bədii rəhbər və baş dirijor), Leninqrad Opera və Balet teatrı ilə, ADF-sı ilə (1979-1984 - direktoru) bağlı olmuşdur.
Azərb. milli dirijorluq məktəbinin formalaşması, inkişafı Niyazinin adı ilə bağlıdır. Azərb. ifaçılıq sənətinin inkişafında, milli musiqinin təbliğində Niyazinin xidmətləri böyükdür. Niyazinin repertuarında Azərb. və xarici bəstəkarların əsərləri mühüm yer tutmuşdur. Orijinal istedada malik sənətkar olan Niyazinin dirijorluğu üçün yüksək musiq mədəniyyəti, dərin erudisiya, güclü iradə səciyyəvidir. Onun təfsirində klassik və müasir əsərlər ideya-emosional məzmunu cəhətdən dolğun, ifadəli və yüksək ehtirasla səslənir. Azərb. bəstəkarlarının simfonik və səhnə əsərlərinin ilk ifaçısı olmuş, bu əsərlərin şərh edilməsində özünəməxsus orijinal ifaçılıq üslubu yaratmış, milli bəstəkarların bir çox əsərləri, o cümlədən Ü.Hacıbəyovun "Koroğlu"operası dünya musiqisi xəzinəsinə daxil olmuşdur. Niyazi bir sıra simfonik əsərlərin ("Rast" sinfonik muğamı), opera ("Xosrov və Şirin"), balet ("Çitra"), vokal əsərlərinin müəllifidir. Niyazinin "Rast" simfonik muğamı

*Niyazi, dirijor, bəstəkar*



(1949) dramaturji bitkinliyi, güclü emosional təsiri, zəngin melodikası, xüsusilə harmonik dilinin əlvanlığı və ifadəliliyi ilə fərqlənir. Əsər müəllifin idarəsilə bir çox xarici ölkələrdə səslənmiş, ABŞ-ın "Suprafon" və "Rikordi" musiqi şirkətləri tərəfindən qrammofon valına yazılmışdır.

**NİZAMİ GƏNCƏVİ** (İlyas Yusif oğlunun təxəllüsü; 1141, Gəncə - 1209, Gəncə) - Azərb. şairi və mütəfəkkiri. Gəncə mədrəsələrində təhsil almış, şəxsi mütaliə sayəsində orta əsr elmlərini mükəmməl öyrənmiş, xüsusən Yaxın Şərq xalqlarının şifahi və yazılı ədəbiyyatına yaxından bələd olmuşdur. N.Gəncəvi yaradıcılığa lirik şeirlərlə başlamış, böyük divan yaratmış, qəzəl və qəsidələr müəllifi kimi şöhrətlənmişdir. Lakin onun şeirlərinin az bir hissəsi dövrümüzə kimi gəlib çatmışdır. Nizaminin lirikası yüksək sənətkarlığı, məhəbbətə dünyəvi münasibəti, insan taleyi haqqında humanist düşüncələri ilə seçilir. N.Gəncəvi dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş poemadan ibarət "Xəmsə" ("Beşlik") müəllifi kimi daxil olmuşdur. "Xəmsə"yə: "Sirlər xəzinəsi" (1177), "Xosrov və Şirin" (1180), "Leyli və Məcnun" (1188), "Yeddi gözəl" (1196), "İsgəndərnamə" (1203) poemaları daxildir. N.Gəncəvinin yaradıcılığı Şərq Renessansının yüksək zirvəsini təşkil edir. Onun poeziyasında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır.

*Nizami Gəncəvi. "Xəmsə"*



Nizaminin yaradıcılığı muğam sənəti üçün mühüm əhəmiyyətə malikdir. Muğam ifaçılığında onun qəzəllərindən istifadə olunmaqla yanaşı, muğam sənətinin tarixi məsələlərinin öyrənilməsində də şairin poemaları qiymətli mənbələrdir. N. Gəncəvinin poemalarında o dövrün musiqi mədəniyyəti haqqında geniş məlumat, Azərb. musiqi mədəniyyətinin müstəqilliyi və yüksək professionallığı kimi fikirlər öz əksini tapmışdır. Bu poemalarda muğam, təsnif formalarına, rəqs melodiyalarına, musiqi alətlərinə, eyni zamanda, onların ifaçılarına - xalq-professional musiqiçilərə, xanəndə və musiqi alətləri ifaçılarına, rəqs sənətinə, geniş yer verilmişdir. Şair öz əsərlərində 30-dan artıq musiqi alətlərinin (saz, həftisaz, setar, tənbur, qanun, əl-ud, rud, ney, çəng, bərbət, rübab və s.) adını çəkmiş, onların səslənməsindən bəhs etmişdir.

Eyni zamanda, Nizami o dövrdə geniş yayılmış muğamların ("Rast", "Üşşaq", "Hesari", "İraqi", "Novruzu", "İsfahan", "Rəhavi", "Zirəfkənd") adlarını göstərmiş, bu muğamların, eləcə də müxtəlif melodiyaların məqamlar əsasında oxunduğunu qeyd etmiş, onların bir-birilə müqayisəsini vermişdir. Həmçinin, o dövrdə xanəndələrin öz oxumalarını müəyyən musiqi aləti ilə müşayiətini, qəzəllər əsasında vokal-instrumental muğamların və təsnif lərin oxunmasını təsvir etmişdir. Bütün bunlar artıq XII əsrdə Azərb. musiqi mədəniyyətinin yüksək dərəcədə inkişafını sübut edir.

Nizaminin yaradıcılığı Şərq və Qərb ədəbiyyatının inkişafına güclü təsir göstərmişdir. XIII əsrdən başlayaraq, N. Gəncəvinin poemalarına onlarca nəzirələr yazılmışdır. Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami, Əlişir Nəvai kimi böyük sənətkarlar onu ustad adlandırmış, "Xəmsə"sinə cavab yazmaqla şairin ənənələrini davam etdirmişlər. Nizaminin əsərləri dünyanın bir çox xalqlarının dilinə tərcümə olunmuşdur. Əsərlərinin nadir əlyazma nüsxələri xarici ölkələrin (London, Paris, Qahirə, İstanbul, Təbriz, Daşkənd, Moskva, Peterburq, Dehli) məşhur kitabxana, muzey və əlyazmaları fondlarında qiymətli incilər kimi qorunub saxlanılır. Nizami poemalarının süjetləri əsasında çoxsaylı təsviri sənət, ədəbi və musiqi nümunələri, o cümlədən, Ü.Hacıbəyovun "Sənsiz" və "Sevgili canan" romans-qəzəlləri, Q.Qarayevin "Yeddi gözəl" baleti, F.Əmirovun "Nizami" simfoniyası və baleti, Ə.Bədəlbəylinin "Nizami", Niyazinin "Xosrov və Şirin" operaları və s. əsərlər yaradılmışdır.

**NOT** (latın: *nota* - işarə, qeyd) - ayrı-ayrı musiqi səslərinin işarəsi; qaralanmış və ya boş oval şəklində yazılır, müxtəlif işarələr əlavə olunur. Notun qrafik təsviri səsin uzunluğunu; onun beşxətli not sətrindəki yeri - səsin yüksəkliyini bildirir.

**NOT SƏTİRLƏRİ** - beş paralel horizontal düz xəttdən ibarət sətir; üzərində notlar yazılır; xətlər aşağıdan yuxarı sayılır (birinci, ikinci, üçüncü, dördüncü, beşinci); səsin yüksəkliyini təyin etməyə xidmət edir. Not sətrində notlar a) xətlərin üzərində; b) xətlərin arasında; c) yuxarıdakı xəttin üstündə; d) aşağıdakı xəttin altında yazılır. Eyni zamanda, not sətrindən yuxarıda və aşağıda yazılan əlavə xətlərdən də istifadə olunur. Not sətrində yazılmış notların adı və onların hansı oktavaya mənsub olması sətrin başlanğıcında qoyulan açar işarəsi ilə təyin olunur; yazılmış səslərin yüksəkliyini dəqiqləşdirmək üçün alterasiya işarələri tətbiq edilir.

**NOVRUZİ** - Orta əsrlərdə Şərq musiqisində 6 avazdan biri.

**NOVRUZ-BAYATI** - Yaxın Şərq xalqları klassik musiqisində 24 şöbədən biri.

**NOVRUZ-BÜZÜRG** - muğam şöbələrindən biri.

**NOVRUZ-ƏCƏM** - "Rast" və "Mahur-Hindi" muğamlarının "Bərdaşt" şöbəsində ifa olunan güşə.

**NOVRUZ-ƏRƏB** - Yaxın Şərq xalqları klassik musiqisində 24 şöbədən biri; "Hümayun" dəstgahında şöbə.

**NOVRUZ-XARA** - Yaxın Şərq xalqları klassik musiqisində 24 şöbədən biri.

**NOVRUZ-KİÇİK** - muğam şöbələrindən biri.

**NOVRUZİ-RƏVƏNDƏ** - "*Rast*" muğam dəstgahının müqəddiməsi; "Bərdaşt-Rast" şöbəsinin ikinci adı. Farsca mənası: "Novruz" - yeni il, "Rəvəndə" - gedişə başlanması deməkdir.

**NOVRUZ-SƏBA** - Yaxın Şərq xalqlarının klassik musiqisində 24 şöbədən biri.

**NOVRUZOV Ağababa Əli oğlu** (22.10.1932, Xızı, Qəriban kəndi - 20.09. 1993, Bakı) - xanəndə, muğam bilicisi. Zülfi Adıgözəlov məktəbindən bəhrələnib, onun layiqli davamçılarından biri olub. Gənc yaşlarından muğamları mənimsəmiş və xanəndə kimi məşhurlaşmışdır. Ağababa Novruzov muğam bilicisi kimi musiqisevərlərin dərin rəğbətini qazanmışdır. O, bir müddət Azərb. Dövlət Konsert Birliyinin solisti olub. A.Novruzovun AzTR Fondunda bir sıra lent yazıları qorunur. O, bütün muğamları böyük şövqlə oxuyurdu. "Zabul-segah" və "Rast" muğamları dəstgah halında video lentlərində saxlanılır. A.Novruzovun İran İslam Respublikasında disk-albomu hazırlanıb. Alboma xanəndənin yüksək səviyyədə ifa etdiyi "Orta Segah", "Çahargah", "Mahur", "Mirzə Hüseyn segahı" dəstgahları və "Heyratı" zərbi muğamı daxil edilmişdir.

**NÖQTƏ** - **1.** Not yazısında notun və ya pauzanın uzunluğunu bir yarım dəfə artıran işarə; notun və ya pauzanın sağ tərəfində qoyulur. **2.** Notun *stakkato* ifa olunmasını göstərən işarə; notun altında və ya üstündə yazılır.

**NUBA** (hərfi: sıra, növbə, ardıcıllıq)- ərəb musiqisində vokal instrumental kompozisiya. Klassik nuba IX əsrdə Bağdadda mövcud olmuş, musiqiçilər tərəfindən ifa olunan mahnı silsilələrindən yaranmışdır. Klassik nubalar makamlar əsasında qurulur. Sərbəst ritmikalı (istiftah, mıçaliya) və dəqiq ritmoformullu (tuşiya, mısattar) instrumental şöbələrdən və vokal (müvəşşah janrında, əruza əsaslanan) şöbələrdən ibarətdir. Ənənəvi olaraq xanəndə unison xor, instrumental ansambl tərəfindən ifa olunur. Nubanın bir neçə ifaçılıq üslubu mövcuddur (Tunis, Əndəlus, Əlcəzair və s.).

**NUŞİN BADƏ** - Orta əsrlərdə klassik ədəbiyyatda adı çəkilən muğam şöbəsi.

**NUŞ-LƏBİNAN** - Orta əsrlərdə klassik ədəbiyyatda adı çəkilən muğam şöbəsi.

**NÜANS** (fransız: *nuanse* - çalar, boya); musiqi əsərinin ifası zamanı tətbiq olunan rəngarəng cəhətlər.

**NÜHÜFT, NEHOFT** (fars: gizli, məxfi) - "Nəva" dəstgahında "Həzin" ilə "Qəveşt" arasında yerləşən muğam şöbəsi.

**NÜZHƏ** - Səfiəddin Urməvinin icad etdiyi simli musiqi aləti. Zahiri görünüşü cəngə bənzəyir, 81 simi vardır. ■

# O

**OBERTONLAR** (alman: *obertöne* - yuxarı tonlar) - əsas tonun tərkibinə daxil olan əlavə səslənmələrdir ki, bunlar simin, yaxud hava sütununun titrəyişi nəticəsində əmələ gəlir. Obertonlar əsas tondan yuxarıda səslənir. Titrəyişin tezliyi əsas tonun titrəyiş tezliyindən bir neçə dəfə artıqdır. Obertonlar səsin və alətin tembrini dəyişir. Bəm səsə dolğunluq yumşaqlıq, yuxarı səslərə cingiltilik, kəskinlik gətirir.

**OBLİQATO** (latın: *obligatus* - vacib, mütləq) - orkestrdə və ya ansamblda vacib, dəyişməz, əvəzolunmaz alət. X.ç.a. ansamblında və ork. tar, kamança bu qəbildəndir.

**OXUMA** - vokal oxuma sənəti; musiqi ifaçılığının ən qədim növlərindən biri olub, musiqi əsərinin obrazlı-bədii məzmununu müğənni səsi ilə çatdırmaq vərdişlərinə əsaslanır. Oxuma solo (birsəsli), ansambl (duet, trio və s.) və xor şəklində olur. Oxuma əsasən instrumental müşayiətlə səslənir.

**OKTAVA** (latın: *octava* - səkkizinci) - *1.* Səkkiz pillə həcmində interval: məs., do$^1$-do$^2$; re$^1$-re$^2$ və s. 8 rəqəmi ilə qeyd olunur. Xalis oktava - x8 - səkkiz pillə həcmində altı tona bərabərdir. *2.* Bərabər temperasiyalı səssırasının bir hissəsi olub, on iki müxtəlif yüksəklikli səsləri (do-dan si-yə kimi) özündə cəmləşdirir. Oktavaların adı: subkontroktava, kontroktava, böyük oktava, kiçik oktava, birinci oktava, ikinci oktava, üçüncü oktava, dördüncü oktava, beşinci oktava.

**OKTAVAYA İNTİQAL** - oktavaya transpozisiya; səslənmənin oktava məsafəsində yuxarı və ya aşağı köçürülməsi.

**OLEARİ Elşleger Adam** (16.08.1603, Saksoniya - 23.02.1671, Qottorp, Şlezviq) - alman alimi. Leypsiq Universitetində dərs demiş, Holşteyn hersoqunun sarayında qulluq etmişdir. 1633-1634 illərdə Şlezviq-Holşteyn səfirliyinin tərkibində Rusiyada, 1635-1639 illərdə səyahət zamanı Səfəvilər dövlətində olmuşdur. 1643 ildə səyahətləri haqqında xatirələrini yazmışdır. Əsərdə Azərbaycanın təbiəti, tarixi, iqtisadiyyatı, əhalisinin adət-ənənələri, Azərb. dilinin yayılma arealı (İraq, İrəvan, İsfahan və s.), Səfəvilər dövlətinin inzibati quruluşu, elm, ədəbiyyat və s. haqqında qiymətli məlumat, çoxlu şəkil və xəritə verilmişdir.

*Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestri, dirijor R. Abdullayev*










*"Leyli və Məcnun" operasının afişası, 1921 il*



*Bakı Marionet Teatrının "Arşın mal alan" tamaşası*

**OPERA** (italyan: *opera* - hadisə, əsər) - ork. müşayiətilə səhnədə ifa olunan musiqili dram. Burada aktyorlar musiqi mətnini oxuyurlar və vokal sənəti səhnə ustalığı ilə qovuşdurulur. Opera libretto əsasında yazılır və pərdələrə, səhnələrə, şəkillərə bölünür. Operanın əsas tərkib hissələri: ariyalar, reçitativlər, ansambllar, xorlar, balet səhnələri, uvertüra, simfonik antraktlar. Azərb. musiqisində operanın yeni növü - muğam opera yaranmışdır. Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" muğam operası ilə Azərb. opera mədəniyyətinin, o cümlədən, bəstəkarlıq sənətinin əsası qoyulmuşdur.

**OPERETTA** (italyan: *operetta*, fransız: *operette* - kiçik opera) - komik xarakterli musiqili səhnə əsəri. Operettada vokal musiqi, rəqs, estrada sənəti elementləri ilə aşılanmış balet, xor, danışıq dialoqları vəhdət təşkil edir. Ü.Hacıbəyovun "Arşın mal alan" əsəri Azərb. musiqisində bu janrın ən gözəl nümunəsidir.

**ORATORİYA** (latın: *oratorium* - nitq, bəlağət) - xor, solist, orkestr üçün yazılmış böyük həcmli musiqi əsəri; epik-dramatik xarakterə və inkişaflı süjetə malikdir. Azərb. musiqisində bir çox oratoriyalar yaranmışdır: V.Adıgözəlovun "Qarabağ şikəstəsi" oratoriyası bu janrın gözəl nümunəsidir.

**ORKESTR** (yunan: *orchestra*) - Qədim Yunanıstanda teatr tamaşaları zamanı xorun səhnə qarşısındakı yerini bildirən anlayış. Zaman keçdikcə mənasını dəyişmişdir. *1.* Müxtəlif alətlərdə çalan musiqiçilər kollektivi; musiqi əsərini birlikdə ifa edirlər; *2.* Orkestrin növləri tərkibinə daxil olan alətlər qrupuna, ifaçıların sayına görə fərqlənir: *simfonik orkestr, kamera orkestri, simli orkestr, nəfəs alətləri orkestri, estrada orkestri, xalq çalğı alətləri orkestri*; *3.* Teatrda səhnənin qarşısındakı çökəklikdə orkestrin oturduğu yer.

**ORKESTRLƏŞDİRMƏ** - ork. üçün nəzərdə tutulmuş əsərin müəyyən olunmuş alətlər üçün tərtibatı. *Bax: Orkestr, Partitura.*

**ORNAMENTİKA** (latın: *ornamentum* - bəzək, zinət) - əsas melodik xətti bəzəyən nisbətən kiçik uzunluqlu səslər. Ornamentikanın növləri: *passajlar, fiqurasiyalar, fioriturlar, tremolo, vibrato və s.*

**ORTA MAHUR** - "Rast" muğam ailəsinə daxil olan dəstgah. "Mahur-Hindi" muğamının variantı olub, ondan kvarta yuxarıda (fa mayəli rast məqamında) ifa olunur. Məcmusu: "Bərdaşt", "Mayeyi-Mahur", "Üşşaq", "Hüseyni", "Vilayəti", "Şikəsteyi-fars", "Mübərriqə", "Əşiran" şöbə və guşələrindən ibarətdir.

**ORTA SEGAH** - "Segah" muğamının variantlarından biri. Orta segahın mayəsi birinci oktavanın *mi* səsinə düşür. "Zabul segahı" dəstgahında əsl "Segah" muğamının özü. Bir qayda olaraq "Manənd-müxalif" şöbəsindən sonra ifa olunur.

**OSTİNATO** (italyan: *ostinato* - inadlı) - eyni bir səsin ardıcıl təkrar olunması; Azərb. musiqisində zərbi muğamların və təsniflərin müşayiətində ostinatlıq mühüm əhəmiyyətə malikdir.

Ö

**OUVC (övc, öüvc, ovc, ouc)** (hərfi mənası: ən uca zirvə, göyün ən yüksək qatı) - bir çox *muğam dəstgahlar* tərkibində muğamda *zil şöbə* (məs., *"Əraq"* şöbəsi) funksiyasını daşıyan, eləcə də *zil registrdə* səslənən şöbə.

**OVŞARI** - *Bax: Əfşarı.*

**OYUN HAVASI** - xalq rəqslərini müşayiət üçün çalınan musiqi. Melodik quruluşu etibarı ilə məqamlar əsasında yaradılan xalq oyun havaları ("Tərəkəmə", "Mirzəyi", "Lalə", "Ceyranı", "Bənövşə", "Vağzalı" və s.) bir qayda olaraq, ritmik ardıcıllığa və müəyyən ölçünün (vəznin) daimi surətdə təkrarlanmasına əsaslanır. Oyun havalarının ritmik çevrəsi bir çox hallarda daxilən ikiqisimli zərblə üçqisimli zərbin ardıcıl surətdə növbələşməsi əsasında təşkil olunur. Yəni, əsas etibarı ilə əksərən 6/8 (ikiqisimli) musiqi ölçüsündə olan eyni oyun havasının ritmik quruluşu ¾ (üçqisimli) ölçü ilə növbələşir. Bu da xalq oyun havalarının orijinal xüsusiyyətini təşkil edir. Oyun havaları muğam dəstgahlarda *diringi* kimi də ifa olunur.

**OZAN** - ən qədim Azərb. aşıqlarının daşıdıqları ad. Ozan da aşıq kimi professional nəğməkar, çalğıçı, şair, nağıldeyən, lazım gəldiyi halda həm də rəqs (xoreoqrafiya) sənətindən də istifadə edərək bir neçə incəsənətin sintezini öz yaradıcılığında təcəssüm və nümayiş etdirən ustad, müdrik el sənətkarı olmuşdur. ■

## Ö

**ÖLÇÜ** - not yazısında xanədəki güclü və zəif payların kəmiyyət ölçüsünü bildirən işarə; kəsrlə göstərilir: kəsr xəttinin altındakı rəqəm xanə bölgüsünün uzunluğunu, üstündəki rəqəm xanədəki payların miqdarını bildirir, məs., 2/4; 3/4; 4/4; 3/8; 6/8 və s.

**ÖVLİYA ÇƏLƏBİ** (25.03.1611, İstanbul - 1682 və ya 1683, İstanbul) - türk səyyahı, çoğrafiyaşünas, yazıçı. 50 ilə yaxın bir müddətdə səyahətlərdə olmuş, Asiya, Afrika və Avropanın bir çox ölkələrini gəzmişdir. Bunun nəticəsində 10 cilddən ibarət "Səyahətnamə" kitabını yazmışdır. Bu kitabın bir hissəsi ilk dəfə 1843 ildə çap olunmuşdur. 1898-1928 və 1935-1938 illərdə kitab tam şəkildə işıq üzü görmüşdür. Övliya Çələbinin əsəri türk klassik ədəbiyyatında memuar janrında yazılmış ən böyük ədəbi abidədir. Burada o dövr haqqında mühüm tarixi, coğrafi məlumatlar, mədəniyyət sahələri haqqında geniş həcmli bilgilər əldə etmək mümkündür. Övliya Çələbi Azərbaycanda da olmuş, XVII əsrdə ölkə haqqında, onun tarixi və mədəniyyəti, mövcud musiqi janrları və musiqi alətləri barədə qiymətli məlumatlar vermişdir. ■

*Orta əsr miniatüründə musiqiçi təsviri*









P

## P

**PALİZBAN** (hərfi mənada: bostançı) - orta əsr musiqisində muğam şöbəsi.

**PARTİTURA** (italyan: *partitura* - bölünmə, paylaşma) - ansambl musiqisinin not yazısı. Partiturada ansambl iştirakçılarının partiyaları bir-birinin altında elə yazılır ki, eyni vaxtda səsləndirilən partiyalar bir şaquli xətt üzrə yerləşir. Partiturada partiyaların düzülüş sırası belə olur: adətən, hər bir alətlər qrupu daxilində yuxarıdan aşağıya doğru, registrinə görə ən yüksək səsli alətlərdən başlayaraq, daha qalın səsli alətlərə kimi ardıcıllıqla düzülür. Partiturada yuxarıdan aşağıya doğru qruplar üzrə nəfəsli alətlər, zərb alətləri, əlavə olunan alətlər, simli alətlər qrupu yerləşdirilir. Azərb. bəstəkarlarının simfonik və x.ç.a. orkestri üçün yazılmış əsərlərinin partituraları, muğamın partitura şəklində not yazıları vardır.

**PARTİYA** (latın: *pars* - hissə, qrup) - ***1.*** Ansamblda bir ifaçı və ya unison şəkildə bir neçə ifaçı tərəfindən ifa olunan notlar. ***2.*** Musiqi əsərinin tərkib hissəsi; məs., operada (digər musiqili səhnə əsərlərində) hər hansı iştirakçının ifa etdiyi rol "partiya" adlanır. Muğam ifaçılığında xanəndə partiyası, tar partiyası, kamança partiyası fərqlənir.

**PASSAJ** (fransız: *passage* - keçid) - bir istiqamətə (yüksələn və ya enən) yönəldilmiş tez templi musiqi frazası, kiçik musiqi parçası; virtuoz xarakterli olub, eynitipli fakturaya və yaxud ifaçılıq üsuluna əsaslanır; muğam ifaçılığında qammavari passajlardan daha çox istifadə olunur.

**PAŞAYEV Ağaverdi Ağa oğlu** (27.10.1950, Bakı) - dirijor, əməkdar incəsənət xadimi (2005), professor (1999). 1966-1971 illərdə ADMM-də tar ixtisası üzrə, 1971-1977 illərdə ADK-da xor dirijorluğu ixtisası üzrə təhsil almışdır. Pedaqoji fəaliyyətlə məşğul olur, 1978 ildən ADK-da müəllim, 2002 ildən AMK-nın "X.Ç.A. orkestrləşməsi və dirijorluğu" kafedrasının müdiri vəzifəsində çalışır. 1999 ildən ADF-nin F.Əmirov ad. Dövlət Mahnı və Rəqs ansamblı əməkdar kollektivinin bədii rəhbəri, eyni zamanda, 2000 ildən Azərb. Dövlət X.Ç.A. ork. bədii rəhbəri və baş dirijorudur. İranda Beynəlxalq "Qızıl Cəng" mukafatı laureatı adına (2003, 2004 illərdə) layiq görülmüşdür. A.Paşayevin repertuarına Azərb. və xarici ölkə bəstəkarlarının x.ç.a. ork. üçün orijinal əsərləri və işləmələr daxildir; yeni əsərlərin ilk ifaçısı və uğurlu təfsirçisi kimi tanınmışdır. Onun repertuarında muğam dəstgahlarının solist və ork. üçün işləmələri də mühüm yer tutur. Kaman ifaçısı H.Əliyev, xanəndələr A.Babayev, A.Qasımov, Q.Quliyeva, N.Teymurova və b. muğam dəstgahları A.Paşayevin idarə etdiyi x.ç.a. ork. müşayiəti ilə ifa etmişlər. A.Paşayevin oğlu Sahib Paşazadə tarzəndir. Beynəlxalq və respublika müsabiqələri laureatı, AMK-nın müəllimidir. "Muğam - 2007" televiziya müsabiqəsində gənc xanəndələri müşayiət etmişdir.



*Mir Cəlal Paşayev, xalq yazıçısı*

**PAŞAYEV Mir Cəlal Əli oğlu** (26.04.1908, Ərdəbil - 28.09.1978, Bakı) - xalq yazıçısı, ədəbiyyatşünas, pedaqoq, filologiya elmləri doktoru (1947), professor (1948), əməkdar elm xadimi (1969). Uzun illər Azərb. Dövlət Universitetinin (indiki BDU) "Azərb. ədəbiyyatı tarixi" kafedrasının müdiri olmuş, çox sayda pedaqoji və elmi kadrlar yetişdirmişdir. Yaradıcılığa 1920 illərdən başlamış, ədəbi əsərlərini "Mir Cəlal" təxəllüsü ilə nəşr etdirmişdir. "Dirilən adam" (1935), "Bir gəncin manifesti" (1939), "Açıq kitab" (1941), "Yaşıdlarım" (1947), "Təzə şəhər" (1951), "Yolumuz hayanadır" (1957) romanlarının, povest və hekayələrin müəllifidir. Ədəbi əsərlərində muğamların estetik və bədii emosional təsiri ilə bağlı rast gəlinən fikirləri diqqə-

tələyiqdir. Əsərləri bir sıra xarici dillərə tərcümə olunmuşdur. "Füzulinin poetik xüsusiyyətləri" (1940), "Füzuli sənətkarlığı" (1958) kimi monoqrafiyalarında, habelə C.Məmmədquluzadənin, Ə.Haqverdiyevin, N.Nərimanovun yaradıcılığına həsr olunmuş elmi tədqiqatlarında XX əsr Azərb. ədəbiyyatının nəzəri problemlərini araşdırmışdır. "Azərb. ədəbiyyatı tarixi" (F.Hüseynovla birgə, 3 cilddə, 1957), "Ədəbiyyatşünaslığın əsasları" (P.Xəlilovla birgə, 1972) əsərləri elmi fikrin inkişafında mühüm rol oynamış, sənətşünaslıqda, o cümlədən, musiqişünaslıqda, muğam sənətinin tədqiqində ədəbiyyat məsələləri ilə bağlı ensiklopedik biliklər verən mənbəyə çevrilmişdir.

**PAUZA** (yunan: *pausis* - fasilə) - *1.* Musiqinin səslənməsində müvəqqəti olaraq fasilə: əsərin müxtəlif yerlərində, hər hansı bir səsdə verilir. *2.* Fasilənin uzunluğunu bildirən işarə. Pauza notların uzunluğuna bərabər olur. Növləri: bütöv pauza, yarım pauza, çərək pauza, səkkizlik pauza və s.

**PEDAL** (fransız: *pedale*; latın: *pes, pedis* - ayaq) - *1.* Bir sıra musiqi alətlərində ayaqla hərəkətə gətirilən xüsusi mexanizm. *Fortepiano* alətində səsin zəiflədilməsi və yaxud uzadılması üçün pedaldan istifadə olunur. Orqan alətində pedal böyük klavişlərdən ibarət klaviatura şəklindədir və orqançalan onu ayaqları ilə basaraq hərəkətə gətirir. *2.* Orqan punktu; *Dəmsaz not.*

**PENTATON SƏSDÜZÜMÜ, PENTATONİKA** (yunan: *pente* - beş + *tonos* - ton) - oktava çərçivəsində müxtəlif yüksəkliyə malik beş səsdən ibarət səssırası; qonşu səslər arasındakı məsafə ardıcıl böyük sekundalar və kiçik tersiyalardan ibarət olur.

**PENTAXORD** (yunan: *pente* - beş + *chorde* - sim) - hər hansı lad səssırasının yanaşı düzülmüş beş səsi.

**PEŞREV** - instrumental musiqinin bir janrı; hər bir muğam, ya dəstgahdan əvvəl çalınan instrumental müqəddimə (*bax: Pişdəraməd*). Orta əsrlərdə mövcud olan 24 muğam şöbəsindən biri.

**PƏNCGAH** - Muğam şöbəsi. "*Rast*" dəstgahında bilavasitə "*Əraq*"dan sonra ifa olunan şöbə. Musiqi məzmununa görə "Hüseyni" guşəsinin melodiyasına əsaslanaraq, onun zildə oxunan, daha inkişaflı variantıdır. Həzin, kövrək xarakter daşıyır. Bu şöbənin "Rast" dəstgahında tutduğu mövqe çox əhəmiyyətli olduğundan, "Rast" dəstgahını çox zaman "*Rast-Pəncgah*" adlandırırlar. İran musiqisində "Rast-Pəncgah" əsas dəstgahlardan biridir.

**PƏRDƏ** - *1.* Səsdüzümünün ayrılıqda hər bir səsi; məqamın pilləsi. *2.* bəzi simli musiqi alətlərinin (tar, saz, dütar, tənbur və s.) qoluna bağlanılan bölmə. Qoyun bağırsağından nazik kəndir kimi eşilib emal edilir (son vaxtlar tarçılardan bir çoxu pərdəni daha möhkəm və davamlı sayılan kapron sapla əvəz edirlər). İfaçılar şərti olaraq ayrı-ayrı pərdələrə ad vermişlər ki, bu da eyni zamanda həmin musiqi alətində hansı səsin nəzərdə tutulduğunu göstərir: məs., "Zabul" pərdəsi, "Müxalif" pərdəsi və s. Muğam ifaçılığında dəstgahların quruluşu və muğam şöbələrinin yeri tar alətinin pərdələri ilə əlaqədar olaraq müəyyənləşir. *3.* Teatr üçün yazılmış əsərin müəyyən bir hissəsi (*məs.*: dörd pərdəli opera, üç pərdəli balet) "pərdə" adlanır.

**PƏRDƏ VURMAQ** - tarçalma təcrübəsində barmaqla sıxılmış pərdədən əlavə ondan (çanağa tərəf) daha qabaqda duran pərdənin də istənilmədən müəyyən dərəcədə sıxılmış olması. Bu hal tar qolunun çanağa düzgün nəsb edilməməsi, ya da çanaq içərisindəki ağacın düzgün taxılmamasından irəli gəlir (*bax: Çəngəl*). Nəticədə simlərin səslənməsində xoşagəlməz bir vızıltı eşidilir.

**PƏR-PƏRƏSTUK** (fars: *pər* - qanad + *pərəstuk* - qaranquş) - "Çahargah" dəstgahının mayəsində son dərəcə təsirli və effektli instrumental gəzişmə.

**PƏRVANƏ** - qədim Şərq musiqisində "Rast-pəncgah" dəstgahının əvvəlində "Zəng-şötör" ilə "Puh-əfza" (başqa varianta görə, "Zəngulə" ilə "Nəğmə") arasında yerləşən, öz ifadə tərzi və musiqi obrazı etibarı ilə həyəcan, ürək çırpıntısı və təlaş əhvali-ruhiyyəsini təsvir edən muğam şöbəsi.

**PƏST** (farsca hərfi mənası: aşağı, alçaq) - aşağı registr, bəm səs.

**PƏSTDƏN OXUMAQ** - muğam ifaçılığında, xanəndəlik təcrübəsində istifadə olunan termin; aşağı registrdə bəm səslə oxumaq, bəzən yavaş səslə oxumaq mənasında istifadə olunur.

**PƏSTXAN** - səsi aşağı registrdə, "bəm pərdələr"də daha sərbəst işləyən xanəndəyə deyilir.

**PİFAQOR Samoslu** (təxm. b.e.ə. 570 - b.e.ə. 500) - qədim yunan filosofu, riyaziyyatçısı. Kro-







*Orta əsrlərin miniatüründə rəqqasələr və musiqiçilərin iştirakı ilə keçirilən məclisin təsviri*

tonda pifaqorçuluq fəlsəfi məktəbini yaratmışdır. Fəlsəfə, riyaziyyat, astronomiya ilə yanaşı, Pifaqor məktəbində musiqiyə ciddi diqqət yetirilirdi.

Musiqi elminin nəzəri əsaslarının öyrənilməsi Pifaqorun adı ilə bağlıdır. Pifaqor musiqinin əsasını təşkil edən məqamları rəqəmlərin - konsonansların ilahi harmoniyası kimi qəbul edirdi. Onun fikrincə, musiqinin qüdrəti melodiyanın etosunun insan qəlbinə təsirindən ibarətdir. Pifaqora görə, musiqi harmoniyası - mikrokosmos, kainatın bir hissəsidir. Kosmosun musiqi - kəmiyyət ifadəsi simvolik olaraq, "tetraktid"də - ilk dörd rəqəmin cəmində ("dekada"da: 1+2+3+4=10) öz ifadəsini tapır və bu da əsas musiqi intervallarını: oktava (2:1), kvinta (3:2) və kvartanı (4:3) əmələ gətirir. Bunlar Pifaqor quruluşunun əsasını təşkil edən riyazi hesablamalar nəticəsində əldə olunmuş bir sistemdir. Bir çox filosoflar bu məktəbdən bəhrələnmişlər. Kainatın harmoniyası kontekstində rəqəmlərin fəlsəfəsinə, mütənasiblik estetikasına əsaslanaraq, musiqi səsləri, intervallar (o cümlədən, mikrotonlar), konsonans və dissonanslar, məqamlar, musiqinin quruluşu haqqında musiqili-nəzəri sistemlər meydana gəlmişdir.

**PİKKOLO, CÜRƏ** (italyan: *piccolo* - kiçik) - *1.* Alətin ən yüksək səsli növünün adı. *2.* Kiçik *fleytanın* qısaldılmış adı. *3.* Saz alətinin ən kiçik həcmli növü: cürə saz.

**PİŞDƏRAMƏD** - *1.* Muğamatın xanəndə və sazəndə dəstəsi tərəfindən "tamam dəstgah" ifası üçün çalınan müqəddiməsi; *2.* Muğamın mayədən əvvəlki zərbli instrumental hissəsi. *Bax: Dəraməd.*

**PİŞ-ZƏNGULƏ** - "Çahargah" dəstgahında "Zəngulə" şöbəsindən əvvəl ifa olunan guşə.

**PİŞROU** - instrumental musiqi janrı. Ə.Marağainin yaratdığı musiqi formalarından biri.

**PLATON Afinalı** (b.e.ə. 427-347) - qədim yunan filosofu. Sokratın tələbəsi olmuş, Pifaqor məktəbindən bəhrələnmişdir. Platon Akademiyasını yaratmışdır. 30-a yaxın dialoq və məktubun müəllifidir. "Timey" dialoqunda Pifaqorun rəqəm kosmologiyasının sistematik şərhini vermişdir. Platona görə, musiqi harmoniyası və ritm ilahi surətlə bağlıdır. O, musiqinin etik dəyərini müəyyən edərək, ictimai həyatda və tərbiyədə onun əhəmiyyətini göstərirdi. "Pir", "Dövlət" və s. dialoqlarında da musiqi ilə bağlı baxışlarını şərh etmişdir.

**POEMA** (yunan: *poiema* - əsər) - **1.** Şeirlə yazılmış lirik-rəvayət xarakterli ədəbi əsər; **2.** Musiqidə lirik-rəvayət xarakterli sərbəst quruluşlu instrumental əsər. Azərb. bəstəkarları poema janrında bir çox əsərlər yazmışlar: məs., F.Əmirov "Muğam poeması".

**POLİMETRİYA** (yunan: *poly* - çox + *metron* - ölçü) - ikisəsli və ya çoxsəsli quruluşlu musiqidə iki və ya bir neçə xanə ölçüsünün eyni vaxtda uzlaşdırılması. Zərbi muğam ifaçılığında polimetriya xüsiyyətləri özünü büruzə verir.

**POLİFONİYA** (yunan: *poly* - çox + *phone* - səs) - çoxsəsli musiqinin bir növü; bir neçə müstəqil bədii əhəmiyyətə malik melodik təbəqələrin eyni vaxtda bərabər səslənməsindən əmələ gəlir. Polifoniyada uzlaşdırılan səslər intonasiya və ritm baxımından müxtəlif olub, zaman baxımından vurğularına, kulminasiya və kadanslarına, motiv bölgüsünə görə üst-üstə düşmür, dinamika və tembrinə görə fərqlənir. Polifoniyanın növləri: *kontrapunkt, imitasiyalı polifoniya, səsaltı polifoniya*. Azərb. vokal-instrumental muğam ifaçılığında, əsasən, imitasiyalı polifonik quruluş özünü göstərir.

**POLONSKİ Yakov Petroviç** (1819, Ryazan - 1898, Peterburq) - rus şairi, etnoqrafı, dövlət məmuru. Polonskinin şeirləri Rusiyada çox məşhurlaşmış, onun sözlərinə romanslar bəstələnmişdir ("Qaraçı qızının mahnısı" bu günə kimi xalq mahnısı kimi ifa olunur). O, 1840-1850 illərdə Qafqazda İmperator dəftərxanasında çalışmış, rəsmi dövlət orqanı olan "Zaqafqazskiy vestnik" qəzetinin redaktor müavini olmuşdur. Tiflisdə yaşadığı illərdə Qafqaz xalqlarının tarixi və məişəti ilə maraqlanmış, bir çox gürcü və Azərb. şairləri, musiqiçiləri ilə dostluq əlaqələri saxlamışdır. Bu illərdə Polonski folklor motivləri ilə zəngin olan şeirlərini yazmış və "Sazandar" adlı şeirlər kitabını (1849) nəşr etdirmişdir. Y.Polonski azərb. xanəndə Səttara şeirlər həsr etmiş, onun təsirli səsini və ifasını öz şeirlərində tərənnüm etmişdir.

**PORTAMENTO** (italyan: *portamento* - hərfi mənada: davranış) - **1.** Solo oxuma və bəzi alətlərdə çalğı zamanı bir səsdən digərinə axıcı keçid; **2.** Dinamik və ritmik cəhətdən rəvan və axıcı ifanı bildirən işarə; notun üstündə cızıqla göstərilir.

**POSTLÜDİYA** (latın: *postludium; post* - sonra + *ludus* - oyun) - Musiqi əsərinin sonuna əlavə olunan müstəqil xarakterli hissə. Oxuma hissəsinin sonunda instrumental yekun.

**POZİSİYA** (latın: *positio* - mövqe, vəziyyət) - **1.** Musiqi alətində çalan zaman əllərin vəziyyəti; **2.** Simli alətdə çalan zaman sol əlin vəziyyəti.

**PYES** (fransız: *piece*) - tamamlanmış musiqi əsəri.

**PRELÜD, MÜQƏDDİMƏ** (latın: *prae* - əvvəl + *ludus* - oyun) - **1.** Giriş - əsərin əvvəlində verilən, onun əhval-ruhiyyəsinə müvafiq kiçik instrumental pyes; **2.** Müxtəlif xarakterli kiçik həcmli instrumental pyesə verilən ad.

**PRİMOV Qurban Bəxşəli oğlu** (30.10.1880, Ağdam r-nu, Gülablı k. - 29.08.1965, Bakı) - tarzən, xalq artisti (1931). Görkəmli tarzən Sadıqcandan dərs almış, Qarabağ muğam ifaçılığı məktəbinin ənənələrini dərindən mənimsəyən Q.Primov sənətdə öz yolunu açmışdır. Q.Primov klassik ənənələrə əsaslanaraq, muğam ifaçılığını yeni dövrdə inkişaf etdirmiş, özünəməxsus xüsusiyyətlərlə zənginləşdirmişdir. Buna görə də, Q.Primovun yaradıcılığı, ifaçılıq sənəti öz orijinallığı ilə seçilir. Onun ifa edərək yaratdığı "Mahur-Hindi", "Çahargah", "Xaric Segah", "Şur", "Zabul segah", "Çoban bayatı" nadir sənət nümunələri kimi musiqi xəzinəsinə daxil olmuşdur. 1905 ildən başlayaraq, xanəndə Cabbar Qaryağdıoğlu və kamançaçı Saşa Oqanezaşvili ilə birlikdə yaratdığı muğam üçlüyündə 20 ilə yaxın fəaliyyət göstərərək məşhurlaşmış, bir sıra xarici ölkələrdə - Rusiyanın, Zaqafqaziyanın, Orta Asiyanın və Yaxın Şərqin müxtəlif şəhərlərində konsertlər vermişdir. Onun solo və ansamblda ifa etdiyi muğamlar qrammofon vallarına yazılmışdır (1906-1916 illər; "Pate", "Sport-Rekord", "Qrammofon" şirkətləri; Riqa, Varşava, Kiyev şəhərləri). Q.Primovun müşayiəti ilə Keçəçioğlu Məhəmməd, Məşədi Məhəmməd Fərzəliyev, İslam Abdullayev, Ələsgər Abdullayev, Seyid Şuşinski və b. xanəndələrin ifası qrammofon vallarına yazılmışdır. 1934 ildə Tiflisdə Zaqafqaziya incəsənəti olimpiadasının, 1939 ildə Ümumittifaq baxışının qalibi olmuşdur. Q.Primov Ü.Hacıbəyovun yaratdığı ilk Azərb. operası "Leyli və Məcnun"da (1908) solist-tarzən kimi çıxış etmişdir. Həmin tarixdən o, 40 il ADOBT-də fəaliyyət göstərmişdir. O, Azərb. bəstəkarlarının (Ü.Hacıbəyov, M.Maqomayev, Z.Hacıbəyov) muğam operalarının tamaşaya hazırlanmasında bilavasitə iştirak etmiş və bu operaların uğurlu səhnə həyatında onun da böyük əməyi olmuşdur. Azərb. bəstəkarları Q.Primovun yaradıcılığından qiymətli mənbə kimi faydalanmışlar. Onun ifasından "Rast", "Şur" və s. muğamlar, zərbi muğam, rəng və rəqs nümunələri dəfələrlə müxtəlif bəstəkarlar (M.Maqomayev, Niyazi, Q.Qarayev, F.Əmirov, T.Quliyev, V.Krivonosov, M.Qliyer, S.İbrahimova) tərəfindən nota yazılmışdır. Bu not yazılarından bəstəkar yaradıcılığında və musiqişünaslıq tədqiqatlarında istifadə olunmuşdur. Q.Primov 1925 ildə Ü.Hacıbəyovun rəhbərliyi ilə ilk muğam proqramının hazırlanmasında yaxından iştirak etmişdir. O, böyük bir tarzən və xanəndə nəsli yetirmişdir. Onun ADK-da, ADMM-də, ADOBT-də gənc tarzən kadrlarının hazırlanması və muğam operalarında çıxış edən xanəndələrin yetişməsində böyük əməyi olmuşdur. Azərb. tar ifaçılığı məktəbinin görkəmli nümayəndələri Hacı Məmmədov, Məmmədağa Muradov, Zərif Qayıbov, Əliağa Quliyev, Həbib Bayramov, Sərvər İbrahimov, Xosrov Fərəcov və b. onun yetirmələridir.

**PROQRAMLI MUSİQİ** - musiqinin əsas janrlarından biri. Proqramlı musiqiyə elə instrumental əsərlər aiddir ki, onların məzmunu proqram adlanan xüsusi mətnlə şərh olunur. Proqram bəstəkar tərəfindən hər hansı ədəbi əsərdən seçilir və ya xüsusi olaraq yazılır. Əsərin müəyyən adla adlandırılması da onun proqramını açıqlayır.

**PROQRAM** - **1.** Konsertdə və ya tamaşada ifası nəzərdə tutulan əsərlər və iştirakçılar haqqında məlumat; **2.** Tədris prosesində öyrədilən fənlərin planı, qısa məzmunu. *Bax: Tədris proqramı.* ■

*Qurban Primov, tarzən, 1937 ilin fotosu*



*"Leyli və Məcnun" operasının ilk tamaşasının proqramı*



# R

**RAH** (farsca: melodiya, təranə, hava) - Orta əsrlərdə geniş yayılmış musiqi növü. "Qabusnamə" əsərində (XI əsr) adı çəkilir.

**RAHAB** - kiçik həcmli muğam. Qədim tarixə malik bir muğamdır. Orta əsrlərdə Yaxın Şərq xalqlarının musiqisində 12 klassik muğamdan biri "Rəhavi" adlanırdı. XIX əsrdə də "Rəhavi" dəstgahı mövcud olmuşdur. Zaman keçdikcə bu muğam dəyişikliyə uğramış, dəstgah formasını itirmiş, hal-hazırda "Rahab" adı ilə "Şur" muğam ailəsinə daxil olan kiçik həcmli muğama çevrilmişdir. Tərkibinə daxil olan şöbələr bunlardır: 1."Əmiri"; 2."Şikəsteyi-fars"; 3."Əraq"; 4."Qərai"; 5."Məsihi"; 6."Rahaba ayaq".

**RAH-GÜL** - Orta əsrlər musiqisində muğam şöbələrindən biri.

**RAH-RUH** - Orta əsrlər musiqisində muğam şöbələrindən biri.

**RAH-ŞƏBDİZ** - Orta əsrlər musiqisində muğam şöbələrindən biri. Xosrov Pərvizin mindiyi Şəbdiz adlı atın adı ilə bağlıdır.

**RAK** (ərəbcə: əsas, dayaq) - muğam guşəsi. "Rast" muğam dəstgahında "*Pəncgah*" şöbəsindən sonra ifa olunaraq, daha yüksək pillələri əhatə edir və səs diapazonunun genişlənməsinə səbəb olur. Bəzi ifaçılıq variantlarında "Pəncgah" və "Xavəran" şöbələri arasında, bəzən "Pəncgah" və "Qərai" arasında ifa olunur. Muğam ifaçılığı təcrübəsində "Rak" guşəsinin bir neçə variantlarının adı çəkilir: "Rak-Abdulla", "Rak-hindi", "Rak Xorasani". Ə.Bədəlbəylinin "Musiqi lüğəti"ndə verilən məlumata əsasən, "Rast" dəstgahında "Xocəstə" şöbəsindən sonra ("*Saqinamə*"dən əvvəl) "Rak-hindi", "Rak Xorasani" kimi guşələr ifa olunur; qədim zamanlarda isə "Rast" və "Mahur" dəstgahlarının axırında mayəyə qayıtmazdan əvvəl "Rak-Abdulla" guşəsində dayanmaq lazım idi. Ə.Bədəlbəylinin fikrincə, "Rak-Abdulla", "Rak-hindi", "Rak Xorasani" guşələri, əslində, eyni melodik gəzişmənin müxtəlif variantlarıdır.

**RAQA** (sanskritcə hərfi mənası: rəng, arzu) - qədim hind klassik musiqisi növlərindən biri. "Raqa" termini müxtəlif mənalarda (rəng, çalar, arzu, ehtiras, məhəbbət, kədər, əzab və s.) işlənir. Raqa ənənəvi məqam-ritm quruluşu əsasında yaranan improvizasiya xarakterli musiqi əsəridir. Günün, fəslin, ilin müxtəlif vaxtlarında ifa olunan raqalar var. Raqalar 7, 6 və 5 səsdən ibarət səsdüzümünə (that) əsaslanır. Raqaların özünəməxsus interval quruluşu var. Səslər arasında ən kiçik intervala "şruti" deyilir (oktava 22 qeyri-bərabər şrutidən ibarətdir). Hər bir raqa üçün xüsusi səs qrupları - intonasiyalar, təbil və ya mridanqamda ifa olunan müəyyən ritmlər səciyyəvidir. Hindistanda XIV əsrdə raqa ifaçılığında iki məktəb: şimal məktəbi (Əbdülkərim xan, Vilayət xan) və cənub məktəbi (Dikşitar, Şyama Şastri) aparıcı rol oynamışdır. XX əsrdə də raqa ifaçılığı inkişaf edir (Ravi Şankar, Narayana Menon, Bismillah Xan və b.). Azərb. muğamları kimi hind raqaları da şifahi ənənəli professional musiqi növü olub, xüsusi məktəb keçmiş peşəkar musiqiçilər tərəfindən ifa olunaraq yaradılır.

*Kişori Amankar, raqa ifaçısı*







**RAMEŞ-CAN** - Şərq musiqisində muğam şöbəsi.

**RAPSODİYA** (yunan: *rhapsodia*) - **1.** Qədim Yunanıstanda xalq arasında gəzəri müğənnilər - rapsodlar tərəfindən ifa olunan epik poemalar; **2.** Xalq mövzuları əsasında parafraz formasında qurulan virtuoz instrumental pyes; Azərb. musiqisində də muğamlar əsasında rapsodiya yaradılmışdır: məs., H.Rzayev "Çahargah rapsodiyası".

**RAST MƏQAMI** (*mənası:* doğru, dürüst, müstəqim, düzgün) - Azərb. musiqisində yeddi əsas məqamdan birincisi (Ü.Hacıbəyov). Quruluşu: 1-1- ½ ton formullu üç tetraxordun qovuşuq üsulla (x.1 - intervalı məsafəsində) birləşməsindən ibarətdir; səssırası 10 pillədir, IV pillə mayə (tonika) pilləsidir. Məqamın səssırasının IV, VI, VII, VIII pillələri istinad-dayaq pilləsi kimi "Rast" muğamının şöbələrinin əsasını təşkil edir; bu məqamda qurulan musiqi nümunələri - xalq mahnıları, rəqsləri, aşıq havaları həmin pillələrə əsaslanır.

Do rast məqamının səssırası:




**RAST MUĞAMI** - **1.** Orta əsrlərdə Şərq xalqları musiqisinin əsasını təşkil edən 12 əsas muğamdan biri; "Rast" muğamı bütün müsəlman ölkələrinin musiqisində mövcuddur. Şərq alimləri "Rast"ı - "muğamların anası" və "uluq kök" adlandırmışlar (S.Urməvi). Qədim rəvayətə görə, "Rast" muğamı - "Adəmin dövründən bizə gəlib çatmış və hər şeydən əlini üzmüş ən birinci insanın cənnət haqqında naləsini təşkil edir" (Dərviş Əli, XVII əsr). Orta əsr muğamları tarixi inkişaf prosesində quruluş və forma baxımından dəyişikliklərə uğrasa da, "Rast" muğamı yalnız öz adını və səsqatarını deyil, hətta öz mayə ucalığını da zəmanəmizə qədər mühafizə etmişdir (Ü.Hacıbəyov).

Bütün Yaxın Şərq xalqlarında "Rast" muğamı eyni məqam əsasına malik olub, kiçik oktava sol rast tonallığında qurulur. Bununla belə, "Rast" muğam dəstgahının tərkibi ayrı-ayrı xalqların musiqisində, eləcə də Azərb. hətta eyni dövrə aid ifaçılıq məktəblərində belə müxtəlifdir. Ə.Bədəlbəyli XIX əsrin II yarısında Azərb. Bakı (Abşeron), Şuşa (Qarabağ), Şamaxı (Şirvan) musiqi məclislərində ifa olunan "Rast" muğamının üç versiyasını göstərmişdir:

*Bakı (Abşeron) musiqi məclislərində:* "Mayeyi-rast", "Novruz-rəvəndə", "Rast", "Üşşaq", "Hüseyni", "Vilayəti", "Xocəstə", "Xavəran", "Əraq", "Pəncgah", "Rak", "Xavəran", "Əmiri", "Məsihi", "Rast".

*Şuşa (Qarabağ) musiqi məclislərində:* "Rast", "Pəncgah", "Vilayəti", "Mənsuriyyə", "Zəminxara", "Rak-hindi", "Azərbaycan", "Əraq", "Bayatı-türk", "Bayatı-Qacar", "Mavərənnəhr", "Bal-kəbutər", "Hicaz", "Şahnaz", "Əşiran", "Zəng-şötör", "Kərkuki", "Rast".

*Şamaxı (Şirvan) musiqi məclislərində:* "Rast", "Üşşaq", "Mücri", "Hüseyni", "Vilayəti", "Siyahi-ləşkər", "Məsihi", "Dəhri", "Xocəstə", "Şikəsteyi-fars", "Rak-hindi", "Rak-Xorasan", "Saqinamə", "Əraq", "Təsnif-qərai", "Məsnəvi", "Zəng-şötör", "Nəğməyi-hindi", "Mənəvi", "Kabili", "Rast".

**2.** Müasir dövrdə Azərb. şifahi ənənəli professional musiqisində ən böyük muğam dəstgahıdır. Tərkibi: "Bərdaşt", "Mayeyi-Rast", "Üşşaq", "Hüseyni", "Vilayəti", "Şikəsteyi-fars", "Əraq", "Pəncgah", "Rak", "Qərai", "Rasta ayaq" şöbə və guşələrindən ibarətdir. Müxtəlif ifaçılıq variantlarında, həmçinin "Xocəstə", "Xavəran", "Kürdü", "Pəhləvi", "Dilkəş", "Əmiri", "Dəhri", "Məsihi" kimi şöbə və guşələrdən də istifadə olunur. "Rast" muğamı zəngin musiqi məzmununa malikdir. Onun musiqisi əvvəldə təmkinli, rəvayət səciyyəli olub, getdikcə gümrah, məğrur xarakter kəsb edir.

**RAST MUĞAM AİLƏSİ** - Azərb. musiqisində rast məqamında qurulan muğamlar "Rast muğam ailəsi" əmələ gətirir: "Mahur-Hindi", "Orta-Mahur", "Bayatı-Qacar", "Dügah". Bu muğamlar musiqi məzmunu baxımından bir-birinə uyğundur, bununla belə xarakter cəhətdən, tərkib hissələrinə və tonallığına görə bir-birindən fərqlənir.Hər muğamın öz kökü, yəni tonallığı vardır: "Rast" muğamı - sol rast, "Mahur-Hindi" - do rast, "Orta Mahur" - fa rast, "Bayatı-Qacar" - si-bemol rast, "Dügah" - mi-bemol rast məqam-tonallığında ifa olunur. Eyni zamanda, müstəqil mahiyyət kəsb etmiş "Qatar" (do rast) kiçik həcmli muğamı, "Heyratı" (do rast) zərbi muğamı da "Rast" muğam ailəsinə mənsubdur.

**RAST MUĞAMININ NOT YAZILARI** - "Rast" muğamı bir neçə dəfə müxtəlif ifalardan nota salınmışdır: M.Maqomayev tərəfindən - tarzən Qurban Primovun ifasından (1928, əlyazma); Niyazi - xanəndə Cabbar Qaryağdıoğlunun ifasından (1935, əlyazma), T.Quliyev - tarzən Mənsur Mənsurovun ifasından (Bakı,1936), xanəndə Zülfi Adıgözəlov və tarzən Qurban Primovun ifasından (əlyazma; bir hissəsi V.Be-

lyayevin "O muzıkalnom folklore i drevney pismennosti" - (Musiqi folkloru və qədim yazılar haqqında) kitabında nəşr olunmuşdur; (Moskva, 1971); N.Məmmədov - Əhməd Bakıxanovun ifasından (Bakı, 1963), xanəndə Hacıbaba Hüseynovun və tarzən Bəhram Mansurovun ifasından (Moskva, 1978); A.Əsədullayev - tarzən Elxan Mirzəfərovun ifasından ( Bakı, 2005).

Bəstəkar yaradıcılığında "Rast" muğamından geniş istifadə olunmuşdur. Bu muğam dəstgah əsasında Niyazi "Rast" simfonik muğamını bəstələmişdir (1949).

**RAST-PƏNCGAH** - Azərb. musiqisində "Rast" muğamının ikinci adı.Bu muğam İran musiqisində əsas dəstgahlardan biridir: "Zəngulə", "Pərvanə", "Nəğmə", "Ruh-əfza", "Xosrovani", "Pəncgah", "Süpehr", "Üşşaq", "Şiraz", "Bayatı-əcəm", "Mübərriğə", "Qərəcə", "Bəhrnur" və əlavə olaraq, "Əbül-çəp", "Leyli və Məcnun", "Ravəndi", "Novruz-ha", "Nəfir-Fərəng", "Əraq" şöbə və guşələrindən ibarətdir.

**RAUF YEKTA BƏY** (1878, İstanbul - 09.01.1935) - türk musiqi alimi və bəstəkarı. İlk musiqi təhsilini zamanının ən böyük musiqi ustadı Zəkai Dədədən (1824-1897) almışdır. İstanbulda "Darüləlhan" musiqi məktəbində bir müddət musiqi müəllimi kimi çalışmışdır. Sonradan "Darüləlhan" əsasında İstanbul Konservatoriyası təşkil edilmişdir. Rauf Yekta bəy burada türk musiqi folklorunu təsnif edən heyətin rəisi vəzifəsinə təyin olunmuş və burada uzun müddət çalışmışdır. R.Yekta bəy rast, ərəban, nəva, süpehr, övc, dilkeşi, bəstə-nigar və başqa məqamlar kökündə bir çox mahnılar bəstələmişdir. R.Yekta bəy 1913-1930 illərdə Fransada "Musiqi ensiklopediyası və konservatoriya lüğəti" ("Encyclopedie de la musique et dictionnaire du conservatoire", Paris, 1922) adı ilə nəşr edilən dünya xalqları musiqisinin tarixi və nəzəriyyəsi üzrə elmi məqalələr külliyyatında türk musiqisinə aid fəslin müəllifidir. O, həm də İstanbulda nəşr olunan "Şəhbal" məcmuəsində də türk musiqi sənətinə aid bir çox maraqlı məqalələrlə çıxış etmişdir. 1912 ildə görkəmli azərb. tarzən və musiqi xadimi Məşədi Cəmil Əmirov Türkiyədə olarkən, Rauf Yekta bəyin onunla müsahibəsi əsasında Azərb. musiqisi haqqında maraqlı məqaləsi çap edilmişdir. Bu jurnalda ("Şəhbal", № 59, 1912), həmçinin, M.C.Əmirovun "Heyratı" muğamının not yazısı nəşr olunmuşdur.

**RAVƏNDİ** - müasir Şərq musiqisində "Rast" və "Hümayun" dəstgahlarında muğam şöbəsi.

**RAZ-NİYAZ** - "Hümayun" dəstgahında "Suzigüdaz" ilə "Məsnəvi" arasında ifa olunan musiqi parçası.

**REÇİTATİV** (italyan: *reçitative* - deklamasiya) - vokal musiqinin elə bir xüsusi növüdür ki, danışığın, sözün intonasiyası və ritmi cəhətdən təbii nitqə yaxındır. XVI-XVIII əsrlərdə operanın yaranması ilə əlaqədar meydana gəlmişdir; sonradan digər musiqi janrlarında - oratoriya, kantata, mahnı və s. istifadə olunur. Azərb. musiqisində də reçitativdən istifadə olunur. Muğamlarda reçitativ tipli melodiyalar geniş tətbiq edilir. Bununla yanaşı, opera sənətində reçitativlər mühüm yer tutur. M.Maqomayevin "Şah İsmayıl" operasında bəstəkar reçitativləri muğam improvizasiyaları üzərində qurmuşdur.

**REFREN, NƏQARƏT** (fransız: *refrain* - nəqarət) - *1.* Rondo formasında təkrarlanan əsas mövzu. *2.* Kuplet formasında ikinci hissə - nəqarət. Xalq mahnı və rəqslərində ən çox təsadüf olunan musiqi qurumu.

**REGİSTR** (latın: *registrum* - siyahı) - musiqi alətinin, yaxud müğənni səsinin müəyyən yüksəklikli səs diapazonu sahəsi: aşağı registr, yuxarı registr, orta registr kimi növlərə bölünür.

**RENESSANS, İntibah** (fransız: *Renaissance* - dirçəliş; *renaitre* - dirçəlmək) - Qərbi və Mərkəzi Avropa ölkələrinin mədəniyyət tarixində orta əsr mədəniyyətindən yeni dövr mədəniyyətinə keçid dövrü (Renessansın təxmini xronoloji sərhədləri: İtaliyada XIV-XVI əsrlər, digər ölkələrdə XV-XVI əsrlər). Renessans mədəniyyətinin mühüm xüsusiyyətləri onun dünyəvi xarakter daşımasında, humanist dünyagörüşü, antik mədəni irsə müraciəti və onu sanki "dirçəltmə"sindədir ("Renessans" adı da buradandır; hələ İtaliya sənətkarlarının əsərlərində təsadüf edilən bu termin elmdə XVIII əsrdən bərqərar olmuşdur). Bu dövr dünya mədəniyyəti tarixinə Dante, Petrarka, Bokaçço, Rable, Servantes, Şekspir kimi şair və yazıçıları, Leonardo da Vinçi, Mikelancelo, Rafael, Tisian, Qaliley, Bruno, Makiavelli kimi sənətkarları və ensiklopedist alimləri bəxş etmişdi.

"Renessans" məfhumu təkcə Qərbi Avropa ərazi çərçivələri ilə məhdudlaşdırılmır. Renessans - bu və ya digər milli mədəniyyətin ən yüksək çiçəklənmə mərhələsi, humanizmin (orta əsrlər asketizminə qarşı) təsdiqi, ilkin burjua mədəniyyəti dövrü və s. kimi səciyyələndirilir. Bəzi şərqşünaslar Renessansın Asiyada (Çin, Hindistan, İran), Şərq ölkələrində, həmçinin Azərb. da olduğunu göstərirlər (məs., Çində VIII-XII əsrlər, Azərb. XII-XIII əsrlər). Bu mənada Renessans ümumdünya tarixi hadisə hesab edilir. Renessans mədəniyyəti dünya incəsənətinin gələcək inkişafına böyük təsir göstərmiş, humanizm ideyalarının ifadəsinə çevrilmiş və sənətdə realizmin inkişafına güclü təkan vermişdir. "Şərq Renessansı" və "Müsəlman Renessansı" anlayışı şərti xarakter daşıyır və Şərq, müsəlman ölkələrinə münasibətdə iki amili nəzərdə tutur: 1) müsəlman mədəniyyətinin ən yüksək çiçəklənməsi dövrü ("Qızıl əsr"); 2) bu dövrlə əlaqədar humanizm konsepsiyasının inkişafı, insan probleminə diqqətin artması. "Avropa Renessansı"nda olduğu kimi, "Müsəlman Renessansı" üçün də mədəniyyətin, fəlsəfənin, elmin, ədəbiyyatın, incəsənətin yüksək inkişafı səciyyəvi idi. Avropada olduğu kimi, İslam regionunda da bu dövr dahi şəxsiyyətlərin - Nizami, Xaqani, Səfiəddin Urməvi, əl-Kindi, Ibn-Sina, Cami və b. mütəfəkkirlərin adı ilə bağlıdır.

**REPERTUAR** (latın: *repertorium* - siyahı) - hər hansı ifaçı, yaxud ifaçı qrupu, teatr truppası tərəfindən ifa olunan əsərlərin toplusudur.

**REZONANS** (latın: *rezono* - hay verirəm; səsə səs verirəm) - akustik hadisədir; bu zaman "vibrator" adlanan maddədəki rəqsin titrəyişinin təsiri nəticəsində "rezonator" adlanan maddədə eyni sürətli rəqslər (titrəyişlər) əmələ gəlir ki, bu da səsin gücünü artırır.

**REZONANS DƏLİKLƏRİ** - musiqi alətlərinin gövdəsində yerləşir və səsin təsir gücünün artırılmasına xidmət edir.

**REZONANS SİMLƏR** - *bax: Alikvot simlər.*

**RƏCƏZ (ərcuzə)** - Əruzun bəhrlərindən biri. Orta əsrlər musiqisində cəngavərlik ruhlu mahnılar üçün ən çox münasib sayılan bəhr. "Çahargah" dəstgahında "Mənsuriyyə"dən əvvəl ifa edilən guşə.

**RƏDDƏTİ-İ-SOVT** (ərəb) - əks-səda.

**RƏDİF** - İran musiqisində muğam şöbələrinin, guşələrinin, təsnif və rənglərinin dəstgahlar sistemi üzrə təşkili və tənzim qaydası.

**RƏHAVİ** - *bax: Rahəvi.*

**RƏKB** - Yaxın Şərq xalqlarının klassik musiqisində 24 əsas şöbədən biri.

**RƏMƏL** - Əruz vəzninin musiqidə geniş istifadə olunan bəhri. Bir çox növü var. Bu növlər özözlüyündə müəyyən təqsimat daxilində qruplaşdırılır. Burada səslərin *"hərəkat"* və *"sekunat"* cəhətincə təvazön (müvazinət) və tənasibi əsas rol oynayır. Ərəb - İran klassik musiqisində rəməl bəhri rəməl-xəfif və rəməl-səqil təqsimlərinə ayrılır. Bunlardan rəməl-səqil iki şəkildə olur:

a) fəilatün təfiləsinin dörd dəfə təkrarlanmasından əmələ gələn bəhr;

b) fəilatün-fəilün-məfulün-məfulün-fəilün təfilələrinin ardıcıl birləşməsindən düzələn bəhr.

Azərb. muğam ifaçılığında rəməl bəhri ən çox işlənən ölçülərdən biridir.

**RƏNG** - Azərb. şifahi ənənəli professional musiqisində instrumental musiqi janrı. Dəqiq metroritmik ölçülü, rəngarəng melodik quruluşlu musiqi məzmununa malikdir. Rənglər həm müstəqil pyeslər kimi, həm də muğam dəstgahın tərkibində ifa olunur. Rənglərin muğam dəstgahda bir neçə funksiyası vardır: muğam şöbələri arasında ifa olunaraq, bir şöbənin yekunlaşdırılmasına şərait və növbəti şöbəyə keçid yaradır; dəstgahın kompozisiyasına rəngarənglik aşılayır; muğamın emosional məzmununu zənginləşdirir.

Rənglər muğam şöbələrinin məqam əsasını, melodik və kadans quruluş xüsusiyyətlərini qəbul edərək, onların adını daşıyır. Məs., "Mayeyi-Rast rəngi", "Hüseyni rəngi", "Vilayəti rəngi", "Əraq rəngi". Bununla yanaşı, bütün bu rənglər "Rast" rəngləri, yəni "Rast" muğamına aid rənglər hesab olunur. Rənglər xarakterinə görə marşvari, rəqsvari və lirik olur. İfaçılıq təcrübəsində istedadlı musiqiçilər tərəfindən çoxsaylı rənglər yaradılmışdır. Bir çox rəng nümunələrinin not yazıları çap olunmuşdur.

**RƏŞİD BEHBUDOV ADINA AZƏRBAYCAN DÖVLƏT MAHNI TEATRI** - 1968 ildə xalq artisti R.Behbudov tərəfindən yaradılmışdır və hazırda onun adını daşıyır. Xalq və estrada musiqisi, teatr və kino elementlərinin vəhdətinə nail olmaq teatrın əsas spesifik əlamətidir. Repertuarının əsasını qədim xalq mahnıları, muğam və təsnif lər, bəstəkar mahnıları təşkil edir.

**RƏVƏND** (farsca, hərfi mənası: kökündən dərman hazırlanan bitki) - "Mahur" dəstgahına mənsub guşələrdən biri.

**RƏZVİ** - qədim musiqidə muğam guşəsi.

**RİSALƏ** - *bax: Traktat.*

**«RİSALEYİ-MUSİQİ»** - *Bax: Cami, Mirzə bəy.*

**RİTM** (yunan: *rithmos* - rəvan axarlı hərəkət) - musiqidə səslərin uzunluqlarının aksentlərlə növbələşməsi və qarşılıqlı münasibəti. Hər bir musiqi əsəri özünəməxsus ritmə malik olur. Ritmin ölçüsü - "metr" və yaxud "vəzn" adlanır.

**RİTMİK FİQUR** - ritmin dəfələrlə təkrar olunan xarakterik parçası; adətən, hər bir rəqslərdə ritmik fiqurlar hərəkətləri müşayiət edir.



*XIX əsrin sonuna qədər tar bu şəkildə tutularaq çalınırdı*

**ROMANS** (ispan: *romanse* - roman dilində, yəni ispanca) - **1.** instrumental müşayiətlə solo səs üçün yazılan lirik mahnı. **2.** Kamera - vokal musiqinin əsas janrlarından biri. Romans orta əsrlərdə İspaniyada meydana gəlib, sonra başqa ölkələrə yayılmışdır. Romansın növləri: ballada, elegiya, barkarola. Azərb. musiqisində romansın xüsusi növü: romans-qəzəl yaranmışdır *(bax: Üzeyir Hacıbəyov)*

**RONDO** (fransız: *rondeau* - dairə) - **1.** Bir mövzunun müxtəlif epizodlarla növbələşərək dəfələrlə təkrar olunmasına əsaslanan musiqi forması. Təkrar edilən mövzu - refren - ən azı üç dəfə keçməlidir, epizodların sayı ikidən az olmamalıdır. Rondo formasının sxemi belədir: A B A C A. **2.** Rondo formasında yazılmış pyes. Mənşəyi rəqs musiqisi ilə bağlıdır. Xalq rəqsləri, adətən, rondo formasında qurulur. Muğamda rondo formasının cizgilərinə rast gəlinir.

**ROYAL** (fransız: *royal* - kral, şahanə) - klavişli - simli alət olan fortepianonun əsas növü. X.ç.a. ansambllarında və orkestrlərdə istifadə olunur.

**RÖVŞAN-ÇIRAQ** - qədim musiqidə muğam şöbəsi, ya da mahnı adı.

**RUBƏND** - XIX əsr Azərb. musiqisində "Çahargah" dəstgahının son şöbələrindən biri.

**RUH MİZRAB** (və ya rüxt mizrab) - tar ifaçılığında istifadə olunan ənənəvi mizrab işlətmə üsulu; tremolo ilə çalmaq deməkdir; üst və alt mizrablar cəld halda ardıcıl vurulur.

**RUH-ƏFZA** (hərfi mənası: canlandıran, dirilən) - əvvəllər "Rast-pəncgah" dəstgahının əvvəlində ifa olunan şöbələrdən biri.

**RUH-ÜL-ƏRVAH** (hərfi mənası: ruhlar ruhu) - "Dügah" dəstgahında ilk şöbələrdən biri.

**RÜBAB (rebab)** - simli dartımlı musiqi aləti. Vaxtilə bütün Yaxın Şərq xalqlarının musiqi məişətində geniş istifadə olunmuşdur. Hazırda başlıca olaraq, Orta Asiya xalqlarının musiqisində çox istifadə olunur. Rübabın bir çox növləri var. Hər növ intişar tapdığı mahalın adı ilə adlanır; məs., tacik rübabı, qaşqar rübabı, əfqan rübabı və s. Bəzən tamamilə eyni növdə və eyni konstruksiyada olan rübab müxtəlif cür adlandırılır. Rübabın, əsas olaraq, üç simi var, lakin rezonans vermək üçün çox zaman əlavə bir neçə sim də qoşulur. Rübab simləri qaramal buynuzundan hazırlanan kiçik mizrabla səslən-dirilir.

**RÜBAİ** (ərəb) - dördlük. Orta əsrlər poeziyasında geniş yayılmış forma.

**RÜSTƏMOV Qədir Çərgəz oğlu** (20.15.1935, Ağdam) - xanəndə, xalq artisti (1993). Qarabağ xanəndəlik məktəbinin tanınmış nümayəndələrindən biri. Q.Rüstəmov Ağdam rayonunda xanəndə kimi yetişmişdir. Əvvəlcə ADMM-də ustad-xanəndə Hacıbaba Hüseynovdan muğam dərsləri almış, sonradan Ağdamda təhsilini davam etdirmişdir. Məlahətli səsi və özünəməxsus ifa tərzi ilə xalqın rəğbətini qazanan Q.Rüstəmov xanəndə kimi çox məşhurlaşmışdır. Qarabağın toy məclislərində, el şənliklərində Q.Rüstəmov muğam dəstgahları böyük məharətlə ifa etmişdir. Q.Rüstəmovun ifasında bir sıra muğam dəstgahlar - "Rast", "Çahargah" lentə alınaraq radionun fondunda saxlanılır. Yüksək tessituralı səsə malik Q.Rüstəmov bütün registrlərdə səs keyfiyyətlərini nümayiş et-







*Qədir Rüstəmov, xanəndə*

dirməyi bacarır. O, oxuduğu muğamlarda uzun və coşğun zəngulələr vurması ilə də fərqlənir. Onun "Sona bülbüllər" mahnısı xüsusilə çox sevilir.

**RÜSTƏMOV Səid Əli oğlu** (12.05.1907, İrəvan - 10.06.1983, Bakı) - bəstəkar, dirijor, pedaqoq, xalq artisti (1957), SSRİ Dövlət mükafatı laureatı (1951), professor (1973). ABİ üzvü (1949-1953 illərdə sədr). 1926 ildə Bakı müəllimlər seminariyasını, 1930 ildə ADMM-i (Ü.Hacıbəyovdan və M.Mansurovdan dərs almışdır), 1932 ildə Azərb. Pedaqoji İnstitutunu bitirmişdir. 1931 ildən AzTRV Komitəsində, Ü.Hacıbəyovun təşkil etdiyi x.ç.a. ork. konsertmeysteri, 1935-1973 illərdə həmin ork.-in bədii rəhbəri və baş dirijoru olmuş *(bax: Səid Rüstəmov ad.*



*Səid Rüstəmov, bəstəkar*

*X.Ç.A. ork.)*, bu ork. üçün bir sıra əsərlər yazmış ("Bayatı-Kürd fantaziyası", "Azərbaycan" süitası və s.), eləcə də muğam dəstgahları ork. üçün işləmişdir (xanəndə və ork. müşayiəti, rəng və təsniflərin ifası). S.Rüstəmov öz yaradıcılığında muğam formalarından, aşıq musiqisindən, xalq mahnı və rəqslərindən bəhrələnmiş, özünəməxsus musiqi dili yaratmışdır. Onun mahnıları Azərb. mahnı janrının inkişafında yeni səhifə açmışdır. "Sürəyya", "Alagöz", "Qurban adına", "Şeir deyilmi", "Gəlmədin" və b. mahnıları geniş şöhrət qazanmışdır. O, həmçinin müasir mövzuda yazılmış ilk musiqili komediyaların ("Beş manatlıq gəlin", "Durna", "Rəisin arvadı") müəllifidir. S.Rüstəmov 1930 illərdə ADK nəzdində fəaliyyət göstərən Elmi-tədqiqat musiqi kabinetinin əməkdaşı olmuş, Azərb. xalq mahnı və rəqslərini, rəngləri və aşıq havalarını toplayıb nota salmışdır (Cabbar Qaryağdıoğlunun ifasından yazılmış "50 Azərbaycan xalq mahnısı" məcmuəsi (1938); müxtəlif ifaçılardan toplanmış "100 Azərbaycan xalq mahnısı" (1967); 4 dəftərdən ibarət "Aşıq mahnıları" (1938), 2 dəftərdən ibarət "Azərbaycan xalq rəngləri" (1954-1956) və s.). S.Rüstəmov 1929 ildən pedaqoji fəaliyyət göstərmiş, ADMM-də, ADK-da dərs demişdir. Onun yazdığı "Tar məktəbi" dərsliyi bu gün də tar alətinin tədrisində əvəzsiz vəsaitdir (1935; 8 dəfə təkrar nəşr olunmuşdur). O, "Tar üçün etüdlər"in (1950), Tar ilə x.ç.a. ork. üçün Konsertin müəllifidir.

**RZAYEV İslam Tapdıq oğlu** (11.11.1934, Füzuli r-nu, Sərdarlı k. - 26.01.2008, Bakı) - xanəndə, xalq artisti. Qarabağ xanəndəlik məktəbinin layiqli davamçısı idi. İ.Rzayev professional musiqi təhsilini Bakıda ADMM-də alımış (1951-1956), Seyid Şuşinskinin sinfində muğam dəstgahları mükəmməl öyrənmiş, xanəndəlik sənətinin sirlərinə dərindən bələd olmuşdur. O, həmçinin Zülfi Adıgözəlovdan və Həqiqət Rzayevadan muğam dərsləri almış, sənətini təkmilləşdirmişdir. Daha sonra o, ADMİU-da təhsilini davam etdirmiş, həmin illərdən də ADF-nın solisti kimi fəaliyyətə başlamışdır. İ.Rzayevin yaradıcılığı geniş və çoxşaxəlidir. O, geniş diapazonlu, zəngin çalarlı səs tembrinə malikdir. Onun böyük məharətlə oxuduğu "Çahargah", "Bayatı-Kürd", "Mahur-Hindi", "Rast" muğam dəstgahları AzTR Fonduna daxil olmuş, Azərb. musiqi xəzinəsini zənginləşdirmişdir. İ.Rzayev bir çox mahnılar da bəstələmiş, onlardan "Gəl, inad etmə", "Dağlar başı", "Almadərən" mahnıları geniş yayılmışdır. Xanəndə öz yaradıcılığında da bəstəkar əsərlərinə də müraciət etmiş, C.Cahangirovun "Nəsimi", "Aşıq Alı" və s. kantata-

*İslam Rzayev, xanəndə*
*Həqiqət Rzayeva, xanəndə*





larında solo partiyanı ifa etmişdir. İ.Rzayev 70-dən artıq ölkədə qastrol səfərlərində olmuş, Kolumbiya, Peru, Kuba, Yaponiya, Hindistan, Nepal kimi ölkələrdə Azərb. mədəniyyətini təmsil etmişdir. İ.Rzayev bir təşkilatçı kimi də tanınmışdır. O, 1975 ildə intsrumental ansambl yaratmışdır. Bir çox xanəndələr bu günə kimi bu ansamblla əməkdaşlıq edir. 1988 ildə İ.Rzayev A.Qazıyev və R.Mirişli ilə birlikdə "Muğam teatrı"nı yaratmış və bu teatrın bədii rəhbəri olmuşdur. İ.Rzayev pedaqoji işlə də məşğul olmuş, onun yetirdiyi tələbələr xanəndəlik məktəbinin layiqli davamçıları kimi tanınmışlar.

**RZAYEVA Həqiqət Əli qızı** (20.05.1907, Bakı - 02.08.1969, Bakı) - müğənni, pedaqoq, xalq artisti (1943). Azərb. səhnəsində çıxış edən ilk qadın müğənnilərdən biridir. Güclü və zəngin tembrli soprano səsə malik idi. 1928-1932 illərdə ADK-nın müğam şöbəsini bitirmiş, Cabbar Qaryağdıoğlundan və Seyid Şuşinskidən dərs almışdır. Muğam və xalq mahnılarının ifaçısı kimi geniş şöhrət qazanmışdır. 1927-1952 illərdə ADOBT-nin solisti olmuş, bu teatrın səhnəsində Ərəbzəngi (M.Maqomayev - "Şah İsmayıl"), Şahsənəm (Z.Hacıbəyov - "Aşıq Qərib"), Telli (Ü.Hacıbəyov -"Arşın mal alan") kimi yaddaqalan obrazlar yaratmışdır.

**RZAQULİYEV Ələkbər Ələsgər oğlu** (31.01.1903, Bakı - 31.01.1974, Bakı) - Azərb. boyakarı və qrafiki, əməkdar rəssam (1964). Yaradıcılığının erkən dövründə keçmiş Azərb. məişətinin xarakterik səhnələri təsvir olunan boyakarlıq əsərləri çəkmişdir ("Azərbaycanlı qadın", 1926; "Pəhləvanlar", 1926; "Mollaxana", 1927). Rzaquliyev qrafika sahəsində daha geniş fəaliyyət göstərmiş, "Köhnə Bakı" silsiləsi (1958-1972), "M.Ə.Sabir" (1963), "Bakılılar Berlində" (1968), "Çaybecərənlər" (1972), "Azərbaycan madonnası" (1973) və s. linoqravürlər yaratmışdır. Musiqiçilərin təsvirinə həsr olunmuş silsilə rəsmlərin müəllifidir. "Muğam üçlüyü" rəsmi çox məşhurdur. Əsərləri Şərq Xalqları İncəsənəti Muzeyi (Moskva), R. Mustafayev ad. Azərb. Dövlət İncəsənət Muzeyi, Azərb. Dövlət Şəkil Qalereyası və digər muzeylərdə saxlanılır. ■





# S

**SADIQCAN** - *bax: Mirzə Sadıq Əsəd oğlu.*

**SADIQOV Əliövsət Şirəli oğlu** (21.12.1906, Şəki - 17.11.1971, Bakı) - müğənni (lirik tenor), xalq artisti (1956). Güclü zil səsə, gözəl zəngulələrə malik xanəndə idi. Xalq mahnılarının və muğamların məşhur ifaçısı olmuşdur. 1928-1930 illərdə ADK-da təhsil almışdır. 1930-1963 illərdə ADOBT-nin solisti olmuşdur. Ü.Hacıbəyovun muğam operalarında Məcnun ("Leyli və Məcnun"), Kərəm ("Əsli və Kərəm") rollarını böyük ustalıqla yaratmışdır.

**SAĞ-SOL** - dartımlı simli musiqi alətlərində (*tar, saz* və s.) hər notun ardıcıl surətdə, nisbətən, tələsmədən, növbə ilə *üst mizrab* və alt (tərs) mizrab ştrixlərinin təkrarlanması yolu ilə səsləndirilməsi (*detaşe*); sağ-sol ştrixi narın və sürətli işlədildikdə *tremolo* mahiyyətini kəsb etmiş olur.

**SAQİNAMƏ** - muğam guşəsi; bu ad Şərq poeziyası nümunəsi ilə bağlı olub, mənası "eşq mahnısı" deməkdir; dəstgahın tərkibində ifa olunan canlı, şən xarakterli instrumental musiqi növüdür. Müasir dövrdə nadir hallarda ifa olunur. "Şur", "Hümayun", "Mahur" muğamlarının ifası zamanı rast gəlinir.

B.Mansurovun məlumatına əsasən, Cabbar Qaryağdıoğlu saqinamələrə sözlər qoşaraq oxumuşdur. S.Şuşinski "Hümayun" muğamında "Bidad" şöbəsindən sonra "Kiçik məsnəvi" (və ya "Məsnəviyi-səqir") şöbəsini "Saqinamə" adlandırırdı. B.Mansurov ifa etdiyi "Qafqaz Hümayunu" muğamında "Bidad" və "Tərkib" şöbələrinin ardınca "Üzzal"a doğru enməni təmin edən musiqi epizodunu "Saqinamə" adlandırırdı.

**SALAHOV Baba Əliheydər oğlu** (05.02.1923, Bakı - 12.08.1981, Bakı) - tarzən, əməkdar artist (1964). Əhməd Bakıxanovun yetirməsi olmuş, onun ifaçılıq ənənələrini davam etdirmişdir. 1940 ildən ömrünün sonunadək Səid Rüstəmov ad. Azərb. x.ç.a. ork. konsertmeysteri kimi çalışmışdır. 1965 ildə AzTR nəzdində x.ç.a. ansamblı yaratmış, ömrünün sonuna kimi onun bədii rəhbəri olmuşdur. Hal-hazırda "Araz" adlanan bu ansambl Baba Salahovun xatirəsini əbədiləşdirmişdir. AzTR Fondunda bir çox səsyazıları saxlanılır.



*Baba Salahov, tarzən*

**SALAHOV Qılman Balaməmməd oğlu** (1906, Bakı - 1974, Bakı) - kamançaçalan, dirijor, əməkdar incəsənət xadimi (1940). Azərb. Dövlət Türk Musiqi Məktəbində, sonra isə ADMM-də kamança sinfində oxumuşdur (1922-1926). 1939 ildə Moskvada x.ç.a. ifaçılarının I Ümumittifaq müsabiqəsinin laureatı olmuşdur. 1931 ildə Ü.Hacıbəyovun dəvəti ilə Azərb. x.ç.a. ork. işləmişdir. 1938-1964 illərdə ADF-nin mahnı və rəqs ansamblının bədii rəhbəri olmuşdur. Bir sıra mahnı və rəqslərin müəllifidir.

**SALMAN MÜMTAZ ADINA AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT ARXİVİ** - Azərb. SSR Nazirlər Sovetinin 1965 il 17 iyul tarixli qərarı ilə yaradılmış, 1966 ilin yanvar ayından fəaliyyət göstərir. Bakıda yerləşir. Prezident Heydər Əliyevin 1996 il 13 sentyabr tarixli sərəncamı ilə arxivə görkəmli ədəbiyyatşünas Salman Mümtazın adı verilmişdir. Arxivin fondlarında XIX əsrin sonu - XX əsrin əvvəllərinə aid 100 minə yaxın sənəd saxlanılır. Arxivdə 660-a yaxın görkəmli ədəbiyyat, incəsənət xadiminin, o cümlədən, musiqi xadimlərindən Müslüm Maqomayevin, Fikrət Əmirovun, Soltan Hacıbəyovun, Tofiq Quliyevin, Əfrasiyab Bədəlbəylinin, Səid Rüstəmovun, Qənbər Hüseynlinin, Fatma Muxtarovanın, Xan Şuşinskinin, Şövkət Ələkbərovanın, Sara Qədimovanın, Rübabə Muradovanın və b. şəxsi fondları mühafizə olunur. Arxivdəki şəxsi fondlarda bir çox sənət adamlarının, eləcə də Ü.Hacıbəyovun məktubları, avtoqraf ları, habelə həyat və yaradıcılıqlarına aid nadir sənədlər vardır. Arxivin direktoru Maarif Teymurovdur.

**SANTUR** - simli-zərbli musiqi aləti. Qədim Azərb. musiqi alətlərindən biri. Zahiri görünüşü bir qədər *qanun* musiqi alətini xatırladır. Konstruksiyası etibarı ilə də qanun ilə ümumi cəhətləri var. Santurun da qanunda olduğu kimi, bir tərəfdən xərəyi bükülüb açılır və beləliklə, üzərində duran simin uzunluğu dəyişilmiş olur; santurun ayrı-ayrı səs ucalığında olan simləri tək, qoşa, ya da içəri qoşulur. Santur iki yüngül, zərif yonulmuş kiçik çubuğun simlərə vurulması ilə səsləndirilir.

*Santur*



**SANTUR-MİZRAB** - tar ifaçılığında ənənəvi mizrab işlətmə üsullarından biri; üst (P) və alt (V) mizrabların müəyyən ardıcıllığından əmələ gəlir. Santur mizrab üç halda özünü göstərir: a) PVP; b) PPV; c) VPP.

**SARABSKİ Hüseynqulu** (Hüseynqulu Məlik oğlu Rzayevin təxəllüsü; 20.03.1879, Bakı - 16.02.1945, Bakı) - müğənni (lirik-tenor), aktyor, rejissor, pedaqoq, teatr xadimi, xalq artisti (1932), Azərb. peşəkar musiqili teatrının banilərindən biri. Səhnə fəaliyyətinə 1902 ildə Bakıda dramatik rollarla başlamışdır. 1908 ildən "Nicat" cəmiyyəti nəzdindəki opera truppasının solisti olmuşdur. Ü.Hacıbəyovun yazdığı "Leyli və Məcnun" operasında Məcnun rolunun ilk və ən gözəl, yaddaqalan ifaçısı olmuşdur. O, bu rolda 1908-1941 illərdə 400 dəfədən artıq çıxış etmişdir. Digər milli opera və operettalarda da əsas partiyaları ilk dəfə H.Sarabski ifa etmişdir: Şeyx Sənan, Şah Abbas, Kərəm, Sərvər, Əsgər (Ü.Hacıbəyov - "Şeyx Sənan", "Şah Abbas və Xurşid Banu", "Əsli və Kərəm", "O olmasın, bu olsun", "Arşın mal alan"), Qərib (Z.Hacıbəyov - "Aşıq Qərib"), Şah İsmayıl (M.Maqomayev - "Şah İsmayıl") və s. Sarabski sənətinin ecazkarlığı onun ifasının yüksək temperamentində və oynadığı obrazların daxili aləmini təbii boyalarla ifadə etməsində idi. H.Sarabski Bakıda keçirilən "Şərq gecələri"nin təşəbbüsçüsü və fəal iştirakçısı olmuşdur. O, həmçinin "Müsəlman opera truppası" və "Müsəlman dram truppası"nın yaradıcılarından biri idi. H.Sarabski 1910 ildən rejissor kimi də fəaliyyət göstərmişdir: "Rüstəm və Zöhrab", "Ər və arvad" (1910, Ü.Hacıbəyov), "Arşın mal alan" (1913, Ü.Hacıbəyov), "Ölülər" (1916, C.Məmmədquluzadə) əsərlərini tamaşaya qoymuşdur. Bakıda Mərkəzi Fəhlə Klubunda dram dərnəyinə rəhbərlik etmişdir (1920). H.Sarabski ADOBT-nin solisti olmaqla bərabər, 1932 ildən ömrünün sonuna kimi Xalq Yaradıcılığı Evinin rəhbəri olmuşdur. O, ADK-da və ADMM-də (muğam sinfi üzrə) dərs demişdir. Azərb. muğamlarının inkişafında, təbliğində, proqramlaşmasında və tədrisində H.Sarabskinin misilsiz xidmətləri olmuşdur. H.Sarabski həmçinin bir sıra pyeslərin müəllifidir: "Cəhalət", "Axtaran tapar", "Nə tökərsən aşına, o çıxar qaşığına" və s. H.Sarabskinin "Bir aktyorun xatirələri" və "Köhnə Bakı" əsərləri teatr tariximizin öyrənilməsi və tarixi-etnoqrafik material kimi çox qiymətlidir. H.Sarabski "Muğan", "Dağlar", "Leyla" və s. mahnıların müəllifidir.

**SARƏNC (sarəng)** - **1.** "Şur" dəstgahında "Hicaz" ilə "Nişibi-fəraz" arasında yerləşən şöbə. Məqam əsasına görə segaha yaxındır. "Şur" muğamı daxilində segah məqamına keçid yaratmaqla, muğam kompozisiyasına rəngarənglik gətirir. **2.** Ü.Hacıbəyov sarənci əlavə məqamlar sırasında göstərmişdir.

**SAYT, vebsayt** (ingilis: *website*; *web* - hörümçək toru və *site* - yer) - bir və ya bir neçə veb səhifənin cəmi. İnternetdə *http/https* protokolları vasitəsi ilə əldə olunur. Saytın səhifələri ümumi ünvanla birləşdirilir. Adətən, bir mövzuya, məntiqi struktura və tərtibata malik olur. Bütün saytların toplusu dünya internet şəbəkəsində toplanıb. Dünyada ilk sayt 1991 ildə avqustun 6-da Tim Berners-Li tərəfindən yaradılıb. Müxtəlif mövzularda saytlar mövcuddur. O cümlədən, muğam və xalq musiqisi ilə bağlı saytlar yaradılmışdır. *Bax: «Musiqiçinin elektron kitabxanası», «İzahlı monoqrafik musiqi lüğəti»* və b.

**SAZ** - Azərb. qədim dartımlı simli musiqi aləti. Çanağı iki yerə bölünmüş armudun bir hissəsi biçimində, qolu uzun olur. Qoluna 10-14 pərdə bağlanır. Əsas pərdələrdən hərəsinin öz adı var: *baş pərdə, orta pərdə, şah pərdə, yastı pərdə, ayaq pərdə* və *beçə pərdə*. Saza 8-10 sim qoşulur. Bu simlərin köklənmə prinsipi çox maraqlı və orijinaldır. Köklənmə cəhətincə saz simlərini üç əsas qrupa ayırmaq olar. Bunlardan birinci





qrupa aid olunan üç sim eyni ucalıqda (unison) köklənir (birinci oktavanın *re* notu); ikinci qrupu təşkil edən qoşa sim birinci qrupdan bir kvinta aşağı köklənir (ikinci oktavanın *sol* notu) və nəhayət, üçüncü qrupa mənsub olan üç sim isə ikinci qrup simlərindən bir kvinta yuxarı köklənir (birinci oktavanın *do* notu). Sazın simlərini səsləndirmək üçün tar mizrabına nisbətən daha elastik və daha yumşaq bir cisim lazım gəlir ki, bunun üçün də gilənar (albalı) ağacının qabığı olduqca münasib və yararlıdır (*bax: Təzənə*). Sazçı çalğı zamanı simlərin eyni zamanda hamısını vurur. Bu isə ifa olunan əsas melodik xətt üçün kvarta - kvinta səslərindən ibarət daimi surətdə səslənən harmonik fon yaratmış olur. Sazın tembri çox məlahətlidir. Sazın ürəklərə yol açan səsini hələ orta əsrlər klassik şairlərimiz öz əsərlərində dəfələrlə vəsf etmişlər. Saz əsrlərdən bəri aşıq yaradıcılığının əsas musiqi aləti kimi səslənməkdədir.



*Saz*

**SAZƏNDƏ** - musiqiçi, musiqi alətində çalan, çalğıçı.

**SEKVENSİYA** (latın: *sequento* - ardınca gələn, izləyən) - Bir melodik parça və ya harmonik dönmənin yeni yüksəklikdə təkrarlanmasıdır. Sekvensiyanın əsasını təşkil edən melodik parça "sekvensiya halqası" adlanır. Bu halqa pillə-pillə aşağı və yaxud yuxarı istiqamətdə ardıcıl hərəkət etdirilir. Azərb. musiqisində melodiyanın inkişaf üsullarından biri kimi geniş tətbiq olunur. Xüsusilə, muğam melodiyalarında sekvensiyasayağı hərəkət - *sekvensiya* halqalarının zəncirvari xətli hərəkətinə əsaslanan inkişaf üsulu - başqa sözlə, sekvensiya tipli hərəkət mühüm əhəmiyyətə malikdir.

**SEGAH MƏQAMI** (farsca hərfi mənası: *se* - üç + *gah* - mövqe, məkan, vəziyyət) - Azərb. musiqisində yeddi əsas məqamdan biri (Ü.Hacıbəyov). Quruluşu: ½ - 1-1 ton formullu üç tetraxordun qovuşuq üsulla (x.1 - intervalı məsafəsində) birləşməsindən ibarətdir; səssırası 10 pilləlidir, IV pillə mayə (tonika) pilləsidir, II pillə əsas ton əhəmiyyətini daşıyır. Məqamın səssırasının II, IV, VI, VII, VIII, IX pillələri istinad-dayaq pilləsi kimi "Segah" muğamının şöbələrinin əsasını təşkil edir; bu məqamda qurulan musiqi nümunələri - xalq mahnıları, rəqs melodiyaları, aşıq havaları həmin pillələrə əsaslanır.

Mi segah məqamının səssırası:




**SEGAH MUĞAMI** - Yaxın və Orta Şərq xalqları musiqisində 24 muğam şöbəsindən biri. Azərb. geniş yayılmış muğamlardan biridir. Muğam sənətində "Segah"ın bir neçə variantı mövcuddur: "Zabul segah"; "Xaric segah"; "Mirzə Hüseyn segahı" və s.

**SEGAH MUĞAM AİLƏSİ** - Azərb. musiqisində "Segah" ən geniş yayılmış və sanballı dəstgahlardandır. Azərb. "Segah"ın bir neçə variantı mövcuddur: "Orta Segah", "Xaric Segah", "Mirzə Hüseyn Segahı", "Zabul Segah", "Haşım Segahı". Qədim qrammofon vallarında xanəndə İslam Abdullayevin oxuduğu "Yetim Segahı" variantına da rast gəlinir. Ümumiyyətlə, İ.Abdullayev bu muğamın ən mahir ifaçısı olduğuna görə xalq tərəfindən "Segah İslam" adlandırılmışdır. Onun repertuarında "Segah"ın bütün variantları səslənmişdir. "Segah" ailəsinə aid bütün muğamlar bir-birindən tonallıq (kök) etibarı ilə fərqlənir. "Segah" muğamı inkişaf edərək özünəməxsus tonallıq sistemi yaratmışdır: "Xaric Segah" - si (kiçik oktava) mayəli, "Orta Segah" - mi (I oktava) mayəli, "Zabul Segah" - mi (kiçik oktava) mayəli, "Mirzə Hüseyn Segahı" - lya (I oktava) mayəli, "Yetim Segah" - re (I oktava) mayəli, "Haşım Segahı" - sol (I oktava) mayəli segah məqam-tonallığında qurulur. "Segah"ın variantları özünəxas xarakteri, səslənməsi, yozumu, istinad pillələrinin dəyişilməsi ilə fərqləndiyinə görə onların dinləyiciyə bağışladığı təsir müxtəlif olur.

**SEGAH MUĞAMININ NOT YAZILARI** - "Segah" ailəsinə aid muğamlardan "Segah Zabul" bəstəkarlar tərəfindən nota alınmışdır. M.Mansurovun ifasından "Zabul" muğamını T.Quliyev notlaşdırmışdır (1936), "Segah Zabul" instrumental muğamı N.Məmmədov tərəfindən Ə.Bakıxanovun ifasından (1965), A.Əsədullayev tərəfindən E.Mirzəfərovun ifasından (2006) nota salınmışdır. Bəstəkar yaradıcılığında da bu muğama çox müraciət olunur. V.Adıgözəlov bu muğam əsasında "Segah simfoniyası"nı (2005) yaratmışdır.

**SEGAH-ZABUL** - "Segah" muğam ailəsinə daxil olan muğam variantlarından biri. *Bax: Segah, Zabul Segah.*

**SEĞAR** (ərəb) - dissonans əmələ gətirən intervallar (sekunda, septima və s.).

**SETAR** - üç simli ən qədim musiqi aləti. Musiqişünaslardan bir çoxunun fikrincə, setar da pənctar və şeştar kimi tənbur musiqi alətinin bir növüdür. Setar Azərb. sazının "əcdadı, ulu babası" sayılır. Füzulinin "Saqinamə" adı ilə məşhur "Yeddi cam" alleqorik hekayəsində setar xüsusi olaraq vəsf edilmişdir.

**SEYİD ƏZİM ŞİRVANİ** (10.07.1835, Şamaxı - 20.05.1888, Şamaxı) - Azərb. şairi, maarif xadimi. Bağdadda və Dəməşqdə dini təhsil almış, ərəb, fars dillərini mükəmməl bilmiş, dövrünün bir sıra humanitar elmlərini mənimsəmişdir. Şamaxıda yeni üsulla (üsuli-cədid) təlim-tərbiyə verən bir məktəb açmışdır. Azərb.bir sıra ziyalı şəxsiyyətləri - M.Ə.Sabir, S.M.Qənizadə və b. bu məktəbin yetirməsi olmuşlar. S.Ə.Şirvani Azərb. və fars dillərində şeirlər yazmış, lirik və satirik şeirləri ilə klassik Azərb. poeziyasını zənginləşdirmişdir. Yüksək bədii sənətkarlıqla yazılmış lirik şeirlərində (qəzəl, qəsidə, tərkibbənd, müxəmməs, müsəddəs, müstəzad, rübai, qitə) məhəbbət, həyat eşqi tərənnüm olunur. Onun qəzəlləri xanəndəlik təcrübəsində çox istifadə olunaraq, xalq arasında geniş yayılmışdır.

**SEZURA** (latın: *caesura* - bölgü) - musiqi əsərində tamamlanmış hissələri və ya frazaları birbirindən ayıran kiçik pauza; ifa zamanı nəfəs dərməni xatırladır. Sezuranın yeri, adətən, ifaçı tərəfindən müəyyən olunur, bəzən bəstəkar tərəfindən not sətrinin üzərində **V** və ya **,** işarələri ilə göstərilir. Muğam ifaçılığında sezuraların xüsusi əhəmiyyəti vardır.

**SƏBABƏ** (ərəb: şəhadət barmağı) - ***1.*** ud musiqi alətində çalğı ifaçılığında birinci barmaq; ***2.*** ud musiqi alətində mücənnəb ilə vəstayi-fars pərdələri arasındakı pərdə.

**SƏBK** (fars) - üslub, stil, səpki.

**SƏFİƏDDİN URMƏVİ** (Səfiəddin Əbdülmömin ibn Yusif ibn Faxir əl-Urməvi; 1230, Urmiya - 28.01.1294, Bağdad) - Azərb. musiqişünası, musiqi ifaçısı, bəstəkar, şair, xəttat. S.Urməvi ud alətində mahir ifaçı olmuş, nüzhə və muğni musiqi alətlərini ixtira etmişdir. S.Urməvinin zəngin yaradıcılığı, onun elmi ixtiraları Azərb. musiqişünaslığının əsasını qoymuş, onun qiymətli irsini təşkil etmişdir. S.Urməvinin elmi irsi, eyni zamanda, Orta və Yaxın Şərq musiqi nəzəriyyəsinin və mədəniyyətinin inkişafında mühüm mərhələ təşkil edir. O, musiqişünaslıq və ədəbiyyatşünaslığa aid qiymətli risalələrin müəllifidir. "Kitabül-ədvar" ("Dövrlər və ya dairələr haqqında kitab") və "Risaleyi Şərəfiyyə" əsərləri musiqi nəzəriyyəsinə aid fundamental risalələrdir. Yaxın və Orta Şərq musiqisində "sistemçilik" adı ilə məşhur məktəbin banisi olan S.Urməvinin yaradıcılığının Şərq musiqi nəzəriyyəsi sahəsində ən böyük nailiyyəti Azərb., eləcə də bütün Yaxın və Orta Şərq musiqisinin əsasını təşkil edən səs kompleksləri sistemini qaydaya salmasıdır. Bu sistemə əsaslanaraq, S.Urməvi mükəmməl cədvəl (tabulatura) yaradaraq, 12 məqam dairə və 6 avazın səs qatarını vermişdir. S.Urməvi "Kitabül-ədvar"da özünün icad etdiyi "əbcəd not sistemi" ilə XIII əsrin 4 musiqi parçasını yazıb saxlaya bilmişdir. Əsərlərində bir çox nəzəri və estetik problemləri araşdırmışdır. "Kitabül-ədvar" risaləsinin əlyazma nüsxələri dünyanın bir sıra mötəbər kitabxanalarında saxlanılır. AMEA MİI-nin kitabxanasında bu əsərin İstanbulun Nuri-Osmaniyyə kitabxanasından 1940 illərdə Ü.Hacıbəyovun təşəbbüsü ilə gətirilmiş fotosurəti vardır. Səfiəddin Urməvinin "Kitabül-ədvar" və "Şərəfiyyə risaləsi" "Muğam-İrs" layihəsi çərçivəsində "Azərbaycan Mədəniyyətinin Dostları" Fondu və AMEA-nın M.Füzuli ad. Əlyazmalar İnstitutu ilə birgə azərb. dilinə tərcümə olunaraq, çap edilmişdir (2006).

**SƏFİƏDDİN URMƏVİ ADINA DÖVLƏT QƏDİM MUSİQİ ALƏTLƏRİ ANSAMBLI** - musiqi kollektivi. BMA-da elmi-praktiki laboratoriyada Azərb. qədim musiqi alətlərinin elmi məxəzlər əsasında bərpası və təkmilləşdirilməsi nəticəsində sənətşünaslıq namizədi M.Kərimovun başçılığı ilə yaradılmışdır. İlk dəfə olaraq bərpa edilən musiqi alətlərindən ibarət keyfiyyət və formaca yeni ansambldır. 1996 ildə Ümummilli lider Heydər Əliyev cənabları ansamblı dinlədikdən sonra ona yüksək qiymət vermiş, ansambla "Səfiəddin Urməvi adına Dövlət ansamblı" statusu verilmişdir. Ansamblın repertuarı tədqiqatlar nəticəsində üzə çıxarılmış orta əsr not əsərlərindən, muğam və təsniflərdən, rənglərdən ibarətdir. Hal-hazırda Azərb. Dövlət Musiqi Mədəniyyəti Muzeyinin nəzdində fəaliyyət göstərir.


*Zemfira Səfərova, musiqişünas*

**SƏFƏROVA Zemfira Yusif qızı** (10.06.1937, Bakı) - musiqişunas, əməkdar incəsənət xadimi (1989), əməkdar elm xadimi (2006), sənətşünaslıq doktoru (1996), professor (1998), AMEA-nın müxbir üzvü (2007). ABİ üzvü. ADK-da təhsil almışdır. AMEA MİI-nin "Musiqi sənətinin tarixi və nəzəriyyəsi" şöbəsinin müdiridir. Azərb. musiqi elminin tarixinin (XIII-XX əsrlər), Ü.Hacıbəyov yaradıcılığının tədqiqatçısı kimi tanınmış, Ü.Hacıbəyovun musiqi əsərlərinin akademik nəşrini, Qara Qarayevin elmi irsinin akademik nəşrini, M.M.Nəvvabın risaləsinin akademik nəşrini hazırlayıb cap etdirmiş, Azərb. qədim musiqi terminlərinin lüğətini tərtib etmişdir. Azərb. musiqişünaslığında məxəzşünaslıq istiqamətinin yaradıcısıdır. 130-a yaxın elmi əsərin (monoqrafiyalar, kitablar, elmi məqalələr), o cümlədən, "Üzeyir Hacıbəyovun musiqi-estetik görüşləri" (Moskva, 1973), "Qara Qarayev. Elmi-publisistik irsi" (Bakı, 1988), M.M.Nəvvab. "Vüzuhül-Ərqam" (Bakı, 1989), "Azərbaycanın musiqi elmi" (Bakı, 1998), "Həmişəyaşar ənənələr" (Bakı, 2000) kitablarının müəllifidir. "Azərbaycanın musiqi elmi" monoqrafiyasında görkəmli azərb. ensiklopedist-alimlər Səfiəddin Urməvinin (XIII əsr), Əbdülqadir Marağainin (XIV əsr), Mir Möhsün Nəvvabın (XIX əsr), Üzeyir Hacıbəyovun (XX əsr) elmi irsi tədqiqata cəlb olunmuş, onların dünya musiqi elminə gətirdiyi yeniliklər dəyərləndirilmişdir.

**SƏİD RÜSTƏMOV ADINA XALQ ÇALĞI ALƏTLƏRİ ORKESTRİ** - 1932 il mayın 1-də Azərb. dahi bəstəkarı *Ü.Hacıbəyov* tərəfindən yaradılmışdır. Tərkibi 22 nəfərdən (simli - *tar, kamança* qrupları, nəfəsli - *zurna, balaban*, zərb

*İlk Azərbaycan Xalq Çalğı Alətləri Orkestri (üçüncü sırada ortada - Ü. Hacıbəyov), 1932 ilin fotosu*



– *nağara*) ibarət olan orkestrin dirijoru Ü.Hacıbəyov, dirijor köməkçisi və konsertmeysteri *S.Rüstəmov* idi. Bu, notla çalan ilk Azərb. x.ç.a. ork. idi. Ü.Hacıbəyov xalq mahnı və rəqslərini bu ork. üçün işləmiş, Qərbi Avropa və rus bəstəkarlarının əsərlərini də orkestrə uyğun şəkildə təfsir etmiş, *"Şur" və "Çahargah"* fantaziyalarını bəstələmişdir. Sonralar *Ü.Hacıbəyov, M.Maqomayev, S.Rüstəmov, Q.Salahov, Adil Gəray, F.Əmirov, Niyazi, S.Ələsgərov* və b. bəstəkarlar bu orkestr üçün orijinal əsərlər bəstələmişlər. 1935 ildən ork. dirijorluq S.Rüstəmova həvalə olunmuşdur. Xalq artisti, professor S.Rüstəmov 1974 ilə kimi orkestrin bədii rəhbəri və baş dirijoru olmuşdur. 1983 ildən (bəstəkarın vəfatından sonra) ork. Səid Rüstəmovun adı verilmişdir. 1974 ildən kollektivin bədii rəhbəri və baş dirijoru xalq artisti, professor N.Əzimovdur. Fəaliyyət göstərdiyi illərdə tədricən ork. tərkibi bir qədər genişləndirilmiş, səslənməni qüvvətləndirmək məqsədi ilə orkestrə x.ç.a. müxtəlif növləri, eləcə də, fortepiano, kontrabas, klarnet kimi Avropa alətləri əlavə olunmuşdur. Ork. respublikada və xarici ölkələrdə (Rusiya, İran və b.) keçirilən konsertlərdə və mədəni tədbirlərdə daim iştirak etmiş, Ş.Ələkbərova, Xan Şuşinski, S.Qədimova, G.Məmmədov və digər sənətkarları müşayiət etmişdir.

**SƏLMƏK** – muğam guşəsi. "Şur" dəstgahında "Şur-Şahnaz" şöbəsindən əvvəl səsləndirilir və keçid əhəmiyyəti daşıyır. "Dəşti" ilə "Muyə" şöbələri arasında ifa olunur; Orta əsrlərdə Şərq musiqisində 6 avazdan biri.

**SƏMA** (ərəb) – həmsaz səslənmə, xoş səslilik, gözəl və məlahətli səslənmə, ahəngdarlıq, xoş avaz.

**SƏMAYİ-ŞƏMS** (Simayi-şəms – səmadakı günəş) – Zərbi muğam. Şur məqamına əsaslanır. Həm müstəqil şəkildə, həm də "Şur" dəstgahının tərkibində kulminasiya anında iki növdə: həm improvizasiyalı muğam şöbəsi kimi və həm də zərbi muğam kimi ifa olunur. "Səmayi-şəms" zil şöbə olaraq, "Şur" muğam dəstgahında "Əşiran" şöbəsindən sonra gəlir. "Səmayi-şəms"dən sonra "Hicaz" və "Sarənc" şöbələri oxunur və "Nişibi-fəraz" vasitəsi ilə "Şur" muğamının mayəsinə qayıdış-kadensiya verilir. Muğam şöbələrinin bu ardıcıllığı zərbi muğamın müstəqil ifası zamanı da saxlanılır. "Səmayi-şəms"dən sonra "Hicaz", "Sarənc", "Nişibi-fəraz" şöbələri oxunur və zərbi muğamın ifası təsniflə yekunlaşdırılır (adətən, "Gülşəndə fəğan eylər ikən bülbüli-şeyda" təsnifindən istifadə olunur). Poetik mətninin əsasını qəzəl təşkil edir. Ənənəvi olaraq, Nizami Gəncəvinin "Ay üzlü nigarım, kimə mehman olacaqsan" misrası ilə başlanan qəzəlinə oxunur. Bu zərbi muğamda ikipaylı ritmika aparıcı əhəmiyyət kəsb edir.

**SƏMƏD VURĞUN** (Səməd Yusif oğlu Vəkilovun təxəllüsü; 21.03.1906, Qazax r-nu, Yuxarı Salahlı k. – 27.05.1956, Bakı) – şair, dramaturq, ictimai xadim, xalq şairi (1956), əməkdar incəsənət xadimi (1943), AMEA-nın akademiki (1945), fəxri filologiya elmləri doktoru (1956), SSRİ Dövlət mükafatı laureatı (1941,1942). XX əsr Azərb. ədəbiyyatının ən görkəmli nümayəndələrindəndir. Onun yaradıcılığı müasir Azərb. şeirinin inkişafında mühüm rol oynamışdır. Yüksək xəlqilik və şeiriyyət, həyat həqiqəti ilə şairin romantik arzularının üzvi vəhdəti S.Vurğunun poetik üslubunun başlıca xüsusiyyətidir. Onlarca şeir və poema kitablarının, "Vaqif" (1937), "Fərhad və Şirin" (1941), "İnsan" (1945) və s. pyeslərin müəllifidir. S.Vurğunun şeirlərinə bəstəkarlar onlarla müxtəlif janrlı əsərlər - opera, kantata, mahnı və romanslar bəstələmişlər. S.Vurğun poeziyasının aşıq və xanəndə yaradıcılığına böyük təsiri olmuşdur. Bir çox ənənəvi aşıq havaları S.Vurğunun sözləri əsasında oxunur (məs., "Dağlar", "Ceyran" və s.). "Qarabağ şikəstəsi"ndə də ilk dəfə Xan Şuşinski Səməd Vurğunun "Azərbaycan" şeirindən "Könlüm keçir Qarabağdan" misrası ilə başlanan bəndi ifa etmiş və bu da sonradan muğam ifaçılığında bir ənənəyə çevrilmişdir.


*Səməd Vurğun, şair*

**SƏNC** – yeddi simli musiqi aləti. Zahiri görünüşü tənbura bənzəyir.

**SƏRV-SETAH** – orta əsrlərdə muğam guşəsi.





**SƏRV-SƏHİ** – orta əsrlərdə muğam guşəsi.

**SƏRVSTAN** – orta əsrlərdə muğam guşəsi.

**SƏSDÜZÜMÜ** – səslərin yüksəkliyinə görə ardıcıl düzülmüş sırası. Səsləri qavramaq və öyrənmək üçün onların ilkin sadə sistemləşdirilməsi. Səsdüzümünün növləri: a) ayrı-ayrı alətlərin və ya müğənni səsinin ifaçılıq üçün əlverişli olan bütün səslərini əhatə edən səsdüzümü; b) hər hansı musiqi əsərində, onun hissələrində və ya elementlərində (melodiya və s.) istifadə olunan səsləri əhatə edən səsdüzümü; c) bütöv musiqi sistemlərinin məcmusunu əks etdirən səsdüzümləri. Ciddi surətdə bir-birilə qarşılıqlı əlaqədə olan müəyyən yüksəklikdə səslərin ardıcıl düzülüşü səs sistemini əmələ gətirir (bərabər temperasiyalı səsdüzümü, qeyri-bərabər temperasiyalı səsdüzümü).

**SƏS** – ***1.*** Musiqi fakturasını təşkil edən hər bir melodik xətt. ***2.*** Müğənni səsi.

**SƏS HƏRƏKƏTİ** – birlikdə səslənərək musiqi toxumasını təşkil edən səslərin melodik hərəkətidir. Polifonik əsərlərdə səs hərəkətinin əsas məqsədi hər səsin müstəqil səslənməsidir; homofonik əsərlərdə köməkçi səslərin əsas səslərə tabe olmasıdır.

**SƏSYAZMA** – musiqi ifasının texniki vasitələrlə cihazlardan istifadə edərək köçürülməsi: qrammofon valı, maqnitofon lenti, CD-DVD kimi səsyazma vasitələrindən istifadə olunur. Şifahi ənənəli Azərb. musiqisində səsyazma mühüm əhəmiyyətli bir işdir. Qrammofon vallarına, maqnitofon lentlərinə, CD-DVD disklərə köçürülmüş xanəndə və sazəndə dəstələrinin ifa etdiyi muğam və digər musiqi nümunələri xalqın mədəni sərvətinə çevrilərək yaşayır, muğam ənənələrinin qorunmasında, onların gələcək nəsillərə ötürülməsində mühüm əhəmiyyət kəsb edir.

**SƏSYAZMA ŞİRKƏTLƏRİ** – *bax :Azərbaycan Dövlət Səsyazıları Arxivi.*

**SƏTTAR** (1820, Ərdəbil – . . . ) – XIX əsrin ən tanınmış və istedadlı xanəndələrindən biri. Anadan olması və vəfatı tarixi haqqında dürüst məlumat yoxdur. Bəzi mənbələrə əsasən, Səttar ilk gənclik illərindən musiqiyə həvəs göstərmiş, Azərb. və İran mahnılarını gözəl səslə oxumuşdur. Yaxşı səsi olduğuna görə Ərdəbil ruhanilərinin təhriki ilə dini mərasimdə iştirak etmiş, lakin bir müddət sonra bundan uzaqlaşaraq, xalq şənliklərində xanəndə kimi çıxış etməyə başlamışdır. Artıq 20-25 yaşlarında bütün Azərb. və İranda tanınan və Ərdəbil ruhaniləri tərəfindən təqib olunan Səttar Təbrizə, daha sonra Tehrana gəlir. Bir neçə il İran şahı Məhəmməd Mirzənin sarayında xanəndəlik edir, 1844 ildə Naxçıvan şəhərinə köçür və burada böyük hörmətlə qarşılanır, məclislərə dəvət olunur. Muğam məclislərinin birində Səttar görkəmli gürcü şairi N.Barataşvili ilə tanış olmuş, Barataşvili onun oxumağına heyran olaraq, yüksək qiymətləndirmişdir. N.Barataşvilinin evində təşkil edilən poeziya və musiqi gecələrində Səttar böyük məharətlə öz sənətini nümayiş etdirirdi. Bu məclislərdə iştirak edən Naxçıvan xanının qızı Qönçə bəyimin şeirlərini N.Barataşvili gürcü dilinə çevirmiş, Səttar isə bu şeirlər əsasında həm Azərb., həm də gürcü dilində mahnılar oxumuşdur. Bir müddət sonra Səttar İrəvana və Tiflisə gəlir, bu şəhərlərin musiqi həyatında yaxından iştirak edir. O, həm musiqi məclislərində və ziyafətlərdə, həm də açıq havada təşkil olunan konsertlərdə muğam və xalq mahnılarını böyük məharətlə ifa edərək, onları Qafqaz xalqları arasında təbliğ etmişdir. Səttarın repertuarı geniş və rəngarəng idi. O,


*Səttar, xanəndə*

"Zəmin-xarə", "Dəşti", "Rahab", "Şüştər", "Bayatı-İsfahan", "Rast", "Çahargah" muğamlarını xüsusi bir zövqlə oxumuş və çox sevilmişdir.
Misilsiz səsə malik olan Səttarı Tiflisdə yaşayan rus və italyan musiqiçiləri öz konsertlərinə oxumaq üçün dəvət edirdilər. Tiflis teatr orkestrinin dirijoru, italiyalı skripkaçı Maloqollimin konsertində Səttar böyük müvəffəqiyyət qazanmışdır. Səttarın 1853 ildə məşhur skripkaçı Miller ilə, müğənni Seymur-Şiff ilə birlikdə konsertləri isə Tiflisin mədəni həyatında əlamətdar hadisə olmuşdur. Səttarın xanəndəlik məharəti dövrünün bir çox mədəniyyət xadimlərinin diqqətini cəlb etmişdir. Məşhur fransız yazıçısı Jül Vern Tiflisə səyahət etdikdən sonra yazdığı "Arxipelaq alovlanır" əsərində Səttarın səsini yüksək qiymətləndirmişdir. Rus şairi Y.Polonski də dəfələrlə Səttarın yanıqlı səsini və avazını öz şeirlərində tərənnüm etmişdir. Səttar İran, Türkiyə, Rusiya hökumətləri tərəfindən də orden və medallarla təltif olunmuşdur.

**SƏVƏNDƏR** - qədim musiqi aləti; yastı sandıqça şəklində, təknəsi üzərində 16-dan 24-ə qədər polad simi olan zərbli, simli musiqi aləti. Zahiri görünüşü etibarı ilə santura çox bənzəyir. Səvəndəri də santur kimi, iki nazik çubuqla simlərin üzərinə vuraraq səsləndirirlər.

**SİLSİLƏ FORMALAR** (yunan: *kyklos* - dairə, dairəvi) - musiqi əsərinin quruluş forması olub bir neçə tamamlanmış, müxtəlif xarakterli və templi hissələrdən ibarətdir; bu hissələr daxili vəhdət və kontrast prinsipinə əsaslanaraq ardıcıllaşır. Silsilə formalara *süita, sonata silsiləsi* aiddir; Muğam dəstgahlar silsilə formada qurulur.

**SİMFONİK MUĞAM** - Azərb. musiqisinin bir janrı. 1948 ildə bəstəkar Fikrət Əmirov tərəfindən yaradılmışdır. F.Əmirovun muğamların musiqi materialına və kompozisiya xüsusiyyətlərinə əsaslanaraq yazdığı "Şur" və "Kürd-Ovşarı" simfonik əsərləri ilə Azərb. simfonik musiqisində bu janrın bünövrəsi qoyulmuşdur. Janrın əsas xüsusiyyəti ondan ibarətdir ki, burada muğam dəstgaha xas olan tədrici ardıcıl yüksələn inkişaf prinsipi, onun kompozisiya quruluşu, dramaturji hərəkət xətti saxlanılmış, eyni zamanda, muğam melodiyalarının inkişafında simfonik işləmə, rəngarəng orkestrləşdirmə üsulları tətbiq olunmuşdur.
Bir çox Azərb. bəstəkarları bu janra müraciət etmişlər. Niyazi "Rast", S.Ələsgərov "Bayatı-Şiraz", F.Əmirov "Gülüstan Bayatı-Şiraz", T.Bakıxanov "Hümayun", "Nəva", "Rahab" və s. simfonik muğamlarını yaratmışlar.

**SİMFONİK ORKESTR** - *bax: orkestr.*

**SİMFONİYA** (yunan: *symphonia* - ahəngdar, həmsaz, həmavaz) - musiqi janrı; müasir mənada, sonata silsiləsi formasında yazılmış ork. üçün əsər. XVIII əsrdə Avropa ölkələrində instrumental musiqinin təkamülü nəticəsində meydana gəlmişdir. Simfoniya, adətən, dörd hissədən ibarət olur. Bəzi bəstəkarların yaradıcılığında beş, altı və yeddi hissəli simfoniyalara, bəzən bir hissəli simfoniyalara rast gəlinir. Simfoniya - simfonik ork. ifadə vasitələrinin istifadə olunduğu musiqi formasıdır. Azərb. bəstəkarlarının yaradıcılığında muğamla bağlı simfoniyalar xüsusi yer tutur: *bax: V.Adıgözəlov, A.Məlikov, A.Əlizadə, P.Bülbüloğlu və b.*

*Simfonik orkestrin müşayiətilə məşhur İspan opera müğənnisi Monserrat Kabalyenin Bakıda konsertləri, 2004 il*









**SİMPOZİUMLAR** - Şifahi ənənəli professional musiqinin müxtəlif problemlərinə həsr olunmuş simpoziumlar və konfransların keçirilməsi ənənə halını almışdır. XX əsrin 60 illərindən başlayaraq vaxtaşırı belə tədbirlər keçirilir. YUNESKO-nun Səmərqənddə təşkil etdiyi I, II, III (1973, 1983, 1987) Beynəlxalq musiqişünaslıq simpoziumları önəmlidir. Bu simpoziumların əsas devizi belədir: "Yaxın və Orta Şərq xalqlarının ənənəvi şifahi-professional musiqisi və müasirlik". Hər üç simpoziumda Azərb. musiqişünaslar və muğam ustadları iştirak etmiş, musiqi mədəniyyətini layiqincə təmsil etmişlər. Simpoziumların materialları "Professionalnaya muzıka ustnoy traditsii narodov Blijneqo i Sredneqo Vostoka i sovremennost" (Taşkent, 1981), "Traditsii muzıkalnıx kultur narodov Blijneqo i Sredneqo Vostoka i sovremennost" (Moskva, 1987) adlı məqalələr toplusunda çap olunmuşdur.
Bundan başqa, Moskvada "Ənənə və müasirlik" mövzusunda VII Beynəl-xalq musiqi konqresi (1971), Alma-Atada Asiya ölkələrinin III Beynəlxalq tribunası (1973), Daşkənddə "Makam, muqam i sovremennoe kompozitorskoe tvorçestvo" (1978) başlığı altında elmi-nəzəri konfrans, Düşənbədə orta əsrlərin məşhur musiqiçilərindən olan Barbədin xatirəsinə həsr olunmuş "Barbod - Epoxi i traditsii kulturı" mövzusunda konfrans (1989), YUNESKO-nun nəzdində fəaliyyət göstərən Beynəlxalq musiqi şurasının "Ənənə və müasirlik" mövzusunda VII konqresi (VII mejdunarodnıy sovet pri YUNESKO, 1971) keçirilmişdir.

**SİNC (zinc)** - zərbli musiqi aləti. Mis, bürünc (tunc) və qismən gümüş birləşməsinin (xəlitəsinin) döyəclənib çəkiclənməsi yolu ilə iki böyük boşqab (nimçə) şəklində düzəldilir. Birbirinə vurularaq səsləndirilir.

**SİNKOPA** (yunan: *synkope* - kəsib gödəltmə; fransız: - özündən getmə) - xanənin zəif hissəsində verilən vurğulu aksentli not. Sinkopa çox zaman xanənin güclü hissəsindəki pauzadan və ya əvvəlki xanə ilə bağlayıcı notdan sonra istifadə olunaraq ritmdə gözlənilməz, kəskin element əmələ gətirir.

**SOLFECİO** (italyan: *solfeggio*; solfa - notlar, musiqi işarələri, qamma) - iştirakçıların eşitmə qabiliyyətini inkişaf etdirmək üçün təyin edilmiş fənn. Solfecio musiqi imlasının yazılmasından və notların (adətən, üzündən) adlarının hecalarla tələffüz edilməsindən ibarətdir. Musiqi məktəblərində muğamın tədrisi prosesində solfecio fənninin əhəmiyyəti böyükdür.

**SOFİNAMƏ** - "Mahur" dəstgahının son şöbələrindən biri.

**SOLİST** (italyan: *solista* - *solo* ifaçı) - bir səs üçün və ya alət üçün yazılmış əsərin ifaçısı; ansamblda əsas, daha qabarıq partiyanın (bütün əsərdə və ya onun ayrılmış hissələrində) ifaçısı. Muğam ifaçılığında solist - xanəndə instrumental ansamblın - sazəndə dəstəsinin müşayiəti ilə çıxış edir.

**SOLO** (italyan: *solo*, latın: *solus* - tək, tənha, vahid) - Bir ifaçının müstəqil çıxışı. Ansamblda daha qabarıq və mühüm partiya. Muğam ifaçılığında muğamların müxtəlif alətlərdə solo ifası geniş tətbiq olunur. Muğam ansamblında xanəndənin partiyası solo əhəmiyyətlidir, ayrıayrı epizodlarda tar və kamança alətlərinin solosu diqqətəlayiqdir.

**SOPRANO** (italyan: *sopra* - üzərində, üstündə, fövqündə) - ən yüksək qadın səsidir. Diapazonu: kiçik oktavanın si səsindən - III oktavanın do səsinə kimi. Sopranonun növləri: dramatik soprano - dolğun qüvvətli səs; lirik soprano - yumşaq, cingiltili səs; koloratur soprano - texnikalı, çevik səs.

**SOT (sobt, sout)** - səs; elastiki keyfiyyətə malik cismin (sim, ya sağanağa çəkilmiş dəri, metal ya ağac boru daxilində üfləyərək hərəkətə gətirilən hava) ehtizazı nəticəsində əldə edilən səs. Soutun əsas xassəsi: a) ucalıq; b) müddət; c) tembr; ç) qüvvət. Şərq musiqi kitablarında sout aşağıdakı əlamətlər üzrə səciyyələnir: (bi) sout-əcət - bəm səs, aşağı səs - (bas); (bi) sout-cihvər - ucadan, bərkdən oxumaq, çalmaq - (forte); (bi) sout-xafit - yavaş səslə oxumaq, çalmaq - (piano); (bi) sout-vahid - bir səslə oxumaq, çalmaq - (unison).

**SÖPEHR (sepehr)** (fars: göy, səma, asiman) - Şərq musiqisində "Rast-pəncgah" dəstgahında muğam şöbəsi.

**SÖRUŞ (soruş)** (fars: mələk, mələikə) - Şərq musiqisində "Mahur" dəstgahında guşə.

**SUFİLİK** (ərəbcə hərfi mənası - yun əbalı) - islam dinində mistik cərəyan, təlim. VIII əsrdə Suriyada yaranmış, Məqrib ölkələri və İspani-

yada, Azərb. və Orta Asiyada, Hindistan, Malakka və Sumatrada yayılmışdır. Sufilik təliminin banisi Zünnun əl-Misri (IX əsr) və Əbu Abdullah əl-Mühasibi olmuşlar. Sufilər xüsusi rəqslər və ya duaların sonsuz təkrarı ilə intuitiv idraka, "nurlanmaya" cəhd etmişlər. Sufinin Allaha çatmaq yolunda ani olaraq nurlanması, ekstaz vəziyyətinə gəlməsi Əbu-Abdullah əl-Müsahibiyə aid edilir. Sufinin sirli yolunda ilk pillə şəriət, ikincisi - təriqət, üçüncüsü - həqiqətdir (həqiqəti Allahda tapmaq). Sufiliyin bir çox təriqətləri olmuşdur. Sufilikdə əsas ideyalardan biri musiqinin qəlbin paklaşması üçün ən yaxşı vasitə olması ideyasıdır. Musiqi ilə ilahilik axtarmaq, Allaha yol açan musiqini yaratmaq və ondan istifadə etmək sufi musiqi təcrübəsinin və estetikasının əsas göstəriciləridir. Sufilikdə muğamlar ülvü vəhlərdir. Allahın ata etdiyi musiqidir. Muğam haqqa çatmaq yolunda, Allaha qovuşmaq yolunda pillələrdir. Hər bir muğam bir neçə mənəvi keyfiyyətləri, kamil şəxsiyyətin bir neçə səviyyəsini özündə təcəssüm etdirir.

**SUFİYAN** - Yaxın Şərq xalqlarından bəzilərinin (türk, ərəb) musiqisində çox təsadüf olunan vəzn ölçüsü.

**SUZİ-GÜDAZ** (*fars:* dərd çəkmək, qəm, qüssə, iztirab) - *Azərb. musiqisində*: "Mahur" və "Rahab" dəstgahlarının son şöbəsi.

**SÜLEYMAN RÜSTƏM** (Süleyman Əliabbas oğlu Rüstəmzadənin təxəllüsü; 12.03.1906, Bakı - 10.06.1989, Bakı) - şair, dramaturq, ictimai xadim, xalq şairi (1960), əməkdar incəsənət xadimi (1943), SSRİ və Azərb.Dövlət mükafatı laureatı (1950, 1970). Bakı Dövlət Universitetində və Moskva Dövlət Universitetində təhsil almışdır. Yaradıcılığı ilə Azərb. ədəbiyyatını zənginləşdirən S.Rüstəm "Günəşli sahillərdə" (1963), "Bahar düşüncələri" (1965), "Bir az da məhəbbətdən" (1965) və s. şeirlər kitabının, "Təbriz şeirləri" silsiləsinin, dram əsərlərinin, poemaların müəllifidir. Onun lirik şeirləri və qəzəlləri xanəndələrin müraciət etdiyi poetik qaynaqlardandır.

**SÜRÜŞDÜRMƏ BARMAQ** - tar ifaçılığında istifadə olunan üsullardan biri. İfa zamanı simlər üzərində səslərin bir pərdədən digərinə mizrab vurmadan barmaq sürüşdürməsi vasitəsi ilə keçid üsuluna deyilir. Bu hal muğamda ibarə və cümlələrin sonluqlarında və kadensiyalarda daha çox özünü göstərir. ■

# Ş

**ŞADÖRVAN-MİRVARİD** - orta əsrlər ədəbiyyatında göstərilən mahnı adı.

**ŞAİR** - *1.* Yaxın və Orta Şərqin bir çox xalqlarının, o cümlədən azərbaycanlıların yazılı ədəbiyyatında şeir yaradıcısı. *2.* Orta Asiya xalqlarında şair (türkməncə - şaxir, tatar və qazaxca - şaqıyr) - Azərb. aşıqları kimi, eyni zamanda, nağılçı, şair-improvizator, xalq qəhrəmanlıq və məhəbbət dastanlarının ifaçısıdır.

**ŞAHNAZ** - *1.* Kiçik həcmli muğam. XIX əsrin ifaçılıq təcrübəsində həm müstəqil muğam dəstgahı, həm də muğam şöbəsi kimi mövcud olmuş (Mir Möhsün Nəvvab "Vüzuhil-Ərqam"), sonradan kiçik həcmli muğama çevrilmişdir. "Şur" muğam ailəsinə daxildir. Tərkibi üç şöbədən ibarətdir: "Şahnaz", "Dilkəş", "Zil Şahnaz" ("Şəddi-şahnaz"). Bu muğamın musiqisi coşğun, ehtiraslı, eyni zamanda, lirik, təsirli xarakter daşıyır. *2.* Orta əsrlərdə Şərq xalqlarının musiqisində 6 avazdan biri.

**ŞAH İSMAYIL I, XƏTAİ** (17.07.1487 - 23.05.1524, Ərdəbil) - dövlət xadimi, sərkərdə, şair. I Şah İsmayıl 1501 ildə Təbrizdə özünü şah elan etmiş və paytaxtı Təbriz olan Azərb. Səfəvilər dövlətinin əsasını qoymuşdur. Onun dövründə Səfəvilər dövləti Yaxın Şərqin qüdrətli dövlətlərindən birinə çevrilmiş, iqtisadiyyat və mədəniyyət inkişaf etdirilmişdir. Şah İsmayıl "Xətai" təxəllüsü ilə Azərb., fars və ərəb dillərində yazan görkəmli şair olmuşdur. Onun yaradıcılığı Azərb. poeziyası tarixində mühüm mərhələ təşkil edir. Şərq ədəbiyyatı klassiklərinin əsərlərindən, xüsusilə Nəsimi poeziyasından bəhrələnmişdir. Xətai əruz və heca vəznlərində həm klassik, həm də xalq şeiri formalarında epik və lirik əsərlər yazmışdır. "Dəhnamə" ("On məktub", 1506) poeması, əxlaqi-didaktik və fəlsəfi "Nəsihətnamə" məsnəvisi anadilli Azərb. epik şeirinin ilk nümunələrindəndir. Əsərləri poetik dilinin sadəliyi, təbiiliyi, orijinal üslubu ilə diqqəti cəlb edir. Azərb. ədəbi dilinin inkişafında mühüm xidmətləri var. O, anadilli poeziyanın inkişafına müstəsna əhəmiyyət vermiş, Azərb. dilində yazan şairlərə hamilik etmiş, sarayında şairlər məclisi yaratmış, incəsənətin - rəssamlığın, musiqinin, aşıq və muğam sənətinin inkişafına xüsusi fikir vermişdir. Onun qəzəlləri xanəndələr tərəfindən ifa olunaraq, çox məşhurlaşmışdır. Şah





İsmayılın əsərləri Şərq ölkələrində geniş yayılmışdır, əsərlərinin əlyazmaları dünyanın məşhur muzeylərində saxlanılır, nəşr olunur, xarici dillərə tərcümə olunur, tədqiq edilir.

**"ŞAH İSMAYIL"** - Azərb. məhəbbət dastanı. 10-a yaxın variantı toplanmışdır. Bəzi mülahizələrə görə, dastan I Şah İsmayılın (ya da II Şah İsmayılın) adı ilə bağlıdır. Burada Şah İsmayılın Gülzara aşiq olması, bir sıra macəralardan sonra ona qovuşması, atasının taxtına keçməsi və ədalətli hökmdar olması təcəssüm olunur. Dastanda qəhrəmanlıq motivləri də öz əksini tapmış, Ərəbzəngi kimi cəngavər qadın obrazı verilmişdir. Bu dastan əsasında Müslüm Maqomayev "Şah İsmayıl" muğam operasını (1916) yaratmışdır.

**ŞAH XƏTAİ** - *1.* XIX əsr Azərb. musiqisində "Şahnaz" dəstgahında şöbə; *2.* Ənənəvi aşıq havası.

**ŞAH PƏRDƏ** - dartımlı simli musiqi alətlərinin (tar, saz) qoluna bağlanmış pərdələrdən mərkəz mövqe tutanları; adətən, açıq simdən bir oktava yuxarı səslənən pərdələr.

**ŞAXƏ** - mənsub olduğu dəstgahın kökünə (məqamına) əsaslanaraq və həmin dəstgah intonasiyaları sahəsində qalaraq, özlüyündə bir neçə şöbədən ibarət yeni bir dəstgah təşkil edən muğamat şöbələrinin məcmusu; məs., "Şur" muğam ailəsinə daxil olan "Dəşti", "Əbu-əta" və s. kiçik muğamlar.

**ŞAMAXI MUĞAM MƏCLİSLƏRİ** - XIX əsrin II yarısında Şamaxıda məşhur mülkədar Mahmud ağa tərəfindən yaradılan və Şirvan zonasında xanəndəlik sənətinin inkişafında mühüm rol oynayan musiqili poetik məclislər. Çox zaman Mahmud ağanın məclisi adlandırılırdı. Mahmud ağa Əhməd ağa oğlu (1826-1896) bütün Qafqazda tanınmış musiqi xadimi, sənəti, şeiri, musiqini sevən, əliaçıq, qonaqpərvər bir mesenat - incəsənət humayəçisi idi. O, musiqiçilərin qayğısına qalır, onlara maddi köməyini əsirgəmirdi. O dövrdə Qafqazın bütün məşhur xanəndə və tarzənləri Mahmud ağanın məclisində iştirak edirdilər. Şamaxı şəhərinin abadlaşdırılmasında onun müstəsna xidmətləri olmuşdur. Bu dövrdə Şamaxıda Seyid Əzim Şirvaninin başçılıq etdiyi "Beytüs-Səfa" adlı ədəbi məclis də fəaliyyət göstərirdi. Mahmud ağa həmin məclisin üzvlərinə himayədarlıq edirdi. Seyid Əzim Şirvani ilə dostluq əlaqələri saxlayırdı. Özü də şeiri, musiqini çox sevirdi, gözəl tar çalır və muğamları pəsdən oxuyurdu. O, öz malikanəsində musiqili gecələr keçirmək üçün düzəltdirdiyi xüsusi salonda tez-tez xanəndələrin müsabiqəsini keçirir, birinci yerləri tutanlara qiymətli hədiyyələr və mükafatlar verirdi. Mahmud ağanın musiqi məclisinin sədası nəinki bütün Qafqazda, hətta onun sərhədlərindən çox-çox uzaqlarda belə yayılmışdı. XIX əsrin II yarısında Şamaxıya qonaq gələn bir çox səyyahlar Mahmud ağanın evinə düşürdülər. Fransız yazıçısı Aleksandr Dümanın, rus rəssamı knyaz Qaqarinin və b. bu haqda məlumatları maraq doğurur. Mahmud ağanın musiqi məclislərində yerli musiqiçilərlə birlikdə Tiflis, Qarabağ, İran musiqiçiləri də çıxış edirdilər. Hacı Hüsü, Məşədi İsi, Bülbülcan, Ərdəbilli Səttar, Sadıqcan, Cabbar Qaryağdıoğlu kimi dövrünün məşhur xanəndələri Mahmud ağanın qonağı olub, onun təşkil etdiyi musiqi məclislərində iştirak etmişlər. Bir çox tarixi sənədlərdən məlumdur ki, bu sənətkarlar içərisində Mahmud ağanın ən çox hörmət bəslədiyi və tez-tez Şamaxıya dəvət etdiyi xanəndə Hacı Hüsü və tarzən Sadıqcan olmuşdur. Mahmud ağa öz məclislərinə gənc musiqiçiləri də dəvət edib onlara klassik Şərq musiqisindən təlim verərmiş. Onun məclisi bütün Zaqafqaziyada musiqiçilər üçün bir növ sənətkarlıq məktəbi idi. Burada ifaçılıq təlimi alan və çalğısı bəyənilən hər bir musiqiçi təqdir olunardı. Şamaxıda yetişmiş Mirzə Məhəmmədhəsən, Mehdi, Məbud, Şükür, Davud Səfiyarov kimi xanəndələr, Məhəmmədqulu və Hümayi kimi tarzənlər Mahmud ağanın yetirmələri olmuşlar. O zaman Şamaxı musiqi məclisinin şöhrəti çox uzaqlara yayılmışdı. Azərb. hər yerindən oxuyan, çalan, oynayan Şamaxıya gəlib Mahmud ağa qarşısında öz sənətini nümayiş etdirməyə can atardı. Təsadüfi deyildir ki, Mahmud ağanın adı və Şamaxı musiqi məclisi bu gün də xatırlanır və örnək kimi göstərilir.

**ŞAŞMAKOM, şeşməqam** (fars: altı+məqam) - şifahi ənənəyə malik olan orta əsrlər özbək-tacik professional musiqi janrı. XVIII əsrdə formalaşmışdır. Silsilə əsər olan Şaşmakom altı iri həcmli müstəqil əsərdən - Buzruk (Büzürk), Rost, Navo, Duqox, Seqox, İrok makomlarından ibarətdir. Hər makom iri həcmli instrumental və vokal bölmələrdən ibarətdir. Bu bölmələrə müxtəlif janrlı pyeslər daxildir. Hazırda Şaşmakomun Buxara və Xarəzm növləri var. Şaşmakom tam şəkildə nota salınmışdır.

**ŞAPALAQ** - əl ilə vurularaq (ağacsız) səsləndirilən zərbli musiqi alətlərində (nağara, dəf və s.) xüsusi çalğı üsulu.

**ŞEŞGAH** - diatonik əsas səsdüzümünün altıncı səsi.

**ŞƏB-FƏRRUX** - Yaxın Şərq xalqları musiqisində təsnif adı.

**"ŞƏBİH"** - orta əsrlərdə Yaxın və Orta Şərq ölkələrində, o cümlədən, Azərbaycanda yaranmış dini-misteriya tamaşası. Meydan teatrı formalarından biri olan "Şəbih"in öz dramaturgiyası və özünəməxsus poetikası olmuşdur. Epik xarakterli bu əsərlərdə islam tarixində baş vermiş faciəli hadicələrdən götürülmüş epizodlar başlıca yer tutur. Məhərrəmlik günlərində oynanılan "Şəbih" tamaşalarında İmam Hüseyn və onun tərəfdarlarının Yezid və onun adamları ilə döyüşləri təsvir edilir, birincilərə rəğbət, məhəbbət, ikincilərə nifrət təlqin olunur. Bu tamaşalarda melodramatizm, naturalizm, pafos, patetika, simvolika geniş yer tutur. "Şəbih" tamaşaları şəbihgərdanlar tərəfindən idarə edilir, musiqi ilə müşayiət olunurdu. Ədəbi cəhətdən dini məzmunlu olan "Şəbih"lərin musiqisi dünyəvi səciyyə daşıyırdı. Ü.Hacıbəyov "Şəbih" tamaşalarını Azərb. operanın yaranmasının birinci amili hesab edirdi. "Şəbih"lərdə muğamlardan geniş istifadə olunurdu. Keçən əsrlərin xanəndələri belə dini mərasim tamaşalarında iştirak edirdilər. Bülbülün yazdığına görə, məs., "Qasım şəbihi" veriləndə məclis "Bayatı-Şiraz"-la başlanırdısa, burada iştirak edənlərin hamısı "Bayatı-Şiraz" muğamını yaxşı bilməli idilər. Mərasimdə iştirak edənlərin rolları elə bölünürdü ki, onlar "Şəbih" mərasiminin tələbi üzrə bir-birini tamamlayırdı. Birisi oxuyub müəyyən yerdə kəsdikdə, o birisi onu davam etdirməli idi. Beləliklə, bir dəstgah bir neçə nəfər arasında mükəmməl surətdə icra edilirdi. "Şəbih"lərdə "Şur", "Segah-Zabul" dəstgahları da tamam oxunardı. Şuşada Xarrat Qulunun təşkil etdiyi məktəbdə "Şəbih"lərdə iştirak etmək üçün gənclər yetişdirilirdi. Burada muğam dəstgahlarının oxumaq qaydaları dərindən mənimsənilir və nəticədə, onun şagirdləri klassik muğamları oxumaq sahəsində ustad sənətkara çevrilirdilər.

**ŞƏDDİ-ŞAHNAZ** - muğam şöbəsi. "Şədd" - bir melodiyanın ən ucadan, zildən oxunan hissəsinə deyilir, "Şahnazın zili" mənasını verir. İfaçılıq təcrübəsində "Zil Şahnaz" muğam şöbəsini bəzən belə adlandırırlar.

**ŞƏHDİ-ŞAHNAZ** - muğam şöbəsi. "Şahnazın balı" mənasını verir.

**ŞƏHRİYAR Məhəmmədhüseyn Hacı Mirağa oğlu** (1906, Təbriz - 1988, Təbriz) - Azərb. şairi. Müasir Cənubi Azərb. və İran poeziyasının ən böyük nümayəndələrindən biri. Azərb. və fars dillərində əsərlər (dörd cildlik divan) yazmış, klassik Azərb. və fars şeiri ənənələrindən bəhrələnmiş, onları yeni poetik axtarışlarla üzvi surətdə qovuşdurmuşdur. Şəhriyarın "Heydərbabaya salam" (1954) poeması Cənubi Azərb. poeziyasında yeni mərhələ olmuş, anadilli poeziyaya geniş yol açmışdır. Poemada doğma yurdun gözəllikləri, xalqın adət və ənənələri məhəbbətlə, canlı xalq dilində tərənnüm olunmuşdur. Şəhriyar bir çox şairlərlə - Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri və b. ilə yaxın dostluq əlaqələri saxlamışdır. Onun yaratdığı şeirlər və qəzəllər dillər əzbərinə çevrilmiş, o cümlədən, muğam ifaçılarına da böyük təsir göstərmişdir.

*1903 ildə Bakıda keçirilən Şərq konsertinin proqramı*


Театръ Г. З. А. Тагіева

Понедѣльникъ 27-го Января 1903 года.

ПРОГРАММА

ВОСТОЧНАГО КОНЦЕРТА

Отдѣленіе I.

1) Араспари . . . . . . исп. Восточный оркестръ.
2) Сейгатъ . . . . . . исп. пѣвецъ Касумъ (Крикоръ и Кости)
3) Попури изъ татарскихъ пѣсень исп. труппа ашиковъ.
4) Теснифъ . . . . . . исп. хоръ пѣвцовъ.

Отдѣленіе II.

1) Соло на дудкѣ . . . . исп. Ашикъ Наджафъ-Кули.
2) Баяти-Шираз . . . исп. Сеидъ (Арсенъ, Ованесъ).
3) Татарскія пѣсни . . . исп. Ашики.
4) Теснифъ . . . . . исп. хоръ пѣвцовъ.

Отдѣленіе III.

1) Соло на кеманчѣ . . исп. Ованесъ.
2) Шуштеръ . . . . . . исп. Алескеръ (Марди, Мосесъ).
3) Татарскія пѣсни . . . исп. труппа ашиковъ (стоя).

Отдѣленіе IV.

1) Татарскія пѣсни . . исп. труппа ашиковъ.
2) Баяти-Каджаръ . . . исп. Джаббаръ (Марди, Мосесъ).
3) Шикесте . . . . . . исп. Восточный оркестръ, мѣстные пѣвцы и ашикъ Аббасъ-Кули.

Начало въ 8½ часовъ вечера.

قونسيرت

شعبهٔ اوّل

۱) آراسارى — — — — جمله چالغيلر
۲) سيگاه — — — — قاسم (قريقور و قوستى)
۳) ترك نغمه لرى — — — — عاشقلر
۴) تصنيف — — — — خوانده لر

شعبهٔ دوّم

۱) تك نى — — — — عاشق نجفقلى
۲) بيات شيراز — — — — سيّد (آرسين و آوانيس)
۳) ترك نغمه لرى — — — — عاشقلر
۴) تصنيف — — — — خوانده لر

شعبهٔ سيّم

۱) تك كمانچه — — — — آوانيس
۲) ششتر — — — — على عسكر (مردى و موسيس)
۳) ترك نغمه لرى — — — — عاشقلر (اياق اوسته)

شعبهٔ چهارم

۱) ترك نغمه لرى — — — — عاشقلر
۲) بيات قاجار — — — — (جبار مردى و موسيس)
۳) شكسته — — — — جمله چالغيلر خواننده لر و عاشق عباسقلى

Распорядитель А. Ахвердовъ. ناشر عبد الرحيم بك حقويردوف

Печ. разр. 25 Января 1903 г. Бакинскій Полиц. Фицмейстеръ. Тип. Перваго Типографскаго Т-ва.

**ŞƏKKİ-ŞAHNAZ** - muğam şöbəsi. "Şəkk, şübhəli şahnaz" mənasını verir.

**"ŞƏRQ KONSERTLƏRİ"** - XIX əsrin axırlarında xanəndə və çalğıçıların musiqili səhnəciklərdə çıxışlarına verilən ad. Moskvada, Peterburqda, Tiflisdə və b. şəhərlərdə təşkil olunan "Şərq konsertləri", əsasən, yoxsul müsəlman (Azərb.) tələbələrinə maddi yardım göstərmək məqsədi daşıyırdı. "Şərq konsertləri"nin proqramı, əsasən, xanəndə və sazəndə dəstəsinin ifasında muğam və təsniflərdən ibarət olduğuna görə, bu konsertlər simfonik və kamera musiqisi konsertlərindən fərqləndirmək üçün belə adlandırılırdı. Bu cür konsertlərə bəzən aşıq dəstələri də dəvət olunur, həmçinin, musiqili səhnəciklər də daxil edilirdi. Azərb. ilk "Şərq konserti" 1901 ildə Şuşada, "Xandəmirovun teatrı"nda yazıçı Ə.Haqverdiyevin təşəbbüsü və rəhbərliyi ilə təşkil edilmişdir. Həmin konsertdə çıxış etmək üçün Qarabağın ən yaxşı sazəndə dəstələri, məşhur xanəndələrdən Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd, Qasım Abdullayev, tarzənlərdən Mirzə Sadıq Əsəd oğlu (Sadıqcan), Məşədi Zeynal, Gülablı aşıqları Abbasqulu və Nəcəfqulu dəvət olunmuşdu. Konsertdə Ə.Haqverdiyev 12 nəfərdən ibarət ansamblı, el nəğmələrini ifa edən xor dəstəsini səhnəyə çıxarmışdı. Bu konsert onun tərtib etdiyi "Azərbaycan toyu" musiqili tamaşası ilə başa çatdırılmışdı. Bakıda ilk "Şərq konsert"i yenə də Ə.Haqverdiyevin rəhbərliyi ilə 1902 ildə olmuş, burada Şuşadakı konsert proqramı təkrar göstərilmiş, eyni zamanda, Ələsgər Abdullayev, Seyid Mirbabayev kimi məşhur Bakı xanəndələri də iştirak etmişlər. Xalq tərəfindən rəğbətlə qarşılandığına və çox sevildiyinə görə "Şərq konsertləri"nin təşkili mütəmadi hal almış və bu konsertlərdə o dövrün tanınmış xanəndələri sazəndə dəstələrinin müşayiəti ilə çıxış etmişlər. Muğamın konsert səhnəsinə çıxarılmasında, ümumiyyətlə, Azərb. mədəni həyatında mühüm əhəmiyyətə malik olmuş "Şərq konsertləri"nin qorunub saxlanılmış afişaları bu barədə məlumat verən qiymətli mənbələrdir. "Şərq konsertləri"nin ənənəsi bu gün də davam etdirilir, "Muğam konserti", "Muğam axşamı" adı ilə müasir dövrdə də keçirilərək, geniş dinləyici kütləsi cəlb edir. Bu konsertlər muğam sənətinin inkişafında, yaşadılmasında və təbliğində mühüm rol oynayır.

*Şərq konsertinin iştirakçıları*



**"ŞƏRQ GECƏLƏRİ"** - XX əsrin əvvəllərində Azərbaycanda təşkil edilən geniş proqramlı konsertlərə verilən ad. "Şərq gecələri"ndə xanəndə və aşıqların çıxışları ilə yanaşı, kiçik həcmli teatr tamaşaları göstərilir, rəqslər təşkil olunurdu. Azərbaycanda ilk "Şərq gecəsi" 1907 ildə Bakıda "Müsəlman xeyriyyə cəmiyyəti" tərəfindən şəhər yoxsullarının xeyrinə keçirilmişdir.

**ŞİKƏSTƏ** (hərfi mənası: sınıq, qırılmış, məğlub edilmiş) - musiqi janrı. Aşıq yaradıcılığında geniş yayılmış və bir çox növləri meydana gəlmişdir: "Qazax şikəstəsi", "Kərəm şikəstəsi", "Badamı şikəstə", "Turabı şikəstə" və s. Xanəndəlik sənətində "Qarabağ şikəstəsi", "Kəsmə şikəstə", "Şirvan şikəstəsi" kimi növləri tanınmışdır. Bütün şikəstə növləri segah məqamında qurulur. Həzin, təsirli xarakterli musiqi məzmununa ma-

likdir. Muğam sənətində geniş tətbiq olunan "Şikəsteyi-fars" muğam şöbəsi də bu qəbildəndir.

**ŞİKƏSTEYİ-FARS** (farsca: şikəstə - "sınmış", "incimiş", "qəlbi qırılmış" mənasını verir; yanıqlı, şikayətli məzmuna malik musiqiyə deyilir) - muğam şöbəsidir. Segah məqamına əsaslanır. Təsirli, həzin əhval-ruhiyyə malik bu şöbə bir çox muğam dəstgahlarının tərkibinə daxil olunaraq, "segah" mühiti əmələ gətirir. Eyni zamanda, hər dəstgahda bu şöbə özündən sonrakı şöbələrlə üzvi surətdə əlaqə yaratmaq üçün əlverişli imkanlara malikdir. Bir çox muğamlarda - "Rast", "Mahur-Hindi", "Bayatı-Qacar", "Orta Mahur", "Şur", "Segah", "Mirzə Hüseyn segahı", "Zabul-segah", "Dəşti", "Bayatı-Şiraz" və s. istifadə olunur.

**ŞİFAHİ ƏNƏNƏLİ XALQ-PROFESSİONAL MUSİQİSİ** - Azərb. şifahi ənənəli musiqi mədəniyyətinin folklordan sonra ikinci təbəqəsi; xalq-professional musiqi mədəniyyəti fərdi-müəllif yaradıcılığının ictimai-folklor şəkilli təzahürü olub, xalq kütlələrinin dünyagörüşünü əks etdirən şifahi-yazılı ifadəli bədii rabitə vasitəsidir. Şifahi ənənəli xalq-professional musiqisinə aşıq sənəti aid edilir. Məzmun, ifadə dəqiqliyi və konkretliyi, qəhrəmani-epik rəvayət, klassik-lirik süjetlər və s. ifaçılıq mədəniyyətinin ənənəvi xarakter daşıması baxımından aşıq sənəti professional yaradıcılığın bir tərəfini təmsil edir. Lakin musiqi üslubu və quruluş cəhətdən folklora yaxındır. İnstrumental ifaçılıq sənəti də xalq-professional musiqi mədəniyyətinin bir hissəsidir. Xalq-professional ifaçılığında ənənəvilik, kollektivlik, dəyişməz, təmaslı şəkildə ənənəni ötürmə kimi cəhətlər başlıca rol oynayır və bunların sayəsində xalq çalğı musiqisi ancaq ifada yaşayır və yaşadılır. Eyni zamanda, o, özünəməxsus profesionallığı ilə seçilir. Xalq musiqiçisi yaşadığı mühitdə seçilir, musiqiçilik onun yeganə fəaliyyət dairəsinə çevrilir. Xalq musiqiçilərinin özünəməxsus peşəkarlığı ifaçılıq məktəblərinin yaranmasında başlıca amildir. Zurnaçıların, balabançıların, nağaraçıların arasında yerli ənənələrə yaxşı bələd olan və öyrədən ustadlar - müəllimlər var; hər bir ustad qavrama tələbləri, təlim üsulları, öz terminologiyası ilə seçilir. Beləliklə, şifahi ənənəli xalq-professional musiqisi xalq yaradıcılığı ilə professional yaradıcılığın birgə fəaliyyət modelini özündə yaşadır.

**ŞİFAHİ ƏNƏNƏLİ PROFESSİONAL MUSİQİ** - Azərb. şifahi ənənəli musiqi mədəniyyətinin ən yüksək təbəqəsi; muğam sənəti - əsaslı məktəb keçmiş xanəndə, sazəndə kimi peşəkar musiqiçilərin yaradıcılığı və bu sənətkarların yaradıcılıq məhsulu olan muğam dəstgahları, kiçik formalı muğamlar, zərbi muğamlar, təsnif və rəng kimi janrlar nəzərdə tutulur. Bu janrların təşəkkülündə, formalaşmasında və inkişafında xanəndə və sazəndələrin böyük rolu vardır. Bütün bu musiqi janrlarını onlar ənənəvi qayda-qanun çərçivəsində ifa edərək yaradırlar. Xanəndə və sazəndalar üçün möhkəm məqam sisteminə əsaslanan muğam dəstgahlar ən yüksək yaradıcı təfəkkürün məhsulu sayılır. Muğam dəstgahların mükəmməl ifası möhkəm bilik, qavrama qabiliyyəti, təcrübə və məharət tələb edir. Bu keyfiyyətlərə yiyələnmək üçün ifaçı uzunmüddətli xüsusi sənət məktəbi keçməlidir. Muğam sənətində tələb olunan qanunlar çərçivəsində ifaçılar parlaq istedadı, zəngin təxəyyülü, gözəl zövqü sayəsində yeni ənənələr, orijinal üslublar, məktəblər yaradırlar. Ənənəvi professional musiqi janrlarının əsas xüsusiyyəti onların etik məqsədi, yəni yüksək fəlsəfi və humanist ideyaları dinləyicilərə çatdırmaqdır. Ənənəvi professional musiqi sənətinin mühüm amillərindən biri şifahilik xüsusiyyətinə malik olması, yəni onun şifahi şəkildə, yaddaş vasitəsi ilə ustaddan-şagirdə, bir ifaçıdan digərinə ötürülməsindən ibarətdir. Ənənəvi professional musiqi ifaçıları solo şəklində çalıb oxuyurlar. Belə ifa tərzi muğam sənətinin inkişafında şifahi ənənənin əhəmiyyətini qabarıq göstərir. Solo ifa zamanı əsrlərdən bəri qorunub saxlanılan muğam sənətinin ümumi qanunlarına riayət etməklə yanaşı, improvizə etmək bacarığı sayəsində xanəndə və ya sazəndənin şəxsi, fərdi yaradıcılıq tapıntıları da üzə çıxır. Eyni zamanda, onların yaradıcılığında ifaçılıq, həm də bəstəkarlıq sənəti üzvi surətdə birləşir.

*Azərbaycanın incəsənət xadimləri. Ön sırada sazçı qızlar ansamblının üzvləri*







**ŞİRAZİ Qütbəddin Mahmud ibn Məsud** (1236, Şiraz - 1321, Təbriz) - təbiətşünas alim, təbib, filosof, musiqiçi. İlk təhsilini Şirazda atasından almış, Marağada N.Tusinin şagirdi olmuşdur. Kiçik Asiyada və Təbrizdə yaşamışdır. Dövrünün bir çox alimlərinin elmi irsini mənimsəmiş, İbn-Sinanın və digər alimlərin əsərlərinə şərhlər yazmışdır: "Ət-Təzkirət ən nəsiriyyə" ("Nəsir təzkirəsi"), "Ət-Tuhfət əş-şahiyyə" ("Töhfə"), "Tac əl-ülum" ("Elmlərin tacı") kimi fəlsəfi əsərləri vardır. Onun həcminə və elmi əhatə dairəsinə görə ən böyük əsərlərindən biri "Ğürrət ət-tac" ("Tacın görkəmli yeri" və ya "Tacın mirvarisi") traktatıdır. Bu əsərdə musiqiyə də böyük diqqət yetirilmiş, o dövrün ənənəsinə görə musiqi ilə bağlı məsələlər riyaziyyat bölməsində yer almışdır və "Musiqi haqqında elm" adlanır.

**ŞİRVAN ŞİKƏSTƏSİ** - şikəstə növlərindən biri.

**ŞİRVANİ Fətullah** - *bax: Fətullah Şirvani.*

**ŞİRVANİ Seyid Əzim** - *bax: Seyid Əsim Şirvani.*

**ŞÖBƏ** - muğam dəstgahının melodik və məqam cəhətincə bitkin və müstəqil bir hissəsi.

**ŞÖVQ-ƏFZA** - Klassik şairlərin əsərlərində rast gəlinən təsnif adı.

**ŞTRİX** (alman: *strich* - cizgi, xətt) - Musiqi alətində çalğı zamanı səsin ifadə tərzi; ifaçılıq üsulu; əsas ştrixlər - leqato, stakkato və s.

**ŞUR MƏQAMI** (mənası: eşq, sevgi) - Azərb. musiqisində yeddi əsas məqamdan biri (Ü.Hacıbəyov). Quruluşu: 1 - ½ - 1 ton formullu üç tetraxordun qovuşuq üsulla (x1- intervalı məsafəsində) birləşməsindən ibarətdir; səssırası 10 pillədir, IV pillə mayə (tonika) pilləsidir. Məqamın səssırasının III, IV, VI, VII, VIII pillələri istinad-dayaq pilləsi kimi "Şur" muğamının şöbələrinin əsasını təşkil edir; bu məqamda qurulan musiqi nümunələri həmin pillələrə əsaslanır.

Re şur məqamının səssırası:




**ŞUR MUĞAMI** - Azərb. şifahi ənənəli professional musiqisində muğam dəstgah. Məcmusu: "Bərdaşt", "Mayeyi-Şur", "Şur-Şahnaz", "Bayatı-Qacar" ("Bayatı-türk" və ya "Dügah"), "Şikəsteyi-fars", "Əşiran", "Səmayi-şəms", "Hicaz", "Sarənc", "Nişibi-fəraz", "Şura ayaq" şöbə və guşələrindən ibarətdir. Bu muğam dəstgah "sol" mayəli şur məqamı əsasında qurulmuşdur.

"Şur" dəstgahının musiqi məzmunu lirik,emosional, eyni zamanda, təmkinli, düşüncəli xarakterə malikdir. "Şur" sözünün farsca mənası "eşq", "sevgi" deməkdir ki, bu da öz təcəssümünü dəstgahın musiqi məzmununda tapır.

**ŞUR MUĞAM AİLƏSİ** - Azərb. musiqisində "Şur" ən böyük həcmli, ən sanballı dəstgah sayılır. Eyni zamanda, müstəqil mahiyyət kəsb etmiş "Şahnaz", "Əbu-əta", "Dəşti", "Bayatı-kürd" kimi kiçik həcmli muğamlar da "Şur" muğam ailəsinə mənsub muğamlardır. Şur məqamında qurulan zərbi muğamlar da çoxdur: "Səmayi-şəms", "Ovşarı", "Osmanı" ("Maani"), "Arazbarı" və s.).

Şur məqamı aşıq musiqi yaradıcılığında da mühüm əhəmiyyətə malikdir – aşıq mahnılarının çoxu məhz şur kökündə olur. Azərb. xalq mahnıları, oyun havaları və b. instrumental əsərlər ("Cəngi", "Qəhrəmani", "Koroğlu" havaları və s.) də çox vaxt, bir qayda olaraq, şur məqamına əsaslanır.

**ŞUR MUĞAMININ NOT YAZILARI** – "Şur" muğamı instrumental şəkildə N.Məmmədov tərəfindən Əhməd Bakıxanovun ifasından (1962), A.Əsədullayev tərəfindən E.Mirzəfərovun ifasından (2006) nota salınmışdır. Bəstəkar yaradıcılığında da bu muğama çox müraciət olunur. Fikrət Əmirov bu muğam əsasında "Şur" və "Kürd-Ovşarı" simfonik muğamlarını (1948) yaratmışdır.

**ŞUR-ŞAHNAZ** – muğam şöbəsi. "Şur" muğam dəstgahına daxildir. "Şur" muğam dəstgahının tərkibində "Mayeyi-şur" şöbəsindən sonra ifa olunaraq, inkişafın yeni mərhələsini təşkil edir. "Şur-Şahnaz"ın dayaq-istinad pilləsi mayədən dörd pillə (kvarta) yuxarı (do şur) yerləşir.

**ŞUŞA** – Azərb. Respublikasında şəhər. Şuşa r-nunun mərkəzi. Qarabağ bölgəsində şəhər, d.s. 1400 m yüksəklikdə yerləşir. Şuşa şəhərinin əsası 1750 ildə Qarabağ xanı Pənah xan tərəfindən qoyulmuş və "Pənahabad" adlanmışdır. Sonralar şəhərin yaxınlığında yerləşən Şuşakəndin adı ilə Şuşa qalası adlanmağa başladı. Burada ticarət və sənətkarlıq baxımından çox inkişaf etmiş bu şəhər, həm də gözəl təbiətə malik sağlamlıq ocağı və istirahət zonası kimi tanınmışdı. Şuşa Azərb. qədim mədəniyyət mərkəzlərindən biridir. Şuşanı musiqi və poeziyanın beşiyi, "Qafqazın konservatoriyası" adlandırırlar. Qafqazın, Yaxın Şərqin, Orta Asiyanın hər yerindən buraya şairlər, dramaturqlar, bəstəkarlar, artistlər və musiqiçilər, həm də Rusiyada və Qərbi Avropada ali məktəblərdə oxuyan azərb. tələbələr toplaşaraq teatr tamaşaları göstərir, musiqi məclislərində iştirak edirdilər. Şuşa musiqiçilərinin şöhrəti Azərb. hüdudlarından uzaqlarda da geniş yayılmışdı. Xüsusilə, XIX əsrdə Şuşada mədəniyyətin inkişafı Azərb. sənət xəzinəsinə Natəvan, Mir Möhsün Nəvvab, Sadıqcan, Hacı Hüsü, Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd, Məşədi Məhəmməd Fərzəliyev, İslam Abdullayev, Qurban Primov, Üzeyir Hacıbəyov, Bülbül və neçə-neçə böyük sənətkarlar bəxş etmişdir. Bu sənətkar nəsilləri bu gün də davam edir. Şuşada yaranmış muğam məktəbləri, musiqi məclisləri, birpərdəli musiqili tamaşalar, "Şərq konsertləri" sonradan Azərb. digər regionlarında da geniş yayılmış, Azərb. musiqi mədəniyyətinin inkişafında mühüm mərhələ olmuşdur. XIX əsrin sonu, XX əsrin əvvəllərində Şuşa musiqiçilərinin yaratdıqları muğam ənənələri XXI əsrdə də davam etməkdədir.

**ŞUŞİNSKİ Firidun** (Firidun Məhəmməd oğlu Həsənovun təxəllüsü; 20.10.1925, Şuşa – 25.10.1997, Bakı) – tarixçi, musiqi tədqiqatçısı. 1930 illərdə Şuşada təhsil almış, Azərb. Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Qarabağın tarixi ilə dərindən maraqlanmış, ümumiyyətlə, Azərb. mədəniyyəti tarixini araşdırmış, xalq musiqi ifaçıları haqqında geniş məlumat toplamış, bir sıra unudulmuş sənətkarların adlarını üzə çıxarmışdır. Tədqiqatlarının nəticəsi olaraq yazdığı "Şuşa", "Azərbaycan xalq musiqiçiləri", "Cabbar Qaryağdıoğlu", "Xan Şuşinski", "Sadıqcan" kimi kitablar Qarabağın musiqi xadimlərinin həyat və yaradıcılığı haqqında qiymətli informasiya mənbəyidir.


*Firidun Şusinski, musiqi tədqiqatçısı*

**ŞUŞİNSKİ XAN** (İsfəndiyar Aslan oğlu Cavanşirovun təxəllüsü; 20.08.1901, Şuşa – 18.03.1979, Bakı) – xanəndə, xalq artisti (1943). Qarabağ xanəndəlik məktəbinin nadir simalarından biridir. 16 yaşında olarkən o, ustadı İslam Abdullayevlə birgə iştirak etdiyi məclisdə təbrizli xanəndə Əbülhəsən xanın yolu ilə "Kürd-Şahnaz" müğamını heyrətamiz bir tərzdə ifa etdiyinə görə müəllimi ona "Xan Şuşinski" adını vermişdir. Xanın bir xanəndə kimi yetişməsində, həmçinin Cabbar Qaryağdıoğlunun və Seyid Şuşinskinin böyük təsiri olmuşdur. 1920 illərdə Xan Şuşinski Bakıya gələrək öz ifaçılıq fəaliyyətini genişləndirmişdir. O, konsertlərdə, dinləyicilər qarşısında çıxışları ilə ürəkləri fəth edirdi. Xanın repertuarında "Mahur-Hindi", "Bayatı-Qacar", "Qatar" muğamları, "Qarabağ






*Xan Şuşinski, xanəndə; Xan Şuşinskinin (ön sırada soldan birinci) rəhbərlik etdiyi Azərbaycan xalq çalğı alətləri ansamblı*

şikəstəsi", "Arazbarı", "Heyratı" zərbi muğamları ilə yanaşı, xalq mahnıları və təsniflər böyük yer tuturdu. Xan Şuşinski xalq mahnılarını xüsusi bir şövqlə oxuyur, onlara yeni çalarlar aşılayırdı. 1934 ildə Xan Şuşinski Tiflis şəhərində keçirilən Zaqafqaziya xalqlarının birinci incəsənət olimpiadasında böyük müvəffəqiyyət qazanaraq, birinci mükafata layiq görülür. O, digər ölkələrdə də Azərb. musiqi mədəniyyətini yüksək səviyyədə və layiqincə təmsil etmişdir. Xan Şuşinski zəngin və çoxcəhətli yaradıcılığa malik bir xanəndə idi. Xanəndəlik sənətində əldə etdiyi təcrübə nəticəsində o, daim ifaçılıq məharətini təkmilləşdirirdi. Onu digər xanəndələrdən fərqləndirən səsi qüdrətli və məlahətli səslənirdi. 1960 illərdə ADF-nin nəzdində "Muğam studiyası" yaratmış və burada gənc xanəndələrə muğamın sirlərini öyrətmişdir. O, həmçinin ADMM-də dərs demiş, muğam ifaçılarının yeni nəslini yetişdirmişdir. Xan əsl yaradıcı sənətkar kimi milli musiqi xəzinəsini yeni mahnılırla zənginləşdirirdi. Bu baxımdan onun "Qəmərim", "Şuşanın dağları" mahnıları dillər əzbəri olmuşdur. Xan Şuşinski öz yaradıcılığında bəstəkar mahnısına da müraciət etmişdir. Bu mənada Üzeyir Hacıbəyovun "Qara göz" mahnısının ilk ifaçısı olmuş və mahnını yüksək zövqlə oxuyaraq yaşatmışdır.

**ŞUŞİNSKİ MUSA Fərhad oğlu** (1893-1971) – xanəndə. Məlahətli səsə malik olmuşdur. 1916-1920 illərdə Tiflisdə, 1920 illərdən sonra Gəncədə fəaliyyət göstərmişdir. 1930 illərdə "Şərq konsertləri"ndə çıxış etmişdir. Opera səhnəsində çıxışları da yaddaqalan olmuşdur. Ü.Hacıbəyovun "Əsli və Kərəm" operasında Kərəm, "Arşın mal alan"da Əsgər, "O olmasın, bu olsun" musiqili komediyasında Sərvər rollarında çıxış etmişdir. Qrammofon vallarında bir neçə səsyazısı saxlanılıb.

**ŞUŞİNSKİ SEYİD** (Mir Mövsüm ağa Seyid İbrahim oğlunun təxəllüsü; 1889, Şuşa yaxınlığında Horadiz kəndi – 1965) – xanəndə, musiqi xadimi, pedaqoq, xalq artisti (1956), əməkdar müəllim (1961). Qarabağ xanəndəlik məktəbinin ən böyük simalarından biri. Azərb. milli musiqi mədəniyyətinin inkişafında çox mühüm rol oynamışdır. İlk təhsilini mədrəsədə almış, dini mərasimlərdə və xalq şənliklərində çıxış etmişdir. Seyidin peşəkar bir xanəndə kimi tanınmasında Azərb. xanəndəlik sənətinin beşiyi olan Şuşa mühitinin həlledici rolu olmuşdur. Mir Möhsün Nəvvabdan klassik muğamların və xalq musiqisinin dərin sirlərini əxz etmişdir. Onun xanəndə kimi yetişməsində Cabbar Qaryağdıoğlunun böyük təsiri olmuşdur. Seyid yüksək diapazonlu səsi və muğamları düzgün, səlis oxumaq qabiliyyəti ilə dinləyiciləri, eləcə də, məşhur xanəndələri belə heyran qoymuşdu. 1911-1919 illərdə Seyid Şuşinski Tiflisdə fəaliyyət göstərmiş, xanəndəlik sənətini daha da təkmilləşdirmiş, onun bədii zövqü və səhnə ustalığı formalaşmışdı. Məşhur xanəndə Əbülhəsən xan İqbal Sontanla tanışlığı da onun ifaçılıq üslubunda əhəmiyyətli iz buraxmışdır. Bu illərdə o, Azərb. bəstəkarlarının muğam operalarında çıxış etmişdir. 1913-1914 illərdə "Ekstrafon" səhmdar cəmiyyəti tərəfindən iki dəfə Kiyev şəhərinə dəvət edilərək, səsi vala yazılmışdır. Onun oxuduğu "Çahargah", "Nəva", "Bayatı-İsfahan", "Hümayun", "Rast", "Mahur", "Za-

bul", "Şahnaz", "Mirzə Hüseyn segahı" muğamları, "Mani", "Arazbarı", "Mənsuriyyə" zərbi muğamları musiqi xəzinəmizdə bənzərsiz sənət əsərləri kimi özünəməxsus yer almışdır. Xanəndənin oxuduğu "Çahargah" muğamı öz ifaçılıq təfsiri ilə fərqlənmişdir. S.Şuşinski "Çahargah" muğam dəstgahını yüksək zirvədən - zil şöbə olan "Mənsuriyyə"dən başlayırdı ki, bu da muğama döyüş ruhu aşılayırdı. S.Şuşinskinin yaradıcılığının sonrakı dövrü Bakı ilə bağlı olmuşdur. Bu dövrdə onun müəllimlik fəalliyəti genişlənir. 1926 ildə Üzeyir Hacıbəyovun təşəbbüsü ilə ADK-da, sonra isə ADMM-də muğam sinfində müəllimlik etməyə başlayır. O, bir sıra görkəmli xanəndələrin müəllimi olmuşdur. Seyid Şuşinski bəstəkarlara da çox kömək edərək, muğam sahəsindəki biliklərini onlarla bölüşmüşdür. Xüsusilə, simfonik muğam janrında əsərlərini ("Şur", "Kürd-ovşarı") yaradarkən Fikrət Əmirov Seyid Şuşinskinin sənətindən bəhrələnmişdir. Seyid Şuşinski daim yeniliyə can atır, öz yaradıcılığını yeni keyfiyyətlərlə zənginləşdirməyə çalışırdı. O, bir çox muğamlara yeni guşələr əlavə etmiş, bir çox muğamları birləşdirib oxumuşdu. Bunlardan "Rast-Hümayun", "Qatar-Bayatı", "Şur-Şahnaz" dəstgahları diqqətəlayiqdir.

**ŞÜŞTƏR MƏQAMI** - Azərb. musiqisində yeddi əsas məqamdan biri (Ü.Hacıbəyov). Quruluşu: ½ -1- ½ ton formullu iki tetraxordun yanaşı üsulla (art. 2 - intervalı məsafəsində) birləşməsindən ibarətdir; səssırası 8 pilləlidir, VI pillə mayə (tonika) pilləsidir, bu məqamda III pillə də mayə ilə yanaşı, tamamlayıcı ton əhəmiyyətini daşıyır. Məqamın səssırasının III, VI, VII pillələri istinad-dayaq pilləsi kimi "Şüştər" muğamının şöbələrinin əsasını təşkil edir; bu məqamda qurulan musiqi nümunələri həmin pillələrə əsaslanır.

Lya şüştər məqamının səssırası:




**ŞÜŞTƏR MUĞAMI** - Azərb. şifahi ənənəli professional musiqisində muğam dəstgah. Məcmusu: "Bərdaşt", "Əmiri", "Mayeyi-Şüştər", "Feli", "Tərkib", "Şüştərə ayaq" şöbələrindən ibarətdir. "Şüştər" çox kədərli, kövrək əhval-ruhiyyəli bir muğamdır. Onun instrumental şəkildə ifası daha geniş yayılmışdır.

**ŞÜŞTƏR MUĞAMININ NOT YAZILARI** - "Şüştər" muğamı instrumental şəkildə A.Əsədullayev tərəfindən E.Mirzəfərovun ifasından (2006) nota salınmışdır. ■

*Xanəndə Seyid Şuşinski (soldan ikinci) və onu müşayiət edən musiqiçilər ansamblı*







# T

**TALIŞINSKAYA Cahan Rza qızı** (09.02.1909, Lənkəran - 1967) - müğənni, əməkdar artist (1940). 1920 illərdən fəaliyyət göstərməyə başlamış, əvvəlcə radioda, 1934 ildən ADF-da solist olmuşdur. Bir çox muğamları və xalq mahnılarını özünəməxsus incəliklə ifa edirdi. Konsert briqadalarının tərkibində Azərb. rayonlarında səfərdə olarkən, bir sıra xalq mahnılarını toplamış ("Qubanın ağ alması", "Uca dağlar", "Dəli ceyran", "Kürdün gözəli") və repertuarına daxil etmişdi. Tiflisdə Azərb. teatrı səhnəsində Leyli ("Leyli və Məcnun"), Şahsənəm ("Aşıq Qərib") kimi obrazlar yaratmışdır. 1942 ildə repressiyaya uğramış və Qazaxıstana sürgün edilmişdir. Sonradan Daşkəndə köçmüş və ömrünün qalan hissəsini burada yaşamışdır.

**TAR** - mizrabla çalınan simli dartımlı musiqi aləti. Azərb. tarı özünəməxsus quruluşa, konstruksiyaya və bədii-texniki imkanlara malikdir. Ümumiyyətlə, tar aləti bir çox ölkələrdə - İranda, Orta Asiyada, Dağıstanda və b. yerlərdə geniş yayılmışdır. Lakin özəl cəhətlərə malik Azərb. tarı digər tar növlərindən, məsələn, İran tarından xeyli fərqlənir.

XIX əsrin II yarısı Azərb. musiqi sənətinin ən görkəmli nümayəndəsi sayılan Mirzə Sadıq Əsəd oğlu tar musiqi aləti üzərində rekonstruksiya aparmış, alətin konstruksiyasını elmi - akustik prinsiplər əsasında dəyişdirmişdir. O, tarın səsini gücləndirmək üçün simlərinin sayını artırmış; alətin qolunun yuxarısında (kəlləyə yaxın yerdə) əlavə pərdə (zabul pərdəsi) bağlamış; tar ifaçılığı texnikasında "lal barmaq" adlanan üsuldan geniş istifadə edilməsinə yol açmış; tarı diz üstünə qoyub əyilərək çalmaq qaydasını aradan qaldırmış və tarı sinə üstünə alıb çalmağı daha münasib, daha yararlı hesab etmişdir.

Müasir Azərb. tarı 11 simli, geniş səs diapazonuna və zəngin ifaçılıq imkanlarına malik alətdir. Milli musiqi ifaçılığında həm solo, həm də müşayiətçi alət kimi istifadə olunur. Muğam sənətində tar aparıcı alətdir. Azərb. bəstəkarlarının yaradıcılığında bu alətdən geniş istifadə olunur.

"Tar" sözünün mənası "sim" deməkdir. Şərqdə bir sıra simli alətlərin adında rast gəlinir: dütar, setar, çahartar və s. Ərəb ölkələrində isə dəf alətini "tar" adlandırırlar.

**TAR-NOVRUZ** - qədim musiqidə mahnı adı.

**TARZƏN** - tar alətinin ifaçısı; solist və müşayiətçi kimi fəaliyyət göstərən peşəkar musiqiçi.

**TEMBR** (fransız: *timbre* - fərqlənmə, nişan) - səsin rəngidir. Səsin tembri - musiqiyə dərin ifadəlilik verir, musiqinin bədii ifadə vasitələrindən birini təşkil edir. Vokal ifaçılığında tembr mühüm faktor olub, mimika və intonasiya ilə sıx bağlıdır. İnstrumental musiqidə hər bir alət özünəməxsus səs tembri ilə fərqlənir.

**TEMP** (italyan: *tempo*; latın: *tempus* - vaxt) - musiqidə zaman vahidindəki payların (hissələrin) sayı ilə müəyyən edilən hərəkət sürətidir. Temp musiqi əsərinin ifasının mütləq sürətini müəyyənləşdirir. Not yazısında tempin xüsusi italyan

*Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin eksponatları*



*Azərbaycan tarı*

terminləri ilə işarə olunması qəbul edilmişdir: məsələn, allegro, andante, tempo di marsia və s. Əsərin xarakteri, üslubu, janrı müəyyən templə bağlıdır. Metronom vasitəsi ilə tempin daha dəqiq təyin edilməsi mümkündür. Tempin doğru təyin edilməsi ifaçının bacarığından, təcrübəsindən, ənənələrə riayət etməsindən asılıdır.

**TENOR** (italyan: *tenor* – fasiləsiz gediş, *tenco* – tutmaq, saxlamaq) – Yüksək kişi səsidir. Tenorun ümumi səs diapazonu: kiçik oktava do səsindən – II oktava do səsinə kimidir. Tenor partiyası sol açarında yazılır və yazıldığından bir oktava aşağı səslənir. Tenor səsinin növləri: lirik tenor; dramatik tenor; tenor altino. Azərb. xanəndələrinin əksəriyyəti lirik-dramatik tenor səsə malikdir.

**TERSİYA** (latın: *tertia* – üçüncü) – **1.** Üç pillə məsafəsində interval. 3 rəqəmi ilə işarə olunur. *Kiçik tersiya – k3*: həcmi 1½ tona bərabərdir; *Böyük tersiya – b3*: həcmi 2 tona bərabərdir. *Artırılmış tersiya – art.3*: həcmi 2½ tona bərabərdir.*Əksildilmiş tersiya - əks.3*: həcmi 1 tona bərabərdir. **2.** Verilmiş səsdən sonra üçüncü pillə.

**TESSİTURA** (italyan: *tessitura* – məğz) – səs diapazonuna daxil olan səslərin konkret əsərdə işlənilməsidir. Tessituranın növləri bunlardır: yuxarı tessitura – səs diapazonunun yuxarı səsləri; orta tessitura – səslənmə üçün olduqca rahat bir hissə; aşağı tessitura – səs diapazonunun aşağı notları.

Xanəndələrin səs imkanlarını səciyyələndirərkən onun tessiturasının qeyd olunması vacibdir. Azərb. musiqisində səs imkanlarına görə xanəndələr zilxan (səsi yuxarı registrdə sərbəst işləyən), pəstxan (aşağı registrli səs), geniş tessituraya malik (həm zildə, həm də bəmdə sərbəstliklə işləyən) xanəndə kimi fərqləndirilir.

**TEYMUROVA Nəzakət Xosrov qızı** (04.07.1972, Ağdam) – xanəndə, xalq artisti (2005). 1991-1995 illərdə ADMM-də təhsil almış, xanəndə Nəriman Əliyevdən muğamları öyrənmişdir. 1995-1999 illərdə ADK-da təhsilini davam etdirmiş, xanəndə Arif Babayevin tələbəsi olmuşdur. 1995 ildən ADOBT-nin solistidir. Leyli ("Leyli və Məcnun"), Şahsənəm ("Aşıq Qərib"), Gülbahar ("Gəlin qayası"), Xanəndə qız ("Natəvan") rollarında çıxış edərək, tamaşaçıların rəğbətini qazanmışdır. Repertuarında muğam dəstgahlar əsas yer tutur. Dünyanın bir çox ölkələrində (Amerika, Almaniya, Fransa, Yaponiya, Koreya, İran, Türkiyə və b.) konsert səfərlərində olmuş, Azərb. milli musiqisini təmsil etmişdir. Diskləri və videoalbomu çıxmışdır. Konsert fəaliyyəti ilə yanaşı, müəllimliklə də məşğul olur. BMK və AMK-nın müəllimidir.

**TƏBİL** (ərəb) – zərbli musiqi aləti. Sağanağının hər iki tərəfinə dana, ya da qoyun dərisi çəkilir və sonradan xüsusi ağacla çalınır. Təbil öz konstruksiyası etibarı ilə nağaraya bənzəyir, lakin təbilin sağanağı xeyli böyük və bir qayda olaraq ellips şəklində olur.

*Orta əsr miniatürlərində təbil və nəfəsli alətlərin təsviri*









**TƏDRİC** (ərəb) – musiqi ifaçılığında səsin tədriclə gücləndirilməsi ya da əksinə, zəiflənməsi (crescendo – diminuendo).

**TƏDRİS PROQRAMI** – musiqi tədrisinin sistemləşdirilməsində istifadə olunan fənn proqramları. Muğamın tədrisi prosesində müxtəlif illərdə muğam biliciləri və pedaqoqlar tərəfindən proqramlar tərtib olunmuşdur. Burada, əsasən, tədris müddətində öyrədilən muğamların şöbə və guşələri, zərbi muğamlar, rəng və təsniflər göstərilmişdir. XX əsrə qədər muğamın tədrisində dəstgahların məcmusunu əhatə edən biliklər hər bir muğam ifaçısının yaradıcılıq ənənələrinə uyğun olaraq, şifahi surətdə ustaddan şagirdlərinə ötürülmüşdür. Müəyyən dərəcədə görkəmli ustadlar (M.M.Nəvvab, M.F.Rzayev, M.M.Mansurov) tərəfindən yazıya alınmış muğam cədvəlləri o dövrün ifaçılıq təcrübəsindəki muğamların məcmusu haqqında təsəvvür yaradır və bunlar tədris proqramlarının yaranması üçün örnək olmuşdur. XX əsrdə Ü.Hacıbəyovun musiqi təhsili sahəsindəki məqsədyönlü fəaliyyəti nəticəsində muğamın tədrisi sistemləşdirilmişdir. 1925 ildə Ü.Hacıbəyovun rəhbərliyi altında ilk muğam proqramı tərtib olunmuşdur. Bu proqramın tərtibində xanəndələrdən Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd, Seyid Şuşinski, tarzənlərdən M.Mansurov, M.F.Rzayev, Q.Primov və b., o cümlədən, Ə.Bədəlbəyli iştirak etmişdir. Sonrakı illərdə yaranan çoxsaylı muğam proqramlarında çox vaxt ixtisaslar üzrə bölünmə özünü göstərir: ayrılıqda solo oxu və instrumental ifaçılıq üzrə (tar, kamança, balaban və s. alətlər üçün) proqramlar tərtib olunmuşdur. Bunlardan Əhməd Bakıxanovun, Kamil Əhmədovun və b. proqramları qeyd oluna bilər.

**TƏFXİM** (ərəb) – musiqi sədasını və təranəsini genişləndirmək, müxtəlif naxışlarla zinətləndirmək qabiliyyəti (variasiyalar tərtib etmək).

**TƏFRİ** (ərəb) – musiqi ifaçılığında bir melodiyadan başqasına keçib sonradan yenidən əvvəlki formaya qayıtmaq bacarığı.

**TƏXƏLLÜS** – bəzi yaradıcı insanların özləri üçün seçdikləri düzəltmə ad, yaxud soyad.

**TƏXNİS** (ərəb) – çox zil səs.

**TƏXT** – qədim zamanlarda məclisdə musiqiçilər üçün ayrılan yer.

**TƏXT-ƏRDƏŞİR** – qədim musiqidə mahnı adı.

**TƏXT-TAQDİS** – qədim musiqidə mahnı adı.

**TƏKK** (ərəb) – səslənmə, səslətmə, səs çıxartma və s.

**TƏQSİM** (ərəb) – **1.** Əsas kök (məqam) üstündə sərbəst improvizasiya; **2.** Türk musiqisində muğam, ya da muğam şöbəsi.

**TƏFSİR, İNTERPRETASİYA** (latın: *interpretatio* – şərh etmə, izah etmə) – ifaçılıq prosesində musiqi əsərinin yaradıcılıq təxəyyüllü ilə şərh olunması. Digər incəsənət növlərindən fərqli olaraq, musiqinin mütləq olaraq ifaçıya, musiqi mətninin şərhinə ehtiyacı vardır. İfaçının professional hazırlıq səviyyəsi, onun dünyagörüşü, ümumi mədəniyyət səviyyəsi yüksək olduqca, onun ifa etdiyi əsərin təfsiri də daha təsirli və yaddaqalan olur. Şifahi ənənələrə əsaslanan muğamların təfsiri ifaçının fərdi yaradıcılıq keyfiyyətləri, dəst-xətti ilə bağlı olub, ciddi qanun-qaydalar əsasında yeni ifaçılıq variantlarının yaradılmasını ehtiva edir.

**TƏHLİL** (yunan: *analisis* – hissələrə ayırmaq) – musiqişünaslıqda musiqi əsərlərində estetik və texnoloji tədqiqatın qəbul olunmuş adı. Musiqi əsərlərinin quruluşunu öyrənən musiqili-nəzəri qayda-qanunlar. Musiqişünaslıqda musiqi əsərinə xüsusi bir incəsənət sistemi kimi baxılır. Bu sistem özündə ayrı-ayrı musiqi elementlərini birləşdirir. Bütün bu elementlər (melodiya, harmoniya, kontrapunkt və s.) özü ayrı-ayrılıqda xüsusi təhlil materialı (harmonik, polifonik, ritmik təhlil) ola bilər. Musiqili təhlili əsərin bütün cəhətlərini, sahələrini və onların əlaqələrini öyrənir (səs, intonasiya, bəstəkar üslubu). Əsər forma, nəzəri və tarixi rakurs, obyektiv öyrənilmə və estetik qiymətlər, bədii forma kimi, bəstəkar üslubu baxımından, ifaçılıq təfsiri baxımından, dinləyiciyə təsiri baxımından öyrənilir. Vokal musiqisinin təhlili zamanı isə həmçinin mətnin musiqi ilə əlaqələndirilməsi əsas şərtlərdən biri kimi araşdırılır. Fənn kimi musiqi təhlili özündə əsərin ümumi bəstəkarlıq məntiqi, musiqi formalarının tarixi növləri və ayrı-ayrı musiqi-ifadə vasitələrinin, musiqi janrı və üslubunun tarixi-mədəni kontekstdən öyrənilməsi kimi məsələləri cəmləşdirir. Muğamların müxtəlif aspektlərdən öyrənilməsi və təhlili ilə müxtəlif dövrlərdə bir sıra Azərb.və xarici ölkə musiqişünas-alimləri məş-ğul olmuşlar.

**TƏMRİN** – musiqi ifaçılığında müəyyən vərdişləri əxz etmək üçün istifadə olunan çalışmalar.

**TƏNAFİR** – kakofoniya. Səslərin nizamsız, qaydasız, qarmaqarışıq, anlaşılmaz tərzdə qalaqlanması.

**TƏNBUR** - üç simli dartımlı musiqi aləti. Zahiri görünüşü saz alətinə bənzəyir, lakin çanağı sazınkına nisbətən xeyli kiçik, qolu isə sazınkından bir qədər uzun olur. Təburun birinci və üçüncü simi eyni yüksəklikdə (unison), ortancıl simi isə bir kvarta aşağı köklənir. Simləri sağ əlin şəhadət barmağına taxılan polad halqa üzərindəki qarmaqla dartılıb ehtizaz etdirilir - səsləndirilir. Tənburun bu mizrabı, "naxunək" adlandırılır. Yaxın Şərq və xüsusən Orta Asiya xalqları arasında geniş yayılmışdır. Azərb. Şirvan tənburu istifadə olunur.

**TƏNNAN** (ərəb) - səsli, sədalı, cingildəyən.

**TƏNTƏN** - Yaxın Şərq klassik musiqi ədəbiyyatında musiqi ölçüsünü (vəznini, bəhrini) qeyd etmək üçün istifadə olunan təfilələr: tən, tənnən, tənənən, təntən və s.

**TƏRANƏ** - melodiya, mahnı, nəğmə.

*Qədim əlyazmalarda musiqi mələyinin təsviri*



**TƏRBİYƏT Mirzə Məhəmmədəli Təbrizi** (1875, Təbriz - 1940, Tehran) - ədəbiyyatşünas, maarifçi. Cənubi Azərb. yaşayıb yaratmış, müəllimlik fəaliyyəti ilə, maarifçiliklə məşğul olmuş, Təbrizdə yeni üsulla idarə olunan ilk kitabxananın əsasını qoymuşdur, Azərb. oxucuları dövrün qabaqcıl mətbuat və nəşriyyatı ilə təmin etməkdə, oxucuların dünyagörüşünün inkişafında Tərbiyət kitabxanasının böyük xidmətləri olmuş, Tehranda, İstanbulda onun filialları açılmışdır. M.Tərbiyət bir sıra elmi və ədəbi əsərlərin ("Təqvimi-Tərbiyət", "Danışməndi - Azərbaycan" və s.) müəllifidir. Yaradıcılığında publisistika və jurnalistik fəaliyyəti əsas yer tutmuşdur. M.Tərbiyət Azərb. bir çox musiqişünas, şair və filosofları haqqında elmi məqalələr yazaraq, Tehranda çap etdirmişdir: "Xacə Əbdülqadir Marağai", "Bəhmənyar", "Şeyx Mahmud Şəbüstəri" və s. Onun "Danışməndi - Azərbaycan" kitabı isə Azərb. şair, yazıçı, filosof, musiqişünas, rəssam və tarixçiləri eləcə də digər sahələrdə görkəmli şəxsiyyətləri haqqında ensiklopediyadır.

**TƏRƏB** (ərəb: şənlik, şadlıq, valeh olmaq) - musiqi sənəti (aləti-tərəb - musiqi aləti).

**TƏRƏBƏNGİZ** (fars: sevinc, vəcdə gəlmək, şadlanma) - "Mahur" dəstgahında "Xavəran" ilə "Nişanpürək" arasındakı guşə.

**TƏRKİB** - muğam şöbəsi. "Şüştər" muğamının əsas şöbələrindən biri. "Hümayun" muğamında "Şüştər" ilə "Üzzal" arasındakı şöbə.

**TƏRƏKƏMƏ** - Azərb. xalq oyun havası. Adı Azərbaycanda yaşayan köçəri tərəkəmə tayfalarının adı ilə bağlıdır. Segah məqamına əsaslanan lirik, zərif melodiyasından muğam ifaçılığında diringi kimi istifadə olunur.

**TƏRXİM** (ərəb) - musiqi səsini ən incə bir zövq ilə cilalamaq, xoş bir intonasiya dərəcəsinə çatdırmaq qabiliyyəti.

**TƏRTİL** (ərəb) - avaz ilə oxuma.

**TƏSNİF** - Azərb. şifahi ənənəli professional musiqisində vokal-instrumental janr. Təsniflər tamamlanmış formaya malik bitkin əsərlərdir; lirik, bəzən oynaq xarakterli olur. Təsniflər əsas etibarilə *muğam dəstgahlarının* daxilində ifa olunaraq, muğamın təsir gücünü artırır, muğam şöbələri arasında təzad yaradır, muğam şöbələrini bir-birinə bağlayır, muğamda metroritmik cəhətdən konstruktiv ciddilik yaradır. Təsniflər muğam dəstgahındakı yerinə görə də





fərqlənir: dəstgahın əvvəlində ifa olunan təsniflər - *"Mayə"* şöbəsinə müqəddimə əhəmiyyətinə malik olub, *"dəraməd"* funksiyası daşıyır; dəstgahın şöbələri arasında oxunan təsniflər - muğam şöbəsinin əsas musiqi məzmununu, *məqam* xüsusiyyətlərini özündə cəmləşdirir. Muğam ifaçılığında xanəndələr tərəfindən təsniflərin müstəqil şəkildə ifası da geniş yayılmışdır. Bu halda muğam parçasından təsnifin əvvəlində və ya orta bölməsində istifadə olunur; çox zaman belə nümunələrdə təkcə bir muğam şöbəsinin deyil, əsaslandığı muğamın bütün xüsusiyyətləri özündə cəmləşir. Təsniflərin adları öz mətninin məzmununa görə deyil, tərkibinə daxil olan muğam şöbəsinin adı və musiqi xarakteri ilə əlaqədardır: məs., "Rast" dəstgahında "Vilayəti" şöbəsindən sonra oxunan təsnif - "Vilayəti təsnifi", "Segah"da "Şikəstəyi-fars" şöbəsindən sonra oxunan - "Şikəsteyi-fars təsnifi" və s. adlanır. Lakin təsniflərin hər birinin muğamın müəyyən şöbəsinə aid olmasına baxmayaraq, çox zaman əsas dəstgaha görə də fərqləndirilir: məs., "Segah" muğamına aid təsniflərin hamısına ayrılıqda "Segah təsnifi", "Rast" muğamına aid təsniflərə "Rast təsnifi" və s. deyilir. Təsniflərin mətn əsasını *qəzəllər* təşkil edir; həmçinin, *qoşma, bayatı, gəraylı* və b. lirik şeir formalarından da istifadə olunur. Təsniflərin ifaçıları və yaradıcıları xanəndələrdir. Muğam ifaçılığı təcrübəsində istifadə olunan təsniflərin yaradıcıları kimi Cabbar Qaryağdıoğlunun, Seyid Şuşinskinin, Xan Şuşinskinin, Əbülfət Əliyevin, Qulu Əsgərovun, Əlibaba Məmmədovun və b. xanəndələrin adları qeyd olunur.

**TETRAXORD** (yunan: *tetra* - dörd, *chorde* - sim) - səssırasının yanaşı düzülmüş dörd pilləsi. Ladın alt tetraxordu - I, II, III, IV pillələrini, üst tetraxordu - V, VI, VII, VIII pillələrini əhatə edir.

**TƏVİL (bəhri-təvil)** - klassik poeziyada və qismən klassik musiqidə işlənən bəhrlərdən biri. Dörd, ya da altı, arabir səkkiz hecadan ibarət olan təvilin hər bir misrasının vəzni olduqca oynaq və axıcıdır. Təvil bəhri ən çox dini musiqidə işlənmişdir.

**TƏZƏNƏ** - saz simlərini ehtizaza gətirmək üçün gilənar (albalı) ağacının qabığından hazırlanan mizrab.

**TON** (yunan: *tonos* - gərginlik, vurğu) - **1.** Müəyyən yüksəkliyə malik səs; **2.** Bərabər temperasiyalı səssırasında iki səsin yüksəklik münasibəti; iki yarımtona bərabər ton - bütöv ton. **3.** köhnəlmiş mənada - lad. **4.** Akkordun səsi: *əsas ton*, tersiya tonu, kvinta tonu, septima tonu, nona.

**TONALLIQ** - müəyyən bir ladın tonikasının adı; adətən tonallıq dedikdə eyni vaxtda lad və tonika, yəni ladtonallıq nəzərdə tutulur: məs., do minor, lya major, do rast və s.

Hər bir tonallıq öz açar işarələri ilə fərqlənir, yəni səslərin tərkibini müəyyənləşdirən alterasiya işarələrinə malikdir.

**TONİKA** - ladın sabit, baş pilləsi olub, digər pillələri öz ətrafında cəmləşdirir. Qısa yazılış şəkli: **T** . *Bax: Mayə.*

**TONİKA FUNKSİYASI** - major-minor lad sistemində I pillədən qurulan üçsəslinin funksiyası; ladın ən sabit akkordudur; **T** hərfi ilə işarə olunur. Dominanta funksiyasının akkordları tonika funksiyasına aid akkorda həll olur; eyni zamanda, bu funksiya harmonik hərəkəti yekunlaşdırmaq imkanına malikdir. *Bax: Kadans.*

**TRAKTAT** (latın: *tractatus* - şərh etmək, nəzər salmaq, baxmaq) - ayrıca bir məsələ və problemlə bağlı elmi əsər; xüsusi mövzuda mülahizələr. Qədim və orta əsrlərdə elmi əsərləri traktat adlandırırdılar. *Bax: S.Urməvi, Ə.Marağì, Ə.Cami, M.M.Nəvvab və b.*

**TRANSKRİPSİYA** - orijinalda bir ifaçı tərkibi üçün (məs., ork. üçün) yazılmış əsərlərin sərbəst şəkildə başqa bir ifaçı tərkibi üçün (məs., fortepiano) işlənilməsi. *Bax: Arranje etmək; Fantaziya; Parafraz.*

**TRANSPOZİSİYA (intiqal)** - (latın: *trasposítio* - yerdəyişmə) - Musiqi əsərinin və ya onun bir hissəsinin bir tonallıqdan başqasına köçürülməsidir.

**TRANSPOZİSİYALI alətlər** - Not yazısında olduğu kimi yox, bundan müəyyən interval məsafəsində yuxarı və ya aşağı səslənən alətlər. Bir *alətlər fəsiləsinə* aid müxtəlif növlü alətlərin səslənməsinə görə fərqləndirilməsi.

**TREL** (italyan: *trillare* - cingildətmək) - *melizm* növü; yazılan notla onun yanındakı pillənin tez və çoxsaylı təkrarlanmasına əsaslanır. Notun üstündə **tr** kimi işarə olunur.

**TREMOLO** (italyan: *tremolo* - titrəyən) - **1.** Eyni bir səsin cəldliklə təkrarlanması; bəzən bir neçə alətdə birlikdə də tətbiq olunur. **2.** İki qonşu olmayan səslərin və ya səs birləşməsinin növbələşərək səsləndirilməsi.

**TRİO** (italyan: *trio, tre* - üç) - *1.* Üç ifaçıdan ibarət *ansambl; vokal musiqidə - terset. 2.* Üç ifaçı üçün nəzərdə tutulan, hər birinin ayrıca *partiyası* olan musiqi əsəri. *Bax: Muğam üçlüyü. 3. Üçhissəli formada* yazılmış musiqi əsərlərində orta bölmənin adı. Qədim dövrlərdə instrumental musiqi əsərlərində kənar hissələr ork. tərəfindən, orta bölmə isə kontrast səslənmə yaratmaq üçün üç ifaçı tərəfindən ifa olunduğuna görə belə adlandırılırdı.

**TRİOL** (latın: *tres* - üç) - üç notdan ibarət xüsusi ritmik fiqur; uzunluğuna görə iki eyni şəkilli nota bərabərdir.

**TRİXORD** (yunan. *treis* - üç, *chorde* - sim) - üç pillədən ibarət diatonik səssırası, adətən, tersiya və ya kvarta intervalı həcmində olur.

**TRİTON** (italyan: *tritono* - üç tondan ibarət) - *1.* Artırılmış kvarta intervalı - 4 pilləni əhatə edən, üç tona bərabər interval; intervalın xüsusi növü kimi diatonik səssırasında özünü göstərir. Xromatik interval kimi əksildilmiş kvintaya bərabərdir. *2.* Əksildilmiş kvinta intervalı - 5 pilləni əhatə edən, üç tona bərabər interval. Artırılmış kvartanın dönməsi.

**TULUM** - qədim dövrlərdə yaranmış xalq nəfəsli musiqi aləti.

Müxtəlif ölkələrdə rast gəlinir: volınka - rus; duda - ukrayna, belorus; qudastviri - gürcü; sarnay - çuvaş; koza - polyak; dudı - çex; piffero - italyan; qayda - türk, bolqar; kornemyuz - fransız; zakpfeyfe - alman; baqpayn - ingilis.



*Tulum - qədim dövrdə geniş yayılmış nəfəsli musiqi aləti*

**TUSİ** - Şərq xalqları musiqisində: "Mahur" dəstgahına mənsub muğam guşəsi.

**TUŞE** - simli alətlərdə istifadə olunan ifaçılıq üsulu.

*Tütək*



**TÜTƏK** - nəfəsli musiqi aləti. Qarğı, ya içi boş çubuqdan düzəldilir. Quş dimdiyi tərzində olan bir ucuna ağacdan yonulmuş tıxac nəsb olunur. Tütəyin qabaq (üst) tərəfində 7 dəlik açılır ki, bunların qapanıb açılması ilə də səslərin ucalığı dəyişilir. Bir dəlik də tütəyin dal (alt) tərəfində olur. Tütəyin səsdüzümü diatonik, diapazonu isə bir oktava həcmindədir. Tütək əsas etibarı ilə çobanların daha çox çaldıqları musiqi alətidir. ■

## U

**UYĞUNLUQ, AHƏNG** - müxtəlif yüksəkliyə malik səslərin harmonik cəhətdən uzlaşaraq, gözəl səslənmə əmələ gətirməsi.

**UD** - Yaxın Şərq xalqlarının mizrabla çalınan ən qədim simli, dartımlı musiqi aləti. Ərəbistan, Türkiyə və qismən İran ölkələrində çox geniş intişar tapmışdır. Orta əsrlərdə bütün Yaxın Şərq xalqları musiqisində udun tutduğu mövqe Avropa musiqisində klavesinin tutduğu yer qədər əhəmiyyətli olmuşdur.

Ud əsrlər boyu müxtəlif surətdə islah edilmiş və onun konstruksiyası tez-tez dəyişdirilərək təkmilləşdirilmişdir.

Müasir ud altı simli musiqi alətidir. Bunlardan beşi qoşa, altıncısı isə tək qoşulur. Simlərin düzülüş və yerləşdirilməsi çox qəribədir: ortada melodik, yəni musiqinin əsil havasını (modulyasiyasını) çalan simlər, yanlardan isə (hər iki tərəfdən dəm saxlayan) bəm simlər (alikvot simlər) qoşulur.

**USTADNAMƏ** - xalq aşıq yaradıcılığında qoşma və gəraylılardan ibarət dastan müqəddiməsi. Tərbiyəvi, əxlaqi və nəsihətamiz məzmunda olur. Həyat, məişət və ictimai motivlərdən bəhs edir.

**UNİSON** (italyan: *unisono*; latın: *unus* - bir + *sonus* - səs) - birsəslilik; iki və ya üç səsin







*Ud alətinin ifaçısı Məşədi Cəmil Əmirov (solda)*

eyni vaxtda bir ucalıqda səslənməsi; bir neçə ifaçının birlikdə eyni musiqini ifa etməsi.

**UVERTÜRA** (fransız: *ouverture; ouvertur* - açmaq) - *1.* Musiqili səhnə əsərinin giriş hissəsi; əsərin ideya və məzmununu əks etdirən mövzulara əsaslanır; tamaşaçının diqqətini əsərin xarakterinə yönəldir; əsərin emosional mühitini hazırlayır; *2.* Simfonik musiqinin bir janrı; *3.* Birhissəli, adətən, sonata formasında qurulan simfonik əsər.

**UŞAQ MUSİQİ MƏKTƏBİ** - musiqi təhsili müəssisəsi; musiqi təhsilinin ibtidai pilləsi. *Bax: Musiqi təhsili.*

**UZUNDƏRƏ** - Azərb. xalq rəqsi. Ağdam rayonunda Qərvənd kəndi ilə Ağdam arasında "Uzun dərə" adlanan yer adı ilə bağlıdır. Musiqi ölçüsü 6/8, melodiyası ifadəlidir. Üzeyir Hacıbəyov "O olmasın, bu olsun" musiqili komediyasında Məşədi İbadın mahnısında bu melodiyadan istifadə etmişdir. ■

## Ü

**ÜÇHƏMSƏDA** - *bax: Üçsəsli.*

**ÜÇHİSSƏLİ FORMA** - musiqi əsərlərində çox geniş tətbiq olunan forma. Üç bölmədən ibarətdir, 1-ci və 3-cü hissələr eyni musiqi materialına əsaslanır, 2-ci hissə kontrastlıq təşkil edir. Sxemi bu şəkildədir: A - B - A. Azərb. musiqisində xalq rəqsləri, rəng və təsniflər çox zaman üçhissəli formada olur.

**ÜÇSƏSLİ** - *bax: akkord*

**ÜÇSƏSLİLİK** - üç müstəqil melodik xəttdən ibarət polifonik faktura.

**ÜFLƏMƏ ALƏTLƏR** - *bax: Nəfəs alətləri*

**ÜN** - səs, avaz, vokal səs.

**ÜST MİZRAB** - tar ifaçılığı təcrübəsində istifadə olunan ifaçılıq üsulu; mizrabın simlər üzərinə hər dəfə yalnız üstdən, yuxarıdan aşağı vurulmasından ibarətdir.

**ÜŞŞAQ** (hərfi mənası: aşiqlər, aşiq - məşuq) - *1.* Orta əsrlərdə Şərq xalqları musiqisinin əsasını təşkil edən 12 əsas muğamdan biri; *2.* Müasir muğam ifaçılığında rast məqamının mayasına əsaslanan guşələrdən biri. Bu guşənin başlanğıcı dəqiq ölçülü melodik ibarələrlə qurulur, daha sonra isə sərbəst səciyyəli inkişaf verilir. *"Rast"*, *"Mahur-Hindi"*, *"Orta Mahur"* dəstgahlarında "Mayə" şöbəsindən sonra ("Mayə" və "Hüseyni" arasında) ifa olunur.

**ÜZEYIR HACIBƏYOV ADINA AZƏRBAYCAN DÖVLƏT KONSERVATORİYASI, (ADK)** - *bax: Bakı Musiqi Akademiyası.*

**ÜZEYİR HACIBƏYOV ADINA AZƏRBAYCAN DÖVLƏT SİMFONİK ORKESTRİ** - respublikanın ən böyük musiqi kollektivlərindən biri. 1938 ildə ADF nəzdində yaradılmışdır. 1944 ildə orkestrə Üzeyir Hacıbəyovun adı verilmişdir. Uzun illər orkestrin bədii rəhbəri və baş dirijoru Niyazi olmuşdur. Azərb. bəstəkarlarının simfonik musiqisinin yüksək professionallıqla təbliğində orkestrin böyük xidmətləri vardır. Müxtəlif illərdə Bakıya qastrola gəlmiş bir çox görkəmli dirijorlar - N.Raxlin, A.Qauk, L.Ginzburq, A.Staseviç, K.Eliasberq, M.Rostropoviç

və b. dirijorlar orkestrlə işləmişlər. Azərbaycanlı dirijorlardan Ə.İsrafilzadə, Ç.Hacıbəyov, Ə.Bədəlbəyli, K.Abdullayev, Y.Adıgözəlov, F.Kərimov və b. orkestrə dirijorluq etmişlər. Hal-hazırda Azərb. Dövlət Simfonik orkestrinin baş dirijoru xalq artisti, professor Rauf Abdullayevdir.

**ÜZEYİR HACIBƏYOVUN XATİRƏ EV-MUZEYİ** - 1975 ildə Azərb. Respublikasının rəhbəri Heydər Əliyevin təşəbbüsü və bilavasitə iştirakı ilə Bakıda açılmışdır. Ü.Hacıbəyov 1915-1942 illərdə bu evdə yaşamışdır. Muzeydə Ü.Hacıbəyovun həyat və fəaliyyətinin bütün dövrlərini əks etdirən sənədlər, fotoşəkillər, bəstəkarın şəxsi əşyaları, kitabxanası və s. mühafizə olunur. Muzeydə Ü.Hacıbəyovun bəstəkar, dramaturq, publisist, pedaqoq və ictimai xadim kimi zəngin yaradıcılıq irsi təbliğ edilir, elmi-tədqiqat işi aparılır, tematik sərgilər nümayiş etdirilir, yaradıcılıq gecələri, müsabiqələr, incəsənət xadimləri ilə görüşlər keçirilir. Muzeyin direktoru əməkdar incəsənət xadimi (2007), bəstəkar Sərdar Fərəcovdur.

**ÜZRİ** - Orta əsrlərdə zərbi muğam.

**ÜZZAL** - muğam şöbəsi. "Bayatı-Şiraz" dəstgahında "Xavəran" şöbəsindən sonra muğamın sonunda zildə oxunur. ■

# V

**VAHABZADƏ Bəxtiyar Mahmud oğlu** (16.08.1925, Şəki) - xalq şairi, dramaturq, ədəbiyyatşünas, filologiya elmləri doktoru (1964), professor (1965), əməkdar incəsənət xadimi (1974), Dövlət mükafatı laureatı (1976). "Mənim dostlarım" (1949), "Əbədi heykəl" (1953), "Sadə adamlar" (1954), "Ceyran" (1957), "İnsan və zaman" (1964) və s. şeirlər kitabları çap olunmuşdur. Mənəvi zənginliyin, məhəbbət və insanpərvərlik hisslərinin tərənnümü B.Vahabzadənin lirikasının əsas mövzularıdır. Onun "Şəbi-hicran" (1959; Füzuliyə həsr olunmuşdur), "Etiraf" (1961), "Yollar və oğullar" (1963) kimi poemalarında ictimai motivlər, milli azadlıq mübarizəsi ideyaları mühüm yer tutur. B.Vahabzadənin lirikasına xanəndələr çox müraciət edirlər. Xüsusilə, şairin "Muğam" (1975) poeması diqqətəlayiqdir. Burada o, dörd muğam dəstgahından - "Rast", "Şur", "Segah", "Çahargah" muğamlarından söz açmış, onları şeir dili ilə bacarıqla səciyyələndirmişdir. B.Vahabzadə muğamları dərindən duyaraq, onların mahiyyətini dərk edərək, bu möhtəşəm sənət abidələrindən aldığı zövqü böyük yaradıcılıq qüdrəti ilə oxuculara çatdıra bilmişdir.

**VAHİD** (Əliağa Məmmədqulu oğlu İsgəndərovun təxəllüsü; 1895, Bakı - 01.10.1965, Bakı) - xalq şairi, əməkdar incəsənət xadimi (1943). Gənc yaşlarından Bakıdakı "Məcməüş-şüəra" ədəbi məclisində iştirak etmiş, lirik, satirik ruhlu şeirlər yazmışdır. Füzuli ənənələrinin davamçısı olan Vahid müasir Azərb. ədəbiyyatında qəzəl janrının görkəmli nümayəndəsidir. Onun qəzəlləri poetik dilinin sadəliyi, xəlqiliyi və ahəngdarlığı ilə seçilir. Vahidin qəzəlləri xanəndələrin repertuarında mühüm yer tutur. Vahid həmçinin Nizaminin, Xaqaninin, Füzulinin, Nəvainin fars dilində yazılmış qəzəllərini Azərb. dilinə çevirmişdir. Vahidin bədii irsinin təsiri ilə bir çox şairlər qəzəllər, eləcə də Vahidin qəzəllərinə nəzirələr və təxmislər yazmışlar.



*Əliağa Vahid, qəzəlxan şair*

**VAHİD POEZİYA EVİ** - mədəniyyət ocağı. 1995 ildə Əliağa Vahidin anadan olmasının 100 illiyi ərəfəsində təşkil olunmuşdur. Bakıda yerləşir. Qədim Bakının görməli yerlərindən biri olan keçmiş "Qubernator bağı" ərazisindədir. Həmin bağa Əliağa Vahidin adı verilmiş və bağın ən görkəmli yerində Əliağa Vahidin büstü qoyulmuşdur. Fəaliyyət göstərdiyi müddətdə Vahid Poeziya evində Azərb. poeziya və ədəbiyyatında, mədəniyyət və incəsənətində xidmətləri olan insanların xatirə gecələri, yubileyləri, yeni kitabların təqdimat mərasimləri keçirilir və bu ənənə bu gün də davam etdirilir. Yarandığı gündən Vahid Poeziya evinin direktoru tarzən, ictimai xadim Şahin Verdiyevdir. Vahid Poeziya evində "Vahid" şairlər məclisi yaradılmışdır. Vahid Poeziya evi sənətkarların sevimli ocağına çevrilmişdir. Azərb. görkəmli mədəniyyət xadimləri, ziyalılar, şairlər və muğam ustadları buraya toplaşır, sənət, şeir və musiqi haqqında maraqlı söhbətlər aparırlar.







*Nizami adına Ədəbiyyat Muzeyi*

**"VAHİD" şairlər məclisi** - XX əsrin sonlarından başlayaraq, Bakıda fəaliyyət göstərən ədəbi məclis. Vahid Poeziya evinin nəzdində yaradılmışdır. Məclisə Əliağa Vahidin şəxsi həkimi və yaxın dostu olmuş, Vahidin poetik ənənələrinin davamçısı, gözəl qəzəllər müəllifi Həkim Qəni rəhbərlik etmişdir. Onun vəfatından sonra hal-hazırda məclisə şair, jurnalist Hacı Rafiq Əliyev başçılıq edir. Məclis Azərb. qəzəlxan şairlərini, muğam ustadlarını öz ətrafına toplamışdır.

**VAQİF Molla Pənah** (1717, Qazax r-nu, Salahlı kəndi - 1797, Şuşa) - Azərb. şairi, dövlət xadimi. Mədrəsədə təhsil almış, fars və ərəb dillərini öyrənmişdir. 1769 ildə Qarabağ hakimi İbrahim xanın sarayına dəvət edilmiş, əvvəlcə eşikağası, sonra baş vəzir olmuşdur. Vaqifin yaradıcılığı Azərb. poeziyası tarixində mühüm mərhələlərdən biridir. Klassik Şərq şeirini dərindən bilən Vaqif qəzəl, müxəmməs, müstəzad və s. formalarda əsərlər yazmışdır. Lakin o, şifahi xalq ədəbiyyatı, aşıq şeiri ilə daha çox bağlı olmuş, təcnisləri, xüsusən, qoşmaları ilə milli poeziyanı zənginləşdirmişdir. O, klassik poeziya ilə xalq şeirini üzvi şəkildə birləşdirməyə nail olmuşdur. "Bulud zülflü, ay qabaqlı gözəlin", "Sevdiyim, ləblərin yaquta bənzər", "Kür qırağının əcəb seyrəngahı var", "Bir zaman havada qanad saxlayın" və s. qoşmaları, "Bax" rədifli qəzəli, "Görmədim" müxəmməsi Vaqif lirikasının ən məşhur nümunələrindəndir. Gözəllərin vəsfi, nikbinlik, həyatsevərlik Vaqif poeziyasının əsas motivləridir. Muğam ifaçılığında Vaqifin poeziyasına çox müraciət olunur. Vaqifin şəxsiyyətinə həsr olunmuş bir sıra bədii əsərlər də yaranmışdır. Y.V.Çəmənzəminlinin "İki od arasında" tarixi romanı, Səməd Vurğunun "Vaqif" pyesi, R.Mustafayevin "Vaqif" operası və s. əsərlər bu qəbildəndir.

**VAMBERİ Armini** (German; 19.03.1832, Presburq ş., Duna-Çerda-Geli - 15.09.1913) - macar türkoloqu, dilçi, etnoqraf və səyyah. Macarıstan EA müxbir üzvü (1861), Budapeşt universitetinin professoru (1865). 20-dən çox Avropa və Şərq dillərini bilmiş, uzun müddət Şərq ölkələrini gəzmişdir. "Uyğur dili abidələri və "Kutadqu biliq" (1870), "Türk dillərinin etimoloji lüğəti" (1878), "Qədim türk dilinin tədqiqi" (1901) və s. əsərlərin müəllifidir. "Əmir Teymur" əsəri Azərb. dilinə tərcümə olunmuşdur.

**VAMİQ** - orta əsrlərdə 12 əsas muğamdan əlavə qeyd olunan zərbi muğamlardan biri.

**VARİANT, variantlıq** - hər hansı bir bədii əsərin müxtəlif şəkildə işlənmiş forması. Bəstəkar yaradıcılığında bir əsərin bir neçə redaksiyada işlənilməsinə rast gəlinir. Geniş mənada, eyni bir əsərin əlyazma surətləri və çap nüsxələri arasındakı bütün mətn fərqlərinin nəzərə alınması. Eyni bir əsərin ayrı-ayrı ifaçılar tərəfindən təfsiri variant adlanır. Eyni əsər eyni sənətkar tərəfindən müxtəlif variantda ifa olunur. Variantlıq şifahi ənənəli musiqi yaradıcılığının və improvizasiya prosesinin vacib amilidir.

**VARİASİYA** (latın: *variatio* - dəyişmə, təbdil) - ***1.*** musiqi mövzusunun, melodiya, yaxud onun müşayiətinin dəyişikliyə uğraması; ***2.*** formaca tamamlanmış musiqi mövzusu və onun dəyişikliyə uğramış bir sıra təkrarı. Variasiya formasında musiqi obrazının müxtəlif cəhətləri yeni cizgilərlə zənginləşərək, tədricən açılır, inkişaf edir, bəzən ilk şərhindən tamamilə fərqlənən yeni xarakter kəsb edir. Variasiyanın mənşəyi xalq yaradıcılığı ilə bağlıdır. Azərb. bəstəkarlarının variasiya formasında əsərləri var. Variasiya muğam sənətində mühüm əhəmiyyətli amildir. Muğam şöbələri virtuoz ifaçılar tərəfindən müəyyən bir mövzu əsasında improvizə olunaraq yaradılır.

**VEREŞŞAGİN Vasili Vasilyeviç** (26.10.1842, Novqorod quberniyası, Çerepovets - 13.04.1904, Port-Artur) - rus rəssamı. Peterburq Rəssamlıq Akademiyasında (1860-1863) və Parisdə (1864-1865) oxumuşdur. Vereşşagin dünyanın bir çox ölkələrinə (Qərbi Avropa, Suriya, Fələstin, Hin-





*Rəssam V.V. Vereşşaginin 1865 ildə Qarabağa səyahət zamanı çəkdiyi rəsmlər*

distan, Yaponiya, ABŞ) səyahətə getmiş, Rusiya-Türkiyə (1877-1878) və Rusiya-Yaponiya (1904-1905) müharibələrində iştirak etmişdir. Rəssam əsərlərini başlıca olaraq naturadan çəkmişdir. Batal janrında hərbi döyüş səhnələrini təsvir edən əsərlərlə yanaşı ("Hücumdan sonra. Pleven yaxınlığında sarğı məntəqəsi" (1868), "Müharibə apofeozu", "Şadyanalıq edirlər" (1872) - Tretyakov qalereyası, Moskva ), eləcə də, müxtəlif ölkələrlə bağlı silsilə əsərlər ("Türküstan silsiləsi", "Balkan silsiləsi" bə s.) yaratmışdır. Vereşşagin Azərb. xalqının həyat və məişətini, memarlıq abidələrini əks etdirən rəsmlərin, "Şuşada müsəlmanların dini mərasimi" (1865) kompozisiyasının, portretlərin müəllifidir; bu əsərlər dünyanın müxtəlif muzeylərində saxlanılır. Rəssamın Azərb. xalqı və şəhərləri haqqında maraqlı yazıları vardır.

**VƏTƏD** - *1.* vəzn bəhsində təqti vurğu; musiqidə bəhr prosodiyası, yəni ayrı - ayrı musiqi səslərinin uzun - qısalığı ilə əlaqədar olaraq əmələ gələn təfilələrin düzülüş qaydası; *2.* İki zərbdən ibarət ölçü: a) vətəd-i-məcmu - iki heca və bir lal səsdən ibarət ölçü (tənən); b) vətəd-i-məfruq - ikihecalı vurğunun bir lal səs vasitəsi ilə biri - birindən ayrı (qırıq) bəhri (tənə).

**VƏTƏR** (ərəb) - sim.

**VƏZİROV Səfərəli Ağarza oğlu** (28.04.1929, Xızı, Dizəvər k. - 09.11. 1982, Bakı) - qarmon ifaçısı. Qarmon çalmağı atasından öyrənmiş, daha sonra məşhur qarmonçu Kor Əhəddən (1893-1942) və Teyyub Dəmirovdan (1908-1970) dərs almış, ondan musiqi, ifaçılıq sənətinin sirlərini daha mükəmməl mənimsəmişdir. Az müddətdə el arasında öz dəst-xətti ilə tanınan Səfərəli qarmon ifaçılığını təkmilləşdirməklə bərabər 1948 ildə Xalq Təsərrüfatı İnstituna qəbul olunur. Tələbə ikən institutda yaratdığı x.ç.a. ansamblına rəhbərlik edir. 1951 ildə Polşada keçirilən Beynəlxalq musiqi festivalının qalibi olur. Onun ifasında 1953 ildə lentə alınmış bir sıra muğam ("Çahargah" dəstgahı) və rəqslər ("Qazaxı", "Kolxozu", "Azərbaycan", "14 nömrə", "Qaytağı", "Tərəkəmə", "Vağzalı"), həmçinin özünün bəstələdiyi "Pambıq çöllərində" kompozisiyası AzTR Fondunda qorunur. S.Vəzirovun oğlanları - Ədalət, Kamil, Ramiz, Babək, Qalib musiqi aləmində tanınmış musiqi ifaçılarıdır.

**VƏZİROV Ədalət Səfərəli oğlu** (27.04.1951, Bakı - 05.10. 2002 Bakı) - kamança ifaçısı, əməkdar artist. Ə.Vəzirov Bülbül ad. Orta İxtisas Musiqi Məktəbində (1968) və ADK-da təhsil alıb (1974). O, 1974 ildə Moskvada keçirilən V Beynəlxalq Musiqi müsabiqəsinin qalibi olub. 1980 ildən ADK-da və Sumqayıt Musiqi Texnikumunda (2000-2002 illərdə direktor) müəllim işləyib, bir çox adlı-sanlı tələbələr yetişdirib. O, uzun müddət əməkdar artist Baba Salahovun (1923-1982) rəhbərlik etdiyi x.ç.a. ansamblında, SSRİ xalq artisti Zeynəb Xanlarovanın rəhbərlik etdiyi ansamblda çalışmışdır. Bir çox xarici ölkələrdə - ABŞ, Kanada, İraq, Misir, Türkiyədə ifaçılıq sənətimizi yüksək səviyyədə nüma-







*Ədalət Vəzirov, kamança ifaçısı*

yiş etdirib. Ə.Vəzirov kamança ifaçılığından əlavə peşəkar fortepiano və qarmon ifaçısı idi. O, xalq mahnı, rəqs, rəng və təsniflərini, muğamları mükəmməl ifa etmək, üçlükdə xanəndəni, tarzəni düzgün müşayiət etməklə yanaşı, Azərb. və dünya bəstəkarlarının əsərlərini yüksək səviyyədə ifa etmək bacarığına malik bir ifaçı olmuşdur.

**VƏZN** (ölçü) - vurğulu və ya vurğusuz hecaların sayı, yaxud uzun və qısa hecaların düzülüş qaydasıdır. *1.* Heca vəzni - şeirdə ritmik hissələrin - vurğuların növbələşməsinə əsaslanan vəzndir (aşıq yaradıcılığı, beşik mahnıları, bayatılar və s. bu vəzndə qurulur). *2.* Əruz vəzni - ərəb klassik şeirindən Azərb. poeziyasına keçmişdir. Əruz vəzninin əsasını hecaların uzadılması və qısa söylənməsi, mütənasib növbələşməsi təşkil edir. Əruz vəzninin 20-yə qədər bəhri var: həzəc, rəməl, müzare, bəhri-təvil və s. Muğam sənətində əruz vəznindən istifadə olunur. Muğam melodiyasının quruluşu əruzun ritmik xüsusiyyətlərinə uyğun yaradılır.

**VİBRASİYA** (italyan: *vibrato* - titrətmə, əsmə) - arabir səsin yüksəkliyi, tembri, gücünün dəyişməsidir. Vibrasiyanın sürəti əsərin tembrini zənginləşdirir, ona emosionallıq və dinamiklik verir.

**VİLAYƏTİ** - muğam şöbəsi. "*Rast*" və "*Mahur-Hindi*" dəstgahlarında ifa olunan əsas şöbələrdən biridir. "*Mayeyi-Rast*"dan kvinta (beş pillə yuxarı) münasibətində yerləşir. Bu şöbənin musiqisi bir qədər həyəcanlı əhval-ruhiyyəlidir, musiqi məzmununa şur məqam-intonasiyalarının daxil olunması ilə səciyyələnir. Ümumiyyətlə, "Vilayəti" - "Rast" muğam dəstgahının daxilində şur məqamına keçmək imkanı yaradan bir şöbədir. Dəstgahın məhz bu hissəsində bəzən "şur" mühitini dərinləşdirmək və lirik xarakterli səslənmə yaratmaq üçün "*Dilkəş*" şöbəsi ona əlavə edilir və yaxud "*Şahnaz*" muğamından istifadə olunur.

**VİNOQRADOV Viktor Sergeyeviç** (1899-1981) - rus musiqişünası, ictimai xadim. Qırğızıstan respublikası əməkdar incəsənət xadimi (1957). Moskva konservatoriyası nəzdindəki Müqəddəs işçi konservatoriyasının işçi fakültəsinin ilk təşkilatçılarından biri (1923, onun ilk direktoru), YUNESKO-nun xalq musiqisinin beynəlxalq şurasının üzvü (1953), "Asiya və Afrika xalqlarının musiqisi" seriyasının baş redaktoru olmuşdur. V.Vinoqradovun Şərq klassik musiqisi ("İran musiqisinin klassik ənənələri"), Azərb. musiqisi ilə bağlı dəyərli tədqiqatları vardır. Ü.Hacıbəyov haqqında ilk monoqrafiyanın ("Üzeyir Hacıbəyov və Azərb. musiqisi", Moskva, 1938) müəllifidir. Monoqrafiyada Azərb. musiqi mədəniyyətinin tarixi inkişafında Ü.Hacıbəyovun yaradıcılığının əhəmiyyəti göstərilir, muğam və aşıq sənəti, xalq mahnı və rəqsləri, məqam sistemi xarakterizə edilir. V.Vinoqradov Azərb. musiqi həyatını, xalq musiqiçilərinin yaradıcılığını səciyyələndirərək, Şuşanın mədəniyyət mərkəzi kimi rolunu belə açıqlamışdır: "Şuşa musiqi istedadlarının beşiyi idi. Şuşa musiqiçiləri Azərb. musiqisinin tarixini yaratmış və onu yalnız öz vətənlərində deyil, həm də Şərqin bağqa ölkələrində təmsil etmişlər".

**VİRTUOZ** (italyan: *virtuoso*; latın: *virtus* - hünər, istedad) - musiqi əsərlərini texniki və bədii cəhətdən sərbəstliklə və məharətlə ifa edən musiqi ifaçısı.

**VOKAL musiqi** (italyan: *vocale* - səsli) - instrumental müşayiətlə və ya müşayiətsiz oxumaq üçün musiqi.

**VOSTRİKOV P.** - rus etnoqrafı. "Materialı dlya opisaniya mestnosti i plemyon Kavkaza" (Tiflis, 1912, buraxılış 42) jurnalında çap olunmuş "Muzıka i pesni Azerbaydjanskix tatar" məqaləsi Azərb. musiqisinin üç əsas təbəqəsini təşkil edən muğam, aşıq və mahnı yaradıcılığına həsr olunmuşdur. Müəllif tar, kamança, saz, zurna, dəf, ney, qaval, nağara kimi alətləri təsvir etmiş, sazəndə və aşıq dəstələrini, onların repertuarını, fəaliyyət göstərdikləri mühiti səciyyələndirmişdir.

**VÜSTA** (ərəb) - orta barmaq.

**"VÜZUHÜL-ƏRQAM"** - *bax: Mir Möhsün Nəvvab.* ■

# Y

**YALLI** - Azərb. xalq rəqs sənətinin ən qədim növü. Yallı rəqsi böyük bir dəstənin birgə iştirakı ilə ifa olunur. Dəstənin başında, bir qayda olaraq, əlindəki yaylığı (dəsmalı) yelləda-yelləd qabaqda gedən "yallıbaşı" durur. Başqa iştirakçılar isə qollarını açaraq bir-birilərinin çeçələ barmağından tutur, ya da əllərini bir-birilərinin çiyninə qoyub "canlı zəncir" yaradırlar. Yallı rəqsi üç hissədən ibarətdir: rəqs əvvəlcə təntənəli və aram addımlarla başlanır, getdikcə sürəti artmağa başlayır və texniki cəhətdən mürəkkəb tullanma hərəkətləri ilə davam etdirildikdən sonra əvvəlki təntənəli və aram yürüşlə tamamlanır.

**YARADICILIQ** - əvvəllər mövcud olmayan, keyfiyyətcə yeni bir iş meydana gətirən fəaliyyət. Yaradıcılıq insan fəaliyyətinin hər hansı bir sahəsində (elm, istehsalat, bədii, siyasi və s.) mümkündür. Musiqi yaradıcılığı, muğam peşəkar musiqiçilərin yaradıcılığı hesab olunur.

**YARIMTON** - müxtəlif yüksəklikdə yerləşən iki səs arasındakı ən yaxın məsafə. Musiqidə ölçü vahidi kimi istifadə olunur. İntervalın həcmi yarımtonlarla (və ya tonlarla) ölçülür. Bərabər (müntəzəm) temperasiyalı sistemdə oktava 12 yarımtondan ibarətdir. Yarımtonun iki növü var: Diatonik yarımton - ladın iki qonşu pilləsi arasında əmələ gəlir: məsələn, mi-fa; sol-lya bemol. Xromatik yarımton - ladın hər hansı pilləsi ilə onun dəyişilmiş şəkli arasında əmələ gəlir: məsələn, do-do diyez, si-si bemol.

**YARDIMÇI SƏS** - ***1.*** melodik fiqurasiyanın elementi, akkord səsində sekunda yuxarıda və ya aşağıda yerləşir, iki akkord səsinin ardıcıl təkrarları arasında tətbiq olunur. ***2.*** Melizmlərin tərkibindəki not; yazılmış əsas notdan sekunda yuxarı və aşağı yerləşir.

**YEGAH** - "Aşağı" oktavanın (*Divani-əvvəl*) birinci pilləsi. XX əsr görkəmli türk musiqişünası Rauf Yektabəy orta əsr musiqi alimi Əbu-Nəsr Fərabinin (870-950) kitabına əsaslanaraq yegahı "ən bəm səs" adlandırır və kiçik oktavanın *re* notundan ibarət olduğunu qeyd edir. XIX əsr ərəb musiqişünası Mikayıl Meshal "Risalat-əs-şəhabiyyat fi qənaat-əl-musiqi" (Beyrut, 1830) divanında oktavanı 24 pərdəyə böldükdə aşağı oktavanın birinci pərdəsini yegah adlandırır. XX əsr məşhur Misir musiqişünası Şeyx Məhəmməd ibn İsmayıl Şəhabəddin "Səfinat-ül-mülk" ("Hakimiyyət gəmisi") adlı musiqi kitabında diatonik səsdüzümünün yenə də birinci notunu "yegah" deyə qeyd edir.

**YESENİN Sergey Aleksandroviç** (03.10.1895, Ryazan, Konstantinovo k. (indiki Yesenino) - 28.12.1925, Moskva) - rus şairi. Rus həyatının, rus təbiətinin ilhamlı tərənnümçüsü olmuşdur. "Coşğunluq", "Qüdrətli", "Səma təbilçisi" və s. poemaların, çoxsaylı şeirlərin müəllifidir. Yesenin 1924-1925 illərdə Bakıda olmuş, bir müddət Mərdəkanda yaşamışdır. "Anna Snegina" poeması, "İran nəğmələri" şeirlər silsiləsini burada yazmış, Azərb.-na şeirlər həsr etmişdir ("Qitələr", "Əlvida Bakı" və s.). O, Şuşadakı musiqi mühitini, burada yaşayan insanların istedadını dəyərləndirərək yazmışdır: "Əgər biri oxumağı bacarmırsa, deməli, şuşalı deyil".



*Sergey Yesenin, rus şairi*

**YETİM SEGAH** - Azərb. şifahi ənənəli professional musiqisində muğam adı. ***"Segah"*** muğamının bir variantıdır. ***Xaric segah*** kökündə ifa olunur. Adətən, dinləyicidə kədərli əhval-ruhiyyə oyada biləcək üslubda ifa olunan muğamı belə adlandırırlar.

**YƏDİ HASAR** - muğam guşəsi. "Zabul Segahı" dəstgahında "Əraq" ilə "Aşiqi-guş" şöbələri arasında yerləşir.





**YUNESKO** (UNESCO; ingiliscə: *United Nations Educational, Scientific and Cultural Organization* sözlərinin ixtisarı) - Birləşmiş Millətlər Təşkilatının (BMT) maarif, elm və mədəniyyət işlərinə baxan ixtisaslaşdırılmış hökumətlərarası təşkilatı. 1945 ildə yaradılmış, 1946 ildən fəaliyyətə başlamışdır. Ali orqanı Baş konfransdır, sessiyaları ildə iki dəfə çağırılır. Katibliyi Parisdədir. Dünyanın 150-dən artıq ölkəsi YUNESKO-nun üzvüdür. Azərb. 1954 ildə SSRİ-nin tərkibində YUNESKO-ya daxil olmuşdur. 1992 ildən müstəqil respublika kimi YUNESKO-nun üzvüdür. YUNESKO yanında Azərb. Milli Komissiyası fəaliyyət göstərir. Komissiyanın başçısı Elianora Hüseynovadır. Azərb. Respublikasının nümayəndə heyəti YUNESKO-nun işində yaxından iştirak edir. 2004 il avqustun 13-də Azərb. şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz səylərinə görə Azərb. birinci xanımı Mehriban Əliyeva YUNESKO-nun Xoşməramlı səfiri adına layiq görülmüşdür.

YUNESKO xətti ilə Azərb. bir sıra görkəmli şair və yazıçılarının, elm, musiqi və mədəniyyət xadimlərinin yubileyləri beynəlxalq miqyasda qeyd olunmuşdur: Nəsiminin 600 illiyi (1973), Dədə Qorqudun 1300 (1999) illiyi, Üzeyir Hacıbəyovun 100 illiyi (1985), Lətif Kərimovun 100 illiyi (2007), "Leyli və Məcnun" operasının 100 illiyi (2008) və s. 1972 ildə "Ümumdünya mədəni və təbii sərvətlərinin qorunması haqqında" YUNESKO-nun konvensiyası qəbul olunmuşdur. Bunun əsas ideyası ondan ibarətdir ki, bir sıra mədəni və təbii sərvətlər bütün dünya üçün böyük maraq kəsb etdiyinə görə bəşəri irsin bir hissəsi hesab olunmalıdır. Bu konvensiyanın əsasında Bəşəri irsin siyahısı tərtib olunmuşdur ki, hal-hazırda həmin siyahıya 700-ə yaxın təbii və mədəni obyektlər daxildir. YUNESKO tərəfindən qeyri-maddi mədəni irsin qorunmasına dair normativ sənəd də qəbul olunmuşdur ki, bu da şifahi ədəbi və musiqi yaradıcılığının, rəqslərin, ayin və mərasimlərin, ənənəvi xalq festival və karnavallarının, eləcə də, bütün bunları ənənəvi şəkildə yaşadan mədəni mühitin qorunması ilə bağlıdır. Bununla əlaqədar olaraq, "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şedevrləri" proqramı həyata keçirilir. Bu proqram müasir dövrdə itməkdə olan bəşər mədəniyyətinin ən şah əsərlərinin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi, insanların diqqətinin bu abidələrə yönəldilməsi, dünyanın rəngarəng mədəni xəzinəsində hər bir milli mədəniyyətin yerinin möhkəmləndirilməsi məqsədini daşıyır. 2002 ildə YUNESKO yanında Azərb. Milli Komissiyası tərəfindən Azərb. muğamının bu siyahıya daxil edilməsi haqqında qərar verilmiş, təşkilatın eksperti, fransız musiqişünası Jan Dürinq və azərb. musiqişünas, sənətşünaslıq namizədi Sənubər Bağırova tərəfindən bu məsələ ilə bağlı tələb olunan xüsusi sənədlər hazırlanaraq, beynəlxalq təşkilata təqdim edilmişdir. 2003 il noyabrın 7-də beynəlxalq münsiflər heyəti tərəfindən Azərb. muğamı "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin şah əsəri" elan olunmuşdur. YUNESKO-nun dəstəyi ilə Azərb. dövlət səviyyəsində muğamın ənənələrinin qorunması, inkişaf etdirilməsi istiqamətində

*YUNESKO-nun "Əbədi muğam" layihəsi çərçivəsində İçəri Şəhərdə keçirilən muğam konserti.*



mühüm tədbirlər həyata keçirilir. Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə "Əbədi muğam" layihəsi hazırlanaraq, həyata keçirilməkdədir. Bu layihənin reallaşmasında Azərbaycan Respublikasının Mədəniyyət və Turizim Nazirliyi fəaliyyət göstərir. Layihənin koordinatoru sənətşünaslıq namizədi Lalə Kazımovadır. Layihənin həyata keçirilməsində musiqişünas Cahangir Səlimxanov iştirak edir. YUNESKO-nun bu layihəsi əsasən iki istiqaməti əhatə edir: 1) muğamın ifası və ötürülməsinin zəruriliyi, muğam mühitinin yaradılması məqsədilə muğam ifaçıları və biliciləri ilə ictimai görüşlərin keçirilməsi. 2) muğamların texniki vasitələrlə yazılması və mövcud səsyazılarının bərpası. Bu layihə çərçivəsində respublikanın şəhər və rayonlarında muğam konsertləri keçirilir, muğam ifaçılarının ustad dərsləri və seminarlar təşkil olunur. O cümlədən İçəri şəhərdə Şirvanşahlar sarayında mütəmadi olaraq keçirilən muğam konsertləri yeni nəsil muğam ifaçıları üçün sənətkarlıq məktəbinə çevrilir. Xarici ölkələrdə gənc muğam ifaçılarının konsertlərinin təşkili də bu layihəyə daxildir. Bundan əlavə layihənin ikinci istiqaməti ilə bağlı olaraq Azərbaycan Dövlət Səsyazmaları arxivində və AzTR Fondunda saxlanılan səsyazılarının bərpası və rəqəmsal CD-DVD formatda nəşri və yeni səsyazılarını buraxılması mühüm əhəmiyyət kəsb edir. Son nəticədə bütün bunlar əsasında muğam üzrə elmi sənədləşdirmə bazasının yaradılması nəzərdə tutulur.

YUNESKO xətti ilə muğam ifaçılarının səsyazılarının qrammofon vallarında buraxılması ənənəvi hal almışdır. 1970 illərdə tarzən Bəhram Mansurovun ifasında bütün Azərb. muğamları Hollandiyada qrammofon valına yazılmışdır. O cümlədən, bir çox Azərb. xanəndələrinin, tarzən və kamança ifaçılarının səsyazılarından ibarət qrammofon valları, CD-disklər buraxılmışdır. YUNESKO tərəfindən şifahi ənənəli professional musiqi irsinin öyrənilməsi ilə bağlı beynəlxalq *simpoziumlar* da keçirilir.

**YÜKSƏKLİK** - səsin xassələrindən biri. Səslənən cismin titrəyiş tezliyinin nəticəsində əldə olunur. Səsin yüksəkliyi saniyədə titrəyişin miqdarı ilə ölçülür (bax: *Kamerton*). Musiqidə səslərin yüksəkliyinin bir-birinə münasibətindən mürəkkəb məntiqi musiqi əlaqələri yaranır: mütləq yüksəklik, səsin yüksəkliyi, nisbi yüksəklik. ■

# Z

**ZABUL** (zabol, zaboli) - Şərq xalqlarının musiqisində muğam adı. **1.** Orta əsrlərdə Şərq xalqlarının musiqisində mövcud olan 24 muğam şöbəsindən biri. Əbdülqadir Marağainin əsərlərində "Zabul" şöbəsinin adı çəkilir və onun "Segah" şöbəsinə bənzədiyi göstərilir; **2.** XIX əsrin muğam ifaçılığında "*Zabul dəstgahı*" adlı muğam olmuşdur. **3.** "*Çahargah*" dəstgahında "*Segah*" ilə "*Yədi-hasar*" arasındakı şöbə; **4.** Müasir ifaçılıq təcrübəsində muğam şöbəsi kimi "*Zabul Segah*" muğamının əsasını təşkil edir.

**ZABUL DƏSTGAHI** - "Bərdaşt", "Mayeyi- Zabul", "Muyə", "Manəndi-müxalif", "Segah", "Məxlut", "Şikəsteyi-fars", "Mübərriqə", "Əraq", "Yədi-Həsar", "Aşiqi-guş" və "Zabul" şöbələrindən ibarət dəstgah. M.Mansurovun ifasından "Zabul dəstgahı" T.Quliyev tərəfindən bu tərkibdə nota yazılıb çap edilmişdir (1936).

**ZABUL SEGAH** - muğam. Azərb. şifahi ənənəli musiqi irsində ən böyük muğam dəstgahlardan biri. "Segah" muğam ailəsinə daxildir. "Segah" muğamının variantlarından biridir. Mi (kiçik oktava) mayəli segah məqamına əsaslanır. Məcmusu: "Mayeyi-Zabul", "Muyə", "Manəndi-müxalif", "Segah" ("Orta segah"), "Məxluq", "Şikəsteyi-fars", "Mübərriqə", "Əraq", "Yədi-hasar", "Aşiqi-guş" şöbələrindən ibarətdir.

**ZAKİR QASIM BƏY** (Qasım bəy Əli bəy oğlu Cavanşirin təxəllüsü; 1784, Şuşa - 1857, Şuşa) - Azərb. şairi. Mollaxanada təhsil almış, ərəb və fars dillərini, həmçinin klassik Şərq ədəbiyyatını öyrənmişdir. Zakir XIX əsrin I yarısında Azərb. ədəbiyyatında tənqidi realizmin görkəmli nümayəndəsi, klassik şeir ənənələrinin davamçısıdır. Satirik şeir və həcvlərin, mənzum hekayələrin və təmsillərin müəllifidir; Zakirin satiraları Azərb. ədəbiyyatının inkişafına mühüm təsir göstərmişdir. Lirik şeirlərində xalq poeziyasının, xüsusilə, Vaqif ənənələrinin təsiri güclüdür. "Ağlaram", "Gözlərin" və s. rədifli qoşmaları aşıq şeirinə yaxındır. "Gözüm yolda qaldı, könlüm intizar", "Dost yolunda cəfa çəkdim, can üzdüm", "Durnalar" və s. şeirlərində ictimai motivlər, dövrdən şikayət əhvali-ruhiyyəsi özünü göstərir. Zakir klassik formalarda - qəzəl, müxəmməs, müstəzad, tərcibənd, tərkibbənd yazmışdır. Şeirlərindən muğam ifaçılığında istifadə olunur.





**ZAKS KURT** (1881-1959) - alman musiqişünası, sənətşünas. 1919 ildən Berlin musiqi alətləri muzeyinin direktorudur, 1920 ildən Ali musiqi məktəbi, Kilsə və məktəb musiqisi akademiyasının professorudur. 1933 ildən Parisdə və digər iri şəhərlərdə etnoqrafik muzeylərdə tədqiqat işləri ilə məşğul olmuşdur. Tədqiqatlarında Azərb. musiqi alətləri ilə bağlı araşdırmalar da yer almışdır. 1937 ildən Nyu-York, 1953 ildən Kolumbiya Universitetlərinin professorudur. Amerika musiqi cəmiyyətinin prezidenti (1950-1952), Amerika etnoqrafik cəmiyyətinin fəxri prezidentidir. Müasir alətşünaslığın əsasını qoyanlardan biri olmuş, qeyri-Avropa xalqlarının musiqisini, qədim dünya musiqisini, incəsənətin qarşılıqlı əlaqələrini tədqiq etmişdir. Azərb. musiqi alətlərinin tədqiqatçıları K.Zaksın əsərlərinə istinad edərək, x.ç.a. təsnifatını aparmışlar.

**ZEYNALLI Asəf Zeynalabdin oğlu** (05.04.1909, Dərbənd - 27.10.1932, Bakı) - bəstəkar. 1923-1926 illərdə ADMM-də təhsil almış, 1931 ildə ADK-nın bəstəkarlıq sinfini bitirmişdir, burada Azərb. xalq musiqisinin əsaslarını Ü.Hacıbəyovdan öyrənmişdir. A.Zeynallı Bakı Türk İşçi Teatrı musiqi şöbəsinin müdiri (1929-1931), Azərb. Proletar Musiqiçilər Birliyinin sədri (1931) olmuş, Moskva və Leninqradda (indiki Sankt-Peterburq) Azərb. musiqisindən ibarət konsertlər təşkil etmişdir. A.Zeynallı Azərb. musiqi mədəniyyəti tarixinə bir sıra yeni janrın (milli romans, uşaq musiqisi və s.), ilk kameravokal, instrumental, simfonik əsərlərin yaradıcısı kimi daxil olmuşdur. O, "Ölkəm", "Sual", "Sərhədçi", "Sual" romanslarının, "Fraqmentlər" simfonik süitasının, "Üşaq süitası"nın, fortepiano üçün "Çahargah" pyesinin, skripka və fortepiano üçün "Muğamsayağı" pyesinin müəllifidir. Azərb. musiqi folklorunun toplanmasında A.Zeynallının mühüm xidmətləri olmuş, o, 50-yə yaxın xalq mahnısını nota köçürmüşdür. A.Zeynallı 1928 ildən ADK nəzdindəki musiqi məktəbində musiqi nəzəriyyəsindən dərs demişdir; Bəstəkarlardan Q.Qarayev, C.Hacıyev, T.Quliyev, Z.Bağırov onun sinfində oxumuşlar. "İbtidai not savadı" (1931) dərsliyinin müəlliflərindən biri olmuşdur. ADMM - (indiki BMK) Asəf Zeynallının adını daşıyır.



*Asəf Zeynallı, bəstəkar*

**ZEYNALOV Bəhruz Mahmud oğlu** (24.12.1926, Bakı - 25.05.1998, Bakı) - balaban və klarnet ifaçısı, əməkdar artist (1982). 1938-1942 illərdə ADMM-də balaban sinfində təhsil almışdır. 1940 ildən Səid Rüstəmov ad. Azərb. x.ç.a. orkestrinin solisti, balaban, klarnet, zurna alətlərinin ifaçısı olmuşdur. Azərb. muğamlarını və bəstəkar əsərlərini balabanda xüsusi bir ilhamla və şövqlə ifa edirdi. AzTR Fondunda balabanda ifa etdiyi instrumental muğamların səsyazısı saxlanılır. 1957-1971 illərdə ADMM-də muğamdan dərs demişdir.

**ZƏLZƏL Mansur ibn Cəfər əd-Darib** (vəfatı: 791) - ərəb musiqiçisi, ud ifaçısı. İbrahim əl-Mausilinin şagirdi olmuşdur. Bağdadda saray musiqiçisi kimi tanınmışdır. Ud alətini təkmilləşdirmiş, onun səssırasına neytral tersiya intervalı artırmışdır ki, bu da musiqi tarixinə "zəlzəl tersiyası" adı ilə daxil olmuşdur.

**ZƏMİN-XARA** (farsca: qayalıq yer, tikanlı torpaq) - muğam şöbəsi. **1.** XIX əsrdə "Rast" dəstgahında "Mənsuriyyə" ilə "Rak-hisar" arasında; "Rahab" dəstgahında "Bayatı-Qacar" ilə "Mavərənnəhr" arasında; "Çahargah" dəstgahında "Mənsuriyyə" ilə "Mavərənnəhr" arasında yerləşən şöbə; **2.** Müasir dövrdə "Şur" muğamında "Səmayi-şəms"dən sonra oxunan şöbə. Musiqi məzmunu son dərəcə yanıqlı, nisgilli və təsirli xarakterə malikdir. Məhz buna görə də dini ayinlərdə oxunan mərsiyələr və minacat əsas etibarı ilə "Zəmin-xara"ya əsaslanır.

**ZƏNGİ-ŞÜTÜR** (və ya zəngi-şötör, farsca: dəvənin boynundan asılan zəng) - muğam şöbəsi. Bir sıra muğamların tərkibinə daxildir: "Rast", "Dügah", "Mahur-Hindi" dəstgahlarının sonunda "Əraq" ilə "Rak" arasında yerləşən şöbə; "Çahargah" və "Nəva" dəstgahlarında "Əşiran" ilə "Kərkuki" arasında ifa olunur.

**ZƏNGULƏ** (farsca: zınqırov, xırda zəng) - **1.** Orta əsrlərdə Şərq xalqlarının klassik musiqisinin əsasını təşkil edən 12 muğamdan biri; **2.** Muğam oxumasında melodiyanın zənginləşdirilməsi

üçün geniş istifadə olunan bəzək üsulu: xanəndə tərəfindən oxunan melodiyada ayrı-ayrı səsin yüksəklik etibarı ilə ona ən yaxın qonşu səslərlə növbələndirilməsinə əsaslanır.

**ZƏRB** (vurğu) - *1.* İki cismin bir-biri ilə toqquşması nəticəsində əldə edilən səs; *2.* İki ya da bir neçə bir bərabərdə, bir ölçüdə, bir qərarda olan hərəkətin əmələ gətirdiyi vurğu; *3.* Bir-birinin ardınca gələn vəznli, müntəzəm, səlis və ahəngli vurğuların təklikdə hər birisi.

**ZƏRB MUSİQİ ALƏTLƏRİ** - səsləndirilməsi zərb vurmaq vasitəsi ilə əldə edilən musiqi alətləri: *dairə, dəf, qaval, nağara, təbil.*

**ZƏRBİ MUĞAM** - Azərb. şifahi ənənəli professional musiqisində vokal-instrumental janr. Zərbi muğamların yaranması, təşəkkülü və inkişafı xanəndə və sazəndə ansamblların ifaçılığı ilə sıx bağlı olmuşdur. Zərbi muğamlarda vokal improvizasiya müntəzəm təkrarlanan ritmik fiqurasiya fonunda ifa olunur; instrumental müşayiət melodiyanın quruluşunun əsasını təşkil edir və onun vəzn-ritm xüsusiyyətlərini müəyyənləşdirir (instrumental müşayiəti dəqiq və sabit ölçülü musiqidən, vokal isə ritmik cəhətdən sərbəst improvizasiya əsasında ifa olunan muğamdan ibarətdir.) Zərbi muğamların mətnində klassik şairlərin qəzəllərindən, həmçinin bayatı və qoşmalardan istifadə olunur. Azərb. muğam ifaçılığı təcrübəsində geniş yayılmış zərbi muğamlar: "Heyratı", "Mənsuriyyə", "Səmayi-Şəms", "Maani", "Ovşarı" ("Əfşarı"), "Arazbarı", "Heydəri", "Qarabağ şikəstəsi", "Kəsmə şikəstə", "Şirvan şikəstəsi" və s.

*"Heyratı-Kabili" zərbi muğamı qrammofon valının etiketi*




**ZƏRDÜŞT** ("Avesta"da - Zaratuştra; qədim yunan və latın müəlliflərində - Zoroastr) - ənənəyə görə, peyğəmbər, islahatçı, zərdüştiliyin banisi. Avestanın qədim hissələrində Zərdüşt real şəxsiyyət kimi çıxış edir. Alimlərin fikrincə, müəllifi Zərdüşt olan Qatalarda Zərdüşt ailəsi, dostları, düşmənləri, öz qayğıları olan və öz ideallarının təntənəsi uğrunda mübarizə aparan canlı insandır. İlk əvvəl insan və müəllim kimi çıxış edən Zərdüşt xeyli sonra Avestada müqəddəsləşdirilmiş, fövqəltəbii cəhətlərə malik möcüzə yaradan əsatiri və əfsanəvi qəhrəmana çevrilmişdir. Zərdüşt öz təlimində dünyanın inkişafı prosesində insana mühüm yer vermişdir. Onun dini sistemində Ahura Mazda ali allah elan edilir, dünya ədalətinin simvolu kimi çıxış edən oda sitayiş ritualda əsas rol oynayır. Zərdüştün ideyaları onun ardıcıllarına, qədim dövrün bir çox alimlərinə - Platona, Aristotelə və b. güclü təsir göstərmişdir. Zərdüştilik - Azərb., İran, Orta Asiya, Əfqanıstan və Ön Asiyanın bir sıra vilayətlərində yayılmış, qədim dövrün, erkən orta əsrlərin ən mühüm dinlərindən birinə çevrilmişdir; onun müqəddəs kitabı "Avesta" Midiya, sonralar isə fars kahinlərinin, maqların müqəddəs kitabı olmuşdur. Hazırda zərdüştilik İranda gəbrlər, Hindistanda parslar arasında qalmaqdadır. Zərdüştilik problemləri müasir dövrdə də alimləri maraqlandırmaqdadır.

**ZİL** - Azərb. musiqisində yuxarı registr.

**ZİL SƏS** - yuxarı səs, yüksək səs, nazik səs.

**ZİL ŞÖBƏ** - muğamın mayəsindən bir oktava yuxarıda qurulan şöbə; muğam dəstgahda inkişafın yüksək mərhələsində səslənən şöbələr; yüksək registrdə "Mayə" şöbəsinin variantlı şəkildə ifa olunmasına əsaslanır.

**ZİR** - *1.* Musiqi alətinə qoşulan simlərdən ən naziyi; *2.* Ud musiqi alətində dördüncü sim (2-ci oktavanın mi-bemolu).

**ZİR-QEYSƏRAN** - orta əsrlərdə muğam guşəsi.

**ZİRƏFKƏND** - *1.* Orta əsrlərdə Şərq xalqlarının klassik musiqisinin əsasını təşkil edən 12 muğamdan biri. *2.* Müasir dövrdə muğam şöbəsi. "Mahur" dəstgahında "Fili" ilə "Əbul" arasında yerləşən şöbə.

**ZİRKEŞ** - "Şur" dəstgahının əvvəlində ifa olunan kiçik bir guşə.

**ZİRVƏ** - *1.* İntervalın zirvəsi - intervalın yuxarıda yerləşən səsi. *2.* Melodiyanın zirvəsi - melodiyanın hərəkət xəttində ən yüksək səs.







*Ramiz Zöhrabov, musiqişünas*

**ZÖHRABOV Ramiz Fərzulla oğlu** (02.05.1939, Bakı) - musiqişünas, sənətşünaslıq doktoru (1995), professor (1992), əməkdar incəsənət xadimi (1990), xalq artisti (2008). ADK-nı musiqişünaslıq ixtisası üzrə bitirmişdir. BMA-da Azərb. xalq musiqisinin tarixi və nəzəriyyəsi kafedrasının müdiridir. 1990 ildən ABİ-nın İdarə Heyətinin katibidir. R.Zöhrabovun elmi yaradıcılığı olduqca genişdir. O, uzun illərdir ki, şifahi ənənəli Azərb. professional musiqisinin problemləri ilə məşğul olur. Muğamın tarixi və nəzəri problemlərinin tədqiqatçısı kimi tanınmışdır. Elmi, elmi-kütləvi, publisistik əsərlərin, o cümlədən 20-dən artıq kitab və dərsliklərin, 300-dən artıq elmi, elmi-publisistik məqalənin müəllifidir. Əsas əsərləri: "Azərbaycan təsnifləri" (Moskva, 1983; Təbriz, 1991); "Muğam" (Bakı, 1991); "Azərbaycan muğamının nəzəri problemləri" (Bakı, 1992); "Çahargah muğamının nəzəri əsasları" (Bakı, 2000), "Rast muğam dəstgahının nəzəri əsasları" (Bakı, 2002), "Zərbi muğamlar (musiqi-nəzəri tədqiqat)" (Bakı, 2004), "Azərbaycan rəngləri (janr, lad-məqam və melodik xüsusiyyətlərin tədqiqi)" (Bakı, 2006) və s. 1971 ildən televiziyada "Muğam haqqında söhbətlər", "Xalq musiqisi inciləri", "Musiqi kollektivlərimiz", "Xalq musiqisi xəzinəsindən", "Bəstəkarlarımızın portreti", "Poeziya və musiqi" kimi silsilə verilişlərin müəllifi və aparıcısıdır. "Muğam televiziya müsabiqələri"nin münsiflər heyətinin üzvü olmuşdur.

**ZURNA** (sur - böyük ziyafət, toy, düyün + nay) - Azərb. qədimdən geniş yayılmış nəfəslə çalınan musiqi aləti; əsasən qoz, yaxud ərik ağacından hazırlanır. Konusvari gövdəsinin ön tərəfində 7, arxa tərəfində bir dəlik var ki, bunlar lazımi vaxtda barmaqlarla örtülüb açılır. Əlavə olaraq, zurnanın ağız tərəfində köklənməsi üçün daha bir dəlik açılır. Zurnanın müştüyü iki nazik, yonulmuş qarğı parçasından düzəldilir. Diapazonu kiçik oktavanın si bemol səsindən üçüncü oktavanın do səsinə qədərdir; güclü və zil səsli alətdir. Qara zurna, cürə zurna, asəfi zurna, ərəbi zurna, əcəmi zurna, şəhabi zurna kimi bir çox müxtəlif növləri var. Azərb. 2 zurnaçı (usta və dəmkeş) və nağaraçıdan ibarət ansambl geniş yayılmışdır. XX əsrdə Ələfsər Şəkili muğamların zurnada məharətli ifaçısı kimi tanınmışdı.

**ZÜ TUTMAQ** - *bax: Dəmsaz.*

**ZÜXMƏT** (ərəb) - mizrab; təbil ağacı.

**ZÜLALOV Əbdülbaqi Kərbəlayi Əli oğlu** (təxəllüsü "Bülbülcan"; 1841, Şuşa - 1927, Bakı) - xanəndə. Azərb. xanəndəlik məktəbinin görkəmli nümayəndəsi. İlk musiqi təhsilini Şuşada Xarrat Qulunun məktəbində almış, Qarabağ, Gəncə, Şəki və s. yerlərdə xanəndəlik etmişdir. 1876-1920 illərdə Tiflisdə yaşamışdır; burada teatr tamaşaları fasilələrində və konsertlərdə, müxtəlif məclislərdə oxumuşdur. Ə.Zülalov geniş diapazonlu, məlahətli səsə, güclü zəngulələrə malik sənətkar idi. Onun yaradıcılığı Cabbar Qaryağdı oğlu, Ələsgər Abdullayev, Seyid Şuşinski və b. xanəndələrə təsir göstərmişdir. 1920 ildən Bakıya köçmüş, "Qısa müddətli Şərq musiqisi kursları"nda ("Şərq konservatoriyası"), 1923 ildən Azərb. Dövlət Türk Musiqi Məktəbində muğamatdan dərs demişdir.

**ZÜMZÜMƏ** - bəyənilmiş havanı yavaş səslə oxumaq. Çox vaxt musiqinin melodiyasını mənimsəmək prosesində istifadə olunan üsullardan biri. ■

*Zurna. Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin eksponatı*



# BİBLİOQRAFİYA


1. Abasova E. Kurban Primov. Moskva, 1963.
2. Abasova E. Səid Rüstəmov. Bakı, 1973.
3. Abasova E. Uzeir Qadjibekov. Baku, 1974.
4. Abasova E. Tarist Baxram Mansurov. Moskva, 1977.
5. Abasova E., Kasimov K. Oçerki muzıkalnoqo iskusstva sovetskoqo Azerbaydjana. Baku, 1970.
6. Abdullayeva S. Azərbaycan xalq çalğı alətləri. Bakı, 2002.
7. Abdullayeva S. Azərbaycan folklorunda çalğı alətləri. Bakı, 2007.
8. Abdullayeva Z. Ecazkar sənətkar. Bakı, 2007.
9. Abdullazadə G. Qədim və orta əsrlərin musiqi mədəniyyəti: tarixi-fəlsəfi təhlil. Bakı, 1996.
10. Abdullazade Q. Filosofskaya suşnost muqama. Baku, 1983.
11. Abduraxman Djami. Traktat o muzıke. (perevod s persidskoqo A.Boldıreva. Redaksiya i kommentarii V.M.Belyayeva). Taşkent, 1960.
12. Aqayeva S. Əbdulkadir Maraqi. Baku, 1983.
13. Aqayeva X. Uzeir Qadjibekov. Baku, 1955.
14. Anar. Mudrost kovra. Baku, 1988.
15. Antiçnaya muzıkalnaya estetika. Moskva, 1961.
16. Asafyev B. Muzıkalnaya forma kak prosses. Moskva, 1971.
17. Asafyev B. O narodnoy muzıke. Moskva, 1987.
18. Azerbaydjanskaya Qosudarstvennaya Konservatoriya imeni Uzeira Qadjibekova. Bakı, 1974.
19. Azərbaycan xalq musiqisi. Oçerklər. (müəlliflər: İsazadə Ə., Eldarova Ə., İsmayılzadə R., Məmmədov N., Zöhrabov R., Hüseynli B.). Bakı, 1981.
20. Azərbaycan xalçası. 2 cilddə. Bakı, 2007.
21. Azərbaycan milli ensiklopediyası. Azərbaycan. (Redaksiya heyətinin sədri İ.Əliyev). Bakı, 2007.
22. Azərbaycan sovet ensiklopediyası. 10 cilddə (baş redaktor C Quliyev). Bakı, 1976-1987.
23. Babayev E. Ritmika Azerbaydjanskoqo destqyaxa. Baku, 1990.
24. Babayev E. Azərbaycan muğam dəstgahlarının ritmintonasiya problemləri. Bakı, 1996.
25. Babayev E. Ənənəvi musiqimiz. Müşahidələr və mülahizələr. Bakı, 2000.
26. Baqirova S. Azerbaydjanskiy muqam. Statyu, issledovaniya, dokladı. I tom. Baku, 2007.
27. Bağırova S. Azərbaycan muğamı. Məqalələr, məruzələr, tədqiqatlar. II cild. Bakı, 2007.
28. Belyayev V. Muzıkalnaya kultura Azerbaydjana. / Oçerki po istorii muzıki narodov SSSR. Vıpusk 2. Moskva, 1963.
29. Belyayev V. O muzıkalnom folklore i drevney pismennosti. Moskva, 1971.
30. Bertels E. Velikiy azerbaydjanskiy poet Nizami. Epoxa, jizn, tvorçestvo. Baku, 1940.
31. Bertels E. Sufizm i sufiyskaya literatura. Moskva, 1965.
32. Bertels E. İzbrannıye trudı. İstoriya, literatura i kultura İrana. Moskva, 2006.
33. Bədəlbəyli Ə. Qurban Primov. Bakı, 1955.
34. Bədəlbəyli Ə. İzahlı-monoqrafik musiqi lüğəti. Bakı, 1969.
35. Bülbül. Seçilmiş məqalə və məruzələri. AEA-nın nəşri, Bakı, 1968.
36. Cəfərov C. Həqiqət Rzayeva. Bakı,1957.
37. Çaytanya Deva B. İndiyskaya muzıka. Moskva, 1980.
38. Dadaşzade K. Znakovaya sistema dastana. Baku, 2004.
39. Daukeyeva S. Filosofiya muzıki Abu Nasra Muxammada Al-Farabi. Almatı, 2002.
40. Dilbazi M. Bakının musiqi həyatı (XIX əsrin ikinci yarısı – XX əsrin əvvəlləri). Bakı, 2007.
41. Doljanskiy A. Kratkiy muzıkalnıy slovar. Leninqrad, 1964.
42. During Jean. La musique traditionelle de l'Azerbayjan et la science des mugams. Baden-Baden, 1988.
43. Efendiyeva İ.Vasif Adıqezalov. Baku, 1999.
44. Eldarova Ə. Azərbaycan aşıq sənəti. Bakı, 1996.
45. Əbdülqasımov V. Azərbaycan tarı. Bakı, 1989.
46. Əbdülqasımov V. Ansambl və orkestrlərdə tarın yeri. Bakı, 1991.
47. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı, 1978.
48. Əhmədov T. XX əsr Azərbaycan yazıçıları. Ensiklopedik məlumat kitabı. Bakı, 2004.
49. Əfəndiyev T. Azərbaycan mədəniyyəti və incəsənəti. Bakı, 2002.
50. Əmirov F. Musiqi düşüncələri. Bakı, 1971.
51. Əliverdibəyov A. Rəsmli musiqi tarixi. (Transliterasiyası, tədqiqi və lüğətin tərtibçisi A.Xəlilova). Bakı, 2001.
52. Əliyeva F. Musiqi tariximizin səhifələri. Bakı, 2003.
53. Əliyeva F. XX əsr Azərbaycan musiqisi: Taix və Zamanla üz-üzə. Bakı, 2007.
54. Əlizadə F. Qara Qarayev. Bakı, 1997.
55. Farxadova S. Muqa – monodiya kak tip mışleniya. Baku, 2001.
56. Fətullah Şirvani. Musiqi məcəlləsi. (Ərəb dilindən tərcümə edən: Ə.Əmirəhmədov, ixtisas redaktoru, ön söz və şərhlərin müəllifi Z.Səfərova). Bakı, 2006.

57. Hacıbəyov Ü. Əsərləri. Dörd cilddə. AEA-nın nəşri. I cild – Bakı, 1964; II cild - Bakı, 1965; III cild – Bakı, 1968; IV cild – Bakı, 1968.
58. Hacıbəyov Ü. Azərbaycan xalq musiqisinin əsasları. Bakı, 1945. Dördüncü nəşri: Bakı, 1985.
59. Hacıbəyli Ü. Azərbaycan türklərinin musiqisi haqqında. (Təqdim edəni, ön söz və lüğətin müəllifi F.Əliyeva). Bakı, 2005.
60. Heydər Əliyev mədəni irsimizin keşiyində. Bakı, 2001.
61. Həsənova C. Azərbaycan bəstəkarlarının əsərlərində milli ladların təzahürü. Bakı, 2004.
62. Hüseynov R. Min ikinci gecə. Bakı, 1988.

63. XX əsr Azərbaycan musiqisi. Məqalələr toplusu. Bakı, 1994.
64. XX əsr Azərbaycan musiqi mədəniyyəti tarixinin qaynaqları. 3 cilddə (Toplayanı və tərtib edəni, giriş məqaləsinin, qeydlərin, lüğət və adlar göstəricisinin müəllifi F.Əliyeva). I kitab (1901-1911). Bakı, 2005; II kitab (1911-1917). Bakı, 2005; III kitab (1918-1920). Bakı, 2006.

65. İmrani R. Azərbaycan muğam janrının yaranması və inkişaf tarixi. Bakı, 1994.
66. İmrani R. Muğam tarixi. Bakı, 1999.
67. İskusstvo Azerbaydjana. Sbornik statey. Bakı, 1949.
68. İskusstvo Azerbaydjanskoqo naroda. M.-L., 1938.
69. İslam. Entsiklopediçeskiy slovar. Moskva, 1991.
70. İsmayılov M.S. Azərbaycan xalq musiqisinin janrları. Bakı, 1984.
71. İsmayılov M.S. Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi metodik oçerklər. Bakı, 1991.
72. İsmaylova Q. Muslim Maqomayev. Baku, 1975.
73. İsmayılzadə R. Azərbaycan musiqi rəngləri. Bakı, 1985.
74. İsmayılzadə R. Nizaminin musiqi dünyası. Gəncə, 2004.
75. İstoriya Azerbaydjanskoy muzıki. (avtorı E.Abasova, S.Kasimova i dr.). Bakı, 1992.
76. İz sokrovişnitsı rukopisey Azerbaydjana. Bakı, 1983.

77. Kadımova J. Voprosı muzıkalnoqo vospitaniya v tvorçeskom nasledii azerbaydjanskix prosvetiteley kontsa XIX – naçala XX vekov. Baku, 1995.
78. Kadjar Ç. Staraya Şuşa. Bakı, 2007.
79. Kasimova S. İz istorii azerbaydjanskoy operı i baleta (1908-1988). Bakı, 2006.
80. Kazımov N. Ümumtəhsil məktəblərində muğamların tədrisi məsələləri. Bakı, 2000.
81. Kazımov N. Səid Rüstəmov. Bakı, 2007.
82. Kazımov N. Musiqi Kolleci - 110. Bakı, 2008.
83. Kazımova L. Qazeli Fizuli v azerbaydjanskoy muzıke. Baku, 1997.
84. Kərimov K. Azərbaycan xalq çalğı alətləri orkestri. Bakı, 1959.
85. Kərimov M. Azərbaycan musiqi alətləri. Bakı, 2003.
86. Konrat İ. Zapad i Vostok. Statyi. Moskva, 1972.
87. Krımskiy A. Nizami i yeqo sovremenniki. Bakı, 1981.

88. Qadjibekov U. O muzıkalnom iskusstve Azerbaydjana. Baku, 1966.
89. Qasımlı M. Aşıq sənəti (Qaynaqları, tarixi yaranışı və mühitləri). Bakı, 1996.





90. Qryunberq P. İstoriya naçala qramzapisi v Rossii. Moskva, 2002.
91. Qruber R. İstoriya muzıkalnoy kulturı s drevneyşix vremen do kontsa XVI v., t. I. M.-L. 1941.
92. Quliyev O. Azərbaycan xalq çalğı alətləri orkestri. Bakı, 1980.
93. Quliyev T. Əruz və qafiyəşünaslıq tarixi. Bakı, 1998.

94. Literaturnıy entsiklopediçeskiy slovar. Moskva, 1987.

95. Maestro Bülbül. Dokladnıye. Vıstupleniya. Pisma (1931-1961q.q.). Baku, 2007.
96. Makomı, muqamı i sovremennoye kompozitorskoye tvorçestvo. Taşkent, 1978.
97. Maxmudova Q. Qenezis i evolyusiya ostonatnosti v azerbaydjanskoy muzıke. Baku, 2006.
98. Maxmudova Ş. Tematizm azerbaydjanskoqo muqama. Bakı, 1997.
99. Mamedov T. Traditsionnıye napevı azerbaydjanskix aşıqov. Baku, 1988.
100. Mamedova R. Problemı funktsionalnosti v azerbaydjanskom muqame. Baku, 1989.
101. Mamedova R. Muzıkalno-esteticeskiye osobennosti azerbaydjanskix muqamov. Baku, 1987.
102. Mamedova R. İz istorii azerbaydjanskoqo muzıkalnoqo teatra. Baku, 238.
103. Mansurov B. Xatirələr. (Tərtibçilər: M.Mansurova, E.Mansurov). Bakı, 2003.
104. Mansurov E. Muğam düşüncələrim. Bakı, 1985.
105. Mansurov E. Mansurovı. İstoriya roda. Baku, 2006.
106. Mədəniyyətimizin və mədəni incilərimizin hamisi. Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın mədəniyyət sahəsində fəaliyyəti. Dövri mətbuat materialları əsasında tərtib edilmişdir (1995-2007). Bakı, 2007.
107. Məmmədov T. Azərbaycan xalq – professional musiqisi: aşıq sənəti. Bakı, 2002.
108. Məmmədov V. Muğam, söz, ifaçı. Bakı, 1981.
109. Məmmədov V. Havalansın Xanın səsi. Bakı, 1971.
110. Məmmədova R. Muğam – sonata qovşağı. Bakı, 1989.
111. Məmmədova R. Azərbaycan muğamı. Bakı, 2002.
112. Mir Möhsün Nəvvab. Avropa ibtidai musiqi savadı dərsliyi (farscadan tərcümə, ön sözün və şərhlərin müəllifi G.Şamilli). Bakı, 1995.
113. Mirzə bəy. Musiqi risaləsi (farscadan tərcümə, ön sözün və şərhlərin müəllifi G.Şamilli). Bakı, 1995.
114. Mirzəyev Z. Azərbaycan qarmonu. Bakı, 2005.
115. Musayev R. Qarabağ xanəndəlik sənəti. Bakı, 2003.
116. Muzıka narodov Azii i Afriki. Vıpusk 5. Moskva, 1987.
117. Muzıkalnaya entsiklopediya. 6 t. (Qlav.red. Y.Keldış). Moskva, 1973 – 1982.
118. Muzıkalnıy entsiklopediçeskiy slovar. Moskva, 1990.
119. Muzıkalnaya estetika stran vostoka. Moskva, 1967.

120. Nəcəfzadə A. Azərbaycan çalğı alətlərinin izahlı lüğəti. Bakı, 2004.
121. Naroditskaya İ. Song from the Land of Fire. Continuity and Change in Azerbaijan Mugham. New York & London, 2003.
122. Nizomov A. Sufizm v kontekste muzıkalnoy kulturı narodov Tsentralnoy Azii. Duşanbe, 2000.

123. Oçerki istorii arabskoy kulturı V-XV vv. Moskva, 1982.
124. Üzeyir Hacıbəyov ensiklopediyası. (red. N.İbrahimov). Bakı, 2007.
125. Professionalnaya muzıka ustnoy traditsii narodov Blijneqo i Sredneqo Vostoka i sovremennost. Sbornik materialov Mejdunarodnoqo muzıkovedçeskoqo simpoziuma (Samarkand, 1978). Taşkent, 1981.
126. Paşayev M.C. Ədəbiyyatşünaslığın əsasları. Bakı, 1988.
127. Paşayev M.C., Hüseynov F. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə. Bakı, 1957.
128. Paşayeva Y. Əfrasiyab Bədəlbəyli və Azərbaycan xalq musiqisi. Bakı, 2002.
129. Reysner M. Persidskaya liroepiçeskaya poeziya X – naçala XIII veka. Moskva, 2006.
130. Rəhmanlı Ə. Qarmon ifaçılığı sənəti və onun Azərbaycanda tədrisi. Bakı, 2008.
131. Rəhmətov Ə. Əhməd Bakıxanov. Bakı, 1977.
132. Russkiye pisateli ob Azerbaydjane. Bakı, 1949.
133. Rüstəmov S.Tar məktəbi. Bakı, 1935; təkrar nəşrlər – 1974, 1994.
134. Sadokov R. Muzıkalnaya kultura drevneqo Xorezma. Moskva, 1970.
135. Sarabskiy A. Stanovleniye i razvitiye azerbaydjanskoqo muzıkalnoqo teatra. Baku, 1968.
136. Seyidova S. Qədim Azərbaycan mərasim musiqisi. Bakı, 1994.
137. Semyonov A. Sredneaziatskiy traktat po muzıke Darvişa Ali (XVII vek). Taşkent, 1946.
138. Səfərova Z. Üzeyir Hacıbəyovun elmi irsində nəzəri problemlər. Bakı, 1985.
139. Səfərova Z. Səfiəddin Urməvi. Bakı, 1995.
140. Səfərova Z. Əbdülqadir Marağai. Bakı, 1997.
141. Səfərova Z. Qədim Azərbaycan musiqi terminləri lüğəti. Bakı, 1997.
142. Səfərova Z. Azərbaycanın musiqi elmi (XIII–XX əsrlər). Bakı, 1998.
143. Səfiyəddin Urməvi. Kitabül-ədvar. (Ərəb dilindən tərcümə edən: M.Paşayev, ixtisas redaktoru, ön söz və şərhlərin müəllifi Z.Səfərova). Bakı, 2006.
144. Səfiyəddin Urməvi. Kompozisiya nisbətləri və ritm haqqında Şərəfiyyə risaləsi. (Ərəb dilindən tərcümə edən: M.Əzizov, ixtisas redaktoru, ön söz və şərhlərin müəllifi Z.Səfərova). Bakı, 2006.
145. Sovetskiy entsiklopediçeskiy slovar. Moskva, 1984.
146. Sufizm v kontekste musulmanskoy kulturı. Moskva, 1989.
147. Şuşinski F. Azərbaycan xalq musiqiçiləri. Bakı, 1985.
148. Şuşinski F. Cabbar Qaryağdı oğlu. Bakı, 1964.
149. Şuşinski F. Sadıqcan. Bakı, 2007.
150. Taqizade A. Niyazi. Bakı, 2002.
151. Traditsii muzıkalnıx kultur narodov Blijneqo i Sredneqo Vostoka i sovremennost. Sbornik materialov Vtoroqo Mejdunarodnoqo simpoziuma (Samarkand, 1978). Moskva, 1987.
152. Təhmirazqızı S. Sənətin Əliövsət zirvəsi. Bakı, 2007.
153. Tərbiyət M. Danişməndani-Azərbaycan. Görkəmli elm və sənət adamları. Bakı, 1987.





154. Vinoqradov V. Uzeir Qadjibekov i azerbaydjanskaya muzıka. Moskva, 1938.
155. Vinoqradov V. Muzıka Sovetskoqo Vostoka (ot unisona k polifonii). Moskva, 1968.
156. Vinoqradov V. Mir muzıki Fikreta. Moskva, 1983.
157. Vinoqradov V. Klassiçeskiye traditsii iranskoy muzıki. Moskva, 1982.
158. Yanoş Şipoş. Azərbaycan el havaları musiqinin ilkin qaynaqlarında. Bakı, 2005.
159. Yekta bey Rauf.Türk musiqisi. İstanbul, 1986.
160. Zoxrabov R.Azerbaydjanskiye tesnifı. Moskva, 1983.
161. Zoxrabov R. Teoretiçeskiye problemı azerbaydjanskoqo muqama. Bakı, 1992.
162. Zöhrabov R. Muğam. Bakı, 1991.
163. Zöhrabov R. "Çahargah" muğamının nəzəri əsasları. Bakı, 2000.
164. Zöhrabov R. "Rast" muğam dəstgahının nəzəri əsasları. Bakı, 2002.
165. Zöhrabov R. Azərbaycan modal musiqisi. Tehran, 1999.
166. Zöhrabov R. Bəstəkarlarımızın portreti. Bakı, 1997.
167. Zöhrabov R. Şifahi ənənəli Azərbaycan professional musiqisi. Bakı, 1996
168. Zöhrabov R. Bəstəkarlarımız haqqında söz. Bakı, 1996.
169. Zöhrabov R. Zərbi-muğamlar (musiqi-nəzəri tədqiqat). Bakı, 2004.
170. Zöhrabov R. Azərbaycan rəngləri (janr, lad-məqam və melodik xüsusiyyətlərin tədqiqi). Bakı, 2006.



*Ənənəvi sazəndələr dəstəsi*

# NOTOQRAFİYA

1. Azərbaycan türk el nəğmələri. Not yazısı Ü.Hacıbəyov və M.Maqomayevindir. Bakı, 1927. Təkrar nəşri – Bakı, 1985.
2. 50 Azərbaycan xalq mahnısı. Cabbar Qaryağdıoğlunun ifasından. Not yazısı S.Rüstəmovundur. Bakı, 1938.
3. Azərbaycan xalq mahnıları. Not yazısı S.Rüstəmovun, F.Əmirovun, T.Quliyevindir. Redaktor Bülbül Məmmədov. 2 cilddə. I cild – Bakı, 1954; II cild – Bakı, 1956. Təkrar nəşri: I cild – 1980, II cild - 1981.
4. Azərbaycan xalq mahnıları. Not yazısı S.Rüstəmovundur. Bakı, 1967.
5. Azerbaydjanskie liriçeskiye narodnıye pesni. Sostavitel D.Mamedbekov. Bakı, 1965.
6. Azərbaycan xalq mahnıları. 2 cilddə. Tərtib edəni S.Kərimi. Bakı, 2006.
7. Azərbaycan rəqs havaları. Not yazısı S.Rüstəmovundur. Bakı, 1937.
8. Azərbaycan xalq rəqsləri. Not yazısı T.Quliyev, Z.Bağırov, M.İsmayılov. Bakı, 1951.
9. Azərbaycan aşıq havaları. Not yazısı S.Rüstəmovundur. 4 dəftərdən ibarət. Bakı, 1938.
10. Azərbaycan diringi və rəngləri. Not yazısı E.Mansurov, A.Kərimovundur. Bakı, 1986.
11. Azərbaycan dəraməd və rəngləri. Not yazısı E.Mansurovundur. Bakı, 1984.
12. Azərbaycan qədim el havaları. Not yazısı E.Mansurovundur. Bakı, 1990.
13. Azərbaycan xalq rəqsləri. Not yazısı R.Bəhmənlinindir. Bakı, 2002.
14. Azərbaycan xalq musiqisinin antologiyası. 10 cilddə:
    - I cild. Azərbaycan xalq mahnıları. Bakı, 2003;
    - II cild. Azərbaycan xalq rəqsləri. Bakı, 2003;
    - III cild. Azərbaycan muğamları və rəngləri. Bakı, 2004.
    - IV cild. Azərbaycan muğamları və rəngləri. Bakı, 2005.
    - V cild. Azərbaycan muğamları və zərbi muğamları. Bakı, 2005
    - VI cild. Azərbaycan təsnifləri, dəraməd, diringi və rəngləri, qədim el havaları, muğamlar və zərbi muğamlar. Bakı, 2006.
    - VII cild. Azərbaycan aşıq musiqisi. Bakı, 2007.
15. Bakıxanov Ə. Azərbaycan xalq rəngləri. Bakı, 1964.
16. Bakıxanov Ə. Azərbaycan ritmik muğamları. Bakı, 1968.
17. Bakıxanov Ə. Muğam, mahnı, rəng. Bakı, 1975.
18. Bağırov Z. "Dügah"muğamı. Bakı, 1936.
19. Dəmirov T. Rənglər və rəqslər. Bakı, 1961.
20. Əsədullayev A. "Bayatı-Şiraz" və "Hümayun". Bakı, 2003.
21. Əsədullayev A. "Rast", "Çahargah". Bakı, 2005.
22. Əsədullayev A. "Şur", "Segah-Zabul", "Şüştər". Bakı, 2006.
23. Hüseynli B. Azərbaycan xalq rəqs melodiyaları. I dəftər. Yallı. Bakı, 1965.
24. Hüseynli B. Azərbaycan xalq rəqs melodiyaları. II dəftər. Halay. Bakı, 1966.
25. İsazadə Ə. və Məmmədov N. Azərbaycan xalq mahnıları və oyun havaları. Bakı, 1975.
26. İsazadə Ə. və Məmmədov N. Azərbaycan xalq mahnıları və oyun havaları. Bakı, 1984.
27. Quliyev T. "Rast" muğamı. Bakı, 1936.
28. Quliyev T. "Segah" muğamı. Bakı, 1936.
29. Maqomayev M. "Rast" muğamı. Əlyazma. 1928. AMEA-nın Əlyazmalar İnstitutu. M.Maqomayevin şəxsi arxivi.
30. Məmmədov N. Azərbaycan muğamları "Çahargah" və "Hümayun". Bakı, 1962.
31. Məmmədov N. Azərbaycan muğamları "Bayatı-Şiraz" və "Şur". Moskva, 1962.
32. Məmmədov N. Azərbaycan muğamları "Rast" və "Şahnaz". Bakı, 1963.
33. Məmmədov N. Azərbaycan muğamları "Rahab" və "Segah-Zabul". Bakı, 1965.
34. Məmmədov N. Azərbaycan muğamı "Çahargah". Moskva, 1970.
35. Məmmədov N. Azərbaycan muğam dəstgahı "Rast". Moskva, 1978.
36. Rüstəmov S. Azərbaycan xalq rəngləri. 2 cilddə. I cild – Bakı, 1954; II cild – Bakı, 1956.

# MuğaM ensiklopediyası



Redaksiya heyətinin sədri,
baş redaktor
*Mehriban xanım Əliyeva*

Redaksiya heyəti:

Arif Babayev
Fərhad Bədəlbəyli
Tofiq Bakıxanov
Firəngiz Əlizadə
Habil Əliyev
Siyavuş Kərimi
Arif Məlikov
Tariyel Məmmədov - məsul redaktor
Vasim Məmmədəliyev
Zemfira Səfərova
Ramiz Zöhrabov

HEYDƏR ƏLİYEV FONDU

"Musiqi dünyası"® e-mail: info@musigi-dunya.az
TUTU Design ® e-mail: main@tutubooks.az